Türk ellərindən-1

ƏLİ ŞAMİL

ÖZBƏKİSTAN:

yol qeydləri, məqalələr

Bakı – 2026

Elmi redaktor: **Bədirxan ƏHMƏDLİ**
filologiya elmlər doktoru,
professor

Qumru ŞƏHRİYAR
filologiya üzrə fəlsəfə doktoru,
dossent

Məsləhətçilər: **Tahir KAHHAR**
filologiya üzrə fəlsəfə doktoru,
professor

Qulu KƏNGƏRLİ

Əli Şamil. Özbəkistan: yol qeydləri, məqalələr, Bakı: "İmza" nəşrlər evi, 2026, 544 s.

Kitaba müəllifin Özbəkistanda keçirilən simpoziumlara gedərkən rastlaşdığı insanlar haqqında düşüncələri, tanıdığı Özbək şair və alimləri haqqında söhbətləri, eləcə də 20-ci yüzildə təqib və təzyiqlərlə üzləşmiş aydınlar haqqında məqalələri daxil edilmişdir. Sovet rejiminin daimi təzyiqi və nəzarəti altında olmuş, 2 illik fasilə ilə 14 il Azərbaycanda yaşamış, "Divanü lüğat-it-Türk"ü ilk dəfə dilimizə çevirmiş Xalid Səid Xocayevin ömür yoluna və yaradıcılığına daha çox yer verilmişdir.

İSBN 978-9952-37-646-3

© Əli Şamil, 2026

İÇİNDƏKİLƏR

Özbəkistan haqqında kitaba ön söz 8
"Koroğlu" dastanı mövzusunda
simpozium istəyim 14
Daşoğuzda Koroğlu konfransı 14
Özbəkistana yolçuluq planım 18
Azərbaycanın Türküstanda mədəniyyət elçisi 22
Til Ədəbiyyat İnstitutunda 26
Şərqşünaslıq İnstitutunda 32
Köhnə tanışla ilk görüş 35
Ğulam Kariminin evində 40
Koşkurqan qışlağına doğru 44
Xalid Səid Xocayevin kəndində 47
Xalid Səid Xocayevin ata ocağında 50
Repressiya qurbanı Elbəyin qışlağına doğru 55
Ürgəncdə "toxum" yeyib "dəmlən"dim 58
Xivədə Nəsiminin "cəlladı" ilə görüş 61
"Koruntayaq" – qarın-ayaq, bizim baş-ayaq dediyimiz xörəyin oxşarıdır 64
Köhnə və Yeni Ürgənc haqqında Jumaboayın
söhbəti 65
Xarəzm dastanları mövzusunda Saparbayla
söhbəti 71
Çəmənzəminlinin işlədiyi universiteti görmək
həvəsim 73

Hoteldə qala bilmədim 77
Rektorla açıq söhbət 79
Qarpızın pulunu çora verdim 83
Sərhəd keçid məntəqəsində qalmaqal 86
Bizi arağa qonaq edən kənd imamı 88
Aşqabaddan gələnlərin qarşılanması 90
Plenar iclas 95
Bölmə iclasları 97
Təhlükəsizliyimizə cavabdehlər, yoxsa bizi güdənlər 100
Köhnə Ürgəncə gedə bilmədik 102
Hakimin Elçibəyin adını çəkməsinə heyrətləndim 104
Bu dəfə də Özbəkistan sərhəddində 110
Daşkənd bazarında qurud 117
Tapçanda çay içə-içə şairlərlə söhbət 119
Daşkənddə Qarabağ komitəsi 123
Jurnalist-tərcüməçi Rüstəm Jabbarovla görüş 131
Özbəklərin toy plovu 134
Daşkənddəki qohumum 136
“Jahon adabiyoti” jurnalında 139
“Düşmən”lərinə heykəl qoyan özbəklər 142
Milli lider, mətin siyasətçi həbsxanada yetişir 144
Gömrük işçiləri ilə mübahisə 149

Boluda Koroğlu simpoziumunda 155
Qədim mədəniyyət beşiyi Termezin bu günü 160
Termez deyiləndə yadıma düşənlər 163
Termezin məşhur alimləri 168
Əbu İsa Məhəmməd Tirmizi 168
Hakem ət-Tirmizi 170
Seyyid Burhanəddin 174
Termezdə baxşı-aşıq sənəti festivalı 176
Surxandərya vilayəti 178
Dostlarla görüş 180
Simpoziumun gedişi 184
Fayaz təpə Budda məbədi 189
Taşkul Cumayev: Siz bizim qardaşımızsınız 190
Metin Ekiçi "Kitabi-Dədə Qorqud" dastanının yeni boyu haqqında 191
Hakem ət-Tirmizi parkının tikanlı məftilləri 194
Todur Zanetlə birlikdə səfər 195
Yaltaqlığı qanunla da aradan qaldırmaq olmur ... 200
Qırx qız qalası 205
Narbənd ağacı yalnız Naxçıvandamı bitir? 207
Konsertdə Azərbaycan bayrağı 210
Bələdçimiz Cəlal Rəhimov 217
Əkbər Qoşalının dostları 218

Azərbaycandan gedən kollektivin ikinci yeri tutması bizi sevindirdi 221

Elmi Məqalələr

Xalid Səid Xocayev 225
Türk halklarının istiklal savaşçısı Halid Seid'in iki yönü 228
Xoca Əhməd Yasəvinin öyrənilməsi və təbliğinin qadağan olunmasının səbələri 281
Azerbaycandan ve Özbekistandan derlenmiş Koroğlu destanlarının ortak noktaları 321
Azərbaycan və Türküstan Türklərinin yaşadıqları sorunlar 341

Publisistik yazılar

Körpü 357
Azərbaycan sevgisiylə yaşamış özbək folklorşünası, ədəbiyyatçısı Jumaboay Yusupov 365
Xəlil Rzanı özünə ustad sayan, özbək şairi və araşdırıcısı Tahir Kahhar 376
Türk Dünyasının Məşhurları 414
Abdulla Avlani 418
Abdulla Qədiri 424
Abdulhomid Çolpan 432

Abdulla Rahımbayev 438
Abdurauf Fitrət 445
Babur şah 452
Elbək Yunusov 460
Əlişir Nəvai 468
Hamza Hakimzada Niyazi 474
Qulam Zafari 481
Mahmud xacə Behbudi 488
Maqsud Şeyxzadə 493
Münəvvərqari Qarı 499
Osman Xoca 510
Seyid Rza Əlizadə 517
Tavallo 524
Uluq bəy 532
Yusif Qarabağı 538

ÖZBƏKİSTAN HAQQINDA
KİTABA ÖN SÖZ

Məhəmməd Əleyhssəlamın uşaqları kiçik yaşlarında dünyasını dəyişdiyindən yalnız qızı Fatimadan doğulan Həsən və Hüseyinlə soyu davam etmişdir. Peyğəmbərimiz qızı Fatimanı əmisi oğlu, islamı ikl qəbul edənlərdən olan Əli Əbu Talib oğlu ilə evləndirmişdir. Bu evlilikdən doğulan Həsənin soyundan gələnlərə şərif, Hüseyinin soyundan gələnlər isə seyyid sayılmışlar. İmam Əlinin cariyələrdən də övladları olmuşdur. Onlar isə xaccə (Türküstanda onlar xoca adlandırılmışlar. Müəllim, ustad anlamından olan xoca sözü ilə xaccə sözü çox vaxt qarışdırılır.)

Göyçə mahalı (indiki Ermənistan Respublikasının bir bölgəsi) dəniz səviyyəsindən 1900 metirdən yüksəklikdə yerləşir. İlin 5-6 ayı torpaq qar altında qalır, çaylar buz bağlayır. Mənim doğulduğum, uşaqlıq və yeniyetməliyimi keçirdiyim İnəkdağ kəndi isə bölgənin ən yüksəklikdə yerləşən kəndlərindən biridir. Kəndin yaxınlığında meşə olmadığından, qaz kəməri çəkilmədiyindən adamlar evlərini qızdırmaqda çətinliklərlə üzləşirdilər. Yanaqca kimi heyvanların peyinindən istifadə edirdilər. Sovet hökümət hər ailənin bir inək, on qoyun saxlamasına icazə verirdi. Onların peyini bir ailənin yaşadığı evi qızdırmağa, təndir qalayıb çörək bişirməyə çatmırdı.

Elərdəki sobalar səhər ailə yuxudan duranda təxminən 3-40 dəqiqə, axşam ailə bir yerə toplaşıb çörək yeyəndə də təxminə bir saata yaxın qızdırılırdı. Gecə uzun olduğundan sonra ailə üzvləri yeməkdən sonra yatmaq istəmirdilər. Ev isə getdikcə soyuyurdu. Buna görə də qonum-qonşu bir evə yığılır, oranı qızdırıdr, gecə yarısınadək söhbət edirdilər. Adətən qış gecələrində yaşlılar, kənddən çıxıb uzaq səfərlərə gedənlər söhbət edər, hərdən aşıq, nağıldanışan da çağırardılar.

Dastan və nağılları çox dinlədiklərindən yaddaşı iti olanlar, istər yaşlı olsun istər cavan, istər kişi olsun istər qadın nağılların, dastanların çoxunu bilirdilər. Aşıqlar olmayanda sadə adamlar da sazsız, musiqisiz dastanları, nağılları həvəslə danışırdılar. Mənim ilk müəllimim dastan və nağıl danışanlar olmuşdur deməyə haqqım çatır. Çünki, hələ məktəbə getməmişdən dastan və nağıl söyləyənlərdən Ərzurum, İsvahan, Şam, Hələb, Təbriz, Ərdəbil, Tiflis, Səmərqənd, Buxara, Mərv, Xorasan və b. şəhərlərin adını eşitmişdim, Aşqabad zəlzələ mərkəzi (Aşqabat batan kimi batdı, deyimini çox işlədirdilər), Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Sibir sürgün yeri kimi, Hələb Aşıq Qəribin qırx günlük yolu bir göz qırpımında Tiflisə gəldiyi yer, Ərzurum Kərəmin qışda borana düşüb qar altından qaldığı, yazda qar əriyəndə durub Əslisinin axtarmağa getdiyi yer kimi yaddaşıma hopmuşdu.

Qış gecələrində tapmaca söyləmək, onun cavabını tapmaq da çox əyləncəli idi. Tapmaca deyən cavabını verə bilməyəndən "bir kənd istəyirdi". Qarşı tərəf qonşuluqdakı kəndin adını deyirdi. İkinci tapmacanın cavabını bilməyən də bir kənd adı çəkməliydi. Amma bir dəfə adı çəkilən kəndi ikinci dəfə "vermək olmazdı". Buna görə də yeni bir kənd adı deyilməliydi. Beləcə, tapmacada uduzan tərəf onlarla kəndin adını bilməli olurdu. Dinləyənlər də şahidlik etdiklərindən, bir kənd adının ikinci dəfə söylənməsinə əngəl olanlar da kəndlər haqqında bilgi alırdılar. Nəticədə nəinki Göyçə mahalının, ətrafdakı Gəncəbasarın, Kəlbəcərin, Gədəbəyin, Dərələyəzin, Naxçıvanın, Şərurun və b. bölgələrin də kəndlərini adını öyrənmiş olurduq.

Dastanlarımızdakı gəraylı, qoşma, təcnis, cılğalı təcnis, bayatı, müxəmməs-gözəlləmə, bağlama, usdadnamə və b. janırlardakı şeirlərimizi yaddaşlarına hopduranlar özləri bilmədən bir ədəbiyyatşünaslıq dərsi alırdılar. Vücudnamədən sanki tibbi bilikləri öyrənirdilər. Orada astrologiya da vardı, astronomiya da, tarix də vardı ədəbiyyat da. Bir sözlə, humanitar və təbiət elmələri haqqında hamının başa düşəcəyi şəkildə, sadə dildə dinləyicilərə çatdırılırdı.

Məktəbdə oxuduğumuz illərdə soyuq qış günlərində çöl-bayır qar-şaxda olduğundan dərslərarası fasilələrdə çöldə oynaya bilmirdik. Divardan asılmış xəritənin qarşısında bir-birimizə hansı şəhərin harada

yerləşdiyi haqqında suallar verirdik. Bu oyun, əslində, coğrafi biliklərimizi artırırdı.

Görünür, belə bir mühitdə böyüməyimdən Sovet təbliğatının təsirinə o qədər də düşmürdük. Oxuduğumuz dərsliklərin əksəriyyətində şahların insan öldürməsi qəddarlıq kimi təqdim edildiyi halda onların gördüyü işi təkrarlayan Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəm, Dəli Alı, Qandal Nağı və b. qəhrəmən sayılırdı. Ona görə də güclü təbliğata baxmayaraq, içimdə Çingiz xana, Hülakü xana, Əmir Teymura və b. qarşı nifrət yox idi. Onlara nifrət etməməyimizin bir səbəbi də dərslik yazan müəlliflərin ziddiyətli fikirləri idi. Səlcuqların, Monqolların, Teymuruilərin və b. yürüşlərini qəddarlıq, "daşı-daş üstündə qoymamaq" kimi təsvir edən müəlliflər həmin fəslin mədəniyyət bölməsində qaniçən, qəddar, dağıdıcı deyə tanıtdıqları hökümdarların zamanında gözəl şəhərlər salındığından, günümüzədək gəlib çatmış tarixi abidələrdən, suvarma arxlarından və b. mədəni quruculuq işlərindən yazırdılar.

İkinci Dünya Savaşı haqqında qəzet-jurnalların yazdığı, radio və televiziyanın dediyi, kitablardan oxuduğumuzla canlı şahidlərin dedikləri arasında yerlə-göy qədər fərq olurdu. Biz də şahidlərin dediklərinə daha çox inanırdıq. Çünki onlar bizim qohumlarımız, doğmalarımız idi. Onlar bizə yalan danışmırdılar.

Orta və ali məktəbdə oxuduqda aldığım biliklər də uşaqlıq və yeniyetməliyimdə eşitdiklərimin üstünə gəldi. Bir də onda ayıldım ki, ətrafımdakılar məni türkçü kimi tanıyırlar. Beynəlmiləl təbliğat aparılanda mənim yadıma Axısqa Türkləri, Kırım Türkləri, türkmənlər, qazaxlar, qırğızlar, özbəklər və b. düşr, onlarla əlaqə yartmağa çalışırdım.

Qəzetdə işlədiyim müddətdə türk xalqlarından yazmaq üzərində sərt qadağa olmasa da, bir məhdudiyyət vardı. Bu məhdudiyyətə baxmayaraq, imkan düşəndə ürəyim istədiyi kimi yaza bilməsəm də, türklüyü gündəmə gətirməyə çalışırdım. "Biobibloqrafiya"mı gözdən keçirəndə türkologiya ilə bağlı yazdığım məqalələrə qürurlanıram. Demək, o dövrlərdə mənim içimdə bir titrəyiş varmış. İşləydiyim "Sovet Naxçıvanı" ("Şərq qapısı") qəzeti üçün muxtar respublikalar haqqında səhifələr hazırlayırdım. Eləcə də onların qəzetlərinə Naxçıvan haqqında materiallar göndərirdim. Türklər yaşayan bölgələrə gedirdim. Onların aydınları ilə görüşür, əlaqələr qurur, qəzetlərini, jurnallarını, kitabıarını, musiqi lentlərini gətirib dost-tanış arasında yayırdım.

Yenidənqurma və aşkarlıq nisbi bir yümşaltma yaratsa da, adamların içindənki "pantürkist" qorxusunu tam çıxara bilməmişdi. Buna baxmayaraq, imkan daxilində türk xalqları ilə əlaqə qurur, onları təbliğ edir, oxuculara tanıtmağa çalışırdıq.

Sovetlərəin çoküşündən sonra mənim kimi düşünənlərin qol-qanad açmasına şərait yarandı. Beləcə, Türk dünyasını gəzdim, gördüklərimi, eşitdiklərimi, oxuduqlarımı oxucularla, radio dinləyiciləri ilə, televiziya tamaşaçıları ilə bölüşdüm. Bir də gördüm yalnız Azərbaycanda deyil, Türk xalqlarının mətbuatında xeyli məqaləm, elmi araşdırmam çap olunub.

Mənə zəng vuranların, məktub yazıb məqalələrimi istəyənlərin sayı gündən-günə artdı. Onların istəyinə əməl edə bilmədiyimdən məqalələrimi mövzulara görə toplayıb kitab halına salımağı qərara aldım. Fikirləşdim ki, oxucuların, araşdırcıların qəzet-jurnallarda məqalə axtarmasındansa bir kitaba baxması daha yaxşı olar.

Bu kitaba da Özbəkistanla bağlı məqalələrimi daxil etdim.

“KOROĞLU” DASTANI MÖVZUSUNDA SİMPOZİUM İSTƏYİM

Daşoğuzda “Koroğlu” konfransı

Ali Yamanla 2006-ci il mayın 25-27-də Türkiyənin Urfa şəhərində keçirilən “GAP bölgəsində Ələvi-Bəktaşı yerləşimləri və Şanlıurfa kültür mozagində (çoxrəngliliyində) Kisas” mövzusunda Uluslararası simpoziumda tanış olduq. Mənim oxuduğum “Koroğlunun Urfa səfəri və dastanda Ələvi-Bəktaşı gələnəği” mövzusunda məruzə diqqətini çəkmişdi. Söhbətindən Ərzincan ələvilərindən olduğunu öyrəndim. Bir neçə kitab müəllifi olan atası Mehmet Yaman Dədə bölgənin ən nüfuzlu ələvi dədələrindən biridir. Ondan sonra dədəlik Ali Yamana keçəcək.

Səmimiyyəti ilə diqqətimi çəkdi. İnanclar arasında uyum yaratmaq üçün var gücü ilə çalışır, Türk xalqlarının ortaq dəyərlərini öyrənir və xalqlarımız arasında körpü yaratmağa can atır. Şüarçılıqdan uzaq, əməli işə üstünlük verən birisidir.

Simpozium günlərində Türk xalqlarının ortaq dastanlarından, onların geniş yayılmasının səbəblərindən geniş söhbət etdik. “Koroğlu” dastanı, dastanın Türk xalqları arasında geniş yayılma səbəbləri üzərində çox durduq.

Sonralar onunla müxtəlif simpoziumlarda görüşəndə də söhbətimiz hərlənib-fırlanıb "Koroğlu" dastanı üzərində dururdu. Görünür, bunun bir səbəbi də mənim həmin illərdə rəhmətlik Əli Kamalinin Savə bölgəsindən topladığı "Koroğlu" dastanının qollarını çapa hazırlamağım idi.

Əli Kamali Kərəc yaxınlığındakı Səidabad kəndində yaşayan Aşıq Əliəkbər Qurbaniyə pul verib "Koroğlu" dastanının qollarını 8 kasetə yazdırmışdı. Kasetlərdəki səsi yazıya köçürərkən indiyədək bilmədiyim faktlarla rastlaşdım. Gördüm ki, Aşıq Əliəkbər Qurbani söylədiyi qollarda Koroğlunun bəyə, xana, xotkara qarşı mübarizəsi şəxsi maraqlarından doğur. Onun dostları arasında sadə əmək adamları olduğu kimi tacirlər, xanlar da var. Koroğlu bir orta əsr cəngavəridir. Bəyliyindən, xanlığından, çobanlığından, aşbazlığından asılı olmayaraq ona müqavimət göstərənləri məhv edir. Hətta tanımadan Koroğlunu tənqid etdiyinə görə ona kömək edən əkinçini də öldürmək istəyir.

Dastandakı şeirlərdə Koroğlunun atasının, anasının, əmisinin adları, soyları da verilir. Bu şeirlərdə Koroğlu sadə bir ilxıçı oğlu kimi deyil, əsilzadə kimi tanıdılır. Yəni dastan və nağıllarımızdakı qəhrəman tipinin ənənəsi yaşayır.

Koroğlu mövzusunda söhbət edərkən Ali Yamana təklif etdim ki, mənim çalışdığım AMEA Folklor İnstitutu ilə onun işlədiyi Bolu şəhərindəki Abant

İzzet Baysal Universitetinin birgə elmi simpoziumunu keçirək. Simpoziumun mövzusu da Türk xalqları arasında geniş yayılmış qəhrəmanlıq dastanı "Koroğlu" olsun. Ali Yaman təklifimi bəyəndi. Yaxşı bilirdik ki, ikimizin ortaq məxrəc tapmağımız məsələni həll etmir. Vəzifəmiz kiçik olduğundan onu reallaşdırmaq üç il çəkdi.

Ötən müddətdə boş durmadıq, internetdə yazışdıq, görəcəyimiz işləri planlaşdırdıq. Qərarlaşdırdıq ki, bizim çalışdığımız elm ocaqları ilə kifayətlənməyək, buraya Türküstandakı elm və təhsil ocaqlarını da qataq. Bizim təklifi işlədiyimiz təşkilatların rəhbərləri də bəyəndilər. Onların icazəsi ilə Özbəkistanın, Türkmənistanın, Qazaxıstanın, Qırğızıstanın elmi-tədqiqat institutlarının, ali məktəblərin rəhbərlərinə məktublar göndərdik, orada çalışan tanışlarımızı işə qoşmağa çalışdıq.

2007-ci il noyabrın 13-15-də Aşqabadda keçirilən "Abulsait Abulhayrı gündoğarın böyük ağıldarı. Uluslararası İlmi Konfransı"nda "Miras" Mədəni İrsin rəhbəri, Türkiyədə Türkmənistan Respublikasının səfiri işləyərkən tanış olduğumuz Annakurban Aşirovla görüşdüm. Ona Türkiyədəki Abant İzzet Baysal Universiteti və AMEA Folklor İnstitutunun "Koroğlu" dastanı mövzusunda birgə konfrans keçirəcəyini, bütün xərcləri Türkiyə tərəfi ödəyəcəyini söylədim. İstəyirik, Türkmənistandan, Özbəkistandan təşkilatçılar arasında elm ocaqları olsun. Annakurban

Aşirov təklifimi alqışladı. Lakin qatılacaqları haqqında qəti bir söz demədi. "Baxarıq" deməklə kifayətləndi.

Heyif ki, şəxsi tanışlarım da işlədikləri elm ocaqlarının rəhbərlərini razı sala bilmədilər.

AZƏRTAC-ın Türküstandakı müxbiri Qulu Kəngərlini də işə qoşdum. O, çox get-gəldən sonra Özbəkistan EA Til və Ədəbiyyat İnstitutunun direktoru, akademik Törə Mirzəyevin razılığını ala bildi.

2009-cu il martın 11-13-də Aşqabadda keçirəcəkləri "Səlcuqlar dövrünün ədəbiyyatı və mədəniyyəti adlı xalqlar məsləhəti" simpoziumuna gedəndə Annakurban Aşirov dedi ki, yazdığın məktubları oxuyuram. Bilirsən ki, Azərbaycanla, Özbəkistanla Türkmənistan arasında diplomatik vəziyyət heç istədiyimiz kimi deyil. 2009-cu il sentyabrın 23-25-də Daşoğuz şəhərində "Koroğlu süjeti və Şərq ədəbiyyatı" mövzusunda simpozium keçirməyi plana saldırmışam. Tanıdığın, arzuladığın araşdırıcıların adlarını və soyadlarını Kakacan Janıbəyova göndər. Kakacan sənin xatirini çox istəyir və sənə inanır. Ona da tapşıracam, məsləhət bildiyin adamları diqqətdə saxlayacaq.

2009-cu ilin martın 28-də Ali Yaman Bakıya gəldi. İşlədiyi Uuniversitetin rektorunun vəkili kimi bizim institutun direktoru ilə müqavilə imzaladı. Müqavilənin bir surətini də Qulu Kəngərliyə göndərdik ki, Törə

Mirzəyevə imzalatsın. Çətin də olsa, Qulu bəy bu işin öhdəsindən gəldi. Beləliklə, 2009-cu ilin oktyabrın 17-18-də Abant İzzət Baysal Universiteti Bolu Xalq Kültürünü Araşdırma və Uygulama Mərkəzi (BAMER), AMEA Folklor İnstitutu və Özbəkistan Respublikası Fanlar Akademiyası Til və Ədəbiyyat İnstitutu birgə "Birinci Uluslararası Koroğlu, Bolu tarix və kültürü simpoziumu" keçirməyi planlaşdırdı.

Özbəkistana yolçuluq planım

Qərar qəbul edilmiş, müqavilə imzalanmış, dəvətnamələr göndərilmişdi. Amma siyasi duruma görə özbək qardaşlarımız çox astagəllik edirdilər. Mən durumu aydınlaşdırmaq, onları bir az ruhlandırmaq, sözlərindən qaçmamağa təhrik etmək üçün Daşkəndə getməyi qərara aldım. Yolpulunun ödənməsinə nə mənim, nə də idarəmizin imkanı vardı. Bunun üçün Türkmənistanın Daşoğuz şəhərində keçiriləcək simpoziumun verəcəyi yolpulundan yararlanmağı qərara aldım. Daşkəndə gedən təyyarə reyslərini öyrəndim.

Bakıdan-Almatıya həftədə bir dəfə uçan Azərbaycandakı İmpratekst şirkətinin təyyarələri Daşkəndə də enirdi. Özbək Hava Yollarının təyyarələri isə həftənin bazar ertəsi və cümə axşamı günləri Bakıdan Daşkəndə uçurdu. Bu, mənə olduqca az görünürdü. Əslində, Türküstanın coğrafi mərkəzi

sayılan Daşkəndə hər gün təyyarələr işləməlidir. Azərbaycanla Özbəkistanın əlaqələri daha sıx olmalıdır.

Türkmənistandan gələn dəvət məktubunda yazmışdılar ki, bilet alıb gəlin. Yol pullarınızı burada ödəyəcəyik. Bu məktub əsasında mən 800 dollara yaxın ödəyib Lufhanza şirkətinin Bakıdan Aşqabada uçan təyyarəsi ilə getməli, bir gün Aşqabadda qalmalı, səhər tezdən də simpozium təşkilatçılarının aldığı biletlə Aşqabaddan Daşoğuza uçmalıydım. Bilet baha olsa da, ən rahat yol bu idi.

Mən ölçüb-biçdikdən sonra Özbəkistan Hava Yolları Şirkətinin təyyarəsinə bilet almağı qərarlaşdırdım. Bilet ucuz olsa da, yol uzun və yorucu idi. Daşkənddə Til və Ədəbiyyat İnstitutunun rəhbərliyi ilə görüşmək və onların Boluda keçiriləcək simpoziuma getmələrini qətiləşdirmək üçün uzaq və ağır yolu seçdim.

Bakıdan Daşkəndə, oradan da yerli reyslə Ürgəncə getməyi, Aşqabadda keçirilən simpoziumda tanış olduğum Ürgənc Universitetinin professoru Jumaboay Yusupovla görüşüb birlikdə Daşoğuza getməyi qərarlaşdırdım. Bakı-Daşkənd-Ürgənc təyyarəsinə isə gediş-dönüş bileti 600 dollardan bir az çox idi.

"Koroğlu" süjeti və Şərq ədəbiyyatı" mövzusunda təşkil ediləcək simpoziumun ağırlığını daşıyan Kakacan Janıbekova vəziyyəti yazdım. Dedim

ki, maliyyə idarələrindən mənim Özbəkistandan gəlməyimə icazə alsın. Özbəkistandan gələrəmsə, təşkilatınız 200 dollara qənaət etmiş olar. O, iki gün sonra mənə yazdı ki, maliyə işçiləri üçün biletin ucuzluğu, bahalığı önəmli deyil. Onlar hər şeyə şübhə ilə yanaşırlar. İnadla deyirlər ki, dostunuz Lufhanza şirkətinin təyyarəsi ilə niyə gəlmir? Çox çətin də olsa, razılıq ala bildim.

Kakacan Janıbekovun xoş xəbərindən sonra Özbəkistan Hava Yolları şirkətindən bilet aldım.

Bakıdan Daşkəndə saat 17.55-də uçmalı olan təyyarə 35 dəqiqə yubandı. Daşkəndlə Bakı arasındakı iki saat fərqi və üç saata yaxın da uçuş mənim oraya gecə çatmağıma səbəb oldu.

Sərhəd keçid məntəqəsində çox gözləməli olmadım. Lakin yol çantamı gözləyəndə məlum oldu ki, yenicə aldığım təkərli çantamı necə gəldi atdıqlarından təkərləri, qulpu qırılıb, parçası da cırılıb. Kitablar tökülür. Mübahisə və şikayətdən sonra torbalar gətirib yükümü oraya yığdılar.

Pul qoparmaq üçün dəridən-qabıqdan çıxıb, apardığım kitablarla əlləşən gömrük işçisi ilə də höcətləşdik. Nigaranlığım Qulu Kəngərlidən olmasaydı, bəlkə də, məndən pul qoparmağa cəhd edən gömrük işçisindən, eləcə də çantamı dağıdanlardan rəsmi qaydada şikayət edəcəkdim. Hamının gəldiyini, mənimsə yubandığımı görən Qulu Kəngərlinin rahatsızlığını düşünüb söhbəti uzatmadım.

Qulu Kəngərli səbirlə məni gözləməli olmuşdu. Onun yanında ilk dəfə gördüyüm birisi də vardı. Azərbaycanın Daşkənddəki Mədəniyyət Mərkəzinin komendantı işləyən Yavər bəylə tanış oldum. Yolda dedilər ki, Yavər bəy ailəsini hələ Daşkəndə gətirməyib. Kirayə tutduğu evdə tək yaşayır. Ona görə də mənə hoteldə yer ayırtdırmayıblar. Daşkənddə olduğum müddətdə Yavərin evində qalmağım planlaşdırılıb. Dilimizdə gözəl bir deyim var: Qonaq ev sahibinin dəvəsidir, harada xıxlasa, orada yatar.

Qulu bəy beləcə məni hotel xərclərindən də azad etmişdi.

Yavərin evində gecə yarısınadək dərdləşdik, səhərki işlərimizi planlaşdırdıq. Qulu bəy saat 10.00-da mətbuat konfransında olmalıydı. Razılaşdıq ki, o, məni Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda qoyub işinin dalınca getsin. Qulu bəy dedi ki, saat 9.00- da institutda heç kim olmayacaq. Orada tək qalıb darıxarsan. Mən ona qayğıkeşliyinə görə təşəkkürümü bildirdim və bir saatı institutun həyətindəki bağçada gəzişəcəyimi söylədim.

Səhər gözlədiyimiz kimi olmadı. Qulu bəy gəlib məni Dil və Ədəbiyyat İnstitutuna aparanda katibə institutun direktoru Törə Mirzəyevin işə gəlib, tapşırıqlarını verdikdən sonra Elmlər Akademiyasının Rəyasət Heyətində keçiriləcək toplantıya getdiyini və əməkdaşların da əksəriyyətinin işdə olduğunu söylədi.

Maaş az olsa da, adamların köhnə qaydada işə gəlib-getmələrinə heyrətləndim.

Törə Mirzəyev mənim gələcəyimi elmi katibə soyləyibmiş. Odur ki, telefonla elmi katib Rəhmətulla Barakayevi çağırdı və o gələnədək bizə direktorun kabinetində oturub çay içməyi təklif etdi. Bunu görən Qulu bəy rahatlıqla mətbuat konfransına getdi.

Rəhmətulla Barakayev gəldi və biz öncə tanışlarımızın hal-əhvalını xəbər aldıq, sonra da 2009-cu ilin oktyabrın 17-18-də Türkiyənin Bolu şəhərində keçiriləcək "Birinci Uluslararası Koroğlu, Bolu tarix və kültürü simpoziumu"na hazırlığı müzakirə etməyə başladıq.

Heç bir xərc çəkmədən Türkiyəyə gedəcəklərinə, institutlarının adının uluslararası simpoziumun təşkilatçıları sırasında olduğuna sevinirdilər.

Azərbaycanın Türküstanda mədəniyyət elçisi

Qulu Kəngərlini öncə qəzetlərdəki məqalələrinə, Azərbaycan radiosundakı reportajlarına görə tanıyırdım. 1985-1986-cı illərdə Naxçıvana ezamiyyətə gələndən sonra şəxsən tanış olduq.

1957-ci il yanvarın 5-də Dərələyəzin Sallı kəndində (indiki Ermənistan Respublikasında) doğulub. 1982-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakuültəsini bitirib. 15 il Azər-

baycan radiosunun xəbərlər şöbəsində redaktor, şöbə müdiri, baş redaktorun müavini işləyib.



Qulu Kəngərliyə Özbəkistanın "Altun qələm" Milli mükafatı verilərkən

1990-cı ilin yanvarında Sovet Ordusunun Azərbaycanda törətdiyi qırğından ilk silsilə məqalələr yazan jurnalistlərdən olub. Tökülən qanların izi itməmiş şəhidlərin siyahısını dəqiqləşdirmək, şəhid ailələri ilə görüşüb onlardan fakt toplamaq o qədər də asan deyildi. Qorxu şəhid ailələrinin canlarından hələ çıxmamışdı. Dindirdiyi insanlar ona istədiyi faktı deyil, göz yaşları verirdilər.

1990-cı ildə işıq üzü görən "Şəhidlər" bukletinə göz yaşları toplusu desəm, yanılmaram. Bir il sonra isə "Qara yanvar şəhidləri" və "Şexidi çernoqo

yanvarya" kitablarını, 1992-ci ildə "Erməni lobbisi. Azərbaycan faciəsi" kitabını çap etdirib. İkinci kitab müəllifin 20 yanvar və Qarabağ hadisələri ilə bağlı məqalələrinin toplusudur.

Hökumətdə kiçik bir vəzifə tutanların çoxu yanvar faciəsində xalqı günahlandırdığı, yaxşı halda isə susduğu günlərdə Qulu Kəngərli "Bakıda insan ovu" adlı sənədli filmin ssenarisini yazıb. Rejissor Vaqif Azəryar da isti izlərlə təsirli bir film yaradıb. Nə yazıq ki, bu gün vətənpərvərlikdən bəlağətlə danışan ziyalı məmurlarımız filmin göstərilməsinə bir müddət icazə verməyiblər. Zaman isə öz işini görüb. İllər keçdikcə Qulunun haqlı olduğu, faktları vaxtında və doğru dəyərləndirdiyi ortaya çıxıb.

20 yanvar hadisələrinin ağrı-acılarını unuda bilməyən Qulu Kəngərli gündəlik hadisələri izləyən bir jurnalist kimi məqalələr yazmaqla kifayətlənmir, mövzunun araşdırıcısına çevrilir. Beləcə, 1997-ci ildə Azərbaycan Ensiklopediyası nəşriyyatında çap olunan "Qanlı şənbəyə gedən yol" kitabı meydana çıxır. Onda mən də ensiklopediyada çalışır, belə kitabların nəşrini alqışlayır və əlimdən gələni əsirgəmirdim.

1998-ci ildən Qulu Kəngərlini AZƏRTAC-ın Türküstan muüxbiri təyin edirlər. O, bir müxbir kimi AZƏRTAC-a günün hadisələri haqqında xəbərlər göndərməklə kifayətlənmirdi. Türküstanda yaşayan azərbaycanlılarla görüşür, onların xatirələrini dinləyir, ömür yolları ilə bağlı arxiv sənədləri toplayır. Əldə

edə bildiyi sənədlər əsasında heç bir təşkilatdan sifariş, maddi yardım almadan "Sürgün" sənədli filminin ssenarisini yazır. Şəxsi təşəbbüsü ilə Daşkənddəki "Dabana" studiyasında ağrı-acılarımızla bağlı film çəkdirir.

Min bir zəhməti bahasına, ailə büdcəsinin sıxılması hesabına başa gələn film Azərbaycanda bu günədək göstərilməyib. Səbəbi nə siyasi, nə də iqtisadi məsələ ilə bağlıdır. Sadəcə və sadəcə məmur özbaşınalığıyla, sözdə millətdən, vətəndən, türkçülükdən danışanların vəzifəyə keçdikdən sonra maddi maraqlarına hər şeyi qurban vermələri ilə bağlıdır.

Azərbaycanı müxtəlif səbəblərdən tərk edərək Türküstanda yaşamalı olmuş Yusif Qarabağı, Seyid Rza Əlizadə, Firudin Səfərov və b. haqqında yazdıqlarını həyəcansız oxumaq olmur. Onun bir məqalədə yazdıqları sanki böyük bir kitabın özətidir. Bu yazıları ilə Qulu Kəngərli elə bil araşdırıcılarımıza deyir: "Bu məsələlər indiyədək öyrənilməyib, ona diqqət yetirin!"

Azərbaycanla Türküstan arasında bir körpu rolunu oynayan Qulu Kəngərli oraya kitablar, lentlər, filmlər apardığı kimi oradan da buraya daşıyır. Onları maaşı hesabına alsa da, təmənnasız verir. Təki jurnalistlərimiz, alimlərimiz bu faktlardan istifadə etsinlər, təki ölkələrimiz arasında əlaqələr genişlənsin. Bəzən də incə yumorla söylədiyi bir-iki söz tarıximizi, mədəni və mənəvi birliyimizi yada salır.

Özbəkistanda: “Nədən işləmək üçün buranı seçdın?” sualı verənlərə zarafatla “Babalarımın qurmuş olduğu Kanq dövlətinə sahib çıxmaq üçün!” deməsilə çoxlarını çaşdırır. Gedib tarix kitablarını yenidən oxumalı, Türklərin qurmuş olduğu Kanqlı dövləti haqqında bilgi əldə etmiş olurlar. Sonra gəlib ona minnətdarlıqlarını bildirirlər.

O, bu gün də Özbəkistanda, xüsusən də Qaraqalpaq Muxtar Respublikasında yaşayan, kanqarlı soyadını daşıyanlarla görüşəndə onlara “əmioğlu” deyə müraciət etməklə bir çaşqınlıq yaradır. Özlərini özbək, qaraqalpaq sayan kanqarlıların Azərbaycanda da kəngərlilərin geniş yayıldıqlarını eşidəndə təəccüblənirlər.

Hər yay Bakıya, məzuniyyətə gələndə zəng vurar, bir neçə saat çay süfrəsi arxasında gördüyümüz işlər haqqında bir-birimizə “hesabat” verər, görəcəyimiz işləri planlaşdırarıq. Özbəkistana səfərlərimin heç biri onun planından və yardımından kənarda olmayıb.

İçində coşğun bir Türküstan sevgisi olan Qulu Kəngərlinin çoxsahəli fəaliyyəti, yaradıcılığı bir araşdırma, monoqrafiya mövzusudur.

Til və Ədəbiyyat İnstitutunda

Türk dillərində t-d səsdəyişməsi xarakterikdir. Dil, duz, Daşkənd və s. yazdığımız sözlərin hələ də

dialektlərimizdə t səsi ilə deyildiyinin şahidi oluruq. Həmin sözlər özbək ədəbi dilində də t səsilə yazılır. Buna görə də Azərbaycanda Dil və Ədəbiyyat İnstitutu yazılmalı olan təşkilatı özbəklər Til və Ədəbiyyat İnstitutu yazır və deyirlər. Özbəkistanın bəzi şivələrində isə həmin sözlər d səsilə tələffüz olunur.

Til və Ədəbiyyat İnstitutunda Rəhmətulla Barakayevlə Boluda keçiriləcək simpoziuma hazırlığı müzakirə edərkən telefon tez-tez zəng çalırdı. Rəhmətulla Barakayev də telefon zənglərinə cavab vermək üçün hərdən söhbəti kəsməli olurdu. Telefondakılara verdiyi cavabdan mənim harada olduğumla maraqlandıqlarını bildim. Rəhmətulla fərəhlə onlarla danışır, Türkiyədə keçiriləcək simpoziuma hazırlığı müzakirə etdiyimizi deyirdi. Daşkənddəki tanışların bəzilərinə gələcəyimi mən, bəzilərinə isə oradakı tanış və dostlarım xəbər vermişdilər.

Özbəkistanla Türkiyə arasında diplomatik gərginlik olan bir dövrdə birgə simpozium keçirmək o qədər də asan iş deyildi. Söhbətimiz bitəndə Rəhmətulla Barakayevə folklor şöbəsinin əməkdaşları ilə də görüşmək istədiyimi bildirdim. O, mənimlə 4-cü mərtəbəyə qalxdı. Şomirza Turdumovla görüşdük. Söhbətimiz tez axarına düşdü. O, “Koroğlu” dastanının Azərbaycandakı son nəşrləri ilə maraqlandı. Bilgisayarım yanımda olduğundan çapa hazırladığım

“Koroğlu dastanı (Əli Kamali arxivindəki materiallar əsasında)” kitabımın elektron variantını onun bilgisayarına atdım. Şahmirza mənimlə söhbət edə-edə kitaba yazdığım ön sözü gözdən keçirirdi.

Katibənin Şomirza Turdumova zəng vurub məni görməyə gələnlər olduğunu söyləməsi söhbətimizi yarıda kəsdi. Dəhlizə çıxanda Zilola Xudaybergenova və Abdumurat Tilatovla rastlaşdım. Abdulmurad Tilatova “Yazı” jurnalını və onun istədiyi, Azərbaycanda və Türkiyədə nəşr edilmiş bir neçə kitabı verdim. Tbilisidə nəşr olunan “Yazı” jurnalının 2009-cu il, 1(4) sayında onun “Kaşqarlı Mahmudun «Divanü lüğat-it-Türk» əsərində atla ilgili terimlər və inanclar” məqaləsini çap etdirmişdim.

Zilola Xudaybergenova doktorluq dissertasiyası yazarkən faydalanması üçün gərəkli bildiyim, Azərbaycanda çap edilmiş kitablardan verdim.

Katibə Törə Mirzəyevin gəldiyini xəbər verməsəydi, söhbətimiz uzanacaqdı. Birlikdə direktorun otağına getdik. Otaqda institutun tanımadığım işçiləri də vardı.

Direktor məni otaqdakılara, onları da mənə tanıtdı. Sonra Azərbaycandakı tanışlarını xəbər aldı. Tanıdıqlarının bəzilərinin dünyasını dəyişdiyini eşidəndə rəhmət oxudu, haqlarında xoş sözlər söylədi.

Ondan sonra əsas mövzuya keçdi. Simpoziuma hazırlığın vəziyyəti ilə maraqlandı. Hər şeyin yolunda olduğunu, yalnız onların bilet alıb Türkiyəyə getməli

olduğunu eşidəndə üzü güldü. Elə bil rahatlandıqdan sonra AMEA Folklor İnstitutunun əməkdaşlarının sayı və iş planı ilə maraqlandı. Təxminən 10-15 dəqiqəlik hesabat verdim. İnstitutun işçilərinin sayı 250 nəfərə yaxın olması onu bərk təsirləndirmişdi.

Bir neçə dəfə öz-özünə danışırmış kimi 250, 250 dedi və əlavə etdi. Bizdə folklor şöbəsinin 5-6 işçisi var. Onlarla da neyləmək olar ki?! Biz Til və Ədəbiyyat İnstitutlarını hələ ayıra bilməmişik. Sizdə 60 ilə yaxındır, Til İnstitutu Ədəbiyyat İnstitutundan ayrılıb.

Sonra deyəsən, Törə Mirzəyevin yadına mən düşdüm. Çap etdirdiyim və çapa hazırladığım kitab və məqalələrlə maraqlandı.

Şahmirzə ağzımı açmaqğa imkan vermədən "Koroğlu dastanı. (Əli Kamali arxivində)" kitabının ön sözünü tərifləməyə başladı. Törə Mirzəyev və otaqdakılar kitabla maraqlandılar və onlara da bağışlamağımı xahiş etdilər. Mən elektron variantı yanımda olduğunu, kitabı Boluda simpozium zamanı verə biləcəyimi söylədim. Zolale və Abdumurad simpoziuma gedə bilməyəcəklərini dedilər və Rəhmətulla Barakayevdən xahiş etdilər ki, onlar üçün də kitab gətirsin.

Özbəkistan EA Til və Ədəbiyyat İnstitutunun direktorunun otağında söhbət edərkən türkmənlərin 2010-cu ilin aprelində Molla Nəpəsin doğumunun 200 illiyinə həsr edilmiş simpozium keçirəcəklərini söylədim. Maraqla qarşıladılar. Molla Nəpəsin yaradı-

cılığından, dövründən xeyli söhbət etdik. Şairin özbəklər üçün də doğma olduğunu gördüm. Təklif etdim ki, bu simpoziumun təşkilatçıları sırasına Özbəkistan EA Til və Ədəbiyyat İnstitutu da, AMEA Folklor İnstitutu da qatılsa, yaxşı olar. Bu işə mən vasitəçilik edərəm.

Otaqdakılar təklifimi böyük maraqla qarşıladılar. Xeyli müzakirədən sonra Törə Mirzəyevin üzünə baxdılar. Yəni son sözü o deməliydi. Törə ağa sakit və aram-aram: "Gərək bizə yuxarıdan bir işarə, bir tapşırıq ola. Bunun üçün Xarici İşlər Nazirliyinə bir məktub yazılmasımaq lazımdır. Türkmənistandan yazsalar, çətin ki, məktubu bizə göndərələr. Azərbaycandan yazılsa, ola bilsin, üzərinə qeyri-müəyyən bir dərkənar qoyaraq akademiyanın rəyasət heyətinə göndərərlər. Onlar da həmin məktubu bizə çatdırsalar, çalışaram, gələn ilin iş planına salım. Ondan sonra görək həmin planı təsdiq edəcəklərmi, Xarici İşlər Nazirliyi məsələyə necə cavab verəcək".

Sözünə bir az ara verdikdən sonra: "Simpozium düzənləməyə, xarici ölkələrdə keçirilən toplantılara getməyə maddi imkanımız yoxdur. Gərək bunu da nəzərə alasınız" – dedi və gülümsəyərək üzümə baxdı.

– Törə əkə, təki Siz institutunuzun simpoziumun təşkilatçıları sırasında olmasına icazə alın. Qalan məsələləri yoluna qo-yarıq. İstəsəniz, Molla Nəpəsə həsr ediləcək simpoziumun açılışını Bakıda, əsas

məruzələrin dinlənməsini Aşqabadda, qapanışını Sizin institutda edərik, – dedim.

Törə əkə, bir az fikirə getdikdən sonra: "Siz məktubu yazın, bizə gəlib çatdıqdan sonra bu mövzuda söhbət edərik" – dedi.

Mən Boludakı simpoziumun yaxınlaşdığından, oraya gedəcək alimlərin məruzələrinin hazır olub-olmadığından, təyyarə bileti alınıb-alınmadığından söz saldım. Onlar bir daha yolpulu və mehmanxana, yemək xərclərilə maraqlandılar. Gülümsəyərək:

– Törə əkə, – dedim, – beynəlxalq simpoziumun şərikli keçirilməsinə icazə alıbsınızsa, demək, tədbirin bütün xərcləri də onu keçirən üç təşkilat arasında bölünməlidir. Amma Sizin durumunuz nəzərə alınaraq institutunuz bütün xərclərdən azad edilib. Sizə məruzələri vaxtında yazıb göndərməniz, vaxtında bilet alıb Boluya gəlməniz qalır. Proqramda iştirakçıların bir gün Bolu yaylaqlarında gəzdirilməsi də nəzərdə tutulub. Yəni istirahətiniz, yeyib-içməniz, avtobusla Boludan İstanbula gətirilərək hava limanından yola salınmanız da nəzərdə tutulub.

Təklif etdim ki, elə həmin gün simpoziuma gedənlər Türk Hava Yollarının Daşkənd-İstanbul reysinə bilet sifariş versinlər. Törə Mirzəyev:

– O, asan məsələdir, özümüz həll edərik. Çox sağğ ol ki, ağır işimizi yoluna qoyubsan. Bir som da xərcimiz çıxmadan beynəlxalq simpoziumun

təşkilatçısı və iştirakçısı oluruq. İndi nahar fasiləsidir, gedək, birlikdə nahar edək, – dedi.

Etiraz etmədim. Yolda institutun folklor şöbəsinin müdiri Mamatkul Jorabayovla tanış oldum. O da Daşoğuzdakı simpoziuma gedəcəkdi. Birlikdə təyyarə ilə Daşkənddən Ürgəncə, oradan da taksi ilə sərhəd-keçid məntəqəsinə getməyi təklif etdim. Keçid məntəqəsinin Türkmənistan tərəfində məni qarşılayıb Daşoğuza aparacaqlarını, onun da mənimlə birlikdə getməsinin münasib olduğunu söylədim. Mamatkul Jorabayov başqa bir yol yoldaşı da olduğunu, onunla hələ məsləhətləşmədiyini söylədi. Qulu Kəngərlinin Özbəkistanda istifadə etmək üçün verdiyi cib telefonumun nömrəsini ona yazdırdım.

Törə Mirzəyev, Rəhmətulla Barakayev, Qulu Kəngərli və mən birlikdə akademiya şəhərciyinin yeməkxanasına getdik. Yeməkxananın çirkli pərdələri, köhnə və səliqəsiz avadanlığı, xidmət səviyyəsi Sovet dönəmini yadıma saldı. Törə əkə ötənləri, Azərbaycandan tanıdığı alimləri, onlarla keçirdiyi xoş günləri xatırlayaraq kövrəldi. Əlaqələrimizin zəifləməsinə təəssüfləndi. Söhbətindən açıq-aydın Sovet dövrünün xiffətini çəkdiyi hiss edilirdi.

Şərqşünaslıq İnstitutunda

Nahardan sonra Qulu Kəngərli ilə birlikdə Özbəkistan EA Şərqşünaslıq İnstitutunda işləyən

tanışları görməyə getdik. Birinci Ğulam Kariminin otağına keçdik. Onunla 2001-ci ilin fevralın 13-14-də Tehranda, Xarici İşlər Nazirliyinin Tarixi Diplomatik Mərkəzinin keçirdiyi "İran və Turan dünyası" mövzusunda Uluslararası simpoziumda tanış olmuşduq.

Simpozium təşkilatçılarının Türk respublikalarından gələn araşdırıcılara qarşı soyuq münasibətlərinə, türk dillərində məruzələrin dinlənməsinə şərait yaratmadıqlarına görə etiraz məktubu hazırlamışdım. Həmin məktuba Türküstandan gələnlərdən bir nəfər də olsun, imza atmadı. Ğulam Karimi (Bbiz onun adını Qulam Kərimi kimi yazırıq. İnternetdə axtarış verildikdə asan tapılsın deyə özbəklər yazdığı kimi yazdıq. Soyadını da öncələr Karimov yazırmış). Aşqabadda keçirilən simpoziumda yanıma gələrək üzrxahlıq etdi. İmza atmamalarının səbəbini belə izah etdi: "Sizi yaxından tanımırdıq. Bizə dedilər, Azərbaycandan gələn birisi sizi provokasiyaya çəkmək istəyir. Ehtiyatlı olun. Ona inanmayın. Onun hazırladığı məktuba imza atsanız, sizi bir daha İrana buraxmayacaqlar. Özbəkistana dönəndən sonra səni tanıyanlarla görüşdük. Gördük, bizi çox bacarıqla aldadıblar.".

Ğulam Kariminin dediklərini gülümsəməklə cavablandırdım. Sonralar onun və dostlarının Türkiyədə keçirilən simpoziumlara getmələrinə yardımçı oldum. Beləcə, münasibətlərimiz yaxşılaşdı.

Ğulam Karimi onun yanına gələcəyimizi bilirdi. Səmimi görüşdük. Bizi iş yoldaşı, bir ara Türkiyədə işləmiş Səncərlə tanış etdi. Son illərdə yazılmış əsərlərdən, ədəbi əlaqələrdən xeyli söhbət etdik. Otağa bir gənc də daxil oldu. Bir az dinlədikdən sonra söhbətimizə qoşuldu. Bizi tanış etdilər. Bu gənc Türkiyəli olduğunu, orta yüzilliklərdə Türküstan vəqflərinin sənədləri üzərində araşdırmalar apardığını və doktorluq müdafiə etdikdən sonra vətənə dönəcəyini söylədi. Adı-soyadı Ali İhsan Çağlar olan gəncin uzun illər qadağan olunmuş mövzuda axtarışlar aparmasına sevindim. O, vəqf sənədləri ilə dövrün iqtisadi, siyasi, mədəni durumunu aydınlatmaq istəyirdi.

Söhbətimiz bitmək bilmirdi. Ğulam Karimidən söhbətimizi yekunlaşdırmağı xahiş etdim. Bizim başqa gedəcək yerlərimiz də olduğunu söylədim. O, kiməsə zəng vurdu. Telefonu yerə qoyub institutun direktor müavini Sürəyya Kərimovanın bizimlə görüşmək istədiyini bildirdi.

Sürəyya xanımla 2008-ci il mayın 28-30-da Ankarada Hacettepe Universitetinin Türkiyat Araştırmaları İnstitutunda təşkil edilmiş "Kaşğğarlı Mahmud və dönəmi" adlı 2-ci Uluslararası Türkiyat Araşdırmaları simpoziumunda tanış olmuşduq. Yanılmıramsa, onun simpoziuma getməsinə köməklik etməyi Ğulam Karimi məndən xahiş etmişdi.

Sürəyya Kərimovanın otağında bir saata yaxın söhbət etdik. Gördüyü işlərlə maraqlandım. Yeni çapdan çıxmış "Tibb əlyazmaları kataloqu" daha çox diqqətimi çəkdi. Sürəyya xanım tərtib etdiyi kitaba avtoqraf yazıb mənə bağışlamaq istədi. Mən isə ondan xahiş etdim ki, avtoqraf yazıb AMEA Əlyazmalar İnstitutunun kitabxanasına bağışlasın. Mən də aparıb kitabxanaya verim. Mövzu ilə maraqlanan azərbaycanlı araşdırıcılar Özbəkistanda tibbə dair hansı əlyazmaların olduğundan xəbər tutsunlar.

İnstitutda işləyən tanışların hamısı ilə görüşə bilmədik. Müxtəlif səbəblərdən işdə yox idilər. Ğulam Karimi Ramazan bayramı münasibətilə sentyabrın 19-da təşkil edəcəyi axşam yeməyinə bizi də təkidlə dəvət etdi və bildirdi ki, görüşə bilmədiyimiz adamlarla onun süfrəsi arxasında söhətimizi davam etdirə bilərik. Tanışlarla görüşmək həvəsi onun dəvətini qəbul etməyimizlə nəticələndi. Sağollaşaraq Şərqşünaslıq İnstitutundan ayrıldıq.

Köhnə tanışla ilk görüş

Oradan Özbəkistan Beynəlmiləl Mədəniyyət Komitəsinə yollandıq. Respublikadakı azsaylı xalqların işini əlaqələndirən bu komitəyə Nəsrəddin Məhəmmədiyev rəhbərlik edir. Onunla 1980-ci illərdə, "Taşkənd" axşam qəzetində işləyərkən məktub vasitəsilə tanış olmuşdum. Azərbaycana böyük

sevgisi olan Nəsrəddin bəy qəzetdə şöbə müdiri, mən isə Naxçıvandakı "Şərq qapısı" ("Sovet Naxçıvanı") qəzetində müxbir işləyirdim. Görüşməsək də, ara-sıra məktublaşırdıq.



Şəkildə Əli Şamil və Nəsrəddin Məhəmmədiyev xəstəxananın bağçasında

Komitədə bizə bildirdilər ki, Nəsrəddin bəy xəstəxanadadır. Qulu Kəngərli Nəsrəddin bəyin müavini ilə görüşməyi məsləhət gördü. Onun da xəstə olduğunu söylədilər. Komitədə söhbət etdiyimiz şəxslər Nəsrəddin bəyin cib telefonunu və hansı xəstəxanada olduğunu bilmədiklərini söylədilər.

Qulu bəy bir az düşündükdən sonra: "Azərbaycan Mədəniyyət Mərkəzləri Assosasiyasının otağına

qalxaq. Onlar rəhbərlərinin hansı xəstəxanada olduğunu və telefonlarını bilərlər" – dedi.

İkinci mərtəbədə kiçik də olsa, səliqə-səhmanlı otaqda yerləşən mədəniyyət mərkəzimizdə iki nəfər vardı. Onlar Qulu Kəngərlini görən kimi üzləri güldü. Bizi mehribanlıqla qarşılayaraq çay təklif etdilər və tanışlıqdan, qısa söhbətdən sonra axşam yeməyinə də dəvət etdilər. Təşəkkürümüzü bildirdik. Vaxt azlığından onların dəvətini qəbul edə bilməyəcəyimizi söylədik. Nəsrəddin Məhəmmədiyevi görmək üçün gəldiyimizi söylədik.

Mədəniyyət mərkəzinin işçiləri beş dəqiqə çəkmədi ki, bizi Nəsrəddin Məhəmmədiyevlə danışdırdı. O, Qulu Kəngərliyə "gözləyin, mənim xidməti maşınım sizi oradan alıb xəstəxanaya gətirəcək" – dedi. Qulu Kəngərli isə maşına ehtiyac olmadığını, sadəcə xəstəxananın yerini söyləməsinin gərək olduğunu bildirdi.

Nəsrəddin Məhəmmədiyev bizi xəstəxananın səliqə-səhmanı və yaşıllığı ilə göz oxşayan bağçasında qarşıladı. İlk dəfə görüşsək də, uzun illərin dostları kimi mehribanlıqla qucaqlayıb kövrəldi. Ötən illəri və o illərdə Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin yaxşılaşması üçün gördüyümüz işləri xatırladı. Bakıda çap olunmuş "Şərqşünaslıq" jurnalını və Qız qalasının əksi çəkilmiş boşqabı verdim. Jurnalın 2009-cu il 1-ci sayında onun "Türkiyə-Özbəkistan əlaqələri tarixindən səhifələr" məqaləsini çap etdirmişdim.

Nəsrəddin Məhəmmədiyev də son illər nəşr etdirdiyi kitablarını gətirtmişdi. Onlara avtoqraf yazıb mənə bağışladı. Bakıdakı dostlarını xəbər aldı. Sədərəkli şair Vaqif Məmmədlinin yaradıcılığı, ailəsi ilə maraqlandı.

Mən Vaqif Məmmədlinin Nəsrəddin Məhəmmədiyevlə 1980-ci illərdən tanış olduğunu, SSRİ dağılanadək məktublaşdıqlarını bilirdim. Onu da bilirdim ki, görüşəndə Nəsrəddin Məhəmmədiyev mütləq Vaqif Məmmədlini xəbər alacaq, səfər ərəfəsində Vaqif Məmmədlinin son illər fəaliyyəti haqqında xeyli qeydlər götürmüşdüm. Ona görə də Nəsrəddin Məhəmmədiyev xəbər alan kimi Vaqif Məmmədlinin 20-dən çox kitabının nəşr edildiyini, tarix elmləri namizədi kimi Naxçıvan Dövlət Universitetinin Jurnalistika və Dünya ədəbiyyatı kafedrasının dosenti olduğunu söylədim. Onu da əlavə etdim ki, 10 ildən çoxdur, universitetin "Qeyrət" mətbəəsinə direktorluq, "Elmi əsərlər", "Fikir" jurnalına, eləcə də Sədərək rayon İcra Hakimiyyətinin orqanı olan "Oğuz yurdu" qəzetinə redaktorluq edir.

Nəsrəddin Məhəmmədiyev dediklərimə sevənməklə yanaşı, heyrətini də bildirdi ki, bu qədər işin öhdəsindən necə gəlir. Onu daha da heyrətləndirmək üçün dedim: "1995-2000-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi gücünü siyasətdə də sınadı. Sovetlər Birliyinin çökməsi onun istedadını, enerjisini göstərməyə imkan yaratdı. Şeir

və məqalələrini Türkiyədə, İranda, İraqda, Rusiyada, Belarusiyada, Almaniyada, ABŞ-da, Yunanıstanda, Bolqarıstanda nəşr etdirdi.

YUNESKO-nun Bağdadda keçirdiyi Füzuli, Türkiyənin Bayburt şəhərində keçirlən 7-ci Uluslararası Dədə Qorqud Kültür-Sənət Şölənində, 2005-ci ildə Ankarada, Tehranda, Təbrizdə, Hollandiya və Pakistanda keçirilən şeir müsabiqələrində iştirak edib.

Xidməti yüksək qiymətləndirilib. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının "Əməkdar mədəniyyət işçisi", Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Azərbaycan respublikasının qabaqcıl təhsil işçisi" döş nişanını alıb".

Nəsrəddin Məhəmmədiyev köks ötürsə də, tanışının uğurları ilə qürurlandığını da bildirdi.

– Nəsrəddin əkə, sizin də, Vaqif bəyin də qələmi iti, kitab nəşr etdirmək imkanlarınız da yaxşıdır. Nədən məktublaşmalarınızı bir kitab halına gətir-mirsiniz? Belə bir kitab Azərbaycan-–Özbəkistan əlaqələrini öyrənən araşdırıcılara gözəl qaynaq olar, – dedikdə "yaxşı fikirdir, gərək vaxt tapıb onu edək," – cavabını verdi.

Nəsrəddin Məhəmmədiyevin söhbətindən belə anladım ki, ciddi bir xəstəliyi yoxdur. Bürokratik əngəllərə görə məzuniyyət götürüb dincəlməyə gedə bilmədiyindən buraya gəlib. Bura xəstəxana adlansa da, sanatoriya kimidir.

Nəsrəddin Məhəmmədiyev xidməti maşınını çağırdı ki, bizi aparıb hansısa bir restoranda qonaq etsin. Buna Qulu bəy də, mən də razı olmadıq. Sağollaşıb ayrıldıq.

Axşam Qulu bəy şamı türklərin açdığı kafedə şam etməyi məsləhət gördü. Türklər yüksək xidmət mədəniyyəti ilə kafeni gözəl istirahət mərkəzinə çevirə biliblər. Adam çox olduğundan yarım saata qədər gözlədik. Əslində orada biz yeməkdən çox Özbəkistanın durumundan söhbət etmək üçün oturmuşduq.

Söhbət zamanı Qulu Kəngərliyə zəng gəldi. Zəng vuran Azərbaycan İctimai Televiziyasının Türküstan müxbiri Ədalət Məmmədov idi. Ona Səmərqənddən veriliş hazırlamağı tapşırmışdılar. Almatıdan Daşkəndə gəlirdi. Özbəkistandakı "mədəniyyət elçimiz" onu qarşılamaq üçün hava limanına gedəcək, saat 22.00-də onu qarşılayacaq, sonra da birlikdə Səmərqəndə gedəcəkdilər.

Həmin vaxta kimi Daşkənd axşamlarını seyr etdik. Sonra Qulu Kəngərli məni Azərbaycanın Daşkənddəki Mədəniyyət Mərkəzinin komendantı Yavərin kirayə qaldığı evə qoyub Ədalət bəyi qarşılamağa getdi.

Ğulam Kariminin evində

Sentyabrın 19-da günortaya yaxın Qulu Kəngərli gəldi. Maşına oturub Ədalət Məmmədovu görməyə getdik. Birlikdə nahar etdik. Sonra şəhəri gəzdik.

Axşam Tahir Kahhar, Ədalət Məmmədov, Yavər, Qulunun maşınında ilə qonaq çağırıldığımız evə doğru yola çıxdıq. Evi tapmaq o qədər də asan olmadı. Səmti müəyyənləşdirmək üçün Ğulam Karimi ilə bir neçə dəfə əlaqə saxladıq. Evin Türküstan səmtində olduğunu eşidəndə, elə bildim, Sovetlər Birliyi çökəndən sonra Daşkənddə Türküstan adlı yeni məhəllə salıblar.

Qulu Kəngərli dedi ki, Sovet dövründə Türküstan sözünü unutdurmaq üçün Moskva çox çalışdı. Buranı 5 yerə, 4 respublika və 1 muxtar respublikaya parçaladı. Yeni yaratdığı inzibati vahidlərin sərhədlərini elə çızdı ki, istədiyi vaxt milli münaqişə yarada bilsin. Qazaxların toplu yaşadığı bir bölgəni Özbəkistana verdi, özbəklərin toplu yaşadığı bölgəni Qırğızıstanın sərhədləri daxilində saxladı. Özbəklərin toplu yaşadığı rayonlar Türkmənistana, Türkmənistan toplu yaşadığı kənd və rayonlar Özbəkistana verildi. Tacikistanın da sərhədləri belə mübahisəli oldu.

Moskva Türküstan sözünü yaddaşlardan silməyə çalışsa da, bəzən qəlblərdən çıxara bilmədi. Daşkənd şəhərinə bitişik salınmış hərbi şəhərcik Türküstan adlandırıldı. Çünki burada SSRİ-nin ən böyük hərbi bazası olan Türküstan Hərbi Dairəsi yerləşirdi.

Uzaq bir yol keçib, Daşkəndin başına dolanıb çağırıldığımız vaxtdan 2 saat sonra Ğulam Kariminin evinə gəldik.

Şəhərin kənarında, Vodnik adlanan məhəllədə Ğulam Karimi özünə geniş həyət evi tikdirib. 2007-ci ilin noyabrın 13-15-də Aşqabad şəhərində "Abulsait Abulhayrı Gündoğarın böyük ağıldarı. Uluslararası elmi konfrans"da tanış olduğum tərcüməçi, alim Erqaş Oçilov, ilk dəfə gördüyüm şair, tərcüməçi, ədəbiyyatşünas Abduxamid Parda (Oo, Pardayev familiyasının pərdə sözündən yarandığını söylədi), Ali İhsan Çağlar və b. da burada idilər. Əsasən ədəbiyyat, tarix, ədəbi-mədəni əlaqələr mövzusunda olan söhbətlərimiz ölkənin ictimai-siyasi vəziyyətindən yan keçmirdi. Bu zaman Tahir Kahhar "cənnətdə mübahisə ola bilməz!" deməklə mətbuatın, rəsmi dairələrin Özbək xalqının cənnətdə yaşadığını yazmasına istehza edərək bizi də güldürdü.

Azərbaycan-Özbəkistan əlaqələrini yaxşılaşdırmaq söhbətimizin əsas mövzusu idi.

Ğulam Karimi ötən görüşlərimizdə mənə 2002-ci ildə nəşr etdirdiyi "Sohibqiron ve alloma (Tarixi qissalar)" kitabına avtoqraf yazaraq bağışlamışdı. İşdə "Utamış Hacı ibn Muhammad Dustiy. Utamış Hacı Tarixi (16-cı əsirə aid türkiy tilinde yazılqan tarixi manba) kitabına "Aziz Ali Şamil akamqa ehtorom ilə, Ğulam 18 sentyabr, Toşkent", evdə isə "Muğanna" kitabına "Aziz Ali Şamil akamqa ehtiram ila, Ğulam 19 sentyabr. 2009" avtoqrafı yazaraq bağışladı.

Abduxamid Parda da 2008-ci ildə nəşr edilmiş "Dustnoma (dostan)" kitabına "Ustaoz Ali Şamilqa!

Ham Alisiz, ham da Şamilsiz,
Dostluqumuz üçün omilsiz,
Sizqa kanca tağzim kilcak oz,
Nizamiy sinqari komulsiz!
Abduxamid Parda,
19.09.2009 yil.

"Ustaoz Ali Şamilğa! Kamali ehtiramğa. 19.09.2009 yil", və "İçsuz ifşosi (Turtliklar, tuyuklar, fardlar)" kitabına Ustaoz Ali Şamilğa! Ehtorom bilan müallif. 19.09.2009 yil", 2009-cu ildə nəşr etdirdiyi "Şoplov (şeirlar tuplami)" kitabına "Ustaoz Ali Şamilğa! Kamoli ehtorom ila müallif. 19.09.2009 yil", Erqaş Oçilov də fars və tacik dillərindən etdiyi "Minq bir ruboiy" tərcümələr toplusuna "Kadirli ağam Ali Şamilğa dustona alakalarımız doimiy bulişini tilar: Erqaş. 2009 yil. 19 sentyabr" avtoqrafını yazıb bağışladılar.

Xalid Səid Xocayevin həyat və yaradıcılığından da xeyli söhbət etdik. Səhər onun doğulduğu Bostanlıq rayonunun Koşkurqan kəndinə gedəcəyimizi söylədik. Söhbətimiz Ədalət bəyin diqqətini çəkdi. O da imkandan yararlanaraq ictimai televiziya üçün veriliş hazırlamaq istədiyini bildirdi. Beləcə, Koşkurqana gedəcək dəstəmiz böyüdü.

Koşkurqan qışlağına doğru

Özbəklər kəndə əsasən qışlaq deyirlər. Azərbaycanda da Qqışlaq adlı kəndlər çoxdur və onların bir çoxu bu gün dilimizdə işlədilən, qışlaqda, isti yerdə deyil, dağlıq ərazilərdə yerləşir. Çox vaxt bu qışlaq kəndlərinin adının önünə bir söz də əlavə edilir. Məs.:, Qara Qışlaq, Yuxarı Qışlaq, Aşağı Qışlaq, Qızıl Qqışlaq və s. kimi. 19-cu yüzilin qeydiyyatlarında qışlaq adlı kəndlər indikindən 2-3 dəfə çox görünür.

Sentyabrın 20-də səhər tezdən Qulu Kəngərli Ədalət Məmmədovu da götürüb mənim arxamca gəldi. Tahir Kahharın bizə bələdçilik edəcəyini şərtləşdiyimizə görə onun arxasınca getdik.

Tahir bəy maşına minəndə Ortukboy Abdullayevi də aparacağımızı dedi. Sən demə, o, axşam Xalid Səid Xocayevlə eyni rayonda doğulan, "Jahon adabiyotı" jurnalında işləyən, Özbəkistanın Əməkdar Mədəniyyət xadimi, filologiya elmləri namizədi Ortukboy Abdullayevdən məsləhət almaq istəyib. Ortukboy Abdullayev onu da aparmağımızı xahiş edib. Tahir Kahhar da fikirləşib ki, Ortukboy Abdullayevin bizimlə getməsi işin xeyirinə olar. Lakin yolun uzaqlığını, maşında sıxlıq olacağını nəzərə almayıb.



Şəkildə: soldan Hadi Zərip, onun qucağındakı Xalid Səidin qızı Behcə, Hadı Zəripin bacısı Xatirə, Xalid Səidin xanımı Sona (Sitarə), ..., ..., Xalid Səid, Hadi Zəripin bacısı Jamila.

Səhər saat 8.00-da yola çıxmağı planlaşdırmışdıq. Tahir Kahharı evinin qarşısından götürüb Ortukboyun yaşadığı məhəlləyə getdik. Yaşı 70-i haqlamış Ortukboy 12-13 yaşlı nəvəsilə yol kənarında durmuşdu. O, nəvəsini də özü ilə aparacağını söylədi. Etiraz etməyə üzümüz gəlmədi. Saat 11.00-da Daşkənddən şəhərlərarası yola çıxa bildik.

Daşkənddən çıxarkən Koşkorğana neçə kilometrlik yol olduğu mövzusunda söhbət düşdü. Mən: "Xalid Səid Xocayev özkeçmişində Daşkənddən Koşkurqana 25 kilometr olduğunu yazır," – dedim. Tahir Kahhar və Ortukboy isə yolun 50 kilometrə

yaxın olduğunu söylədi. Qulu Kəngərli məsafəni dəqiqləşdirmək üçün maşının yolölçənini işə saldı.

Tanrı dağlarının güneyindəki Çatkal silsiləsinin ətəklərinə doğru uzanan yolla Qırğızıstana doğru irəlilədik. Tacikistan-Özbəkistan-Qırğızıstanı birləşdirən beynəlxalq yol çala-çuxurlu olduğundan Qulu Kəngərli maşını saatda 45-50 kilometrlə sürürdü. Yol kənarındakı işarələr isə sürücülərə saatda 90 kilometr sürətlə getməyə icazə verirdi.

Çirçik şəhərinə çatdıq. Şəhərin girişində ilk diqqətimi çəkən pravoslav kilsəsi oldu. Tahir Kahhardan "Burada ruslar çoxmu yaşayır?" deyə xəbər aldım. O, "indi çox deyillər, Sovet dövründə çoxuydular. Burada hərbi zavodlar vardı. İşçilərinin əksəriyyəti də ruslar və rusdillilər idi. Kilsə isə çarlıq zamanı tikilib. Ruslar Daşkəndi mühasirəyə alanda Çirçik çayının qarşısını kəsərək şəhəri susuz qoyublar. Buna baxmayaraq, mühasirə 40 günədək davam edib. Qaynaqların verdiyi bilgiyə görə, rus hərbçiləri malqaranı öldürüb Daşkənd qalası yaxınlığında Çirçik çayına töküblər. Suda qalan leşlər şişib. Çay yatağından çıxıb. Şəhərə su getməyib. Ölmüş heyvan leşlərinin arasından keçib gedən sudan içən şəhər əhalisi xəstəlik tutaraq məhv olub. Mühasirə günlərində 20 min müsəlman öldürülüb," – deyərək bizi bilgiləndirdi.

Çirçik şəhərindən 3-5 kilometr sonra yolun sağındakı lövhədə "Bostanlıq" yazısını oxudum. Demək, Xalid Səid Xocayevin özkeçmişində adını

çəkdiyi rayona çatmışdıq. Xeyli getdikdən sonra yol kənarındakı lövhə Qaramanasa (Goranboy rayonunda da Manas adlı kənd vardı. Bizim "ağıllı"lar onu Minas bilib adını dəyişdirdilər) catdığımızı xəbər verdi. Tahir Kahhar: "Bu kənddə qazaxlar yaşayır. 20-ci yüzilin 60-cı illərində Koşkurqanı və ətrafdakı kəndləri də buraya birləşdirib sovxoz yaratmışdılar. Adını da Abay qoymuşdular. Bostanlıq rayonu 1924-cü ildən – 1956-cı ilədək Qazaxıstan SSR-in ərazisinə daxil idi. Rayonda qazaxların sayı da özbəklərdən çox idi. İndi xeyli azalıblar," – dedi.

Qaramanasdan azacıq aralanmışdıq ki, yolun sağında Koşkurqana yazılmış lövhəni gördüm. Sanki ruhum bədənimdən uçdu. Demək, arzularım çin oldu. Xalid Səid Xocayevin doğulduğu kəndə çatdıq.

Çirçik çayı kəndlərin quzeyə doğru böyüməsinə əngəl olduğundan kəndlər çay boyu uzanıb və yamaclara doğru enlənib. Beləcə, Qaramanasla Koşkurqan böyüyərək az qala bir-birinə bitişib. Ortukboyın dediyinə görə, Koşkurqanın əhalisinin yarıdan çoxu köçsə də, kənddə qalanların sayı 10 min nəfərdən çoxdur.

Xalid Səid Xocayevin kəndində

Kəndin ortasında, yol kənarında dükan və yeməkxana olan bir yerdə maşını saxladıq. Qulu Kəngərli Daşkəndin kənarından buraya 40 kilometr olduğunu

söyləyəndə Ortukboy Abdullayev “Daşkəndə gedən köhnə yol kəndin aşağısından, Çirçik çayından keçdiyindən xeyli kəsə idi. Görünür, ona görə Xalid Səid Xocayev Daşkəndə 25 kilometrlik bir məsafə olduğunu yazıb,” – dedi. Xalid Səidin yaşadığı evi və qohumlarını axtarmağa başladıq.

Yol kənarında söhbət edən yeniyetmələr gəlmə olduğumuzu görüb bizə kömək etmək istədilər. Kəndin içərisinə doğru uzanan yolu göstərərək izah etməyə başladılar. Onları səbirlə dinlədik. Gördük ki, onlar bizə Xalid Səid Xocayevin ata evini deyil, başqa birisinin evini nişan verirlər. Biz Xalid Səid Xocayevin yaşadığı evi görmək istədiyimizi və onun qohumlarından, onu tanıyanlardan bilgi almaq istədiyimizi söylədik. Gənclər bir-birinin üzünə baxdılar. Xalid Səid Xocayevi tanıyan olmadı. Məlum oldu ki, bu kəndə gələnlərin əksəriyyəti Alim Təbib deyilən birisinin evini xəbər alır. Onlar da bizə Alim Təbibin evinə gedən yolu göstərmək istəyirlərmiş. Dükandakılardan, yeməkxanadakılardan da xəbər aldıq. Heç kim tanımadı.

...İxtisasca tibb işçisi olan, ekstrasenslik və xalq təbabətiylə məşğul olduğuna görə bölgədə Alim Təbib adıyla məşhurlaşmış insan ona müraciət edənləri özünün bildiyi metodlarla müalicə edir. Özbəkistanın müxtəlif bölgələrindən, Qazaxıstandan, Qırğı-zıstandan, Tacikistandan və b. yerlərdən də onun yanına gəlirlər (Bbir neçə gün sonra Ürgəncə gedəndə

professor Jumaboay Yusupov da mənə Alim Təbibdən söz açdı. Onu və xanımını müalıcə etdiyini söylədi. Alim Təbiblə görüşmədiyimizə təəssüfünü bildirdi).

Qərarlaşdıq ki, kənd orta məktəbinə gedək. Bəlkə, müəllimlər köməyimizə çata. Kəndin içərisinə doğru gedən ortaboylu, yaşı 60-ı keçmiş birisi yad adamların darda qaldığını görüb özü bizə yaxınlaşdı. Tanış olduq. Yoldaşxoca Buzurxoca oğlu kənd məscidinin imamı olduğunu söylədi. Ortukboy Abdullayev və Tahir Kahhar Azərbaycandan olduğumuzu, Xalid Səid Xocayevin ata evini görmək istədiyimizi, qohumlarını axtardığımızı bildirdilər.

Yoldaşxoca Buzurxoca oğlunun sifətinə bir təbəssüm qondu. Gəncliyində mexanizator işləmiş bu adamın yolundan dönərək bizə bələdçilik etməsi hamımıza xoş təsir bağışladı.

Cəld və çevik hərəkətli Yoldaşxoca mağgistral yoldan sola dönüb kəndin içərisinə doğru irəliləməyə başladı. Biz də onun ardınca. O, yol kənarındakı evləri göstərərək deyirdi: “Bunlar son 20-30 ildə tikilib. Köhnə kənd Çirçik çayının yanında idi.

Bir zaman nəinki bu kənddə, Özbəkistanın heç bir yerində Xalid Səid Xocayevin adını çəkmək mümkün deyildi. 1937-ci ildə həbs edilənlərin, güllələnənlərin çoxuna 1956-cı ildə bəraət versələr də, adamlar uzun müddət repressiya olunanların adını çəkməkdən qorxurdu. İndi siz Azərbaycandan durub buraya

gəlibsiniz ki, onunla bağlı nəsə öyrənə, xalqa çatdırasınız.

Sovet hökumətinin siyasətindən baş çıxara bilmədim. Xalid Səid Xocayevə Azərbaycanda vəzifə verdi, imkan yaratdı ki, Özbəkistandan tələbə aparıb oxutsun. Sonra da onu həbs edib, güllələdi. Adını çəkəni cəzalandırdı. Azərbaycanlı Əliyevlərin ailəsini Özbəkistana sürgün elədi, sonra övladını yol polisinə rəis təyin etdi.”.

Xalid Səid Xocayevin ata ocağında

Yoldaşxoca Buzurxoca oğlu ilə söhbət edə-edə kəndin içərisinə doğru bir kilometrdən çox irəlilədik. Məscidə az qalmış sola doğru döndü. Bir-iki həyəti keçdikdən sonra sağdakı bir evin qapısında dayanıb səslədi. Cavab verən olmadığını gördükdə darvazanı itələyıb içəri keçdi. Sentyabr olsa da, hava bərk isti idi. Biz də günəşin yandırıcı şüalarından qurtulmaq üçün dəvət gözləmədən özümüzü dəhlizə saldıq. Uzun dəhliz olduqca sərin idi. Min illərin sınağından çıxmış xalq memarlığına ürəyimdə bir daha “əhsən” dedim. Heç bir enerji xərcləmədən, kondisioner və soyuducu işlətmədən evlərdə sərinlik yarada biliblər.

Bələdçimiz Yoldaşxoca Buzurxoca oğlu həyətə doğru irəliləyə-irəliləyə ev sahiblərini səsləyirdi. Onun səsinə yaşlı bir qadın gəldi. Onlar özbəkcə danışa-danışa bələdçimiz bizə əlilə dəhlizin başındakı

taxtda oturmağı işarə etdi. Oturduğumuz taxtdan həyət aydın görünürdü. Evlər və divarla əhatələnmiş kiçik torpaq sahəsinin hər qarışından səmərəli istifadə edildiyini gördükdə yadıma Ordubaddakı həyətlər düşdü. Dəhlizdə 25-30 kiloqram təzə dərilmiş xiyar vardı. Həyətdə isə 4-5 xiyar tağı görünürdü. Bu yerlərdə ya torpaq olduqca məhsuldardır, ya da insanlar bol məhsul yetişdirməyi yaxşı bacarırlar.



Şəkildə **Xalid Səid qohumları arasında**

Ev sahibi gələnədək Yoldaşxoca ilə xeyli söhbət etdik. Bizim bəzi kəndlərdə seyidlər çox olduğu kimi, Koşkurqanda da xocalar çoxluq təşkil edir. Kənd imamı bizə xocaların tarixindən, ruslar gəldikdən sonra və Sovet hakimiyyəti illərində onlara tutulan

divandan ürəkağrıdan söhbətlər etdi. Azərbaycanda baş verənlərin eynisini Yoldaşxocadan eşidirdik.

Həbslərdən, hakimiyyətə etiraz edənlərin evindən-eşiyindən didərgin düşərək qaçaqlıq etmələrindən, basmaçı hərəkatından, müharibə illərində onlarla yetim rus uşağını neçə böyüdüb boya-başa çatdırdıqlarından, Azərbaycandan sürgün olunanların çəkdikləri əziyyətdən danışdı.

Sonra da bizim kənddə nə qədər qalacağımızla maraqlandı. İki-üç saata işimizi bitirib gedəcəyimizi bildirəndə təəssüflə dedi: "Özbəkistana sürgün edilən azərbaycanlıların uşaqları ağıllı və qoçaq çıxdılar. Əksəriyyəti ali təhsil aldı və yüksək məqam sahibi oldu. Xalq arasında nüfuzları böyükdür. 1930-cu illərdə Özbəkistana sürgün olunan Əliyevlər ailəsi ilə uzun illərdir dostluq edirik. Bir gün qalsanız, sizi tanış edərdim. Çirçikdə dövlət yol polisinin rəisi işləyirdi. Xeyirxah və mehriban ailədir. Yerlilərinin Xalid Səid Xocayevlə maraqlandığını bilsə, sevinər və sizə köməyi dəyər". Təşəkkürümüzü bildirir, Əliyevin ailəsilə tanışlığı sonraya saxlayırıq. Yoldaşxoca Buzurxoca oğluna təsbeh və dini kitablar bağışlayıram. Hədiyyələr kiçik olsa da, kənd məscidinin imamını çox sevindirir.

Bir azdan evin sahibi, Xalid Səidin qardaşı Əhməd Xocanın oğlu Həmdulla gəldi. Yoldaşxoca Buzurxoca oğlu və Tahir Kahhar bizi ev sahibinə

tanıdır. Ondan söhbətlərimizi lentə yazmağa və televiziya verilişi çəkməyə icazə verməsini istədik.

Həmdulla razılaşdı. Üzgün halda bizə qədərincə bilgi verə bilməyəcəyini söyləyib üzrxahlıq etdi. Bildirdi ki, repressiya zamanı evdə olan kitabları, qəzetləri, fotoşəkilləri, ərəb əlifbasıyla yazılı nə varmışsa, hamısını valideynləri yandırıb. Hətta özlərini təqibdən qorumaq üçün Xocayev familiyasından imtina edərək Əliyev familiyasını qəbul ediblər. Əliyev Özbəkistanda az yayılmış familiyadır.

Bu cür ehtiyat tədbirləri görmələrinə baxmayaraq, təqib və təzyiqlərdən yaxa qurtara bilməyiblər. Yaşadıqları evi onların əlindən alaraq ambulatoriya ediblər. Ambulatoriya da baxımsızlıqdan 1960-cı illərdə uçub xarabazarlığa çevrilib.

Həmdulla yana-yana deyir ki, atam müharibədə həlak olmasına, ailəmiz uşaqlı-böyüklü kolxozda işləməsinə baxmayaraq, ata-baba mülkümüzün xarabasını bizə vermirdilər. Məcbur qalıb xarabalığı pulla aldıq. Babamızın evini olduğu kimi bərpa etməyə çalışdıq. 1970-ci illərdə güzəranımız yaxşılaşanda indi oturduğunuz evi tikdik.

Ondan əmilərinin adlarını və onların övladlarını xəbər aldıqda çətinliklə əmisi Soltan xocanı, Rəhmət xocanı, Xalid Səidi və bibisi Rıxsanı xatırladı. Rıxsanın evi onların yaxınlığında olduğunu və 4-5 il əvvəl rəhmətə getdiyini söylədi.



Şəkildə Xalid Səidin nəslinin davamçıları Kanadada

Həmdulla bildirdi ki, onlar üç qardaş olublar. Müəllim olan böyük qardaşı Feyzulla bir neçə il məktəb direktoru işləyib. Xalid Səidin tanınması, təbliği üçün çox çalışırmış, onun təşəbbüsü ilə kənd məktəbinə və kəndin bir küçəsinə Xalid Səid Xocayevin adı verilibmiş. Nə yazıq ki, 1990-cı illərdə ləğv edilib.

O, özünün və kiçik qardaşı Əzizullanın savadsız olduqlarından əmilərinin tanıdılmasında bir iş görə bilmədiklərini də xəcalətlə söylədi və əmisi Rəhmətin Daşkənddə yaşayan Lara adlı qızı ilə çoxdan əlaqələri kəsildiyini bildirdi. Əmisi Soltan xocanın da öldüyünü, onun Səidinasır adlı lal bir oğlu qaldığını və kənddə

yaşadığını, onlardan da elə bir bilgi ala bilməyəcəyimizi söylədi.

Xalid Səidin ocağında yaşayan Həmdullanın 5 övladı və iki nəvəsi var. O, 1960-cı illərdə Xalid Səidin qızı Bəhcənin Koşkurqana gəldiyini, bir neçə gün onlarda qonaq qaldığını da xatırladı.

Tahir Kahhar isə bildirdi ki, yalnız Xalid Səidin deyil, bütün məktəblərdən adlar götürülüb. Sovet dönəmində məktəblərə Rusiyaya xidmət etmiş, özbək xalqının müstəqilliyinə və azadlığına zərbə vurmuş insanların, xüsusən də rusların adı verildiyindən rəsmi fərmanla məktəblərdən şəxslərin adı götürüldü və məktəblər ölkə üzrə sıra nömrəsilə qeyd edildi.

Ədalət Məmmədov da İctimai televiziyaya veriliş hazırlamaq üçün Xalid Səid Xocayevin doğulduğu və uşaqlığını keçirdiyi evi, həyət-bacanı çəkdi, Həmdulla Əliyevlə söhbətlərimizi lentə aldı.

Repressiya qurbanı Elbəyin qışlağına doğru

Koşkurqanda işimizi yekunlaşdırıb Qulu Kəngərlinin maşınıyla Çirçik çayı boyunca üzüyuxarı qalxırıq. Bu yol bizi 1926-cı ildə keçirilən Birinci Türkoloji qurultayın iştirakçısı Elbəyin (İlbek) doğulduğu kəndə doğru aparır. 1937-ci ildə Bakıda həbs olunan millətçilərin istintaq materiallarında onun adı da tez-tez çəkilir.

50-60 kilometr sonra çay üzərində qurulmuş bəndə çatırıq. Bəndin aşağısında kiçik yeməkxanalar, yüngül xidmət müəssisələri Sovet dövrünü xatırladır. Burada dəryaçadan tutulmuş balıq yeməklə naharı yola veririk. Sonra Ortukboy Abdullayevi və nəvəsini bəndin sol sahilində, dəryaçadan bir azca aralıdakı bağına aparırıq. Dağ yamacındakı bağçalarda kiçik, taxtadan və dəmir parçalarından qurulmuş sığınacaqlar gözə dəyir. Belə bir sığınacaqlardan birinin yanında Ortukboy və nəvəsi maşından enir.

Tahir Kahhar əlini dərə yuxarı uzanan yola doğru uzadaraq: "Bu yolla üzüyuxarı getsək, Çingiz Aytmatovun doğulduğu kəndə çatarıq," – dedi. Bizim planımızda təkcə Aytmatovun kəndini deyil, Elbəyin kəndini də ziyarət vardı.

Bəndin aşağısından körpünü keçib sağ sahildə yamaca doğru qalxan yola tərəf üz tuturuq ki, şair Elbəyin kəndinə gedək. Tahir Kahhar deyir: "Azərbaycanlı şair Mikayıl Müşfiqlə Elbəyin taleyi arasında bir oxşarlıq var. Müşfiq Bakıda doğulsa da, şeirlərində ata-baba kəndi Sayadlını tərənnüm edib. Sayadlı Bakıya ən yaxın olan Xızı rayonunun kəndi olduğu kimi, Elbəyin də döğulduğu kənd Daşkəndə ən yaxın olan Bostanlıq rayonundadır. Adı və familiyası Məşriq Yunusov olan Elbək 1898-ci ildə Daşkənd vilayətinin Bostanlıq qəzasında anadan olsa da, ailələri yoxsulluq üzündən 1911-ci ildə Daşkəndə köçüb. O, kiçik yaşlarından fəhlələlik edib. Boş vaxtlarında

məktəbə gedib. Mətbəədə fəhləlik etməsi onun dünyagörüşünü formalaşdırıb. 1917-ci ildən şeirləri mətbuatda çap olunmağa başlayıb. 1920-ci ildən texnikumda, mədəni quruculuq institutunda müəllimlik edib. "Turan", "Türk sözü", "Ulu Türküstan" adlı ilk şeirlərindən millət və xalq dərdi ilə yanan şair kimi diqqəti cəlb edib.

Şair "Dil" şeirində yazıb:

Qəmli quşum, cəh-cəh vurub gəl söylə,
De kimlərdir türk dilini satanlar?
Bülbül kimi cəh-cəh vuran bu dili
Utanmadan bu ölkədən atanlar?
Baldan şirin, candan əziz türkcəni
Düşünmədən qəflət içrə yatanlar?
Oxu, quşum, yax onların canını!
Göylərə yay türk dilinin şanını!
Burax, onlar yoldan azıb batsınlar,
El içində boşboğazlıq satsınlar!

(Burada Tahir Kahharın söylədiyi şeirin Ramiz Əsgər tərəfindən Azərbaycan türkcəsinə çevrilmiş variantını verməyi münasib saydıq – Ə.Ş.).

Milli və vətənpərvər şeirlərinə, ictimai fəaliyyətinə, gizli antisovet təşkilatında iştirakına görə onu turançılıqda ittiham edərək 1937-ci ildə həbs ediblər. Hüseyn Cavidlə təxminən eyni vaxtda uzaq və soyuq Maqadandakı həbsxanaya göndəriblər. Şair yaşda Hüseyn Caviddən xeyli cavan olsa da, sərt

iqlimə dözə bilməyib. 1939-cu ildə orada dünyasını dəyişib".

Adı çəkiləndə özbəklərin həmişə kədər və qüssə ilə xatırladıqları Elbəyin 1999-cu ildə şeirlərini toplayaraq "Jahon adabiyoti" kitabxanası seriyasından çap ediblər. Yol yoldaşımız olan Ortuqboy Abdullayevin tərtib etdiyi və yığcam son söz yazdığı 142 səhifəlik "Munqulu kuşum" kitabı əl böyüklükdədir. Tirajı da cəmi üç mindir. 25 milyonluq özbək xalqının sevimli şairinin kitabı üç min çap olunur! Amma oxucusu olub olmayacağı bilinməyən kitablar 100 min tirajla, yüksək bədii tərtibatla nəşr edilir.

Axşam saat yeddiyə ancaq Daşkəndə gəlib çata bildik. Tahir Kahhar evə zəng vurub çay süfrəsi açdırdığını desə və nə qədər təkid etsə də, onlara getməyi başqa vaxta saxlayıb, Qulugilə gəldik. Xanımının açdığı gözəl bir Azərbaycanlı süfrəsi bizi gözləyirdi. Süfrə arxasında söhbətimiz tarixdən, azərbaycanlıların sürgün olunmasından getdi. Gecəni Yavərin yanına gələndə Qulu Kəngərlidən xahiş etdim ki, səhər tezdən gəlib məni yola salmağa cəhd göstərməsin. Yavər məni yola salar.

Ürgəncdə "toxum" yeyib "dəmlən"dim

Sentyabrın 21-də saat 5.00-da yuxudan durdum. Yavəri rahatsız etməmək üçün qəlyanaltı etmədim. O, məni hava limanına gedən magistral yoladək gətirdi.

Çünki Daşkənddə öncədən taksi çağırmaq xidməti hələ yoxdur.

Yavər yoldan keçən bir maşını saxladı. Hava limanına gedəcəyimi söylədi. Sürücü 3 min som istədi. Özbək somum olmadığından 2 dollar verdim. Sürücü sevincək yola düşdü. 15 dəqiqəyə məni hava limanına catdırdı.

Daşkənddən saat 7.00-da havaya qalxan təyyarə saat 9.30-da Ürgəncə endi. Professor Jumaboay Yusupov oğlu Muradla məni qarşıladı. Hava limanından o qədər də uzaq olmayan evlərinə gətirdilər. Kiçik həyətyanı sahəsi olan birmərtəbəli və geniş ev özbək qaydasında döşənmişdi. Qəhvəaltı süfrəsinə əyləşdik. Jumaboay "toxum yeyirsənmi?" deyə soruşanda "ovo" dedim. Bilirdim ki, özbək və uyğurlar yumurtaya toxum deyirlər. "Ovo" cavabım ev sahibinin çox xoşuna gəldi.

Süfrə yığışdırıldı. Gecə yaxşı yatmadığımdan mürgüləyirdim. Jumaboay "dəmlənirsənmi?" deyəndə sözün mənasını başa düşmədim. Bir az fikrə getdim. Sözün özbəkcə mənasını başa düşməsəm də, fəhmlə nə demək istədiyini anlamağa çalışdım. Dəmlənməyin iki mənası yadıma düşdü. Birincisi, spirtli-alkollu içki içib dəmlənmək, məst olmaq. Səhər yeməyində, adətən, spirtli içki içilmir. Jumaboay da qəlyanaltıda içki təklif eləməmişdi. Yeməkdən sonra da içki içilməz. Düşündüm ki, o, mənə içki təklif etmir.

Yadıma sözün ikinci mənası, çayı dəmə qoymaq düşdü. Çayın üstünə qaynar su tökəndən sonra 5-6 dəqiqə gözləyirik ki, dəmlənsin. Yəni çaynikdəki çayın üzərinə tökülmüş su dincəlsin. Çay da sakitləşib çaynikin dibinə çöksün. Düşündüm ki, özbəklərdə dəmlənmək dincəlmək, istirahət etmək mənasında ola bilər. Ona görə "ovo" cavabı verdim.

Jumaboay mənə çarpayıda yataq açmağa çalışdı. Xahiş etdim ki, balınc və adyal versin. Xalçanın üstündə uzanıb yatacam. Gülümsəyərək "mən də xalçanın üstündə yatmağı sevirəm. Onda daha yaxşı dəmlənirəm," – dedi.

Jumaboay balınc və adyal gətirənədək mən çantamdan pijamamı çıxarıb geydim. O, içəri girəndə gördüm ki, balınc və adyaldan başqa təzə bir pijama da gətirib. Bir saata yaxın dincəldikdən sonra Xivə şəhərinə yola düşdük. Oğlu yolda maşının sürətini qaldıranda Jumaboay ona xəbərdarlıq edərək sürəti endirməsini tapşırdı.

Jumaboay Yusupovla 2009-cu il martın 11-13-də Aşqabadda keçirilən "Səlcuqlar dövrünün ədəbiyyatı və mədəniyyəti" Uluslararası simpoziumda tanış olmuşduq. Toplantıların ağırlığını çiynində daşıyan Kakacan Janıbəyov məni görən kimi dedi: "Özbə-

kistandan gələn Jumaboay Yusupov səni səbirsizliklə gözləyir”[1].

Ürəyində böyük bir Azərbaycan sevgisi daşıyan, Azərbaycanla əlaqələrin gündən günə yaxınlaşması üçün əlindən gələni əsirgəməyən özbək folklorçusu və ədəbiyyatşünası Jumaboay Yusupova ilk görüşdən qəlbim isinmişdi.

Xivədə Nəsiminin “cəlladı” ilə görüş

Özbəklər Xivəni nisbətən yaxşı qoruyaraq açıq səma altında muzeyə çeviriblər. Firuzəyi kaşılarla bəzənmiş binalar göz oxşayır. Günümüzədək gəlib çatmış bu binaların hər birinin tarixindən kitab yazıla bilər. Bələdçiliyi Jumaboay etsə də, ya vaxtın darlığından, ya da buraya çoxlu qonaqlar gətirdiyindən şəhər və binalar haqqında o qədər geniş bilgi verməyə çalışmırdı. Ədəbiyyatdan, gündəlik məsələlərdən, Azərbaycanın durumundan söhbət edə-edə gedirdik.

Arxadan gələn “Azərbaycanlı!” çağırışına ikimiz də döndük. Divar dibində köhnə stullarda oturub söhbət edənlərdən ən yaşlısı ayağa qalxmağa çalışdı. “Azərbaycanlı!” deyə səslənənin yanına getdik. Salamlaşdıqdan sonra bizə oturmağa yer göstərib, çay

[1]Jumaboay Yusupovun dünyadan köçdüyü günlərdə haqqında yazıb Azərbaycan mətbuatında çap etdirdiyim məqaləni kitaba daxil etdiyimdən buradan bəzi parçaları təkrarçılığa yol verməmək üçün ixtisar etdim.

sifariş etmək istədi. Çay içməyəcəyimizi bildirsək də, yanında oturduq. Məlum oldu ki, Jumaboay Yusupovla bir-birlərini tanıyırlar.



Şəkildə soldan Əli Şamil və Nəsiminin "cəllad"ı Şıxnəzər Mətrəsulov Xivədə

Heç bir tərcüməçiyə ehtiyac duymadan onun özbək və mənim Azərbaycan türkcəsində olan söhbətimiz yadımda belə qalıb:

– Məni tanıdınmı?

– Yox.

– Ola bilməz!

Yaddaşımı itiləşdirməyə çalışıram. Tanıdığım özbəkləri yada salıram. Heç birinə bənzədə bilmirəm. Onun sual dolu baxışlarından yaxa qurtarmaq üçün:

– Görünür, qocalıq öz işini görüb. Sizinlə harada tanış olduğumu xatırlaya bilmirəm – deyərək vəziyyətdən çıxmağa çalışıram.

O, yenə məni suala tutur:

– "Nəsimi" filminə baxmısanmı?

– Baxmışam.

– Məni yenə tanımadın?

– Yox.

– Mən Nəsiminin cəlladıyam!

Onun bu sözünə məndən çox Jumaboay heyrətləndi. "Azərbaycanfilm"in 1973-cü ildə çəkdiyi "Nəsimi" filminə bir neçə dəfə baxsam da, onu xatırlaya bilmədim. Hazırda Özbəkistan Fənlər (Elmlər) Akademiyasıı Xivə Tarixi Filialında işləyən, tarix elmləri namizədi Şıxnəzər Mətrəsulov "Nəsimi" filminin Xivədə çəkilməsindən, Həsən Seyidbəyli ilə dostluğundan, rejissorun onu epizodik rolda – cəllad rolunda çəkdiyindən danışdı.

O, Ziya Bünyadovu, Həsən Seyidbəylini, futbolçu Kazbek Tuayevi soruşduqca mən hər dəfə "Allahın rəhmətinə qovuşub", "dünyasını dəyişib", "dünyadan köçüb" və s. deməli olurdum. Bir anlıq susdu. Sonra yazıq-yazıq və kədərlə üzümə baxıb: "Hamısı gedib, mən qalmışam?" – deyə cavabsız bir sual verdi. Sualı mənəmi verirdi, ətrafındakılaramı, yoxsa özünəmi? Azərbaycandakı dost və tanışlarını xatırladıqca kövrəlirdi.

– Əvvəllər çox gəlirdiniz, tez-tez gəlirdiniz. Son illər gəlmirsiniz. Sizsiz darıxırıq. Gəlin, özü də tez-tez və çox gəlin. Onda biz də sevinir, qürurlanırıq – dedi.

Cib telefonu işlədə bilmədiyini söylədi. Oğlanları Laçının və Nadirin cib telefonlarının nömrəsini dəftərçəmə yazdırdı. Xahiş etdi ki, Azərbaycandan kim gəlsə, telefon nömrələrini onlara da verim. Xivəyə gələndə ona zəng vursunlar, onlarla oturub söhbət etsin, ötən günləri xatırlasın.

“Koruntayaq” – qarın ayaq. Bizim baş-ayaq dediyimiz xörəyin oxşarıdır.

Xivədən ayrılandan bir saat sonra biz artıq Ürgəncdə idik. Evdə axşam yeməyi hazırlandığını bilsə də, Jumaboay oğluna bir yeməkxananın qarşısında maşını saxlatdı. Keçib talvar altındakı tapçanın (taxtın) üstündə özbəklər kimi oturduq. Heç nə deməmiş gök çay (biz ona yaşıl çay deyirik) gətirdilər. Böyük həvəslə içdim.

Jumaboay gök çayın susuzluğu yatırdığından, isti havada bədəni sərinlətdiyindən kiçik bir mühazirə oxudu. Sonra karıntuyak dedikləri bir yemək sifariş verdi. Böyük kasalar dolu isti xörəyi gətirib qarşımıza qoydular. Qaşığı kasaya salıb qarışdıranda gördüm ki, orada qoyun baş-ayağından, qarından, ətdən parçalar və bir az da yarma var.

Mən isti havada belə kalorili xörəyi yeyə bilməyəcəyimi deyərək tərəvəzlə hazırlanmış xörək sifariş vermək istədim. Jumaboay mənə qəti etiraz edərək qarsona getməsini tapşırdı. Sonra da dedi ki, belə dadlı yeməyi başqa yerdə tapa bilmərik. Yeməyin vacibdir. Özü də araqla.

Mən araq içmədiyimi, havanın çox isti olduğunu, yesəm, halım pisləşəcəyini söylədim. Jumaboay isə mənim dediklərimi eşitmək belə istəmədi. Birdən göy üzünü qara bulud aldı. Şıdırğı yağış başladı. Leysana çardaq tab gətirmədi. Su üstümüzə axmağa başlayanda yerimizi dəyişməli olduq. Hava qəflətən soyuduğundan həvəslə koruntuyağı sonadək yedim. Mən yeməyin adının mənasını soruşanda Jumaboay gülərək yeməyin içərisindəki qoyun qarnının və ayağının parçalarını göstərib: "Yeməyin adı bunlardan, sizin qarın və ayaq dediyiniz sözdən yaranıb," – dedi.

Köhnə və Yeni Ürgənc haqqında Jumaboayın söhbəti

Koruntayaq yedikdən sonra Jumaboay Yusupovla Ürgənci gəzməyə çıxdıq. Əhalisi 200 mini keçən şəhər bizim Sumqayıtı, Əli Bayramlını, Mingəçeviri xatırladır. Nə maraqlı təbiət mənzərəsinə, nə də tarixi abidəyə rast gəldik.

– Qədim mədəniyyət beşiyi Ürgəncdən heç bir iz görmürəm, – deyəndə Jumaboaya dərindən köks ötürərək:

– Haqqında oxuduğunuz, bilginiz olan Ürgənc bura deyil. Ürgənc şəhəri Ceyhun çayının (indiki Amudərya) sol sahilində, Qızılqum çölündə, Aral dəryaçasından o qədər də uzaq olmayan bir yerdə idi. Həmin yer indi Türkmənistan Respublikasının Daşoğuz vilayətindədir. Türkmənistanın 5 vilayətinin hər biri inzibati cəhətdən etraplara bölünür. Yəni keçmiş rayonlar indi etrap adlanır. Yanılmıramsa, siz etrapa ətraf deyirsiniz. Daşoğuz 9 etrapa bölünüb ki, onlardan birinin adı Köhnə Ürgənc, o birinin adı Koroğludur.

Ürgənc neçə dövlətin başkəndi olub. Ən çox da Xarəzm dövründə şöhrətlənib. Türkmənlər, özbəklər, qaraqalpaqlar, az sayda qazaxlar birlikdə yaşayıblar. Sovet hakimiyyəti illərində inzibati-ərazi bölgüləri Moskvada oturan rusların ağlına gələn şəkildə bölündü.

Mən zarafata salaraq:

– Jumaboay əkə, ağıllarına gələn şəkildə, yoxsa bilincli şəkildə? Rusiya zəifləyəndə bu yerlər onun əsarətindən çıxmasın deyə milli zəmində qarşıdurma yaratmaq üçün? – deyərək sual verdim.

– Onu deyə bilmərəm. Bildiyim odur ki, 1920-ci illərin bölgüsündən sonra problemlər yarandı və köçlər başladı.

Neçə illərdi ki, Ürgənc şəhərində yaşayıram. Kəndimizə xeyirə-şərə getməyim problemə çevrilib. Hər dəfə sərhəd keçid məntəqəsindəki basırıqda nə qədər vaxtım itir, əsəbim korlanır. Mənim vəziyyətimdə olanlar on minlərlədir. Bu çətinliklərə görə Türkmənistandakı özbəklər Özbəkistana, Özbəkistandakı türkmənlər də Türkmənistana köçür. Hökumətlər də bu köçlərə maraqlıdır.

– Deyəsən, mövzudan uzaqlaşdın. Köhnə Ürgəncdən danışırdın, – dedim.

– Pamir və Hinduquş dağlarının kəsişdiyi yerdən başlayıb Aral dəryasına kimi gələn Ceyhun çayı (Amudərya) yalnız su gətirmirdi, həm də dağların münbit torpağını gətirirdi. Buna görə də əkin sahələri verimli olurdu. İnsanlar da bu yerlərdə artıb çoxalır, şəhərlər salırdılar. Araşdırıcılara görə, Ürgənc şəhərinin adı müqəddəs "Avesta"da Urva, Urqa kimi yazılıb. Sonra adı dəyişdirilib Xangir olub. Söz bu yerə çatanda mən özümü saxlaya bilməyərək dedim:

– Onda belə çıxır ki, Köhnə Ürgənc bizim kəngərlilərin qurduqları Kanq dövlətinin paytaxtı olub?

– Sizin kəngərlilərin, yoxsa bizim kanqlıların? – dedi və sözünə davam etdi. Arxeoloqlara görə, qədim dövrlərdə bu yerdə möhtəşəm şəhər olub. Miladdan öncə 138-126-cı illərdə Türküstanı gəzən Çin casus-səyyahı Çian-Kine şəhərin əzəməti və var-dövləti haqqında bilgi verib. Ərəb istilasından sonra şəhər

Qurqenc adlanıb. İşğallar heç də yaxşı hal olmasa da, ərəb işğalından sonra uzun müddət savaşlara ara verildiyindən şəhər keçmiş əzəmətini bərpa edib. Termezdən, hətta Ceyhun çayından aralı olan, indi Əfqanıstan ərazisi sayılan Kunduz, Məzari Şərif şəhərlərində də yüklər çay gəmiləri ilə Aral dəryaçasına kimi gətirilirmiş. Aral dəryaçasından keçən gəmilər Seyhun çayı (indiki Sırdərya) vasitəsilə yükləri Qızıl Orda, hətta Çirçik çayı vasitəsilə indiki Daşkəndə, eləcə də Türküstan, Taraz şəhərlərinə kimi apara bilirlərmiş. Aral dəryaçasına axan Ceyhun və Seyhun çayları ticarətin inkişafında böyük rol oynayıb. Çay kənarında onlarla abad şəhər və qəsəbələr salınıb.

Ürgənc Böyük İpək yolunun kilid şəhərlərindən birinə çevrilib. Əməvilər dövründə Xarəzm bölgəsinin mərkəzi olub. Böyük səyyah Əl-Həməvi 1219-cu ildə Ürgəncə gəldikdən sonra indiyədək bu böyüklükdə şəhər görmədiyini yazıb. Belə gözəl və abad şəhərə təbii fəlakətlərdən çox insanlar zərər vurub. İnsanlar bir-birini öldürüb, yüz illər boyu yaradılmış mədəniyyətləri dağıdıblar. Əl-Həməvidən bir il sonra, yəni 1220-ci ildə şəhəri mühasirəyə alan monqol orduları əhalinin müqavimətini qıra bilmədiklərini gördükdə Ceyhun çayı üzərində min bir əziyyətlə qurulmuş bəndləri uçurublar. Şəhəri su basıb. İnsanlar suda boğulub, evlər və tarixi abidələr uçub, adamlar uçmuş binaların altında qalaraq ölüblər. Möhtəşəm memarlıq

abidələrindən Tekişin türbəsi və qədim saray salamat qalıb, – dedi.

– Jumaboay əkə, dediklərinizə şübhəm yox, amma bu gün YUNESKO-nun Dünya Mirası siyahısında Ürgəncdən xeyli abidənin adına rast gəlmişəm, – dedikdə o:

– Doğrudur, bu gün Köhnə Ürgəncin turistik yerləri siyahısında kübrəvilik sufi cərəyanının banisi Nəcməddin Kübraninin türbəsi (12-13-ci yüzillər), Monqol Torebeg-Xanymın türbəsi (12-14-cü yüzillər), Mamun minarəsi (10-11-ci yüzillər), Kutlug-Timur minarəsi (12-14-cü yüzillər) – Türküstandakı ən yüksək minarə – 60 metr ucalığındakı, Qırxmoll türbəsi (m.ö. 2-ci – m.s. 3-cü yüzil), ibn-Xadzhyb mədrəsəsi (14-16-cı yüzil), 2-ci Arslan türbəsi (11-ci yüzil), Faxrad-din Razi (13-cü yüzil), Azizan Al-Ramatani (13-14-cü yüzil), Seyd Ahmed (12-14-cü yüzil), Pir-yarveli (14-17-ci yüzillər), Guligərdan (12-ci yüzil), Xorezimbag türbələri (13-18-ci yüzillər), Daşqala (14-16-cı yüzillər), Matkarim-İşhan (19-20-ci yüzillər), Sultan Ali (1580), Tekeş-Xorezmşah (13-cü yüzil) 14-cü yüzildən qalma adsız minarə, Daşməscid (1903-1908) və Ağ qala qalası (12-13-cü yüzillər) qalır, – deyə cavab verdi.

Tarixçi olmasam da, gecəyarı yuxudan qaldırsan, onların adını sayaram. Bu abidələrin çoxu sonralar təmir edildi. Şərqin böyük şəxsiyyətlərindən İbn Sina, Biruni, Ebu Sehl el-Mesih, İbn İrak, İbn ül-Hammar,

Ebu Mansur es-Seâlibî və b. adları da Ürgənclə bağlı çəkilir.

Əmir Teymur da 1388-ci ildə Ürgənci işğal edəndə əsgərləri şəhər əhalisinə olmazın divanını tutdu. Əhalini qəddarcasına öldürdülər. Sağ qalanlarını Səmərqəndə apardılar. O gözəllikdə şəhərin əkin sahəsinə çevrilməsini əmr etdi.

Çingiz xanın, Əmir Teymurun əsgərləri nə qədər insan öldürsə də, binaları dağıtsa da, Ürgənc yenidən dirçəldi. Lakin 17-ci yüzildə təbiətdə bir dəyişiklik baş verir. Ceyhun çayı daşdıqca yatağını şimala doğru dəyişir. Ürgənc şəhəri sular altında qalır. Xivə xanı 1646-cı ildə şəhərin əhalisini təxminən 150 kilometr aralıya, Xivə şəhərinin yaxınlığına gətirir. Beləcə, bu gün gəzdiyimiz Ürgənc şəhəri yaranır. Köhnə Ürgənc xarabalığa çevrilir.

Ceyhun dəryaçasından Xan Yab suvarma kanalı çəkiləndən sonra, yəni 1831-ci ildən adamlar yenidən Köhnə Ürgəncə köçməyə başlayırlar. 1930-cu ilin iyulunda SSRİ-də rayonlar yaradılmağa başlayanda Köhnə Ürgənc də yeni yaradılan rayonun mərkəzi elan edilir. İndi şəhər tipli qəsəbədir. Turistik mərkəzlərdən biri olsa da, Türkmənistandakı viza problemi oraya turist axınını əngəlləyir.

Xarəzm dastanları mövzusunda Saparbayla söhbət

Bir az dincimizi almaq və çay içmək üçün açıq havadakı bir yeməkxanada oturduq. Bu zaman əlində bağlama olan yaşlı bir kişi gəlib Jumaboay və mənimlə görüşdü. Jumaboay dedi ki, Aşqabadda haqqında bilgi verdiyim Xarəzm dastanlarının bilicisi, bu cılız qoca Saparbay Ruzimboyevdir.

Saparbay Ruzimboyevin bir neçə məqaləsini oxumuşdum. Jumaboay, görünür, mənim haqqımda da ona bilgi vermişdi. Söhbətimiz çox şirin keçirdi. Gətirdiyi bağlamanı açdı. 2004-cü ildə nəşr etdirdiyi "Гўрўғли" dastanını verdi. Çox sevindim. Kitabın nəşrindən xəbərim vardı. Bilirdim ki, Özbəkistanda çap olunan "Koroğlu" dastanlarından Azərbaycan variantına ən yaxını Xarəzm variantıdır. Koroğlu mövzusunda xeyli söhbət edəndən sonra bağlamasından o biri kitabları da çıxardı. 2006-2009-cu illərdə nəşr edilmiş dörd cildlik "Oşiqname" kitabları idi. Bütün kitabları nəşrə hazırlayan heyətin rəhbəri özü, elmi redaktoru Jumaboay Yusupov idi.

Kitabların dördünün də tərtibində və ön söz yazılmasında S.R.Ruzimboyev iştirak etmişdi. 1-3-cü cildlərdə S.S.Ruzimboyevin, 4-cü cilddə isə X.S.Ruzimboyevin imzası vardı. Bundan əlavə, 1-ci cildin tərtibində Q.E.Eşçonova, A.Axmadov, 2-ci cildin tərtibində Q.E.Eşçonova, 3-cü cildin tərtibində

A.Axmadov, 4-cü cildin tərtibində Q.E.Eşçonova, N.Matyozova, N.Raimova iştirak ediblər.

Xarəzm dastanları arasındakı "Oşik Qarib", "Asil va Karam", "Laylı va Majnun", "Qul va Sanobar" dastanları Azərbaycan Respublikasında nəşr olunan dastanlarla çox yaxındır. "Xuroman peri", Saed va Xamraz", "Xurulluko va Xamraz" dastanları İran türkləri arasında məşhurdur. "Ediqo" dastanı isə tatar-başqırdlarından, qazaxlardan, noqaylardan, Krım tatarlarından toplanmış eyniadlı dastanın variantıdır desəm, yəqin yanılmaram. "Oşiqname" kitabının 4-cü cildindəki "Ayvaz" dastanının iki variantı da diqqətimi çəkdi. Azərbaycan Respublikasından "Ayvaz" adlı dastanın toplandığına rast gəlməmişəm. "Koroğlu" dastanında Eyvazdan geniş söz açılır. Amma Xarəzmdə olduğu kimi, İranda yaşayan Qaşqaylar, Əfşarlar, Xələclər arasında aşıqlar "Ayvaz-Eyvaz" adlı ayrıca dastan danışırlar.

Həcmləri 326-454 səhifə arasında dəyişən kitablar az tirajla, aşağı keyfiyyətdə nəşr edilsə də, Saparbay da, Jumaboay da məmnun idi. Çünki kitabları öz pulları ilə nəşr etdirməmişdilər. Hamısını Xarəzm Dövlət Nəşriyyatı çap etmişdi.

Avtoqraf yazılmış kitablar ağır olsa da, onları sevinc içərisində götürdüm. Çünki Sovet dövründə Azərbaycan-Özbəkistan ədəbi əlaqələrindən bəhs edən əsərlərdə əsasən xalqları bir-birindən ayıran cəhətlərə üstünlük verilirdi. Əlimdəki kitablar isə

bunun əksini deməyə əsas verən gözəl qaynaqlar idi. Azərbaycan araşdırıcıları bu kitablardan yararlanıb, Azərbaycan-özbək folklorunun, mədəniyyətinin oxşarlıqlarının çox olduğunu yazmalarını istəyirdim.

Çəmənzəminlinin işlədiyi universiteti görmək həvəsim

Söhbətimizin yekunlaşmaqda olduğunu gördükdə mən Xarəzm Pedaqoji İnstitutuna getməyi təklif etdim. Jumaboay: "Oraya səhər gedəcəyik, indi institutda heç kim yoxdur," – dedi.

Mən indiki binaya deyil, köhnə binaya getmək, oranın şəklini çəkmək istədiyimi bildirəndə Saparbay maraqla Jumaboayın üzünə baxdı. Mən də fikrimə aydınlıq gətirmək üçün dedim:

– Ürgəncə gələsən, Azərbaycanın məşhur yazıçısı Yusif Vəzir Çəmənzəminlinin izi olan yerləri görməyəsən, bu, böyük günahdır. O, 1938-1940-cı illərdə Ürgənc Pedaqoji İnstitutunun baş müəllimi və kitabxana müdiri işləyib.

Ayaqustə Ayaq üstə olan hər iki həmsöhbətim yenidən oturdular və təkrar çay sifarişi verdilər. Söhbətimiz yenidən qızışdı. Belə məlum oldu ki, hər iki professorun Yusif Vəzir Çəmənzəminlinin əsərləri haqqında bilgiləri var. Amma ömür yolu haqqında bilgiləri azdır.

Mən Yusif Vəzir Çəmənzəminlinin 1909-cu ildə Bakıda Rrealnı məktəbi bitirdikdən sonra ali məktəbdə oxumaq üçün Sankt Peterburqa getdiyindən, sənədlərini Mülki Mühəndislər hazırlayan Universitetə versə də, riyaziyyatdan qiymət ala bilmədiyindən, Aşqabada döndüyündən, orada latıncanı öyrənməyə çalışdığından, sonra Daşkəndə gələrək 6 aylıq kursda oxuyub, gimnaziyaya imtahan verib, universitetə qəbul olunmaq hüququ qazandığından söz açdım.

Söhbətim hər ikisinin də marağını çəkdiyinə görə bir az da şirnikləndirici faktlar deməyi münasib bildim. Çəmənzəminlinin Kiyevdə ali təhsil aldığını da, orada dərnək qurduğunu da, İstanbulda Azərbaycan Cümhuriyyətinin konsulu olduğunu, bolşevik istilasından sonra 1926-cı ilədək Parisdə mühacir həyatı yaşadığını da söylədim.

Həmsöhbətlərim bildirdilər ki, Yusif Vəzir Çəmənzəminli haqqında özbək və rus dillərində məqalələr oxuyublar. İstedadlı bir yazıçı olduğunu bilirlər. Mənim mövzuya belə önəm verməyim içlərində sual doğursa da, nəzakət xatirinə bir söz demirdilər. Mən "mıs-mısımın Mustafasını" dilə gətirərək dedim: "Yusif Vəzir Çəmənzəminlinin Daşkənd həyatı öyrənilməyib. Oradakı qohumları, oxuduğu məktəb haqqında Azərbaycan oxucusunun bilgisi yox dərəcəsindədir".

Çəmənzəminli Ürgəncdəki Xarəzm Pedaqoji İnstitutunda baş müəllim işləyibsə, demək, iş planına görə elmi araşdırmalar aparıb, ilin sonunda bu haqda hesabat verib. Ürgəncdə olarkən kimlərlə oturub-durub.? Yaradıcı adam burada boş-bekar gün keçirməzdi. Ya yarımçıq qalmış əsərlərini tamamlayardı, ya da yenilərini yazardı. Ürgəncdə yazdığı əsərlər haradadır? Bu və buna bənzər suallar çoxdu.

Xarəzm Pedaqoji İnstitutunun, eləcə də vilayət təhsil idarəsinin arxivində Yusif Vəzir Çəmənzəminli ilə bağlı hansı sənədlər qorunub-saxlanır?

Jumaboay Yusupov Saparbaya müraciətlə dedi ki, 2009-cu il martın 11-13-də Aşqabadda keçirilən "Səlcuqlar dövrünün ədəbiyyatı və mədəniyyəti" Uluslararası simpoziumda da Əli əkə ilə bu mövzuda xeyli söhbətimiz oldu. Mən ona Ürgəncə dönəndə arxivə gedib bu mövzuda axtarış aparacağıma söz verdim. İşimin çoxluğundan vədimə əməl edə bilmədim.

Mən zarafata salaraq dedim: "Üçümüz də qocalmışıq. Arxivə gedib, araşdırma aparan vaxtımız keçib. Gəlin belə razılaşaq. Siz universitetinizin istedadlı bir gəncinə Yüusif Vəzir Çəmənzəminlinin Özbəkistandakı fəaliyyəti haqqında doktorluq mövzusu verin. Mən onun Azərbaycanda və Türkiyədə keçirilən simpoziumlarda iştirakına və məqalələrinin nəşrinə kömək edim". Razılaşdılar.

Razılaşmalarına baxmayaraq, Saparbay nə məqsədləsə məndən soruşdu: “1938-ci ildə repressiya səngimişdi. Belə olan halda Çəmənzəminli nədən Özbəkistana gəlməli olub?”

– Saparbay əkə, doğru deyirsiniz. 1937-ci ilin martında Azərbaycan Yazıçılar İttifaqının plenumunda Yazıçılar İttifaqının sədri Seyfulla Şamilov bir çox yazıçı kimi Çəmənzəminlini də kəskin tənqid etdi və onu əksinqilabçı ittihamı ilə Yazıçılar İttifaqının üzvlüyündən çıxartdırdı. Yazıçılar İttifaqının orqanı “Ədəbiyyat” qəzetində onu tənqid edən bir neçə məqalə verdi. Yusif Vəzir Çəmənzəminli hətta vaxt tapıb ona qarşı haqsızlıq edildiyi barədə Azərbaycan K(b)P MK birinci katibinə və Ümumittifaq K(b)P MK-nın baş katibinə ərizələr göndərdi.

Ərizələrinə cavab almadığına görə Moskvaya, Ümumittifaq K(b)P MK-a şikayətə gedir. Şikayətlərindən bir müsbət nəticə alınmır. Onu nə Yazıçılar İttifaqının üzvlüyünə, nə də işə bərpa edirlər.

Şikayətləri, yazışmaları bir ilə qədər çəkir. 1938-ci ildə Azərbaycandakı “Kommunist” qəzetində Xarəzm Pedaqoji İnstitutunda rus dili dərsi vermək üçün müəllim müsabiqəsi elan edildiyini oxuyur. Sənədlərini göndərir. Müsabiqədən keçir. 1938-ci ilin avqustunda Ürgəncə gəlib işə başlayır.

Repressiya olunanların bəziləri istintaq zamanı Yusif Vəzir Çəmənzəminlinin də millətçi olduğunu,

onlarla birgə işlədiyini söyləyir. Hətta Krımda həbs edilən Asan Səbri Ayvazov da KQB-nin tapşırığı ilə yazdığı "Milli Firqə" əsərində Yusif Vəzir Çəmənzəminlinin adını millətçilər sırasında çəkir. Bütün bunlara baxmayaraq, Yusif Vəzir Çəmənzəminlini həbs etmirlər. Sanki o, unudulur. 1940-cı ildə Bakıya gəlməsəydi, bəlkə, həbs edilməyəcəkdi.

Bakıya gəlməsi onun həbsinə səbəb olub. Bakıda həbs edildikdən sonra 6 aya yaxın istintaq ediblər. Sonra da Nijni Novqorod vilayətindəki Suxobezvodnaya stansiyasında həbs düşərgəsinə göndəriblər. Orda da çox yaşaya bilmir. Həmin il aclıqdan və xəstəlikdən dünyasını dəyişir.

Yusif Vəzir Çəmənzəminli ilə bağlı üzücü söhbəti bitirib indi orta məktəb olan keçmiş Xarəzm Pedaqoji Universitetinin binasına şəkil çəkdirməyə getdik. Sonra da Ürgənc şəhərinin axşamlarını seyr etməyə çıxdıq.

Hoteldə qala bilmədim

Biz evdən çıxanda Jumaboayun xanımı özbək plovu hazırlayacağını demişdi. Günorta yediyimiz koruntayaq məni elə tutmuşdu ki, yeməyə halım yox idi. Xanımın böyük həvəslə bişirdiyi plovu yeməmək isə ona hörmətsizlik idi. Çox yeməli və tərifləməli idim ki, xanım razı qalsın. Plovu necə yeyəcəyimi düşündüyümdən müxtəlif bəhanələrlə vaxtı uzadır,

evə gec dönməyimizə çalışırdım. İstəyimə çatsam da, axşam özbək plovu yeməkdən yaxa qurtara bilmədim.

Axşam Azərbaycan-Özbəkistan arasındakı elmi, mədəni, ədəbi əlaqələrin inkişaf edən dünyanın sürəti ilə ayaqlaşmadığından söhbət etdik. Xarəzm folkloru ilə Azərbaycandan toplanan folklor nümunələrinin, xüsusən də dastanlarımızın eyniliyindən söz açdıq. Jumaboay elmi konfranslar keçirməyə maddi imkanları olmadıqlarından gileyləndi. Mən isə bunun səbəbini maddi imkansızlıqla yanaşı, siyasi sıxıntılardan doğduğunu soöylədim. Uzun söhbətdən sonra razılaşdıq ki, Jumaboay Yusupov rektorla danışıb yerli hakimiyyətdən konfrans keçiirməyə icazə alsın, mən də maliyə qaynaqları tapım.

Xeyli fikrə getdikdən sonra: "Rektorumuz gəncdir və cəsarətli adamdır. Görüşəndə onunla bir danışın. Bəlkə, bizim universitetlə birlikdə simpozium keçirməyə razılıq ala bilər," – dedi.

Beləcə, "Xarəzmdən Anadoluya kültür yolu" adlı elmi konfransın ilkin layihəsini hazırladıq. Qaldı səhər onu Ürgənc Universitetinin rektoru ilə razılaşdırmaq və mənim maliyə qaynaqları tapmağım.

Mən çalışırdım ki, söhbətimizi tez bitirib hotelə gedim. Jumaboay Yusupov da, elə bil, söhbətdən doymurdu. Tez-tez saata baxmağım onu dilə gətirdi: "Saata nə yaman baxırsan? Bundan sonra nə iş görəcəksən ki?" – deyə xəbər aldı.

Mən də sakitcə: “Gecdir, hotelə gedim yatım, siz də yatıb dincəlin. Səhər tezdən durub qalan işlərimizi görək,” – dedim.

– Hotelin hazırdır. Nə vaxt yuxun gəlsə, de, yatağını açsınlar. Evi tikdirəndə sizin kimi qonaqların olacağını nəzərdə tutub sayını çox elədim. Beş otaqdır. Qızlarım burada yoxdur. Daşkənddə oxuyurlar. Qonaq çox olanda onların otaqlarından da istifadə edirik,” – dedi.

Hələ Bakıda olarkən Jumaboay Yusubova Ürgəncə gələrkən hoteldə qalacağımı demişdim. Daşkənddən zəng vuranda mənə bir hotel adı və qalacağım otağın nömrəsini demişdi. İndi məlum oldu dediyi hotel adı onun yaşadığı məhəllənin, otaq nömrəsi isə evinin nömrəsi imiş.

Deməyə sözüm olmadı, yarım saat sonra keçib mənim üçün ayrılmış otaqda yatdım.

Rektorla açıq söhbət

Səhər yeməyindən sonra universitetə getdik. Saat 9.00 olmamışdı. Universitetin həyəti olduqca gur idi. Lakin bu gurluq tələbələrin dərsə gəlişindən xəbər vermirdi. Tələbələr əllərində dərs çantaları, kitab əvəzinə bir adyal, bir az geyim, bir az da yemək, üç bir, beş bir söhbət edirdilər. Sifətlərində də bir sıxıntı, qüssə vardı. Kasıblıq hər şeydə, geyimlərində də,

əllərindəki bağlamadakı paltar və ərzaqda da özünü göstərirdi.

Tələbələri dərs otaqlarına deyil, tarlaya pambıq yığmağa göndərirdilər. Unversitetin binasının ikinci mərtəbəsinə, rektorun otağına qalxdıq. Qapıda yazılmışdı: "Əl-Xorezmi nomlı Urqanc Davlet Universitetinin rektoru, professor Özbəkistan FA akademiki A.Sadullayev".

Qəbul otağında katibədən başqa kimsə yox idi. Rektorun kabinetinin qapısı da açıq idi. Qəbul otağına girən hər kəs rektorun yerində olmadığını görürdü.

Jumaboay mənim haqqımda katibəyə bilgi verdi və rektorla görüşəcəyimizi öncədən razılaşdığını dedi. Qız bir az fikrə getdikdən sonra: "Axşama kimi burada gözləsəniz də, rektoru görə bilməyəcəksiniz. Onu görmək istəyirsinizsə, həyətə enin. Müəllim və tələbələrin pambıq yığımına göndərilməsinə nəzarət edir," – dedi.

Jumaboay, müəllim və tələbələrdən soruşa-soruşa rektorun yerini müəyyənləşdirdi. Yanımızdan tələbə və onlara rəhbərlik edən müəllimlərlə dolu köhnə avtobuslar keçirdi. Avtobus çatışmadığından tələbə və müəllimlər pambıq daşımaq üçün uyğunlaşdırılmış Belarus tipli traktorların qoşqularında da gedirdilər. Pambığı tökülməkdən qorumaq üçün qoşquların kənarlarına qaynaqlanmış dəmir tor indi tələbələri yıxılmaqdan qoruyurdu. Səs-küy aləmi götürmüşdü.

Tələbə və müəllimlərin ciddi etirazları, narazılıqları hiss edilmirdi.

Axır ki, rektoru tapdıq. Jumaboay, görünür, mənim gələcəyim haqqında rektoru bilgiləndirmişdi. Odur ki, yanındakılara bəzi göstərişlər verib nisbətən sakit bir yer seçdi. İşi çox olsa da, gileylənmədi. Gülərüzlə qarşıladı. Ayaqüstü söhbətə başladı. Hal-əhval tutdu. Azərbaycanın durumunu xəbər aldı. Mən qısa cümlələrlə cavab verirdim. Arada bir xəstəmi, yoxsa yorğunmu olduğumu soruşdu. Mən də hər şeyin normal olduğunu söylədim.

Jumaboayun Türkiyəyə gedəcəyindən, birlikdə təşkil edəcəyimiz simpoziumdan söz açdıq. Nikbinliklə bildirdi ki, belə bir simpoziumu Daşkənddə təşkil etmək çox çətindir. Çünki bunun üçün prezidentdən içcazə alınmalıdır. İnstitut direktorları, rektorlar da, hətta akademiyanın prezidenti də İslam Kərimovun qəbuluna düşə bilmirlər. Qəbuluna düşə bilsələr də, öz fikirlərini söyləməyə cəsarət etmirlər. Amma Ürgəncdə belə bir beynəlxalq simpozium düzənləmək mümkündür.

Rektor mənalı-mənalı gülümsəyərək: "Pambıq yığımı başa çatanda hakim (Vilayət icra hakimini nəzərdə tuturdu) məni çağırıb işin gedişi haqqında hesabat istəyəcək. Onda simpozium məsələsini hakimə deyərəm. Hakim də İslam Kərimovla tez-tez görüşür. Prezident onun sözünü yerə salmaz," – dedi.

Onun söhbəti mənə xoş gəlsə də, yenə nədən əhvalımın yaxşı olmadığıyla maraqlandıqda Jumaboay pambığa göndəriləcək tələbələrə işarə etdi. Qanımın qara olmasının tələbələrin dərsdən ayrılaraq pambığa göndərilməsi olduğunu anlatdı. Rektorun sifətinə bir qüssə buludu çökdü. Kiçik bir sakitlikdən sonra: "Allaha çox şükür ki, Azərbaycanda belə şeylər yığışdırılıb. Yəqin yaxın illərdə bizdə də buna son qoyular," – dedi.

Rektor qanqaraçılığı aradan qaldırmaq üçün yarı zarafat-yarı ciddi soruşdu: "Rüşvəti necə, aradan qaldıra biliblərmi?" Özümdən asılı olmayaraq güldüm. Universitetlərə və texnikumlara testlə qəbul keçirildiyindən ruşvət almaq mümkün deyil. Amma semestr imtahanlarında, diplom işlərinin yazılmasında, qəbulunda "hörmət"siz keçinilmədiyi xəbərləri gəlir," – dedim.

Rektor da gülərək.: "Gərək sizdən çox şey öyrənək. Rüşvətə gözəl ad qoyubsunuz "hörmət!". Bizdə "hörmət"in bir forması da var. Dekanlar pambıqdan yayınmaq istəyən imkanlı tələbələrin hər birindən 200 dollar alıb icazə verirlər. Mən xəbər aldıqda 5-10 tələbəyə icazə verdiklərini deyirlər," – deyərək yanındakılara işarə edərək güldü.

Razılığa gəldik ki, simpoziumun qaydalarını və şərtlərini Jumaboay Yusubovla mən hazırlayım. Biz nə cür hazırlasaq, o reallaşdırmağa çalışacaq.

Rektorun yanından ayrılanda Jumaboay Yusubov dedi: “Üzündə nə varsa, ilk görüşdən səninlə zarafat edir, səmimi danışmağa çalışır. Rektorumuzun indiyədək rüşvət sözünü dilinə gətirdiyinin şahidi olmamışdım. İndi sizin yanınızda dekanları biabır elədi. Mən elə bilirdim, dekanların tələbələrdən pul alıb, onları pambıq yığmağa getməkdən yayın-dırdıqlarını bilmir. O, hətta alınan pulun məbləğını də somla deyil, dollarla dedi.

– Rektor düşündü ki, somla desə, mən hesablaya bilmərəm, dollarla dedi ki, məbləğin o qədər də böyük olmadığını bilim, -– cavabını verdim..

Hər ikimiz güldük.

Qarpızın pulunu çora verdim

Universitetdən ayrılıb Özbək Hava Yollarının bilet kassasına gəldik. Jumaboay Yusubova İstanbula gedib-gəlmək bileti aldıq. Oradan da Daşkənddən gələn Mamatkul Jurayev ilə Rüstəm Abdullayevi qarşılamağa getdik. Onları da alıb Jumaboayın evinə gəldik. Özbək plovu yedikdən sonra saat 13.00-da Jumaboayın tələbəsinin maşınında Daşoğuza tərəf yola düşdük.

Bölgə pambıqçılıq üzrə ixtisaslaşsa da, yol boyu çoxlu bostanlar vardı. Bostanların qırağında qarpız, yemiş tığlanmışdı. Məhsulu bazar üçün hazırlamışdılar. Maşınların gəlib aparmasını gözləyirdilər. Bu qədər

yığılmasına baxmayaraq, tarlada elə bil qoyun-quzu yan-yana yatmışdı. Məhsulun bolluğuna heyran qalmışdım.

Rüstəm Abdullayev susadığını bildirdi. Təklif elədi ki, talvarların birinin yanında dayanıb qarpız alaq. Yedikdən sonra yolumuzu davam etdirək. Talvarın yanında maşından enib bostançını səslədilər. Cavab almayanda maşını o biri talvaradək sürdürdülər. Üçüncü talvarın yanında onlar bostançını səsləyəndə mən talvara kimi getdim. Oraya 5 min som qoydum. Pulun üstünü də yekə bir kəsəklə örtdüm ki, külək olsa, aparmasın. Amma elə örtdüm ki, pulun bir tərəfi görünsün. Geri qayıdanda da kiçik cib bıçağımla bir qarpızı saplağından üzub qoltuğuma vuraraq gətirdim.

Yol yoldaşlarım heyrətlə mənə baxırdılar. Həyəcanla dedilər ki, aparıb qarpızı talvara qoyum. Mən etiraz edəndə bir-birinə aman vermədən Özbəkistanda bostandan oğurluq edənlərin başına gələn hadisələrlə bağlı rəvayətlər danışmağa başladılar. Dedilər ki, bostanları iyələr (əyələr) qoruyur. Oğurluq edəni ilan cilidinə girib çalır, ya da elə vurur, ağzı əyilir. Bir sözlə, oğrunun özünə, ailə üzvlərinə zərər gəlir.

Mən: "Çora 5 som verib qarpız aldım" deyəndə yol yoldaşlarım heyrətlə mənə baxdılar. Gülərək çardağa 5 min som qoyduğumu dedim. Mamatkul: "Çox qoyubsan. O pula Daşkənddə üç qarpız almaq olardı," – dedi.

Rüstəm Abdullayev də dedi ki, qarpız yemək həvəsinə düşməyimə lap peşman olmuşdum. Elə bildim, Əli Şamil ateist olduğundan bostan əyəsinin varlığına inanmır.

Jumaboay Yusubov xəbər aldı ki, bizə görə "Çorun pulunu verdim" dediniz, yoxsa sizdə də çor sözü işlədilir?

Dedim ki, Azərbaycanda ev əyəsinə kilimçi, mal-qara əyəsinə çər, su əyəsinə vurğun, meyvə-tərəvəz əyəsinə çor deyilir. Bundan başqa, şulum-çulum, atay və b. əyələrin də haqqında eşitmişəm və ya oxumuşam. Heyif ki, tanrıçılıqdan yazanlar onları çox vaxt İlah kimi tanıdırlar. Əslində onlar İslam dinindəki mələklərə uyğun gəlir. İslam dinində Cəbrayıl, Mikayıl, İsrafil, Əzrayıl, İnkir, Minkir, Ridvan-Rizvan mələk adlandırılırsa, tanrıçılıqda nədən əyələri İlah adlandırmalıyıq?!

Mamatkul dedi ki, sizinlə gərək çoxdan tanış olaydım. Məqalələrimdə onları mən də ilahlar kimi vermişəm. Dediklərniz ağlıma batdı. Gərək geri dönəndən sonra bu mövzunu bir daha incələyəm.

Jumaboay Yusubov köks ötürərək dedi ki, sizin dediyiniz sözlərin çoxu bizim kəndlərimizdə də işlədilirdi. Heyif ki, unudulub getdi. Gənclər onları bilmir.

Qarpızı deyə-gülə yeyib yola düşdük.

Sərhəd-keçid məntəqəsində qalmaqal

Yol boyu bir neçə böyük və gursulu kanalın üstündəki körpüdən keçdik. Heyrət məni bürümüşdü. Payız vaxtı Ceyhunda (Amudəryada) bu qədər su hardandır?! Bu kanalların hər birində az qala Araz və ya Kür çayındakı qədər su axırdı. Fikrimi Jumaboaya bildirəndə dedi ki, Ceyhun çayının yuxarı axarlarında bir neçə bənd vurublar. Yazda qar-yağış suları bəndlərə yığılır. İndi tarlalardakı payız əkininə görə suyu çox buraxıblar, kanalların hamısı dolu gəlir.

Bir azdan Ceyhun (Amudərya) çayının üzərindəki körpüdən keçdik. Çaydakı su kanallardakından az idi. Körpüdən sərhəd-keçid məntəqəsi aydın görünürdü.

Sərhəd-keçid məntəqəsində qonaq olduğuma görə yoldaşlarım məni irəli verdilər. Özbəkistan tərəfdən problemsiz keçdik. Gömrük işçiləri çantalarımızı açdırıb baxmadan, sərhədçilər sorğu-sual etmədən pasportlarımıza möhür vurub növbədənkənar yola saldılar.

Türkmənistan tərəfdə də gömrük işçiləri bir söz demədilər. Sərhədçi isə pasportumu o tərəf, bu tərəfə çevirib diqqətlə səhifələyib yana qoydu və yoldaşlarımın pasportlarına möhür vurub qaytardı. Mən pasportumu nədən qaytarmadığını soruşanda sərhədçi saymazyana "vizanız yoxdur" dedi. Onun saymazyana hərəkəti məni əsəbləşdirdi. Qatlanmış orta barmağımın arxası ilə sərhədçinin qarşısındakı

taxtanı tıqqıldadaraq “taxta səs verir, sənin başın səs vermir! Diqqətlə oxu, mənim pasportum xidməti pasportdur”, – dedim.

Hərəkətim sərhədçini özündən çıxardı. Şüşənin arxasından mənə bağırdı ki, başqalarına mane olmayım, yolu açım. Mən də ondan bərk bağırdım ki, növbə rəisini çağırın. Səs-küyümüzə Jumaboay Yusubov geri dönmək istədi ki, mənə kömək etsin. Onu mənim yanıma gəlməyə buraxmadılar.

Səs-küyə yanında iki əsgəri olan bir zabit gəldi. O, nə baş verdiyi ilə maraqlanmadan mənə hirsləndi ki, niyə qaydanı pozuram. Mən də əsəbiliklə onu acıladım və işlərini bilməməkdə, savadsızlıqda suçladım. Dedim ki, Türkmənistan Xarici İşlər Nazirliyi xidməti pasportu olanlardan viza tələb etmir. Siz nə haqla məndən viza tələb edirsiniz?

Zabit məni boğmağa hazır olsa da, sərhədçinin əlindən pasportumu aldı və açıb baxmadan əsəbiliklə: “Xidməti pasportunuz olsa da, miqrasiya xidmətindən icazəniz yoxdur”, – dedi. Əsəbi olsam da, özümü toparlayıb, istehza ilə gülərək: “Əlifba bilirsinizmi? Əlifbanı tanısaydınız, miqrasiya xidmətinin siyahısında mənim adımı oxuyardınız. Biz birlikdə Daşoğuza simpoziuma gedirik. Siyahıda da 4 alimin adı var. Siz savadsızsınızsa, mən neyləyim?” – dedikdə zabit və onunla gələn sərhədçilər şüşə ara-kəsmənin o tərəfindən fırlandılar ki, gəlib məni harayasa aparsınlar. Bu zaman ortaboylu bir nəfər içəri daxil

oldu. Sərhədçi-lər, görünür, onu tanıdıqlarından özlərini yığışdırdılar. O, mənimlə əl verib görüşdü və zabiti tənəli baxışla süzüb: “Hakimin qonaqlarını beləmi qarşılayırsınız?!” – dedi.

Zabit sakit geri dönüb sənədlərə möhür vuran sərhədçini yerindən qaldırdı, siyahıya baxıb mənim pasportuma möhür vurub özümə qaytardı. Bizi qarşılamağa gələn nümayəndə ilə çölə çıxıb maşınlara mindik. 15-20 dəqiqə sonra Daşoğuzdakı simpozium iştirakçılarının qalacağı Diyarbəkir hotelinə çatdıq. Hoteldə yerləşəndən sonra Jumaboay Yusubov dedi ki, saxlandığını Daşoğuz vilayət İcra Hakimiyyətinin nümayəndəsinə deməsəydik, səni müxtəlif bəhanə ilə sərhəddə saxlayacaqdılar. Burada qanun-qaydaya deyil, özlərindən yuxarı vəzifədə olanların dediklərinə əməl edilir.

Bizi arağa qonaq edən kənd imamı

Axşam yeməyindən sonra Jumaboay Yusubov xahiş etdi ki, birlikdə Daşoğuzda yaşayan əmisi oğlunu görməyə gedək. Etiraz etmədim. Taksiyə əyləşib Jumaboay Yusubovun dediyi ünvana sürməsini istədik.

Şəhərin çoxmərtəbəli evlərindən sonra birmərtəbəli evlər başlandı. Dünyanın hər yerində

şəhərlər böyüdükcə yaxınlığında olan kəndləri öz içərisində əridir. Daşoğuzda da belədir.

Birmərtəbəli evlərdən birinin qarşısında dayanırıq. Jumaboay Yusubovun səsinə bizdən 5-10 yaş kiçik bir qadın çıxıb evə dəvət etdi. Az keçməmiş 50-60 yaşlarında, saqqallı bir kişi içəri girdi. Jumaboayla qucaqlaşıb öpüşdü, bir az da kövrəldilər. Ev sahibi mənimlə də görüşəndən sonra xanımına çantadakı arağı soyuducunun buzluğuna qoymasını tapşırdı.

Jumaboay Yusubov hoteldə mənə əmioğlusunun kənd məscidinin imamı olduğunu demişdi. Buna görə özümlə Türkiyədə nəşr edilmiş, zərli Qurani-Kərim, təsbeh və canamaz götürmüşdüm. İçəri girəndə onları evin xanımına Azərbaycandan hədiyyə kimi vermişdim.

Ev sahibi "əlhəşir" edir, xanımına və evdəkilərə göstərişlər verir, Jumaboay Yusubov da onu sakitləşdirməyə çalışırdı. Söhbətlərindən başa düşdüm ki, ev sahibi bölgəsəl yeməklər hazırlatmaq istəyir, Jumaboay Yusubov da onlara əngəl olurdu. Yeyib gəldiyimizi söyləyirdi. Sonda razılığa gəldilər ki, yüngül bir süfrə ilə keçinsinlər.

Məscid imamı əmioğlusunun həvəsini nəzərə alıb soyuducudakı yeddi yüz əlli qramlıq arağı süfrəyə gətirtdi. İndiki vəzifəsini də, dini inancının qadağan etməsini də yaddan çıxardaraq gənclik illərində keçirdikləri günlərdən, yeyib-içmək məclisindən danışa-danışa araq içməkdə Jumaboay Yusubova

yoldaşlıq edirdi. Söhbətin mövzusu tez-tez dəyişirdi. Ən çox da ötən günlərin xiffəti edilirdi. Həmişə özbəklərlə türkmənlərin mehriban yaşadıqları bölgədə özbəklərin sıxışdırılmasından, sərhəd rejiminin sərtliyindən gileylənirdilər. Söhbətlərindən başa düşürdüm ki, xeyir-şərə vaxtında gedə bilmirlər, bölgədəki məmurların sırasında özbəklər gündən-günə azalır. Buna görə də Daşoğuz vilayətindən Özbəkistana köçənlərin sayı artır.

Jumaboay onu da bildirdi ki, arxın suyunu duruldub içmək üçün, yararlı hala salmaq məqsədilə vaxtilə Xivə xanı burada daşdan böyük hovuz tikdirib. Ona görə də buraya Daş hovuz deyirlərmiş. İndi türkmənlər onu Daşoğuza çeviriblər.

Jumaboayla əmioğlusu şirin-şirin uşaqlıq və gənclik illərindən, kolxozda pambıq yığmağa getdiklərindən, pambıq tarlalarının kənarında bitmiş qarpızların böyüklüyündən və şirinliyindən danışdıqca ürək ağrısı keçirirdim. Bərabərlikdən, 8 saatlıq iş günündən, demokratiyadan gen-bol danışılan Sovet hökumətində uşaq əməyinin istismarı, insanların kölə kimi işlədilməsi, iaşə və səhiyyə xidməti olmadan onları ilin 7-8 ayı pambıq tarlalarında qızmar günəş altında işlətdikləri, lilli su içirdikləri gözlərim qarşısına gəlir.

Xarəzm bölgəsində yaşayan özbəklərin və türkmənlərin dili o qədər yaxındır, bəzən özbəkcəmi, yoxsa türkməncəmi danışdıqlarını ayıra bilmirəm. Azərbaycan türkcəsinə çox yaxın olduğundan, terminlər

də rus dilindən alındığından danışıqlarını anlamaqda çətinlik çəkmirəm. Bu mövzuda Jumaboayla söhbət edəndə o giley və əsəbiliklə: "Bizi bir-birimizdən ayırmaq üçün Rusiyanın məmurları da, alimləri də çox məkrli plan hazırladılar. Daşkənd ləhcəsini ədəbi dilə çevirməklə həm xarəzmliləri çətin vəziyyətə saldılar, həm də ədəbi dilimizin Türkməncədən, Türkcədən, Azərbaycan türkcəsindən uzaqlaşdırılmasına nail oldular. 70 ildir, Daşkənd ləhcəsi ədəbi dildir. Orta məktəblərdə dərslər bu ləhcələrdə keçilir. Amma Xarəzmdən Daşkəndə oxumağa və ya hər hansı bir iş dalınca gedən gənclər danışanda özbəklərin çoxu onlara gülür. Xarəzmli ali məktəbi bitirdikdə təyinatını başqa bölgələrə, başqa bölgələrin gənclərinin təyinatını da Xarəzmə verirlər. Xarəzmdə qalıb işləyən gəncləri imtiyazlarla şirnikləndirirlər ki, həmişəlik burada qalsınlar. Bu metodla istəyirlər, Xarəzm ləhcəsini əritsinlər".

Gecə hoteldə Jumaboayla xeyli söhbət etdik. Mən onun şirin xatirələrini korlamaq istəməsəm də, pambıqçılığın millətin genefonduna vurduğu zərərdən, pambıq əkinində zəhərli gübrə və dərmanlardan yerli-yersiz istifadə edilməsinin vurduğu zərərdən söz açdım.

– Dediklərin doğrudur. Əslində uşaqlıq və gəncliyimizi yarıac, yarıtox, günümüzün çoxunu pambıq tarlasında keçirməklə yaşadıq. Necə deyərlər, sanki cəhənnəmi gördük. Amma insanlar həmişə keçmişdəki ağrı-acıları yada salmaq istəmir. Xoş bir

şey yadda saxlamağa, onu söyləməyə və yaşatmağa çalışırlar, – dedi.

Aşqabaddan gələnlərin qarşılanması

Səhər saat 6.00-da bizi yuxudan oyadanda nə baş verdiyini anlaya bilmədim. Hava limanına gedəcəyimizi dedilər. Elə bildim, harayasa uçacağıq. Yol çantalarımızı və hotel qeydiyyatçısındakı pasportlarımızı götürməyə qoymadılar. Hava limanına niyə gedirik, nədən gedirik sualını da cavablan-dırmadılar.

Hava limanına gələndə əllərində şirniyyat tabaqları tutmuş, milli geyimli qızları, məktəbliləri, vurnuxan vəzifə sahiblərini görəndə anladım ki, burada bir qarşılama törəni olacaq. Amma o qarşılanan biz deyildik. Avtobusdan enib açıq havada gözləməyə başladıq.

Gündüz havalar isti keçsə də, səhər tezdən çox sərin idi. Yay paltarında gələnlərin bir çoxu qayıdıb avtobusa mindilər. Bir azdan bir neçə avtobus da gəldi. Avtobusdan enənlər arasında tanıdığım xeyli araşdırıcı və Elmlər Akademiyasının texniki işçiləri vardı. Tanışlarla görüşdük. Öyrəndim ki, onlar Aşqabaddan dünən yola düşüblər. 600 kilometrlik yolu 11 saata gəliblər. Onları hotelə aparmadan, yuyunmalarına, dincəlmələrinə imkan vermədən birbaşa aeroporta gətiriblər. Hamısının üz-gözündən yorğunluq yağırdı.

Aşqabaddan gələn təyyarə səhər saat 7.40-da Daşoğuzda yerə endi. Gələnlərin təntənəli qarşılanması başladı. Onda bildim ki, araşdırıcıları, işçiləri avtobusla yola salıblar, rəhbərlər isə təyyarə ilə gəlib. Rəhbərlərin və xarici ölkələrdən gəlmiş qonaqların qarşılanması bir saatdan çox çəkdi. Sonra bizi qaldığımız hotelə qaytardılar. Türkmənistandan olan məruzəçiləri və akademiya işçilərini "Daşoğuz", "Uzboy" hotellərinə apardılar.

Yüngül səhər yeməyindən sonra simpozium iştirakçılarını Əndəlib adına Dövlət Musiqili Dram Teatrına gətirdilər. Burada qeydiyyatdan keçib proqram aldıq. Proqramda simpoziuma 26 ölkədən 130 araşdırıcının qatıldığı yazılmışdı. Onların 55-i xaricdən gələnlərdi idi. Qeydiyyatdan keçəndən sonra proqramda adı olan tanışlardan bəzilərinin gəlmədiyini gördüm.

Proqram da nə proqram. Türkmən, rus və ingilis dillərində hazırlanmış proqramda 5 bölmənin hər birində 25-28 araşdırıcının adı, soyadı və məruzəsinin adı heç bir sistem gözlənilmədən, sıra ilə yazılmışdı. Məruzələr, sual və çıxışlar üçün neçə dəqiqə vaxt ayrıldığı göstərilməmişdi. Sovet dövrünün elmi konfranslarının proqramına bənzəyirdi. Türkmənistanda olanda hər dəfə təşkilatçılara bunu irad tutsaq da, "doğrudur, düzəldəcəyik" deyirdilər. Yenidən gələndə görürük, "köhnə hamam, köhnə tas".

Proqramda məruzə, sual və çıxışlara dəqiq vaxt göstərilməməsinin ağrısını türkmənistanlı araşdırıcılar çəkirdi. Hörmət əlaməti olaraq xarici ölkələrdən gələnlərin sözünü kəsmirdilər. Onların bəziləri də 20 dəqiqə əvəzinə 30-40 dəqiqə məruzə oxuyurdu. Nəticədə, yerli araşdırıcıların əksəriyyətindən 5-10 dəqiqədə fikrini yekunlaşdırmalarını tələb edirlər, ya da heç söz vermirdilər.

Türkmənistanda keçirilən simpoziumların ən böyük nöqsanı məruzələrin çap edilməməsidir. Öncədən məruzə mətnlərini alsalar da, heç vaxt onların çap edildiyini görmədim. Həmişə məruzələrin özətlərini üç dildə nəşr etməklə kifayətlənirlər. Ən acınacaqlısı isə toplanan məruzələrin mətnlərinin arxivdə saxlanmaması idi. Bir dəfə Aşqabada simpoziuma gedərkən iki il öncə oxunmuş bir məruzənin mətni ilə tanış olmaq istədim. Onda öyrəndim ki, mətnlər saxlanılmır.

Hər dəfə qonaqlar özətlər çap olunmuş kitabı oxuyanda narazılıq etdiyini, təşkilatçıların isə onları dilə tutduqlarını görürdüm. Təşkilatçılar tərcümələrdəki səhvləri üzə vurmamamızı xahiş edirdilər. Deyirdilər: “sSiz hay-küy salsanız, rəhbərlik bizi cəzalandıracaq”. Səhvlər yalnız ingilis, rus dillərinə tərcümədə olmurdu, türk, rus, ingilis dillərindən türkmən dillərinə çeviridə də kobud səhvlərə yol verilirdi. Əgər simpoziumdakı özətlərdən kimsə

qaynaq kimi istifadə etmək istəsə, gərək özətin yazıldığı dildən, orijinalından istifadə etsin.

Plenar iclas

Proqramlarımız, özətlərimiz nəşr edilmiş kitablar, dəftərçə, qələm, döş nişanı olan çantaları alıb iclas salonuna keçirik. Təntənəli açılış Türkmənistanın prezidenti Qurbandurdu Berdimuhəmmədovun təbrik məktubunun oxunuşu ilə başladı. Plenar iclasda Rusiyadan Arian Yermolayevin, Ukraynadan Kkırım tatarı İsmət Zaatovun, Azərbaycandan İsa Həbibbəyli və Əbülfəz Quliyevin, Qırğızıstandan Eqemberdi Toktarov və Baybulat Abutovun, Koreyadan Li Ok Ryönin, Özbəkistandan Jumaboay Yusubovun, İspaniyadan Helga Kegelin, Yaponiyadan Sakay Hurokinin məruzələri dinlənəcəkdi. Azərbaycandan İsa Həbibbəylinin vacib bir işi çıxdığına görə gəlməmişdi.

Yorğun olduqlarından adamların çoxunu yuxu basırdı. Toplantılarda şirin yuxuya getdiyimdən məni oyatmasa idilər, yəqin ki, salonda yatıb qalacaqdım.

Plenar iclas başa çatdıqdan sonra bizi Türkmənistan Prezidenti Qurbandurdu Berdimuhəmmədovun sağlığına sədəqəyə apardılar. Türkmənistanda sədəqə deyəndə böyük yemək süfrəsi nəzərdə tutulur. Orada 5-6 simpoziumda olsam da, prezidentin

sağlığı şərəfinə veriən sədəqə ilə, prezidentin adından verilən qonaqlığın fərqini ayıra bilməmişəm.

Rəsmi yeməklərdə hökumət adamlarının yanında mötəbər din xadimləri də oturur. Onlar süfrə duası oxumasa, heç kim əlini yeməyə uzatmır. Süfrə başında hörmət göstərdikləri din adamlarını məmurların sevmədiyi açıq-aşkar bilinir. Bu, Sovet dönəmində ateist bir ruhda böyümüş məmurların din xadimlərinə ikili yanaşması idi.

Plenar iclasdan sonra qonaqların yolpullarını ödəyirdilər. Növbə mənə çatanda biletimdə göstərilən məbləği verdilər. Mən etiraz etdim. "Azərbaycandan gələnlərə min yüz dollardan çox yolpulu verdiyiniz halda mənə niyə 600 dollar verirsiniz?" – dedim. Mənə verdiyiniz pul azdır. Onlar izah edirdilər ki, yol-pulu hansı ölkədən gəlməyinizə görə deyil, aldığınız biletə görə verilir. Mən "başa düşmək" istəmirdim. "Miras" təşkilatının gənc üzvləri isə məsələyə qarışmır, gülümsəməklə kifayətlənirdilər.

Bizim mübahisəmiz yanımızdan keçməkdə olan Annakurban Aşırovun da diqqətini çəkdi. Məndən deyil, maliyə idarəsinin rəisindən nə hadisə baş verdiyini soruşdu. O da mənim qanunsuz olaraq çox pul istədiyimi söylədi. Annakurban Aşırov əlini bərkdən çiynimə vuraraq, maliyə idarəsinin rəisinə: "Bileti Daşkənd üstündən almasına əngəl olmaq istədiyinizə görə sizi hirsləndirir. İstəyir, sizə dərs versin. Hamıya şübhə ilə yanaşmasanız, büdcədə

qənaətiniz çox olar", – deyib vilayət rəhbərləri və Aşqabaddan gələn rəhbərlərin yanına getdi.

Maliyə idarəsinin rəisi dostlarımın bizim söhbətimizə baxıb güldüklərini görsə də, heç nə demədi. Acığını kassirə tökdü.

Bölmə iclasları

Simpozium nahardan sonra 5 bölmədə işini davam etdirdi. Bölmə iclasları bir-birindən çox aralıdakı binalarda olduğundan proqramda qeyd etdiyim məruzələri dinləmək mümkün olmadı. Yalnız daxil olduğum bölmədəki məruzələri dinləyə bildim. Bu hal Amerikadan, Avropadan, Türkiyədən gələnlərin hamısının, keçmiş SSRİ məkanından gələnlərin də mənim kimi tək-tükünün narazılığına səbəb olurdu.

Nahara gedərkən Jumaboay Yusubovu görməyə gəlmiş qohumları ilə tanış oldum. Jumaboay dedi ki, qohumlarım məni kəndə aparacaq. Birlikdə getsək, yaxşı olar. Həm qohumlarımla tanış olar, həm də uşaqlıq və gəncliyim keçən kəndi görərsən. Axşam da bizi Daşoğuza gətirəcəklər.

Nahardan sonrakı məruzəçilər sırasında olduğumu dedim. Jumaboay Yusubov: "Sənin məruzə etmədiyinə diqqət yetirən olmayacaq. Gəldin, göründün, yetərlidir. Görürsən ki, siyahıda adı olan türkmənlərin bəziləri ya gəlmir, gəlsə də, məruzə oxu-

mur", – deyərək məni dilə tutmağa çalışdı. Onunla razılaşmadığımı görüb ata-anasının, doğmalarının qəbrini ziyarət etməyə və doğmaları ilə görüşməyə getdi.

"Koroğlu" dastanı Türkmən tarixini öyrənməkdə mühüm çeşmədir" adlandırılan 5-ci bölmənin toplantısı Əndəlip adına Sazlı (musiqili) Dram Teatrının kiçik zalında keçirilirdi. Proqramda həmin bölmədə 25 nəfərin məruzə oxuyacağı yazılmışdı. Mənim sıram 22-ci idi. Bölmənin yolbaşıları (rəhbərləri) sSlovakiyalı Mixail Şimigel və Qurtniyaz Xanmıradov olsa da, sonadək toplantını qonaq apardı.

Bölmə rəhbərləri öz məruzələrini oxuduqdan sonra başqalarına söz verdilər. "Xələc variantında Koroğlunun Türkmən səfəri" mövzusunda məruzəmi öncədən türkmən dilinə çevirtdirdiyimdən aramla həmin mətni oxudum. Onu da vurğuladım ki, "Koroğlu" dastanında Türkmən dedikdə bugünkü türkmənlər deyil, indiki Özbəkistanda, Türkmənistanda, İran İslam Respublikasında, İraqda, Suriyada, Türkiyədə, Qafqazda, Balkanlarda və b. bölgələrdə yaşayan islamı qəbul etmiş oğuzlar nəzərdə tutulur.

Gözləyirdim ki, ən çox türkmən araşdırıcıları sual verəcək. Lakin sual verən olmadı. Ümumiyyətlə, çox az halda məruzəçiyə sual verilirdi. Sual verənlər də əsasən xaricilər olurdu. Bölməmizdə siyahıya salınmış 25 məruzədən 14-ü dinlənildi. Bölmə iclası dəyərləndirilmədən qapadıldı.

Diqqətimi çəkən o oldu ki, salonda susan türkmən araşdırıcılar fasilədə mənimlə mübahisə etməyə başladılar. Onların dediyi bu idi ki, Türkmənistan dedikdə indiki Türkmənistan və ona bitişik İran İslam Respublikasındakı Türkmənsəhra nəzərdə tutulmalıdır. Mən onlara məruzəmdən parçaları təkrar oxuyur və xəbər alırdım: "Bu mətnlərə etirazınız varmı? Mətnləri mən özümdən quraşdırmamışam ki?" Etiraz edən olmadı. Amma mənim fikrimlə də razılaşmadıqlarını bildirdilər.

Folklorşünas Qurbancamal İlyasovanın: "Əli Şamilin məruzəsi bizə bir istiqamətverici olmalıdır. Orada Türkmənistanın indiki Türkmənistandan çox böyük olduğu göstərilir. Böyük Türkmənistanımız parçalana-parçalana bizə bir ovuc qalıb", – deməsi ətrafımızdakıları sakitləşdirdi. Mən Saparmurad Türkmənbaşının "Ruhnamə" əsərinin əsas ideyasını, Oğuzların Türkmənləşməsi məsələsini onların yadına saldım. Bundan sonra etiraz edən, söz güləşdirən olmadı.

Axşam Əndəlib adına Sazlı (musiqili) Dram Teatrının əsas salonunda simpozium iştirakçıları üçün konsert verdilər. Həmin konsertdən mənə ən çox zövq verən Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasından Əsgərlə Gülçöhrənin duetinin oxunması oldu.

Təhlükəsizliyimizə cavabdehlər, yoxsa bizi güdənlər

Yemək yediyimiz restoranla qaldığımız Diyarbəkir hotelinin arasında kiçik bir bağ vardı. Yolumuz yaxın olsa da, bizi hər gün hotelin qarşısında dayanan təzə Mersedes avtobuslara mindirir, restoranın qarşısında endirirdilər. Adamlar heç vaxt deyilən vaxtda avtobusa minmirdilər. Buna görə də hoteldən restorana getməyimiz 30-40 dəqiqə çəkirdi. Avtobusda oturub yubananları gözləmək isə məni əsəbləşdirirdi.

Piyada getməyimizə də müxtəlif vasitələrlə əngəl olurdular. Bunu bizim rahatlığımız və təhlükəsizliyimiz kimi qiymətləndirirdilər. Əslində bu kiçik əyalət şəhərində, hətta respublikanın paytaxtı Aşqabadda küçə və meydanlarda bir sakitlik, dinclik hakimdir. Küçələrin kəsişdiyi yerlərdə, meydanlarda bir tərəfdə 2-3 nəfər milis, o biri tərəfdə 2-3 nəfər də əsgər gəzişir. Ölkəni BMT tərəfsiz elan etdiklərindən əsgərlər hərbi təlimlərə cəlb edilmir. Əsgərliyə səfərbər edilənlər ya küçə və meydanlarda, ya da idarə və təşkilatların girişində növbətçilik edirlər.

Dəfələrlə Türkmənistanda simpoziumda olanda qonaqların yerli sakinlərlə görüşmələrini istəmədiklərini bilirdim.

Daşoğuzda olduğumuz ikinci gün yenə də hər gün şahidi olduğumuz hadisə təkrarlanırdı. Mən adamların

sallana-sallana avtobusa minməsini gözləməkdən bezdiyimdən arxamca səslənənlərə əhəmiyyət vermədən iti addımlarla parka keçdim. Mənim bu ölçülüb-biçilməmiş hərəkətimi görən 28-30 yaşlı, uca boylu gənc hotelin qarşısındakı kiçik dəmir hasarın üstündən atılıb qarşıdakı parka gəldi. Onu sifətdən tanıyırdım. Aşqabadda da görmüşdüm. Sakitcə simpozium iştirakçılarını müşahidə edənlərin arasında olardı. Heç kimlə ünsiyyətə girməzdi. Mən hoteldən enəndə də o, avtobusdan bir az aralıda durub baxışları ilə adamları izləyirdi.

Məni geri qaytarmağa çalışdığını bildiyimdən iti addımlarla ona yaxınlaşıb salam verdim. O, çaşbaşlıqla mənə baxdı. Yanımızdan keçməkdə olan milli paltarlı türkmən qızlarına işarə ilə: "Sən cavansan. Bu yerləri də yaxşı tanıyırsan. Qızları axşam bara dəvət elə. Bir yerdə əylənək. Xərcini mən çəkəcəm", – dedim. Sifətində bir çaşqınlıq yarandı. Mən onun nə deyəcəyini gözləmədən "türkmən dilini bilmirsən, yoxsa lalsan?" – dedim və əlimi yellədərək: "Məndən də qocasan. Səndən bara gedən olmaz", – deyərək yoluma davam etdim. Restoranın qarşısına çatandan 15-20 dəqiqə sonra avtobuslar gəldi.

Düşündüm ki, mənim bu həyasızlığımdan sonra bizi "qoruyan"lar bir daha mənə "haraya gedirsən", "haradan gəlirsən" deməz. Amma Annakurban Aşırov abrımı bükdü. "Sənə neçə dəfə demişəm, KQB işçiləri ilə işin olmasın. Sən gedirsən, sonra mənə irad tuturlar.

Rəhbər işçiləri də saya salmırsan. Bura Türkiyə, Azərbaycan deyil", – dedi. Mən də: "Aşırov, onda məni bir daha simpoziuma çağırmayın. Bilirsiniz ki, dəyişən deyiləm", – deyəndə sakit və gülümsəyərək: "Çox vaxt ürəyimdən keçənləri, demək istəyib deyə bilmədiklərimizi sən deyirsən. Onlar da görür ki, belə sözləri dilə gətirmək olar. Alimlərimiz, xüsusən gənclər sizlərin davranışından nümunə götürməyə çalışırlar, cəsarətlənirlər", – dedi.

Köhnə Ürgəncə gedə bilmədik

Sentyabrın 24-də bizi gəzməyə İzmışkır qalasının xarabalıqlarına apardılar. Orda da məktəblilər, əmək adamları, musiqiçilər qonaqları təntənəli qarşıladılar. Milli geyimdə, təxminən eyni boyda, eyni yaşda gözəl qızlar qonaqlara çörək, şirniyyat, kişmiş, şərbət və s. payladılar. 12 nəfər ağ saqqallı, türkmən milli geyimində olan qocaları elə bəzəmişdilər, elə bil, canlı insan deyil, manikendirlər.

Xaricdən gələnlər böyük həvəslə qoca türkmənlərlə və gənc, gülərüz qızlarla şəkillər çəkdirirdilər.

Oradan bizi İmamat ata qalasının xarabalarını gəzdirməyə apardılar. Gəzinti proqramındakı Mahmud Zamaxşarinin movzeleyi mənim üçün daha önəmli oldu. 1075-ci ildə qədim Xarəzmin Zamaxşar kəndində doğulmuş böyük alimin təfsir, kəlam, fiqih, bəlağət sahəsində dəyərli əsərləri olsa da, mən onun

lüğəti ilə tanış idim. Mahmud Kaşğari ərəblərə türk dilini öyrətmək üçün lüğət hazırlamışdısa, Əbülqasım Mahmud Ömər oğlu da türklərə ərəb dilini öyrətmək üçün lüğət yazıb. İradəsinə heyran qaldığım bu insan uşaqlıqda bir ayağını itirib, ömrünün sonunadək ağac ayaqla gəzib. Yeniyetməliyində Buxaraya gedərək mədrəsə təhsili alıb. Sonralar Xorasanı, İsfahanı gəzib. Bağdaddakı Nizamiyyə Mədrəsəsində oxuyub. İki dəfə Hacc ziyarətinə gedib. Uzun müddət Məkkə və Mədinədə yaşayıb. Dövrünün məşhur elm adamları ilə görüşüb. Onlardan öyrənib və onlara da bildiklərini öyrədib. Yorulmadan elmlə məşğul olub. Ömrünün sonunda Qurcanda-Ürgəncdə yaşayıb. 69 yaşında – 1144-cü il iyun ayının 13-də ərəfə gecəsi dünyadan köçüb.

Mahmud Zamaxşari haqqında bir elmi məruzə yazıb simpoziumda çıxış etmişdim. Onun məzarını ziyarətdən sonra bizə Koroğlu rayonunda nahar verəcək və oranı gəzdirəcəkdilər. Orada elə gəzməli-görməli yer olmadığından kiyevli Anotoli Momriklə Köhnə Ürgəncə getməyi planladıq. Jumaboay Yusubovu dilə tutduq ki, bizə bələdçilik etsin. O, yarıkönül razılaşdı. Lakin planımız baş tutmadı. Taksini saxlayıb bizi endirdilər. Bəhanələri də bu oldu ki, sizin təhlükəsizliyinizi qoruyuruq. Simpoziumun təşkilatçıları mənim cığallıq etdiyimi gördükdə söz verdilər ki, sabah nahardan sonra istədiyiniz bir neçə adamla sizi Köhnə Ürgəncə aparar, sentyabrın 26-da

səhər yeməyindən sonra Ürgəncə yola salarıq. Mən onların dediyinə inanmasam da, yol yoldaşlarımın təkid etmədiklərini görüb sakitləşdim.

Hakimin Elçibəyin adını çəkməsinə heyrətləndim

Sentyabrın 24-də axşam yeməyinə gedəndə təşkilatçılardan biri: "Yeməyə getməyin, gözləyin", – dedi. Hotelin foyesində gözləməli oldum. Təxminən bir saatdan sonra məni qara Mersedesə mindirib yola saldılar. Nömrəsindən hökumət maşını olduğu bilinirdi. 300-500 metr gedəndən sonra maşın Daşoğuz Vilayət Hakimiyyətinin binası qarşısında dayandı. Öncədən hara gedəcəyimi desəydilər, özüm gəzə-gəzə gələ bilərdim.

Binanın girişində məni qarşılayanla ikinci mərtəbəyə qalxdıq. Qəbul otağında Annakurban Aşırovu gördüm. Onunla birlikdə hakimin otağına kgeçdik. Otaqdakı 30-35 yaşlı gənc yerindən qalxıb bizi qarşıladı. Oturmağa yer göstərdi. Özü haqqında onu dedi ki, ixtisası neft mühəndisi olsa da, idarəetmə sahəsində çalışır.

Özüm haqqında heç nə demədim. Bilirdim ki, Annakurban Aşırov lazımı bilgini verib. Ehtiyat üçün yanımda götürdüyüm "Quzey Kıbrıs" kitabıma avtoqraf yazıb, üzərinə də vizit kartımı qoyub verdim. Hakimin mədəniyyət üzrə müavini olan qadın da gəldi

və bizi hakimin istirahət otağına dəvət etdi. Burada açılmış süfrə bizi gözləyirdi.

Hakim mənim sağlığıma badə qaldırdı, Annakurban Aşırova bizi tanış etdiyi üçün təşəkkürünü bildirdi. Azərbaycanla Türkmənistanın mədəni, iqtisadi, siyasi, qohumluq əlaqələrini möhkəmləndirilməsinin vacibliyini vurğuladı və Türkmənistanda rəhbər vəzifədə işləyənlərin təxminən 30 faizinin anası və ya nənələrinin Azərbaycanlı olduğunu dedi.

Mənim içməməyim gözündən yayınmadı. Annakurban Aşırov məsələyə aydınlıq gətirmək üçün "spirtli içki içməməyi dini inancı ilə bağlı deyil", – dedi.

Sonra Annakurban Aşırov sağlıq dedi. Mənim türk xalqlarının yaxınlaşmasına çalışdığımı vurğuladı və hakimin şərəfinə uzun bir nitq söylədi. Ondan sonrakı sağlıqlar qısa oldu.

Sağlıqlar arasında hakim İranda və Türkiyədəki əhalinin milli tərkibi, İraq və Suriyadakı türkmanlarla Türkmənistandakı türkmənlərin dil və mədəniyyətinin fərqli cəhətləri haqqında suallar verirdi. Mən də onun suallarını bilgim səviyyəsində cavablandırırdım.

Azərbaycanın siyasi vəziyyətindən söz düşəndə hakimin xalqın indi Elçibəyə münasibətinin necə olmasını xəbər alması mənim üçün gözlənilməz oldu. Qısaca olaraq dedim ki, tarixin heç bir dönəmində

xalq müasirlərini doğru dəyərləndirə bilmir. Hakimiyyətdə olanların təbliğatı da xalqı çaşdırır.

Annakurban Aşırov səfir işləyərkən tanış olduğumuzdan, Türkiyə mətbuatında çap olunmuş bir neçə məqaləmi oxuduğundan, oradakı yazıda öncəgörənlik etməyimdən söz açdı. Dedi: "Heydər Əliyev Surət Hüseynovu baş nazir təyin edəndən bir neçə ay sonra Əli Şamil yazmışdı ki, Heydər Əliyev deyəcək: "Surət Hüseynov gənc olduğuna görə etimad göstərdik, vəzifə verdik, dedik, işləsin, millətin qulluğunda dursun. Görün o nələr elədi. Vətənə və millətə necə zərbə vurdu!"

Türkmənbaşı haqqında elə bir yazı çap olunsaydı, Türkmənbaşının xəbəri olana kimi bunu aradan götürərdilər", – dedi. Sonra da mənim "Ayna" qəzetində 2002-ci il oktyabrın 18-də çap olunmuş "Türkmənistan milli oyanışla avtoritarizm arasında" məqaləmin məzmunundan söz açdı. Dedi ki, Türkmənbaşı xarici ölkələrdən gələn alimləri qəbul edərkən Heydər Əliyev, Türkmənistan-Azərbaycan münasibətləri haqqında nə demişdisə, hamısını yazmışdı.

Hakim məqaləyə görə mənə hansı cəzanın verildiyi ilə maraqlandı. Mən heç bir cəza almadığımı deyəndə inanmadığını üzündən oxudum. Annakurban Aşırov: "Qarşınızda sakit durmasına baxmayın. Hər dəfə simpoziuma gələndə bir qalmaqalı olur", – dedi və mənim səhər parkda bizi qorumalı olan gəncə de-

diklərimi xatırlatdı. Hakimin də, müavinin də üzü güldü.

Hakimin müavininin telefonu zəng çaldı. O, danışmaq üçün dəhlizə çıxdı. Mən Türkmənistanda olarkən bizi qarşılayan, şəhəri gəzdirən türkmən gənclərinə hərdən zarafatla "Leninin heykəli nə yaman çoxdur" deyirdim. Onlar da çox vaxt "Lenin heykəli yoxdur, onları yıxmışıq. Türkmənbaşının heykəlidir" deyirdilər. Hətta bir dəfə Sarbon Universitetini bitirib, Türkmənistan Xarici İşlər Nazirliyində işləyən Kamilə də belə bir zarafat edəndə eyni cavabı almışdım. Sonra da bizi Leninin Aşqabadda qalmış yeganə heykəlinin yanına aparıb: "Türkmənistanda təkcə burada Leninin heykəli qalıb", – demişdi. Mənim gülüşümdən nəyə işarə etdiyimi bilsə də, üstünü vurmamışdı.

2006-cı ildə Saparmurat Türkmənbaşı (Nıyazov) öləndən sonra görürdüm ki, onun heykəllərinə münasibət dəyişib. 2009-cu il martın 11-13-də Aşqabadda keçirilən "Səlcuqlar dövrünün ədəbiyyatı və mədəniyyəti" Uluslararası Simpoziumda iştirak edəndə eşitdim ki, Türkmənbaşının şəhərin mərkəzindəki qızıl suyuna çəkilmiş, üzü günəşə doğru fırlanan nəhəng heykəlini təmir ediləcəyi adıyla götür-

məyi planlayırlar[2]. Türkmən tanışlarımın bəziləri buna görə məndən muştuluq da istəmişdilər.

Türkmənbaşıya qarşı münasibətin dəyişməkdə olması, hakimin də yeni təyin edilməsi məni bir az da cəsarətləndirdi. Yemək-içmək süfrəsi arxasında olduğumuzdan cəsarətim bir az da artdı. Oturduğum yerdən şəhər meydanı aydın görünürdü. Müavininin çölə çıxdığından, içəridə üçümüzdən başqa bir kimsənin olmadığından istifadə edərək əlimi pəncərəyə tərəf uzadıb, gülümsəyərək dedim: "Meydan çox gözəl və səliqə-səhmanlıdır. Yaraşığını "Lenin"in heykəli pozur. Onu nə vaxt götürəcəksiniz?" Hakim tükünü "pursutmadan", arxasına baxmadan sakitcə "Siz Azərbaycanda "Leninin" heykəllərini götürəndə biz də götürəcəyik. Siz bizim böyük qardaşımızsınız. Sizin arxanızca gedir, gec də olsa, sizin etdiklərinizi təkrarlamağa çalışırıq" cavabını verdi. Onun hazırcavablığı məni pərt vəziyyətdə qoydu. Hakimin müavini geri qayıdanda yanında iki nəfər də vardı. Onlar gələnədək biz türkmən, Azərbaycan dillərinin qarışığında danışırdıq. Onlar süfrəyə əyləşəndən sonra söhbətimiz rus dilində davam etdi. Gələnləri tanıyırdım. Keçmiş Yakutiya Respublikasından idilər.

[2] Həmin heykəl 2017-ci ilin iyulunda tam söküldü və atasının şərəfinə adlanan Atamırat rayonu və Atamırat şəhəri Kərkin rayonu və Kərki şəhəri, Dyanyev rayonunun Niyazov qəsəbəsi Qaraşsızlık, Sərdarabat rayonu Çarcev adlandırıldı və Böyük Türkmənbaşı adına rayon ləğv edilərək ərazisi Dövlətli rayon inzibati vahidinə verildi.

SSRİ dağılandan sonra özlərini Saxa adlandırdılar və bunu rəsmiləşdirdilər. Özlərini bizim saklar dediyimiz qədim türk xalqının varisi sayırlar.

Saxadakı M.S.Amasov adına Beynəlxalq Olonxo Mərkəzinin rəhbərləri olan Lena Fyodorova və Vitali Vlasovla söhbətimiz giley-güzarlı keçdi. Onlar müstəqillik əldə etmiş respublikalardan kömək gözləyirlər. Bizlərdən çox uzaqda olan sakaları isə elə bil tamam unutmuşuq. Təklif edirdilər ki, hər il yayda keçirdikləri Olonxo bayramına Türk və Azərbaycan Respublikalarından araşdırıcılar, sənət adamları qatılsınlar. Birgə layihələr əsasında mədəniyyətimiz, folklorumuz öyrənilsin və təbliğ edilsin.

Onlara açıq dedim ki, sizin istədiklərinizi həyata keçirməyi arzulayan milli şüurlu insanların o qədər yolpulu yoxdur ki, toplantılarınıza qatılsın, sizləri dəvət etsin. Hakimiyyətdə olanlar isə vəzifələrini itirməmək xatirinə, Rusiyanın hakim dairələrinin qorxusundan belə bir iş görməzlər.

Tez-tez mövzu dəyişir, söhbətin əsas mövzusu ictimai-siyasi, milli məsələlər olsa da, hərdən şəxsi məsələlərə də keçirdi.

Hakimin kabinetindən ayrılanda baxdım ki, saat 23-ü keçib.

Münasib bilmədiyimə görə hakimə sual vermədim ki, sizin ananız və ya nənələrinizdən hansısa Azərbaycanlıdırmı? Onun sualından özüm

üçün belə nəticə çıxardım ki, Azərbaycanlı olmasa, bu məsələni niyə vurğulasın ki?!

Bu dəfə də Özbəkistan sərhəddində…

Sentyabrın 25-də bölmə iclasları yekunlaşdırıldı. Saat 13.30-da isə iştirakçıların hamısını Daşoğuzdakı Əndəlib adına Sazlı (musiqili) Dram Teatrına gətirdilər. Burada yüksək vəzifəlilərin də iştirak etdiyi bağlanış toplantısı oldu.

Proqramda simpozium 2009-cu il sentyabrın 21-də başlayıb 26-da bitəcəyi göstərilmişdi. Yazılan kimi də oldu. Elmi məruzələrin dinlənməsi və müzakirəsi məqsədi daşıyan toplantıya cəmi bir gün ayrıldı. Qalanı qonaqların qarşılanmasına, tarixi yerlərin gəzdirilməsinə və yola salınmasına həsr edildi. Ümumiyyətlə, Türkmənistanda iştirak etdiyim simpoziumlar elmdən çox ölkənin tanıdılmasına, təbliğinə xidmət etdiyini gördüm.

Saat 14.30-da Türkmənistan Prezidenti Qurbandurdu Berdimuhəmmədovun adından qonaqlıq verdilər. Süfrəyə yeni əyləşmişdim ki, təşkilatçılardan biri məni çölə çağırdı. Elə bildim, dünənki höcətləşməmizdən vilayətin hakimi xəbər tutub. Bizi Köhnə Ürgəncə göndərəcəklər. Maşına minəndə gördüm ki, ukraynalı Anotoli Momrik yoxdu.

Jumaboay Yusubov, Mamatkul Jurayev və Rüstəm Abdullayev sakitcə arxa sırada əyləşiblər.

Anladım ki, bizi Özbəkistana göndərməyi planlayıblar. Hotelə gətirib dedilər ki, gömrük-keçid məntəqəsi bağlana bilər. Ona görə də tez çantalarınızı toplayıb yola düşməlisiniz. Başqa çıxış yolu qoymadılar.

Apar-topar Tələm-tələsik yol çantamızı hazırlayıb hotelin həyətinə endik. Gələndə bizi iki maşın və vilayət hakimliyinin dörd işçisi qarşılamışdısa, gedəndə bizi bir maşında, sürücü ilə yola saldılar. Maşında özbəklər gileyləndilər ki, süfrədən yolda yeməyə meyvə götürməyə belə imkanları olmayıb.

Saat 16.20-də bizi Daşoğuz-Ürgənc keçid məntəqəsinə gətirdilər. Yolda Rüstəm Abdullayev təklif etdi ki, mən də onlarla birlikdə Daşkəndə dönüm. Mamatkul Jurayev də onun fikrinə şərik çıxdı. Etiraz etmədim. Razılaşdıq ki, Ürgəncdən Daşkəndə birgə uçaq. Jumaboay Yusubov bizim planımıza münasibət bildirmədi.

Gömrük-keçid məntəqəsinə çatanda qonaq olduğuma görə, hörmət əlaməti olaraq yenə məni irəli verdilər. Adamlar çox olsa da, gömrük-keçid məntəqəsinin qapısında duran sərhədçilər pasportlarımıza baxıb, haradan gəldiyimizi xəbər aldılar. Sonra da onlardan biri öndə gedərək bizə yol açdı. Pasportlarımızı gətirib şüşənin arxasındakı sərhədçiyə verdi. Adamlarla çənə-boğaz edən, yüklərini

açdırdıqdan sonra pul qoparmaq üçün höcətləşən gömrük işçiləri sanki bizi görmürdülər. Nə çantalarımızı açdırdılar, nə də baxdılar.

Gözüm biz gələrkən növbədə olan sərhədçiləri və zabitləri axtarırdı. Heç birini görə bilmədim. Heç bir söz söoruşmadan və gözlətmədən pasportlarımıza möhür vurub verdilər. Beləcə, Türkmənistan tərəfdən çox rahat keçdik.

Çox da uzun olmayan neytral zonanı keçib Özbəkistan gömrük-keçid məntəqəsinə gəldik. Yenə öndə mən idim. Gömrük işçiləri çantalarımızı yoxlamadığı kimi sərhədçi də heç bir söz xəbər almadan möhür vurub pasportları özümüzə qaytardı. Üzümüz güldü ki, rahat keçdik. Bir də baxdıq, Mamatkul Jurayev yoxdur.

Mamatkul Jurayev bizimlə birlikdə binaya daxil olmuşdu. Arxada gəlirdi. Dördümüzün də pasportunu bir yerdə vermişdik. Başa düşdüm ki, pasportuna möhür vursalar da, onu saxlayıblar. Onun yubadılması bizim təyyarəyə gecikməyimiz, planımızın pozulması demək idi. Ürgəncdə nə Jumaboay Yusubovun evində, nə də hoteldə qalmaq istəyirdim. Odur ki, Mamatkul Jurayevi Özbəkistanda Milliy Havfsızlık Hızmatı adlandırılan keçmiş KQB işçilərinin əlindən almağa cəhd etdim.

Geri dönməyimə yer yox idi. Adamlar keçmək üçün basabas salmışdılar.

Göz gəzdirdim. Baxdım ki, Mamatkul Jurayevi sərhədçilər oturub pasportlara möhür vurduqları arakəsmənin axasındakı otaqlara apara bilərlər. İti addımlarla oraya tərəf irəlilədim və bir neçə dəfə var səsimlə "Mamatkul! Mamatkul! Mamatkul!" – deyə bağırdım. İçəridən çıxan ortayaşlı, dolu bədənli birisi gövdəsi ilə qapını kəsdi. Sanki mənim içəri girməyimə əngəl olmaq istəyirdi. O da əsəbiliklə: "Buraya niyə gəldiniz?" – deyə xəbər aldı. Əsəbiliklə "Tualet! Bura tualet qoxuyur!" – dedim.

O, mənim səsimdən və qırımımdan tualet axtarmadığımı bildi və əsəbiliklə pasportumu istədi. Mən soyuqqanlıqla xidməti pasportumu verdim. O, diqqətlə pasportumu gözdən keçirərək özümə qaytardı və irəlini göstərdi. Tualetin yerini işarələyirdi.

Mən səbrimi basa bilməyib "hər yerdə buralar eyni qoxu verir!" dedim və onun ağzını açmasına imkan vermədən "1925-ci ildə nə qədər ÇK işçisi həbs edildi və güllələndi?" – deyə sual verdim və cavab gözləmədən "1938-ci ildə Yejov güllələnəndə nə qədər KQB işçisi güllələndi və həbs edildi? Bəs 1953-cü ildə Beriya güllələnəndə həbs edilən və güllələnən KQB işçilərini də yadınıza salımmı?" – deyə sualı suala caladım. Qarşımdakı mənim yarı özbək, yarı Azərbaycan türkcəsində dediklərimi çaşqınlıqla dinləyirdi. Bizim səsimizə içəridən iki gənc çıxdı. Onları göstərərək: "Professoru bunlarmı dapros edir? Professoru Onu Daşkəndə gedəndə nəzakətlə çağırıb söhbət edə bilməzlərmi?

Gərək qohumlarına görə KQB-də özlərinə iş tapmış bu savadsızları dindirələr?" – dedim.

Qarşımdakı adam geri dönüb sakit səslə arxasındakılara "gedin" komandası verdi və qoluma girərək məni gəldiyim yerə tərəf apararkən təmkinini pozmadan, sakit səslə "Harada işləyirsiniz?" – deyə xəbər aldı. Mən "Azərbaycan Milli Elmlər Akademiyası Xarici Ölkələrlə Əlaqələr bölməsində", – dedim. Səhvimi düzəltmək, Folklor İnstitutunun Xarici Ölkələrlə Əlaqələr bölməsi demək istədim. Bu dəfə o mənə imkan vermədi. "Pasportuna baxdım, çox ölkədə olubsan. Getdiyin yerlərlə buranı müqayisə etmə. Bura Özbəkistandır!" – dedi.

O, sanki Azərbaycan türkcəsində, Xarəzm ləhcəsində danışırdı. Danışığından türkmənmi, özbəkmi, Azərbaycanlımı olduğunu seçə bilmədim. Jumaboay Yusubov və Rüstəm Abdullayevin yanına çatanda o, nüfuzedici nəzərlə yol yoldaşlarımı süzərək: "Birlikdəmi gedəcəksiniz?" – dedi və cavab gözləmədən: "Siz həyətə çıxıb təmiz hava alın. Mamatkul Jurayev də beş dəqiqəyə gələr", – dedi.

Jumaboay Yusubov və Rüstəm Abdullayev susurdular. Beş-altı dəqiqə sonra Mamatkul Jurayev gəldi. Bizi qarşılamağa gələn maşına minib Ürgənc Hava limanına getdik. Yol boyu heç kim ağzını açmadı.

Mənim bu cür davranmam bəzilərinə inandırıcı gəlməyə bilər. Bu cəsarəti mənə Mmilli azadlıq

hərəkatı vermişdi. Döyülsəm də, söyülüb təhqir edilsəm də, sonda haqlı mən olmuşdum. İllər keçəndən sonra bizi döyənlər, söyənlər, üçrəngli bayrağı əlimizdən alıb cıranlar ya üzrxahlıq etmişlər, ya da xeyirdə-şərdə üz-üzə gəlməməyə çalışmışlar. Çox vaxt da "Nneyləyək, vəzifəmizi itirməmək, balalarımızı dolandırmaq üçün sizə qarşı sərt davranırdıq", deməklə özlərinə haqq qazandırmağa çalışıblar.

1988-ci ildən başlayaraq Sovet ordusunun generalları, komendant Makaşov, Dubinyak, eləcə də SSRİ KQB-sinin yüksək çinli generalları, Sov.İKP MK-nın katibi Girenko, Sov.İKP MK-nın şöbə müdiri Mixalkov, SSRİ Millətlər Sovetinin sədri Nişanov, Azərbaycan KP MK-nın birinci katibləri Vəzirov, Mütəllibov və onlarla yüksək vəzifəlilərlə o qədər mübahisələrdə iştirak etmişdim ki, onların xofu daha məni basmırdı.

Mübahisə etdiyimiz yüksək vəzifəlilərin yanında sərhəddə işləyənlər, gömrükdə işləyənlər, polis zabitləri mənə çox kişik görünürdü. Mənim cəsarətli olmağımın səbəbi haqlı olmağım, qayda-qanunlara əməl etməyim idi. Haqlı olmadıqda heç vaxt inad etməzdim.

Ürgənc hava limanında Mamatkul Jurayevlə Rüstəm Abdullayev Ürgənc-Nukus-Daşkənd təyyarəsinə bilet aldılar. Mənə bilet olmadı. Bir neçə saat sonraya Ürgənc-Daşkənd reysi və səhərə yaxın

Ürgənc-Buxara-Daşkənd reysi vardı. Mən getmək istədiyimi bildirdikdə Jumaboay Yusubov hava limanında işləyən birisi ilə danışdı. Əlavə pul verməklə bilet ala biləcəyini söylədi. Mən həmin dəqiqə razılaşdım. Azərbaycanla müqayisədə Özbəkistanda çox ucuzluq olduğundan bilet pulu da mənə çox ucuz gəldi.

Hava limanında yenə də məni Qulu Kəngərli qarşıladı. Yavərin evinə gəldik. Həmişəki kimi mən yenə də Qulu Kəngərliyə simpozium, orada görüşdüyüm və söhbət etdiyim insanlar haqqında geniş bilgi verdim.

Yol yorğunu olsam da, söhbətimiz bitmirdi. Yavər keçib o biri otaqda yatdı. Biz türk xalqları arasındakı əlaqələrin genişləndirilməsi, bu işə kimləri qata biləcəyimiz, hansı işləri görmək mümkün olduğu haqqında müzakirələr edirdik. Vəzifəmiz kiçik, maddi inkanımız az olsa da, görə biləcəyimiz işlər olduqca çox idi. Onları reallaşdırmaq üçün yollar axtarırdıq.

Söhbətimiz o qədər uzandı ki, bir də baxdıq, səhər işıqlanır. Mən narahat oldum ki, Qulu Kəngərli evə getmədi. Evdəkilər narahat olacaqlar. O, gülərək "evdəkilər buna alışqandır. Bilirlər ki, sən və sənin kimi tanışlar gələndə mənim evə getməyim "tükənməz aylara, illərə qalır", – dedi.

Birlikdə səhər yeməyi hazırlayıb yedikdən sonra Qulu Kəngərlinin maşını ilə şəhərə getdik.

Daşkənd bazarında qurud

Mən Daşoğuzda olan günlərdə Qulu Kəngərli Səmərqənddə keçirilən beynəlxalq toplantıdan yazı hazırlamağa getmişdim. Qarşıdakı günlər şənbə və bazara düşdüyündən idarə və təşkilatlarda iş olmayacaqdı. Demək, onu istədiyim qədər "istismar" edə biləcəkdim. Öncədən hazırlanmış plana görə bu gün Daşkənd bazarını gəzməliydik. Getdiyim şəhəri tanımaq üçün bazara baş çəkirəm.

Bazardan nəsə almağı planlaşdırmamışdım. Hər yay Qulu Kəngərli Bakıya gələndə bizim ailəyə hədiyyə gətirir. Bu hədiyyələr gah özbəklərin milli naxışlarla bəzədilmiş süfrəsi olur, gah plov boşqabı, gay çayniki dəmə qoymaq üçün onun üzərinə örtük, gah da müxtəlif hədiyyələr. Heyif ki, onun gətirdiyi hədiyyələri qoruyub saxlaya bilmirik. Bu diqqətçəkici hədiyyələri xarici ölkələrdən gələn dostlarımın xanımları mənimsəməklə kifayətlənmirlər. Bəzən sifariş də verirlər: "Qulu Kəngərliyə de, filan şeyi alsın göndərsin, yaxud özü gələndə gətirsin. Sən də bizə çatdır.". Bəzən də elə olub yemək başa çatanda qonaq süfrəni çırparaq səliqə ilə çantasına qoyduğunu görmüşəm. Ya da çay içildikdən sonra çaynikin üstündəki çayı isti saxlayan dəmkeşi götürür, ya da xörək yeyildikdən sonra özü durub plov çəkilmiş boşqabı yuyaraq çantasına qoyur. Azərbaycanlı qonaqlarımız isə "Qulu Kəngərliyə de, Bakıya

gələnlərlə yenisini göndərsin, qızımın cehizinə qoşacam", – deyirlər.

Qulu Kəngərlini evimizə gələnlərin əksəriyyəti yaxından tanıyır. Türkiyədə, İranda, Balkanlarda, Avropa ölkələrində yaşayan dostlarımın əksəriyyəti ilə ya şəxsən tanışdı, ya da qiyabi bir-birini tanıyırlar. Tanıdıqlarının da, tanımadıqlarının da sözünü yerə salmır. Təki Özbəkistanı tanıyanların, onu sevənlərin sayı artsın.

Bazarı gəzdikcə ərik qurusu, ərik dənəsi, mövüz, kişmiş, kiçik püstə və b. çərəzlər, xörəkdə istifadə ediləcək meyvə quruları alırıq. Birdən özümdən asılı olmayaraq həyəcanla "Qqurud" deyirəm. Səsimi ətrafdakılar da eşidir. Qulu Kəngərli gülərək: "Deyəsən, Göyçəni xatırladın?! Burda qurud Göyçədəkindən çoxdu. Göyçəlilər bir növ qurud hazırlayırlar, onu da 3-4 növ xörəkdə, əsasən də xəngəldə istifadə edirlər. Özbəklərdə qurudun 10-dan yuxarı növü var. Hər xörəyə uyğun da qurud hazırlayırlar. Hətta o qədər modern olublar ki, pivə üçün də qurud hazırlayıb satırlar", – deyir.

Türküstanın ən böyük şəhərinin də, ən kiçik rayonunun da bazarında 5-10 növ qurud görmək normal haldır.

– Payız olanda adam axtarırıq ki, Gəncəbasardan, Borçalıdan bizə 2-3 kilo təmiz qurud gətirsin ki, qışı yola verək. Burda isə gör nə qədərdir?– deyirəm.

Qulu Kəngərli ilə dadına baxıb xəngəldə, qaşıxəngəlidə, kələcoşda və b. xörəklərdə işlətməyə 2 kiloqram qurud alırıq. İndiyədək görmədiyim qurudların da hərəsindən 200-300 qram alıram ki, Bakıda qurud həvəskarı olan tanışlarıma daddıram.

Bakıda bazara girəndə bir saatdan çox orada qalmağa səbrim çatmır. Qulu Kəngərli "bizi gözləyirlər, tələs!" deyəndə saata baxdım. 3 saata yaxın idi bazardaydıq. Sanki muzeyə tamaşa edirdim.

Tapçanda çay içə-içə şairlərlə söhbət

Özbəklərin tapçan dedikləri, məişətlərinin əvəz-edilməz əşyasına bizdə taxt deyirlər. Havalar isti keçdiyindən taxtadan düzəldilmiş, ayaqları yerdən 60-70 santimetr ucada olan tapçanın üstündə gündüz ailə süfrə açıb yemək yeyir, çay içir, dincəlir, gecə də yer açıb burada yatır. Yerdən ucada olduğundan ilan-çayan da oraya çıxmır və toz-torpaqdan da uzaq olur.

Sovet dövrünün çoxmərtəbəli binalardakı mən-zilləri kiçik olduğundan şəhər evlərinə tapçan qoymaq olmurdu. SSRİ dağılandan sonra həyətyanı evlərin sayı artdığına görə tapçanların sayı da artdı. Yeməkxana və restoranlarda da tapçanlar qoymağa başladılar.

Daşkənd şəhərinin Xiyaban meydanında da son illər bir neçə tapçan qoyulub. Bura mədəni bir mərkəzə çevrilib. Rəssamlar yeni çəkdikləri əsərlərini,

sənətkarlar əl işlərini satırlar. Necə deyərlər, məhsul – sənət əsəri parkda yaradılır və orada da satılır.

Biz də gəlib ayaqqabılarımızı çıxararaq ağacların kölgəsində qurulmuş tapçan üzərindəki döşəkçələrdə oturur və mütəkkələrə söykənib söhbətimizi davam etdirməyə başladıq. Gözlədiyimiz üç qoca şair də gəldi. Onları şəxsən tanıyırdım. Yaradıcılıqlarına da bələd idim. Xəlil Rza Ulutürk onlardan çevirdiyi şeirləri "Turan çələngi" kitabına daxil edərək Bakıda nəşr etdirmişdi.

Qulu Kəngərli onlara Daşkəndə gəldiyimi xəbər verib. Razılaşıblar ki, bu gün burada oturub söhbətləşək. Onlar Azərbaycan poeziyasından xeyli əsər tərcümə etmiş və şairlərimizin çoxu ilə şəxsən tanış olan Rəzzaq Abdurrəşid, Mirəziz Əzəm, Feyzi Şahismayıl idi.

Qulu Kəngərli onları qarşılayıb tapçanda yer göstərdi. Yaxınlıqda çayxana olmasa da, Qulu bəy çay da gətirtdi. Çaynikdəki yaşıl çayı piyalələrimizə boşaldıb söhbətə başladıq. Adətən, Özbəkistanda, Türkmənistanda, Tacikistanda, Qırğızıstanda yaşıl çay içməyə üstünlük verirlər.

Qulu Kəngərli deyir ki, özbəklərdə çayxana bizdən fərqli anlamda işlədilir. Burada Azərbaycandakı kimi çayxanalara rast gəlinməz. Çayı yeməkxanalarda verirlər.

Çayxana deyəndə özbəklər mərasim nəzərdə tuturlar. Məhəllədə birisi oğluna və ya qızına toy

edəcəksə küçədə, açıq havada məclis qurur. Məhəllənin adamları o məclisdə xörək yeyib çay içə-içə iş bölgüsü aparılırlar. Toyun məsrəfləri də orada müəyyənləşdirilir. Kim hansı xərcləri çəkəcək, kim hansı işi görəcək. Bunlar müəyyənləşdiriləndən sonra çayxana işini başa çatdırmış olur və adamlar da evlərinə gedirlər.

Rəzzaq Abdurrəşid, Mirəziz Əzəm, Feyzi Şahismayılla 3 saatdan çox davam edən şirin söhbətimiz sona çatdı. Totalitar rejimli ölkələrdə diktafon, kamera işə düşəndə adamlar sərbəst danışmırlar. Söhbətimizə xələl gəlməsin deyə diktafonumu ortaya qoyub danışıqlarımızı lentə almadım. Sonra da heyfisləndim. Öz-özümə dedim ki, gərək gizli yazaydım.

Biz Özbəkistanın hazırkı rejimindən, İslam Kərimovun yaratdığı qorxu imperiyasından söhbət açmamağa çalışsaq da, mümkün olmurdu. Şairlər söhbəti haraya fırlaydırdılar, söz gəlib güzəranlarının üzərində dayanırdı. Bu zaman da başlayırdılar, Sovet dövrünü tərifləməyə. Bu da səbəbsiz deyildi, onda siyasi sıxıntı içərisində yaşasalar da, içlərindən keçəni deyə və yaza bilməsələr də, ailələrini dolandıracaq qədər təminatları vardı.

Qəzet-jurnalda, radio-televiziyada, nəşriyyatda qələm sahiblərinə iş verir, yazılarına görə qonorar ödəyirdilər. Bu da onları yazıb-yaratmağa, tərcümələr etməyə həvəsləndirirdi. “Litfond”dan (Ədəbiyyat

fondu) aldıqları ezamiyyə və qonorar puluyla getdikləri yerləri, Azərbaycan yazıçı və şairləri ilə görüşlərini həsrətlə xatırlayırdılar. Zəhməthaqqı almağa ümidləri olmasa da, hərdən yazıb-yaradırdılar. Söhbət eədrkən son illərdə yazdıqları şeir və tərcümələrdən oxuyurdular.

Gileylənirdilər ki, mətbəə və nəşriyyatlar özəlləşdirilib. İndi onlara sifariş verən, yazdıqları kitabları nəşriyyat planına daxil edən yoxdur. Yazdıqlarını nəşr etdirmək üçün gərək sponsor tapalar. Özbəkistan kimi əhalisi kasıb yaşayan bir ölkədə sponsor tapmaq olduqca çətindir. Pulu olan, ondan bir qismini mədəniyyət məsələlərinə xərcləməyi ürəyindən keçirən də qorxur. Bilir ki, hansısa kitabı, qəzet-jurnalı yuxarıların tapşırığı olmadan, öz istəyi ilə maliyələşdirsə, tökülləcəklər onun üstünə. Bu gün prokurorluqdan, sabah vergi idarəsindən, o biri gün maliyyədən gələrək onu "soyub" gedəcəklər. Buna görə də heç kim "ağrımaz başına buz bağlamaq" istəmir.

Nəşr etdirdikləri kitabları da sata bilməyəcəklər. Satış şəbəkəsi dağılıb. Kitab mağazalarını özəlləşdirərək ərzaq, geyim mağazalarına, gəlir verən xidmət obyektlərinə çeviriblər. Öncələr 100 min tirajla nəşr edilən, qısa bir zamanda satılan kitablarını indi 2 min ədəd nəşr etdirəndə sata bilmirlər. Kitablar əllərində qalıb köhnə kağız yığınına çevrilir. Əhalisi 25 milyonu keçən ölkədə insanların başı gündəlik

çörək pulunu qazanmağa elə qarışıb ki, kitab oxuyanların sayı az qala barmaqla sayılacaq qədər olub.

Daşkənddə Qarabağ komitəsi

Tahir Kahharı qiyabi 1990-cı ildən qiyabi tanıyırdım. 20 yanvar qırğınından sonra Xəlil Rza Ulutürkü tubub Moskvaya, məşhur Lefortovo həbsxanasına aparanda Tahir Kahhar dostunun müdafiəsi üçün özbək yazıçı və şairlərinin bir qismini səfərbərliyə almışdı. Onların Moskvaya göndərdikləri etiraz məktubu Bakıda "Ədəbiyyat və incəsənət" qəzetində də çap olunmuşdu. Etiraz məktubu əks-səda doğuranda yazıçı və şairlərin bir neçəsi imzasını danmaqla Tahir Kahharı çətin vəziyyətə salmışdılar.

Onunla şəxsi tanışlığımız isə 1998-ci il noyabrın 24-27-də Quzey Kıbrıs Türk Cümhuriyyətinin Qazi Mağosa şəhərindəki Doğu Akdeniz Universitetində keçirilən İkinci II Uluslararası Kıbrıs Araştırmaları Kongresində oldu. İstedadlı şair, zəhmətkeş alim, yeyib-içməyi, şənlənməyi sevən Tahir Kahharla bir yerdə olmaq, onunla söhbət etmək adamda xoş ovqat yaradır.

Allah qismət edərsə, onunla bağlı ayrıca xatirələrimi yazacağam.

Tahir Kahhar bizi evinə qonaq çağırsa, getməyə vaxt tapa bilmirdik. Axır ki, Qulu Kəngərli oktyabrın

26-da axşam Tahir Kahharın evinə– Daşkəndin Yunusabad rayonundakı 13-cü məhəllənin 64-cü mənzilinə, "xruşşovka" dediyimiz alçaq tavanlı üçotaqlı mənzilə getməyimizi təşkil edə bildi. Bu kiçik mənzildə Özbəkistandan, dünyanın müxtəlif ölkələrindən gəlmiş nə qədər məşhur şairlər, yazıçılar, araşdırıcılar yeyib-içiblər?! Divarların dili olsa, yaxud onların səsini saxlaya bilsəydi, Tahir Kahharın evi ədəbiyyatın ən dəyərli xəzinəsinə çevrilərdi.

Xəyalıma gətirirəm ki, Xəlil Rza Ulutükün gur səsi divarları titrədib. Tahir Kahharın balalarını, qonşularını yuxusuz qoyurdu.

Qapıda bizi Tahir Kahharla yaşı 50-ni haqlamış, yaraşıqlı və gur səsli birisi də qarşılayır. Görüşəndə hiss edirəm ki, bizi gözləməyə səbirləri çatmayıb. Necə deyərlər, qonaqlar gələnədək "yüz-yüz gillədiblər".

Süfrə arxasında əyləşirik. Tahir Kahhar bizi şair Törə Mirzə ilə tanış edir. Mən gülərək dedim ki, Törə Mirzənin şeirlərini oxuyanda, elə bilirdim, bunları akademik Törə Mirzəyev yazıb. Elə bilirdim, elmi məqalələrini Törə Mirzəyev, şeirlərini Törə Mirzə imzası ilə yazır.

Mənim bu sözüm Törə Mirzəyə elə bil od qoydu. Sözümü tamamlamamış: "Onda elə zövq, elə hissiyyat hardadı, şeir yazsın? O, yaxşı bir elm məmurudur", – dedi.

Tahir Kahhar sözünü kəsməsəydi, Törə Mirzəyevin əleyhinə, deyəsən, çox danışacaqdı. Tahir Kahhar deyəndə ki, "Törə Mirzəyevin hesabına həbsdən canını qurtardın, indi onu bəyənmirsən?" Bu sözə məndən başqa evdəkilərin hamısı güldü.

Mənim yad-yad baxdığımı görüb Törə Mirzə özü söhbətə başladı. Dedi ki, 1988-ci ildə Azərbaycanlı qardaşlarımızla həmrəyliyimizi bildirmək üçün Daşkənddə Qarabağ Komitəsi adlı bir qeyri-hökumət təşkilatı qurmağa çalışdıq. Ondan iki-üç gün sonra Moskvaya gedəsi oldum. Geri dönüşüm 10 gün çəkdi. Daşkəndə çatanda evdəkilər, dost-tanış həyəcanla mənə dedilər ki, nədən niyə gəldin?! KQB səni neçə gündür axtarır, həbs etmək istəyir.

Təəccüb qaldım. Axı mən neyləmişəm ki, KQB məni həbs etsin? Dedilər ki, sən gedəndən sonra Qarabağ Komitəsinə görə neçə adamı həbs edib, sorğu-suala çəkdilər. Mən bunu söz-söhbət sandım. Çünki yaratmaq istədiyimiz təşkilat Qorbaçovun yenidənqurmasına, Sov.İKP MK-nın qərarlarına uyğun idi.

Səhərisi gün qapımızı iki polis döydü. Mənə bildirdilər ki, onlarla Daşkənd şəhər KQB-sinə getməliyəm. Mən dedim ki, yol gəlmişəm, yuyunub üst-başımı səliqə-səhmana salıb, saqqalımı qırxıb saat 15-də gələcəm. Siz gedin. Gələnlərdən birisi təkid edirdi. Ondan rütbəcə böyük olan məni tanıyırdı və hörməti də vardı. Buna görə məndən xahiş etdi ki,

mutləq KQB-yə gedim, onları pis vəziyyətdə qoymayım.

Əmin etdim ki, dediyim vaxtda orada olacağam. Özümü səliqəyə salıb, ən bahalı kostyumumu geyinib Daxili İşlər Nazirliyində İdarə rəisi işləyən qohumumun yanına getdim. Ona KQB-yə çağırıldığımı demədim. Moskvaya səfərimdən danışdım, ona gözəl bir qalstuk alıb ona hədiyyə gətirdiyimi söylədim. O, çox məmnun qaldı. Aldığım hədiyyəni açıb boynuna bağladı. Hansı paltarına uyğun gəldiyini də söylədi.

Bir az söhbətdən sonra durub gedəndə xahiş etdim ki, xidməti maşını məni Yazıçılar İttifaqına aparsın. O da sözümü yerə salmadı. Mən maşına əyləşəndə şoferə dedim ki, maşını Daşkənd şəhər KQB-sinə sürsün, orada rəisə Moskvadan gətirdiyim bir sənədi verdikdən sonra Yazıçılar İttifaqına gedəcəyəm.

Dediyim vaxtda KQB-də oldum. Qapıda duran növbətçi zabitə sədrin məni gözlədiyini dedim. O, qarşısındakı buraxılş vərəqinə baxdı, mənim geyim-kecimimi gözdən keçirdi. Məni gətirən dövlət nişanlı maşına baxdı. Sədrlə deyil, işçilərindən kiminləsə görüşməli olacağımı deyəndə ötkəm səslə "Sədrə deyin, Törə Mirzə gəlib!" dedim. Növbətçi çaşqınlıq içində daxili telefonla danışandan sonra yanındakı sıravi işçiyə tapşırdı ki, məni sədrin otağınadək müşayət etsin.

Sədr məni xoş üzlə qarşıladı. Oturmağa yer göstərəndə mən də gülər üzlə dedim ki, çoxdan sizinlə bir görüşüb söhbət etmək istəyirdim. İşim çox olduğundan vaxt tapa bilmirdim. İndi yaxşı fürsət düşüb. İcazənizlə başqa bir ciddi işiniz yoxdursa, yarım saat söhbət edək. O da tərəddüd etmədən razılaşdı. Xahiş etdim ki, məni gətirən maşına desinlər, getsin. O da zəng vurub köməkçisinə mənim dediyimi çatdırdı.

Mənim şairliyimə salıb nə üçün çağırıldığımı demədən Moskvadan, SSRİ Yazıçılar İttifaqında baş verən dəyişikliklərdən, Qorbaçovun yenidənqurma, aşkarlıq siyasətindən xeyli danışdım. Sədr dil-boğaza qoymadan danışdığımı görüb xeyli qulaq asdıqdan sonra məndən Qarabağ Komitəsi haqqında soruşdu.

Mən də başladım tarixdən, özbək torpaqlarının genişliyindən, Əmir Teymurun qalibiyyətli səfərlərindən və onun Muğanda qışlamasından, Qarabağda olduğu günlərdən danışmağa. Görünür, o qədər ilhamla danışdım ki, KQB-nin sədri də mənə qoşuldu. Bir-iki il öncə Əmir Teymur haqqında xoş söz deyənləri hədələyən, təzyiq göstərən təşkilatın rəhbəri indi Əmir Teymurun tərənnümçüsünə çevrilmişdi.

Yaranmış imkandan istifadə edib yaratdığımız Qarabağ Komitəsinin gələcək fəaliyyətindən, oraya özbək yazıçılarının, sənət adamlarının səfərini təşkil edəcəyimizdən, sənədli filmlər çəkmək istədiyimizdən və s. danışdım.

Danışdıqlarım KQB sədrinin canına yağ kimi yayılırdı. Təşkilata üzvlük məsələsi haqqında da xeyli söhbət etdik. Mən Pribaltikada, Moskva və Leninqradda qeyri-hökumət təşkilatlarına partiya-sovet işçilərinin, xüsusi xidmət orqanları və hüquq mühafizə orqanı işçilərinin də üzv yazıldığını, bütün bunların Sov.İKP. MK-nın yenidənqurma və aşkarlıq siyasətinin tələblərinə uyğun olduğundan danışdım. Amma erməni məsələsindən, ermənilərin Qarabağa sahiblənmək istəyindən bir kəlmə də olsun, danışmadım.

Necə ilhamla danışdımsa, sədr də Qarabağ Komitəsinə üzv yazılmaq üçün bir ərizə yazıb mənə verdi.

Oradan çıxıb Yazıçılar İttifaqına gələndə məni görənlər görməməzlikdən gəldilər. Birbaşa Yazıçılar İttifaqının katibinin otağına gəldim. Məni çaşqınlıqla qarşıladı. Mən də heç nə olmamış kimi söhbəti oradan-buradan saldım. Moskvada yenidənqurma və aşkarlığın necə həyata keçirildiyindən söz açdım. Sonra da KQB-də olduğumu, KQB sədrinin Qarabağ Komitəsinə üzv yazılmaq istədiyini dedim. Onun da təşkilata üzv yazılması üçün ərizə yazdığını dedim. Katibin çaşqın vəziyyətdə qaldığını gördükdə KQB sədrinin ərizəsini ona göstərdim. O, ərizə yazmasa da, mənimlə xeyli söhbət etdi. Gedəndə də idarənin maşını ilə məni yola saldı.

Aradan iki gün keçəndən sonra KQB sədri əlimyandıda məni axtardı. Arxamca maşın göndərdi.

Xahiş-minnət elədi ki, onun Qarabağ Komitəsinə üzv yazılmaq üçün yazdığı ərizəni geri qaytarım. Mənə də bərk-bərk tapşırdı ki, bir daha təşkilatın toplantılarını keçirməyək və mətbuata bu haqda bilgi sızdırmayaq.

Özbəkistanda yaşayan ermənilər Moskvaya hansı danosları göndəribsə, SSRİ KQB-nin rəhbərliyi ayağa qalxıb. Bizi sıxışdırır, təşkilat və təşkilatın üzvləri haqqında geniş bilgi istəyir.

Tahir Kahhar da gülərək: "Onlar həmişə belə işləyiblər. Ağıl və savada deyil, zora arxalanıblar". Qarabağ Komitəsini təşkil edənlər qaldılar kənarda, ad oxşarlığına gözə 3-4 nəfəri tutub apardılar. Üç gün saxladılar. Aparan kimi dindirsəydilər, görərdilər ki, onların Qarabağ Komitəsinin yaranmasından xəbərləri belə yoxdu. 3 gün sorğu-sualsız saxlayandan sonra dindirəndə bilindi ki, yanlışlığa yol veriblər.

Utandıqlarındanmı, məsələ böyüməsinmi deyə daha Qarabağ Komitəsini yaratmaq istəyənləri çağırıb sorğu-suala da çəkmədilər. Sadəcə sifariş göndərdilər ki, bir daha o təşkilatın adını heç yerdə çəkməyin.

Mən Törə Mirzədən xahiş edirəm ki, vaxt ayırsın, səhər, ya birisigün birisi gün sakit yerdə görüşək. Onun danışdıqlarını lentə yazım. Bakıya gedəndə yazıya alıb qəzetlərin birində çap etdirim. Azərbaycan oxucusu da bilsin ki, Qarabağ məsələsində özbəklərdən bizi müdafiə elətmək istəyənlər olub. Amma hökumət buna icazə verməyib.

Törə Mirzə söz verdi ki, mən yol üstəyəm, işimi görüm. Özü həmin hadisə ilə bağlı geniş bir məqalə yazacaq. Mən yol üstə idim. Törə Mirzə söz verdi ki, işimi görüm, özü həmin hadisə ilə bağlı geniş bir məqalə yazacaq. Mən nağdını qoyub nisyə dalınca qaçmaq istəmədim. Odur ki dedim: "Törə əkə, mənim babam Məhəmməd Füzulinin adını eşidibsinizmi?"

– Mən Tahir Kahhar qədər Füzulini bilməsəm də, bir neçə şeirini deyə bilərəm.

– Hə... Füzuli, bilirsiniz, necə deyib:

"Gər Füzuli desə ki, gözəllərdə vəfa var,
Aldanma, əlbəttə ki, şair sözü yalandır!"

O dövrdən keçən 500 ildə heç nə dəyişməyib!

– Füzuli şair sözünün yalan olduğunu deməyib, gözəllərdə vəfa olmadığını deyib.

– Sizinlə mübahisə etmək fikrim yoxdu. Sizin Füzulinin bilicisi, bu sahədə özünüzə ustad saydığınız Tahir Kahhar görək necə izahat verəcək!

Tahir Kahhar mənim sözümü yayındıraraq 1987-ci ildə nəşr etdirdiyi "Kün küzi (oko dünya) (Şeirlar)" kitabına "Mohtaram dostum Ali Şamil beye iyi dileklerimle, Tahir Kahhar, 26.09.2009. Toşkent", 1994-ci ildə nəşr etdirdiyi "Hür Türküstan üçün" və "Toğninq parvozi (Şeirlər, afsonalar va ertak-daston) "Ali Şamil beye sevgi ve sayğı ile. Tahir Kahhar. Akşehri. 08.05.2008". 2001-ci ildə Nihal Atsızdan tərcümə etdiyi "Kukburilarninq ulimi (Tarihi roman Türkcadan Tahir Kahhar tarcimasi)" kitabına "Değerli

dostum Ali Şamil beye saykılarımla Tahir Kahhar, 26.09.2009. Taşkent" avtoqraflarını yazıb mənə verir.

Ev sahibləri ilə xüdahafizləşib ayrılsaq da, gecə yarısı gecəyarısı küçədə də xeyli söhbət etməli olduq. Qulu Kəngərli məni Yavərin qaldığı evə gətirib səhər görüşəcəyimiz vaxtı bir daha təkrarlayıb getdi.

Jurnalist-tərcüməçi Rüstəm Cabbarovla görüş

Gec yatdığıma görə səhər yuxudan dura bilmirdim. Yavər səhər qəhvəaltısı hazırlayıb məni yeməyə səsləsə də, bərk yatdığımdan oyanmamışdım. Qulu Kəngərlinin hay-harayına yuxudan ayıldım. Evdə yeyib gəlsə də, nəzakət xatirinə mənimlə birlikdə qəhvəaltı elədi.

Sonra şəhəri gəzməyə çıxdıq. Qulu Kəngərlidən xahiş etdim ki, Xalid Səid Xocayevin oxuduğu mədrəsəyə gedək. O, gülərək:

– "Nə qoyub, nə axtarırsan, – dedi. 1966-cı il aprelin 26-da baş verən 8 ballıq zəlzələ şəhərdə daşı-daş üstündə qoymadı. Görmürsənmi, şəhərdə nəinki orta yüzillərdə, heç 20-ci yüzilin birinci yarısında tikilmiş bir bina da gözə dəymir.

– Qulu bəy, o dövrdə orta məktəbi bitirmişdim. Daşkənddə baş verənləri də diqqətlə izləyirdim. Yaxşı yadımdadır ki, zəlzələdə cəmi 8 nəfərin öldüyünü, 150 nəfərin isə yaralandığını yazırdılar.

– Sovet mətbuatına nə var ki?! Nəyi düz yazırdı ki, zəlzələdən ölənləri də düz yazaydı. Yalnız Daşkənd şəhərində 80 min ailə evsiz qalmışdı. 2 milyon kvadrat metrlik yaşayış sahəsi dağılmışdı. Dağılan dövlət idarələrinin, məktəblərin, xəstəxanaların, ictimai-iaşə və ticarət binalarının sayına şəhərin çox yerində qoyulmuş abidələrdə rast gələcəyik. Lazım olsa, oradan yazarsan. Ola bilsin, mən yanlış deyəm.

Köhnə Daşkəndi zəlzələ xaraba qoyandan sonra yaxınlıqda yeni Daşkəndi o dövr üçün çox qısa bir müddətə, 3-4 ilə tikdilər. Xalid Səid Xocayevin oxuduğu mədrəsədən inanmıram bir iz qala. Öyrənərəm, görüm məhəllə durur, yoxsa o da köhnə Daşkəndin xarabalıqlarında qaldığından yeri-yurdu da unudulub.

İndi gedək Rüstəm Cabbarovu görək. Yarım saatdır bizi gözləyir.

Şəhərin mərkəzindəki türk kafelərindən birinə gəldik. Biz əyləşib çay sifariş verdik. Yarım saat öncə gəlməli olan Rüstəm Cabbarov hələ gəlib – çıxmamışdı. Biz çayımızı içib qurtaranda o gəldi.

Qəzetçi və Özbəkistanda Azərbaycan nəsrinin gənc tərcüməçilərindən sayılan Rüstəm Cabbarovu Qulu Kəngərliyə görə tanıyıram. Folklorcçu olmasa da, Azərbaycanla bağlılığını artırmaq üçün Qulu Kəngərlinin tapşırığı ilə onu 2005-ci il noyabrın 13-15-də AMEA Folklor İnstitutunun təşkil etdiyi "Ortaq

türk keçmişindən ortaq türk gələcəyinə. III Uluslararası Folklor Konfransı"na gətirtmişdim. Bakıda olduğu günlərdə şəhəri gəzdirmək, axşamlar restoranlara aparmaqla yanaşı, bir axşam da dostum İsrafilin qızının toyuna aparmışdım. Özbəkistandan gəlmiş qonaq olduğuna və oynamağı yaxşı bacardığına görə toydakıların çoxu onu əzizləyir, oynamağa dəvət edirdilər. Arıq bədənli, uca boylu Rüstəm Cabbarov yorulmaq nə olduğunu bilmədən, demək olar ki, hamı ilə oynadı.

Daşkəndə gedəndən sonra yazdığım e-maillərə və telefon zənglərinə ara-sıra cavab verirdi. Elə bilirdim, məndən nəyə görəsə narazı qalıb. Fikrimi Qulu Kəngərliyə dedim. O da gülərək: "Sənlik bir şey yoxdur. Soyuqluğu şəxsi məsələyə görə deyil. Ağlın Azərbaycana getməsin. Rüstəm Cabbarov Daşkəndə qayıdandan sonra Milliy Havfsızlık Hızmatına çağırıb barmaq silkələyiblər", demişdi.

Ötüb-keçənlərin üstünü vurmadan Rüstəm Cabbarovla mehribanlıqla görüşdüm. O, Anarın və Vaqif Sultanlının özbək dilində nəşr edilmiş hekayə və povestlərini mənə verdi ki, Bakıya dönəndə müəlliflərə çatdırım.

Qulu Kəngərli durub yemək sifariş verdi. Onu da xatırladım ki, Özbəkistanda olduğum müddətdə evlərə dəvət olunduğumuzu çıxmaqla harada süfrəyə otururduqsa, yemək-içməyin pulunu Qulu Kəngərli ödəyirdi.

Süfrə arxasında Azərbaycanın gənc nasirlərinin hansı əsərlərinin özbək dilinə çevrilməsini müzakirə etdik. Mən Rüstəm Cabbarovu təkidlə Bakıya dəvət etdim. O, işi çox olduğunu, gəlməyə vaxtı olmayacağını deyəndə Qulu Kəngərli yenə də gülərək: "Rüstəmə elə barmaq silkələyiblər ki, onun qorxusu canından ancaq 5-6 ilə çıxar", – dedi.

Rüstəm Cabbarov utancaq bir görkəmlə bizim zarafatlarımızı dinləyir, heç bir reaksiya verməməyə çalışırdı.

Özbəklərin toy plovu

Özbəkistan Milli Universiteti Özbək filologiyası fakültəsinin dosenti Abdumurat Tilatov bizi axşam evinə dəvət etdi. Arxayın idim ki, Qulu Kəngərli bir bəhanə ilə ora getməkdən canımızı qurtaracaq. Hər ikimiz bilirdik ki, Abdumurat Tilatov kasıb bir müəllimdir, onu xərcə salmağa, ailəsinə əziyyət verməyə dəyməz.

Abdumurat Tilatov deyəndə ki, axşama "toy plovu" bişirtdirmişəm, qoy Əil Şamil də görsün ki, özbəklərin "toy plovu" necə olur" deyəndə Qulu Kəngərli: "Abdumurat "toy plovu" səhər yeyilir, sən nədən axşama saxlayıbsan"– dedi. O da, "Qulu əkə, bilirəm ki, Əli Şamil gəldiyinə görə gecələr bir yerə toplaşıb söhbətləşirsiniz. Ondan sonra "toy plovu" yeyilən vaxt sizi yuxudan oyatmaq olmaz. Buna görə

axşama saldım ki, gecə söhbətini bizdə davam etdirək. Əli Şamili görmək, onunla məsləhətləşmək istəyən başqa qonaqlarımız da olacaq".

Qulu Kəngərli Abdumurat Tilatovla razılaşdı və ev adreslərini, telefon nömrəsini aldı.

Abdumurat Tilatov ilk dəfə 2005-ci il noyabrın 21-26-da Atatürk Kültür Mərkəzi Başkanlığının Ankarada keçirdiyi "6-cı VI Uluslararası Türk Kültürü Kongresi"ndə görüşmüşdük. Sonra da Mehmet Altunbaş bizi axşam evinə qonaq aparmışdı.

Abdumurat Tilatov və dostları Mehmed Altunbaşın qayınatası, islam dini haqqında 236 kitab və broşurun müəllifi, camaat rəhbəri Mehmet Kamal Plavoğlunun 20-yə yaxın kitabını özbək dilinə çevirərək nəşr etdirmişdilər. Onlar ölkədəki təqiblərdən yayınmaq üçün kitabların hamısını Mehmedt Kamal Plavoğlu imzası ilə çap etməmişlər. Bəzi kitablar Mehmed Kamal Plavoğlunun xanımının, bəziləri də qızının adı ilə nəşr edilib.

Ölkədə "Ərk" Partiyasının üzvlərinə dinçi, terrorçu adı qoyub kütləvi həbs edildiyindən aydınlar dini məsələlərdən kənar dururlar. Ata-babaları müsəlman olsa da, özləri içdən inanclı birisi olsalar da, namazlarını qılıb, oruclarını tutsalar da, üzdə özlərini dindən uzaq göstərməyə çalışırlar.

Abdumurat Tilatovun evi də Tahir Kahharın evi kimi alçaq damlı "xuruşovka"lardan idi. Süfrə arxasında tanıdığım bir neçə özbək alimini görməyim

mənim üçün xoş oldu. Söhbətimizin əsas mövzusu islam dini və onun təriqətləri oldu.

Buxara, Səmərqənd, Termez, Kokanda, Xivə mədrəsələrində Şərqin böyük din alimləri yetişiblər. Sovet hakimiyyəti illərində dinə qarşı güclü təqiblər olduğu zamanda Buxarada mədrəsə fəaliyyət göstərib, Daşkənddə İslam Universiteti açılıb.

Özbəkistan müstəqilliyini əldə etdikdən sonra islam dininə və dindarlara qarşı bu qədər basqının haradan gəldiyini öyrənmək üçün suallar verirdim. Bir də Qulu Kəngərli dedi: "Əli, sən çıxıb gedəcəksən, bunlar qalacaq. Hakimiyyətdəkilərin haqsızlığına qarşı din çox səfərbəredici gücdür. Ölkədə dindarlara potensial və təhlükəli müxalifət kimi baxılır. Ona görə də bu mövzuda söhbəti çox dərinləşdirmə".

Qulu Kəngərlinin bu sözü məni ayıltdı. Abdumurat Tilatov və süfrədəki qonaqların bağışladığı kitabları da götürüb evə döndük.

Daşkənddəki qohumum

Daşkənddəki Azərbaycan dərnəyinin rəhbəri Mobil Məmmədov sentyabrın 28-də məni nahara dəvət etmişdi. Hər yerə birgə getdiyimiz Qulu Kəngərli bu dəfə məni tək yola saldı. Bilmədim, həqiqətən, işi vardı, yoxsa Mobillə incikliyi vardı. Mən bunu Qulu Kəngərlinin işinin çoxluğu kimi qəbul etdim. Çünki

həftənin birinci günü olduğundan dgedib işlərini yoluna qoymalı idi.

Mobil Məmmədov haqqında mənə Qulu Kəngərli bilgi vermişdi. Bilirdim ki, göyçəlidir, yəni mənimlə eyni bölgədə doğulub. Sovetlər çökəndən sonra Daşkəndə gəlib. Burada işini qurub. Restoranları və b. müəssisələri də var. İctimai işlə də məşğul olur.

Mobil bəy məni restoranda qarşıladı. Tək deyildi. 5-6 nəfər də vardı. Xəbər almadım ki, özünün restoranıdır, yaxud başqasının. Zəngin bir süfrə açmışdı.

İlk tanışlıqda o, mənim hansı kənddən və kimlərdən olduğumu öyrənmək istədiyi kimi mən də onun hansı soydan olduğunu bilmək istədim. O, Hacıyevlərdən olduğunu dedi. Kəndimizdə orta məktəb olmadığından mən iki il Zodda oxumuşdum. Müəllimlərimizdən Sultan və Meydanın da soyadı Hacıyev idi. Onlar mənim ana nənəmin qohumları olduğunu bilirdim.

Zodda Hacıyev soyadları arasında Mobilin ata və babasını tanıya bilmədim. Ona görə də "hansı tayfadansınız" deyə xəbər aldım.

Mobil bəy sayıflı tayfasından olduğunu deyəndə bərkdən güldüm. Xəyal məni uşaqlıq və yeniyetməlik illərimə apardığı üçün özümdən asılı olmayaraq dediyim sözün necə təsir bağışlayacağını düşünmədən "Səy sayıflıdan?" deyə xəbər aldım.

Araya bir pərtlik düşdüyünü gördükdə: “Mənim ana nənəm Ababil Sayıfın qızıydı. Məhəmməd və Əhməd adlı iki qardaşı olmuşdu. Məhəmməd Şərq ölkələrinin hansındasa dini təhsil alıbmış. Müəllimləri oxuduğu mədrəsədə qalıb işləməsini istəyiblər. Ailə vəziyyətlərinə görə kəndə qayıdıb. Ömrünün sonuna kimi də kəndin uşaqlarına dərs deyib.

Nənəm onun Qurani-Kərimini ömrünün sonunadək qorudu. 1988-ci ildə dayımgil Goranboya köçəndə həmin Qurani-Kərimlə maraqlandım. Öyrəndim ki, vəziyyət gərgin olanda nənəmin sandığını gətirə bilməyiblər. Beləcə, nənəmin xatirə əşyaları da o sandıqla birlikdə it-bata düşüb.

Nənəm həmişə qohumlarından, soyundan danışanda “səy sayıflı” deyib qürurlanırdı”.

Mənim söhbətim pərtliyi aradan qaldırdı. Süfrədəkilər mənə Azərbaycanın durumu ilə bağlı, mən də onların soy kökləri ilə, işləri ilə bağlı suallar verirdim. İşlərindən, Özbəkistandakı vəziyyətlərindən çox razı görünürdülər. Belə ki, ölkədəki siyasi sıxıntı elə bil bunların yanlarından yel olub ötməmişdi.

Mən onları Azərbaycan-Özbəkistan ədəbi-mədəni əlaqələrinə yatırım qoymağa həvəsləndirirdim. Onlar bu işə elə də maraqlı deyildilər. Onlar üçün mədəni əlaqələr toylarına, xeyir işlərinə Azərbaycandan müğənnilər dəvət etmək, yaxşı halda Azərbaycan artistlərinin Daşkənddə konsertini təşkil etmək səviyyəsində idi.

“Jahon adabiyoti” jurnalında

Hazırladığımız proqramda “Jahon adabiyoti” jurnalına baş çəkmək də vardı. Jurnalın 2008-ci ildə çıxan 1-ci (128) sayında mənim Xalid Səid Xocayev haqqında “Katağon (repressiya) kurboni” adlı yazım nəşr olunmuşdu. Qulu Kəngərlinin dediyinə görə, bu, Özbəkistanın ən kütləvi və oxunaqlı jurnalıdır. Redaksiyada da milli şüurlu, türk təfəkkürlü, Azərbaycanı sevən insanlar işləyir.

Redaksiyaya yaxınlaşanda Qulu Kəngərli küçədən keçən balaca boylu bir adamı “Osman! Osman!” deyə səslədi. O, səsə döndü və bizə tərəf gəldi. Çatanda üzrxahlıq etdi ki, sizi görmədim. Qulu Kəngərli bizi tanış etdi. Osman Kuçkarı qiyabi tanıyırdım. Böyük həvəslə Azərbaycan ədiblərinin əsərlərini çevirdiyinə görə hörmətim vardı. Söhbətimizdən məlum oldu ki, ikimiz də bir gündəyik. Osman Kuçkar da məni Özbəkistana marağıma, özbək aydınları haqqında araşdırma və publisistik yazılarıma görə tanıyır.

Harayasa tələsirdi. Gecikməsin deyə Qulu Kəngərli onu maşını ilə apardı. Sonra “Jahon adabiyoti” jurnalının redaksiyasına gəldik. Köhnə və uzun müddət təmir olunmadığından yararsız kimi görünən binanın 2-ci mərtəbəsində yerləşən redaksiyada böyük bir otağa keçdik. 5-6 nəfər yaşlı şair, tərcüməçi, yazıçı, ədəbiyyatşünas əyləşmişdi.

Görüşüb tanış olduq. Gətirdiyim kitabları və Bakı ilə bağlı kiçik hədiyyələri verdim. Hamısı Qulu Kəngərlini yaxşı tanıyırdı. Ona minnət edirdilər ki, Azərbaycandan çox yazıçı, şair, alim gətirsin. Sovet dövründəki görüşlərini yada salıb kövrəlirdilər



Şəkildə "Jahon adabiyoti" jurnalının əməkdaşları: sağdan, ön sırada Zakir Ağlam və Feyzi Şahismayıl, arxadakı sırada Artunbay Abdullayev, Əmir Feyzulla, Əli Şamil, Əlişan Rəhimcanov və Qulu Kəngərli

Aralarında bir narahatlıq və vurnuxma da vardı. Bir azdan Tahir Kahhar gələndə üzləri güldü. Tez siyirmələrindəki qulpu qırıq fincanlarını, çappa stəkanlarını, bir sözlə, Sovet dövründən qalma çay içdikləri qabları suda yaxalayıb bir yerə yığdılar. Tahir

Kahharın gətirdiyi arağı süzüb sağlıq deməyə başladılar.

Sağlıqlarının mövzusu da ənənəvi idi. Xalqlar dostluğu, ədəbiyyatlarımızın yaxınlaşması, tərcümələrin çoxaldılması, Özbək yazıçı və şairlərinin əsərlərinin Azərbaycanda, Azərbaycanınkıların azərbaycanlılarınkının isə Özbəkistanda nəşri və s. Ara-sıra da ötən günlərin xiffətini, yazdıqları əsərlərə qonorar ala bilməmələri!

Qonaq gələndə onu mütləq araqla qarşılamaq, şəninə sağlıq demək – hamısı Sovet dövründən qalma olduğu kimi araq süzdükləri qablar da, otaq da, oturduqları mebellər də təxminən 30-40 il öncə necə vardısa, elə də qalmışdı.

Başa düşdüm ki, mən bu adamların nə əsərlərini nəşr etdirib qonorar verilməsinə kömək edə biləcəm, nə də maddi durumlarının yaxşılaşmasına kömək edə biləcəm. Bu mühitin, bu şəraitin dəyişməsi çətindir. Onlar ömürlərinin sonuna kimi belə yaşamağa məhkumdurlar. Azərbaycan-Özbəkistan ədəbi-mədəni əlaqələrini inkişaf etdirəcək yeni nəsil lazımdır. Gənc nəsil zamanla ayaqlaşacaq, yeni imkanlar ortaya qoyacaq. Biz xatirələrlə yaşayan bu qocalardansa gənc nəsillədən olanları tapıb onlarla görüşməli, onları ədəbi-mədəni əlaqələri inkişaf etdirməyə həvəsləndirməliyik.

“Düşmən”lərinə heykəl qoyan özbəklər

Sovet hökuməti yıxılandan sonra Özbəkistanın çox yerində Əmir Teymura əzəmətli heykəllər qoyulub, haqqında film çəkilib, kitablar yazılıb. Mətbuatda, radio və televiziyada, sosial şəbəkədə, demək olar ki, hər gün onu öyən yazılara rast gəlmək olar. İnsanların bu cür davranışı mənə qəribə gəlir.

Özbəkistanda elə ciddi xalq hərəkatı, mitinqlər, ictimai-siyasi qarşıdurmalar olmadı. Sovet hakimiyyəti illərində rəhbər vəzifələrdə kimlər idisə, Özbəkistan SSRİ-nin tərkibindən çıxanda da həmin adamlar vəzifədə qaldılar. Bəzilərinin rəhbər vəzifələrdən uzaqlaşdırılmasının səbəbi də siyasi görüşlərinə görə deyil, İslam Kərimova münasibətinə görə oldu. Sovetlərin dövründə Moskvadan çəkinən İslam Kərimov rəhbər vəzifələrə adamları ehtiyatla qoyduğu kimi, vəzifədən uzaqlaşdıranda da ehtiyatla uzaqlaşdırırdı. Sonra tam sərbəst oldu. Kimi hansı vəzifəyə istədi gətirdi, kimi hansı vəzifədən istədi uzaqlaşdırdı. “Gözün üstündə qaşın var deyən” olmadı.

Belə bir durumda necə oldu ki, uzun illər Əmir Teymuru tənqid edən, onu pisləyənlər qısa müddətdə Teymursevərlərə çevrildilər, təbliğ etməyə, adının əbədiləşdirilməsinə başladılar. Dünənki kommunistlərin qısa müddətdə dəyişkənliyi çox təhlükəli bir haldır. Sabah da onlar başqa bir sifətlərini göstərərlər.

Özbəkistanda olanda Əmir Teymurun əzəmətli heykəllərini görəndə yanımdakı aydınlara: “Bu özbəklər niyə belədir, düşmənlərinə gör necə də əzəmətli heykəllər qoyur, adına küçə və meydanlar verirlər?” – deyə soruşuram. Onlar nə məqsədlə dediyimin fərqinə varmadan uzun-uzadı izah edirlər ki, Rusiyanın Türküstanı işğalından sonra Əmir Teymuru gözdən saldılar. Sovet hakimiyyəti illərində onu xalqa qəddar, qaniçən, düşmən obrazında təqdim etməyə başladılar.

Mən səbirlə dinlədikdən sonra yenə sual verməli oluram: “Əmir Teymur haqqında oxuyubsunuzmu? Onun qanunları və çıxışları ilə tanışsınızmı?”

Cavab birmənalı olur: “Əlbəttə!”

Onda mən yeni bir suala keçməli oluram: “Siz özbəksinizmi?” Cavab qəti olur: “Əlbəttə!”

Məcbur oluram yeni sual verməyə. Deyirəm ki, Əmir Teymur özbəklərə nifrət edir, onları aşağılayır, ölümlə hədələyirdi.

Onda da cavab verirlər ki, Əmir Teymur özbəklər deyəndə indiki Özbəkistanın şimalında yaşayan, Toxtamış xana qulluq edənləri nəzərdə tuturdu.

Əmir Teymur kimin özbək, kimin türk olduğunu bilmirdi? Kimlər ki, özünü Əmir Teymurun nəslindən sayır, onlar niyə özbək adlandırılmaları ilə razılaşırlar? Bu suallarıma cavab ala bilmirəm.

Hər yerdə türk olmadıqlarını deyən, özbəklikləri ilə qürurlanan Əmir Teymurun özbəklərə düşmən

münasibəti haqqında danışmaq istəmirlər. Amma Əmir Teymurun özbək olduğunu deyir və qürurlanırlar.

Milli lider, mətin siyasətçi həbsxanada yetişir

Gəncliyimdə baş vermiş bir hadisəni heç vaxt unuda bilmirəm. 1973-cü ilin martı idi. Biz 5-ci kursda oxuyurduq. Universitetin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsində müəllim işləyən Əbülfəz Əliyevlə (Elçibəy) tanışlığım vardı. Tarix fakültəsinin axşam şöbəsində oxuyan, Xanağalı Ələddin Həsənov, hüquq fakültəsinin axşam şöbəsində oxuyan, Aşağı Qışlaqlı Məmməd Abdullayev onunla daha yaxın idilər.

Əbülfəz Əliyev hərdən onlarla yataqxanaya gəlir, söhbətlər edir, sonra da gedib bir yerdə oturub yeyib-içirdik. Yeyib-içmək məclislərimiz çox uzun çəkirdi. Çox vaxt mən cığallıq etsəm də, Əbülfəz Əliyev (Elçibəy) dözürdü. Ən çox ortaq məxrəcə gələ bilmədiyimiz məqam Türk xalqlarının birləşməsi, yoxsa Azərbaycanın bir inzibati mərkəz kimi birləşməsi məsələsində olurdu.

Əbülfəz Əliyev bütün gücü ilə Türk xalqlarının birliyinin vacibliyindən danışırdı. Mən isə belə bir birliyi mümkünsüz sayırdım. Monqolların, Toxtamışın,

Noqay xanın, Əmir Teymurun və başqalarının Azərbaycana basqınını əsas götürürdüm. Mən, əsasən, üçcildlik "Azərbaycan tarixi" kitabındakı faktlara dayanırdım. Əbülfəz Əliyev isə çoxlu qaynaq göstərirdi.

Mən Rusiya və SSRİ-nin təbliğatından çıxa bilmədiyimə görə deyirdim ki, iki Azərbaycanın birləşməsi vacibdir. Özü də bu birləşmə SSRİ-nin köməyi ilə olmalı, yeni yaradılan dövlət sosialist dövləti olmalıdır. Özbəklər, türkmənlər, qazaxlar, qırğızlar çox geridə qalıblar, onlardan bizə hay olmaz.

1973-cü ilin martında da belə bir mübahisəmiz oldu. Mənim çox inad etdiyimi görən Əbülfəz Əliyev bərk hirsləndi və dedi: "Bilirsən sən kimə bənzəyirsən? Həbsxanada bu bir kamerada cəza çəkdiyin halda, o birindəkindəki kameradakı qardaşınla bir kamerada yerdə olmaq uğrunda mübarizə aparana! Sən həbsxanadan çıxmaq istəmirsən! Sənin siyasi şüurun yoxdur! Həbsxanada qardaşınla ya bir kamerada ol, ya da ayrı-ayrı kameralarda ol. Həbsxana, həbsxanadır!"

Onun bu sözü bərk xatirimə dəydi. Çox ölçüb-biçdikdən sonra qərara gəldim ki, diplom müdafiəsində olduğumuzdan dərs yoxdur, bizi də itirib-axtarmırlar. Gedim Səmərqəndə, özbəklərin durumunu öyrənim, gəlim Əbülfəz Əliyevin qarşısına faktla çıxım.

İki il öncə Daşkənd Universitetinin jurnalistika fakültəsində oxuyan Məhəmmədcan 1970-ci ildə Bakıda tələbə elmi cəmiyyətinin simpoziumunda tanış olmuşduq. Səmərqəndin kəndlərindən olduğunu

bilirdim. Mübahisəmizdən təxminən bir həftə öncə ondan məktub almışdım. Yazırdı ki, ailələrinə kömək üçün kəndə gedir. Diplomu da kənddə yazacaq.

Ona məktub yazdım. Səmərqəndə gəzməyə gələcəyimi bildirdim. Xahiş etdim ki, mümkünsə, Səmərqənd Universitetinin yataqxanasında mənə yer tapsın ki, xərcim az çıxsın. Bəzən aylarla məktubuma cavab veməyən Məhəmmədcandan heç on gün keçmədi ki, cavab aldım. O, universitet yataqxanasının komendantı qohumu olduğunu, ikimizə bir otaq verəcəyini, orada bir həftə, on gün qala biləcəyimizi və Səmərqəndi gəzdirəcəyini vəd etdi.

Onun məktubu məni o qədər sevindirdi ki, otaq yoldaşlarıma, dostlarıma da heç nə deməyib qatara bilet alıb Səmərqəndə yola düşdüm.

Məhəmmədcan vədinə əməl etmişdi. Hər şey qaydasında idi. Mənim gəlişim şərəfinə yataqxanada pambıq yağı ilə özbək plovu da bişirmişdilər. Mən də xırda-para hədiyyələrdən başqa bir neçə butulka Azərbaycanda istehsal olunmuş çaxır və araq da aparmışdım.

İlk tanışlığımız gözəl keçdi. Yedik-içdik, Azərbaycan-özbək xalqlarının şərəfinə, dostluq şərəfinə sağlıqlar dedik. Sonrakı günlərdə mübahisələrimiz başladı. Mən Əmir Teymuru tərifləyirdim, özbək tələbələr onun qəddarlığından danışırdılar. Mən Əbülfəz Əliyevdən eşitdiklərimi böyük həvəslə

özümün fikrim kimi deyirdim, onlar isə etiraz edir, məni fikrimdən daşındırmağa çalışırdılar.

Mən qızların da toplantılarımıza qatılmalarını istəyirdim. İçkimiz bol olduğundan hər gün bir neçə dəfə 10-12 nəfərlə bir yerə toplaşırdıq. Həmişə də oğlanlar gəlirdi. Səmərqənddə olduğum üçüncü günü saat 23-ü keçəndə iki polis gəlib məni aparmaq istədi. Ad da qoydular ki, mən pasport rejimini pozmuşam. Yataqxanada qalmağa haqqım yoxdu.

İçib hallanmış tələbələr hay-küy saldılar və polisə müqavimət qöstərdilər. Polislər hara iləsə yataqxananın telefonu ilə danışandan sonra pasportumu və tələbə biletimi alıb getdilər. Bir adres verdilər ki, sabah saat 10.00-da gəlib sənədlərimi oradan alım.

Səhər Məhəmmədcanla gedib deyilən adresi gedib tapdıq. O, nə hiss etdisə, bir də baxdım, yoxdu. Sonra da nə onu gördüm, nə də məktublarıma cavab aldım.

Məni içəri aparanda başa düşdüm ki, bura milis idarəsi deyil. KQB-dir. Mülki geyimli bir özbək 3 saata yaxın məni danışdırdı. Sonra izahat yazmaq üçün kağız-qələm verib getdi. Təxminən iki saatdan sonra gəldi və mənim izahatımı alıb oxudu. Məndən izahatı rus dilində yazmağı tələb etdi. Rus dilini bilmədiyimi söylədim. Günortadan sonra başqa bir nəfər də gəldi. O, Azərbaycan türkcəsində yaxşı bilirdi.

Yenə də eyni məzmunlu sorğu-sual başladı. Harada doğulubsan, atan-anan nəçidir, harada oxuyubsan, nə məqsədlə Səmərqəndə gəlibsən və s. Mən hər şeyi doğru deyirdim. Səmərqəndə də gəzməyə, tarixi abidələrə baxmağa gəldiyimi söyləyirdim. Sadəcə Əbülfəz Əliyevlə tanışlığım və onunla olan mübahisəmi demirdim. Gecə məni milis idarəsinin müvəqqəti saxlama məntəqəsində saxladılar. Səhər yenidən KQB-yə apardılar.

Bu dəfə söhbətin məzmunu tamam dəyişmişdi. Əmir Teymur haqqında söylədiklərimi haradan oxuduğumlau, məni kimlər göndərdiyini, Özbəkistanda öncələr olub-olmadığımı, burada kimləri tanıdığımı soruşur, özləri protokol yazıb mənə imzalatmağa cəhd edir, özümə izahatlar yazdırırdılar.

Üç günüm beləcə keçdi. Dördüncü gün sərxoş olub tələbələrlə dalaşmaqda ittiham edib 15 sutka həbs cəzası verdiklərini bildirdilər. Beləcə, milisin 15 sutkalıqlarının arasına düşdüm.

Milisdə vəziyyət başqa idi. Gecə saat 24.00-dan sonra sakitlik olanda növbədə olan milislər məni yanlarına aparıb danışdırır, lağa qoyur, bir-birinə: "Bbu, Azərbaycandan gəlib bizə Əmir Teymuru tərifləyir", deyirdilər. Mən onların bütün kobudluqlarına baxmayaraq, Əmir Teymuru tərifləməkdən əl çəkmirdim.

Milislər məni lağa qoyub gülmələrinə baxmayaraq, içərilərində bəzilərinin xoş münasibətini

də görürdüm. Özləri yemək yeyəndə mənim də onlarla bir süfrədə oturmağımı təkid edirdilər. Qəribə burası idi ki, mənə 15 sutka verdiklərini desələr də, milislərin söhbətindən belə başa düşürdüm ki, heç bir sənədləşdirmə aparılmamışdı.

7 gün sonra bir milis leytenantı məni vağzala gətirdi. Plaskarda bilet alıb vaqona mindik. Məni Krasnavodskiyə kimi gətirib bərəyə (paroma) mindirəndə sənədlərimi verdi.

Mən Bakıya gələndən sonra Ələddin Həsənov və Məmməd Abdullayevlə birlikdə Əbülfəz Əliyevlə görüşdük. Başıma gələnləri təfsilatı ilə danışdım. Gözləyirdim ki, təəssüflənəcək, mənə ehtiyatlı olmağı, bir də belə iş görməməyi tapşıracaq.

Gözlədiyimin tərsinə oldu. Nahaq buraxıblar, sənin əməlinə görə birinci dəfə olduğu üçün 3 il həbs cəzası verməliydilər. Milli lider, mətin siyasətçi həbsxanada yetişər. Həbsxanadan qorxmağa dəyməz . Ora da bir məktəbdir.

Uzun illər dostlarım bəyin bu sözlərini yada salıb gülərdilər.

Gömrük işçiləri ilə mübahisə

Qulu Kəngərli məni hava limanına gətirəndə dedim ki, səni çox yordum. Üç gün yatsan, yorğunluğun çıxmaz.

Qulu da: “Sən gedəndən sonra üç gün deyil, bəlkə, 10 gün darıxacam, əlim çətin iş tutacaq. Mənim də özbək alim, yazıçı və şairləri ilə tez-tez görüşməyə, danışmağa vaxtım olmur. Sənə görə başqa işlərimi ertələyir, ya da ixtisara salıram. Görüşlərdə onları fəallaşdırmağa çalışıram. Sən gedəndən sonra hələ onları ərklə danlayacam ki, fəal olunlar. Milli məsələyə diqqəti artırın. Dünyaya çıxın. Azərbaycan sizin üçün bir körpüdür, ondan istifadə edin”, – cavabını verdi.

Biletimi qeydiyyatdan keçirəndə kitabların çoxluğuna görə yüküm ağır gəldi. Qulu Kəngərli işə qarışandan sonra baqajımı göndərdilər.

Qulu Kəngərli ilə sağollaşıb, arxa çantamı çiynimə atıb, gömrük keçid məntəqəsinə getdim. İçimdə bir üzüntü vardı. On gündən artıq burada olsam da, görmək istədiyim işlər hələ qalırdı.

Gömrük keçid məntəqəsinə gələndə deklorasiyanı doldurdum. Orada Bakıdan aldığım təyyarə biletinə görə mənə verilən dolların məbləğini göstərdim. Taksi üçün saxladığım Azərbaycan manatını yazmağa ehtiyac duymadım. Bilirdim ki, xırda milli pullar deklorasiyaya yazılmır. Məbləğ 25 manatı keçmirdi.

Gömrük işçisi deklorasiyaya baxıb valyutanı göstərməmi tələb etdi. Mən də arxayınlıqla pulqabımı onun qarşısına qoydum. O, dollarları sayanda diqqətlə əlini izləməyə başladım. Bakıda metroya girəndə

milislər, gömrükdən keçəndə gömrük işçiləri pulu sayarkən adamın başını qatıb oradan bir-ikisini "çırpışdır"dıqlarını bilirdim. Onu bilirdim ki, bu, təkcə Azərbaycanda deyil, dağılmış Sovetlər Birliyinin əksər yerlərində belədir.

Mənim diqqətlə izlədiyimi görən gömrük işçisi əsəbiliklə dolları saydı. Deklorasiyada yazdığımla düz gəldiyini gördükdə Azərbaycan pulunu əlinə alaraq "bunu nədən deklorasiyadan gizlədibsən" deyə xəbər aldı. Elə bildi ki, mən həmin pulları ona verməklə "canımı qurtarmağa" çalışacam. Mən əsəbləşsəm də, sakitliyimi qoruyaraq "görünür, gömrükdə yeni işləyirsiniz. Bilmirsinz ki, o pullar valyuta sayılmır və deklorasiyaya yazılmır", – dedim. İki gömrük əməkdaşı da işlərini yarıda saxlayıb söhbətimizi dinləməyə başladılar. Görünür, iş yoldaşlarının yanında onu pərt eləməyim xatirinə dəydi.

– Sizə akt tərtib edəcəyəm, – dedi.

Mən bu dəfə bərkdən gülərək:

– Əlifba tanıyırsan ki, akt da yazasan?

O, dadha da qızışaraq:

– Mənə dərs verməyin, 5 ildir kömrükdə işləyirəm. İşimi də bilirəm, – dedi.

Açıq-aydın görürdüm ki, o, akt yazmağa tələsmir. Yanındakılar da mənə işarə edir ki, çıxım gedim. Mən nədənsə inadlaşdım. Həm də onlara ürəyim ağrıyırdı ki, gör nə gündədilər. Mənim Azərbaycan manatım onlara qalsın deyə neçə oyunlardan çıxırlar.

Hirsləndiyimdən əlimi atıb manatları götürdüm və üç yerə bölüb üstünə atdım.

– Al, sənin olsun, – deyib getmək istədim.

Mənim bu hərəkatım onu daha da əsəbiləşdirdi. Arxa çantama baxmaq üçün açmağımı tələb etdi. Mən çantanın ağzını açıb onun qarşısına qoydum və tələb etdim ki, kənarda dursun. Çantada nə var stolun üstünə özüm qoyacam. Ehtiyat etdim ki, çantanı yoxlamaq adına oraya narkotika qoyar.

Çantamdakıları boşalda-boşalda bərkədən çığırdım ki, gedin növbə rəisinizi çağırın. Yanımızdakı kömrük işçiləri çaşqınlıqla bizi izləyirdi. Səs-küyə hamı bizə baxırdı. Keçid, demək olar ki, tıxanmışdı.

Bu zaman bir kömrük işçisi tələsik addıımlarla bizə yaxınlaşdı və mənə hirslənərək: "Niyə işimizi pozursunuz", – dedi. Mən sakit və təmkinimi pozmadan: "Sizin işinizi bilməyən bu çoban pozur", – dedim. Mənim belə cavabım onu çaşdırdı. Pörtmüş halda pasportumu götürdü və işçisinə "onun yüklərini mən yoxlayacam. Siz gedin baqajını da buraya gəyirin", – dedi və o biri işçilərə də tez-tez işləmələrini, yolu açmalarını tapşırdı.

Mən sakit-sakit onun hərəkətlərini izləyirdim. Diqqətlə xidməti pasportumu səhifələdi, möhürləri gözdən keçirdi, elə bil orada səhv axtarırdı. Xidməti pasportumun vaxtı bitməsinə az qaldığından möhürlər çox idi. Onu gözdən keçirəndən sonra kitablara

baxmağa başladı. Əlinə ilk keçən konfransın proqramı oldu.

Onun vaxtı çox uzatdığını görüb proqramı əlindən alaraq qəsdən ingilis dilində yazılan səhifədə ad və soyadımı göstərdim. Baxandan sonra elə bil bir az sakitləşdi. İkinci kitabı da götürəndə gördüm ki, çantadakı vizit kartımı oxuyur. Özümü görməməzliyə vurdum.

O, Nəsrəddin Muhammaediyevin kitabını açdı və avtoqrafı oxuyandan sonra işçilərinə göstəriş verdi ki, baqajı gətirtməsinlər. İşçiləri mənim çırıb atdığım Azərbaycan pulunun parçalarını yerdən yığıb ona verdilər. O da gülümsəyərək: "Azərbaycanda banka verib yenisini alarsınız", – dedi. Mən pulun cırıqlarını alıb oradakı stolun üstünə qoydum.

Çantamı yığmağa da kömək etdi.

– Nəsrəddin əkə mənim qohumumdur, – dedi.

Onun sözünə heç bir reaksiya vermədiyimi görüb:

– Ocuyevi tanıyırsınızmı? – deyə xəbər alanda qeyri-ixtiyarı və tənəli:

–Səmərqənddə yaşayan professor Səxavət Ocuyevi tanıyıram! – dedim. Sözümün vurğusundan belə çıxdı ki, mən professorları, alimləri, yazıçıları tanıyıram, sizin kimilərini yox.

O, gülümsəyərək:

– Sizin tanıdığınız həmin Ocuyevin oğlu bizim rəisdir. Nədən Niyə onu tanıdığınızı demədiniz? Tanışlıq versəydiniz, qanınız bu qədər qaralmazdı.

Mən cavab vermədim.

Məni saxlayan gömrük işçisi ona tərəf gələnləri yoldaşlarına yönəldirdi. Özü heç kimi yoxlamaq istəmirdi. Növbə rəisi ona heç nə deməsə də, sifətindən narahatlığı bilinirdi.

Növbə rəisi kitabları çantama qoyub ağzını bağladı. Bir əlində çantam, o biri əlində pasportum sərhəd keçid məntəqəsinə doğru getdi. Mən də onun arxasınca getdim. Pasportuma növbədənkənar möhür vurdurub mənimlə birlikdə gözləmə salonuna keçdi.

Çay içməyə dəvət etdi. O qədər əsəbiləşmişdim ki, yox dedim. Hədiyyələr satılan yerə çatanda: "Bəyəndiyiniz bir şey seçin. Məndən sizə yadigar olsun", – dedi. Təşəkkürümü bildirdim. Bakıya uçacaq qapıya doğru getdim. O da mənimlə gəldi və vizit kartını verərək: "Özbəkistana gələndə kartı göstərərsiniz, heç kim sizi incitməz", – dedi.

Onun bu sözündən də xoşum gəlmədiyindən vizit kartını almadım.

– Adamlara vəzifəsinə görə, tanışlığa görə deyil, qanunların verdiyi imkanlara görə hörmət etmək lazımdır, – dedim.

O qədər hirslənmişdim ki, mənə bu qədər qayğıkeşliklə yanaşan adamın adını, soyadını xəbər almadım. Ləhcəsini sonralar yadıma salanda güman etdim ki, Xarəzm türkmanlarındandır.

Mənim uçuş kartımı da cırdırıb avtobusadək gətirdi. Mən avtobusa minəndə gülərək dedi:

– “Bakıya gələndə birbaşa evinizə gələcəm. Məni qovmayacaqsan ki! Ev ünvanınızı bilirəm”.

Təyyarədə oturanda özüm-özümə sual verdim: “Mən niyə kobudam? Həmişə gömrük, sərhəd işçiləri ilə, polislərlə problemim çıxır. Çox ölçüb-biçdikdən sonra axır bu qənaətə gəldim: SSRİ dağılmasaydı, xarici ölkələrdə insanlara münasibəti görməsəydim, yəqin çoxları kimi mən də nə desələr, susardım, işim keçsin deyə bəlkə də, yaltaqlanmağa çalışardım.

Özbəkistan hava limanındakı qanıqaraçılığın nəticəsi o oldu ki, Bakıda mindiyim taksini gecə yarı həyətdə gözlədib evdən pul gətirməli oldum.

Səhərisi günün axşamı Nəsrəddin Muxhammediyev zəng vurdu. Necə çatdığımla maraqlandı. Gömrükdəki hadisə ilə bağlı heç nə deməsəm də, o, gülə-gülə qohumunun səhər tezdən ya-nına gəldiyini, işini itirə biləcəyinə görə narahatlıq keçirdiyini dedi. Xahiş etdi ki, Xarici İşlər Nazirliyinə, səfirliyə və ya Özbəkistan prezidentinə şikayət məktubu yazmayım.

Boluda Koroğlu simpoziumunda

2009-cu il oktyabrın 17-18-də Abant İzzət Baysal Universiteti Bolu Xalq Kültürünü Araşdırma və Uygulama Mərkəzi (BAMER), AMEA Folklor İnstitutu və Özbəkistan Respublikası Fanlar Akademiyası Til və Ədəbiyyat İnstitutu ilə birgə “I Ulus-

lararası Koroğlu, Bolu tarix və kültürü simpoziumu”nun təşkilati məsələlərinə kömək üçün oktyabrın 15-də Bolu şəhərində oldum.

Səhər tezdən Ali Yamanla birlikdə Abant İzzet Baysal Universitetinin rektoru, prof. dr. Atilla Kılıçın qəbulunda olduq. Rektor birinci məndən Azərbaycan və Özbəkistandan gələcək məruzəçilər haqqında soruşdu. Mən Özbəkistana yolçuluğum, akademik Törə Mirzəyev və məruzəçilərlə görüşüm haqqında, həmçinin məruzəçilərin Türkiyəyə gəlmələri üçün Özbəkistan Xarici İşlər Nazirliyinə məktub yazılmasından söz açdım.

Rektor Atilla Kılıç maraqla: “Özbəkistan Xarici İşlər Nazirliyinə nədən niyə məktub yazdılar? Biz onlara dəvət məktubu göndərmişdik. Həmin məktub əsasında Türkiyənin Daşkənddəki konsulluğundan viza ala bilməzdilərmi?” deyə soruşanda mən də dedim ki, viza məsələsində problemləri yoxdur. O məsələ həll olunub. Özbəkistan alimləri xarici ölkələrə getmək üçün Xarici İşlər Nazirliyindən də icazə almalıdırlar.

Atilla Kılıç özünü saxlaya bilməyib “Şu nasıl olur?” deyə soruşanda söhbətə Ali Yaman da qarışdı. Dedi ki, Sovetlər Birliyindən ayrılmış cümhuriyyətlərdə uluslararası beynəlxalq qanunlar hələ oturuşmayıb.

Atilla Kılıç xeyli fikrə getdikdən sonra: “Azərbaycandamı öylə?” deyə soruşanda mən: “Xeyr,

Azərbaycanda öylə kurallar, yasaklar yokdu. Bildiri sunacak kişilərdən 3-ü kəndi istəkləri ilə Təbriz üstündən avtobusla gələcəklər. O birilər isə uçaqla gələcək".

Rektor gələn qonaqların qarşılanması və yerləşdirilməsi, məruzələr dinlənəcək salonların durumu, hotellərdəki otaqlarda xidmətin səviyyəsi, simpoziumla bağlı şüarların şəhərin hansı yerlərinə vurulması və sairlə maraqlandı.

Ali Yaman yarım saatlıq bir hesabat versə də, rektorun ürəyi soyumadı. Maliyyə məsələləri üzrə yardımçısını çağırıb qonaqların yol pullarının ödənməsi üçün bankdan pul alınıb-alınmaması ilə, təsərrüfat üzrə yardımçısını çağırıb nə qədər maşın ayrıldığı, yeməklərin keyfiyyəti, menyu ilə və s. maraqlandı.

Verilən cavablardan razı qaldığından "durun gedək öylə yeməyinə", – dedi. Yemək süfrəsi arxasında Koroğlu mövzusunda ilk simpoziuma hazırlığın uğurlu getməsi şərəfinə qədəhlərə şərab da süzdülər. Mənim içmədiyimi görən Atilla Kılıç zarafatla dedi: "İmamlar toplumla içməz, təklikdə içər. Ali Şamilin payını gedəndə çantasına qoyarsınız. Bakıda içər", – dedi. Onun bu zarafatı hamımızda xoş bir əhval-ruhiyyə yaratdı.

Özbəklərdən başqa proqramda adı olanların hamısı gəlmişdi. Simpozium proqramda nəzərdə tutulduğu kimi yüksək səviyyədə keçdi.

Məni narahat edən o oldu ki, yaxşı, Daşkənddəkilər Xarici İşlər Nazirliyindən icazə ala bilmədikləri üçün gəlməyiblər. Bəs Jumaboay Yusupov niyə gəlməyib? Axı o, mənimlə birlikdə bilet almışdı. Özü də qətiyyətlə demişdi ki, icazə versələr də, gələcəm, verməsələr də. Bəs bu nədən gəlməsin?

Bakıya dönəndə Jumaboay Yusupovun qızı Nərgizdən bir məktub aldım. O, dərin kədərlə bildirirdi ki, atası 2009-cu ilin oktyabrın 10-da Daşkəndə gedib ki, orada bir neçə gün qalıb, işlərini səhmana salıb İstanbula uçsun. Nə yazıq ki, əcəl aman verməyib. Elə həmin gün vəfat edib.

Əlimdən "Allah rəmət etsin! Qəbri nurla dolsun!" deməkdən başqa bir iş gəlmədi.

İslam dinində xeyirli bir iş üçün yola çıxanların ölümü də şəhidlik sayılır. Jumaboay Yusubov da, beləcə, elmimiz yolunda şəhid oldu.

* * *

Qısa sözardı. Jumaboay Yusubov vəsiyyət edibmiş ki, öləndə doğma kəndində, valideynləri və qohumları uyuduğu qəbiristanlıqda dəfn etsinlər. Cənazəni Daşoğuza aparmağa Türkmənistan tərəfdən icazə ala bilməyiblər. Mən də çox çalışdım. Yazışdım. Tanıdıqlarımın hamısına müraciət etdim. Dedim, heç olmasa ölümünün ildönümündə Jumaboay Yusubovun vəsiyyətini reallaşdıraq, onu da bacarmadım. Gördüm ki, məmurlar insanın yalnız dirisindən deyil, ölüsündən də qorxurlar.

Türkmənistanın hakimiyyət orqanlarında çalışanlar düşünürlər ki, Jumaboay Yusubov kəndində dəfn edilərsə, Özbəkistanda onun doğum və ölüm günlərində, dini bayramlarda qəbrini ziyarətə gələrlər. Onların başına da yerli özbəklər toplanar. Bu toplantı isə hakimiyyət orqanları üçün başağrısına çevrilər.

Daşkənddə yazmağa başladığım yol qeydlərini Boluya simpoziuma getdiyimə görə tamamlaya bilmədim. Oradan geri qayıdandan sonra yazmağa davam etdim.

Daşkənd-Ürgənc-Daşoğuz-Bolu-Bakı
9-12 noyabr 2009-cu il.

QƏDİM MƏDƏNİYYƏT BEŞİYİ
TERMEZİN BU GÜNÜ

Azərbaycan türkləri ilə Özbəklər eynu soylu xalqlar olsalar da, araşdırıcılar özbəklərin danışdığı dili Türk dilinin qarluq, bizim danışdığımız dili isə oğuz qrupuna aid edirlər. Əlişir Nəvai, Əmir Teymur və onların çağdaşları isə özlərinə özbək deyil, türk deyirmişlər.

Azərbaycanda sufizmin yayılmasında Türküstan sufilərinin rolu böyükdür. Orta yüzil Azərbaycan filosoflarının əsərlərini oxuyanda onların Əbu İsa Məhəmməd Tirmizidən, Hakem ət-Tirmizidən, Seyyid Bürhanəddindən və b. yararlandıqlarını görürük. 16-cı yüzildə Səmərqənd və Buxarada yaşamış, Fərabi, İbn Sina, Bəhmənyar, Biruni, Tusi, Qəzvini, Davvani, Taftazani, Aristotel, Platon, Pifaqor, Sokrat kimi filosofların əsərlərinə şərhlər yazmış Yusif Məhəmmədcan oğlu Qarabağini Buxara xanı Əmir Bahadur yüksək qiymətləndirmiş və onu kitabxana vəziri təyin etmişdir.

Xalqlarımız arasındakı ədəbi-mədəni əlaqələr 20-ci yüzilin başlarınadək eyni axarla davam etmişdir. Azərbaycanda nəşr olunan qəzet və jurnallar Özbəkistanda necə həvəslə oxunmuşsa, Özbəkistanda nəşr edilən qəzet və jurnallar da Azərbaycanda elə oxunmuşdur. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları, "Arşın mal alan", "O

olmasın, bu olsun” operettaları, eləcə də dramaturqlarımızın səhnə əsərləri özbək dilinə çevrilmədən göstərilmişdir.

Hətta 19-cu yüzilliyədək yaşayan Azərbaycan şairlərinin bəzilərinin əsərlərinin arasında cığatayca (bugünkü özbəkcə) yazılmış şeirlərə də rast gəlmək olur.

Səmərqənddə yaşamış azərbaycanlı Seyid Rza Əlizadə 20-ci yüzilin başlarında “Şərq” və “Teleqraf xəbərləri” qəzetlərini açmış, “Söyləyiş inqilabı” jurnalının redaktoru olmuş, özbək və taciklər üçün “Əlifba”, “Coğrafiya”, “Tarix”, “Riyaziyyat”, “Həndəsə”, “Astronomiya”, “Ərəb dilinin qrammatikası” və b. kitabları yazmışdır.

Azərbaycanlı Maqsud Şeyxzadə Özbək ədəbiyyatına ilk mənzum dram müəllifi kimi daxil olmuş, onun bədii və elmi əsərləri bu gün də ümumtəhsil və ali məktəblərdə tədris edilir.

Özbəkistanda teatr, opera yaranmasında azərbaycanlılar aparıcı rol oynamışlar. Sovet dövründə onlarla azərbaycanlı Özbəkistanda rəhbər vəzifədə işləmişdir.

Özbək Xalid Səid Xocayev 1923-1937-ci illərdə Azərbaycanda ali məktəblərdə və texnikumlarda dilçilikdən, üslubiyyatdan dərs demiş, dərsliklər yazmış, "Divanü lüğat-it-türk"ü ilk dəfə ərəb dilindən Azərbaycan türkcəsinə çevirmişdir.

Azərbaycan-Özbək ədəbi və mədəni əlaqələri olduqca zəngin olsa da, bu gün onlar gərəyincə tanıdılmır. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Azərbaycanla Özbəkistan arasındakı milli bağlara ideoloji yön verməyə çalışaraq beynəlmiləlçiliyi, Özbək-Azərbaycan pambıqçılarının sosializm yarışını qabartmışlar. İki-üç ildən bir sosializm yarışının necə yerinə yetirildiyini yoxlamağa gedən əməkçilərin sırasına mədəniyyət işçiləri, şairlər, yazıçılar da qatılıb. Azərbaycan yazıçı və şairlərinin əsərləri Özbəkistanda, Özbək yazıçı və şairlərinin əsərləri də Azərbaycanda nəşr edilib. Lakin onların elə bir ciddi elmi, bədii dəyəri olmayıb. Əsasən sosializmi təbliğ edən əsərlər nəşr və təbliğ edilib.

Sovetlər Birliyi dağıldıqdan sonra Türksoylu xalqların elmi, mədəni, iqtisadi əlaqələrinin daha sürətlə inkişaf edəcəyini gözləyirdik. Lakin gözlədiyimiz kimi olmadı. Dünyanın inkişaf etmiş, hərbi gücü böyük olan dövlətlərindən çəkinən yeni yaranmış Türksoylu dövlətlərin rəhbərləri ehtiyatlı davranmağa üstünlük verdilər.

Türkmənistan hökuməti yaxın qohumların belə bir-birini görməsini problemə çevrən viza rejimi tətbiq etdi. Özbəkistanda nəinki öz soyköklərinin türk olduğunu demək yasaqlanıb, Azərbaycan və Türkiyə alimlərinin, şair və yazıçılarının ölkədə nəşr edilən əsərləri üzərində ciddi senzura nəzarəti qoyulub. Özbəkistan prezidenti İslam Kərimov Türksoylu

dövlətlərin yeni yaratdıqları qurumlara qoşulmaqdan imtina edib. Onun ölümündən sonra, yəni 2019-cu ilin payızında Özbəkistan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına qatıla bilib.

Türksoylu dövlətlərin bəzi rəhbərləri yaxınlaşmadan nə qədər çəkinsələr də, zaman öz işini görüb. Qadağalarla, əngəllərlə inkişafın qarşısını almaq mümkün olmayıb. Azərbaycan öz suverenliyinə qovuşandan sonra iqtisadi durum ağır olsa da, Özbək yazıçı və şairlərinin əsərlərini dilimizə uyğunlaşdıraraq çevrilməsinə, ədəbi-mədəni əlaqələri genişləndirməyə diqqəti artırıb.

Özbəkistan prezidenti İslam Kərimovun ölümündən sonra Türksoylu xalqlarla əlaqələr yeni mərhələyə daxil olub. Aşağıdakı yazını yol qeydləri kimi qələmə alsam da, Azərbaycan-Özbək əlaqələrinin tarixindən də söz açacam.

Termez deyiləndə yadıma düşənlər

Sovet qoşunlarının Əfqanıstandan çıxarılmasından 30 il keçir. Buna baxmayaraq, hələ də Termez adı gələndə üşənirəm. Kommunist partiyasının üzvü olmasam da, təyinatımı partiya qəzetinə vermişdilər. – 1973-cü ilin sentyabrından Naxçıvan Vilayət Partiya Komitəsinin orqanı olan "Şərq qapısı" qəzetində işə başlamışdım. Redaktor "Partiya həyatı" söbəsində işləməyimi məsləhət bilmişdi. Kommunist olmadığımdan

partiya təşkilatlarının toplantılarına qatıla, onların işindən yaza bilməzdim; amma partiya rəhbərlərinin adından məqalə yaza (o dövrdə bu işə "təşkil etmək" deyirdilər), onların yazısını redaktə edə bilərdim. Öz imzamla isə gənclərin həyatından yaza, bu mövzuda məqalələr "təşkil" edə, hərbi vətənpərvərlik səhifələri hazırlaya bilərdim.

Sovet qoşunları 1979-cu il dekabrın 24-də Əfqanıstanı işğal edəndən sonra, hərbi vətənpərvərlik mövzusuna diqqət artırıldı. Redaksiyamıza gələn valideynlərin sayı da çoxaldı. Onların bir qismi hərbi xidmətdə olan oğulları haqqında yazı verilməsini istəyirdisə, bəziləri də nigaranlıqdan redaksiyaya gəlirdi. Elə bilirdilər, qəzetə müraciət etsələr, məsələ ictimailəşəcək, təcili tədbir görüləcək. Ona görə də, valideynlər hərbi komissarlıqdan, partiya-sovet təşkilatlarından çox qəzetlərə müraciət edirdi. O dövrdə qəzetdə tənqidi yazı çap olunan kimi təşkilatlar ona reaksiya verir, tədbir görürdü. Qəzetdə işləyənlərin isə daxilində qosqocaman bir senzor vardı. Daxili senzorun nəzarəti altında yazılan məqaləni ardıcıllıqla şöbə müdiri, məsul katib, redaktor müavinləri, redaktor oxuyurdu. Onlar da sensor təlimatlarını əzbər bilirdilər. Buna baxmayaraq, sonda senzor oxuyub möhürünü vurmasa, mətbəə həmin qəzeti çap etməzdi. Bunların heç birini redaksiyanı son ümid yeri bilənlərə demək olmurdu.

Əsgərlikdəki övladından nigaran qalan valideynlər redaksiyaya gəlir, xahiş edirdilər ki, onlara oğullarından xəbər tutmaqda yardımçı olaq. Mən də övladlarının əsgərlikdən göndərdiyi məktubları gətirmələrini istəyirdim; gətirdikləri məktubları müxbirdən çox ekspertsayağı incələyirdim. Zərflərin üzərindəki möhürdə Termez sözü oxuyanda kədər məni bürüyürdü. Bilirdim ki, sonrakılarda ünvan "Polevaya poçta" olacaq. Bu da məktub yazanın Əfqanıstana göndərildiyi deməkdi.



Şəkildə: Termez şəhərində 2019-cu il aprelin 5-10-da keçirilən Birinci Xalqlararası Baxşı (Aşıq-Ozan) Festivalının iştirakçılarından bir qrupu.

Hərbçiləri Əfqanıstana və xarici ölkələrə göndərəndə onlara bərk-bərk tapşırırdılar ki, ailələrinə, dostlarına, tanışlarına harada olduqlarını yazmasınlar. Bu, dövlət sirri sayılırdı. Hərbi hissələrdəki siyasi işçilər isə əsgər və zabitlərin məktublarını açıb oxuyur, onların tapşırıqlara əməl edib-etmədiklərini nəzarətdə saxlayırdılar. Bəzi diribaşlar məktubun içərisindəki hərfləri fərqləndirməklə hansı ölkədə olduğunu bildirirdi. Nizam-intizamlılar, komandirlərinin tapşırıqlarına əməl edənlər isə heç bir işarə vermirdi. Buna görə də valideyn çox vaxt oğlunun hansı ölkədə xidmət etdiyini bilmirdi.

Övladından məktub gəlmədiyinə görə nigaran olan valideynlərin gətirdiyi zərfin üstündəki möhürdən durumun nə yerdə olduğunu anlasam da, açıq bir söz deyə bilmirdim. Bir neçə gün sonra həmin ailəyə ya tabut gəlirdi, ya da şikəst övlad... Qurğuşunlanmış tabutları hərbçilər gətirirdi və yerli hərbi komissarlığın nümayəndələri ilə birlikdə basdırırdılar. Sərt bir qayda vardı: "Tabutu açmaq olmaz!" Tabutda cəsəd olmadığından şübhələnənlər, hətta gizli də olsa, onu açmağa cəsarət etmirdi. Sovetlər Birliyi dağılandan sonra bilindi ki, adamların şübhəsi əsassız deyilmiş. "Öldü" adıyla torpağa basdırdıqları tabutda cəsədi olmalı gənclərin bir neçəsi Sovetlər Birliyi dağılandan sonra vətənə qayıtdı. Bəzilərinin sağ olduğu barədə xəbərlər gəldi. Lakin onların çoxu həbs

ediləcəklərindən qorxduğu üçün və ya başqa səbəblərdən geri dönmədi.

Rəsmi qaynaqların verdiyi bilgiyə görə, Əfqanıstandakı 10 illik savaşa Sovetlər Birliyi 620 min əsgər və zabiti göndərib. Onun da 7 min 500 nəfəri Azərbaycanlı olub. Əfqanlardan seçilməsin deyə oraya qarabuğdayıları, əsasən, azərbaycanlıları, özbəkləri, tacikləri, türkmənləri və b. göndərməyə üstünlük verilirdi.

Naxçıvandan neçə nəfərin Əfqanıstanda xidmət etdiyini, neçə nəfərin öldüyünü dəqiq bilmirəm. Rəsmi statistikanın verdiyi bilgiyə görə, Sovet qoşunları yerli əhalidən 2-2,5 milyon nəfər öldürüb. Müqavimət göstərənlər – Sovetlərin "düşmən" adlandırdığı mücahidlər isə 14 min 427 nəfər Sovet vətəndaşını öldürüb. Onun 208 nəfəri azərbaycanlı olub. Mən onlardan 6 nəfəri haqqında məqalə yazmışdım. Əfqanıstanda hərbi xidmətdə olanlar söyləyirdi ki, yerli əhalinin də, hətta "düşmən" adlandırılanların da azərbaycanlılar, türkmənlər, özbəklər, qazaxlar, qırğızlar və taciklərə, bir sözlə, müsəlman saydıqlarına münasibətləri yaxşı olub. Hətta döyüş zamanı onları öldürməməyə çalışıblar. Sovet hərbçiləri isə uşaq, qadın, qoca fərqi qoymadan qəddarlıqlar edib.

Buna görə hələ də Termez adı gələndə üşənirəm. Bir anda elə düşünürəm ki, bunun ardınca ya ölüm, ya yaralı xəbəri eşidəcəm.

Termezin məşhur alimləri

Bilmirəm, nədən insan yaddaşında acı, kədər daha çox qalır. Axı mənim Əfqanıstan müharibəsindən öncə də Termez haqqında bilgim vardı. Gənclik illərimdə sufizmlə maraqlandığımdan Əbu İsa Məhəmməd Tirmizi, Hakem ət-Tirmizi, Seyyid Burhanəddin haqqında az-çox oxumuşdum. Bilirdim ki, sufilərin sayəsində Buxara, Səmərqənd, Mərv və Türküstanın bəzi şəhərləri islam dünyasının mədəni mərkəzlərinə çevrilib. Orada incəsənət, memarlıq, fəlsəfə sürətlə inkişaf edib. Xarəzmşah Məmunun başçılığı ilə 11-ci yüzildə Xarəzmdə Doğu Araşdırıcılarının Elmi Araşdırma Mərkəzi yaradılıb. İndiki terminlərlə desək, elmi mərkəz Türküstanın akademiyası olub. Xarəzm şəhərinə epitet kimi "Madinat aər-rical" – yəni alimlər şəhəri deyilirmiş.

Əbu İsa Məhəmməd Tirmizi

Əbu İsa Məhəmməd Tirmizi kimi tanıdığım alimin adı bütövlükdə Əbu İsa Məhəmməd bin Sevre bin Musa bin Dahhak əs-Sulemidir. 824-cü ildə Termez yaxınlığındakı Buğ kəndində doğulub. Ailəsi oraya Mərvdən gəlib. Kor olsa da, hədis və fiqh sahəsinin böyük alimi kimi ün qazanıb.

O, Termezdə təhsilini başa vurduqdan, yəni 849-cu ildən sonra, hədis toplamağa və onlara şərh yazmağa başlayıb.



Şəkildə: Əli Şamil və qaqauz şairi Todur Zanet Termez yaxınlığındakı Əbu İsa Məhəmməd ət Tirmizinin türbəsi önündə

Xorasanı, İraqı, Hicazı gəzib, Buxari, Müslüm və Əbu Davud kimi ünlülərdən hədis toplayıb. Bir neçə kitab hazırlasa da, onların ən ünlüsü "Əl-Cani-ül-Kəbir"dir. Kitabda topladığı hədislərin hər birinin sonunda "*Əbu İsa deyir ki*" yazaraq, həmin hədis haqqında geniş şərhlər verib. Alim əsərini oxucuya belə təqdim edib: "*Cami-ül-Kəbir"i yazıb Hicaz alimlərinə göndərdim. Hamısı bəyəndi. Daha sonra İraq alimlərinə göndərdim. Onlar da bir ağızdan əsərimi öydü. Nəhayət, Xorasan diyarının alimlərinə təqdim*

etdim. Onlar da məmnun oldu. Beləcə, əsəri elm aləminə təqdim etdim. Bu əsər kimin evində varsa, orada danışan bir Ppeyğəmbər var".

Əbu İsa Məhəmməd Tirmizinin şagirdlərinin sayı 20-ni keçsə də, onlardan altısının adı çox çəkilib, haqlarında çox danışılıb, çox yazılıb. Gözləri görməyən böyük sufi 892-ci il oktyabrın 9-da, 66 yaşında doğulduğu Buğ kəndində dünyadan köçüb.

Hakem ət-Tirmizi

Bütövlükdə adı (və şəcərəsi) Əbu Abdillah Muhammməd bin Əli bin Həsən ət-Tirmizi kimi yazılan, hədis, təfsir və kəlam sahəsində böyük şöhrət qazanan sufi alim 820-ci ildə Termizdə doğulub. Onun haqqında ən dəyərli bilgi, yazdığı "*Büdüvvü şen*" adlı risaləsidir. Araşdırıcıların gəldiyi qənaətə görə, ilk təhsilini atasından alıb. – Atasının "nakıl və akıl alimi, hədis uzmanı" olduğunu yazır. İlk təhsil illərini "qədərinin xoşbəxt doğuşu", atasını isə "yaxşı bir ustad" adlandırır.

Yeniyetməliyində özünə bir səmimi dost tapa bilməyən Hakem ət-Tirmizi vaxtının çoxunu tək-başına çölləri, xarabalıqları və qəbiristanlıqları gəzməklə keçirib. Yuxuda Həzrəti peyğəmbəri gördükdən sonra həyatında bir dönüş yarandığını yazıb; insanlarla arasındakı pərdə qalxıb, ona bir ilham gəlib. Bundan sonra məclisinə gələnlərlə

axşamdan sabahadək söhbət edib, dualar oxuyaraq Allaha yalvarıb-yaxarıb.

İyrimi yeddi yaşında Hacc ziyarəti arzusuyla yola çıxıb. Bir müddət İraqda qalıb, məşhur alimlərdən hədis dinlədikdən sonra Bəsrə yoluyla Məkkəyə gedib. "Büdüvvü şen" əsərində Məkkədə olarkən hər gecə səhərə yaxın Kəbə ətrafında dua edib, büyük günahlarından tövbə etdiyini yazıb. Allaha yalvararaq Ondan halını yaxşılaşdırmasını, bu dünyanın işlərindən əl götürməsinə və "Quran"ı əzbərləməsinə vəsilə olmasını istəyib.

Haccdən dönərkən başladığı hafizliyi vətənində tamamlayan Hakim ət-Tirmizi, Allahı tanımaq və axirətə yönəlmək üçün kitab oxumağa və araşdırmalar aparmağa başlayıb. Kuteybə bin Said, Hasen bin Ömər bin Sakik, Salih bin Abdullah Tirmizi, Salih bin Mühəmməd Tirmizi, Əli bin Hucr əs-Sadi, Yahya bin Musa, Utbe bin Abdullah əl-Mərvəzi, Abbad bin Yakub əd-Devraki, Süfyan bin Vekidən və b. hədisi şəriflər öyrənib.

Əhməd bin Hadraveyh, Yahya bin Muaz er-Razi və Əbu Türab en-Nahşebi kimi böyük sufilərin – övliyaların söhbətini dinləyən, onlardan təsəvvüfün sirlərini öyrənən Hakim ət-Tirmizi təsəvvuf, əxlaq, kəlam, hədis, təfsir, məzhəblər tarixi və dilçilik sahəsində ortaya yeni baxış qoyan dəyərli əsərlər yazıb. Helenistik fəlsəfədən və gnostisizmdən gələn

hikmət anlayışını təsəvvüflə bağladığına görə "Hakim" təxəllüsünü qazanıb.

Əsərlərinin böyük maraqla qarşılanması paxılları qıcıqlandırıb. Şəriət alimlərinin bəziləri fikirlərini yanlış yozub, suçlayıb, hətta iftira da atıblar. Hakim ət-Tirmizini "Hatmül-evliya" və "İlelüş-şeria" adlı əsərlərindəki fikirlərinə görə suçlanıb, vəliləri nəbilərdən üstün tutmaqda ittiham ediblər.

Bəzi araşdırıcılara görə alim Tirmizdən qovulduqda o, Bəlx şəhərinə gedib. Bəlxdə hörmət-izzətlə qarşılanıb. Uzun müddət orada yaşadıqdan sonra Nişapura köçüb. Ölüm tarixi 905-ci il, 910-cu il, hətta 932-ci il kimi göstərilib. Hakim ət-Tirmizidən yazan müəlliflərin çoxu onun şəhid edildiyi qənaətindədir. 85-112 yaşlarında bir qocanın şəhid edilməsi o qədər də inandırıcı görünmür. Araşdırıcılar "nurlanmış qəlb" məsələsini təsəvvüfə ilk gətirən Hakim ət-Tirmizinin olduğunu yazır. Sufi alim "Nevadirul-usul" və "Kitabul menhiyyat" adlı əsərində "nurlanmış qəlb"in geniş izahını vermişdir.

Alimin "Kitab es-salat və makasidiha" ("Dua və məqsədləri haqqında"), "Kitab-ul Hacc və əsrarihi" ("Hacc və fəziləti haqqında"), "Kitabül-ihtiyatot" ("Ehtiyat haqqında"), "Kitabul-cumelil-lazım marifetiha" ("Bilinməsi gərəkli cümlələr haqqında"), "Nevadirul-usulün" və b. əsərləri sufizmin təməl qaynaqlarından sayılır.



Şəkildə soldan: Termez Dövlət Universitetinin dosenti, folklorşünas Rüziqul Mustafakulov, uzun illər Özbəkistan Elmlər Akademiyası Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutuna başçılıq etmiş folklorçu, akademik Törə Mirzoyev, Əli Şamil və Ege Universitetindəki Türkiyat Araşdırmaları İnstitutunun keçmiş direktoru, professor Fikrət Türkmən.

Hakim ət-Tirmizinin şagirdləri sırasında ən çox adı çəkilən Əbu Əli əl-Cuzcani və Əbu Bakr əl-Barrakidir.

Seyyid Burhanəddin

1165-1166-cı illərdə (bəzi qaynaqlarda isə 1169-cu ildə) Tirmizdə doğulub. Atası, anası, şəcərəsi haqqında geniş bilgi yoxdur. Haqqında bilgi verən ilk qaynaqlar Mövlanə Cəlaləddin Ruminin oğlu Sultan Vələdin "İbtidanamə" adlı məsnəvisi, Feridun bin Əhməd Şipehsaların "Risalə"si və Mövlanənin nəvəsi Çələbi Arifin müridi olan Əhməd Eflakinin "Menakibül-arifin" adlı əsərlərdir. Onlar Seyyid Burhanəddinin Seyyid Həsən Tirmizinin oğlu, Seyyid Qasımın nəvəsi olduğunu yazır.

Mövlanə qaynaqlarına görə ilk təhsilini doğulduğu şəhərdə alan Seyyid Burhanəddin 1208-ci ildə Bəlx şəhərinə gedib. Burada Cəlaləddin Ruminin atası Sultan-ül uləma adlandırılan Bahəddin Vələdlə görüşüb qırx gün onun söhbətlərini dinlədikdən sonra icazə alıb yenidən Termizə dönüb. Ertəsi il yenidən Bəlxə gəlib və burada 2-3 il qalıb, gələcəkdə Mövlanə Cəlaləddin Rumi kimi məşhurlaşacaq kiçik Cəlaləddinə atabəylik edib.

Bahəddin Vələdin ailəsi Anadoluya köçəndə, o, Termizdə qalıb. Sonralar o da Anadoluya getməli olub.

Anadoluya getməsi haqqında rəvayətlərdən birində deyilir ki, 1231-ci il fevralın 23-də Bahəddin Vələd dünyasını dəyib. Həmin gecə ustadı Seyyid Burhanəddin yuxusuna girib və ona deyib: "Mənim

Cəlaləddinimi yalnız buraxmayasan". Yuxudan ayılan Seyyid Burhanəddin bir neçə dostu ilə Anadoluya getməyi qərarlaşdırıb, Kayseri şəhərinə gəlib. Bir müddət burada qalıb. Onun biliyi, davranışı haqqında söhbətlər şəhərə yayılıb. Şəhərin hakimi Sahib İsfahani onu evinə dəvət edib, bir müddət əziz qonaq, dəyərli alim kimi evində saxlayıb.

Ustadının vəfatından bir il sonra Konyaya gəlib çıxan Seyyid Burhanəddin Sincari məscidində qalıb. Oradan Larendə olan Cəlaləddin Rumiyə məktub yazıb ki, Konyaya gəlsin. Atabəyinin məktubunu alıb Konyaya gələn və burada yaşamağa başlayan Cəlaləddin Rumi ondan islam elmlərini öyrənib.

Mövləvi qaynaqları onu vəlilərin və gerçəyi axtaranların tacı, təmiz və arif kişilərin özü, arın tacı, kəşf və sirlər sahibi, mərifətdə coşğun dəniz və b. epitetlərlə öyüb. Gerçəkləri yaxşı araşdırıb incələdiyinə, insanların qəlbindən keçən sirləri bildiyinə görə ona "Seyyidi-sirdan" ləqəbi verilib.

Alimin günümüzə kimi gəlib çatan əsərini çox vaxt "Maarif" adlandırıblar. Əslində, maarif böyük sufilərin, din alimlərinin söhbətləri, oxuduqları mühazirələr əsasında toplanıb, qələmə alınmış əsərlərə verilən addır. Mövlanə Cəlaləddin Rumi Seyyid Burhanəddinin "Maarif" əsərindən söz açarkən onun bir başlanğıcdan ("önsöz"dən), 61 bölümdən ibarət olduğunu yazıb.

Mövləvi qaynaqlarında öyülən Seyyid Burhanəddinin fikirləri şəriət alimlərini razı salmayıb. Aralarında ziddiyyət dərinləşdiyindən Konyadan Kayseriyə gedərək ömrünün sonuna kimi orada yaşayıb. 1244-cü ildə dünyasını dəyişən Seyyid Burhanəddin Kayseridə ehtiramla dəfn edilib, qəbri üzərində türbə ucaldılıb. Bu gün də onun türbəsi ziyarətgahdır.

Termezdə baxşı-aşıq sənəti festivalı

Özbəkistanın ən güney nöqtəsindəki Termez şəhərində Birinci Beynəlxalq Baxşı (Aşıq-Ozan) Festivalı keçiriləcəkdi. Əfqanıstanın sərhəddində yerləşən bu şəhər keçmiş SSRİ-nin də son güney nöqtəsi sayılırdı. Mən də simpoziumda məruzə etməyə dəvət edilmişdim. Məruzə yazmağa həvəsim olmadığına və yolun uzaqlığına görə getmək istəmirdim.

Özbəkistanda və Türkiyədə keçirilən simpoziumlarda bir neçə dəfə görüşüb söhbət etdiyim Jabbar Eşenkul zəng vurdu. Dedi ki, siz elmi məqalələrinizdə və məruzələrinizdə dəfələrlə vurğulayıbsınız ki, Özbəkistandan toplanmış“Goroğlu” dastanı ilə Azərbaycandan toplanmış “Koroğlu” dastanı mövzuca bir-birinə yaxın olsa da, Sovet dövründə araşdırıcılar əsas diqqəti bu dastanlar arasındakı fərqə yönəldib.



Şəkildə: Termez şəhərində 2019-cu il aprelin 5-10-da keçirilən Birinci Xalqlararası Baxşı (Aşıq-Ozan) Festivalının iştirakçılarından – soldan: Özbəkistan Elmlər Akademiyası Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutunun keçmiş direktoru, akademik Törə Mirzoyev, AMEA Folklor İnstitutu Xarici Əlaqələr bölməsinin müdiri Əli Şamil, Koreyadakı Dondoq Qızlar Universitetinin professoru, Avrasiya Türk Araşdırmaları İnstitutunun rəhbəri Eunkyung Oh, Özbəkistan Respublikasının Mədəniyyət Naziri Baxtiyar Sayfullayev, Türkiyənin İzmir şəhərindən folklorçu, professor Fikrət Türkmən və mədəniyyət nazirinin köməkçisi .

Sizin Xarəzm dastanları, baxşı-aşıqlar haqqında söylədiyiniz fikirlər mənim ürəyimcədir. Xahiş edirəm, bu mövzuda bir məqalə göndərin və simpoziuma

gəlin. Qoy özbək araşdırıcıları da sizin fikirlərinizlə tanış olsun və fikir mübadiləsi etsin. Jabbar bəy telefonla danışmaqla yetinmədi, emaillə geniş bir məktub da yazdı.

Jabbar Eşenkulun sözünü yerə salmadım. "Azərbaycan və Xarəzm dastanlarının formalaşmasında ozan-baxşı-aşıqların rolu" adlı məruzə hazırladım. Qəribəsi bu idi ki, simpoziuma məruzələrin özbək, ingilis, rus dillərində göndərilməsi istənilirdi. Bakıda məqaləmi rus və ingilis dillərinə çevirtdirə bilərdim; lakin məqaləmi Daşkəndə – Qulu Kəngərliyə göndərdim, xahiş etdim ki, özbəkcəyə çevirtdirsin. Sağ olsun Qulu bəy, qısa müddətdə məqaləmi özbəkcəyə çevirtdirdi. Beləcə, Termezdə məqaləmi özbəkcə oxumağıma imkan yarandı.

Surxandərya vilayəti

Özbəkistan 12 vilayətə bölünür. Onlardan biri də mərkəzi Termez olan Surxandərya vilayətidir. Əfqanıstan sərhəddindəki bu şəhər, qaynaqlarda Tirmiz, Termiz, Türmiz, Teremez kimi yazılıb. Amudərya (Ceyhun) ilə Surxandəryanın qovuşduğu yerdə salınmış şəhərin adının Makedoniyalı İsgəndərin orduları tərəfindən verildiyi söylənilir. Araşdırıcıların bəziləri şəhərin adının yunanların "termos" – yəni "isti yer" sözündən yarandığını yazır. Bəziləri də Baktriya dilindəki "su kənarındakı qala, liman" anlamını verən

“taramastha” sözündən yarandığını, sonra dəyişikliyə uğrayaraq, demetrias, taramata, tarameta, tarmid, tarmiç şəkilini aldığı qənaətindədir.

Termez qədim mədəniyyətlərin beşiyidir. Bütpərəslik məbədləri hələ də qalır. Arxeoloq Bahodir Turqunova görə buddizm bölgəyə Hindistandan gəlmiş və buradan Çinə, Koreyaya, Yaponiyaya yayılmışdır.

Müsəlmanlar bu yerləri fəth etdikdən sonra isə mədəniyyətlərin kəsişmə nöqtəsində yerləşdiyinə görə sufizm sürətlə inkişaf edib.



Şəkildə: Termez şəhərində 2019-cu il aprelin 5-dən 10-dək keçirilən Birinci Xalqlarası Baxşı Festivalının iştirakçılarından bir qrupu Özbəkistanın ən qədim abidələrindən Fayaz təpə Budda məbədində

Ruslar buranı işğal edəndən sonra Hindistana yol açdıqlarını düşünüb. Ona görə də şəhəri hərbi düşərgəyə çeviriblər. Rus işğalına kimi bu yerlər, eləcə də indiki Əfqanıstanın böyük bir parçası Güney Türküstan adlandırılıb. Əfqanıstanın işğalı dövründə isə Sovetlər burada 100 minlik ordu saxlayıb.

Son illər Termezin abadlaşdırılmasına Özbəkistan hökuməti xüsusi diqqət yetirir. Hazırda Termezdə 150 min nəfərə yaxın insan yaşayır.

Dostlarla görüş

Daşkənddə qalmağa, oradakı dostlarla görüşməyə imkanımız olmadı. Təyyarədən enən kimi bizi şəhərin ikinci hava limanına apardılar. Oradan da Termezə yola saldılar. Termezdə yeni beynəlxalq hava limanı istifadəyə verilib. Kiçik şəhər arı yuvasını xatırladırdı. Buraya 76 ölkədən 300-ə yaxın alim, musiqiçi, sənət adamı dəvət edilmişdi. Şəhər parkında isə ölkənin 12 vilayətindən gəlmiş mədəniyyət işçiləri üçün sahə ayrılmışdı. Onlar istehsal etdiləri məhsulları, eləcə də sənətkarların məharətini nümayiş etdirirdi. Burada ölkənin etnoqrafiyası ilə yaxından tanış olmaq mümkün idi. Kəndirbazlar, pəhlivanlar, oxatanlar, musiqiçilər, çini ustaları, çörək bişirənlər, xalça və kilim toxuyanlar, keçə atanlar və b. peşə ustaları məharətlərini nümayiş etdirirdilər. Şəhər əhalisi də böyük maraq və həvəslə

axın-axın onlara baxmağa gəlirdi. Necə deyərlər, bir bayram havası hakim idi.



Şəkildə: Özbəkistan Konservatoriyasının tələbəsi Balabəy Niyazov, qaqauz şairi Todur Zanet, baxşı aşıq Atamurad Matyakulov, Əli Şamil, İzmirdəki Ege Universitetinin professorları Metin Ekici və Fikrət Türkmən

Biz qaldığımız hoteldə mədəniyyət naziri və bir iki məmuru çıxmaqla, yerlilərdən heç kim yox idi. Hamısı xarici ölkələrdən gələn alimlərdi. Tanıdığım özbək alimlərini görmək istədim. Dedilər, başqa hoteldədirlər. Sabah simpozium keçiriləcək salonda görüşəcəksiniz.

Simpoziumlarda görüşüb tanış olduğum qazax Şakir İbrayevlə, Anarbay Buldubayla, qırğız Abdullajan Akmataliyevlə, Jıldız Orezebekova ilə, qaqauz şairi Todur Zanetlə, türkiyəli Fikrət Türkmən və Metin

Ekici ilə, başqırd Gülnar Yuldıbayeva ilə, buryat Yevgeni Kuzmina ilə, Koreyadakı Dondoq Qızlar Universitetinin professoru, Avrasiya Türk Araşdırmaları İnstitutunun rəhbəri Eunkyung Ohla, eləcə də internetlə yazışmalardan bir-birimizi tanıdığımız saxalı professor Vasiliy İllarianovla görüşüb, hal-əhval tutduq.



Şəkildə: Koreyadakı Dondoq Qızlar Universitetinin professoru, Avrasiya Türk Araşdırmaları İnstitutunun rəhbəri Eunkyung Oh və Əli Şamil

Bu söhbətlər, bir növ, son dövr yaradıcılığımız haqqında hesabat və bir-birimizə kitab bağışlamaqla keçdi.

Azərbaycandan gedən Dünya Gənc Türk Yazarlar Birliyi Məsləhət Şurasının başqanı Əkbər Qoşalı adını çəkdiyim alimlərin çoxu ilə şəxsi tanışlığı olmasa da,

özünü onların arasında “yad” hiss etmirdi; mən isə əksinə, Əkbər bəyin ətrafına toplaşan, onu gah universitetə, gah da başqa toplantılara aparan yeni nəsil özbək şair və yazıçılarının arasında özümü “yad” hiss edirdim. Demək olar, heç birini tanımadığımdan, yazılarını oxumadığımdan utanırdım.

Aprelin 6-da başlayan simpoziumda özbək alimlərindən akademik Törə Mirzoyevlə, folklorçu professorlardan Şomirza Turdumovla, Mamatkul Jurayevlə, Jabbor Eşenkulla, musiqişünas Rüstembek Abdullayevlə və başqaları ilə qeydiyyat başa çatanadək xeyli söhbət etdik. Gözüm Ürgənc Universitetinin professoru Safarboy Ruzimboyevi axtarırdı. Proqramda adı vardı. Gəlməyəcəyini biləndə üzüldüm. Onun iş yoldaşı və keçmiş tələbəsi Sanat Sarıyevdən niyə gəlmədiyini soruşanda dedi ki, yaşlanıb, xəstədir.

Gənc özbək alimlərinin mənimlə köhnə tanışlar kimi davranmalarına, mehribanlıq göstərmələrinə çaşmışdım. Onları tanımadığımı söylədikdə bildirdilər ki, sizin Mamatkula, Şomirzəyə, Jabbora, Törə ağaya göndərdiyiniz simpozium dəvətlərindən, bağışladığınız kitablardan tanıyırıq. Ustadlarımız biz gənclərə verir və deyirlər ki, yararlanaq. Bağışladığınız kitabları oxuyub qaynaq göstərir, göndərdiyiniz simpozium dəvətlərindən seçib mövzumuza uyğun olanlarına gedirik. Birlikdə şəkil çəkdirdilər, e-maillərini verdilər ki, simpozium dəvətlərini, nəşr etdirdiyimiz kitabları birbaşa onlara göndərim. Vəd verdim ki, göndərəcəyəm. Gələn kimi

onların adlarını da siyahıya daxil etdim ki, simpozium dəvətlərini, kitabları göndərim. Amma heç birinin adı yadımda qalmadı. Kitablarını bağışlasaydılar yəqin ki, yolboyu oxuyardım, diqqətiçəkən fikirləri olsa, yadımda qalardılar...

Simpoziumun gedişi

Özbəkistan prezidenti Şavkat Mirziyoyevin 2018-ci ilin noyabr ayında verdiyi sərəncam və YUNESKO, eləcə də İslam Əməkdaşlıq Təşkilatının iştirakı ilə keçirilən toplantıya böyük vəsait xərclən-diyi hər addımda hiss edilirdi. Şəhərin görünüşü tamamilə yenilənmişdi. Hər yerdə yeni əkilmiş gül-çiçək, yeni salınmış asfalt, təzə meydan və bağçalar göz oxşayırdı.

Bizə verilmiş çantalar da çox ağır idi. Onları ağırlaşdıran içərisindəki yüksək keyfiyyətli kağızdan hazırlanmış kitablar idi. Özbək baxşılarından gözəl bilgi verən kitablar sanki oxumaq üçün deyil, bəzək üçün hazırlanmışdı. Yüksək keyfiyyətli rəngli şəkillər, karton cild və üzlüyü göz oxşayırdı. Kitabların tirajını və keyfiyyətini gözdən keçirdikcə elə bil beynimdə bir hesablayıcı maşın işləyirdi. Hesabladım ki, bu kitabın birinin xərcinə oxunaqlı, daha çox bilgi verən 5 cildli ensiklopediya nəşr etmək olardı.

Termez şəhəri sanki yenidən qurulmuşdu. Bu qədər böyük işlər görülməsinə baxmayaraq, prezident

vilayətin hakimini biz oraya getməmişdən bir neçə gün öncə işdən azad etmişdi. Yəqin, görülmüş işlər onu qane etməmişdi.

Festivalda iştirak edəcək musiqi kollektivlərinin çoxu hələ gəlməmişdi. Aprelin 6-da elmi simpozium öz işinə başladı. Qeydiyyat zamanı bizə verilən qovluqdan ilk çıxarıb gözdən keçirdiyim simpoziumun proqramı oldu. Sovet dövründə hazırlanan proqramlara bənzəyirdi. Salona daxil olduqda isə başqa bir mənzərənin şahidi oldum. Müasir avadanlıqlarla təchiz olunmuş salonda toplantı keçirilməsi üçün gərəkən ortam vardı. Toplantını Özbəkistan Respublikasının Mədəniyyət naziri Baxtiyar Sayfullayev açdı. Onun çıxışında prezidentin şərəfinə öncələr gördüyüm tərif yağdırmaqdan, alqışlardan əsər-əlamət yox idi. Bu da məni, eləcə də qonaqları çox razı saldı. Salondakılar pıçıltı ilə də olsa fikirlərini bir-birilə bölüşürdü.

Sonra araşdırıcılara söz verildi. Burada məşhur "Qəribi ağlamaq tutdu" deyimimiz yadıma düşdü. Proqramda kimin nə vaxt, neçə dəqiqə danışacağı göstərilmədiyi kimi, toplantıda reqlament də gözlənilmədi. Sovet dövrünün elmi konfransları kimi son məruzəçilərə 3-5 dəqiqəyə fikirlərini çatdırmağa "imkan yaradıldı". Adətən, belə hallarda toplantını aparanlar vəziyyətdən çıxmaq üçün "Məruzələr çap olunub, oradan oxuyarsınız" deməklə vəziyyətdən çıxmağa çalışırlar.



Şəkildə: Başqırd professor Gülnar Yıldıbayeva, Əli Şamil, Özbəkistan Elmlər Akademiyası Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutunun arxiv müdiri, filologiya üzrə fəlsəfə doktoru Latifa Xudoyqulova, Özbəkistan Elmlər Akademiyası Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutunun Folklor şöbəsinin müdiri Mamatkul Jurayev.

Bu dəfə onu deməyə də imkan yox idi. Çünki məruzələr deyil, bir səhifəlik özətlər çap edilmişdi. Simpoziumda məruzələr dinlənilib müzakirə etməkdən çox araşdırıcıların bir-biri ilə dərdləşməsinə, söhbətləşməsinə şərait yaradılmışdır. Bu cür toplantılardan çıxan nəticə budur: Bir-birinizi tanıdınız, məruzələrinizin adı proqramda var; bundan sonra fasilələrdə, avtobusla gəzintiyə gedəndə, süfrə arxasında, axşam dincəlmə saatlarında maraqlandığınız mövzuları müzakirə edin.



Şəkildə: Əli Şamil məruzəsini oxuyarkən

Simpoziumda adətən elmi məruzələr dinlənilir və müzakirə edilir. Termezdəki simpoziumda bir fərqlilik də o oldu ki, 92 yaşlı aşıq-baxşı Atamurad Matyakulova da şərait yaratdılar "Aşıq Qərib" dastanından bir parça oxusun. Xarəzm türkmənlərindən olan bu sənətkarla 12 il öncə Ürgəncdə ayaqüstü görüşmüşdük. Yaddaşının itiliyinə heyran qaldım, adımı xatırlamasa da, Azərbaycandan olduğumu, "Koroğlu" simpoziumu düzənləmək üçün Özbəkistana, Türkmənistana səfər etdiyimi xatırladı. Bizi tanış edən özbək professoru Jumaboay Yusupova rəhmət oxudu. "Aşıq Qərib" dastanından bir mahnı oxuyanda da gördüm, səsinin təravətini qoruyub saxlaya bilib.

Gəldiyim nəticə bu oldu ki, avadanlıqları yeniləmək, binaların görünüşünü dəyişmək, insanlar üçün rahatlıq yaratmaq daha asandır, nəinki onların

davranışını, düşüncəsini dəyişmək. Odur ki, ciddi elmi müzakirədən çox, gözəl gəzintinin, Termezin reklamının şahidi oldum.

Məruzələr özbək, rus, ingilis dillərində oxunurdu. Əkbər Qoşalı ilə mən məruzələrimizi dostların köməyi ilə özbək dilinə uyğunlaşdırdığımızdan, bacardığımız qədər, özbək dilində çıxış etməyə çalışdıq. Salondakıların reaksiyasından hiss olunurdu ki, özbəklərin çoxu bizim bu hərəkətimizdən razı qalıb.

Axşam yeməyində Törə Mirzoyev məni öz masalarına dəvət etdi. Onunla tanışlığımızın tarixi 20 ili keçir, dəfələrlə görüşmüşük. Açığı, söhbətlərimizin alınmadığı, umu-küsü etdiyimiz vaxtlar da olub. Bolu şəhərindəki A.Baysal Universiteti ilə birgə keçirəcəyimiz "Birinci Uluslararası Koroğlu simpoziumu"nda onun başçılıq edəcəyi institutu da təşkilatçılar siyahısına daxil etmişdik.

Mənim vasitəçiliyimlə planlaşdırılmış simpoziuma hazırlıq yaxşı gedirdi, Özbəkistandan simpoziuma gedəcək alimlər üçün hotel tutulmuş, uçaq bileti alınmışdı. Törə Mirzoyev sonralar dedi ki, Xarici İşlər Nazirliyi getmələrinə icazə verməyib. Mən pis vəziyyətdə qalmışdım.

Bir neçə dəfə planlaşdırılmasına razılıq verib, sonra sözlərindən dönmüşdülər. Mən buna görə onlardan çox incimirdim. Bilirdim ki, alimlər böyük həvəslə əlaqələrin möhkəmlənməsinə can atır; lakin

hökumətdəki məmurların qorxusundan qəti addım ata bilmirlər.

Süfrə arxasında oturarkən Törə Mirzoyev dedi ki, siz Azərbaycanlılar yenə də yaxşı bir addım atdınız. Məruzələrinizi özbək dilində oxumanız bizim rus-dillilərə sərt bir şillə oldu.

Fayaz təpə Budda məbədi

Özbəkistanda Buddistlərin iki məbədi məşhurdu. Biri miladdan öncə 2-4-cü yüzillərdə tikilmiş Qara təpə məbədidir. O, Kaşkadərya vilayətindədir. İkincisi isə miladdan öncə 1-3-cü yüzilikdə tikilmiş Fayaz təpə məbədidir. Aprelin 7-də, səhər yeməyindən sonra ilk işimiz Fayaz təpə məbədinə getmək oldu. Bomboz çölün ortasındakı möhrədən tikilmiş alçaq məbəd qı-raqdan diqqəti o qədər də çəkmir; buna baxmayaraq, axın-axın turist gəlir, baxır, şəkil çəkdirir. Son zamanlar burada xeyli təmir – abadlıq işləri görüldüyü gözə çarpır.

Termez şəhərinin yaxınlığındakı Fayaz təpə Budda məbədinin möhrədən hazırlanmış kiçik binasının günümüzə gəlib çıxmasına təəccüb qaldım. Dağıdıcı zəlzələlər, yağış-qar bişmiş kərpicdən tikilmiş binaları yer üzündən sildiyi halda möhrədən tikilmiş məbəd sağ-salamat qalmışdı. Bələdçi məbəd haqqında ilhamla danışırdı. Sanki demək istəyirdi: “Baxın ha, müsəlman olsaq da, buddist və xristianlıq

məbədlərini, islam abidələrindən daha yaxşı qoruyub saxlamışıq". Bizim turistlərə "Atəşgah"da dediklərimiz yadıma düşdü. Qəribəsi bu idi ki, müsəlman olduqlarını söyləyən bələdçilər sufi alimlərin türbələrində belə coşğunluq və həvəslə danışmırdı.

Taşkul Cumayev: Siz bizim qardaşımızsınız

Axşamüstü hotelin qarşısında söhbət edirdik. Milli geyimdə, arıq, ucaboy bir özbək bizə yaxınlaşdı. Mehribancasına hamımızla əl verib görüşdü və kimin hansı ölkədən gəldiyi ilə maraqlandı. Biz də onu eyni səmimiyyətlə qarşılasaq da, bir ayrımçılıq da oldu. Türkiyədən, Tatarıstandan, Tuvadan, Başqırdıstandan, Qaqauz yerindən gələnlərlə qarşılaşan qoca, mənim və Əkbər Qoşalının Azərbaycandan gəldiyini eşidəndə təkrar görüşdü və bərkdən "Siz bizim qardaşımızsınız" deyib qucaqladı. Onun bu sözünə nə Türkiyədən, nə də başqa türk respublikalarından gələnlər qısqanclıqla yanaşmadı, çox normal qarşıladılar.

Azərbaycanlılara xüsusi diqqət göstərən qocanın haralı olduğu və adı, soyadı ilə maraqlandım. Adı və soyadı Taşkul Cumayev olan ağsaqqalla ayaqüstü söhbətdən öyrəndim ki, Qaraqalpaq Muxtar Vilayətindəki Komrat rayonundandır, baxşı-aşıq kimi festivala qatılıb. Birgə şəkil çəkdirdik. Vizit kartı yanında olmadığını bildirdi və telefon nömrəsini, ünvanını və e-mailini yazıb, mənə verdi. Ayrılanda

xahiş etdi ki, Bakıya çatanda onun e-mailinə məktub yazım. Yaşı 80-i haqlamş qoca baxşı-aşığın e-maildən istifadə etməsinə çox sevindim.



Şəkildə soldan: Əkbər Qoşalı,
Taşkul Cumayev və Əli Şamil

Metin Ekici “Kitabi-Dədə Qorqud” dastanının yeni boyu haqqında

Günün proqramı başa çatandan sonrakı sərbəst vaxtda Metin Ekiçi ilə mən Əkbər Qoşalının otağında onun gətirdiyi Azərbaycan şərabı ilə Özbəkistanın badamını, püstəsini ortaya qoyub, necə deyərlər, “gəlmişdən, getmişdən” söhbətə başladıq. Metin Ekicinin tələbələrindən biri İranda “Koroğlu” dastanı

haqqında doktorluq dissertasiyası yazdığını, mənim nəşr etdirdiyim “Koroğlu” dastanı (Əli Kamali arxivindəki variant) kitabından qaynaq kimi istifadə etdiyini söylədi və bölgədə dastan söyləyən aşıqların durumu ilə maraqlandı.

Heyifsiləndim ki, doktoraluq dissertasiyasını oxumamışam. Mənim Qaşqaylar yaşayan bölgədəki Gəc Koroğlu şəhərində Koroğlunun qəbrinin olması haqqında eşitdiklərim və Eyvaz haqqında ayrıca dastan olduğu, sonra Koroğlu dastanı ilə birləşdirildiyi fikrim Metin Ekicinin diqqətini çəkdi. Razılaşdıq ki, qaşqay gənclərindən birinə bu mövzuda dissertasiya yazdıraq.

Məni isə daha çox maraqlandıran Metin Ekicinin və M.Ocal Oğuzun YUNESKO-dakı fəaliyyətləri idi. O, həvəslə ermənilərin lavaşı YUNESKO-ya özlərinin mədəniyyətlərinin bir hissəsi kimi təqdim etmələrindən sonra baş verənləri danışdı. Türk xalqlarının həyatı üçün mühüm əhəmiyyət daşıyan lavaş, yuxa haqqında yeni layihə hazırlayıb YUNESKO-ya təqdim edərkən İran İslam Respublikasının Parisdəki səfirliyinin işçisi ilə aralarında olan qarşıdurmadan söz açarkən ürək ağrısı ilə bildirdi ki, milliyyətcə Azərbaycan türklərindən olan bu manqurt işə necə əngəl olmaq istəyirmiş.

Metin bəy dedi ki, məni özümdən o qədər çıxardı ki, onu döymək səviyyəsinə gəldim. Yaxşı ki, M.Ocal Oğuzun səbirli davranması və diplomatık gedişi işləri yoluna qoydu. Özünün “iranlı”lığı ilə qürurlanan

Azərbaycan türkünü komissiyanın tərkibindən uzaqlaşdırdı. Beləcə, YUNESKO-da yuxa-lavaş köçəri türk mədəniyyətinin nümunəsi kimi qəbul olundu.

Söhbət əsasında Metin bəy məndən İranın Türkmənsəhra bölgəsində yaşayanları necə tanıdığımla maraqlandı. Tanıdığım alimlərin, musiqiçilərin adını çəkdim. O, Vəliməhəmmədi soruşdu. Mən elə bir alim, araşdırıcı-ziyalını tanımadığımı söylədim. Metin bəy dedi ki, 2019-cu ilin martında Qazaxıstanın Manqışlaq bölgəsində keçirilən bir simpoziumda olarkən mənə bir əlyazmanın skayn edilmiş surətini verdilər. Vaxt dar olduğundan əlyazmanı diqqətlə incələyə bilmədim. Əlyazmada Salur Qazanın yeddibaşlı əjdahanı öldürməsindən söhbət gedir. Mətnin dili Azərbaycan türkcəsinə yaxın olmaqla yanaşı, orada Azərbaycandakı toponimlər də çoxluq təşkil edir.

Bu xəbər məni də bərk sevindirdi. Çünki "Kitabi-Dədə Qorqud"da Salur Qazanı öyərkən onun yeddibaşlı əjdahanı öldürdüyü də deyilir; lakin yeddibaşlı əjdahanı necə öldürdüyündən söz açılmır.

Metin Ekici Türkiyəyə döndükdən sonra Bayburtda keçirilən simpoziumda bu mövzuda bir məruzə etdi. Bununla da müzakirə, mübahisələr başlamış oldu. Qısa bir zamanda Vəliməhəmməd Xocada olan nüsxənin Türkiyədə üç oxunuşu nəşr edildi.

Hakem ət-Tirmizi parkının tikanlı məftilləri

Səhəri gün bızım qatılmamız vacib olan rəsmi toplantı yox idi. Qonaqları şəhər və onun tarixi yerləri ilə tanış edəcəkdilər.

Festivalın rəsmi açılışı olsa da, şəhərdə hələ də təmir-tikinti işləri gedirdi. Yollar genişləndirilmiş, yeni asfalt salınmış, küçə və meydanlara təzə çiçəklər əkilmişdi. Meydan və parklar zövqlə toxunmuş əlvan bir xalını xatırladırdı.

İnsanlar işsizliyi, qıtlığı, təqib və təzyiqləri elə bil unutmuşdu. Şəhərdə yaşayanlar və kənardan gələnlər əsasən günortadan sonra gəzintiyə çıxırdı. Ailələri ilə birlikdə sevinc içərisində meydanları, parkları gəzir, şəhərə təzə gətirilmiş yanları açıq, kiçik elektrik avtomobilləri ilə şəhərin bu başından o başına gedirdilər. Özbəkistanın ayrı-ayrı viayətlərindən göndərilmiş, axşamlar sərgilər təşkil edən, parklarda onlar üçün ayrılmış yerlərdə çalıb-oxuyan, yaşadıqları bölgənin məhsullarını sərgiləyənlər də gündüzlər termezlilərə qoşulur, şəhəri gəzib-dolanırdı.

Qonaqları Hakem ət-Tirmizinin məzarı olan parkla tanış etməyə gətirdilər. Sufi filosofun məzarı, qəbirüstü movzeleyi, ətrafında salınmış park təmirdən yenicə çıxmışdı. Parkın güney tərəfi tikanlı məftillərlə bağlanmışdı. Özbəkistanı Əfqanıstandan ayıran çay parkdan aydın görünürdü. Başa düşdüm ki, bu tikanlı

məftillər park üçün çəkilməyib, sərhəddi "qorumaq" üçün çəkilib.

Çayın o tayında görünən Əfqanıstanın kəndləri idi. Özümdən asılı olmayaraq tikanlı məftillərə yaxınlaşdım. Onu tutub silkələməyə başladım. Bizimlə gəzən şəhər hakiminin müavini həyəcanla bildirdi ki, bu sərhəd məftilləridir, ona toxunmaq olmaz. Onların belə həyəcanlanmasını görən Todur Zanet zarafata salaraq gülə-gülə dedi: "Sərhəd məftilləri görəndə bunun tutması tutur. 1989-cu ildə bunlar iki Azərbaycanı bir-biridən ayıran Araz çayı boyundakı tikanlı məftilləri sökdülər, sərhəd qurğularını dağıtdılar. İndi də Özbəkistandakı özbəklərlə, Əfqanıstandakı özbəklər arasında çəkilmiş tikanlı məftilləri qırmaq istəyir. Əli bəy onda Naxçıvanda Xalq Cəbhəsinin fəallarından idi. Tikanlı məftilləri sökmək üçün təbliğat aparır, mitinqlər təşkil edirdi". Todur Zanetin bu təqdimatına görəmi, yoxsa qonaq olduğumuzdanmı mənə bir söz demədilər. Yaxınlıqdakı müşahidə qülləsindəki əsgər isə telefonla danışırdı. Görünür, rəhbərliyə məlumat verirdi.

Todur Zanetlə birlikdə səfər

Termezlə tanışlıq proqramı başa çatdı. Axşamkı toplantıya isə 5-6 saata yaxın vaxt qalırdı. Todur Zanet təklif etdi ki, gedib hoteldə oturmaqdan, yatmaqdansa şəhər ətrafındakı Sultan Səadət movzeleyinə, Qırxqız

qalasına və b. tarixi yerlərə baxmağa gedək. Onun bu təklifi mənim də ürəyimdən oldu.

Todur Zanetin Termez şəhər hakiminin müavini ilə tanışlığı, xoş münasibətləri vardı. İstəyimizi şəhər hakiminin müavininə dedi. Sağ olsun, özü bizi həmin yerlərə aparıb gəzdirəcəyinə söz verdi. Telefonla kiminləsə danışdıqdan sonra üzrxahlıq etdi. Ona rəhbərlik yeni tapşırıq verdiyinə görə bizimlə gedə bilməyəcəyini söylədi. Amma xidməti maşınını bizim üçün ayırdı. Todur Zanet ona təhkim edilmiş, tələbə qızı da yanımıza alıb Termez ətrafı tarixi abidələri görməyə yollandıq.

Özbəkistandakı dindarların çoxu sünnü olsa da, Azərbaycan müsəlmanları kimi seyidlərin qəbrinə sayğı ilə yanaşır, oraya ziyarətə gedir, nəzir qoyur, üzərində möhtəşəm movzeleylər tikir.

Əfqanıstanın Məzari-Şərif şəhəri Termezdən 60-70 kilometr aralıdadır. Zəvvarlar kəsə yolla oraya bir günə gedirlərmiş. Tarixi qaynaqların verdiyi bilgiyə görə, Məhəmməd peyğəmbərin əmisi oğlu, həm də qızı Fatimənin əri, dördüncü xəlifə Əli Abutalıb oğlu bu yerlərə gəlməyib. Buna baxmayaraq, Məzari-Şərif-də İmam Əlinin məzarı olduğuna inanılır və üzərində nəhəng movzeley, yaxınlığında məscid, mədrəsə və b. binalar tikilib. Şəhər də bu dini kompleksə gələn ziyarətçilərə görə böyüyüb. Hər il yüz minlərlə insan buraya ziyarətə gəlir. Şəhər adını da şərəfli məzar sözündən alıb.

Todur Zanet xristian olsa da, Sovetlərin ateist mühitində böyüsə də, həmişə seyidlərin, müsəlman din xadimlərinin məzarını ziyarətə həvəslə getdiyinin şahidi olmuşam. Onun müsəlmanlığı qəbul etməyəcəyini də yaxşı bilirəm. Buna görə də zarafata salıb sual etdim ki, "Todur, Termezdə seyidlərin qəbirlərini ziyarət etmək istəyi səndə haradan yarandı? – Hələ mənə də getməyi sən təklif etdin". Dedi ki, "*məzarda yatanların hamısının Həzrət Əlinin nəslindən, imam Hüseyinin törəmələri olduğuna o qədər də inanmıram. Oxuduğum qaynaqlar dolaşıqdır. Dəqiq bildiyim odur ki, məzarlarda dəfn edilənlər dövrünün böyük sufiləri olub. Buddizmin, Xristianlığın mövcud olduğu bir zamanda mühafizəkar islamçılar burada uğur qazana bilməzdi. Sufilərin şəriəti deyil, mənəviyyatı önə çəkmələri, əxlaqları və davranışları onları hamının sevimlisinə çevirib.*

Xalq yüz illərdir onların məzarını ziyarətə gəlirsə, Sovet rejimi toplumun bu istəyinin qarşısını ala bilməyibsə, biz yaranmış imkandan niyə istifadə etməyək? Həm də getdiyimiz yerlərdə gözəl memarlıq abidələri var. Yüz illərin sınağından çıxmış abidələri görməyin özü də bir savabdır.".

Mən Todur Zaneti çılğın, dəliqanlı, savaşqan bir şair kimi tanıyırdım. Onun belə məntiqli və hissiyyatlı danışmasına xeyli təsirləndim.

Biz qrupdan ayrılıb 11-ci yüzildə yaşamış Sultan Sadatın movzeleyinə doğru yola çıxdıq. Yarım

saatdan çox yol getdik. Yollar geniş, müasir tələblərə uyğun olmasa da, asfaltında yamaq, çala-çuxur da yox idi.

Möhrə divarların xarabalıqları arasından qırmızı kərpicdən tikilmiş, mavi kaşılarla bəzədilmiş, uca və göz oxşayan bir neçə bina kənardan diqqət çəkir. Xarabalıqlar buranın vaxtilə abad bir yaşayış məskəni olduğundan xəbər verir. Ətrafda yaşıllıq da gözə dəymir. Susuz yerdə insanlar belə böyük yaşayış məskəni salmazdı. Görünür, bu yerlərdə öncələr çoxlu kəhriz, su quyusu olub. Sonralar zəlzələlərdən, ya da savaşların doğurduğu dağıntılardan məhv olub. Bəlkə də vaxtı ilə buraya Surxandərya çayından su kanalı çəkiblərmiş.



Şəkildə: Qaqauz şairi Todur Zanetlə Sultan Sadatın movzeleyinin önündə

Köhnə yaşayış məskəninin uçub tökülmüş möhrə divarları arasında son illərdə təmir olunmuş movzeley kompleksi olduqca əzəmətli görünür. Çöldə isti hava adamı təntitsə də, məscidə girəndə, yaxud qəbir olan uca türbəyə, ətrafdakı yardımçı binalara daxil olanda sərinlik adamın canına yağ kimi yayılır. Abidələr nə qədər gözəl və baxımlı olsa da, tanıdılmasına diqqət yetirilmədiyindən gəlib-gedən azdı. Onların da çoxu dindardı. Azərbaycanda, Türkiyədə gördüklərimin Özbəkistanda da şahidi oldum. Gələn qonaqları budda, xristianlıq, atəşpərəstlik və b. məbədlərə aparmağı planlaşdırdıqları halda memarlıq baxımından onlardan heç də geri qalmayan islam abidələrinə, islam alimlərinin və müqəddəslərinin məzarlarına aparılması turist proqramlarında olmur.

Sultan Sadatın movzeleyində ətrafda işləyən, oraların təmizliyinə baxan bir neçə işçidən başqa kimsə gözə dəymirdi. Soltan Sadatla bağlı nə bir kitab, nə bir büklet, nə də almağa bir hədiyyəlik vardı. Divarda kiçik bir lövhə vardı ki, orada da Soltan Sadat haqqında qısa bilgi verilirdi.

Ziyarətgah kompleksindən günümüzə üç bina gəlib çıxıb. Sultan Sadatın və onun müridlərinin qəbiri olan bina, ziyarətə gələnlərin namaz qılması üçün tikilmiş əzəmətli və gözoxşayan məscid, bir də insanların gecələməsi, yağışdan-qardan qorunması üçün tikilmiş bina.



Şəkildə: Qaqauz şairi Todur Zanetlə Sultan Sadatın məzarı başında

Yaltaqlığı qanunla da aradan qaldırmaq olmur

Termezdə keçirilən toplantıya görə Türkiyəli qardaşlarımız demiş, ciddi güvənlik tədbirləri görülmüşdü. Elə bil Özbəkistanın bütün polislərini Surxandərya vilayətinə göndərmişdilər. Termezdə hər addımda polis görməyə alışmışdıq. Düşünürdüm ki, kənarlarda, yəni vilayətin kənd və qəsəbələrində polis olmaz. Amma yanılmışdım.

Sultan Sadat movzeley-türbəsindən Qırx qız qalasına dönərkən yolüstü Kokuldar ota xanəgahına da ziyarət etdik. Orta yüzillərdə bişmiş qırmızı kərpicdən tikilmiş türbə kənardan diqqəti çəkir. Ətrafdaki çiy

kərpicdən və möhrədən tikilmiş bina qalıqları onu göstərir ki, vaxtilə bura da abad bir yaşayış məskəni olub.

Türbənin girişində və arxa tərəfində iki polis durub söhbət edirdi. Onların sifətindən bir laqeyidlik yağırdı, elə bil səbirsizliklə günün gəlib-keçməsini gözləyirdilər. Biz türbəyə girib "fatihə" vermək istəyəndə, içəridəki – yaşı 60 keçmiş, uzun xalatlı, nazik, ensiz uzun saqqalı, mücöyür bizə yaxınlaşaraq "fatihə"ni bitirməmizi gözləmədən, Şavkat Mirziyayev tərifləməyə başladı.

"Fatihə"ni bitirib, əsəbiliklə ona tərəf döndüm: "Keçən dəfə biz buraya ziyarətə gələndə siz İslam Kərimovu tərifləyirdiniz, indi də Mirziyayevi tərifləyirsiniz. Axı, Şavkat Mirziyayev onu tərifləməyi qadağan edib. Siz prezidentin tapşırığına niyə əməl etmirsiniz?" – dedim. Əslində, mən burada birinci dəfə idi olurdum; necə deyərlər, "yalan verib, doğru almağa" çalışdım. – Alındı da. Mənim qəfil həmləm onu yaman çaşdırdı. Elə çaşqın halda da bizdən uzaqlaşıb, çölə çıxdı.

Todur Zanet qolumu yavaşca sıxaraq dedi: "Sənə nə olub?! Həmişə sən məni sakitləşdirir, qalmaqaldan uzaqlaşdırırsan. Deyəsən, qocaldıqca, səbrin də tükənir. Səhər sərhəd məftillərini silkələyirdin, indi də türbənin işçisinin üstünə hirslənirsən. Özün də yaxşı bilirsən ki, belə yerlərdə, adətən, KQB ilə bağlı adamlar işləyir. İmkan ver səfərimizi sakit başa vuraq.

Görərsən, bir azdan KQB əməkdaşları burada olacaq. Öz qəbahətini ört-basdır etmək üçün, Allah bilir, bu qoca "agent" onlara nə deyəcək, bizi necə təqdim edəcək? "

"Boş ver, bu yaltaqlara dözmək olmur. Ölkə başçısı da yaltaqlığı qadağan edir, amma bunlar xasiyyətlərini tərgitmək istəmir ki, istəmir. Kimə nə xəbər verir-versin. Biz ki ölkənin qanunlarını pozmamışıq. Əksinə, onu qanuna əməl etməyə çağırmışıq", – dedim.

Türbənin arxa tərəfindəki üzüm bağı diqqətimizi çəkdi. Həyətdəki narbənd ağacının kölgəsindəki taxtda oturub bağın quruluşunu müzakirə etdik. Sıra ilə əkilmiş tənəklərin arasındakı yonca, gül kələmi və kartof kolları diqqətimi çəkdi. – Todur Zanetə göstərərək – : "Bizdə tənəklərin arasını traktorla şumlayırlar ki, alaq otu bitməsin, xəstəlik düşməsin. Burada isə ot, tərəvəz və s. əkirlər", dedim. O, bir mütəxəssis kimi izah etməyə başladı: "Biz tərəflərdə də sizdəki kimidir. Hava rütubətli olduğundan tənəklər xəstələnməsin deyə arasını şumlayırlar. Burada isə hava çox qurudur. Həm də arasındakı məsafə bizimkilərdən az qala iki dəfə çoxdu. Ona görə tənəklər xəstəliyə tutulmur".

Türbənin yaxınlığındakı evdən həyətə çıxan orta yaşlı kişi bizi görən kimi yanımıza gəldi. Özbəkcə salam verdi. Haradan gəldiyimizi, kim olduğumuzu xəbər almadan, evinə çay içməyə dəvət etdi. Rastlaşdığımız

özbəklərin çoxu Xarəzm ləhcəsində danışdıqlarından, onları başa düşməyimiz rahat idi. Todurla bir-birimizə baxdıq. Hər ikimizə xoş idi ki, sadə özbək kəndlisinin evinə gedib yaxından tanış olaq, bir stəkan çayını içək. Amma onun başı ağrımasın, sorğu-suala çəkilməsin deyə xahiş etdik ki, həyətdə də durmasın evinə getsin. O da nəsə hiss edib sakitcə evinə getdi.

Biz narbənd ağacının kölgəsində əyləşib dincimizi aldıqdan sonra yola düşməyi planlamışdıq. 5-10 dəqiqə keçməmişdi, Özbəkistanın Güney Koreya ilə birgə istehsal etdiyi minik maşınlarından biri sürətlə türbənin yanına gəldi. Maşnıdan 28-30 yaşlarında, uca boylu, səliqəli geyinmiş, idmançı görkəmində bir gənc endi.

Onun ilk nəzərdən keçirdiyi Termez şəhər Hakimi müavininin maşını oldu. Sonra bizə yaxınlaşıb, salam verdi, gülər üzlə əl uzadıb, görüşdü. Deyəsən, bizi Türkiyəli sandı. Ona görə də Türkiyə türkcəsində danışmağa başladı. Mən "Devlet Havfsızlık Hizmetinde çalışırsınız? (KQB-ni əvəz edən təşkilat – Ə.Ş.) deyəndə, özbəklər sayaq *ovo* deyərək çaşqınlıqla bizə baxdı. Geyimimiz və görünüşümüz özbək olmadığımızın xəbərçisi idi. Mən öncə Todur Zaneti, sonra da özümü təqdim etdim. Ardınca da mücöyürdən gileyimi bildirdim. Prezidentin tapşırıqlarına əməl etmədiyini söylədim. Bayaqdan məni sakitləşdirməyə çalşan Todur Zanet də Türkiyə türkcəsində yaltaqlığın millətin inkişafına vurduğu zərərdən xeyli danışdı və yaltaqları tənqid edən bir şeir də söylədi.

Deyəsən, gəncin də yarasına toxunmuşduq. O da həvəslə bizim söhbətə qoşuldu. Yaltaqlığı, məddahlığı qərarla, fərmanla, sərəncamla adamların canından çıxarmağın mümkün olmadığını söylədi, yaşlı nəsildən gileyləndi. Özbəkistanda yaşlı kadrların gənclərlə əvəzlənməsinin uğurlu nəticələr verəcəyi ümidində olduğunu bildirdi. Bir az duruxduqdan sonra: "*Kadrların gəncləşdirilməsi, heyif ki, dini müəssisələrdə mümkün olmur. Yaşlı dindarlar "Quranı-Kərim"dən çox adətləri, ağızdan-ağıza keçib günümüzə kimi gələn rəvayətləri şəriət, din kimi təbliğ edir*", – dedi.

Saatına baxıb bizi çay içməyə dəvət etdi. Deyəsən, bu yerləri yaxşı tanımırdı. Binanın kölgəsində durub sərinlənən polislərdən kafe-restoranın yerini xəbər aldı. Onlar da burada elə bir yer olmadığını, bunun üçün yaxınlıqdakı qəsəbəyə getməyimizin lazım gələcəyini söylədi. Görünür, bayaq evinə göndərdiyimiz özbəyə maraq güc gəldi, evindən çıxan kimi bizə sarı döndü. Yanımıza gəlib, yeni görürmüş kimi salamlaşdı, evinə çay içməyə dəvət etdi. Biz təşəkkürümüzü bildirdik. O, evinə nə üçün getmək istəmədiyimizi hiss edib, tənəklərinin arasına endi. Böyük bir gül kələmi qoparıb gətirdi. Cibindən çıxardığı bıçaqla təmizləyib, bizə verdi. Dərman vurmadıqlarını, buna görə də yumadan da yeyə biləcəyimizi söylədi.

Biz onlara "vizit kart"larımızı verib, Qırx qız qalasına gedəcəyimizi söylədik. Devlet Havfsızlık

Hizmeti (KQB) işçisi ilə də, ev sahibi ilə də sağollaşıb, yola çıxdıq.

Qırx qız qalası

Özbəklər, Qaraqalpaqlar, Türkmənlər arasında Qırx qız dastanı geniş yayılıb. Rəvayətə görə, bu qala-sarayda yaşamış, cəngavər hökmdar Gulayım, ətrafına topladığı 40 qızla düşmənlə dəfələrlə savaşmışdır. Başçının, cəngavərin ətrafına 40 igidin yığılması süjeti türk dastanlarında geniş yayılıb. Azərbaycan dastanlarıda da bu süjet var, Quzey Qafqaz türklərinin nartlarında da. Azərbaycanlı türkoloq Nizami Tağısoy Qaraqalpaqların "Qırx qız" dastanını dilimizə uyğunlaşdıraraq, nəşr etdirib. "Qırx qız" dastanı haqqında Azərbaycan türkoloqlarının olduqca dəyərli əsərləri də var.

Xalq arasında bu qala-sarayın "Qırx qız" dastanı ilə bağlı olduğu söylənsə də, araşdırıcılar başqa fikirdədir.

Araşdırıcılara görə, 9-10-cu yüzillərdə Samanid hökmdarlarının yay iqamətgahı kimi tikilən binadan sonralar xristianlar monastır, buddistlər məbəd kimi istifadə ediblər. Kvadrat formada tikilmiş qala-sarayın iki qapısı var. Buradan yüklü dəvə rahat keçə bilər. Künclərindəki müdafiə və müşahidə qüllələri



Şəkildə: Qaqauz şairi Todur Zanet, Termez Universitetinin 2 kurs tələbəsi Ayşa Bazarbayeva və Əli Şamil Qırx qız qalası yanında

binanın möhkəm qorunduğundan xəbər verir. Qala-sarayın içərisi dörd bərabər yerə ayrılıb. Ortada künbəzlə örtülmüş 11,5 metr uzunu, elə o qədər də eni olan bir salon, ətrafında isə təxminən eyni ölçüdə 5 otaq var. Onlardan biri nisbətən böyükdür. Divarlarının qalınlığı 60-80, bəzi yerdə 100 santimetrə çatan binanın içərisi yayda sərin, qışda isti olur. Qala-sarayın divarının ümumu uzunluğu isə 54 metrdir.

Qədim Termez şəhərindən aralıdakı bu qala-saray indiki xarabalığı ilə belə, yenə də əzəmətlidir. Çiy kərpicdən tikilmiş abidə yağışdan, qardan, zəlzələdən çox, insanların diqqətsizliyindən xarabalığa çevrilib. Divardakı kiçik bir lövhədə mədəniyyət abidəsi olduğu və qorunduğu yazılıb. Həmişə olduğu kimi, biz

gələndə də, burada ins-cins yox idi. Yəni Qırx qız qalası haqqında Özbəkistanda çox danışılıb, çox yazılsa da, nə təmir edilib, nə də türistik bir məkana çevrilib.

Əslində bu əzəmətli tikili mənə qaladan çox karvansaranı xatırlatdı. İpək yolu üzərində belə bir karvansaranın olması normal görünür.

Uçub dağılmış binanın içərisində kol-kos bitib. Nisbətən iri kollardan birinin budaqlarına müxtəlif boyalı dilək parçaları bağlanıb. Açıq-aydın görünür ki, hələ də buraya ziyarətə gələnlər var.

Narbənd ağacı yalnız Naxçıvandamı bitir?

Qırx qız qalasından çıxıb Termezə qayıdanda kanalın qırağındakı narbənd ağacı diqqətimi çəkdi. Maşını saxlatdım. Ağacın yanında Todur Zanetlə birlikdə şəkil çəkdirdim. Ağaca belə diqqət yetirməyim səbəbsiz deyildi. Son zamanlar qəzetlərdə, saytlarda narbənd ağacı haqqında yazılara rast gəlirəm. Televiziya verilişlərində də narbənd ağacından söz açılır. Bu, çox yaxşı haldır və təqdir edirəm.

Akademik Həsən Əliyev 1982-ci ildə çap etdirdiyi "Həyəcan təbili" adlı kitabında yazıb: "*Bəzək ağaclarından narbənd, demək olar, tamamilə məhv olmuşdur. Bu bəzək ağacına SSRİ ərazisində yalnız Naxçıvan Muxtar Respublikasında rast gəlirdik. 40-50*

il bundan əvvəl Naxçıvanda hər bağın ortasında kölgəlik üçün yalnız bu ağaclar görünürdü. Onun sıx yarpaqları nəinki Günəşin şüalarını buraxmır, hətta çox vaxt yağışı da keçirmir".

Həsən Əliyev, görünür, nə Termezə, Xarəzmə gedib, nə də o dövrdə internet vardı ki, internetdən öyrənsin. Bəs çağdaşlarımıza nə deyək?! Onlar da qəzet və jurnallardakı, saytlardakı məqalələrində, radio-televiziya verilişlərində hələ də deyir ki, narbənd ağacı yalnız Naxçıvanda bitir.



Şəkildə: Qaqauz şairi Todur Zanet, Termez Universitetinin 2 kurs tələbəsi Ayşa Bazarbayeva və Əli Şamil narbənd ağacı yanında

Bu “özününküləşdirmə xəstəliyi”ndən qurtarmaq yaman çətindir. Özü də dünyanın hər yerinə yayılıb. Homerin doğulduğu şəhərdən söz düşəndə az qala yeddi yerdən haray qalxır ki, Homer bizim şəhərdə doğulub. Yunis İmrə də eləcə. Nizami Gəncəvinin İran İslam Respublikasının Mərkəzi ostanındakı (vilayətində) Qum şəhərində, Qax rayonunun Qum kəndində doğulduğunu yazırlar.

Bir zamanlar da dəb düşmüşdü, xarı bülbül çiçəyindən yazanlar, inad edirdi ki, bu çiçək yalnız Şuşa dağlarında bitir, aparıb başqa yerdə əkəndə bitmir. Ha and-aman edirdim ki, mən xarı bülbül dediyiniz çiçəyi Göyçə dağlarında, bizim kəndin ətrafındakı yamaclarda da görmüşəm, inanan olmurdu. Elə ki Sovetlər Birliyi dağıldı, Türkiyəyə, Kıbrısa, Balkanlara gedəndə gördüm ki, şəhər və qəsəbələrin küçə və meydanları, parkları xarı bülbüllərlə bəzədilib.

Mən Ürgəncə, Xivəyə gedəndə Naxçıvandakılardan daha böyük, daha yaşlı narbənd ağacları görmüşdüm. Orada mənə bələdçilik edən, rəhmətlik profesor Jumaboay Yusupov narbənd ağaclarına diqqətlə baxdığımı görəndə dedi, “hələ bunlar nədir ki..? – Xarəzm tərəfə getsək, daha çox və daha əzəmətlilərini görəcəksiniz. Onun dediklərinə inandım. Eyni çoğrafi qurşaqda eyni bitkilərin olması normal haldır.

Konsertdə Azərbaycan bayrağı

Bizim ya bəxtimiz gətirdi, ya da şəhərin icra hakiminin müavininin maşınında olmağımız dadımıza çatdı. – Yoxsa, konsertin açılışına çata bilməyəcəkdik. Küçələr bomboş idi. Yalnız küçələrin kəsişdiyi yerlərdə polis maşınları və 5-6 polis işçisi gözə dəyirdi. Hər tində bizi saxlayır və hərəkətin qadağan olunduğunu bildirirdilər. Biz də əlimizdəki dəvətnaməni və pasportu göstərərək, konsertə dəvət edildiyimizi bildirirdik. Onlar bizim haqqımızda ratsiya ilə kimlərəsə bilgi verirdilər. Bəlkə imkanları olsa, şəkillərimizi də çəkib ötürərdilər. 15-20 dəqiqə sonra hərəkət etməyimizə icazə ala bilirdilər. Belə yoxlamalar 5-6 dəfə təkrarlandıqdan sonra, Alpamış meydanına – konsert veriləcək yerə çatdıq. Səhərisi gün eşitdik ki, prezident gələcək deyə heç kimə mərkəzi yollara çıxmağa icazə verməyiblər. Xəstəsi olan xəstəsini xəstəxanaya apara bilməyib. Yollar bağlı olduğundan təcili yardım da xəstə üstünə get-məyib.

Öncədən yolların bağlanacağı haqda adamlara bilgi vermədiklərindən bəziləri küçənin o tayındakı mağaza-dan çörək almağa belə gedə bilməyib.

Alpamış meydanında açıq havada düzəldilmiş konsert meydançası və meydançanın ətrafı göz oxşayırdı. Yeni əkilmiş rəngbərəng çiçəklər xalı naxışlarını xatırladırdı. Dəvətlilər ciddi pasport və ya

kimlik yoxlamasından keçirilirdi. Qonaqlar üçün öndən üç sıra ayrılmışdı. Hər birimizin oturacağı yer dəvətnaməmizdə göstərilmişdi. Səhnə dekorlarını mağara və qalanı xatırladan qurğular əvəz edirdi.



Şəkildə soldan AKKORD Şirkətinin işçisi Mais Səttarov və Termezdə yaşayan, istefada olan polkovnik, Şərurun Mahmudkənd kəndində doğulmuş Əsgər Həsənov

Konsertə dəvət edilmiş müusiqiçilər oradan keçib tamaşaçıların qarşısına çıxırdı. Orta yüzil döyüşçülərinin geyimində, yəni qılınclı, qalxanlı, nizəli iki qrup da mağara-qalaların üstündə nizamla durmuşdu...

Gün qüruba doğru əyiləndə yerli müusiqi kollektivləri səliqə-səhmanla "mağara-qala"nın önündə durdu. Hər qrup üçün ayrıca geyim tikilmişdi. Rəssam-dizaynerlərin al-əlvan parçalardan iyirmiyə yaxın qrup üçün hazırladığı geyimlər göz oxşayırdı. Yeni əkilmiş rəngbərəng çiçəklərlə müusiqiçilərin geyimləri arasında bir ahəngdarlıq vardı. Geyimlərə bəlkə də yüz nəfərdən çox rəssam-dizayner, dərzi, süsləməci (bəzək-düzək vuran) aylarla vaxt sərf etmişdi. Bir neçə gündən sonra Termezi bəzəyən çiçəklər solacaq, konsertdən sonra bahalı geyimlər də bir anbarın küncünə atılacaq. Çünki hər həftə, hər ay belə konsert təşkil etmək mümkün deyil ki, musiqi kollektivləri də həmin paltarları geyinib səhnəyə çıxa.

Əhalisi kasıb yaşayan ölkələrin böyük xərclər bahasına təntənəli tədbirlər keçirməsi mənə çox gülünc gəlir. Ayağını yorğanına görə üzatmayan hökumət rəhbərləri görəsən bu parıltı ilə, bir günlük təmtaraqlı tədbirlərlə nə demək istəyirlər?!

Özbəkistan Respublikasının prezidenti Şavkat Mirziyayev onun üçün düzəldilmiş tribunanın arxasına keçdi. Himn oxunduqdan sonra məruzəsinə başladı. 10-15 dəqiqə keçməmişdi ki, arxadan, "mağara-qala" dekorun qarşısında sırada dayanan rəqqasələr qrupundan əli bayraqlı bir qız ayrılaraq, sanki prezidentə doğru irəlilədi. Öncə nə baş verdiyini nə əyləşənlər, nə prezidentin qorumaları başa düşdü.



Şəkildə: Simpoziumda iştirak edən xarici ölkə araşdırıcılarından bir qrupu

Hamı elə bildi, bu, öncədən planlaşdırılıb. Qız isə sakit addımlarla, yuxulu kimi hərəkət edirdi. O prezidentə yaxınlaşanda, konsertin təşkilatçıları sanki yuxudan ayıldı. Qaça-qaça gəlib qızı "mağara-qala" dekorun arxasına apardılar.

Onda başa düşdük ki, bütün günü məşq edən, gərgin vəziyyətdə olan qız anlaqsız hərəkət edib. Sovet dövründə rəhbər işçilərin qarşılanma törəni yadıma düşdü. Minlərlə uşağı, qadını, qocanı məktəbdən, fabrik-zavoddan ayırıb küçələrə düzür, əllərinə bayraq, gül verirdilər ki, rəhbərlər gələndə onları gülə-gülə salamlasınlar, şüar desinlər. Hər belə tədbirdə neçə nəfəri xəstəxanalara, tibb məntəqələrinə

aparırdılar. Günvurmadan xəstələnən də olurdu, stresə düşən də, özünü batıran da...

Şavkat Mirziyayev isə heç nə olmamış kimi məruzəsini davam etdirərək, Özbəkistanın mədəniyyət tarixindən, ümumtürk mədəniyyətində özbəklərin rolundan, keçmişdən, gələcəkdən danışdı.

Məruzə çox gözəl yazılmışdı; tərtibat, musiqi kollektivlərinin seçimi də yüksək səviyyədə idi. Musiqi sədaları altında göstərilən "döyüş" rəqs səhnəciklərindən sonra, söz xarici ölkələrdən gələn musiqi kollektivlərinə və musiqiçilərə verildi. İsraildən, Çindən, Malaziyadan və b. ölkələrdən gələn musiqiçilərin oxuduqlarından heç nə başa düşmək olmurdu. Heç olmasa, onların oxuyacağı mahnıların mətnini özbək dilinə çevirərək tamaşaçılara paylamamışdılar.

Hər şey çox dəqiq planlanmışdı. Bu onu göstərirdi ki, öncədən ciddi məşq edilib. 70-dən artıq ölkənin təmsil olunduğu, 300-dən artıq iştirakçısı olan festivalda Azərbaycandan gələn "Aşiqlər" qrupunun üzvlərindən – Aşıq Samirə Əliyeva və Aşıq Əli Tapdıqoğlunun "Koroğlu" dastanı əsasında hazırladığı kompozisiya, eləcə də onları müşayiət edən musiqiçilərin ifaları gur alqışlarla qarşılandı.

Onlar oxuyanda sol tərəfimizdə böyük səs-küy qalxdığını və Azərbaycanın bayrağı yelləndiyini gördüm. Maraq mənə güc gəldi, yerimdən durub Azərbaycan bayrağını dalğalandıranların yanına

getdim. Böyük bir coşğu vardı. Ara sakitləşəndə dəstəni ilhamlandıran, idmançı görünüşlü orta yaşlı soydaşımıza yaxınlaşdım. Tanış olduq. Əsgər Həsənov Şərur rayonunun Mahmudkənd kəndində doğulub. Sovetlər zamanı Termezdəki hərbi hissələrin birində zabit olub. Polkovnik rütbəsinə çatdıqdan sonra "oradan o tərəfə getməyə" yolu olmayıb. Təqaüdə çıxarılandan sonra burada qalmağa üstünlük verib. Ailəsi və dostları ilə birlikdə konsertə gəlməsinə, Azərbaycanlı sənətkarlar oxuyanda bayrağımızı dalğalandırmalarına, çılğınlıqla azərkeşlik etmələrinə sevindim.

Əsgər Həsənov tək gəlməmişdi, ailə üzvlərini və Termezdə olan Azərbaycanlı tanışlarını da gətirmişdi. Əsgər Həsənovla ayaqüstü söhbət zamanı xeyli ortaq tanışlarımızı yada saldıq. Azər baycan Xalq Cəbhəsinin öndərlərindən, təşkilatın birinci proqram və nizamnaməsinin layihəsini hazırlayanlardan olan Aydın Məmməd oğlundan söz düşəndə Əsgər bəy: "O mənim qardaşım İsmayılla bir sinifdə oxuyurdu" dedi. Tələbəlik dostum Firudin Məmmədovun qayınatası Əli müəllimi, onun xanımı Xədicəni, övladları İbrahimi, Telmanı və b. yada salanda: "Siz kəndimizin az qala yarısını tanıyırsınız ki?! Vətəndən uzaqlarda onların adını eşitmək belə nə qədər xoşdu! Siz məni nə qədər sevindirdiniz. Elə bil uşaqlıq və gənclik illərimə qaytardınız!" – dedi. Əsgər bəy onlara salam

göndərdi və dedi ki, həmyerlilərimizin yolu bu tərəflərə düşəndə, mütləq mənə baş çəksinlər.



Şəkildə Əlişir Nəvai adına Özbək Dili və Ədəbiyyatı Universitetində tələbə və müəllimlərlə görüşdə

Mən musiqiçilərimizi təbrik etmək üçün çətinliklə də olsa qurulmuş dekorların arxasına keçməyə çalışırdım. Arxa tərəf işıqlandırılmadığından alatoran idi. Orada qurulmuş çadırlardan bir əl mənə tərəf uzandı, sonra da əl sahibini gördüm. Handan-hana Balabəy Niyazovu tanıdım. Arxasınca Atamurad Matyakulov gəldi. 92 yaşlı Xarəzmli türkmən sənətçisini öncələr görmüşdüm. Tamburda, tarda və başqa simli alətlərdə gözəl cçalan, özbək və türkmən mahnılarının ifaçısı Atamurad Matyakulov biz simpoziumda məruzə oxuyan gün də salonda ayaqüstü

bir neçə mahnı çalıb-oxumuşdu. Onu tarda müşayiət edən isə Balabəy Niyazov idi. Konservatoriyada təhsilini davam etdirən Balabəyin də ustadı Atamurad kimi Azərbaycana və azərbaycanlılara böyük sevgisi var.

Onların köməyi ilə arxa tərəfə keçib, Azərbaycan musiqiçilərinin uğurlarından qürurlandığımızı bildirdim və təbrik etdim. Atamurad və Balabəy də Azərbaycan müusiqiçilərinin çıxışlarından razı qaldıqlarını bildirdi.

Bələdçimiz Cəlal Rəhimov

Festivalın təşkilatçıları gələn qonaqlar üçün bələdçilər ayırmışdı. Onların çoxu, ali məktəblərdə təhsil alan, xairci dilləri bilən tələbələr, bizim bələdçimiz isə yaşı 50-ni keçmiş Cəlal Rəhimov idi. Cəlal Rəhimovu bu işə xanımı cəlb etmişdi. Xanımı Termez Mədəniyyət İdarəsində, Cəlal bəy isə Azərbaycanın "Akkord" şirkətinin Termezdəki nümayəndəliyində çalışır. Beynəlxalq bankların ayırdığı kireditlə "Akkord" şirkəti burada yol çəkir. Öncələr söhbət etdiyim özbəklər də bu şirkətin gördüyü işin keyfiyyəti haqqında müsbət fikir söyləmişdi.

Gürcüstanda da "Akkord" şirkətinin gördüyü işin keyfiyyəti yüksək qiymətləndirilir. Onların çəkdiyi yol, tikdiyi körpülər və binalar mənim də xoşuma gəlmişdi. Buna görə Cəlal Rəhimovdan xəbər aldım: "Necə olur,

bu şirkət Azərbaycandan kənarda keyfiyyətli işlər görür, haqlarında xoş sözlər eşidirik, amma Azərbaycandakı işlərindən narazılıq edilir"? O, gülərək: "Onu məndən deyil, Azərbaycanın məmurlarından soruş. Burada gördüyümüz iş beynəlxalq standartlara cavab verməsə, onu qəbul etməzlər və şirkət də iflasa uğrayar; amma Azərbaycanda nəinki keyfiyyətsiz işi qəbul edirlər, hətta məmurlar şirkəti keyfiyyətsiz iş görməyə yönləndirir ki, müqabilində onlar daha cox qazansın" – cavabını verdi.

Termezdə olduğumuz günlərdə Cəlal Rəhimov bizi milliyyətcə özbək olan xanımı ilə tanış etdi və qayğımıza da çox qaldı.

Əkbər Qoşalının dostları

Sanal aləm ünsiyyətlərdə böyük rol oynayır. Bunu özbəklərin Əkbər Qoşalıya olan məhəbbətlərində də gördüm. Türk xalqlarının gənc yazar və şairlərinin bir yerə toplanmasında, onların əsərlərinin nəşri və yayılmasında əməyi olan Əkbər Qoşalını Termez Universitetinə görüşə dəvət etmişdilər. Proqramdan ayrıla bilmədiyimə görə həmin gün onunla gedə bilmədim.

Əkbər bəy toplantıdan ruh yüksəkliyi ilə qayıtdı. Tələbələrin onun özbək dilinə çevrilmiş şeirlərini əzbər söyləmələri, yaradıcılığını təhlil etmələri şairə güclü təsir etmişdi.



Şəkildə Əlişir Nəvai adına Özbək Dili və Ədəbiyyatı Universitetində tələbə və müəllimlərlə görüşdə gənc özbək yazarlarının lideri Mehrinoz Abbas tərəfindən Əli Şamilə Buxara abidələrinin təsviri olan hədiyyə bağışlanarkən.

Aprelin 10-da bizi səhər tezdən uçaqla Termezdən Daşkəndə yola saldılar. Daşkənd Hava Limanında 4-5 saat gözlədikdən sonra Bakıya yola düşməli idik; lakin gözləməyə vaxtımız olmadı. Hava limanına enən kimi, Əkbər Qoşalı ilə məni qarşılayıb birbaşa Əlişir Nəvai adına Özbək Dili və Ədəbiyyatı Universitetinə apardılar. Onda bildim ki, dostları öncədən Əkbər Qoşalı ilə şərtləşiblərmiş.

Əlişir Nəvai adına Özbək Dili və Ədəbiyyat Universitetində tələbə və müəllimlərlə görüşdə diqqətimi çəkən o oldu ki, gənclərin çoxu Əkbər Qoşalını şəxsən tanıyırdı. Onun özbək dilinə çevrilmiş şeirlərini məclisdə əzbərdən söylədilər.

Əkbər Qoşalının Azərbaycan-Özbəkistan ədəbi-mədəni əlaqələri ilə bağlı çıxışı çox xoşuma gəldi. Gənclərin verdiyi suallar da onu göstərirdi ki, Əkbər Qoşalının Azərbaycan Türkcəsi ilə Özbək türkcəsinin qarışığında danışığını tələbələr başa düşüb. Universitetin prorektorunun çıxışı məndə belə bir fikir yaratdı ki, bu adam vəzifə borcunu yerinə yetirir. Toplantını açır, çıxış edir. Ya hələ İslam Kərimov dövrünün qorxusu hələ canından çıxmayıb, ya da türkçülüklə bağı olmayan bir alim-məmurdur.

Mənim isə çıxışım çox qısa oldu. Müəllim və tələbələrə bildirdim ki, onların dünyanın müxtəlif guşələrində keçirilən simpoziumlara, toplantılara, festivallara getmələrinə, xarici ölkələrdəki ali təhsil ocaqlarında təcrübə keçmələrinə və oxumalarına bələdçi ola bilərəm. Lakin mənim təklifim, deyəsən, onların ürəyindən olmadı. Görünür, burada rəhmətlik Xəlil Rza Ulutürk kimi alovlu bir türkçülük təbliğatı aparmaq lazım idi. Əlbəttə, onu alqışlarla qarşılayardılar. Buna böyük ehtiyac var.

Festival günlərində Özbəkistanda nəşr edilən qəzetlərdən ikisi – 7 min tirajla nəşr edilən "Termiz Universiteti" və "Kitab dünyası" qəzeti Özbəkistan-Azərbaycan ədəbi-mədəni, elmi əlaqələri haqqında daha çox material verirdi. Söhbət zamanı Əkbər Qoşalı bildirdi ki, bu qəzetlər yalnız festival günlərində deyil, başqa vaxtlar da Azərbaycan mövzusunu gündəmdə saxlayır. İndiyədək 300-ə yaxın

sayı nəşr edilən “Kitab dünyası” qəzetində Azərbaycanla bağlı 100-ə yaxın məqalə, şeir, hekayə çap olunub. Adı “Termiz Universiteti” olsa da, Termez şəhərində hazırlansa da, “Termiz Universiteti” də Özbəkistanın hər bir guşəsində oxunur, sevilir.

Azərbaycandan gedən kollektivin ikinci yeri tutması bizi sevindirdi.



Şəkildə konsert üçün açıq havada düzəldilmiş səhnə

Azərbaycanda, Türkiyədə, İranda, Balkanlarda aşıq adlandırılan el sənətkarlarına türkmənlər, özbəklər baxşı (baxıcı), qazax-qırğızlar akın (orta yüzilliyin qazax-qırğız, noqay şairlərinin bəzilərinin adının önündə bir aşıq sözü də var), başqırdlar şeşen deyir. Keçmişdə onlar ozan, yanşax da adlandırılıb. Son illər türk xalqlarında el sənətkarlarına diqqət artıb. Çünki mədəni irsimizin tarixini öyrəndikdə aşıq sənəti yalnız türk xalqları arasında birləşdirici rol oynamadığını görürük. Burada müusiqi də var, rəqs də, aktyorluq da. Aşıqlarımızın oxuduğu mahnıların sözləri tariximizin dərin qatlarındakı dünyagörüşün-

dən süzülüb gəlir. Oradakı misralar, ifadələrlə bəzən hansı inancın daşıyıcısı olduğu müəyyənləşdirilir. Musiqi folkloru nə qədər dəyişsə, cilalasa da, özündə uzaq keçmişdən nəyisə qoruyub saxlayır.

Son illər Özbəkistanda da bu sahəyə diqqətin artırılması təqdirəlayiqdir.

Sovet dövründə Azərbaycan-Özbəkistan əlaqələrinin möhkəmlənməsinə də xeyli vəsait xərclənirdi. Lakin bu pambıqçıların sosializm yarışından, ideoloji yönlü bədii əsərlərin tərcüməsindən, konsertlərdən o yana getmirdi. Yəni belə tədbirlərdə Azərbaycan və Özbək xalqının dostluğundan, qardaşlığından söz açılsa da, eyni dilin daşıyıcısı olduqları, eyni soydan gəldikləri görməməzlikdən gəlinirdi.

Sovetlər Birliyi çökdükdən sonra qadağalar, senzur nəzarəti aradan qaldırıldı. Milli dəyərləri öyrənən və təbliğ edənlərin sayı artdı. Lakin iqtisadi bazanın olmaması, eləcə də rəhbər vəzifələrdə olan rusbaşlılar onlara yenə də pantürkist damğası vuracaqlarından qorxaraq bu sahəyə diqqət ayırmırdı. Özəlliklə İslam Kərimov kimi birisinin Özbəkistanda prezident vəzifəsini uzun müddət zəbt etməsi türk xalqlarının yaxınlaşmasına əngəl olurdu.

Rəhbərlərin törətdiyi əngəllərə baxmayaraq, milli şüurlu aydınlar müxtəlif yollarla da olsa, araşdırmalar aparır, xalqlarımızın qardaşlığını təbliğ edirdi.

İslam Kərimovun ölümündən sonra Özbəkistanda Türk xalqları ilə yaxınlaşmağa, türklük şüuruna

yiyələnməyə meyl artdı. Termez şəhərində keçirilən festival da, dediklərimizə bir örnək idi.

Konsert-müsabiqədə ən çox alqışlanan Azərbaycan müusiqiçiləri idi. Bu da təbiidir. Bu günün özündə də, Özbək toylarında Azərbaycan mahnıları oxunur, Azərbaycan rəqsləri ifa olunur. Özbəkistanda Azərbaycan musiqisinə maraq yüzillərdir azalmır. Bu alqışlara, təntənə ilə qarşılanmaya baxmayaraq, bilirdim ki, bizimkilərin birinci yeri tutduğunu elan etməyəcəklər.

Toplantının təşkilatçıları araşdırıcıları musiqiçilərdən öncə dəvət etdikləri kimi, öncə də yola saldı. Biz gələndən sonra musiqi müsabiqəsi bir neçə gün də davam etdi. Yekunda, oxudum ki, Özbəkistan musiqiçiləri birinci, Azərbaycan musiqiçiləri ikinci yeri tutub. 70 ölkədən gəlmiş kollektiv arasında bizimkilərin ikinci yeri tutması olduqca sevindirici idi.

Özbəkistan Prezidentinin Sərəncamı, YUNESKO və İslam Əməkdaşlıq Təşkilatının iştirakı ilə təşkil olunmuş bu böyük musiqi və elm bayramı başa çatdı. Özbəkistan Respublikasının Prezidenti toplantının açılışında vurğuladı ki, Birinci Xalqlararası Baxşı Festivalı bununla yekunlaşmayacaq. Qarşıdakı illərdə daha da təkmilləşdiriləcək və iştirakçıların sayı artacaqdır.

Bakı-Termez-Daşkənd
25-30 aprel 2019-cu il.

ELMİ MƏQALƏLƏR

XALİD SƏİD XOCAYEV

Xalid Səid Xocayev haqqında neçğə-neçə məqalə yazmışam, radio verlişi hazırlamışam. Lakin onlardan yalnız birini kitaba daxil etməyi lazım bildim. O biri yazılarımın isə siyahısını aşağıda verirəm. Maraqlananlar baxa bilərlər.

1. Parçalanmış Türküstanı gəzərkən**.** // Bakı: "Elm və təhsil", 2021. − 380 s.,

2.Xalid Səid. “Filologiya araşdırmaları” toplusu, 2003, sayı 19, səh.36-52.

3. Halit Said: ömrünü ortak Türk kültürüne adaylayan adam. “Yom” (Türk dünyası mədəniyyət dergisi-rüblük), 2007, sayı 6, səh. 60-74.,

4.Ömrünü ortak Türk kültürüne adaylayan Halit Sait. 38. İCANAS Yürütme Kurulu Ankara, 2007, seh. 3.,

5.Katağon kurboni. “Jahon Adabiyoti” jurnali (Taşkent), 2008, sayı, 1(128) yanvar, seh. 111-118.,

6.Harf inkilabının salnamecisi Halid Said Hocayev. I.Uluslararası Kitle iletişim Araşlarında Türkçenin kullanımı bilgi şöleninin bildirileri (Yayına hazırlayan Doç.Dr. Bilgehan A.Gökdağ), Kırıkkale, 2011, seh. 675-686,

7.Türk halklarının istiklal savaşçısı Halid Seid’in iki yönü, (Крымский инженерно-педагогический университета. Вопросы Крымскотатарской Филологии, Истории и Культуры, научный сборник, выуск, 2018, № 5, стр.143-158.,

8.Türk halklarının istiklal savaşçısı Halid Seidin iki yönü. (2009) Проблемы лингвистики в роли культурной среды: история и современность. (Материалы Международной научно-практической конференции, посвященной 15-летию кафедры башкирского языка и 75-летию со дня рождения доктора филологических наук, профессора Р.Х.Халиковой. Федеральное Агентство по Образованию Государственное Образовательное учреждение Высшего Профессонального Образования Башкирский Государственный Педагогический Университет им.М.Акмуллы), Уфа, Издаельство БГПУ, səh.84-100,

9.Türk halklarinin istiklal savaşçisi Halid Seid'in iki yönü Вестник тюркского мира **(**Türk dünyasıı belleteni, Herald of turkic world) Министерство образования и науки Российской Федерации, Дагестанский государственный педагогический университет, Международная гуманитарно-техническая академия, Международный,

10. Halit Seyit Hocayevin Hayat Hekayesi İle İlgili Keşin Cizgiler, I. Milletlerarasi Türkiye-Özbekistan münasebetleri sempozyumu (8-10 Kasim 2018), Özet/bildiriler kitabı, 1st International Symposium on Turkey and Uzbekistan relations (8th -10th November 2018) Proceedings, səh. 158-168.,

11.Kaşgarlı Mahmudun "Divanü lüğat-it-Türk" eserini Türkçeye ilk çeviren tercüman (The first

translator of Mahmud Qashqaris “Divan lughat at Turk”into turkish language), Kaşgarlı Mahmud ve dönəmi (Mahmud Kashgari and his period, Махмут Кашгари и его период), Bildiri özetleri (Abstrscts), Hacettepe Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü, II Türkiyat araştırmaları sempozyumu (2nd Turkish studes sympozium, 2-ой семпозиум Тюркологических исследований), 2008, 28-30 Mayıs, Ankara, seh.28-29.,

12. Azerbaycan`da «Divanü lüğat-it-Türk» ve Emin Abid. “Türk yurdu” dergıisıi, 2008, Aralık, sayı 256, seh. 58-59.,

13.Azerbaycan’da «Divanü lüğat-it-Türk»ün İlk Öğrenilmesi ve Çevrilmesi. Doğumunun 1000 Yılı Dolayısıyla Uluslararası Kaşgarlı Mahmud sempozyumu (17-19.10.2008, Rize) Bildiri metnleri, Rize Ünversitesi Yayınları 1, Rize, 2008, seh.79-86,

14. «Divanü lüğat-it-Türk»ün ilk çevirmeni. 2. Uluslararası Türkiyat Araştırmaları Bilgi Şöleni Bildirileri(28-30 Mayıs 2008) Kaşgarlı Mahmud ve dönemi, Türk Dil Kurumu Yayınları, Ankara, 2009, seh. 391-406.,

15. **Xalid Səid Xocayev (1888-1938).** (خالید سعید خوجایئو, rus. *Халид-Саид Ходжаев*). https://ali-shamil.tr.gg/Xalid-S%26%23601%3Bid-Xocayev.htm

TÜRK HALKLARININ İSTİKLAL SAVAŞÇISI HALİD SEİD'İN İKİ YÖNÜ

Özet: 1888. yılda Özbekistan'ın başkenti Taşkent'in Bostanlıg ilçesine bağlı Koşkorgon köyünde doğmuş Halid Seid Hocayev medreseni bitirdikten sonra İstanbul'a gitmiştir. Önce Darülfununun Tıp, sonra ise Tarih-Edebiyat fakültesinde okumuştur. 1918. yılda Nuri Paşa'nın emrinde kurulan Kafkas İslam Ordusuyla Azerbaycan'a gelmiştir. Şu ordu Azerbaycan'ı Rus işgalinden kurtarıp Cumhuriyet kurulmasını gerçekleştirse de, Mondros anlaşmaları (30.10.1918) Türküstan'ın azat edilmesini engellemiştir. Halid Seid iki yıl Azerbaycan'da çalışmalı olmuştur.

1920. yılda Rus Sovyet Orduları Azerbaycan'ı işgal edende Halid Seid Özbekistan'a gitmek zorunda kalsa da, 1922. yılda geri dönümü,. Bakû'de ve ilçelerde öğretmenlik etmiştir. 1926. yılda "Osmanlı, Özbek, Kazak lehçelerinin mukayeseli sarfı-nahvi", 1929. yılda "Yeni Elifba Yollarında Eski Hatıra ve Duygularım", 1933. yılda "Muhtasar üslubiyat" ve s. kitaplarını yayımlatmıştır.

Özbekistan'dan öğrencilerin getirtilip Bakû'deki Üniversitelerde ve gimnazyumlarda okutulmasında, Latin alfabesinin Türk Cumhuriyet ve toplumları arasında yayılmasında, Kaşkarlı Mahmud'un "Divanü

lüğat-it-Türk" eserinin 1935-37. yıllarda Arap dilinden Türkçe'ye çevrilip yayıma hazırlanmasında önemli hizmetleri göstermiştir.

Halid Seid Hocayev 1930. yıllarda Sovyet Rusya'sının zulmü altında ezilen halkları azat etmek ve Vahit Türk-Tatar devleti yaratmak için aydınlarla ve bürokratlarla gizli teşkilat yarattığına göre 1937. yıl Haziranın 3'de göz altşna alınmış, dörd aydan fazla süren işgenceli sorudan sonra ve haman yılın 12 Ekim'de meslektaşlarıyla birlikte kurşuna dizilip.

Anahtar kelimeler: Halid Seid Hocayev, Osmanlı, Özbek, Kazak lehçelerinin mukayeseli sarfı-nahvi, "Divanü lüğat-it-Türk"

HALID SEID WHO DEDICATED HIS LIFE TO JOINT TURKISH CULTURE

Ali Shamil Huseyn oglu
(Azerbaijan National Science Academy Institute of Folklore),
Baku-Azerbaijan

Abstract: Halid Seid Hojayev was born in 1888 in Koshkuran- nearby village Tashkent, capital of Ozbekistan. After leaving school Halid Seid Hojayev left for Istanbul where he studied in the faculty of history-literature in Darulfun. In 1918 he came to Azerbaijan together with Caucasus Islam Army formed

under Nuri Pasha's leadership. Though the army was able to free Azerbaijan from Russian occupation by conducting the realization of Republic, the treatments and Mondros prevented the liberation of Turkistan. Halid Seid had to work in Azerbaijan for two years.

The occupation of Azerbaijan by Russian Soviet Army in 1920 urged Halid Seid to leave for Ozbekistan. In 1922 he came back to Azerbaijan and worked as a teacher in Baku and in other regions. He published his books such as "Osmanlı, Özbek, Kazak lehçelerinin mukayeseli sarfı-nahvi" (Comparative Grammar of Ottoman, Ozbek, Kazak Accents-1926), "Yeni elifba yollarında eski hatıra ve duygularım"(My old memories and feelings on the way to new alphabet-1929), "Muhtasar üslubiyat" (Concise Style-1934) and others.

Halid Seid Hojayev's activities are remarkable for their role in helping Ozbek students to get the chance of studying in the universities and gymnaziums in Baku and translating Mahmoud Kashgarli's «Divanü lüğat-it-Türk» (The Dictionary of Turkish Language) from Arabian into Turkish and preparing it to be published in 1930.

He was accused of forming secret organization together with bureaucrats and intellectuals for the freedom of the nations who suffered from Russian oppression and for the establishment of Joint Turk-

Tatar state and was executed by shooting together with his companions in September 12, 1937

Key words: Halid Seid Hojayev, Osmanlı, Özbek, Kazak lehçelerinin mukayeseli sarfı-nahvi (Comparative Grammar of Ottoman, Ozbek, Kazak Accents), Divan-i luğet-i it-Türk (The Dictionary of Turkish Language)

Giriş

1929. yılda Bakü'de "Yeni elifba yollarında eski hatıra ve duygularım" (Kitabın üzerinde "Yeni elifba yollarında eski duygu ve hatıralarım" yazılıp. Bu maatba hatasıdır. Halid Said başka yazılarında kıtabın adını "Yeni elifba yollarında eski hatıra ve duygularım" yazşyor.– A.Ş.H.) kitapı yayınlanıp. Orada 1924. yıl Eylülin 7'de Bakü'den bir tren Kırıma doğru yön aldığı yazılıyor. Trende yolculuk yapanlar konusunda Halid Seid Hocayev şöyle bir bilgi veriyor: "Komisyon aşağıdakı kişilerden oluşuyordu.

1. Semedağa Ağamalı oğlu, Yeni Alfabe Komitesi başkanı.
2. Mirze Celil Memmedguluzade, "Molla Nasreddin" dergisi başkanı ve komisyon üyesi.
3. Veli Huluflu, araştırmacı, komisyon üyesi.
4. Halid Seid, İşçi Fakültesi ve Meliorasyon Lisesi yabancı dil ve edebiyat öğretmeni.

Bunlardan başka doktor, vekilharç, daktilograf da vardı. Bakü Darülfünun müderrislerinden Prof. Mizirlinski de bizimle idi. Heyet için bir vagon ayrılmıştı”.**(Hocayev, 2006:6).**

Dağıstan ve Kuzey Kafkasiyadakı Türklerle görüşen ve yeni alfabeye keçmeg konusunda mulakat yapan ekip Kırıma doğru yön alıyor. Eylülin 10’de Rostov üstünden Kırıma gidişlerini Halid Seit böyle anlatıyor: “Sabahleyin kalkdığımızda kendimizi Kırım Cumhuriyetinin sınırları içerisinde buğday tarlaları arasında gördük” **(Hocayev, 2006:9).** Akmescite gelişlerini ise böyle anlatıyor: “Şehir sevimli, binalar güzel, sokaklar düzenliydi. Kaldırımlar güzel ağaçların gölgesi altında uzanmıştı. Şeherde, Doğunun kendine has eserleri görünmüyordu” **(Hocayev, 2006:10).**

Tren iskelesinden faytonla Başbakanlığa giden heyet üyeleri oradan profesör Bekir Çobanzade ile geri dönüyorlar. Profesör Bekir Çobanzade ile ilk konuşmalarını Halid Seid Hocayev böyle anlatıyor: “Çobanzade ciddileşti :

-– Ha... İşte buna ait size kısa bilgi vereyim, diyerek söze başladı. Alfabe ve imla hususunda Kırım’da üç cereyan vardır: Birincisi, ıslahatçılardır. Bunlar Arap alfabesi üzerinde Kazanlılar tarafından yapılan ıslah tarzında bir ıslahat yapmak istiyorlar. İkinci grup, Latın harfleri savunucularıdır. Bunlar hanuz muayyen bir şekil göstermemişlerdir. Üçüncü

grup, Rus harflerini kabul etmek isteyenlerdir. Bunlar da henuz muayyen bir şekil göstermemiçşlerdir". **(Hocayev, 2006:11).**

Haman gün resmi bir toplantı olmuyor. İstasyona diderek hükumet tarafından tehsis edilen faytonla Bağçasaraya yola çıkırlar. Bahçesaray hakkında yazır: "Aşağıda bir şeher göründü. Burası Bahçesaray'dı. Şeherin dış görnüşü, tam bir Doğu şeheri olduğunu gösteriyordu. Doğudan batıya doğru uzanan bir dere içinde kurulmuştu. Binaları çok büyük değildi. Çoğu iki katlıydı. Sokaklar dar ve eğri büğrüydü. Pek çok cami vardı. Her caminin yanında, göğe doğru yükselen bir ve ya iki minare görülüyordu. Bahçasaray bu görüntüsüyle Doğu şeherinden çok, bir Osmanlı şeherini hatırladırdı". **(Hocayev, 2006:11).**

Bahçasarayda Han sarayını, türbeleri gezen heyet köylere de gidir, Dervize adlı halk bayramlarına katılır, Sevestolda geceledikden sonra yeniden Bahçasarayda dönüyor, Zincirli medreseni, "Ter-cuman" gazetesinin yayınlandığı binanı ziyaret ediyor, İsmail bey Qaspıralının oğlu Pıfat beyle konuşuyorlar. Her yerde latın alfabesine keçmeyi teblig eden heyet iki defe resmi toplantı yapıyor. Birıncı toplantıda Kırım'ın resmi yetkilileriyle milli eğitim görevlilerinden bir kısmı bulunuyor. Bu toplantıda Yeni Alfabe Komitesi başkanı Semed ağa Ağamalı oğlu diyor: " Dil itibariyle birbirine yakın olan toplulukları birleştirmek daha kolaydır. Mademki

sizinle bizim dilimiz arasında o kadar büyük bir fark yok, o halde dil ve edebiyatımızı bir esas üzerine kurmamız gerekir. Dilin iki yönü vardır: konuşma ve yazı. Yazının esası harftir. Yazımızı birleştirmek için yazının esas ve kötü olan harflerimizi birleştirmeliyiz…

Duyduğuma göre, sizde Rus alfabesini kabul etmek isteyenler varmış. Bu görüş, dayanıksız ve çürüktür. Çünkü Rusların kendileri de alfabelerini beğenmiyorlar. Rusların bile beğenmediği alfabeyi nasıl kabul edebiliriz. Bu düşünce beyhudedir" **(Hocayev, 2006:15).**

Toplantıda yeni alfabeye keçilmesi tekamülle olması fikri seslendikde Semed ağa Ağamalıoğlu haykırır: "Yoldaşlar! Hayat sizin tekamülünüzü beklemiyor. Bunu yapamazsınız, siz tekamülünüzle birlikde yok olup gideceksiniz" **(Hocayev, 2006:16).**

Halid Seid Hocayev yazır ki, haman toplantıda Profesör Bekir Çobanzade, Kırım Eğitim Bakanlığının İçtimai Terbiye Müdürü Teymurcan Odabaş (bu kişinin adı və soyadı Abibulla Odabaşdır. Timurcan onun lakabıdır– A.Ş.H.), eğitimci Osman Aqçoqraklı, "Arap harflerinin en nüfuzlu tarafdarlarından olan Hesen Sebri Ayvazof (Bu kişinin adı ve soyadı esasen Asan Sabri Ayvazov gibi yazılıyor– A.Ş.H.", eğitim bakanı (yazar onun ad ve soyadını yazmır– A.Ş.H.), Mirze Celil de konuşuyor. Halid Seid Hocayev ise söz alarak fikrini böyle

toparlayır: “Biz, yeni tarihimizin başlanğıcında en önemli mesele olarak alfabe meselesini görüyoruz. Bu konuda önümüzde üç yol var: 1. Arap alfabesini olduğu gibi devam etmek, 2. Arap alfabesini islah etmek, 3. Yeni bir alfabe kabul etmek” **(Hocayev, 2006:19).**

Halid Said Hocayev toplantıdakı konuşmasının tümüni dimek olar ki, kitapda verip. Toplantının sonucu hakkında yazır: “Mecliste adeta yeni bir hayat başlamıştı. Semed ağa, nihayetsiz sevinçler içindeydi. İlk zaferini kazanan bir ordu komutanı gibi seviniyordu. Bundan böyle Kırım Türkleri, yeni alfabeçiler safına geçmiş kabul edilebilirdi” **(Hocayev, 2006:24).**

Ekimin 15’ de düzenlenen ikinci toplantı hakkında Halid Seid Hocayev yazır: “ Plana göre, saat sekizde, Kültür Evinde yeni alfabe konusunda genel bir toplantı yapılacakdı. Belirlenen saatte oradaydık. Öğretmenlerden ve diğer halkdan iki yüze yakın kişi toplanmıştı. Önce çeşitli havalar çalındı; Kırım halk oyunları oynandı. Sonra büyük bir salonda toplantıya geçildi. Toplantıyı Eğitim İşçileri Birliği bakanı yöneltiyordu” **(Hocayev, 2006:30).**

Toplantıda yine Semed ağa Ağamalıoğlu, Halid Seid Hocayev, Bekir Çobanzade, Osman Nuri Aqçoqraqlı ve “Yeni dünya” yazarlarından Cafer Gafarov, öğretmen Ehtem Feyzi, Komsomol teşkilatından İlyas Tarhan, Yeni Alfabe Komitesinin

Kırım vekili Cemalettinov, Ömer İpçi, Veli Huluflu, Teymurcan Odabaş konuşuyor.

Osman Aqçokraklı diyor: "Alfabe meselesile en çok ben ilgileniyorum. Çünki hem öğretmen, hem hattatım. Geçen sene yeni alfabenin aleyhine yazmıştım. Ben yerüzündeki alfabelerin hepsini biliyorum, bu sebeple de meseleye tekniki açıdan bakıyorum. Alfabenin iyi olması için çabuk okunabilmesi gerektir. Arap alfabeis daha iyi hatırda kalmakla birlikte, birçok zorluğu var. Yazı makinesinde, matbaada engeller çıkarıyor. Bugün Azerbaycanlıların kabul ettiği harfler, eski Latın harflerinden daha mükemmeldir. Bu yeni alfabeyi kabul edelim. Ancak, bir müddet eski alfabeyle birlikde kullanalım. Daha sonra eski alfabe aşama aşama bırakılır" **(Hocayev, 2006:36).**

Toplantının sonunda "müteşebbüsler adıyla Osman Aqçoqraqlıdan (öğretmen), Kerim Cemaleddinden (öğretmen), Mahmud Nedimden (öğretmen), Çobanzadeden (profesör), İlyas Tarhan ("Yeni dünya" yayın kurulu üyelerinden), Cefer Gafarofdan ("Yeni dünya" yayın kurulu üyelerinden)" oluşan bir komisyon teşkil ediliyor **(Hocayev, 2006:38).**

Türk halklarının aydınlar büyük sevinç ve çabayla halklarına hayır vermek için yeni alfabe hazırlayırdılar. Ama onlar Sovetler Birliyi yetkililerinin perde arkasında Rusiyanın assimle (eritme) siyaseti yeritdiklerinden habersiz idiler.

Bes Azerbaycandan Dağıstana, Kuzey Kafkasiyaya, Kırıma, Tatarıstana, Türküstana giderek yeni alifaya keçmeği tebliğ eden Haild Seid Hocayev kim idi?

1.Halid Seid Hocayev kimdir?

Kendilerini vatana ve millete adayan kişiler yapmaya çalıştıklarını bazen kendilerine en yakın kimselere, akrabalarına, hatta ailelerine bile anlatmazlar. Bu davranış onurlu, gurur duyulacak bir tavır olsa da kurdukları teşkilatın yaşaması, aynı ideali paylaştıkları arkadaşlarının korunmasına hizmet eden gerekli bir tutumdur. Teşkilatın yaşaması olgusu, kendini güvenceye almak ve mücadeleyi devam ettirmek için önemlidir, ancak bu durum araştırmacılar tarafından gerçeklerin ortaya çıkarılmasında büyük zorluklar oluşturuyor.

Kendini vatanı ve milletine adayan kişilerden biri de Halid Seid Hocayev'dir. Araştırmacılar onu bir bilim adamı olarak tanıyor. Hatta İngilizce alanında uzman olan muhterem kızı Behice hanım Memmedova bile böylesine sessiz, politikadan, sosyal ve siyasi konulardan uzak bir insan olarak tanıdığı babasının Türk halklarının istiklâl savaşçısı olduğuna inanamıyor.

Üniversitede öğrenci olduğum yıllardan (1968-73) beri, Halid Seid Hocayev imzasına büyük ilgi duymuş

ve o zamandan başlayarak onunla ilgili bilgileri toplamaya çaba göstermiştim.

Okulda bazen hocalarımızla, bazen de arkadaşlarımızla kafamıza takılan şu soruları tartışıyorduk. Neden millî düşünceyi yayan gazeteler, dergiler, yazarlar, araştırmacılar yasaklanıyor da, milleti şiddetle tenkit ederek ona hakaret eden, aşağılayan mizahi karakterli yayımlara karşı çıkılmıyor ve yasaklanmıyor? Neden 1937-38 yıllarında gözaltına alınan, kurşuna dizilen, cezaevlerine tıkılan, sürgünlere yollanan şahıslar için genel af ilan edildiği, itibarları iade edildiği hâlde onların kaleme aldıkları yazıların çoğu yayınlanmıyor ve hatta okunmasına da yasak konuyor?

Halid Seid Hocayev, kendisinin yazdığı son hayat hikâyesinin bitiminde 26 Nisan 1934 tarihini düşüyor. Sovyet Sosyalist Cumhuriyetleri Birliği Bilimler Akademisi Azerbaycan Şubesi'nde göreve getirildiğinde Rusça yazdığı bu özgeçmiş AMEA Azerbaycanda Elmi İrsin Toplanması ve Sistemleşdirilmesi Merkezinin Arşivindeki (bundan sonra qısa olarak AMEA AEİTVSMA yazacağıq– A.Ş.H.) 39 numaralı dosya ve 313 numaralı listede yer almaktadır.

"Ben 1888 yılında Taşkend şehrine 25 kilometre uzaklıktaki Köşkörğon köyünde doğdum. Köydeki okulu bitirdikten sonra Taşkend'teki medresede okudum. O zamanlar çevremizdekiler Rusça eğitim

veren okulları "kâfirlerin okulu" olarak kabul ediyorlardı. Medresede 5-6 yıl okudum ve 1905 yılında ihtilal meydana geldi. İhtilaldan sonra oluşan ve bütün Doğuyu bürüyen harekâtın bana da etkisi oldu. Hayatıma yeniden düzen vermeliyim, diye düşünmeğe başladım, ancak çevrem çok muhafazakâr olduğundan dolayı, tahsilimi Rusça devam ettirmek neredeyse imkânsızdı. Ben de başka bir çıkış yolu aradım.

Etrafımdaki mollalardan ve hacılardan Konstantinopol (İstanbul) ile ilgili tatlı ve efsanevi sohbetler duymuştum. Bu şehri görmeyi çok istiyordum. Babam bana çok cüzî miktarda maddi yardım yapabiliyordu ve yol parası bulmam imkânsızdı. Karşılaştığım bu problemin çözümü tesadüfen bulundu. Yakın köylerin birinde köylüler arasında toprakların bölüşülmesinden kaynaklanan bir sorun meydana geldi. Köylülere, vergilerin miktarına göre toprak vermek gerekiyordu. Hükümet bu işin üstesinden gelecek bir komisyon kurmuştu. Ancak bu komisyonda uzman olanlar çok az idi.

Ben de medresede okurken Arapça kitaplardan toprağı ölçme tekniğini öğrenmiştim. Komisyon üyelerine müracaat edince hemen göreve alındım. 5-6 ay orada çalıştım ve Konstantinopol'a gitmek için gerekecek parayı kazandım.

Şimdi çözmek durumunda olduğum bir problemim daha vardı, gerekli pasaportu almak. O zamanlar genel valiliğin emriyle Türküstanlılara dış ülkelere gitmek

için pasaport verilmesi yasaklanmıştı. Tanıdığım birinin tavsiyesi ile Çin konsolosluğundan takriben 4-5 rubleye bir pasaport temin ettim. Çin konsolosluğundan aldığım pasaportun üzerinde ne tarih vardı, ne de sahibinin adı doğru düzgün okuna biliyordu. Bundan yararlanarak pasaportu rahatlıkla kullanıp Konstantinopol'a gittim. Oradan da Mısır veya Suriye'ye gitme gibi bir düşüncem vardı.

Konstantinopol'a vardığımda tesadüfen İstanbul Üniversitesi'nde iki yıllık hazırlık kurslarının açılacağı ile ilgili bir ilanla karşılaştım. İlan düşüncemi tamamen değiştirdi. Burada kalıp kurslara devam etmeye karar verdim. Kurslara 430 kişi alınacaktı ve 1750 kişi müracaat etmişti. Onlararasında ben de vardım. Yapılan eleme sınavını kazandım ve üniversiteye kayıt yaptırdım. 6-7 yıl Konstantinopol'da kalarak tahsilimi bitirdim.

...1918 yılında Türküstan'a dönmek gayesiyle Azerbaycan'a geldim. İrtibat yolları kapalı olduğu için Azerbaycan'da kalmaya mecbur oldum. Gence Lisesi'nde öğretmenliğe atandım ve ancak 1920 yılında Türküstan'a gidebildim. Türküstan'ın elverişsiz iklimi, 1922 yılında tekrar Azerbaycan'a dönmeme sebep oldu. O zamandan beri de burada, orta ve yüksek okullarda öğretmenlik yapıyorum. **(AMEA AEİTVSMA, dosya no. 39, liste 313, 16.)**" diye yazıyor.

2.Halid Seid'in Özgeçmişi İle Ters Düşen Birkaç Nokta

Halid Seid, özgeçmişinde nerede ve ne zaman çalıştığını gösterdiği hâlde birkaç yerde nedense susuyor. Mesela, İstanbul Üniversitesini ne zaman bitirdiği, bitirdikten sonra nerede çalıştığı, Azerbaycan'a 1918 yılının hangi ayında ve gününde geldiği, Gence'de hangi lisede çalıştığı, Özbekistan'a 1920 yılının hangi ayında ve gününde gittiği, ne zaman geri döndüğü konusunda net bilgi vermiyor.

Tarihî belge, çeşitli kaynaklar ve hatıralardan, Sovyetler Birliği'nde insanların yalnızca 1920-30'lu yıllarda değil, 1970-80'li yıllarda bile korku atmosferi içinde olduklarından dolayı Sovyet KGB teşkilatının takibinden yakalarını kurtarmak için özgeçmişlerinde birçok şeyi bilerek yanlış yazdıklarını biliyordum. Özellikle de vatansever ve milliyetçi aydınların bu yola başvurdukları bir gerçekti.

Halid Seid özkeçmişinde İstanbulla ailesinden gizli, bir tüccarla getdigini yazıyor Kızı Behce hanımın hatireleri bu tüccarın kimligine aydınlık getirir. Onun hatırladığına görüe haman tüccar dedesinin arkadaşı, ünlü Özbek araştırıcısı Hadi Zerifin dayısı imiş **(Turan Azer, 2009:5).**

Halid Seid 6-7 yıla Üniversiteyi bitirdiğini yazır. O döneminde İstanbul Üniversite'de 6-7 yıllık eğltim veren fakülte yoktu. Behce hanım babasının hatırasına

dayanarak Halid Seidin üç yıl tıp fakültesini okuduğunu, tıp fakultesini sevmediynden oradan uzaklaşdığını, sonra tarih-edebyat fakültesinde okuduğunu söyleyir. (**Turan Azer, 2009:6**).

Halid Seid Hocayev'le ilgili araştırmalar apardığımı bilen, Taşkend'te yayınlanan "Johan adabiyatı" dergisinde makalemin yayınlanmasına yardımçı olan, araştırıcı-şair Tahir Kahhar bana "Sadayı Turküstan" gazetesinin bir kaç sayını skayn edib göndermişdi. Burada Halid Saidin bir kaç makalesi vardı.

1914-15 yılında Ubeydulla Xocayev ile Münevver Qqarı Abdureşidxanovun Taşkendte yayınlatdığı "Sadayı Turküstan" gazetesini 1914. yıl saylarında Halid Seidin "Kim otur, cuvanmerk? Getirme haramı" (6 Mayıs, sayı 8), "Fasad ahlak kay vakta başlandı" (11 Mayıs, sayı 9, 23 Mayıs, sayı 12), "Mende neme gerek" (Haziran, sayı 18), "Hayırlık ümid" (15 Haziran, sayı 27) adlı makaleleri vardı. Bağçasarayda İsmaylı bey Gaspıralının yayınlatdığı "Tercuman" gezetesinin 1914 yıl 23 Şubatda basılan 43.sayında Halid Saidin "Mektub Taşkendden" makalesi basılmışdır. **("Tercuman" gezetesi, 1914, 23 Şubat).**

Özbek araştırıcısı Ziyo Said "Özbek vaqtli matbuoti tarixiqa materiallar" eserinde "Sadoi Turkiston" gazetesinden söz açarken deyir: "Bu gazeta kendi çevresine çok kişini celb etdi. Onin daimi

yazıçıları Münevver Kari, Abdulla Avloniy (İndamas), Tölaqan Höcamyorov (Tavallo), Saidnosir Mircalilov, Hamza Hakimzoda, Halid Said, Abdulhamid Sulaymon (Çölpon), Mömincon Muhammadconov, Abdulla Erğoziev, Nöşiravon Yovuşev, Siddigiy, Lutfulla Olimiy, Saidahmad Vasliy, Fuzayl Conbev, Muhammadcon Mudarris, Badriddin Alam, Hoci Muin, Şukur Rahimiy ve boşqalar idi." **(Said Ziyo, 2009:54)**

Şu belgeler Halid Seidin 1913 yılın sonları ve 1914 yılın önlerinde vatana döndügünü, orada bir ara yaşadığını, eğitimle ilgili makaleler yazdığını sonradan yene İstanbulda gitdigini tesdikleyir.

Halid Seid'in 1918 yılının Mart-Nisan aylarından sonra Azerbaycan'a geldiği anlaşılıyor. O zaman yeni kurulan Azerbaycan Halk Cumhuriyeti'nin ricasıyla Osmanlı Devleti'nin askerî birlikleri Gence'ye gelmiş ve Kafkas İslam Ordusu'nu kurmuştu. Bu ordunun kumandanı Nuri Paşa'nın siyasi işlerden sorumlu müşaviri, Kafkasya kökenli ve bölgeyi iyi bilen Ahmet Ağaoğlu (Ağayev) idi. Hazar ötesinde, Türküstan'da, Tataristan'da esarette olan Türk ve Müslümanlara yardıma gidecek bu orduya Ahmet Ağaoğlu gibi müşavirler gerekiyordu. Bu konuda bölgeyi iyi bilen ve Türküstan kökenli Halid Seid Hocayev'in de görevlendirildiğini düşünüyordum.

Böyle olmasa, Halid Seid, İran üzerinden veya Kafkas İslam Ordusu'nun 15 Eylül 1918 tarihinde

Azerbaycan Halk Cumhuriyeti'nin başkenti Bakü'yü Rus-Ermeni askerî birliklerinden kurtarmasından sonra Türküstan'a dönebilirdi. 1937 yılında gözaltına alınan Halid Seid KGB tarafından yargılandığında hâkimin; "Türk Ordusunun Azerbaycan'dan çekilmesinden sonra, sizin Türkiye'nin istihbarat birimleriyle ilişkinizin olduğu konusunda yeteri kadar bilgimiz vardır" **(AMTNA, dosya 12493, Bünyadov, 1993: 167)** sözlerini söylemesi de bu savı onaylamış oluyor.Cevap ise ilgincdir. Onu Abdurreşid İbrahimovun teşebbüsü ile Nuru Paşanın askeri birliginde Genceye gönderdiklerini ve Osmanlı ordusunun istikbaratına rehberlik eden Ruşen Aşref ile bağlantısı olduğunu söyleyir. Ruşen Aşrefi hakkında Türkiye kaynaklarında geniş bilgi olduğundan burada ondan kunuşmayacağız. KGB dosyasında Təşkilati-Mahsusa elamanı gibi yalnız Halid Seid Hocayevin ismi keçmir. Haşim Haik, Rehmanov Bekkan (Xarezm şeheri), Memmedov Sefa (Gazah şeheri), Kabil (Gazahıstan), Memmed Efendi (milliyyetce lezgi), Müeherrem Kamal (Azerneşrin işçisi) və başgalarının da ismi Halid Saidle birge gelenler sırasındadır.

Halid Seid, Eylül 1920 tarihinden itibaren Taşkend 'te Yüksek Pedagoji okulunda öğretim üyesi, sonra müdür olarak çalıştığını yazıyor. Bu da Azerbaycan'ın Bolşevik Rusya tarafından 28 Nisan 1920 tarihde işgalinden ve 28 Mayıs 1920 tarihte Genceden başlayan ve Azerbaycanın bir çok bölgesini kaplayan

isyandan sonraya tesadüf ediyor. Onun Bakü'ye tekrar dönüşü ise 1922 yılının Ekim ayına tesadüf ediyor. Bu da Enver Paşa'nın Türküstan'da saldırıya maruz kalarak şehit edilmesinden (04. 08. 1922) sonradır. O zaman Bakü'de çalışan Muhittin Birgen şunları yazıyor: "Bakü'de bulunduğum sırada bir müddet Enver Paşa'nın ordusunda bulunmuş olan bir Taşkend'li ile konuştum. Bu şahıs, Enver Paşa'nın son günlerinde yanında bulunanlar arasında olduğunu ve bir yolunu bularak kaçıp kurtulduğunu söylüyor" **(Birgen, 2006:773).** Bakü'de yayınlanan Azerbaycan gazetesinde 1919. Yıl Ocak ve Mart aylarında yayınlanmış "Dilemize hörmet edilsin" (30 Ocak, sayı 101) ve "Galip milletler iki iş arasında"(2 Mart, sayı 126) makaleleri Daşkentli Halid Seid imzası ile yanınlanıp. Mühittin Birgen'in Enver Paşa'nın şehit oluşunu yazarken birkaç defa "bir Taşkendli", "Taşkendli Türk", "bu Taşkendli" diye saygıyla hatırladığı şahsın Halid Seid olduğu kanaatindeyiz.

3.Bu kanaatimiz nereden kaynaklanmaktadır?

Enver ve Nuri paşaların kardeş olması, ayrıca Enver Paşa'nın, Azerbaycan'a Osmanlı askerî birliklerinin yollanmasına önem vermesine dikkat edilirse Halid Seid'le Enver Paşa'nın birbirlerini doğrudan tanıdıkları ihtimali de ortaya çıkıyor. Enver Paşa, Halid Seid'le İstanbul'dan tanışmasa bile Türküstan'a

giderken kardeşi Nuri Paşa'nın inandığı, güvendiği kimselerin adresini ona vermesi doğaldı.

1926 yılda Bakü'ye Birinci Türkoloji Kurultaya gelmiş Mehmed Fuad Köpürlüzade ile görüşerken Mehmed Fuad beyin Halid Seidi Ali bey Hüseyinzadeye "eski dostlarımızdan Halid Seid" deye tanıtması ve Halid Seidin de " Fuad beyle birinci defe tanış olmuyordum" yazması ve b. nedenler onun İstanbulda olurken milletci kesimle sıx bağlı olduğunu isbatlayır. **(Turan Azer, 2009:34)**.

5.Halid Seid'in Azerbaycan'a İkinci Gelişi

Halid Seid Bakü'ye dönüş sebebini, Taşkend'in havasının sağlığına dokunduğu şeklinde gösteriyor. Onun Sovyet makamlarına yazdığı bilgiler elimizdedir ve böyle bir sebebi ileri sürmesi bizce normal karşılanmalıdır. Halid Seid, kendini kurtarmak için bu şekilde yazmak zorunda idi, ancak araştırmacılar, onun Taşkend'ten Bakü'ye dönüşünün gerçek sebebini mutlaka bulmalıdır. Bu konu henüz yeterince araştırılamamış bir şekilde karşımızda durmaktadır. Özbekistan'daki KGB ve özel birimlere ait arşivlerin araştırmacıların kullanımına açılmaması, bu konuda yeterli bilginin alınamaması da doğal olarak gerçeklerin ortaya çıkarılamamasına sebep olmaktadır. Tahminimize göre Halid Seid, takipten kurtulmak için

veya yeni bir Türklük merkezi oluşturmak için Bakü'ye dönmüştür. **(Şamil Ali, 2003).**

Bakü'nün Balahanı kasabasında, işçiler için açılan İşçi Fakültesi'nde öğretim üyesi olarak görev yapan, Azerbaycan'ın en uç noktalarından olan Kusar köyüne giderek orada oluşturulan egitim (pedagoji) kurslarında çalışması (16. 5. 1923) Halid Seidin Bakıya gelişi, Aliheydar Garayevin akrabalarından Şabanovlarla ile ahbablik itmesi oldukca karanlık bir konudur. Şabanovlar onu Azerbaycanın en ünlü ailelerinden olan, yeni, Rusya ordusunun generalı, 1918 yıldan Azerbaycanın Savunma Bakanı olmuş Semed ağa Mehmandarovun bacısı Meryem hanımla Mir Rza xan Talışınskinin izdivacından olan Sitare hanımla evlendirmelerinin arkasında da hansısa planların olduğu yok deyil. Sitare hanımın kardeşleri Ağa xan (Ebülfet), Abbas han, Rüstem han Üniversite bitirmiş, baçıları-kız kardeşlerinin eşleri ise aydınlar idi. **(Turan Azer, 2009:57)**. Böyle bir ailenin kimsesi olmayan, kimsenin tanımadığı birisine kız vermesinin arkasında bizim bu günedek meyyenleşdire bilmediyimiz nese olmamış deyil.

1920. yılda Azerbaycanı bolşeviklər işğal etdikden sonra onlara uşaklık eden, Azerbaycan Müvekketi İnkilap Komitesinin üyesi, Bakü İnkilap Komitesinin reisi, Halk Herbi Deniz Komissarı, Halk Emek Komissarı, Kafkaz Kızıl Ordusu Herbi İnkilap Şurasının üyesi, 1923 yıldan Azerbaycan Kömünist

Parti sisekretarı, Bolşeviklerin ideoloji silahı olan "Kommunist" gazetesinin baş yazarı veb. görevlerde çalışmış, milletcilere divan tutan, fanatik Bolşevik gibi tanınan Aliheyder Garayevle **(ASE, 1979:60, III cild.)** Halid Seidin ilişkisi sıradan bir ilişki ola bilmezdi. Hatta Behce hanım küçükken Aliheyder Garayevin evine gitdiğini, onun kızı Zemfira ile oynadığını hatırlayır. **(Turan Azer, 2009:68)**.

Halid Seid 1924. yılının Ekim ayında yeniden Bakü'ye döner. Bütün baskılara rağmen Özbekistan Sovyet Sosyalist Cumhuriyeti Eğitim Bakanlığı'nın emriyle Azerbaycan'a gönderilen öğrencilerin velisi olur. Onun müdir olduğu öğrenci yurdu Özbek aydınlarının Azerbaycandakı nümayendeligine çevilir. Geleceğin ünlü araştırıcısı, folklorçu alim, Özbekistan Bilimler Akademisi Til ve Edebiyat Enstitu başkanş Hadı Zeripov (Hadı Zerip), Özbekistan Halk Artisti Helime Nesirova, Devlet Dram Teatrının artisti Nezire Aliyeva veb. bu gencler arasında vardır. **(Turan Azer, 2009:8).** O, Azerbaycan Yüksek Pedagoji Enstitüsü'nde, Semed ağa Ağamalıoğlu adına Toprak Bilimleri Teknik Lisesi'nde, Azerbaycan Devlet Üniversitesi'nde, Azerbaycan Hidromeliorasyon Teknik Lisesi'nde faaliyetlerini yürütmüş ve öğrencilere millî bilinci aşılamak gayesiyle Türkçülük propagandası yapmıştır. **(Hüseyinoğlu A.Ş., 2008:113).**

6.Halid Seid'in Ortak Türk Dili ve Alfabesi Uğrundaki Gayretleri

Avrupa'nın hızla ilerlemesi ve buna Türklerin ayak uyduramaması aydınları kara kara düşündürmekteydi. Bu durumu, bazıları devlet sisteminde, bazıları ekonomide, bazıları dinde, bazıları da Arap alfabesini öğrenmenin zorluğunda görüyordu. 19-cu yüzyılın ikinci yarısından başlayarak Mirza Fethali Ahuntzade (1812-1878) Arap alfabesini ıslah etmek gayesiyle bir proje hazırladı. Arzusunu gerçekleştirmek için İran'a ve Osmanlı Devleti'ne yöneldi. Mehemmed ağa Şahtahtlı (1846-1931) da, Mirze Fethali Ahuntzade'nin başlattığı bu işi devam ettirdi. Hatta Azerbaycan Cumhuriyetinin (28.05.1918-28.04.1920) parlamentosu da alfabe ıslahatı yapmak, yani Arap alfabesinin Latin alfabesiyle değiştirilmesi için çaba harcladı. Bolşevik işgali onların yapmak istediği işin yarıda kalmasına sebep olsa da, bu düşünce 1920'li yıllarda gerçekleşti.

1922. yılında Bakü'de Türk Halkları Aydınlarının Konferansı oldu. Konferansta yeni alfabe komitesi oluşturuldu. Komite Bakü'de oluşturulsa da, amaç eski Sovyetler Birliği'nde yaşayan, Arap alfabesini kullanan halkların hepsinin Latin alfabesi doğrultusunda hazırlanan tek bir alfabeye geçişini sağlamaktı.

Hald Seid Hocayevin 1929. yılda Bakü'de yayınlanan "Yeni elifba yollarında eski hatıra ve duygularım" kıtabında yeni alfabeni tebliğ etmeğe giden kişilerin yol boyunca Kırımda, Tataristan'da, Orenburg'da ve diğer şehirlerde yaptığı çalışmalarını geniş bir şekilde tasvir ediyor. Özbekistan'da hükümet adamları Moskova'ya gittiklerinden dolayı onlarla görüşme imkânı bulamıyorlar. Taşkend'in eski semtindeki Desterhancı Medresesi'ne gidiyorlar. Şehirde ilk Usul-i Cedit (çağdaş eğitim veren okul) Mektebini açan, "1906 yılından inkılaba kadar ilerici gençlere yardım eden" Münəvvər Qari ile tanışırlar. Akşam Münəvvər Qari ile Yusuf Aliyev onların vagonuna gelir ve birlikte sohbet eder, aydınlarla öğretmenlerin görüşlerini fiiliyata dökeceklerine dair söz verirler. Sonradan Şahabeddin Efendi'nin konuğu olurlar. **(Seid Halid, 1929:67).**

Halid Seid Hocayevin "Yeni Elifba Yollarında Eski Hatıra ve duyğularım" eserin başlığının hemen altında, "Bakü-Kırım-Türküstan, Bakü-Türkmenistan-Özbekistan. Birleşik yeni Türk elifbasi ile Azerbaycan lehçesinde birinci olarak bu eser tab edilir" kaydı vardır. Kitap 148 sayfadan ibarettir ve esere, Bakü Üniversitesi Şarkiyat Fakültesi öğretim üyesi olan Kazanlı Aziz Öveydullin (yazarın adı kaynaklarda Gaziz Salihoviç Gubaydullin şeklinde geçiyor) kısa ve anlamlı bir önsöz yazmıştır. **(Seid Halid, 1929).**

Bu, bir Türk aydınının Kırım'a, Tataristan'a ve Türküstan'a yaptığı seferi anlatan bir seyahatnamedir. Kitabın alınıp okunması 1937 yılından itibaren yasaklanmıştır. 1960'lı yıllarda okunmasına tekrar izin verilmiştir.

7.Birinci Türkoloji Kurultayda

Latın alfabesine keçmek için böyük çabalar gösteren Halid Seid "Bakıda toplanacaq olan türkoloqlar kurultayı karşısında "Osmanlı, Özbek, Kazak lehçelerinin mukayeseli sarfı-nehfi" (**Kocaoglu Timur, 1985, Kocaoglu Timur, 1986**) adlı kitabını Arap alfabesiyle yayınlatıyor. İsim, sıfat, zamir, fiil ve edat bölümlerinden oluşan 110 sayfalık kitabın ilk sayfasında şu cümleler yer alıyor: "Türkçenin çeşitli şiveleri arasından seçerek Türk uluslarının hepsinin anlayabileceği ortak bir dil oluşturabilir miyiz?" **(Seid Halid, 1926:1).**

Araştırıcı Esger Guliyev bu eseri "Türkolojide Mirze Kazım beyin eserinden sonra en deyerli muqaiseli gramer" adlandırır. **(Guliyev Esger, 1988: 23 Temmuz).**

İlmî ve pedagojik(eğitimçilik) çalışmalar yanında sosyal yönü de güçlü olan Halid Seid, Azerbaycan'ın başkenti Bakü'de 1926 yılında toplanan Birinci Türkoloji Kurultayı'nın düzenlenmesinde faal olarak çalışmıştır. Kurultaya özel olarak davet edilen

araştırmacı, kurultayın gündeminde olan konularla ilgili tartışmalara katılıyor, 28 Şubat tarihinde yapılan dördüncü toplantıda "Altay Dillerinin Akrabalık Meselesinin Tarihî ve Çağdaş Durumu" adlı bir bildiri sunuyor. Toplantılar esnasında aktif çalışan ve tartışmalara katılan Halid Seid'in bildirisini ne yazık ki, stenografçı kayda almamıştır. Konuyla ilgili belgede bir tek cümle, "Halid Seid Özbek Dilinde" konuştu şeklinde yazılmıştır. **(Nerimanoğlu K.V. ve Ağakişiyev E. 2006:129).** Stenograftaki görevliler Rus dilindeki konuşmalarıkaydettikleri halde, yalnızca Halid Seid'in değil, genel olarak Türkçe sunulan bildirileri kayda almamıştır.

Halid Seid tanıyanlar ise hatırlayırlar ki, o neinki toplantılarda, evde bele Özbek lehcesinde konuşmazdı. (**Turan Azer, 2009:66**). O, İsmaıl bey Qaspıralı, Hüseyin Cavid, Ali bey Hüseyinzad, Mehemmed Hadi, Abdulla Şaik, Ahmed Cavad veb. Aydınlar gibi konuşurmuş. Bu türlü konuşma ise ister Osmanlıda, ister Azerbaycanda, ister Kırımda yaşayan aydınlar için anlaşlıklı idi.

Günümüze kadar da Halid Seid'in bu kurultayda sunduğu bildiri bulunamasa da onun "Osmanlı, Özbek, Qazax dillerinin mükaiseli serfi-nehfi" ve "Yeni alfabe yollarında eski hatire ve duyğularım" kitaplarından hankı konuda çıxış etdiyi anlaşılır.

Ali bey Hüseyinzade Birinci Türkoloji Kurultaydan notlarında yazır: "Özbek Halid Seid fasih

Türkce nitkini verdi. Ona göre konuşma ferklerinin hüdudunu teyin itmek çetindir, lehcelerin coğrafiya bakımından bir-birine karışmaları, Türklerin bir-birini anlamaları için ümumi bir edebi dil zeruridir"... **(Turan Azer, 2009:21).**

Halid Seide göre günün en önemli konulardan biri Türk uruğları arasında standart dil yaratmakdır. Bes bu dil nasıl olmalıdır sorusunu cevaplayan Halid Seid mümkün ola bilecek bütün variantları karşılaşdırarak yazıyor ki, meydana çıkarılacak standart dil ayrı-ayrı Türk uruğları-soyları tarafinden anlaşılmayacaksa, o zaman böyle bir şeye girişmek faydasızdır ve menasızdır. Çünki böyle olduğu tekdirde hazırda mövcur olan dillerden birin oxur, öyreniriz. **(Turan Azer, 2009:22).**

Kurultaya katılanları Halid Seid'in kendi evinde misafir etmesini akrabası olan Kamer Salamzade şöyle anlatıyor: "Türkoloji kurultayına Türkiye'den de temsilci heyeti gelmişti. Bu heyette Türkiyeli Köprülüzade Muhammed Fuat ile birlikte, aslen Azerbaycanlı olan meşhur yazar ve gazeteci Hüseyinzade Ali Bey de vardı. Yeni alfabe komitesinin üyelerinden Halid Hocayev bey Özbek idi… Halid efendi Türkiye'den gelen misafirleri evine davet etmişti… Misafirler arasında Hüseyinzade Ali Bey, Fuat Köprülüzade, Mirze Celil Memmedkuluzade, Rızakulu Necefzade, Hüseyin Cavid, Halid efendinin komşusu, Türkiye'de Üniversiteyi

bitiren doktor Orhanbeyli de vardı.” **(Salamzade Gemer, 1990:15).**

Sitare hanımın kız kardeşinin eşi olan Rzakulu Necefzade o dönem Gürcüstanda Yeni Türk Alfabesi Komitesinin sediri işleyirdi.

8.Halid Seid’in İlmî, Pedagoji Faaliyetleri

Türkoloji’nin bugünkü durumuna baktığımızda Halid Seid’in yaptığı hizmetler pek fazla büyük görünmeyebilir; ancak 1920’li yıllardaki durum göz önüne alındığında ne kadar büyük ve önemli bir iş yaptığı daha iyi anlaşılır. Ülkenin asıl ideolojisinin proleter enternasyonalizm olduğu, Türkçülükle uğraşanlara pantürkist damgası vurularak baskı yapıldığı ve zindanlara tıkıldığı bir zamanda Halid Seid, “Türk Dillerinin Tarihî Grameri”, “Türküstan Tarihinin Kısa Özeti”, “Türk Edebiyatı Nazariyesi”, “Cığatay Edebiyatından Tetkikler”, “Karşılaştırmalı Gramer” vb. eserleri yazar. Bu çalışmalar son derece büyük önem taşımaktadır. Diğer taraftan Orhun yazıtlarını çağdaş dilimize çevirerek ona çeşitli açıklamalar getirmesi de dikkat çekicidir. **(Şamil Ali, 2003).**

Halid Seid’in Abdulla Tağızade ile birlikte yazdığı “Muhtasar Üslubiyat” adlı eserin birkaç baskısı yapılmıştır. 1933 yılında Latin alfabesiyle basılmış kitap ortaokul ve liselerde cümle bilgisi (sentaks,

sözdizimi) ve üslup konusunda ders vermek için hazırlanmıştır. Dört bölümden ibaret olan kitapta üslup konusu şöyle anlatılıyor: "Üslup, konuşmalarımızda ve yazılarımızda ifadeyi çeşitli gayelerle ve noktası noktasına uygun olarak anlatan, usul ve kuralları öğreten ilimdir". Bu kitabın editörlüğünü de ünlü türkolog Bekir Çobanzade yapmıştı. **(Hocayev Halid Seid, 1934:5).**

Halid Seid'in şahsi dosyasının 16. sayfasında profesör doktor Bekir Çobanzade'nin bir notu göze çarpmaktadır. Çobanzade, 2. 12. 1935 tarihinde düştüğü notunda şunları dile getirmektedir: "Seid Hocayev'in 14 ilmî eseri vardır. Bunların içinde Türk dilinin sentaksı ile ilgili sonuncu esere özellikle dikkat etmek gerekir. Hocayev bu eserde, Doğu ve Rus dilciliğinin sentaks teorisi sahasındaki düşüncelerin tamamından faydalanmış ve Türkçe'nin sentaksı ile ilgili zengin belgeler toplamıştır".

Bekir Çobanzade, herhangi bir tez yazıp savunmadan Halid Seid'e dilcilik alanında doktor unvanı ile doçentlik ilmî derecesinin verilmesini teklif ediyor **(AMEA AEİTVSM, fond 39, siyahı 313, sah. 16).**

Azerbaycan yazarı Gılman İlkin "Maşum 37. yılın acı hatıraları"nda yazır: "Bizim Enstitutuda (Azerbaycan Devlet Egitim Enstitusunda-H.A.Ş) Halid Seid Hocayev adlı bir müellimimiz vardı. Kendisi özbekdi, ancak İstanbulda eğitim almşıdı. Bize

üslubiyatdan ders dese de Fizuliyi onun gibi bilen ikinci bir kişi yokdu. Hatda Fizuliye aid soruyla Çobanzadeye müraciet etdikde, o, bizi Hocayevin yanına gönderirdi. O, Füzulininbazan en sade görünün misralarında elə derin manalar açardı, ağzımız açıla qalardı.

9. Halid Seidin Edebî Faaliyetleri

Edebiyyata şiirle gelen, Azerbaycanda ilk şiirini "Dördlük" adıyla "Maarif ve medeniyyet" dergisinin 1923 yıl 3 sayında (**Seid Halid, 1923:39, sayı 3**) yayınladan Halid Seid, ilmî çalışmalarla birlikte kesintisiz olarak çeviriler de yapmıştır. Rusçadan tercümelerle birlikte eski Türkçeden ve çağdaş Özbek Türkçesinden, Türkiye Türkcesinden Azerbaycan Türkçesine aktarmalar da yapmıştır. **(Şamil Ali, 2003).**

Onun Özbekı yazarı Abdulla Kadiri Çolkanbay'ın "Öten Günler"(Özbek hayatından tarihi bir roman) romanına yazdığı ön söz günümüzün editorlarına örnek ola bilir. Halid Seid yazır: "müellif keçmiş günler dedikde, her şeyden önce tarihi adamlarla hadiseleri bazen vagenevisler gibi tesvir itmek isteyir. Bununla da daha çok hırdabazlığa kapılır. Bazen de mükemmel tesvir etdiği sehneleri yeniden başkasının dili ile hülase üzre tikrar etmekden gurtula bilmir. Bununla da okucunu yormuş ve incitmiş olur. Azerbaycan Türkcesinde böyle parçalar mümkün oldukca

kısaldılmış, eserinn mahir kelemden yazılmış bir roman şekline salınmağa çalışılmışdır.” **(Turan Azer, 2009:40).** Halid Seid Reşat Nuri Güntekinin “Çalı kuşu”(kısaldılmış) romanını da aktarmışdır.Romanına o dönemin genc ve ünlü bilim adamı Henefi Zeynallı “Çalı kuşu hakkında bir kaç söz” adlı önsöz də yazmıştır. **(Tahmazov Raşid, 2012:546)**. Büyük ilgi ile karşılanan her iki roman sonralar da Azerbaycanda yayınlanmışdır. Ne yazık ki, sonrakı neşirlerde romanları ilk aktaran Halid Seidin adı hatırlanmamışdır.

Behce xanım deyir: “1935-ci ildə Ağa xan (Abülfet) Talışınskinin travmatoloji cerrahiyeye hakkında bir kitabı basıldı. Bilyormusunuz ...bu kitab haman dalda Azerbaycan Türkcesinde ilk kitab idi. Mesele burasındaydı ki, dayım (annemin kardeşi) kitabını Rus dilinde yazmışdı. Tercümesini ise babam etmişdi. Amma bu barede kitabda heç bir kayt yok idi.” **(Turan Azer, 2009:58)**

10.Halid Seid’in «Divanü lüğat-it-Türk»ün Tercümesindeki Hizmetleri

AMEA AEİTVSA Halid Seid’in şahsi dosyanın ilk sayfası, Kabartay-Balkar Vilayet Komitesi’ne-Kumukov’a- 1937 yılının 1 Haziran günü yazdığı mektupla başlıyor: “Sizin 4. 3. 1937 tarihli

mektubunuzu aldım ve büyük bir merakla okudum. Sorularınıza geç cevap verdiğim için özür dilerim.

1. Kaşgarlı Mahmud'un eserinin tek nüshası İstanbul'dadır ve eser orada çoğaltılmıştır.

2. Ben eserin tercümesine 1 Eylül 1935 tarihinde başladım ve içinde bulunduğumuz yılın Nisan ayında bitirdim. Eseri yayıma hazırlıyorum ve düzenlenmesi için Temmuz ayının 1'ine kadar editörlere, Akademik İgnatiy Kraçkovski (16. 03. 1883-24. 01. 1954) ve professor Sergey Malov'a (16. 01. 1880-06. 09. 1957) takdim etmek üzere Leningrad'da götüreceğim". **(AMEA AEİTVSA , fon 39, liste 313, s. 1)**

Mektubun üzerine (9 Haziran 1937 tarihinde) şöyle bir not düşülmüş: "Hocayev gözaltına alındığı (hapsedildiği) için mektup yollanmasın ve şahsi dosyasına ilave edilsin". Halid Seid Hocayev'in dosyasının 2-7. sayfalarında devlet hizmetinde çalıştığı yılların fotokopisi ve işe girebilmesi ile ilgili olarak kaleme aldığı 26 Nisan 1934 tarihli dilekçesi ve anket sonuçları yer almaktadır. 10-15. sayfalarda Halid Seid tarafından yazılan eserlerin adları ve her eserin konusu hakkında iki üç cümlelik bilgi notu vardır. Buradan da Halid Seid'in 13 eserinin tahminen 125 forma tuttuğu, tercüme ederek yayıma hazırladığı Divan-i Lügat-I it-Türk'ün de 70-80 forma olduğu anlaşılıyor.

Halid Seid, Rus dilinde yayımlanmış, «Divan-i lugat-i it Tyurk» (Mahmuda Kaşkarskogo)" makalesinde (**Trudu Azerbaydjanskogo…, 1936:105-**

112) tercümenin özelliği, uygulanacak yeni kurallar vb. hakkında etraflı bilgi vererek şunları yazıyor: "Divan'da Türk sözleri Arapça açıklandığı ve sözlerin dizilişi gerekli olan kelimeyi kolay bulmaya imkan vermediği için günümüz insanı ondan yararlanmakta zorluk çekmektedir. Bunun için de çeviri yeni kurallarla basıma hazırlanacaktır. Uygulanacak yeni kurallar şunlardır:

1. "Divan'ın üç cildine yayılmış gramer bilgileri bir yerde toplanacak ve Kaşgarlı Mahmud'un kitaba yazdığı ön sözden sonra verilecektir.

2. Meçhul (belirsiz) fiil şekli ve geniş zaman (belirsiz gelecek zaman) şekli açıklanmıyor, yeni kuralla açıklanacaktır.

3. "Divan"'daki sözlerin hepsi çağdaş alfabe sırasına göre verilecektir.

4. "Divan'daki sözlerin hepsi Arap alfabesi ve Azerbaycan Türkçesi için hazırlanan Latin karakterli alfabe ile verilecektir.

Halid Seid'in metodik makalesi 4 bölümden ibarettir. Birinci bölümde "Divan" hakkında genel bilgi veriliyor, ikinci bölümde yeni kurallar açıklanıyor, üçüncü bölümde tercüme esnasında karşılaşılan zorluluklardan söz açılıyor, dördüncü bölümde ise "Divan"dan örnekler veriliyor (**Hocayev H.S. 1936).**

Besim Atalay şöyle yazıyor: "Divan-ü Lügâti't-Türk" Türkiye dışındaki Türklerin de ilgisini

çekmiştir. Sovyet (Bilimler-A.Ş.H.) Akademisinin Azerbaycan Şubesi 6 yıl önce bir komisyon kurarak başkanlığına Halid Seid adında birisini getirerek işe başlamıştır. Bu komisyon bir program yapmış, bir de rapor hazırlayarak bastırmıştır.

Komisyon, hazırladığı raporda Divan'dan bir takım örnekler de sunmuştur. Latin harfleriyle yazılan bu örneklerde birtakım hatalar yapılmıştı. Kelimelerin Hakaniye Türkçesiyle, yani eski Kaşgar üslubuyla yazılması gerekirken, bugün Türküstan'daki şehirlerde yaşayan halkın söyleyiş tarzına göre yazılmıştır.

Dile getirilen ve Azerbaycan'da da basılan rapordan sonra bu çalışmanın nasıl bir şey olduğu ve neler yapıldığı konusunda herhangi bir bilgi öğrenemedik. Bu rapor, "SSBC Bilimler Akademisi'nin Azerbaycan'daki Şubesi Çalışmaları" adlı derginin 31. sayısında çıkmıştır". **(Atalay Besim, 1943: XXXI, I cilt).**

Besim Atalay'ın düştüğü kayıttan da, onun "Divan"ın Azerbaycan'da basıma hazırlanması ve Halid Seid'in makalesi konusunda herhangi net bir bilgiye sahip olmadığı anlaşılıyor. Aslında bu makale, Türk dünyasında «Divanü lüğat-it-Türk»ün çevrilmesi ile ilgili ilk çalışmalardandır.

11.KGB Arşivlerinde Halid Seid'le İlgili Yazılanlar

Azerbaycan Devlet Tehlikesizlik (KGB) Bakanı Novruz Rızayev, Azerbaycan Komünist Partisi Merkezi Komitesi sekreterliğine 15 Mayıs 1929 tarihinde yazdığı gizli mektubunda milliyetçi öğretim üyelerini ve öğretmenleri okullardan temizlemek, yani işten atmak için bir komisyon kurulmasını ve bu komisyona gizli olarak KGB elemanlarının tayin edilmesini tavsiye ediyor. Tavsiyede şunlar yer almıştır: "Özellikle Türk edebiyatı, coğrafya ve sosyoloji konularında ders veren öğretim üyelerine ve öğretmenlere karşı yapılan bu temizleme faaliyetinin toplu memnuniyetsizlik oluşturmaması için çeşitli zamanlarda ve ayrı ayrı okullarda hayata geçirilsin." **(Genç Azer, 1993:39).**

Belgeden şu anlaşılıyor; milliyetçilik daha çok eğitim birimlerinde, aydınlar, ortaokul ve yüksek okul öğrencileri arasında yayğındır. Milliyetçiliğin yayılmasında aktif rol alanlar ise, Sovyet aleyhtarı düşünceye sahip aydınladır. **(Genç Azer, 1993:39).**

Halid Seid'in faaliyeti, Sovyetler Birliği'nin istihbarat elemanlarının gözünden kaçmamıştır. 3 Haziran 1937 tarihinde gözaltına alınırken kendisiyle birlikte 35 yaşındaki eşi Sara (Halit Seid Hocayevin hanımının ismi kaynaklarda Sitare ve Sara gibi keçir-A.H. Ş), da tutuklanmıştır. 12 yaşındaki kızı Behice,

30 yaşındaki kardeşi Sultan ve 28 yaşındaki kız kardeşi Ruhsara baskı altına alınmıştır.

Devlet Tehlikesizlik Komitesi (KGB) elemanları evden 27 adet çeşitli kitap, Türkiye'de yayımlanan «Cumhuriyet» gazetesinin 1933 yılına ait nüshası, 1927 yılında yayımlanan beş dergi, «Alfabe» kitabı vb. belgeler de almışlardır **(AMTNA, iş 12493/72).**

Gözaltına alındığında sorgu hâkimi ile arasında geçen diyalog belgelerde şu şekilde yer almıştır:

Sorgu hâkimi: Antibolşevik, pantürkist teşkilata ne zaman girdiniz?

Halid Seid: 1925 yılında tanınmış pantürkist Aziz Salihoviç Gubaydillin'in Bakü'ye gelmesinden sonra.

Sorgu hâkimi: Pantürkist teşkilattaki faaliyetleriniz hangi doğrultuda idi?

Halid Seid: Ben öğrenciler arasında pantürkist propagandası yaparak Sovyet hâkimiyetine karşı olan milliyetçi kadrolar yetiştiriyordum" **(AMTNA, dosye 12493/72, Bünyadov, 1993:166).**

Uzun yıllar Azerbaycan Millî Güvenlik Bakanlığı'nın arşivlerinde çalışarak elde ettiği belgeler doğrultusunda ondan fazla eser meydana getiren Prof. Dr. Celal Kasımov "Repressiyadan Deportasiyaya Doğru" adlı eserinde şunlara işaret etmektedir; "Sovyet döneminde baskı ve zulme maruz kalan bazı ilim adamları ve aydınlarla ilgili olarak herhangi bir şahıs hakkında makale veya inceleme yazısı yazarken sık sık "güya antisovyet propagandası yapmış", "güya Sovyet

hükümetini sevmemiş", "güya pantürkist olmuş", "güya milliyetçi olmuş", "güya…" gibi ifadeler kullanır ve bununla da "suçsuz hükümlü" portresi oluşturmaya çalışıyorlar. Aslında bu suçsuz hükümlülerin büyük çoğunluğu Sovyet rejiminin kanunlarına göre suç işlemiştir. Bu suçlar, bugünkü nesle örnek oluşturabilecek, iftihar kaynağı olacak, gurur duyulacak suçlardır. Onların suçsuz olduklarını ileri sürmek tarihi tahrif etmekten başka hiçbir şeye hizmet etmez. Bu tür ifadelerin kullanılması Sovyet döneminde olumlu kabul edilse de bugün çok şaşırtıcı gelmektedir. Bizler baskı ve zulüm siyasetine maruz kalanların tamamını fark gözetmeden bağımsız Azerbaycan uğrunda mücadele eden şahıslar olarak takdim etmek istemeyiz.

…Bolşevikler tarafından "Karşı ihtilalci milliyetçi teşkilat"ın üyeleri olarak suçlananlar, onların yürüttüğü siyasete karşı çıkanlardı. "Karşı ihtilalci milliyetçi teşkilat" derken Sovyet hükümeti, Müsavatçıları, İttihatçıları, Turancıları, kısaca millî kurtuluş yolunda yürütülen mücadeleye katılanları göz önünde bulunduruyordu. Arşiv materyalleri, adlarını bugün de "güya…" ibaresiyle kullandığımız teşkilatların gerçek mevcudiyetlerini ortaya koymaktadır. Aynı zamanda muhacerette yaşayan Azerbaycanlı fikir ve siyaset adamları da Bolşeviklere karşı yürüttükleri gizli teşkilatların çalışmalarını inkâr etmiyorlar." **(Gasımov, Celal, 1998:71-72)**.

KGB'nin sorgu hâkiminin Halid Seid'in yüzüne karşı söylediği: "Azerbaycan'dan Türk Ordusunun çekilmesinden sonra sizin Türkiye istihbarat birimleri ile ilişkinizin olduğu konusunda yeteri kadar bilgimiz vardır". **(Bünyadov, 1993:167)** sözleri de, onun neden 1918 yılında Özbekistan'a gitmeyip Azerbaycan'da kaldığına ve özgeçmişinde bu yıllar hakkında neden net bilgi vermediği konusuna da ışık tutuyor.

1956 yılında Sovyetler Birliği Komünist Partisinin 20. Kurultayı'nda Stalin suçlu ilan edildi. Bundan sonra 1930'lu yıllarda gözaltına alınan, sürgün edilen ve kurşuna dizilenlere itibarlarını iade etmek için komisyonlar kurduruldu. KGB'de oluşturulan bu komisyonun isteğine binaen, Halid Seid'le ilgili olarak başvurulan bilim adamları kendi düşüncelerini çekinmeden kaydetmişlerdir.

Prof. Ali Sultanlı:

"O, şimdi bile önemini kaybetmeyen, Türk dillerinin mukayeseli grameri eserini yazmıştır. Bu kitap akraba dillerin mukayeseli grameri alanında çok kıymetli bir eserdir. Onun üsluba dair eseri, ortaokul öğretmenleri ve üniversite öğrencilerinin uzun zaman yegâne ders kitabı olmuştur. Son yıllarda Azerbaycan Türkçesinin tarihi konusunu işlemek gayesiyle Arap kaynaklarını dilimize çeviriyordu. Onun kendi gücünü ve enerjisini Azerbaycan dilciliğinin gelişimi konusuna harcadığını yazdığı eserleri açıkça gösteriyor.

Halid Seid, alçakgönüllü, az konuşan, kendi işini büyük bir sorumluluk duygusuyla yapan bir şahsiyetti".

Akademik Feyzulla Kasımzade onunla ilgili olarak şunları yazmıştır: "Halid Seid'in öğretmen ve öğrenciler arasında büyük nüfuzu vardı. Öğrenciler onu çok seviyordu. Ahlaklı, vicdanlı bir Sovyet öğretmeni idi".

Akademisyen Memmedağa Şireliyev'in yazdıkları: "Ben Halid Seid'i 1933 yılından tanıyorum. Gözaltına alınana dek eski metinlerin okunması üzerinde çalışıyorduk. Derslerde olduğu gibi teneffüslerde de antisovyet propagandaların yapılmasına hep karşı çıkmıştı… Ben Halid Seid'i vicdanlı, namuslu bir Sovyet vatandaşı olarak tanıyorum".

Prof. Mikayıl Refili ise şu notları düşmüştür: "Abdülrıza Salamzade, Seyid Hüseyin Sadıkzade, Halid Seid Hocayev, Veli Huluflu, Hanefi Zeynallı, Ali Kerimov gibi şahıslar konusunda her zaman olumlu fikirler taşımışım" **(AMTNA, dosye 12493/72).**

1956 yılı Mayıs ayında Halid Seid'le ilgili bilgiler toplayan KGB elemanına böylesine olumlu sözler yazan ve onun üzerindeki mahkûmiyet kararının kaldırılmasına çalışan şahısların nedense gündelik basında çıkan bir tek satırlık yazılarına bile rast gelmedim.

12.Halid Seid'in Kızının Söyledikleri

1973 yılında üniversiteyi bitirdiğimde beni Nahçıvandaki "Şark Kapısı" gazetesinde çalışmak için yolladılar. Bu şekilde merkezden uzaklaşmam, arşivlerde ve zengin kitaplara sahip kütüphanelerde çalışmama engel oldu. Mezuniyet döneminde belirli aralıklarla Bakü'ye gelerek, 1920-1930'lu yıllarda Sovyet temizlik hareketinin kurbanı olmuş aydınlar hakkında elde edebildiğim bilgileri topluyordum. 1979 yılında AMEA Azerbaycanda Elmi İrsin Toplanması ve Sistemleşdirilmesi Merkezi Arşivinde çalışan bir hanım, Halid Seid'le ilgili dosyayı bana verdiği zaman şunları söyledi: "25 yıldır arşivde çalışıyorum, bu zaman zarfında Halid Seid'le ilgilenen ikinci şahıs sizsiniz."

Benden önce bu dosya ile ilgilenen kişinin dilci, dil tarihi uzmanı veya Azerbaycan-Özbekistan edebî ilişkileri üzerinde çalışan araştırmacılardan biri olduğunu düşünüyordum. Basını dikkatle izliyordum, ancak Halid Seid hakkında hiç bir yazıya rast gelmiyordum. "Halid Seid'in hayatı ve faaliyetleri konusunda bilgi sahibi olan bir araştırmacı asla susamaz! Bu belgeleri okuyup inceleyen şahıs niçin susuyor?" diye düşünüp duruyordum. Bir sonraki yıl arşivde çalışırken Halid Seid'in dosyası ile ilgilenen kişinin kimliğini öğrenmek istedim. Arşivde çalışan şahıs günün sonuna dek beklememi ve ancak o zaman

sorumu cevaplandırabileceğini söyledi. Günün sonunda bana verdiği küçücük notta şu satırlar yazılmıştı: "Memedova Behce Halid Seidovna. Yabancı Diller bölümünde öğretmen. Adresi: Bakı Hosrov Ruzbeh küçesi (sokak) 44/46, blok 2, menzil (ev no) 31".

Verilen notu okur okumaz Halid Seid'le ilgili dosyayı okuyan şahsın bir araştırmacı değil, Halid Seid'in kızı olduğunu anladım. Tanrım, onu ne kadar aramıştım! Halid Seid'in dosyasında bulunan, Kasım İsmailov caddesindeki 12 numaralı eve defalarca gitmiş, ancak bir sonuç elde edememiştim! Orada değerli bir belge bulamayacağımı iyi biliyordum. Sovyetler Birliği'nin baskı ve yok etme siyasetinin kurbanı olanların aile üyelerinin ekseriyeti gibi, beni de gözyaşlarına, kedere boğacaklardı. Doğrusunu söylemek gerekirse bu acıların buruk da olsa güzel bir yanı vardı. Gerçeklerin yıllar yılı tozlu raflarda beklemesi ve birilerinin onlara yaklaşarak hakikati ortaya çıkarmasına engel olunması ne kadar sürebilirdi ki!? Güneş balçıkla sıvanamadığı gibi, bu tür baskılar bir gün gelip ortadan kalkacak ve gerçekler daha fazla karanlıkta kalamayacaktı, bu da beni mutlu edecekti. Keşke aile üyelerinden, onu tanıyanlardan birini bulabilseydim diye yanıp tutuşuyordum, ama ne yazık ki, hiç kimseyi bulamıyordum. Hatta onların komşuları bile değişmişti. Tam ümidimi yitirmek üzere iken,

birdenbire bu millî şehidimizin kızının adresini avuçlarımın içinde bulmuştum.

Bir demet çiçek almayı ve kendime çeki düzen vermeyi de unutarak, taksiye bindiğim gibi elimdeki adrese doğru yöneldim ve on dakika sonra gösterilen adreste kapının zilini çaldım. Düşündüğüm gibi de oldu. Kendimi tanıtıp içeri kabul edildiğimde ve neyi aradığımı söyler söylemez Behice hanım gözyaşlarına boğuldu. Ağlaması konuşmasına engel oluyordu. Babasının hapsedilmesinin üzerinden 40 yıl geçse de, olay dün olmuş gibi idi, hem anlatıyor, hem de hıçkıra hıçkıra ağlıyordu. Ağlaması konuşmasına engel oluyordu. Sakinleştiği anlarda fırsattan istifade ederek konuyu istediğim tarafa yönlendiriyor, belgelerde rastladığım şeylerin doğruluğunu teyit etmek gayesiyle peş peşe sorular soruyordum. Behice hanım ise sorularıma cevap vermiyor, o vakitler başlarından geçenleri birer birer hatırlıyor. "Küçük değildim, hayır, hayır! 12 yaşındaydım. O dehşetli geceyi unutmak mümkün mü? Şimdi de rüyama girdiğinde dehşete kapılarak uyanıyorum. 1937 yılının 3 Haziran günü babamı götürdüler. Kendisiyle birlikte üç bavula da yazdıklarını doldurdular. Babam yazdıklarının yalnızca bir tanesini onlara çaktırmadan anama verdi. Bunu saklayabilirseniz bir gün gelir geçiminizi sağlar, dedi.

Anneme verdiği kitabı son günlerde tamamlamıştı. Annemin gözaltına alınmasıyla onu da kaybettik.

Annem gözaltına almaya geldiklerinde kulağıma şunları fısıldadı: "Koş teyzenlere". O yıllarda babaları, anneleri gözaltına alınanları zorla çocuk ıslah evlerine, yatılı okullara yolluyorlardı. Babasını ve annesini kurşuna dizdikleri, Sibirya'nın buzlu cehennemine yolladıkları kimselerin çocuklarını, beyinlerini yıka-yarak Sovyet vatanseverliği duygusu ile yetiştirmek gayesini güdüyorlardı. Akrabalarının himayesinde yetişen çocukların Sovyet Hükümetine nefret duygusuyla dopdolu büyümesinden korkuyorlardı.

-Hiç Taşkend'e gidip babanızın doğum yerini, amcanızı, halanızı, ninenizi ziyaret ettiniz mi?

- Neslimizle ilgili birçok bilgiyi hafızama kaydetmiştim. Dedemler o bölgenin tanınmış Hocalar soyundandır. Adı Seid Ali'dir. Soyadımız "Hocayev" de oradan gelmedir. Babamgiller beş kardeş imiş. Büyüğünün adını hatırlayamıyorum. İkinci kardeşinin adı Sal Hoca, üçüncüsü Hal Hoca, dördüncüsü Ahmet Hoca, beşincisi Sultan Hoca'dır. Hal Hoca, babamın adıdır. Sonradan Hhocalara hem de Sseid dediklerinden dolayı bu ifade sonralar Seid Halid'e dönmüştür. Dedemgilin köyü Koşkurğan, Bostanlık ilçesindedir, Çirçik'in yanındadır. Benim adım dokümanlarda Bayca yazılsa da, babam ve evdekiler Behice diye çağırıyorlardı. Babam sonuncu kez Koşkurğana 1936 yılında gitmişdi.

1957 yıllarda eşim Ziya Memmedov işiyle ilgili olarak Taşkend'e giderken beni de götürdü. Birlikte

babamın köyünü ziyaret ettik.Orada babamın kardeşi oğlu, matemetik öğretmeni olan Feyzulla yaşıyordu. Müsafiri olduk.

Behice hanım konuştukça, "genetik hafızamız" ifadesi gelip kafamda canlanıyor. Babasının vatanından binlerce kilometre uzaklarda dünyaya gelen, teyzesinin himayesinde büyüyen, Azerbaycan'da üniversiteyi bitiren ve yıllarca burada çalışan Behice hanım öylesine duyarak, içten konuşuyordu ki, sanki Koşkurğan köyünden üç beş gün önce gelmişti.**(Şamil Ali, 2003:38).**

Behice hanım 10 yıldan fazladır kızı Efruzla birge Kanadada torunu Toğrulun yanında yaşayır.

13.Halid Seid Hakkında Yazılanlar

Halid Seid'in kurşuna dizilmesinden 80 yıl, itibarının iade edilmesinden 60 yıl, Azerbaycan ve Özbekistan'ın bağımsızlığından 26 yıl geçmiş olsa da, onun, bağımsızlığımızın ideolojik temelini oluşturan eserleri henüz yayımlanmamış ve bu konuya kendini adayanların hizmetleri gerektiği şekilde anlaşılamamıştır.

Ölümünden 35 yıl sonra "Sovetskaya Turkologiya" dergisi «Divanü lüğat-it-Türk»ten söz açarken Halid Seid'in de adını anmıştır.

Arif Rehimov, 1985 yılında hazırladığı doktora tezinde şunları yazmıştır: "1930'lu yılların ikinci

yarısında Sovyet Sosyalist Cumhuriyetleri Birliği Blimler Akademisi'nin Azerbaycan Şubesi'nin filoloji bölümünün emriyle Kaşgarlı Mahmud'un "Divan"ını Azerbaycan Türkçesine aktarmak için Halid Seid Hocayev'in başkanlığında Prof. P. K. Juze, E. Elesgerzade, F. İsmihanov ve E. Demirçizade'den oluşan bir grup oluşturuldu". **(Rehimov Arif, 1985:12).**

Sovyetler Birliğinde Gorbaçov döneminden sonra Halid Seid Hocayev'le ilgili olarak Asker Guliyev (**Guliyev Asker, 1988 sayı 11, Guliyev Asker 1991**), Adalet Tahirzade (**Tahirzade Adalet,1988:76-97**), Ziya Bünyadov (**Bünyadov Ziya, 1993**), Adil Babayev (**Babayev Adil, 2003**), Azer Turan (Azer Turan, 2009), Ali Şamil Hüseyinoğlu (**Hüseyinoğlu Ali Şamil, 2002, Hüseyinoğlu Ali Şamil, 2008**) veb. araştırmaları yayınlandı.

Dr. Asker Guliyev araştırmasında şu notları düşmüştür: "Bu eserler (H.S.Hocayev'in "Sentaks" ve "Üslup Nazariyesi" adlı eserleri kastediliyor-A.Ş.H.) Halid Seid'in ortaya çıkarılmayan araştırmaları değildir. Onun bunlardan başka 12 forma hacminde "Türk Dillerinin Tarihi Grameri" adlı eseri de vardır. Sovyetler Birliyi Blimler Akademisi'nin Azerbaycan Şubesi'nin siparişi ile yazdığı tarihî genel Türk grameri konusunu işleyen bu eser, Kaşgarlı Mahmud'un "Divan'ının kaynakları esas alınarak kaleme alınmıştır.

Halid Seid gözaltına alındığında bu eseri de kaybolmuştur.

"Verilen bir bilgiye göre "Divan"ın tam tercümesi 1939 yılında tamamlanmış ve aynı yıl S. Malov ve A. Kononov tarafından düzenlenmiş, yayınlanması için takdim edilmiştir… Lakin 1960'lı yıllarda tercüme tekrar ele alınmış ve üzerinde yeniden (E. Demirçizade, E. Ceferov, C. Efendiyev) çalışılmıştır **(Tahirzade Adalet, 1973: 4, sayı 1.).**

O zamandan beri "Divan"ın tercümesi saygın komisyonlar tarafından incelenmiş, bazı düzenlemeler yapılmış, tercümecilerin listesine yeni-yeni soyadlar ilave olunmaya devam etmiştir… Halid Seidin adı bu listede hala durmaktadır **(Guliyev Asger, 1988:23 Temmuz)".**

Asger Guliyev'in, Halıd Seid'le ilgili olarak kaleme aldığı "*İki Halkın Oğlu*" adlı makalesi, Osman Goşgar tarafından Özbekistan Türkçesine aktarılmış ve "*Gülistan*" dergisinde yayınlamıştır **(Ceferov,1988: 17 Aralık).**

Besim Atalay, «Divanü lüğat-it-Türk»ün tercümesinin birinci cildinde (1985) H. S. Hocayev'le ilgili bilgi veriyor. Timur Kocaoğlu, "Türküstanlı Dilci Halid Seid'in Türk Lehçelerinin Karşılaştırmalı Grameri" adlı makalesini "Türk Kültürü"dergisinde (1985), "Azeri Bilgini Halid Seid'in Türk Lehçelerinin Karşılaştırmalı Grameri" makalesini ise "Tarih İncelemeleri" dergisinde (1986) yayınlatmıştır.

Bunların her ikisinden de Sovyetler Birliği'nin demir perdeleri darmadağın edildikten sonra haberim oldu.

F.Aşnin de 1980 yıllardan Halid Seid Hocayevle ilgili araştırmalara başlamış, Behce hanıma mektuplar yazmış, ne yazık ki, çok degerli ve kaynaklara dayanan makalesini 2002 yılda yayınlada bilmişdir**. (Aşinin F., Alpatov V., Nasilov D., 2002:110).**

1996 yılında Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili ve Edebiyatı Anabilim Dalı'nda "Halid Seid'in "Osmanlı, Özbek, Kazak Dillerinin Mukayeseli Sarfı" adlı eseri ve bugünkü Türkiye, Özbek, Kazak Türkçelerinin karşılaştırmalı grameri konusunda, Yrd. Doç. Dr. Mustafa Çıpan'ın danışmanlığında yüksek lisans tezi hazırlayan Mustafa Toker, Türk Dünyası Dil ve Edebiyat Dergisinin 2. sayısında "Halid Said Hocayev ve Yeni Elifba Yollarında Eski Hatıra ve Duygularım Adlı Eseri" makalesini de yayınlatmıştır. On yıl sonra ise Mustafa Toker, Ufuk Deniz Aşçı ile birlikte Hocayev Halid Seid'in "Yeni Elifba Yollarında Eski Duygu ve Hatıralarım" kitabını Ankara'da Türk Dil Kurumu Yayınları arasında yayınlatıyor. (**Toker Mustafa, Aşçı Ufuk Deniz, 2007**). Selçuk Üniversitesi Fen-Edebiyat Fakültesi, Türk Dili ve Edebiyatı Bölümü Araştırma Görevlisi Fatih Erbay, bu konuda Turkish Studies / Türkoloji Araştırmaları Volume 2/3 Summer 2007 sayısında geniş bilgi veriyor.

Özbekistan'da ise Halid Seid Hocayev hakkında 4 makale yayınlanmıştır. Onlardan ikisi, Asker Guliyev'in makalesi ("Gülüstan" dergisinin 1988 yıl 11. sayı) ve benim ("Jahan edebiyotı" dergisinin 2008 yıl 1. sayı) Azerbaycan'da yayınlanan makalelerimizin çevirisidir.

Abdusolik Kulboev'in "Kommunizm uçun" gazetesinin 1989 yılının 22 Nisan sayında yayınlanmış "Kuşkurğonlik olim" (**Kulboev Abdusolik, 1989**) ve Anvar Jabborov'un "Kommunizm uçun" gazetesinin 1990 yılı 5 Temmuz sayısında yayınlanan "Holid Said Hujaev" (**Jabborov Anvar, 1990**) makaleleri, merhum araştırmacımızı tanıtmak bakımından dikkati çekse de onlar Asker Guliyev'in "Golustan" dergisinin 1988-ci il, 11. sayında yayınlanmış "İkki halk farzandı" yazdıklarının tikrarından ibarettir.

Sonuç

Halid Seid Hocayev ile ilgili olarak edinebildiğimiz belgeler, 49 yıl ömür sürmüş, ömrünün 30 yılını Türk halklarının istiklali ideali uğruna adayan bu büyük insanın, gençliğinde askerî birlikler ve örgütlerde yer aldığını gösteriyor. O, 1922 yılından sonra Türk halklarının birliği için ortak dil, ortak kültür ve ortak alfabe oluşturma yolunda büyük çaba göstermiştir.

1925 yılından itibaren ise **Birleşik Türk-Tatar Devleti** kurmak gayesiyle bir teşkilat oluşturmuştur. Bu teşkilata Rusya'da esaret altında olan Türklerin aydınları, bilim adamları, devlet kademesinde yüksek makamları işgal edenler, ordu mensupları vb. alınmıştır. Onların istekleri o zamanlar gerçekleşme imkânı bulamadı ve Sovyet ceza makinesi bu kıymetli şahsiyetleri 1937 yılında sudan bahanelerle ve uyduruk mahkemelerin sahte kararlarıyla, birçoğunu da yargısız infazla şehit etti. Anca onların istek ve ülküleri yaşayarak geç de olsa hayata geçti. Aslında bir ideolojinin gerçekleşmesi için 50 veya 100 yıl pek o kadar da fazla uzun bir zaman dilimi değildir.

KAYNAKLAR

1. Azerbaycan Milli Bilimler Akedimisi Azerbaycanda Elmi İrsin Toplanması ve Sistem-leşdirilmesi Merkezi Arşivi (AMEA AEİTVSMA), fon 39, liste 313, Hocayev Halid Seid'in dosyası.

2. Aşinin F., Alpatov V., Nasilov D. (2002). Repressirovannaya tyurkologiya, Moskva.

3. Atalay Besim. (1943). "Divanü lugati-it Türk" tercümesi, I cilt. s. XXXI

4. Azerbaycan Millî Tehlikesizlik Nazirliği'nin (İstihbarat Bakanlığı) Arşivi (AMTNA), Hocayev Halid Seid'in dosyası 12493/72

5. Azerbaycan Sovyet Anskilopedisi (ASE). (1979) 3. cild, Bakü.

6. Babayev Adil. (2003) Elimizin ve İlmimizin Soykırımı, 1. kitap, Bakı Üniversitesi neşriyatı, Bakı.

7. Birgen Muhittin. (2006). İttihat ve Terakki'de On Sene (İttihat və Tərakki'nin sonu). Hazırlayan və Notlayan Zeki Arıkan, ikinci cilt, Kitapyayınevi, İstanbul.

8. Bünyadov Ziya.(1993), Kırmızı Terör. "Azerbaycan Dövlet Neşriyatı". Bakı. (Kitaba alınan makalelerin ekseriyeti Z. Bünyadov tarafından 1988 yılından başlayarak "Elm" gazetesinin çeşitli sayılarında ve başka gazetelerde yayımlatılmıştır.

9. Butan Ahmed.(2011). Kurşunlanan türkoloji, Gözden keçirilmiş 3. Baskı, "Akçağ" nəşriyyatı, Ankara.

10. Ceferov E. (1988) Halid Seid Ana Yurdunda. "Elm" gazetesi, 17 Dekabr (Aralık), sayı, 48 (174).

11. Daşkentli Halid Seid. (1919). Dilemize hörmet edilsin, Azerbaycan gazetesi, 30 Ocak, sayı 101.

12. Daşkentli Halid Seid. (1919). Galip milletler iki iş arasında, Azerbaycan gazetesi, 2 Mart, sayı 126.

13. Genç Azer. (1993). (İstintak Materialları Üzre) Senetleri çapa hazırlayan (Belgeleri yayıma hazırlayan): B. C. Refiyev. "Azerneşr", Bakı.

14. Gasımov Celal. (1998). Repressiyadan deportasiyaya doğru, “Mütercim” neşriyyatı, Bakü.

15. Guliyev Asker. (1988), İki Halkın Oğlu. "Elm" gazetesi, 23 iyul (Temmuz), sayı, 29 (127).

16. Guliyev Asker. (1988). İkki halk farzandı, “Golustan” dergisi, sayı 11.

17. Guliyev Esger. (1991). Halid Seid, “Ana sözü” gazetesi, Bakı.

18. Hocayev, Halid Said (2006); *Yeni Elifba Yollarında Eski Duygu ve Hatıralarım*, (Haz. Mustafa TOKER-Ufuk Deniz Asçı), Ankara: Türk Dil Kurumu Yayınları.

19. Hodjayev H.S.(1936) Divani luğati tyurk (Mahmuda Kaşkarskoqo), Trudı Azerbaydjanskoqo Filiala. Linqvistiçeskaya serya. XXXI, Baku

20. Hüseyinoglu, Ali Şamil. (2002). Türk Edebiyatı Araştırmacısı Emin Abid. “Türk Dünyası” (Dil ve Edebiyat dergisi) (Ankara), Güz, sayı 14.

21. Hüseyinoglu Ali Şamil. (2008) Katağon Kurboni. “Jahon Adabiyoti” dergisi (Taşkend), sayı, 1(128) Ocak.

22. Jabborov Anvar. (1990). Holid Said Hujaev, “Kommunizm uçun” gazetesi 5 Temmuz.

23. Kocaoglu Timur. (1985). “Türkolojide Eserler II: Türküstanlı Dilci Halid Said’in Türk Lehçelerinin Karsılastırmalı Grameri”, *Türk Kültürü,* 266: 28-38.

24. Kocaoglu Timur. (1986), “Azeri Bilgini Halid Said’in Türk Lehçelerinin Karşılaştırmalı Grameri”, *Tarih incelemeleri Dergisi*, 2: 349-359.

25. Kulboev Abdusolik. (1989). Kuşkurğonlik olim, “Kommunizm uçun” gazetesi, 22 Nisan.

26. Nerimanoğlu Kamil Veli, Atakişiyev Aliheyder. (2006). 1926-cı il I Bakı Türkoloji kurultayı (Stenokram materialları, biblografiya ve foto-senetler. Rusça’dan tercüme, ön söz ve şerhlerin müellifi: Prof. Kamil Veli Narimanoğlu, elmi işçi Alihaydar Ağakişiyev), “Çinar-Çap” neşriyatı, Bakı.

27. Rehimov Arif. (1985). Mahmud Kaşkarinin “Divanü Lüğet-it-Türk” Eseri ve Azerbaycan Dilçiliğinin Leksikası, (Filologiya Elmleri namizedi alimlik derecesi almak için takdim edilmiş dissertasiya), Azerbaycan Elmler Akademiyası Esas Kütüphanesi, Bakı.

28. *Sadayı Turküstan gazetesi*, 1914, 6, 11, 23 Mayıs, 15 Haziran.

29. Salamzade Gemer. (1990). “Küçük Pencereden Görünen Dünya”, Azerbaycan Devlet Neşriyatı, Bakı.

30. Seid Halid. (1914). Mektub Taşkendden, “Tercuman” gazetesi, 23 Şubat, sayı 43.

31. Seid Halid. (1923). Dördlük, “Maarif ve medeniyyet” dergisi, sayı 3

32. Seid Halid. (1926). Osmanlı, Özbek, Kazak Dillerinin Mukayeseli Sarfi. Azerbaycan Tetkik ve Tetebbö Cemiyetinin Neşriyatı, Bakı.

33. Seid Halid. (1929). Yeni Alfabe Yollarında Eski Hatıra ve Duygularım, "Yeni alfabe Komitesi" neşriyyatı, Bakı.

34. Said Ziyo. (2009). Özbek vaqtli matbuoti tarixiqa materiallar, Taşkend.

35. Şamil Ali. (2003). Halid Seid. «Filologiya Araşdırmalar» Toplusu, sayı 19.

36. Tağızade A., Hocayev H.S. (1934). Muhtasar Üslubıyat, «Azerneşr», Bakı.

37. Тагирзаде Adalet. (1988). Наследие. Халид Саид Ходжаев. Советская Тюркология, номер 3, ст.76-97.

38. Tahmazov Raşid.(2012). "Çalı kuşu"nda janr husisiyyetleri, Şark filologiyası meseleleri (Makaleler toplusu), altıncı baskı, "Çan evi" neşriyyatı, seh. 544-553.

39. *Tercuman gezetesi*, 1914, 23 Şubat**.**

40. Toker, Mustafa (1996), "Halid Said Hocayev ve Yeni Elifba Yollarında Eski Hatıra ve Duygularım Adlı Eseri", *Türk Dünyası Dil ve Edebiyat Dergisi*, 2: 409–418.

41. Turan Azer.(2009). Haild Seid Hocayev, Bakü.

42. Ziyo Said. (2009). Özbek vaqtli matbuoti tarixiqa materiallar, Toşkent.

Çap olundu: “Türk halklarının istiklal savaşçısı Halid Seid’in iki yönü”, (Крымский Инженерно-Педагогический Университета. Вопросы Крым-скотатарской Филологии, Истории и Культуры, научный сборник, выуск, 2018, № 5, стр.143-158.

XOCA ƏHMƏD YƏSƏVİNİN ÖYRƏNİLMƏSİ VƏ TƏBLİĞİNİN QADAĞAN OLUNMASININ SƏBƏBLƏRİ

Özet

Hoca Ahmed Yesevî'nin ortaya koyduğu fikirler AzeErbaycan'da da Yesevi devrişleri tarafından geniş yayılmıştır. Kafkasya'nın Ruslar tarafından işğalinden sonra bu konunun da durdurulması planlanır. Baskılara rağmen 20. XX yüzyıldan itibaren edebiyat tarihinin Avrupa metotları ile öğrenilmesi Ahmed Yesevî'ye Azerbaycan'da yeniden ilgi çeker. Sovyetler Birliği döneminde Özbekistan'ın cedidci şairi, mill dünyagörüşü ile bölge aydınlarını etkileyen Abdurauf Fitret Ahmed Yesevi'yi eleştirdiği bir zamanda, Emin Abid onun dini nefeslerinin genel Türk edebiyatına etkisinden söz ediyordu.

İstanbul Darulfünu'nunu bitirip 1927. senesinde vatanına dönen Emin Abid kültürel ve fikrî mirasımızı muhafaza edebilmemiz için Ahmed Yesevî yaratıcılığının Avrupa metotları ile öğrenilmesinin temelini atmış. O, Ahmed Yesevî`nin hece vezninden nasıl yararlandığını ve İslam'ın yayılmasında ondan nasıl faydalanacağını anlatır.

Emin Abid Ahmed Yesevî'nin dörtlüklerindeki evrensel anlayış, sevgi, huzur, barış ve mutluluk öğretilerini gözler önüne sermekte. Araştırıcı Hoca

Ahmet Yesevî'nin küresel sürecin güncel ve tartışmalı kavramlarının her birine adeta ayrı ayrı yer vererek onların çözümlerini ortaya koyan tekliflerini yüksek degerlendirmiştir.

Bolşevikler ise idyolojik yönden Hoca Ahmet Yesevî şiirlerine karşı koyacak gücü kendilerinde bulamadıklarından onun hakkında yazanları kurşuna dizdiler, hapsettiler ve sürdüler.

Anahtar kelimeler: Hoca Ahmed Yesevî, Türk şiir türü, hece vezni, Azərbaycan'da sufizm, Emin Abid.

THE REASON OF THE SUPPRESSING OF THE STUDY AND SHOOTING THE RESEARCHERS OF HOJA AHMET YESEVI

Abstract

The ideas of Yesevi spread through the Azerbaijan by the Yesevi'sdervishs. But after the occupation of Caucasus by the Russia it's planned to stop this theme as well. Despite the suppressions the study of Ahmet Yesevi by the European methods attracts attention again. During Soviet Union EminAbid talked about the influence of Yesevi's poems to general Turkic literature, despite Abdu-raufFitrat, the great enlightener poet of Uzbekistan criticized him.

First person begun to learn AhmetYesevi by the European methods id EminAbid who graduated the Istanbul Darulfunun and returned to Azerbaijan on 1927. He explain how Ahmet Yesevi benefits by metre based on the number of syllables and how can benefit by him to propagate the Islam.

Emin Abid indicated the understanding of universality, love, composure, peace, happiness of his poetry consists of four. The researcher giving the place the topical and polemical concepts of global process of AhmetYesevi and put to good account his proffers to resolve it.

But the Bolsheviks had shouted the researchers of Ahmet Yesevi because they can't contest to his ideas.

Key words: Hoja Ahmet Yesevi, The Turkic poem genre, syllable genre, Mysticism in Azerbaijan, Emin Abid

ПРИЧИНЫ ЗАПРЕЩЕНИЯ УЧЕНИЯ И ПРОПОВЕДОВАНИЯ ХОДЖИ АХМЕДА ЯСАВИ

Абстракт

Идеи Ходжа Ахмеда Есеви было пропагандировано Есевийскими дервишами и в Азербайджане тоже. Было планировано позаботиться и об этом тожепосле Российской оккупации Кавказа. Несмотря на давления изучения

Ахмеда Есеви с Европейскими методами все равно привлекал вниманию на него в Азербайджане в 20-м веке.

Во время Советского Союза когда Абдурауф, просветительный поет Узбекистана критиковал Ахмеда Есеви, ЭминАбид показывал о влияниичетверостишиях Ахмеда Есеви на общетуркскую литературу.

После окончании Стамбулский Дарилфюнюн в 1927-м году Эмин Абид впервые изучал творчество Ахмеда Есеви, что бы сохранить культурную и мысленную наследству. Он объясняет как Ахмед Есеви воспользовался силлабических стих и как оновоспользовано в прапогандии Ислама.

Эмин Абид показывает концепцию универсальности, любви, мира, счастия в его четверостишиях. Он высоко оценивал как Ахмед Есеви предложил решение на глобальных и спорных проблем.

Но большевики не смогли сопротивляться против идеи Ахмеда Есеви, поэтому расстреляли, выслали всех кто написал о нем.

Ключевые слова: Ходжа Ахмед Есеви, Туркский тип поэзии, силлабика, суфизм в Азербайджане, Эмин Абид

Giriş

Bütün müstəmləkəçi dövlətlər kimi Rusiya da işğal etdiyi xalqları əsarətində saxlamaq üçün uzunmüddətli planlar hazırlayıb həyata keçirir. Bu plan işğal altındakı xalqların xiristianlaşdırılması və ruslaşdırılmasından ibarət idi. Çar Rusiyası dönəmində bu plan yarıgizli və nisbətən həyata keçirilirdi. Öncə türk və müsəlman xalqlarının yüzillər boyu işlətdikləri ərəb əlifbasını dəyişmək, məktəb və mədrəsələri bağlamaq, qadınları-anaları xristianlaşdırmaq istəyirdilər. Lakin onlar unudurdular ki, islam dinini türkcə yayan Yəsəvi dərvişlərinin rolu heç də məktəb və mədrəsələrdən az deyildi. Köçəri həyat sürən toplum arasında dəvrişlərin apardığı təbliğatın gücü kitablardan, mədrəsələrdən daha böyük idi. Ona görə də Rusiyanın əsarət altında saxladığı xalqları xristanlaşdırmaq, sonra da Ruslaşdırmaq siyasəti çox ləng gedirdi.

Bolşeviklər hakimiyyəti silah gücünə ələ aldıqdan sonra çarizm ruslaşdırma siyasətini sərt və açıq şəkildə həyata keçirilməyə başladı. Öncə dinin hökumətdən ayırdıqlarını elan etdilər. Hakimiyyətlərini möhkəmləndirdikcə dinə qarşı mübarizəni də sərtləşdirdilər. Beləcə, ateist bir toplum formalaşdırmaq, sonra da beynəlmiləlçilik adı altında ruslaşdırmaq siyasəti yeritməyə başladılar.

Çarizmin süqutundan yararlanıb 1918-ci il mayın 28-də müstəqil dövlətlərini quran Azərbaycanlılar isə bolşeviklərdən fərqli yol seçdilər. Yeni qurulmuş Azərbaycan Cümhuriyyətinin 1918-ci il iyun ayının 17-də təşkil edilən kabinetində Xalq Maarifi və Dini Etiqad Nazirliyi də oldu. Hökumətdə beş dəfə kabinə dəyişikliyi olsa da, onun dördündə dini etiqad nazirliyi olmuşdur.

Bolşeviklər 1920-ci idlə Azərbaycanı işgal edərək demokratik yolla seçilmiş hökuməti dağıtdıqdan sonra qurduqları yeni hökumətdə dini işlər ilə bağlı nazirliyi qurmamışlar. Onların hakimiyyətinin ilk illərində Azərbaycanda dinə ikili baxış: 1) loyallar-mötədilçilər (N.Nərimanov, S.M.Əfəndiyev və b.); 2) radikallar (S.Ağamalıoğlu, R.Axundov, Ə.Qarayev və b.) olmuşdur (http://modern.az/articles/45732/1/#gsc.tab=0).

Hakimiyyətlərini möhkəmləndirdikdən sonra dinə qarşı mübarizəni sərtləşdirməyə başlamış-lar. 1922-ci ildə Rusiyada din əleyhinə başlayan prosesslər Azərbaycana da təsirsiz ötüşməyib. Moskvada "Allahsız" ("Безбожник") adlı qəzet nəşr olunmağa başlayıb. Az sonra, – 1923-cü il sentyabrın 12-də Moskva şəhərində Din Əleyhinə Komissiyanın növbəti iclasında "Mübariz Allahsızlar" dərnəklərinin təşkili ideyasını irəli sürülüb. Oktyabr ayının 7-də isə bu təklif "Allahsız" qəzetində dərc edilib (http://az.azvision.az/news.php?id=12459).

1923-cü ildə “Materialistlər klubu”nda bir araya gələn Azərbaycan hökümət rəhbərlərindən S.Ağamalıoğlu, R.Axundov, Ə.Qarayev kimi bolşeviklər namaz qılmaq, hacca getmək və s. İslam ayinlərinin zəhmətkeş xalqın fiziki və mənəvi inkişafına yabançı olduğunu iddia edirlər. Onlar xalq arasında elmi kommunizmi, elmi ateizmi təbliğ edərək yalnız dini mövhumata və xurafata deyil, bütövlükdə islama qarşı çıxırlar (http://modern.az/articles/45732/1/). 1924-cü ilin yanvarında Azərbaycan K(b)P Siyasi Bürosu "Din əleyhinə komissiya" yaradır. Moskvanın göstərişilə 1924-cü ildə Azərbaycanda da Allahsızlar Cəmiyyəti yaradılır ki, bu təşkilat sonralar Mübariz Allahsızlar İttiifaqına çevrilir. Allahsızlar Cəmiyyətinin işini sürətləndirmək üçün, AK(b)P 1929-cu ilin aprelində keçirilən plenumu dinə qarşı mübarizə, çadranın və papağın atılması ilə bağlı məsələni də müzakirəyə çıxarır. İslama qarşı bolşevizmin tutduğu radikal siyasət onunla nəticələndi ki, 1930-cu illərin sonlarında Azərbaycanda cəmi 20 məscid formal fəaliyyət göstərir. (http://modern.az/articles/45732/1/)

Bolşeviklər hətta geniş nüfuz qazanmış “Molla Nəsrəddin” jurnalını da “Allahsız” adı altında nəşr etməyə başlayırlar. Jurnalın bir neçə sayı nəşr edildikdən sonra hökumətin dəstəkləməsinə baxmayaraq, bağlanır.

Sovetlər Birliyinin hər yerində olduğu kimi, Azərbaycanda da məscid, kilsə və sinaqoqların kütləvi

bağlanmasına, din xadimlərinin təqib olunmasına başlanır. Quran zərərli bir kitab kimi qadağan edildi. 1928-ci ilin dekabrında AK(b)P MK Rəyasət heyətinin iclasında "Kəndlilərə mədəni ehtiyacları üçün verilmiş məscidlər haqqında" məsələyə baxıldı, bir sıra məscidlər mədəni-maarif müəssisələrinə, anbarlara, istehsalat sexlərinə və s. çevrilir. Bu qərarın təsiri ilə 1929-cu ildə 120 məscid məktəbə çevrilir.

Kollektivləşmə bolşeviklər üçün bütövlükdə din əleyhinə mübarizənin gücləndirilməsi kimi başa düşülürdü. 1929-cu ilin fevralında bütün partiya təşkilatlarına ÜK(b)P MK katibi L.Kaqanoviçin imzasıyla "Din əleyhinə mübarizə işlərinin gücləndirilməsi tədbirləri haqqında" adlı tam məxfi sənəd göndərilir. Artıq dinə qarşı mübarizə sinfi-siyasi mübarizə ilə bərabərləşdirilir.

1929-cu il aprelin 8-də SSRİ hökumətinin "Dini təşkilatlar haqqında" fərmanından dərhal sonra Azərbaycan K(b)P 1929-cu il aprel plenumunda dinə qarşı mübarizə, çadranın və papağın atılması ilə bağlı məsələni müzakirə edilir. Plenumun qərarında deyilir: "Allahsızlar İttifaqının işi gücləndirilsin. Azərbaycan dilində din əleyhinə müntəzəm işi qaydaya salmaq və genişləndirmək, kəndlərdə qabaqcıl ictimaiyyətçi, kolxozçu, komsomolçu və başqalarından ibarət cəmiyyət özəkləri təşkil etmək lazımdır" (http://az.azvision.az/news.php?id=12459).

Sovetlərin apardığı sərt siyasətə baxmayaraq, islam dinini insanların qəlbindən silmək mümkün olmurdu. Heç bir yerdə rəsmi qeydiyyatı olmayan, hər hansı bir təşkilat ətrafında birləşməyən dəvrişlər Əhməd Yəsəvinin ənənəsini yaşadaraq ana dilində islam dinini təbliğ edirdilər.

1. Əmin Abidi Əhməd Yəsəviyə bağlayan səbəblər

1898-ci il noyabrın 2-də Bakıda daşyonan Mütəllibin ailəsində doğulan Zeynalabdin sonralar Əmin Abid kimi tanınır. O, ilk təhsilini anası Molla Reyhanın evdə qadınlar və uşaqlar üçün açdığı "Quran" kurslarında aldıqdan sonra Bakıdakı 3-cü Aleksandır Oğlan Gimnaziyasında oxuyur. Yeni-yetməliyindən şeirlərini və hekayələrini qəzet və jurnallarda Abid, Abid Mütəllibzadə, Abid Mütəllib oğlu, Qozqurab bəy və s. imzalarla nəşr etdirir. 1919-1926-cı illərdə İstanbuldakı Darülməllimeyi aliye və Darülfünunda oxuyur. Həmin illərdə Gültəkin imzası ilə antisovet şeirlərini və Əmin Abid imzası ilə elmi məqalələrini nəşr etdirir **(AMBA AEİTVSMA fond 39, siyahı 374).**

Onun milli dəyərlərə bağlı bir müsəlman kimi formalaşmasında anasının və böyük qardaşı Əliabbas Müznibin, eləcə də o dövrki Bakı mühitinin rolu danılmazdır. O dönəm Bakının küçələrdində hər gün

kəşküllü dəvrişlərin türkcə nohə deməsi normal bir hal sayılırmış. Bu dəvrişlərin oxuduqları arasında Əhməd Yəsəvinin hikmətləri də olmamış deyildi.

Əmin Abidin böyük qardaşı çarizmə qarşı qələmi ilə döyüşdüyündən 1911-ci ildə həbs edilərək Sibirə sürgün edilmişdi. Müsavat Partiyasının əsasını qoyanlardan biri olan, satirik şair, tərcüməçi, publisist, naşir Əliabbas Müznib islama dair çox dəyərli əsərlər yazmış və tərcümə etmişdir.

Əmin Abidin 1913-1918-ci illərdə nəşr etdirdiyi şeir, hekayə, tərcümə və publisistik məqalələrində Əliabbas Müznibin üsyankar ruhu aydın duyulur. Satirik şeirlərində öz dilinə xor baxanlar, gününü sərxoşluqla keçirənlər tənqid edilirdisə, ictimai siyasi şeirlərində Türk gənclərini mübariz olmağa, birləşməyə çağırırdı. "Türkün səmasından qanlar damdığından", "öksüz Vətəndə bayquş yuvası artdığından" narahat olan 15-16 yaşlı şair "Şanlı addımlar at, ey Türk oğlu" deyərək hayqırır.

Bağlar xarab oldu bahar çağında,
Çiçək görünməyir Türkün bağında.
Obasında, çölündə, yaylağında
Məzarlığa bənzər Turan elləri **(Gültekin, 1999:90).**

– deyən şair Turan ellərini xarabalığa döndərən imperiyaları da göstərərək yazır:

Bu gün Qərbin göklərində Türkə qarşı

Kəsafətli buludlar da qabarıyor **(Gültekin, 1999:92).**

Yetişməkdə olan nəsli qorxmaz, mübariz olmağa səsləyən, millət və vətən yolunda başdan belə keçməyin şərəf olduğunu söyləyən gənc şair "Türkün dərdi" şeirini aşağıdakı misralarla bitirir:

Fəqət, ey arslan yürəkli bəgim!
Ey yigit, qəhəraman, rəşid Türküm!
Əldə Türklük nişanı al bayrağı
Bu çəkişmə cəhanına çıkarak
Yaşasın tacidar millət!
Yaşasın şəhriyar millət! **(Gültekin, 1999:74).**

Əmin Abid siyasi cəhətdən ən coşğun, döyüşkən şeirlərini 1920-1926-cı ildə yazaraq Gültekin imzası ilə çap etdirmişdir **(Gültekin, 1999:9-19).** Əhməd Cəfəroğlu bu şeirlər haqqında yazır: "Gültekin bəgin şeirlərinin qüvvət və gücü, deyə bilərəm ki, siyasi mətbuatımızdan daha çox rəğbət görə bilmişdi. Ən yaxşı bəzi şeirləri bəstələnib İstanbul əhalisi arasında bu gün də tərənnüm edilməkdədir" **(Cəfəroğlu, 1932, sayı 8-9).**

Rusiyanın Sovet İttifaqı adı ilə yenidən Qafqazı, Türküstanı müstəmləkə boyunduruğu altında saxlamaq cəhdinə qarşı çıxaraq gürcüləri ("Gürcü qardaş") (**Gültekin, 1999:59**), Qafqaz xalqlarını ("Kafkas türküsü") (**Gültekin, 1999:57**), dünyanın

mütərəqqi insanlarını düşmənə qarşı birləşməyə çağırır. Onun "Buzlu Cəhənnəm", "Bayrağım və İstiqlalım", "Azərbaycan istiqlalı", "Annemə", "Canavar", "Çeka", "Bolşevik", "Moskova" və b. şeirləri Sovet ideologiyasını ifşa edən, ona qarşı sərt reaksiya verən bir insanın ürək yanğısı ilə yazdığı misralar idi (**Gültekin, 1999:22-60**).

Onun 14-20 yaşlarında nəşr etdirdiyi əsərlər ədəbiyyata istedadlı bir vətənsevərin gəlişindən xəbər verir.

2.Əmin Abidin elmi əsərləri

Hələ İstanbulda tahsil aldığı vaxtlar Bakıdakı jurnallarda elmi məqalələrini yayımladan Əmin Abid bütün təqib və təzyiqlərə baxmayaraq, gecə-gündüz elmi araşdırmalarını davam etdirmişdir. Azərbaycan ədəbiyyatı tarixində bir çox mövzuya ilk dəfə o toxunmuşdur. Misal olaraq "Söhbətül-əsmər"in M.Füzuliyə aid olduğunu sübut edən, "Kitab-i-Dədə Qorqud" haqqında dəyərli araşdırmalar aparan, Türkiyə, Azərbaycan, Tatar, Özbək, Qaqauz, Kərkük vs. Türk xalqlarının beş min manisini müqayisə edən, tarixini müəyyənləşdirən Əmin Abiddir. Araşdırıcı sadəcə Azərbaycanda yayımlanan qəzet və jurnallar ilə kifayətlənməyərək Ankara, Səmərqənd, Bunakski (Da\ğıstan) jurnallarında da araşdırmalarını yayımlamışdır.

Mirzə Fətəli Axundzadənin əsərləri, dini tənqid etməsi və ədəbiyyata gətirdiyi yeniliklərdən dolayı Sovet Azərbaycanında xüsusi qayğı ilə araşdırılıb öyrənilməsi planlaşdırılmışdı. Axundzadənin ən yaxşı araşdırıcılarından biri də Əmin Abid idi. Buna görə də onu Elmlər Akademiyasında işə götürürlər və Əli Nəzmi ilə birlikdə Axundzadənin 3 cildlik əsərlərinin nəşrini tapşırırlar. Qısa zamanda bu iş bitmiş olur. Mirzə Fətəli Axundzadənin əsərlərinə şərhlər yazmaqla qalmır, Fars dilində olan əsərləri də Türkcəyə çevirib böyük bir ön söz yazaraq mətbəəyə verir. Azərbaycan Elmlər Akademiyası Elmi Heyəti Əmin Abidə 1926-1935-ci illər arası fəaliyyətindən dolayı dissertasiya yazmadan elmlər namizədi dərəcəsi verilməsini təklif edir, ancaq siyasi mülahizələr buna imkan vermir.

Əmin Abidin M.F.Axundzadə haqqında apardığı araşdırma həcminin böyüklüyünə və əhatə dairəsinə görə diqqəti cəlb edir. Beş, altı dil bilməsi, yaxşı əlaqələr qurması ona *M.Fətəli Axundzadə (Avropa, Rusiya, Türkiyə, Azərbaycanmətbuatında yayımlanan araşdırmalara bir nəzər)* (“*«Maarif işçisi»”*, 1928: 40-44, sayı 4 (36), sayı 5-6 (37-38):24-32, sayı 7-8 (39-40):87-93), kimi bir kitabı tamamalamağa şərait yaradır. Qazi Bürhanəddin (“*Maarif və mədəniyyət”*,1927:42-45, sayı 4-5 (39-40), Füzuli, (“*Maarif və mədəniyyət”*,1926:32-34, say, 12 (35), Həbibi (arxivdə saxlanılır – Ə.Ş.), Xətai orta əsrlər

(“*«Maarif işçisi»”*, sayı 3 (23): 50-55, sayı 4 (24): 58-61, sayı 6-7 (26-27): 45-62) şairləri ilə birlikdə, 19-cu yüzildə Axundzadəni də ortaq türk ədəbiyyatının təmsilçisi kimi araşdıran Əmin Abidi gördüyü bu işlər müasirlərindən fərqləndirir. (“*«Maarif işçisi»”*, sayı 3 (35):20-50). Axundzadənin bir çox əsərini ilk dəfə ortaya çıxaran və onlar haqqında bilgi verən Əmin Abid olmuşdur. Əmin Abid 1933-1936-cı illərin mətbuatında 10-a qədər araşdırmasını yayımlatmışdır. Axundzadənin üç cild halında yayımlanan əsərlərinin birinci cildinə Əmin Abidin yazdığı *önsöz* 182, ikinci cildinə yazdığı isə 118 səhifədən ibarətdir. Qaynaqların verdiyi bilgiyə görə onun Axundzadə haqqında iki monoqrafiyası və bir neçə araşdırması var. Ancaq 1937-ci il təzyiqləri bu əsərlərin yayımlanmasına əngəl olmuşdur.

“Azəri Ədəbiyyatında Türkçənin Təkamülü” (“*Maarif və mədəniyyət”*,1926:17-22, say, 2-3 (26-27), “Elmi hərəkatlar” (“*Maarif və mədəniyyət”*, 1927:41-43, sayı 9 (44), “Ədəbiyyat və elm” (*«Maarif işçisi»*, 1927: 49-53), sayı 9 (29), “Oktyabr inqılabının Azərbaycan ədəbiyyatına təsiri” (*«Maarif işçisi»*, 1927:67-95), sayı 10(30), “Azərbaycan proletar qəzetçiliyi tarixinə bir nəzər” (“*Dan yıldızı”*, 1928:21-26), say.1 (13), sayı 2 (14):20-23, sayı, 8-9 (20-21):38-41), “Azərbaycan: yeni bir mədəniyyət mərkəzi” (*«Dan yıldızı»*, 1928:5-6, sayı 4-5 (16-17), Türk Ədəbiyyatında M.F.Axundov (*«Dan yıldızı»*,

1928:22-25, sayı 4-5 (16-17), sayı 6 (18):9-14), "Azərbaycan ədəbiyyat tarixi ətrafında" ("*İnqilab və mədəniyyət"*, 1929: 45-47, sayı 1), "Böyük Şura Ensiklopediyası və Türk ədəbiyyatı" (*«İnqilab və mədəniyyət»*, 1929:37, sayı 2), "Türk el ədəbiyyatına elmi bir nəzər (Oğuznamə, Prof. Samoyloviçə)" (*«Dan yıldızı»*, 1929:30-32, sayı 5 (29), sayı 8 (32): 28-29), "M.F.Axundovun əlifba inqilabı və latın sistemli əlifbası" (*«İnqilab və mədəniyyət»*, 1929:33-39, sayı 6), "Zərərli tənqidlər" (*«İnqilab və mədəniyyət»*, 1929:31-34, sayı 10), "Əşirət dövründəki Azərbaycan ədəbiyyatına aid vəsiqələr" ("*Azərbaycanı öyrənmə yolu"*, 1930:48-52, sayı 3 (8)), "Türk xalqları ədəbiyyatında mani növü və Azərbaycan bayatılarının xüsusiyyətləri" ("*Azərbaycanı öyrənmə yolu"*, 1930:9-42, sayı 4-5 (9-10), "Aprel mədəniyyəti və xarici mətbuat" (*«İnqilab və mədəniyyət»*, 1930:34-36, sayı 4), "M.F.Axundzadənin məlum olmayan əsərləri" ("*İnqilab və mədəniyyət"*, 1930:45-49, sayı 11-12) və yayınlanmamış, əl yazması arxivdə saxlanan "*Azərbaycan folkloru", "Həbibi", "Mirza Əliəkbər Sabir"* vb. məqalələri və adına qaynaqlarda rastladığımız, özünü oxuya bilmədiyimiz məqalələri də onun "*Azərbaycan türklərinin ədəbiyyat tarixi"* kitabının parçaları kimi qiymətləndirilməlidir. Bu əsərlər də onun ədəbiyyat tarixini yazmaq metodları haqqında fikir yürütməyə imkan verir. O, həbs olunduğu zaman KQB tərəfindən

əl qoyulan əsərləri ilə birlikdə 1931 və 1936-cı illərdə yayımlanmaq üçün nəşriyyata verdiyi kitablar da itir.

3.Azərbaycanda Əhməd Yəsəviyə münasibət və Əmin Abidin bu mövzuda araşdırmaları

Dinə, milli dəyərlərə qarşı sərt təbliğat getdiyi bir vaxtda Əmin Abid elmi əsaslara dayanaraq milli dəyərlərimizə, dinimizə sahib çıxmağı təbliğ edən məqalələr yazır. O dövrün ən sanballı elmi jurnalı olan "Azərbaycanı öyrənmə yolu"nda belə bir qeyd var: "Əhməd Yəsəvinin əsərlərindən Azərbaycanın mətbuatında ilk dəfə olaraq "Maarif işçisi" jurnalında nəşr olunmuşdur" (**Əmin, 1930, 4-5:17).** Bu sətirlərin müəllifi Əmin Abiddir.

Bu fikir Əhməd Yəsəvinin Azərbaycanda ilk dəfə tanıdılması kimi başa düşülməməlidir. Yüz illər boyu dərvişlər Əhməd Yəsəvinin şeirlərini Azərbaycanın hər bir kəndində, qəsəbəsində oxuyurdular. Əmin Abid isə Əhməd Yəsəvinin əsərlərini Azərbaycanda Arvopa metodları ilə araşdıran ilk alimlərdən oldu. Həsənoğludan başlamış ta 20. yüzillikdə yaşamış bir çox Azərbaycan şairi az və ya çox dərəcədə Əhməd Yəsəvidən yararlanmışdır. Rusiyanın Qafqazı, Türküstanı işğalı xalqlarımız arasındakı tarixi bağları qırmışdı. Rusiyanın işğalçı yürüşləri nə qədər zərərli olsa da aydın düşüncə sahibləri bundan millətin və xalqın xeyrinə istifadə etməyə çalışdılar. Avropanın

inkişaf etmiş texnologiyasını öyrəndilər. Orada ali təhsil aldılar, tarixə, ədəbiyyat tarixinə, folklora Avropa metodları ilə yanaşmağa başladılar. Milli düşüncəli aydınlar yeni metodlarla Türk dünyasını öyrənməyə, xalqda milli şüur oyatmağa çalışdılar. Belə araşdırıcılardan biri də Əmin Abiddir.

Əmin Abid 1928-ci ildə Bakıda çapa hazırlanan "Bayatılar" kitabına ön söz yazmaq haqqında tapşırıq alır. İşə yüksək milli şüurla yanaşan Əmin Abid yalnız Azərbaycandan toplanmış bayatılar haqqında fikir söyləməklə kifayətlənmir, Turfan, Altay, Özbək, Mişər, Kazan, Krım, Qaqauz, Anadolu, İran və Dağıstan türkləri arasında geniş yayılmış 4 misralı 7 hecalı şeir şəklini müqayisəli təhlil edir və janrın tarixini də dərindən araşdırır. Belə bir ağır və şərəfli işə girişən araşdırıcı heç cür Əhməd Yəsəvinin yazdığı 7 hecalı dördlüklərdən yan keçə bilməzdi.

"Maarif işçisi" jurnalındəa Əhməd Yəsəvidən bəhs edən, Azərbaycan mətbuatında ilk dəfə onun şeirlərini çap etdirən Əmin Abid "Heca vəzninin tarixi" əsərində yazır: "Təhkiyəçiliyin ümumi xarakteri göz önünə gətiriləcək olursa, heca vəzninin onlarca məqbul görünməsinin mənası qolaylıqla anlaşılır. Qayəsi daha böyük bir əksəriyyətə – məfkurəvi təlqinlərə təsir yapmaq olan təhkiyyə təşkilatı xalq ruhunu nəzərə almaq və xalq ədəbiyyatı elementlərini qullanmaq məcburiyyətində idi. Bunun

üçün təhkiyyə şeiri milli xalq şeiri olan heca ilə yaradılırdı" (**Əmin Abid, 1927, 6-7:48).**

Bəs bu dini ideoloji ədəbiyyatın əsasını qoyanlar kimlər olmuşdur? İslam dini İspaniyadan Yapon imperatorluğuna qədər yayıldığı Avroasiya məkanında geniş bir ərazini kapsadığı (əhatə etdiyi) bir vaxtda "təhkiyə şeirini – milli xalq şeirini yaradan kimdir?"- sualına Ə.Abidin araşdırmasında aydın cavab verilir. O yazır: "Heca vəznini ilk müdafii olaraq Yəsəvi təhkiyəsində buluruz. Yəsəvilik təriqəti üzrə doğan ədəbiyyatın məşhuru miladi 12-ci əsrdə yaşamış şair, həkim Əhməd Yəsəvinin "Divani hikmət" adında toplanan əsərləridir. Əhməd Yəsəvi hecayi qullanmaqla bərabər ona daha əski zaman məhsullarındakı vəziyyətdən ayıran mütəkamil bir şəkil verməmişdir. Onun əsərlərində də heca itiradlı misrai ahəngdən məhrum bulunaraq ibtidai texnikanı mühafizə etməkdədir" (**Əmin Abid, 1927, 6-7:49).**

Yəsəvi "Divan"ını diqqətlə nəzərdən keçirən və onu öncəki qaynaqlarla qarşılaşdırmalı şəkildə araşdıran Əmin Abid "Divan"da və başqa qaynaqlarda rastlaşdığı 12 hecalı şeir şəklinin də mayasında yeddiliklərin duraqı (bölgüsü) durduğunu söyləyir. Fikirlərinə aydınlıq gətirmək üçün Əhməd Yəsəvidən bir yeddilik, bir on ikilik şeir nümunə göstərir. Yeddi hecalıya nümunə kimi Əhməd Yəsəvinin məşhur "Aşiqlər" rədifli şeirini verir. Şeir:

On səkkiz min aləmdə
Heyran bolğan aşıqlar,
Tapmaq məşuq surağın
Sərsan bolğan aşiqlər— – bəndi ilə başlayır və
Əhməd sihnəm aşıq bol,
Sidqini birlə sadıq bol,
Dərgahına layıq bol,
Canan bolqan aşiqlər— –bəndi ilə tamamlayır.

On iki hecalı:

Xızır babam saldı məni o şubu yolğa,
Ondan sonra dərya bulub taşdım dostlar.

— – beytilə başlayan şeirini də bütünlüklə məqaləsində verib (**Əmin Abid, 1927, 6-7:49).**

Əmin Abidə görə "Kitabi-Dədə Qorqud"da, "Kutadgu bilig"də, "Divan-i lüğət-i it–Türk"də rastlanılan, Əhməd Yəsəvinin "Divan-i hikmət"ində geniş işlədilən on iki hecalı şeir növü miladi 13-cü yüzildə Əli tərəfindən qələmə alınmış "Yusif və Züleyxa" dan sonra öz yerini on bir hecalı qoşmaya verməyə başlamışdır. On iki hecalı şeir tamamilə sıradan çıxmasa da, on birlik qoşma qədər fəal olmamışdır.

Əhməd Yəsəvi yaradıcılığını mövzusu ilə bağlı araşdırmaya cəlb edən Əmin Abid yazır: "Əhməd Yəsəvi zamanında Orta Asiya Türkləri heca vəznilə bir çox xalq mənzumələrinə malik olmuşdur. Hələ bu xalq mənzumələri içində yeddi hecai çox modda

olmuş olacaq ki, mühitin ədəbi təsiri altında Əhməd Yəsəvi də yeddili vəznə çox əhəmiyyət vermişdi" (**Əmin Abid, 1930, 4-5:18).**

Əmin Abid yalnız tarixdən yazanda deyil, müasirləri ilə ədəbi mübahisələrdə də Əhməd Yəsəvi yaradıcılığına söykənmişdir. Məs.: Əli Nazim Moskvada nəşr olunan "Peçat i revolyutsiya" jurnalının 1929-cu il iyul sayında "Azərbaycan ədəbiyyatı" adlı bir məqalə çap etdirmişdi. Əmin Abidə görə Əli Nazimin "İnqilab və mədəniyyət" (Azərbaycan), "«Dan yıldızı»" (Gürcüstan), "Türk Yurdu" (Türkiyə) dərgilərində çap etdirdiyi məqalələrinin ruscaya tərcüməsi olan bu əsərdə çoxlu yanlışlıqlar var.

Biz iki araşdırıcı arasındakı elmi mübahisəyə aydınlıq gətirməkdən uzağıq. Çünkü Nizaməddin Babayev "Ədəbi mübahisələr" əsərində bu məsələyə kifayət qədər yer ayırıb **(Babayev Nizaməddin, 1988).** Yalnız mövzumuzla bağlı bir məsələyə toxunacağıq.

Əli Nazimin Azərbaycan ədəbiyyatı tarixinin 13-cü yüzildə yaşamış Həsənoğlu ilə başlanması fikrinə etiraz edən Əmin Abid yazır: "Azərbaycan ədəbiyyatı Nazimin təkrar etdiyi kimi nə Həsənoğlu kimi sufi bir şeyxlə, nə də Şah İsmayıl Xətai kimi bir dərəbəyi ilə başlamaz. Bizim ədəbiyyatımız Azərbaycan torpaqlarına köçməyə başlayan əşirətlərin, buralarda kəndlər təsis etmələri və kənd təsərrüfatının təməlini

qurmaları sayəsində inkişafa başlamışdır ki, bu da hicri tarixinin əvvəllərinə qədər enir. …Həsənoğludan daha əvvəl Veys oğlu Əhməd, ondan da əvvəl Şəms Təbrizi (Araşdırıcı yanılır, Şəms Təbrizi Yəsəvidən sonra yaşayıb – Ə.Ş.) var ki, bu surətlə Türkcə əsərləri məlum olan ilk sxolastik şailərimiz hicri altıncı əsrə qədər enmiş olur." (**Əmin Abid, 1929, 10:31)** (Əmin Abid Azərbaycanın yazılı ədəbiyyatını nəzərdə tutur. Ümumilikdə isə ədəbiyyat tarixini "Kitabi-Dədə Qorqud"la başlayır – ***Ə.Ş.*)**.

Əmin Abidin yaradıcılığı, onun ədəbiyyat tariximizə baxışları ilə yaxından tanış olmayan oxucu araşdırıcının Veys oğlu Əhmədi Azərbaycan ədəbiyyatı tarixinə daxil etməsində bir yanlışlıq görər və onu türk xalqları arasında ziddiyyət yaratmaqda təqsirləndirər. Onun yaradıcılığı ilə yaxından tanışlıq isə Əmin Abidin coşqun bir millətsevər, türk xalqlarının birliyinə çalışan və bu yolda canından keçən bir şəxs olduğunu görər. O, hələ İstanbul Universitetində tələbə ikən Bakıya göndərdiyi məktubunda yazırdı: "Azəri türkcəsinin… on dördüncü əsrin ortalarına qədər doğurduğu məhsulatın fonetik etibarilə Səlcuq türkcəsinin məhsulu aid etsək yanlış bir hərəkət olmaz" (**Əmin Abid, 1926, 2-3:20).**

Miladi 14-cü yüzilin ortalarına qədər türk xalqlarının ədəbiyyatının ortaq olduğu qənaətində olan araşdırıcının fikrincə, sonrakı yüzillərdə bu ayrılma sürətlə, yəni bir-birini anlamayacaq dərəcədə

olmamış, əksinə, həmişə bir-birindən bəhrələşmilər. Fikirlərini isbatlamaq üçün Əmin Abid on beşinci əsrə doğru cığatay ədəbiyyatının gücləndiyini, Əlişir Nəvai kimi dahilər yetişdiyini və Azərbaycanda neçə-neçə şairin, lüğət müəllifinin cığataycadan bəhrələndiyini yazır. Onun araşdırmalarına görə bu ötəri bir təsir olmamış 17-18-ci yüzilədək davam etmişdir. 19-cu yüzillikdə isə M.F.Axundov yaradıcılığından istər tatarların, istər qazaxların, istərsə də özbəklərin bəhrələnməsini təbii və qanunauyğun sayır.

Türk xalqlarının ədbiyyat tarixini, mədəniyyətini dərindən öyrənən, onun ortaq cəhətlərini ortaya qoyan Əmin Abidi bu gün türk dünyası lazımınca tanımır. Bunun da əsas günahkarı Sovet irticasıdır.

Əmin Abid İstanbuldan Bakıya döndükdən sonra burada Gültəkin imzası ilə yazdığı şeirlərdə olduğu kimi açıq döyüşkən mövqedə dayanmadı. Tamam başqa bir yol seçdi. Ədəbiyyatımızın tarixini araşdırmağa başladı. Sovet xüsusi xidmət orqanları (KQB) onun elmi məqalələrindəki türklük ruhunu görür, bundan qorxuya düşürdü. Ona elmi dəlillərlə cavab verə bilmədiklərindən təqib edir, işdən çıxarır, mərkəzdən – ədəbi və siyasi mühitdən uzaqlaşdırırdılar.

Bütün təzyiq və təqiblərə baxmayaraq, Əmin Abid əqidəsindən dönmür, Orxan-Turfan abidələrini, "Kutadgu bilig"i, "Divan-i lüğət-i it-Türk"ü, "Divan-i

hikmət”i və s. təbliğ edirdi. Onun öhdəsindən gələ bilməyəcəklərini görən Sovet ideoloqları ölümünə fətva verdilər. 1938-ci il oktyabrın 21-də saat 21.00-da DTK (KQB) zindanında 40 yaşı tamam olmamış istedadlı bir alimi, coşğun vətənpərvəri güllələdilər **(AMTBA, dosye 32796).**

Əmin Abid güllələnsə də, ömrünü həsr etdiyi ideyanı gerçəkləşdirdi. Türk xalqlarının nümayəndələrinin tez-tez bir araya gəlməsi, mədəniyyətlərini, ədəbiyyatlarını, tarixlərini öyrənməsi Əmin Abid və onun kimi millətsevərlərin ideyalarının ölməzliyinə gözəl nümunədir.

Sonuc

Qəribə burasıdır ki, Özbəkistanın cədidçi şairi, milli dünyagörüşü ilə bölgənin aydınlarına güclü təsir göstərən Abdurauf Fitrət Əhməd Yəsəvini təndid etdiyi bir dövrdə Əmin Abid Əhməd Yəsəvinin dini nəfəslərinin ümumtürk ədəbiyyatının inkişafına güclü təkan göstərdiyindən söz açırdı.

Sovetlər Birliyinin rəsmi sənədlərində dindarların heysiyyatına toxunmamaqdan söz açılırdısa əməldə onlar hər cür alçaldılır, təqib edilir, həbsxanalara və sürgünlərə göndərilir, güllələnirdilər. Rəsmi sənədlərdə belə dindarların heysiyyatına toxunmamağın ardınca ona tamam əks olan fikirlər gəlirdi. Bunu Sov.İKP Proqramında da aydın görmək

olar. Orada yazılıb: “Partiya adamları, dünyanı elmi-materialistcəsinə anlamaq ruhunda tərbiyə etmək və dindarların heysiyyatına toxunmadan dini mövhumatı aradan qaldırmaq üçün ideya təsiri vasitələrindən istifadə edir. Müntəzəm surətdə geniş elmi-ateizm təbliğatı aparmaq... dini etiqadın əsassızlığını səbrlə izah etmək lazımdır” **(Sov.İKP Proqramı, 1973:108).**

Ali və orta ixtisas məktəblərində “Elmi ateizmin əsasları” fənni tədris edilirdi. Sov.İKP MK yanında İctimai Elmlər Akademiyası tərkibində Xüsusi Elmi Ateizm İnstitutu yaradılmışdır (1964). Azərbaycan SSR EA Fəlsəfə və Hüquq İnstitutunda elmi ateizm şöbəsi vardı. 1968-ci ildə Azərbaycan Dövlət Ateizm Muzeyi yaradıldı**(ASE, 1976: 460, 1 cild)**.

“SSRİ-nin bütün dünyada bənzəri görülməmiş nəhəng təbliğat maşını vardı və modernizmdən güc alan, zəkanın gücünə inanan, elmlə, maariflə hər şeyin dəyişəcəyinə iman gətirən kommunistlər islama qarşı qılıncla yox, sözlə mübarizə aparırdılar. Misal üçün 1948-ci ildən 1976-cı ilə qədər Azərbaycanda islam əleyhinə 96 kitab çap edilmişdi, Mərkəzi Komitənin xətti ilə hər il Azərbaycanda islam əleyhinə 15 min mühazirə oxunurdu (http://kulis.lent.az/m/news/2060).

Sovetlərin təbliğat maşınının var gücü ilə işləməsinə, dindarları məhvetmə siyasəti yürütməsinə baxmayaraq, Sovetlər çökdükdən sonra islam dininə

güclü axın başladı. Yeni məscidlər tikildi, ilahiyyat təhsili verən mədrəsələr aşıldı.

Əhməd Yəsəvi və onun ardıcıllarının əsərləri kütləvi tirajla çap olunub yayılmağa başlandı. Əmin Abidin də Əhməd Yəsəvi haqqında yazdıqları dəfələrlə nəşr edildi.

Qaynaqlar

1.Əmin Abid.(1926) Azərbaycan ədəbiyyatında türkcənin təkamülü. "Maarif və mədəniyyət" jurnalı, sayı 2-3, s.20.

2.Əmin Abid.(1927) Heca vəzninin tarix. "Maarif işçisi" jurnalı, sayı 3,4, 6-7.

3.Əmin Abid.(1929) Zərərli tənqidlər. "İnqilab və mədəniyyət" jurnalı, sayı 10, s.31.

4.Əmin Abid.(1930) Türk xalqları ədəbiyyatında mani nevi və Azərbaycan bayatılarının xüsusiyyəti. (Beş min bayatı-mani üzərində yazılmış bir tətəbbönamədir) "Azərbaycanı öyrənmə yolu" jurnalı, , sayı 4-5.

5.ASE (Azərbaycan Sovet Ensiklopediyası), 1976, Bakı, 1-ci cild

6.Azərbaycan Milli Elimlər Akademiyası Azərbaycanda Elmi İrsin Toplanması ve Sistemleşdirilmesi Merkezi Arşivi (AMEA AEİTVSMA), fond 39, siyahı 374, Əhmədov Əmin Abidin qovluğu.

7.Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivi. Ə.A.Əhmədovun istintaq işi, N 32796.

8.Babayev Nizaməddin. (1988). Ədəbi mübahisələr, "Yazıçı" nəşriyyatı, Bakı.

9.Cəfəroğlu Əhməd. (1932). Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsi izləri. "Azərbaycan yurd bilgisi" jurnalı, sayı 8-9. (Məqalə həmin il İstanbulda kitabça kimi çap edilmişdir).

10.Gültekin - Əmin Abid. Buzlu Cehennem. "Günəş" nəşriyyatı, Bakı, 1999. s.90.

11.Hüseyinoğlu Ali Şamil. Emin Âbid'in H. Ahmed Yesevî hakkındaki makalesine dair. Aylık Sevgi Dergisi "Yesevi", 2002, sayı 100, (9 yıl), Nisan, səh. 40

12.Sovet dövründə Azərbaycanda İslam dini: loyallar və radikallar. (http://modern.az/articles/45732/1/#gsc.tab=0

13.Sov.İKP (Sovet İttifaqı Kommunist Partiyası) Proqramı. (1973). Azərnəşr, Bakı.

14.Qan Turalı. (2012). SSRİ-nin islamı ləğv etmək projesi necə iflasa uğradı?, Bakü, 16 iyul. http://kulis.lent.az/m/news/2060.

15.Фитрат Абдурауф. (2000). Танланган асарлар, (Болтабоев Ҳамидулла нашрга тайёрлаган), "Маънавият" нашриёти, 2 жилд, Тошкентпроф,Toşkent.

http://az.azvision.az/news.php?id=12459

Çap olundu: Hoca Ahmet Yesevənən öyrənilməsinin qadağan edilməsi və araşdırıcılarının güllələnməsi səbəbləri. Keçmişdən gələcəyə Hoca Ahmet Yesevi Uluslararası Sempozyumnun (26-28 Eylül 2016) Bildirileri, Türkiye, İstanbul, 2016, cild 1, seh. 172-183.

Çap olundu: Eli Şamil Hüseyinoğlu. Emin Âbid'in H. Ahmed Yesevî hakkındaki makalesine dair. Aylık Sevgi Dergisi "Yesevi", 2002, sayı 100,(9 yıl), Nisan, səh. 40

ŞEİRLƏRİ İLƏ TÜRK DÜNYASINI FƏTH EDƏN, İSLAMI YAYAN ƏHMƏD YƏSƏVİ

Əhməd Yəsəvinin adını ilk dəfə 1968-ci ildə, Azərbaycan Dövlət Unversitetinin birinci kursunda oxuyarkən eşitdim. Azərbaycan şifahi xalq ədəbiyyatından dərs deyən müəllimimiz filologiya elmləri namizədi Vaqif Vəliyev bayatılar haqqında mühazirə oxuyarkən Əmin Abidin "Azərbaycanı öyrənmə yolu" jurnalının 1930-cu ildə yayımlanan 4-5-ci sayındakı "Türk xalqları ədəbiyyatında mani nevi və Azərbaycan bayatılarının xüsusiyyəti (Beş bin bayatı-mani üzərində yapılmış bir tətəbbönaməsidir)" məqaləsini də oxunmalı qaynaqlar sırasına salmışdı. 1929-1939-cu illərdə Azərbaycan latın qrafikalı əlifbadan istifadə edilmişdi. Məqalə də latın qrafikalı

Azərbaycan əlifbası ilə çap olunmuşdur. Bizim nəsil isə Kiril qrafikalı əlifbadan istifadə edirdi.

Məqalədəki fikirlər məni özünə o qədər çəkdi ki, əlifba fərqinin yaratdığı çətinliyə baxmayaraq, diqqətlə oxudum. Araşdırıcı yalnız Azərbaycandan toplanmış bayatılar haqqında fikir söyləməklə kifayətlənməmişdi, Turfan, Altay, Özbək, Mişər, Kazan, Krım, Qaqauz, Anadolu, İran və Dağıstan türkləri arasında geniş yayılmış 4 misralı 7 hecalı şeir şəklini müqayisəli təhlil etmiş, keçdiyi tarixi yolu qaynaqlarla işıqlandırmışdı. Belə ağır və şərəfli işə girişən araşdırıcı heç cür Əhməd Yəsəvinin yazdığı 7 hecalı dördlüklərdən yan keçə bilməzdi. Məqalənin yazıldığı tarix 1928-ci il, oktyabrı göstərlimişdir. O vaxtdan 40 il keçsə də Azərbaycanda bayat-mani-çıraşulə haqqında belə dəyərli bir əsər çap olunmamışdı.

Əhməd Yəsəvinin adına ilk dəfə həmin məqalədə rast gəldim. Əmin Abid yazırdı: "Əhməd Yəsəvinin əsərlərindən Azərbaycanın mətbuatında ilk dəfə olaraq "Maarif işçisi" jurnalında nəşr olunmuşdur." **(Əmin Abid, 1930, 4-5:17).** "Maarif işçisi" jurnalının 1927-ci ildə yayınlanan 3, 4 və 6-7-ci saylarındakı, ərəb əlifbası ilə yazılmış "Heca vəzninin tarix" məqaləsinin müəllifi də Əmin Abid idi. Çox çətinliklə olsa də həmin məqaləni də oxudum.

Dərsliklərdə, qəzet və jurnallarda Əhməd Yəsəvinin adına rast gəlmirdik. Onun adının belə cidi-cəhdlə unutdurulmağa çalışıldığı, milli dəyərlərə

qarşı sərt təbliğat getdiyi bir zamanda Əmin Abidin milli dəyərlərimizə, dinimizə sahib çıxmağı məni olduqca heyrətləndirdi.

"Əmin Abid "Heca vəzninin tarixi" əsərində yazırdı: "Təkkiyəçiliyin ümumi xarakteri göz önünə gətiriləcək olursa, heca vəzninin onlarca məqbul görünməsinin mənası qolaylıqla anlaşılır. Qayəsi daha böyük bir əksəriyyətə – məfkurəvi təlqinlərə təsir yapmaq olan təkkə təşkilatı xalq ruhunu nəzərə almaq və xalq ədəbiyyatı elementlərini qullanmaq məcburiyyətində idi. Bunun üçün təkkə şeiri milli xalq şeiri olan heca ilə yaradılırdı." (**Əmin Abid, 1927, 6-7:48).**

"Təkkə şeirini milli xalq şeiri olan heca ilə yaradan kimdir?" sualına Əmin Abidin araşdırmasında belə cavab veri: "Heca vəznini ilk müdafii olaraq Yəsəvi təkkəsində buluruz. Yəsəvilik təriqəti üzrə doğan ədəbiyyatın məşhuru miladi 12-ci əsrdə yaşamış şair, həkim Əhməd Yəsəvinin «Divani hikmət" adında toplanan əsərləridir. Əhməd Yəsəvi hecayi qullanmaqla bərabər ona daha əski zaman məhsullarındakı vəziyyətdən ayıran mütəkamil bir şəkil verməmişdir. Onun əsərlərində də heca itiradlı misrai ahəngdən məhrum bulunaraq ibtidai texnikayı mühafizə etməkdədir." (**Əmin Abid, 1927, 6-7:49).**

Əhməd Yəsəvinin "Divan-i hikmət"ini diqqətlə nəzərdən keçirən və onu öncəki qaynaqlarla qarşılaşdırmalı şəkildə araşdıran Əmin Abid 12 hecalı şeir şəklinin də mayasında yeddiliklərin duraqı

(bölgüsü) olduğunu söyləyir. Fikirlərinə aydınlıq gətirmək üçün Əhməd Yəsəvidən bir yeddilik, bir on ikilik şeir nümunə göstərir. Yeddi hecalıya nümunə kimi Əhməd Yəsəvinin məşhur "Aşiqlər" rədifli şeirini verir.

Əhməd Yəsəvi yaradıcılığını əsərlərinin mövzusu ilə bağlı araşdırmaya cəlb edən Əmin Abid yazır: "Əhməd Yəsəvi zamanında Orta Asiya Türkləri heca vəznilə bir çox xalq mənzumələrinə malik olmuşdur. Hələ bu xalq mənzumələri içində yeddi hecai çox modda olmuş olacaq ki, mühitin ədəbi təsiri altında Əhməd Yəsəvi də yeddili vəznə çox əhəmiyyət vermişdi." (**Əmin Abid, 1930, 4-5:18).**

Nəinki tələbəlik illərimizdə, ondan sonralar da Azərbaycanda Əhməd Yəsəvi kimi Əmin Abid haqqında da bilgiyə rast gəlmək mümkün deyildi. Uzun axtarışlardan sonra Əmin Abidin 1898-ci ildə Bakıda doğulduğunu, 1919-1926-cı illərdə İstanbulda təhsil aldığını və Darülfününda oxuduğu illərdə altı cildlik "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" yazdığını, həmin əsərin son cildini, "məzuniyyət tezi" kimi universitetin professorları qarşısında müdafiə etdiyini öyrəndim. **(Şahbazov Əli, 1926: 9 yanvar).** Çox heyf ki, bu millətsevər və istedadlı araşdırıcı ideologi nədənlərdən 1938-ci il oktyabrın 21-də, saat 21.00-da DTK (KQB) zindanında güllələmişdir. **(AMTBA, dosye 32796)**.

Sovetlər Birliyi çokməyə başladıqda Əhməd Yəsəvinin də, Əmin Abidin də, onlar kimi yüzlərlə milli düşüncəli, islamçı fikir adamının haqqında məqalələr, kitablar yayınlanmağa, radio, televiziya verlişləri hazırlanmağa başlandı. Qazaxıstanda Əhməd Yəsəvini türbəsi təmir edildi. Təəssüf ki, böyük filosof-şairin, ilahiyyatçının məzarı açılaraq günümüzün elmi-texniki imkanlarından istifadə edilib yaşı müəyyənləşdirilmədi. Buna görədir ki, hələ də onun ölümü və doğumu haqqında fərqli fikirlər söylənilir. Türkiyədə nəşr edilən İslam Ansiklopedisi kimi ciddi bir nəşr Əhməd Yəsəvidən söz açarkən yazır: "11-ci yüzilin ikinci yarısında dünyaya gəldiyini söyləmək mümkündür", "Ahmed Yesevi altmış üç yaşına geldiğinde geleneğe uyarak tekkesinin avlusunda müridlərinə bir çilehane hazırlatır, vefatına kadar burada ibadet və riyazetlə meşğul olur. Çilehanede ne kadar kaldığı belli değildir, fakat ölünceye kadar buradan çıkmadığı ve hücrede vefat etdiği mühakkakdır. Doğum tarixi bilinmediğinden kaç yıl yaşadığı hüsusunda da keskin bir şey söylemek mümkün değildir". **(İslam Ansiklopedisi, 1989:160, cilt 2).**

Əhməd Yəsəvinin doğum yeri haqqında da iki fikir söylənilir: Birində indiki Qazaxıstanın Çimkənd yaxınlığındakı Türküstan (keçmiş Yesi) şəhərində doğulduğu, o birisində isə Tarım çayın bir qolu olan Şahyara axan Qarasu çayının üzərindəki Sayram

qəsəbəsində doğulduğu yazılır. Sayram qəsəbəsi keçmiş dönəmlərdə İspicab (İsficab) və Akşəhər də adlanıb.

Xacə Əhməd, Xacə Əhməd Yəsəvi, Qul Xacə Əhməd kimi tanınan bu böyük sufu alimindən söz açanlar onu Piri Türküstan, Həzrəti Türküstan, Həzrəti Sultan deyə tanıdıblar. Soykökünün Həzrət Əlinin oğlu Mühəmməd bin Hənifeyə bağlandığını yazırlar. Mühəmməd bin Hənifeyə də Həzrət Fatimadan deyil, Həzrət Əlinin başqa xanımından doğulduğundan, yəni peyğəmbərimiz Mühəmməd əleyhissəlama bağlanmadığından onlara seyid deyilmir. Bölgədə Mühəmməd bin Hənifə soyundan gələnlərə xacə deyilir. **(Türk dünyası evliyaları, 2006:273, 2-ci cild).**

Şeyx İbrahimlə Ayşe xatunun izdivacından doğulan Əhmədin kiçik yaşlarında anası, yeddi yaşında isə atası ölür. O, özündən böyük bacısı Gevher Şehnazın himayəsində böyüyür və ilk təhsilini Azərbaycanlı Yusif əl-Həmədanidən (ölümü 1140-41) alır. İlk müəlliminin vəfatından sonra Buxara mədrəsəsində oxuduğu, dövrün məşhur alimlərindən Abdullahi Berkidən, Şeyx Həsən Endakidən dərs aldığı söylənilir. Onun bir sufi kimi yetişməsinin səbəbkarı isə Arslan Baba olmuşdur.

Mehmed Fuad Köpürlüzadə Xazinin 1594-cü ildə yazdığı "Cəvahir-ül əbrar min ənvasil bihar" əsərinə dayanaraq Xacə Əhməd Yəsəvinin 1166-cı ildə

dünyasını dəyişdiyini yazmışdır. Ensiklopediyalarda isə doğum tarixi 1105-ci il göstərilir.

İsveçin Upsala Unversiteti kitabxanasında saxlanan Doğu əlyazmalarının araşdırılması böyük sufi alimi və şairinin həyat və yaradıcılığına sanki bir işıq saçdı. Sufi Məhəmməd Danişmənd Zərnikinin yazmış olduğu "Mirat-ül-kulup" əsəri yalnız Xacə Əhməd Yəsəvinin həyat və yaradıcılığını öyrənmək baxımından deyil, həm də dəvrişlik, sufi cəryanlarını öyrənmək baxımından olduqca qiymətli qaynaq oldu.

Sufi Məhəmməd Danişmənd Zərniki Xacə Əhməd Yəsəvinin birinci və ya üçüncü nəsil dəvrişlərindən sayılır. Onun qırx dəfə mürşidi Xacə Əhməd Yəsəvi ilə riyazətə çəkildiyini, yəni kiçik və qapalı bir yerdə yaşayaraq, dünya nemətlərindən ən az şəkildə istifadə etmək və insanlarla ünsiyyətddən uzaq olmaqla nəfslərini tərbiyə etmiş, kamillik məqamına yüksəlməyə çalışdığını yazırlar. Müridlikdən mürşidliyə gedən ağır yolu keçdikdən sonra Xacə Əhməd Yəsəvi Məhəmməd Danişmən Zərnikini Otar şəhərinə islamı təbliğ etməyə və ətrafına dəvrişlər toplamağa göndərir. (Şamil Əli. http://ali-shamil.tr.gg/%26%23399%3 Bhm%26%23601%3Bd-Y%26%23601%3Bs%26%23601%3Bvi.htm). Orta yüzilliyin qaynaqlarından Ali bin Hüseyin (1462-1533) farsca yazdığı (1503) "Reşahât ayn-ül–hayât" kitabında Nakşî büyüklerini anlatır. Kitabın baş tərəfində isə "Hâce Ahmed Yesevî hazretleri silsilesi

mensuplarından bahs eder" yazılıb **(KILIÇ Dündar Ali, 2016:304).**

Hənəfi məzhəbindən olan, zahiri və batini elmləri dərindən bilən Əhməd Yəsəviyə şöhrət qazandıran hikmətləri olmuşdur. Qısa və yığcam şəkildə türkçə söylədiyi dördlüklərini dəvrişləri Türk dünyasında yaymışdı. O, bu dördlüklərdə türklərin əski inancları tanrıçılığı islamla birləşdirərək yeni bir təriqətin əsasını qoymuşdur **(Hüseyinoğlu Ali Şamil. 2002:41, sayı 100**).

Əhməd Yəsəvi sadə bir şeir şəkililə islamı yaymamışdı. Ədəbiyyatımızda vücudnamə-yaşnamə şeir şəkilinin yaradıcısı da Əhməd Yəsəvi sayılır. Türk dünyasında vücudnamələri müqaisəli şəkildə öyrənən Elmira Məmmədova-Kekeç yazır: "Klassik ədəbiyyatda vücudnamə yaradıcılığında xüsusi yeri olan və janrın məzmun və formaca ilk kamil nümunəsi böyük Türküstan piri Əhməd Yəsəvi tərəfindən yaradılmışdır. O, «Divani hikmət" əsərində ilk klassik vücudnaməni qələmə almışdır. Epik mətnlərdə (dastan və məsnəvilərdə) vücudnaməyə qəhrəmanın sadəcə dünyaya gəlişinin və sürətlə böyüməsinin təhkiyəsini vermək üçün müraciət edilir. Əhməd Yəsəvi isə türk xalqları ədəbiyyatında ilk dəfə lirik mənin dilindən ömrün(ün) sonu və hətta axirət dünyasındakı vəziyyəti haqqında məlumat verir. Daha sonra aşıq yaradıcılığındakı vücudnamə mətnləri də

məhz “Divani hikmət”dəki vücudnamənin arxitektonikası üzərində qurulur”. **(Kekeç E., 2016.)**

Tibbi biliklərin zəif inkişaf etdiyi bir dövrdə Əhməd Yəsəvinin insanın yaşamını dolğun və dəqiq təsvir etməsi günümüzün təbiət elmləri sahəsində çalışanların da heyrətinə səbəb olur.

Əhməd Yəsəvi vaxtını üç yerə ayırırmış. Günün çoxunu ibadət və zikirlə məşğul olar, ikinci hissəsini tələbələrinə zahiri və batini elmlər öyrədər, üçüncü hissəsində isə ağacdan qaşıq düzəldərək onu satmaqla dolanarmış.

Rəvayətə görə Əhməd Yəsəvinin öz sağlığında Yesi çevrəsində 12 min, dünyanın müxtəlif guşələrində isə doxsan doqquz min müridi olmuşdur **(İslam Ansiklopedisi, 1989:161, cilt 2).** Oturaq həyat sürməyən, yəni şəhər və qəsəbələrdə yaşamayan türklərin islamlaşmasında yəsəviyyə təriqətinin üzvü olan dəvrişlərin rolu böyükdür. Sonralar bu təriqətdən yeni təriqətlər də yaranmışdır. Ardıcılları Əhməd Yəsəvinin hikmətlərini «Divani hikmət” adı altında toplamışlar.

Köçəri həyat keçirən insanların yanlarında kitab gəzdirməsi, bir yerə toplaşaraq yazıb oxumaq öyrənmələri, səriət qaydalarına ciddi əməl etmələri çətin idi. Buna görə də bölgədə islam zəif inkişaf edirdi. Əhməd Yəsəvinin hikmətlərini isə türklərin bütün tayfalarından olan insanlar asan başa düşür və tez də əzbərləyirdilər. Onların əzbərlədiyi hikmətləri

nə yağış, qar silə bilirdi, nə də onları daşımaq üçün araba, at, dəvə, ulaq lazım idi. Beyinlərə hopmuş hikmətlər hər yerdə təkrarlanır və nəsillərdən-nəsillərə öyürülürdü.

Yüz illər boyu dərvişlər Əhməd Yəsəvinin hikmətlərini Azərbaycanın bütün kənd və qəsəbələrində oxuyublar. Həsənoğludan başlayaraq 20-ci yüzillikdə yaşamış bir çox Azərbaycan şairi az və ya çox dərəcədə Əhməd Yəsəvidən yararlanmışdır. İmperializmin inkişafı, Rusiyanın Qafqazı, Türküstanı işğalı xalqlarımız arasındakı tarixi bağları qırmışdı. Rusiyanın işğalçı yürüşləri nə qədər zərərli olsa da aydın düşüncə sahibləri bundan millətin və xalqın xeyrinə istifadə etməyə çalışdılar.

Bütün müstəmləkəçilər kimi Rusiya da əsarət altına aldığı xalqları əbədi əsarətində saxlamaq üçün uzunmüddətli planlar hazırlayıb onu həyata keçirirdi. Bu plana işğal altındakı xalqların xristianlaşdırılması və ruslaşdırılması da vardı. Çar Rusiyası dönəmində bu plan yarıgizli və nisbətən mülayim həyata keçirilirdi. Öncə türk və müsəlman xalqlarının yüzillər boyu işlətdikləri ərəb əlifbasını dəyişmək, məktəb və mədrəsələri bağlamaq, qadınları-anaları xristianlaşdırmaq istəyirdilər. Lakin onlar unudurdular ki, islam dinini ana dilində yayan Yəsəvi dərvişlərinin rolu heç də məktəb və mədrəsələrdən az deyil. Köçəri həyat sürən toplum arasında dəvrişlərin apardığı təbliğatın gücü kitablardan, mədrəsələrdən daha böyük idi. Ona

görə də Rusiyanın əsarət altında saxladığı xalqları xristanlaşdırmaq, sonra da Ruslaşdırmaq siyasətinini həyata keçirmək heç də asan olmurdu.

Bolşeviklər hakimiyyəti silah gücünə ələ aldıqda sonra çarizmin Ruslaşdırma siyasəti sərt və açıq şəkildə həyata keçirilməyə başlandı. Bolşeviklər hakimiyyətlərinin ilk illərindən dinin hökumətdən ayrırdıqlarını elan etdilər. Öncə dinə qarşı sərt şəkildə mübarizə aparmadılar. Hakimiyyətlərini möhkəmləndirdikcə məscidləri, mədrəsələri bağladılar, dinə qarşı dövrü mətbuatda, radio və televizyada, təbliğatçıları vasitəsilə sistemli təbliğat apardılar, mübarizənin sərt formalarından istifadə etdilər. Beləcə, ateist bir toplum formalaşdırmaq, sonra da onları beynəlmiləlçilik adı altında Ruslaşdırmaq istədilər. (http://modern.az/articles/45732/1/#gsc.tab=0)

Sovetlərin apardığı sərt siyasətə baxmayaraq, islam dinini insanların qəlbindən silmək mümkün olmadı. Heç bir yerdə rəsmi qeydiyyatı olmayan, hər hansı bir təşkilat ətrafında birləşməyən dəvrişlər Əhməd Yəsəvinin ənənəsini yaşadaraq ana dilində islam dinini təbliğ edirdilər.

Sovetlərin çöküşündən sonra qısa zamanda Azərbaycanda Əhməd Yəsəvinin həyat və yaradıcılığının öyrənilməsinə, əsərlərinin təbliğinə başlandı. Pənah Xəlilovun "Əhməd Yəsəvi", Füzuli Bayatın "Xacə Əhməd Yəsəvi və xalq sufizminin bəzi

problemləri", yenə həmin müəllifin “Türk təkkə (təsəvvüf) ədəbiyyatı, Sərxan Xavərinin “Milli mədəniyyət sistemində poetik təsəvvüf kodu”, Gülşən Əliyeva-Kəngərlinin "Sufizm" monoqrafiyaları, Əziz Mirəhmədovun "Yəsəvi və yəsəvilik Azərbaycanda", Bəhlul Abdullanın "Yəsəvilik və Azərbaycanda şaman-dərviş mədəniyyəti", Əziz Mustafanın “Xacə Əhməd Yəsəvi Türküstandan doğan bir türk günəşi”, Fazil Qaraoğlunun “Tarixdə iz buraxanlar: Əhməd Yəsəvi”, Zaman Əsgərlinin “Könüllərin fatehi - Əhməd Yəsəvi”, Salidə Şərifovanın *“*Mənəvi-mədəni qaynaqlarımız: Əhməd Yəsəvinin bədii və fəlsəfi-dini irsi”, Vügar Sultanzadenin **“**Ahmed Yesevi’nin felsefesi hakkında”, Seadet Şihiyevanın “Azerbaycan edebi tasavvufi fikir tarihi ve yesevilik”, Əli Şamilin “Xacə Əhməd Yəsəvinin öyrənilməsinin qadağan edilməsinin və onu araşdıranların güllələnməsinin səbəbləri”, Aynur Qəzənfər qızının “Ahmet Yesevi düşüncelerinin Dağıstan’da yayılmasında Yaxsay medressesinin önemi” və b. onlarla məqalələri çap olunmuş, Azərbaycanlı araşdırıcılar onlarla nüfuzlu beynəlxalq sempozyumlarda Əhməd Yəsəvi haqqında məruzələr oxumuşlar.

Qaynaqlar

1. ASE (Azərbaycan Sovet Ensiklopediyası), 1976, Bakı, 1-ci cild

2. Azərbaycan Milli Elimlər Akademiyası Azərbaycanda Elmi İrsin Toplanması və Sistem-ləşdirilməsi Mərkəzi Arxivi (AMEA AEİTVSMA), fond 39, siyahı 374, Əhmədov Əmin Abidin qovluğu.

3. ƏMİN Abid.(1927) Heca vəzninin tarix. "Maarif işçisi" jurnalı, sayı 3,4, 6-7.

4. ƏMİN Abid.(1930) Türk xalqları ədəbiyyatında mani nevi və Azərbaycan bayatılarının xüsusiyyəti. (Beş bin bayatı-mani üzərində yazılmış bir tətəbönamədir) "Azərbaycanı öyrənmə yolu" jurnalı, sayı 4-5.

5. HÜSEYİNOĞLU Ali Şamil. Emin Âbid'in H. Ahmed Yesevî hakkındaki makalesine dair. Aylık Sevgi Dergisi "Yesevi", 2002, sayı 100, (9 yıl), Nisan.

6. İslam Ansiklopedisi.(1989). Türkiye Diyanet Vakfı, İstanbul, 2-ci cilt.

7. KEKEÇ-MƏMMƏDOVA Elmira. (2016). Türk xalqlarinin məsnəvi yaradiciliğinda vücudnamələr

8. KILIÇ Dündar Ali.(2016). Reşahât ayn-ül hayât kitabında Hâce Ahmed Yesevî ve yolu geçmişten geleceğe Hace Ahmed Yesevî Uluslararasi Sempozyumu Bildiri Özetleri, *26-28 Eylül 2016 Istanbul/Türkiye*

9. Sovet dövründə Azərbaycanda İslam dini: loyallar və radikallar (http://modern.az/articles/45732/1/#gsc.tab=0)

10. ŞAHBAZOV Əli. Türkiyə məktubları. İstanbul Darülülfununda Azəri ədəbiyyatı tarixi. ”Yeni fikir” qəzeti, 1926, 9 yanvar.

11. ŞAMİL Əli. Əhməd Yəsəvi, (http://ali-shamil.tr.gg/%26%23399%3 Bhm%26%23601%3Bd-Y%26%23601%3Bs%26%23601%3Bvi.htm)

12. Türk dünyası evliyaları (Afganistan, Azerbaycan, Kazakıstan, Tacikistan, Rusiya Federasiyonu, Türkmənistan). (2006) Türkiye gazetesi yayınları, İstanbul, 2-ci cilt.

Çap olundu: Şamil Əli. Şeirləri ilə Türk dünyasını fət edən, islamı yayan Əhməd Yəsəvi, “Sebilürreşad” dergisi, 2017(hicri 1438), Şubat-Mart (Recep), sayı 1014, cild 41, Səh. 50-52.

AZERBAYCANDAN VE ÖZBEKİSTANDAN DERLENMİŞ KÖROĞLU DESTANLARININ ORTAK NOKTEALEARİ

Özet

Köroğlu destanlarının Avrupa metodları ile araştırılmasının tarihi 200 yıla yakındır. Öten yıllarda araştırıcılar konuyla ilgili onlarla kitap, yüzlerle makale yayınlatmış, bildiri sunmuşlar. Araştırıcıların hizmetlerini hiçe indirmeden onu demeliyik ki, konu ile ilgili hale çok probleme yeniden bakılmalıdır.

Köroğlu konusunda onlarla destan, masal, şarkı, mit, atasözü vb. mevcuttur. Böyle geniş alanı kapsayan destanın dünya çapında tanıtılmas Türklerin adıyla deyıl, aslen Leh (Polonyalı) Aleksandr Hodzkonun adı ile bağlıdır. Sonra Avrupa, Rusya, Türkiye ve Türk Cumhuriyetleri ve topluluklarının araştırıcıları kitaplar, makaleler yayınlatmışlar. Ne yazık ki, devletler arasındaki siyasi durum ve demir perdeler Köroğlu destanının gerektiği kibi araştırılmasını engellemiş, 70 yıla yakın çalışmalar bölgesel düzeyde kalmıştır. Azerbaycan, Türkmenistan, Özbekistan, Kazaxıstan ve Türkiye'de yayımlanmış kitap ve makalelerde araştırmacılar Köroğlu'nun kendi bölgelerinde yaşadığını ispatlamaya üstünlük vermişler. Bunun sebeplerinden biri de, destanın gerektiği gibi derlenip yayımlanmamasıdır.

Araştırmalarda destanın Azerbaycan, Türkmenistan, Özbekistan, Kazaxıstan ve Türkiye'den derlenmiş variantlarindaki farkliliklar apardilmiştir. Hansı ki, Sovetler Birliginin çöküşünden sonra yayınlanan Köroğlu destanları onu gösteri ki, farklar az, ohşarlıklar ise çoktur. Bunu Horezm bölgesinden derlenib yayınlanan Köroğlu destanı ile Azerbaycandan ve İran İslam Respublikasinda yaşayan Türklerden derlenib yanımlanmış kitabları kiyasladıkda daha aydın görmek olur.

Tehranda avokat olan Ali Kamalinin Orta İran Türklerinden derlediyi ve yayımlada bilmediyi Köroğlu destanı Türküstandan derlenib yayınlanalarla, Azerbaycandan derlenib yayınlanalar arasında bir köprünü hatırladır.

Biz makalede alan çalışmaları zamanı Azerbaycandan ve Özbekistandan bulunan Köroğlu destanlar ve onun yayınlanması, hakkında yapılan araştırmalara açıklık getireceğiz.

Anahtar kelimeler: Köroğlu destanı, Azerbaycan, Aleksandr Hodzko, Özbekistan, Horezm.

Giriş

Yüzyıllar boyu Köroğlu destanı yalnızca Türkler arasında değil, Türklerle ilişkisi olan halklar arasında sevilmiş düğün ve bayramlarda, toplantılarda aşıklar çalınıp okunmuşlar. Destanı Türk halklarının hankının

yaratdığı hakkında da bir tartışma söz konusu olmamştır. Büyük devletlerin Türk halklarını bir-birinden ayırmak ve bir-birine karşı koyma siyaseti neticesinde Köroğlu destanının toplanmasında, yazıya alınmasında, yayımlanmasında ve araştırılmasında da kendini göstermiştir.

Destan aynı kökden kaynaklansa da araştırıcılar daha çok ayrı-ayrı bölgelerden alan çalışmaları zamanı yazıya alınmış nushalar arasındakı farklara daha çok dikket yetirmiş, böylece Türkiye için bir Köroğlu destanı, Azerbaycan Türkleri için farklı bir Köroğlu destanı, Özbekler, Türkmenler, Kazaklar vb. Türklerin bir-birinden farklı Köroğlu destanı olduğunu isbatlamağa çalışmışlar. Bu bakımdan ünlü Sovyet araştırmaçılarından milliyetce Azerbaycan türkü olub da Moskyada yaşayan ve orada çalışan Halik Koroğlunun Moskvada 1971. yılda yayınlatdığı "Koroğlu Türkmen epos ve onun tarihi husi-siyyetleri", 1983 yılda yayınlatdığı "Orta Asya, İran ve Azerbaycan halklarının destanlarının karşılıklı alakası", Türkmünistanlı B.A. Karrıyevin Moskvada 1968. yılda yayınlatdığı "Türkdilli halklarda Koroğlu hakkında epik destanlar", Azerbaycanlı Mehem-medhüseyin Tehmasibin 1974. yılda Baküde yayınlatdığı "Halk destanları" ve b. kaynaklarda bol-bol melzeme var.

M.H.Tehmasib, B.M.Jurminski, X.T.Zaripov, M. Saidov, T Mirzayev, M.Muradov ve b. Köroğlu

destanlarının Doğu ve Batı motiflerini ümumtürk destan geleneginin mahsulu gibi araştırsalar da onun kökünün Güney Azerbaycanda 16-17. yüz yılın olaylarına bağlayırlar. H.G.Koroğlu ve B.A.Karriyev ise Azerbaycan Koroğlusuna nibeten Türkmən Koroğlusunda arxaik ünsürlerin daha çok olduğunu yazırlar.

Sovyet döneminde Köroğlu destanının ümumtürk konteksinden araştırılmasında Azerbaycanlı araştırıcı Mireli Seyidovun emeyi büyük olmuştur. Onun "Azerbaycan" dergisinde yayınlatdığı ve sonralar "Azerbaycan mifik tefekkürünün kayakları" kitabında daha da cilaladığı fikirleri konuya yeni bakışın esasını koymuş oldu.(Seyidov Mireli, 1983)

Folklorla- halk edebiyyatı ile ilgilenen her bir kişi bilir ki, neinki aynı bölgede yaşayan ayrı-ayrı kişiden, hatta aynı kişiden farklı zaman kesiyinde bir melzeme toplanırsa onda farklılık yaranır. Böyle olduğu halda bir-birlerinden bin kilometirlerle uzakda yaşayan, kültürlerinde, lehcelerinde farklılık yaranan, Türk halklarından toplanan folklor melzemelerinde farklılıkların olması normeldır. Bunu Köroğlu destanında da görmek olur.

Köroğlu destanı yayılmasında Aleksandr Hodzko'nun rölü

Peterburg Üniversitesinde çalışan azerbaycanlı Mehemmed Cefer Topçubaşovun rehberliyi ile Doğu

dillerini öyrenen, milliyetçe polonyalı şair, tercüman ve araştırmacı Aleksandr Hodzko Rusya Misyonerler Cemiyeti tarafından tercüman olarak İran'a gönderilir. Az sonra o Reşt ve Gilan şehirlerinde Rusya konsolosu olarak çalışır. Resmi görevi ile yanı sıra halk edebiyyatına büyük ilgi gösteren araştırıcının dikkatını Köroğu destanı da çekir. Aslında bu onun ilk alan çalışması degildi. 1830 yılında Heşterhan Nogaylarından olan Alibey Şarapov'dan "Edigey" destanını derlemiş, yine onun yardımıyla destanın nesir kısmını Farsdiline çevirmişdir. **(Sikaliyev A, 1994:6, Şamil Ali, 2011:195).**

Aleksandr Hodzko Aşık Sadık'tan Köroğlu destanını derleyerken öyle düşünmüşdür ki, destan yalnız Kuzey İran ve Hazar çevresinde yaşayan halka mahsusdur. O, hazırladığı kitaba ön sözde yazır ki, bu örnekleri ben haman yerlerde olduğum on bir yılda farklı zamanlarda yazmak ve okumak bilmeyen halkin fakirlerinden derlemişim. **(Abbaslı İsrafil, 1997:5)**. Destanın dünya sathında yayılması ve Avrupa metotlarıyla araştırılması, incelenmesini sağlayan Aleksandr Hodzko destanın düzyazı kısmını Fars diline çevirmiş olsa da, şiirlerini aynen olduğu gibi, yani Türk dilinde yazıya almıştır. İngilterede Doğu Dillerinden Terçüme Komitesi tarafından begenilmiş ve 1842 yılında Londrada yayımlanmıştır. **(Abbaslı İsrafil, 1997:5)**.

Bu olay da destanın Avrupa genelinde tanınarak araştırılmasının temeli atılmıştır. Köroğlu destanı kısa bir zamanda Fransız, Alman ve Rus dillerine çevrilmiştir. Araştırmacı metnin kendi kimliği ile tanınması konusuna özel önem vererek destanın Hacı Mirza İskender'in isteği ile Aşık Sadık'ın sazda çalarak söylediğini, Mirza Abdülvahap tarafından kaleme alındığını, Mirza İskender'in hizmetçileri olan Mirza Mehdi Gilani, Hazretkulu Bey ve Yakup Beylerin de bu işe şahitlik ettiklerini belirtir. Metnin yazıya alınmasını, hicri tarihiyle 1250 yılının Rebiülevvel ayının 15'i Çarşamba günü olarak belirtir. Bu da miladî tarihle 1832 yılına denk gelmektedir. **(Abbaslı İsrafil, 1997:5)**.

Araştırmacı Elçin Abbaslıya göre Hacı Mirza İskender ismi Aleksandr Hodzko'nun Doğulu tarzda yazılışıdır. **(Azerbaycan, 2003:156).** Gerçekten de Doğu'da Aleksandr adı hep İskender olarak yazılıp, söylenmektedir.

Rus oryantalist Şopen 1856 yılında Aleksandr Hodzko'nun Avrupa'da yayımlattığı Köroğlu destanını Rus diline çevirerek *Kafkas* gazetesinde yayımlatmıştır. Şopen, eserin önsözünde şunları söylemiştir:

"Asya'da ve genelde Doğu ülkelerinde Köroğlu'nun şöhretinin ulaşmadığı bir köşe bulamazsınız. Hatta onun adını Baserabya ve Moldova'da da duya bilirsiniz. Acaba Köroğlu'nun savaşçı

yeteneğinin dışında ve tarihin belirli bir döneminde oynadığı rolün ispatlanmasından başka onu bu kadar sevdiren ne olabilir? Belirtmeliyim ki, Köroğlu'nun Asya'daki ünü, Homeros'un Yunanistan'daki şöhreti kadar azametlidir" **(Sadıkov, 1986:50).**

Buradan da anlaşılır ki, Aleksandr Hodzko Köroğlu destanını yalnız Kuzey İran ve Hazar çevresinde yaşayanlara mahsus olduğunu düşünürdü, Şopen ise destanın yayıldığı alanın daha geniş olduğunu vurğulayır.

Avrasya bölgesinde ikinci bir destan bulmak olmaz ki, Köroğlu kadar geniş yayılmış olsun. Köken olarak Azerbaycan Türkü olan Rus oryantalisti Mirza Kâzım Bey bunu şöyle izah etmektedir: "Halklar Köroğlu'nun zulme karşı adilane yürüttüğü mücadelede kendi arzu ve isteklerini bulduğundan onu kendi etnik özellikleriyle yoğurmaya çalışmışlardır. **(Hakkı Behruz, 2003:28).**

Avrupa ve Amerika'da tekrar tekrar yayımlanan bu metin Azerbaycan'da 1997 yılında yayımlanmıştır. Araştırmacılar Avrupa'da ün kazanmış Köroğlu destanını Azerbaycan'da yayına hazırlarken ona Paris nüshası adını verdiler. Elbette bu tesadüfen verilmiş bir ad değildi. Araştırmacılar destanın İngilizce, Fransızca ve Rusça yayımlanmış kitaplardan faydalansalar da Paris'te olan orijinal nüshaya önem vermiyorlardı.

UNESKO'da çalışan soydaşımız Ramiz Abutalibov'un teşebbüsü ve Paris Milli Kütüphanesi'nde çalışan Jak Karoyan'ın yardımıyla Köroğlu destanının elyazması Azerbaycan'a getirildi. Farsça olan düzyazılar Azerbaycan Türkçesi'ne tercüme edildi ve şiirler de eski yazıdan Kiril alfabesine aktarılarak Bakû'de yayımlandı **(Köroğlu, 1997:3).** Böylelikle henüz yayımlanan elyazması eser Paris'ten getirtildiğinden dolayı Paris nüshası olarak isimlendirildi.

Köroğlu destanı hakkında ilk araştırmalar

Avrupa'da tekrar tekrar yayımlanan Köroğlu destanının Rusların da dikkatini çekmesi, onu 1856 yılında İngilizceden Rusçaya çevirerek *Kafkas* gazetesinde yayımlatmaları Kafkas Türklerinin de dikkatini konuya çekmiş ve kendi kültürlerine sahip çıkmalarını sağlamıştır. 1889. yılında Mirza Velizade, şimdi Gürcistan'a bağlı Kosalar köyünde Köroğlu destanının parçalarını bir aşıkdan derleyerek SMOMPK adlı eser içinde neşretmiştir. **(Velizade, 1989:121-126).**

1911. yılında Bakû'de Orucov kardeşler matbaasında yayımlanan Köroğlu ise İstanbul'da basılmış kitabın ufak tashihlerle yapılmış tekrar baskısıdır. **(Köroğlu, 1999:V).**

Çarlık Rusya'nın ortadan kalkması ve onun yıkıntıları üzerinde sözde sosyal adalete dayanan Sovyetler Birliği'nin kurulması sınıflar mücadelesi ile

ilgili her şeye dikkatlerin özenle çevrilmesine neden oldu. Köroğlu destanı da bu bakımdan kendilerini komünist adlandıranların işine pek yaradı. Bununla da destanın çeşitli kollarının toplanmasına ve yayımlanmasına önem verildi. Prof. Dr. Veli Huluflu, Köroğlu destanını âşıklardan derleyerek 1927. yılında Bakû'de eski yazıyla yayımlattı. Bir yıl sonra Latin alfabesi kabul edilince bu defa yeni alfabeyle yayımlanması söz konusu oldu. Veli Huluflu topladığı yeni şiirler ve düzyazıları da ilave ederek destanı 1929. yılında Latin alfabesiyle tekrar yayımlatır. **(Köroğlu, 1999:VII).**

Sonraki yıllarda da Azerbaycan'da Hümmet Alizade, Muhammedhüseyn Tahmasib, Ferhad Zeynalov, Azad Nebiyev gibi bilim adamları da Köroğlu destanını yayımlatsalar da 19-cu yüzyılda kaleme alınarak yayımlanan ve derlenip yayımlanmayan nüshalar gözden kaçıyordu.

Sovyetlerin çoküşünden sonar Köroğlu destanına ilginin artması sebepleri

Sovyetlerin çöküşünden sonra milli düşüncenin gelişmesi Köroğlu destanına da dikketi artırdı. Araştırıcılar destana umumtürk kontekstinde yanaşmaya başladılar. Bunun için de Sovyet döneminde yayımlanarken sosiyaloji yön verilmiş metinlerden çok eski çağlarda derlenmiş destanın arşivlerde olan elyazmalarına dikkat artdı.

1. Eskiden yayınlanmış destanlara derleme zaman bulunmuş meclisileri – kolları ilave ederek, yeni izahlar yazarak yayınlananlar

2. Eskiden derlenmiş ve ya yazıya alınmış, yayınlanmadan arşivlere verilmiş elyazmalar

3. Sosyal sifarişden uzak, bilimsel ağırlıklı araştırmalar

Birinci gruba Prof.dr. İsrafil Abbaslı'nın 1997. yılında "Ozan" basınevinde yayınlattığı "Köroğlu. Paris nüshas"ını, aynı araştırmacının Prof.Behlul Abdulla ile birge hazırlayarag "Çarşıoğlu" basınevinde 2004. yılında yayınlattıkları "Köroğlu", "Lider" basınevinde 2005. yılında yayınlanan beşciltlik "Azerbaycan destanları" bölümünün dördüncü nüshasını, İslam Sadığ'ın "Azerneşir" basınevinde 2006. yılında yayımlattığı "Köroğlu. Hoydu delilerim, hoydu: geraylılar, koşmalar" ve b. dahildir.

İkinci gruba E.Tofik kızının 1999. yılında "Elm" basınevinde yayınlattığı "Köroğlu. A.Recebli neşri"i, E.Tofık kızının H.İsmayılovla birge hazırlayarak 2005. yılında "Seda" basınevinde yayınlattıkları "Köroğlu. Tiflis nüshası"i, Ali Şamil'in 2007. yılında "Nurlan" basınevinde yayınlattığı "Köroğlu" dastanı (Ali Kamali arşivindeki variantlar)", A.Memmedbağır oğlunun 2012. yılında yayınlatdığı "Köroğlu (metin)", İlgar Kasımovun 2009. yılda Simferopoldakı (Kırım) "Grımdevoguvpedneşir" basınevinde yayınlattığı "Köroğlu destan", Özbekistanda Prof. S.R.Ruzum-

boyevin 2004. yılda Al-Horazmi adına Urgenç Devlet Üniversitesinde "Horezm destanları" serisinden basdırdığı "Gürüğlu" **(Gürüğlu, 2004)** ve Töre Mirzeyev ve Zubayda Husayinovanın 2006. yılda Özbekistan Respublikası Fanlar Akademisin Alişer Navai adına Til ve Adabıyat Enstitunda yayın-latdıkları "Gorogli (Özbek halk destanı)" dikkat çekendir. **(Gorogli, 2006).** vb. dahildir.

Sovyetlerin çöküşünden sonrakı araştırmaları sosial sifarişden uzak olduğuna göre üçüncü grupa dahil itsek de, onlardan bir çokunda geleneksel fikirlerin tikrarlanması devam itmekdedir Son dönem Köroğlu konusunda en dikketçeken eserler sırasına Metin Ekicinin "Türk dünyasında Koroğlu" **(Ekici Metin, 2004)**, X.Rozumboyevin "Guroğlu" eposunun poetikası" (Rozumboyevin X., 2005), Elçin Abbaslının "Köroğlu: poetik sistemı ve sturukturu" **(Abbaslı Elçin, 2008),** Kamran Aliyevin "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" **(Aliyev Kamran, 2011),** "Quruğlu" dostonlarininq qenezisi va tadrijiy baskiçları **(Turdumov Şomirza, 2011)** vb. kitablar ve makaleler dahildir.

Azerbaycan-Özbek destanındakı farkliliklere bir özet

Azerbaycan-Özek "Köroğlu" motiflerindeki farklılıklara deyinen araştırıcılar en çok kahramanın

Türküstan motiflerinde gordan (mezardan) bulunmasına, Azerbaycanda ise babasının kor edilmesine göre Koroğu adlandırılmasına deyinirler.

Azerbaycan-Özbek folklor ilişgilerinden doktora yazan, sonra da doktora tezi esasında kitap yayınladan (Nebiyev Azad, 1978) Azad Nebiyevin "Orta yüzyıllar Azerbaycan ve Özbek folklorunun çiçeklendiği, geniş inkişaf tapdığı" fikrini destanlarımız aid itmek olar. Bunu onun sonrakı sahifelerdeki fikirlerinde de aydın görmek olur. Böyle ki, "her iki halkın folklor yaratıcılığında ortak motifler kendini gösterdiğini", "motifleri her iki halk aynı kaynakdan aldığını", "Azerbaycan-Özbek destanlarının yaranma tarihinin eski çağlara deyandığını" yazan araştırıcı nedense birden "Azerbaycan "Koroğlusu" əsasında Özbek "Göroğlu" destanlarının yaranması Özbek eposunu haylı zenginleşdirmişdir". (Nebiyev Azad, 1978:47) hökmünü verir. Bizce onun fikirleri arasında bir uyarsızlık var. Bunu: "Özbek "Göroğlu"sundakı romantik sergüzeştler, hüsusile Avazın sergüzeştleri, Hasan hanın mehebbet macaraları, Hasan Kulbar, Hasan Çapsan, Hasan Yekdeste gibi div suretlerini Azerbaycan eposunda görmürük" (Nebiyev Azad, 1978:48) fikirleri de tesdikleye bilir.

Yukarıda göz önüne serdiklerimizden aydın görünür ki, Özbek sujetlerinde arxaik motifler daha çokdur. Bu da Özbekistanda derlenib yanınlanan "Goroğlu"nun daha eski çağların mehsulu olub da

Azerbaycandan derlenenlerin sonralar yarandığına delalaet itmir. Bunu biz Azerbaycandan toplanan motiflerin zemeneye uyğun edit edilmesinde görürük.

Azad Nebiyev yazır: "Özbek "Goroğ" eposunda kahraman ilk bakışda çokarvadlıdır. Professor M.Saidovun yazdığı gibi, "Goroğlu" İrem bağından Yunis Perinin getirdikden sonra, çok keçmeden bahşılar yeni bir hanım obrazını-Miskal Perini kahramana hanım gibi tesvir edir, onun hakkında destan yaradır" (Nebiyev Azad, 1978:130-131).

Özbek "Goroğlu" motiflerinde kahramanın savaşta galib gelerek getirdiyi hatunlarla evlenmesini de Azerbaycandan derlenmiş "Köroğlu" motifleri arasında farklilik gibi gösteren araştırıcılarımız unudurlar ki, orta yüzyıllarda, yeni destanın formalaşdığı ve yarandığı bölgələrdə İslam ideologiyası hakim idi. İslamda da çoxarvadlılık qanunileşdirlmişdi.

Buna göre de Azerbaycandan derlenmiş "Köroğlu" motiflerinde Köroğlunun düşmanını yenerek getirdiyi hanımları delileri ile evlendirmesi orta yüzyıl cengaverlik geleyegine de, "Köroğlu" motifine de haykırıdır. Böyle ki, Köroğlu Nigarı getirmege giderken deliler de onunla gitmek, ona yardımçı olmak istedikde o, aşağıdakı geraylını oxur:

İgid gerek yar sevmege,
Özü tek gede, tek gede,

Nasıl ola bilir ki, Köroğlu kendine münasib bilmedigini candan aziz sevdigi delilerine münasib bilir. Ahı, bu destanın kurallarını pozur! Açık-aşkar görünür ki, Sovyetlerin tekarvadlılık prinsipi Azerbaycanda "Köroğlu" destanını derleyen ve yayınladan araştırıcılara kendi etkisini gösterib.

Dikketi çeken odur ki, Sovyetlerin çoküşünden, ideoloji basklardan 20. yıldan fazla keçse de, araştırmalarının ümumi konusu ortak Türk kültürü olan araştırmaçılarımız bele yene de bölgesellikden uzaklaşmayarak Azerbaycanda "Köroğlu" destanının Özbekistandan önce yarandığı ve formalaşdığı isbatlamaya can atırlar. Böylə ki, son günlerde Baküda yayınlanmış "Koroğlu" destanı Osmanlı-Safavi münasibetleri çerçivesinde" kitabında Tahir Nesipli yazır: "Melum meseledir ki, eger Türklerde köklü maddi ve ruhi hususiyyetleri nezere almasak, sırf tarihi celaliler herakatından baksak, dastanın şark-özbek, türkmen söylenişleri, kolları Azerbaycanda teşekkül tapmışdan sonrakı devre aid olmakla mezmunca ve ruh hususiyyetlerine, hadiselere, kahramanlara, şexsiyyetlere, erazi, yaşayış meskenleri adlarına göre hiss olunacak dereçede farklanırlar. Cenub metnindeki coğrafi adlarla şark-türkman, özbek destanları arasında nisbi de olsa okşarlık hiss olunur. Bu vəziyyət bir tərəfdən cənub mətninin Şimali Azerbaycan və şarkı-türkmen, özbek destanları arasında keçid alakasi daşıdığını, diger tarafdan de

cenub metninin şarka yakın olması ile şimal metninden sonra yarandığına esaslandırır. Çünki bunların her biri öz sahesinde yaransaydılar, bunlar arasında bir-birine nisbi yakınlık da olmazdı" (Nesipli Tahir:2013:30)**.**

Kaynakları hepisinden söz edersek, büyük kitap olur. Onun için biz sadece bize ait olan kısmıyla ilgilendik.

Sonuc

Sovyetlerin çöküşündün sonra basılan destan metinlerindeki ve araştırmalardakı yakınlık göz önündedir. Mesala, Aleksandr Hodskonun yayınlatdığı destan metni böyle başlayır: "Köröğlunun eslinesli Teke-Türkmendir. Onun atasının adı Mirze Sefer, kendi adı Rövşendir. O zamanlar Mirze Sefer Türküstan şahı Sultan Muradın baş ilxıçısıydı. Türküstan padşahının ne ki, ilkısı vardı, hamısı Mirzenin elində idi.

Bir gün ilhıçılarından biri Mirzeye haber getirdi ki, Ceyhun çayından bir at çıxıb iki madyanı basdı, sonra gayıdıb suya girdi." **(Köroğlu, 1997:11).**

Töre Mirzeyev və Zubayda Husainovanın Rahmatulla şoir Yusif oğlundan derlenmiş metin de böyle başlayır: "Bir vaktlar Türkmen eli Urqançda karar etdi. Zamanlar agtarılıb Urganc padışahlıgı

barham tapıb Urgancda bir podşah turadigan bolub goldu". **(Goroglu, 2006:16) .**

Bu türlü nümunelerin sayını oldukca çokaltmak olur. Son dönem yayınlanan destanlarda Köroğlunu yaranışı Türküstanla bağlı olduğu gösterilir. Köroğlunun Batıya doğru hereketi ise Selcukların akınları ile aynı hariteni takib edir.

Son dönem yayınlanmış Köroğlu sestanlarında mitler de üstünlük teşkil edir. Köröğlunun destanda çocuğu olmadıgı gösterilir. Bunun da sebabi anlatılmağa çalışılır. Destanda söylenilen 7777 delinin de çocuğu yoktur. Bu da onu gösterir ki, konu mitle bağlıdır ve indiyedek de iyice araştırılmayıb.

Son dönem yayınlanmış Köroğlu destanlarının metinleri onu gösterir ki, Özbeklerden, Türkmenlerden, Azerbaycandan, Türkiyeden, İrandan, Kırım Tatarlarından derlenmiş Köroğlu destanlarında farklılık az, ohşarlıklar ise oldukca çokdur. Araştırıcılarımız ortak noktalara deyinseler daha çok uğurlar elde ede bilecekler.

Kayanaklar

1. Abbaslı Elçin. (2008) Köroğlu: poetik sistemı ve sturukturu, "Nurlan" neşriyatı, Bakü.
2. Abbaslı İsrafil. (1997). Ön söz, Koroğlu (Paris nushası), "Ozan" neşriyatı, Bakü

3. Abbaslı, İsrafil. (2002). Köroğlu eposu, Azerbaycan şifahi halk edebiyyatına dair tedkikler, 13 kitab, Seda neşriyyatı, Bakü.

4. Ağası oğlu Firudin.(2011). Köroğlu-Heakıl miti folklorda, 21. Yüzyılda Köroğlu ve Bolu Araştırmaları. I. Uluslararası Köroğlu, Bolu Tarih ve Kültürü Sempozyumu Bildirileri. Abant İzzet Baysal Üniversitesi Bolu Halk Kültürünü Araştırma ve Uygulama Merkezi (BAMER),Azerbaycan Respublikası Milli Elimler Akademiyası Folklor Enstitutusu, Özbekistan Respublikası Fanlar Akademiyası Dil ve Edebiyyat Enstitutusu, Bolu, 17-18 Ekim 2009, Bolu Dörtdivan, Türkiye. Bolu.

5. Aliyev Kamran.(2011). Eposun poetikası: "Dede Gorqud" və "Koroğlu", "Nurlan" neşriyatı, Bakü.

6. Azerbaycan destanları. (1979). Toplayıb neşre hazırlayanı Azad Nebiyev, "Genclik" neşriyyatı, Bakü.

7. Efendiyev Paşa.(1959). Sovet hakimiyyeti illerinde "Köroğlu" destanının neşri ve tedgigi tarihine dair, V.İ.Lenin adına APİN-nin eserleri, 7 cild.

8. Ekici Metin. (2004). Türk dünyasında Koroğlu, Akçag, Ankara.

9. Hakkı, Behruz. Köroğlu Tarihi Mitoloji Gerçeklik, Nurlan neşriyatı, Bakü 2003

10. Hasanov, Zaur. (2005). Çar skifləri çar skiflərin və qədim oğuzların etno - dil eyniləş-dirilməsi,"Əbilov, Zeynalov və oğulları"neşriyyatı, Bakü.

11. Köroğlu.(1941).Toplayanı:Hümmet Alizade. "Azerneşr" neşrıyyatı, Bakü.

12. Köroğlu.(1956). Tertib edeni: M.H. Tehmasib. Azerbaycan EA neşrıyyatı, Bakü.

13. Köroğlu.(1975). (Çapa hazırlayanı Ferhad Ferhadov), "Maarif" neşriyyatı, Bakü.

14. Köroğlu. (1983). Yayına hazırlayan Karrıyev B.A. "Nauka" neşriyatı, Moskva.

15. Köroğlu. (Paris nüshesi): (1997). Yayına hazırlayanı ve ön sözü İsrafil Abbaslı, "Ozan" neşrıyyatı, Bakü.

16. Köroğlu. (Veli Huluflu neşri): (1999). Yayına hazırlayanı ve ön sözü Azad Nabıyev. "Elm" neşrıyyatı, Bakü.

17. Köroğlu. (A.Recepli neşri): (1999). Yayına hazırlayan Elnare Tofik kızı, "Elm" neşrıyyatı, Bakü.

18. Koroglu. (2005). Yayına hazırlayan Elnare Tofik kızı. "Seda" neşriyyatı, Bakü.

19. Koroqlı. (avtorı podqotovki i sostavlenie natsionalnoqo teksta: (2000).«Vvedenie» i «Opisaniearxiva» I.Abbaslı, B. Abdulla), Baku, Izd-vo «Sada»,

20. Köroğlu. (1983).Yayına hazırlayan Karrıyev B. A. "Nauka" neşriyatı, Moskova

21. Koroğlu destanı (Ali Kemali arşivinde). (2009). Çapa hazırlayan ve ön söz yazan Ali Şamil, "Nurlan" neşriyatı, Bakü

22. Guroqli. (2004). Masul Muharrir: professor S.R.Ruzimboyev, "Xorazm" neşriyyatı, Urgenç.

23. Göröğli. (2006). Özbek xalq dostanı. (Söyleyen Rahmatulla şair Yusif oğlu, neşre hazırlayan Töre Mirzayev ea Zibayda Husainova), "Şark" neşriyyatı, Toşkent.

24. Nağıyev Celil. (1999). Koroğlunun Çin kaynakları, Asya basın evi, Bakü.

25. Nesipli Tahir.(2013). "Koroğlu" destanı Osmanlı-Sefevi münasibetleri çerçivesinde, "Elm ve tehsil" neşriyyatı, Bakü.

26. Poslovii i pokovorki narodov Karaçaevo-Çerkesii(Ata sözü ve degimler): (1990). Sostaviteli: R.A.K. Ormabaeva, M.İ.Mijaev, S.U.Çikatueva,A.İ.-M.Sikaliev. Çerkessk.

27. Rozumboyev X. (2005). "Guroğlu" eposunun poetikası", Urqanç.

28. Sadıkov Murtuz.(1986). Köroğlu Destanı Jorj Sandın, Edebiyat ve İncesenet, 17 Dekabr, sayı 50.

29. Seyidov Mireli. (1983). Azerbaycan mifik tefekkürünün kaynakları, "Yazıçı" neşriyyatı, Bakü.

30. Sikaliyev(Şeyxaliyev) A.İ.-M. (1994). Nogayskiy qeroiçeskiy epos, Çerkasski.

31. Şamil, Ali, Koroğlu Eposunun Varyantları Ali Kemali Arşivinde, Dede Korkut, Bakü 2002, sayı 4.

32. Şamil, Ali, Ali Kemali Arşivindeki Köroğlu Eposunun Varyantlarında Metinşünaslık Meseleleri, Ortak Türk Geçmişinden Ortak Türk Geleceğine III. Uluslar Arası Folklor Konferansının (13-16 Kasım 2005) materialları, Bakü 2005

33. Şamil Ali. (2011). Uyğur, Qaqauz, Quzey Qafqaz Türklerinin folkloru ve edebyatı, "Nurlan" neşriyyatı, Bakü.

34. Turdumov Şomirza. (2011). "Quruğlu" dostonlarininq qenezisi va tadrijiy baskiçları, "Fan" neşriyyatı, Taşkent.

35. Velizade, Mirza, Kaçak Köroğlu Hakkında Efsane, SMOMPK (Sbornik Mateiralov Dlya Opisaniya Mestnostey İ Plemen Kavkaza-Kafkas Halkları ve Onların Yaşadıkları Bölgeleri Tasvir Eden Belgeler Kitabı), 9. kitap (Tbilisi, 1989)

Çap olundu: Azerbaycandan ve Özbekistandan derlenmiş Koroğlu destanlarının ortak noktaları, IV. Uluslararası Bolu halk kültürü ve Köroğlu sempozyumu bildirileri (Yayaına hazırlayan: Doç.Dr. Erol Öztürk), Akçağ yayşnevi, Ankara, 2015

AZERBAYCAN VE TÜRKÜSTAN TÜRKLERININ YAŞADIKLARI SORUNLAR

Giriş

2022-ci il iyunun 21-22-də Özbəkistanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının prezident İlham Əliyev 20-dən artıq sənədə imza atdı. Hər iki dövlətin gələcək əməkdaşlığı ilə bağlı yol xəritəsi kimi qəbul olunan bu sənədlərdə qarşılıqlı investiyaların yatırılması, sənaye və kənd təsərrüfatı, hərbi-texniki sahədə əməkdaşlıq, hərbi təhsilin uzlaşdırılması kimi mühüm məsələləri əhatə etdi. Bu müqavilələr iki dövlət arasındakı münasibətləri strateji əməkdaşlıq səviyyəsinə qaldırdı.

Çok**x** gözəl. Dövlətlər arasındakı müqavilələrin bağlanması normal bir haldır. Mən dinləyicilərin diqqətini müqavilə bağlanan günlərdə İlham Əliyevin bir söhbətinə yönəltmək istəyirəm: "Qardaşım Şavkat Miromonoviçin bütün dediklərini mən anladım, tərcüməçiyə ehtiyac qalmadı... Dünən və bu gün bir daha gördüm ki, xalqlarımız bir-birinə nə qədər yaxındır. Mədəniyyətimiz, incəsənətimiz, ümumiyyətlə, xalqlarımızın kökləri birdir. Bu gün Azərbaycan dilində oxunan mahnılar, nəğmələr sanki Azərbaycan müğənniləri tərəfindən ifa olundu. Heç bir ləhcə, şivə yoxdur. Bu, nəyi göstərir? Xalqla-

rımızın birliyini. Siz Türk mədəniyyətimizi tərənnüm edən ifaçılar, sənətkarlar və mədəniyyət ustadları bizim fəxrimizsiniz.”

Araştırıcılar Türk dilini Oğuz, Qıpçak və Qarluq qrupuna ayırırlar. Azərbaycan Türkcəsi Oğuz, Özbək Türkcəsi isə Qarluq qrupuna daxil edilir. Azərbaycan prezidenti İlham Əliyev uşaq baxçasında da, orta və ali məktəbdə də Rus dilində oxuyub, doktorasını da Rus bu dilində yazıb. Bu gün Türklərin Qarluq ləhcəsində danışılanı çevrilməsinə ehtiyac duymur.

Onun atası, keçmiş Azərbaycan Prezidenti Heydər Əliyev uşaq baxçasına getməyib. Ümumtəhsil məktəbində də, pedaqoji texnikomda da ana dilində oxuyub. Yəni onun ana dilindəki baza təhsili oğlunun kundan güclüdür. Buna baxmayaraq, 1996-cı il martın 18-19-da Türkmənistan prezidenti Saparmurat Türkmənbaşı Azərbaycana rəsmi səfərə gələndə Heydər Əliyevə “Bizə tərcüməçi gərək deyil, bir-birmizi anlayırıq” deyəndə Heydər Əliyev sərt şəkildə: “Bir-birimizi anlamarıq, Rus dilində danışın”, – dedi.

Türkmən və Azərbaycan Türkcəsini araşdırıcılar Oğuz qrupuna daxil edirlər. Türkmənlər danışanda Azərbaycanlılar Özbəklərə nisbətən daha yaxşı anlayırlar. Bəs nədən Heydər Əliyev rəsmi toplantıda Türkmənbaşına belə dedi? Cavab sadədir. 1996-cı ildə Azərbaycana Rusyanın baskısı indikindən çox sərt idi.

Əbülfəz Elçibəy bir zaman deyəndə ki, "hər şeyin zamana ehtiyacı var", onda Türkiyə mediasında da, Azərbaycan mediasında da ona gülürdülər. Zaman isə onu dediklərinin həqiqət olduğunu göstərir. Rusiyanın basqısı azaldıqca Türk xalqları və dövlətləri arasında ilişkilər güclənməyə başladı.

Türk Dili Danışan Ölkələr Zirvələri (1992–2010), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Zirvələri (2011– 2021), Türk Dövlətləri Təşkilatı Zirvələri (2022-bu gün) Türkdilli ölkələrin dövlət başçılarının 2009-cu ilin 3 oktyabr tarixində Naxçıvan şəhərində keçirilən Zirvə Görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən 2012-ci ilin 1 noyabr Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) yaradıldı. Milli dəyərli araşdırıcılar, aydınlar mediada, toplantılardakı çıxışlarda bu ada etirazlarını bildirirdilər. Deyirdilər Türkdilli dövlətlər sözü yanlışdır. Türk dövlətləri olmalıdır. Onları təpkisi ilə təşkilatın adı dəyişildi.

Neden bu mövzuya geniş yer verdim? Aydınların, araşdırıcıların dövlət siyasətinə təsiri böyükdür. Doğrudur, onların yazdıqları həmin yvaxt həyata keçirilməsə də, 10 il, 20 sonra da olsa, reallaşır. Bir zamanlar Türkiyədən Azərbaycan Türklərinə Azərilər demək normal hal sayılırdı. Araşdırıcılar da, dövlət yetkilililəri də, sənətcilər də Azərini qürurla deyirdilər. Azərbaycandan gələnlər də televizyanın, Türkiyeənin ünlülərinin dedikləri Aazeri kəliməsinin təsiri ilə özlərini Aazeəri deyə tanıdırdılar. Bu, yanlış

idi. 1937-ci ilin yanvarınadək istər Azərbaycanda, istər əski Sovyetlər Birliyində Azərbaycanda yaşayan Türklər Türk adlandırılırdı. Türkiyədə isə 1920-ci illərdən bizlərə Azeri deyilməyə başlanmışdı. İkinci Dünya Savaşına hazırlaşan Sovetlər Birliyi Türkiyənin də savaşa qoşula biləcəyindən ehtiyatlanaraq Güney Qafqazdakı Türklərin adını rəsmi qaynaqlarda Azərilər deyil Azərbaycanlılar yazmağa başladılar.

Sovyetlər Birliyi çokdükdeən sonra Türkiyeye gələn Azərbaycan Türklərinin millətsevərləri onlara Azeri deyilməsinə təpki göstərməyə başladılar. Onlar birinci sırada araşdırıcıları tarixi faktları təhrif etməkdə suçladılar. Dövlət yetkilililərinə, sanatçılara etirazlarını bildirdiler. Bu o kadar da xoş qarşılanmadı. Amma təsirini göstərdi. Türkiyə televizyalarında da Güney Qafqazda, İran İslam Respublikasında yaşayan Türklərə Azəri deyilməsinin yanlış olduğu söylənildi. Bu yanlışlıq 30 ildir arada qaldırılmayıb. Amma azalmayğa başlayıb.

Bu ilin aprel ayının əvvəllərində Bakıdakı Azərbaycan Diplomatiya Akademiyası sempozyum düzənləmişdi. Oraya Türkiyədən 50-dən çox araşdırıcı, siyasətçi gəlmişdi. Türkiyənin rəsmi dairələrindən iştirakçıların telefonuna aşağıdakı məzmunlu mesaj göndərilmişdi: Azərbaycan və Türküstan Türklərinin yaşadıkları sorunları nəzərə alaraq istər toplantılarda, istərsə arkadaşlarınızla konuşanda Azəri kəliməsini kullanmamaya çaba göstərin. Bunu mən

araşdırıcıların və aydınların Türkiyədəkilərə 35 illik etirazlarının nəticəsi kimi dəyərləndirdim.

Bu gün Türkiyədə də, Azərbaycanda da Orta Asiya deyilir və yazılır. Bu yanlışlıq da aydınların, araşdırıcıların təpkisi ilə aradan qaldırılmalıdır. Yüz illi boyu bölgə Türküstan adlandırıldığı halda nədən biz müstəmləkəçilərin təbliğatı ilə Orta Asiya deməliyik? Bolşeviklər hakimiyyəti silah gücünə ələ aldıqdan sonra da bölgədə Türküstan Muxtar Sovet Sovialist Cümhuriyyəti qurulmuşdu. 30 aprel 1918-ci ildən 27 oktyabr 1924-cü ilədək mövcud olmuş cümhuriyətin ana yasası da vardı. 5 milyon insan yaşadığı Türküstan Cümhuriyetin 1924-cü ildə Tacikistan SSR, Türkmənistan SSR, Özbəkistan SSR, Qara-Qırğızıstan Muxtar Vilayəti və Qaraqalpaq Muxtar Vilayətinə bölündü. 1991-ci ildə cümhuriyyətlər özgürlük əldə etdilər. Buna baxmayaraq, bölgəyə hələ də Orta Asiya deyirik. Sual yaranır, biz nə vaxt bu yanlışlığı aradan qaldıracağıq.

Biz araşdırıcılar və aydınlar bölgənin birləşdirici adını özünə qaytarmaq uğrunda mübarizə aparmalıyıq. Unutmayaq ki, Sibirdə 1918-ci il martın 12-də qurulan Karakorum Dağlıq Altay Hökumətinin fəaliyyətinə 1920-ci ilin yanvarında son qoyulsa da, Qeorqi İtiqin, Sarı-sep Konzıçakov, Qriqori Çoros-Qurkin və b. Batı Sibirdə yaşayan Türkləri bir qurumda birləşdirməyə çalışırdılar. Lakin Moskva buna imkan vermir. Batı Sibirdəki Türk xalqlarını bir

mərkəzdə birləşdirmək istəyən aydınlara gizli və açıq divan tutulur. 1934-cü ildə Batı Sibir Türk Respublikası yaratmaq istəyənlərdən 37 nəfər istintaqa cəlb olunur. 70 nəfər də silahlı terror dəstəsi yaratmaqda suçladı. Siyasətçilərdən N.A.Aeşini, A.N.Amzarakovu, V.İ. Sunçuqaşevi və digərlərini həbs edirlər. Bununla ürəkləri soyumadı, 1937-ci ildə onları yenidən mühakimə edərək, əksəriyyətini güllələdilər.

Bu nə deməkdir? Bu gün Batı Sibirdə yaşaya Teleutlar, Şorlar, Altaylılar o yana, Qazaxların, Qızğızların, Özbəklərin, Türkmənlərin, Başqırdların, Tatarların çoxu belə özünü Türk saymır. Hansı ki, onların babaları 100 il öncə qurmaq istədikləri cümhuriyyəti Türk Cümhuriyyəti adlandırırdılar. Əmir Teymur özünü özbək deyil Türk sayırdı. Türküstanı Çar Rusiya işğal edəndən sonra orada yaşayan xalqları Özbəklər, Qırğızlar, Türkmənlər, Taciklər və Türklər kimi qeydə aldılar. Nə yazıq ki, istər Türkiyədə, istər Azərbaycandan Türküstanda yaşayan, bu gün də özlərini Türk sayan, rəsmi dairələrini isə, onları qırğızlaşdırmağa, özbəkləşdirməyə, qazaxlaşdırmağa çalışdığı xalq haqqında yazmırıq və demirik.

Araşdırmaçılarımız yabançıların bizə tələqin etdiklər yolla getməyi sevirlər. Bu da çoxlu yanlışlığa və xalqlarımızın bir birində ayrılmasına yol açır. Xalq ədəbiyyatından yazan araşdırıçılarımız aşıqdan söz açan kimi qaynaqlara diqqət yetirmədən onları Oğuzlarla bağlayırlar.

Altın Ordannın şairi Sıbra Jırayı noqaylar noqay şairi kimi, qazaxlar da qazax şairi kimi tanıtmağa çalışırlar. Sıbradan sonra gələn Parızdak Şaban ulunu 15-ci yüzildə yaşamış Şal Kiyiz Tileniş ulu, 16-cı yüzildə yaşamış Asan Kaykılı, Dosmambet Azaylı, Jirenşe Şeşen, 17-ci yüzildə yaşamış Kazı Tuğan Suyunişi ulu və başqaları da belədir.

Nəinki yuxarıda adları çəkilən şairlərin, hətta noqayların Ural-Volqa boylarından Kuban çöllərinə, Güney Qafqaza, Kırıma qovulduqdan sonra yazıb yaratmış Elburkan Nayman ulu, Sarkınbay Kırımlının, İsmayıl Masarlının (18-ci yüzillik), Oraz Aytmambey ulu (18-ci yüzil), 19-cu yüzildə yaşamış Menkili Boraxan ulu, Mantik As ulu, Alibey Şarap ulu, Axmetie Adil ulu, Mambet Ali Aşık, Ali Kusi Onkutlu (Sikaliev A., 1993: 164-165) və b. yaradıcılığını da tatarların, qazaxların, qırğızların, qaraqalpaqların və qıpçaq kökənli Türk xalqlarının ortaq ədəbiyyatının nümunəsi saymaq olar. Mambet Ali Aşığın adındakı aşıq sözü noqaylarda arxaikləşsə də, bu gün Azərbaycanda, İranda, Türkiyədə və b. ölkələrdə çox işlədilir.

1. Ozan-baxşı-aşıq sənətinin tarixi haqqında

Əski çağlarda ozana və onun çaldığı qopuzun musiqisinə əyləncədən daha çox ibadət vasitəsi kimi baxılıb. Mərasimlərdə qopuz çalan ozanlar gələçəkdə baş verə biləcək hadisələri xəbər verir, onları önləmək

üçün tədbirlər görür, xəstəni sağaltmaq istəyir və s. Bu zaman ozan qopuz çalmaqla qalmır musiqinin ahənginə uyğun səslər çıxarır, alqış-dualarla, yalvarışlarla istəyinə nail olmağa çalışır. (Ögel B. 9. cild, s. 40). Türk toplumunda təkəcə ozanlar deyil kişilərin əksəriyyəti qopuz çalmağı bacarır. "Kitab-i Dədə Qorqud"da Qazan xanın, Dirsə xanın, Beyrəyin, Səkrəyin, Əkrəyin, Qanturalın və onun qırx yoldaşının qopuz çalmasından söz açılır. Buradan da aydın görünür ki, qopuz çalınması sadəcə əyləncə, dinlənmək, həzz almaq, ruhunu təzələmək üçün deyil. Qanturalın yoldaşı "quruluça qopuzu" çalaraq onu öyür və qoşdururlar. Qantural da bundan ilhamlanaraq buğaya, aslana və qızmış dəvəyə qalib gəlir. Səsləndirilən müusiqi ona sanki ilahi bir güçc verir.

Qopuzun magik gücünün, uğur, bərəkət, xeyir, qələbə gətirməsi Türk mühitindən kənarda-qonşuluqdakı xalqlar arasında da qəbul edildiyini "Kitabi-Dədə Qorqud" boylarında görmək olur. Qazan xanı zindanda olarkən kafirlər onu bir şərtlə azad etməyə razılıq verirlər ki, o, qopuz çalıb onları tərifləsin, oğuzu pisləsin. Qazan xan isə qopuz çalaraq kafirləri alçaldıcı, ələ salıcı mahnılar oxuyur, özünün və Oğuzu igidlərinin qəhrəmanlığını öyür.

"Koroğlu" dastanında da Koroğlu düşmən üstünə gedərkən qılınc, qalxan, əmud, şeşpər və s. silahlarla yanaşı qopuzu da özü ilə aparır. Qopuz çalıb oxumaqla, nərəsilə rəqibinə psixoloji təsir edir.

Qazax alimi A. Jubanovun isə ta qədim çağlardan iyirminci yüzilliyin ortalarına qədər yurdada (ev-çadıra) iki simli dombra (qopuz) asıldığını yazır.

Tarixin sonrakı mərhələlərində ozan fərqli bölgələrdə baxşı (baxıcı), dədə, yanşaq, aşıq adlandırıldığı kimi, qopuz da tanbur, donbura, dutar, saz, bağlama və s. adlandırılmağa başlayır.

Araşdırıcılarımız istər ozan, baxşı, aşıq, istərsə də onların çaldıqları musiqi alətləri haqqında geniş tədiqatlar apardığından əsas mövzumuza keçəcəyik.

2. **Xarəzmdan toplanan dastanlar nədən həm Oğuz, həm də Qıbçaq qrupu Türklərinin dastanlarına yaxındır?**

Dilçilərimiz Özbək və Uyğurların danışdığı dili Qarluq qrupuna aid edirlər. Xarəzm isə Özbəkistanın tərkibindədir və əhalisi də Özbək adlandırılır. Demək onların danışdığı dil də Qarluq qrupuna daxildir.

Bölgə strateji baxımdan çox mühümm bir yerdədir. İpək yolunun üzərində yerləşə Xarəzmə Doğudan da, Batıdan da, Güneydən də, Quzeydən də karvanlar gəlirdi. Buna görə də Xarəzm Türkçəsi 13-cü yüzildən başlayarak Xarəzm və Sördəryanın aşağı hissələrində yaşayan Oğuz (Türkmən) və yerli Qıbçaq ləhcəsinin təsiri ilə Qaraxanlı Türkcəsini formalaşdırmışdı. Bu da Türküstan üçün işlək bir dilə, ortaq ünsiyyət dilinə çevrilmişdi. 15-ci yüzildən

Qarluq Türkçəsinin bölgədə hakim olması Xarəzm Türkçəsinə də təsir etmişdir.

Xarəzm Türkcəsi sadəcə həmin bölgədə deyil Altın Ordanın mərkəzi Sarayda və Türklər yaşayan başqa ədəbi-mədəni mərkəzlərdə də işlədilməyə başlamışdır. Buna görə də çox vaxt bu Türkçəyə Altınorda Türkçəsi də deyilmişdi. Dilin asan və analaşıqlı olması ozanların Xarəzmdə söylədikləri dastanların yalnız Oğuz qrupuna daxil olan Türkmənlərin, İran və Azərbaycan Türklərinin, İraqda, Suriyada yaşayan, 1958-ci ildən Türkman adlandırılan xalqın, Qaqauzların, Osmanlı dövlətinin ərazisində yaşayan Türklərin arasında yayılmaqda qalmamış, Tatarıstana, Başqırdıstana, Kırıma da yayılmağa başlamışdır.

Türk dastan yaradıcılığının araştırıcıları V.B.Jirmunskiy və X.T.Zaripovun fikrinə görə, Türk xalqlarının nəinki eyni adlı, hətta fərqli adlarla söylənən, məzmunun fərqli olan dastanlarında da bir sujet yaxınlığı var. Fikirlərini əsaslandırmaq üçün də "Kozi Köpreş və Bayan Sulu" dastanı ilə "Tahir və Züleyxa"nı müqayisə edirlər. (Jirmunskiy V.B., Zaripov X.T., 1957:298)

Sovet dövründə Azərbaycanda beş cildlik "Dastanlar" kitabı nəşr edilmişdir. İdeoloji səbəblərdən mifoloji, dini mövzular ağırlıq təşkil edən, eləcə də Sovet hökümətinə qarşı vuruşan qaçaqların həyatından bəhs edən dastanlar nəşr

edilməmiş, hətta belə dastanların toplanması da yasaqlanmışdır.

İranda yaşayan Türklərin böyük bir qismi Azərbaycan Respublikasında yaşayan Türklərlə eyni dildə danışsalar da, eyni mədəniyyətin daşıyıcısı olsalar da, orada söylənən dastanların da toplanmasına və nəşrinə içcazə verilməmişdir. Buna görə də Azərbaycan dastanları ilə demək olar ki, eyni mövzulu Xarəzm dastanlarının araşdırılması, qarşılaşdırılması diqqətdən kənar qalmışdır. Sovetlərin çöküşündən sonra professor S.R.Ruozumbayevin rəhbərliyi ilə Al-Xorazmi adına Ürgənc Dövlət Universiteti 2006-2008-ci illərdə "Oşiknamoma" adı altında dörd cildlik dastanlar kitabı nəşr etdi. Bu nəşrlərə daxil edilən "Saed və Hamra", "Xuruliko və Hamra" İran Türkləri arasında bu gün də söylənir. İkinci cildə daxil edilmiş "Oşiq Qarip va Şahsanam", "Asli va Karam", "Xuraman Pəri", "Leyli va Majnun", "Qul va Sanobar" və b. dastanlar Azərbaycan Respublikasında toplanıb nəşr edilən eyni adlı dastanlarla versiya fərqləri var. Kitablarda söyləyicilərin repertuarından söz açarkən qeyd edirlər ki, Jumanazar Baxşinin, Abdulla Baxşi Bobacanovun, Hayıtbay Baxşinin, Jumabay Xudayberqanov-Sakrak Baxşinin, Yuldaş Baxşi Busumbetovun, Tursun Baxşinin, Etmişboy Baxşinin və b. repertuarında "Arap Reyhan", "Avazxon", "Oşiq Qarib", "Oşiq Mahmud", "Tahir va Zührə" "Oşiq Qarip va Şahsanam", "Asli va Karam",

“Xuraman Pəri”, “Leyli va Majnun”, “Yusif va Züleyxa” və b. dastanlar varmış. Bu dastanlar Azərbaycan aşıqlarının repertuarının əsas özəyini təşkil etmişdir.

Professor Jumaboay Yusupov “Oşiqname”nin ikinci cildinə yazdığı son sözdə dastanları toplayanların və nəşrə hazırlayanların əməyini yüksək qiymətləndirmişdir.

Professor Safarboy Ruzumbayov və dossent Qavxarjan Eşçanovanın toplayıb, tərtib etdikləri dörd cildlik “Oşıqnome”lər və “Quruğlu” Türk dünyası üçün əvəzsiz xəzindir. (Yusupov Jumabay, 2006:448-452). Bu xəzinə bu gün bir-birindən ayrı düşmüş Türk xalqlarının eyni mədəni mirasın sahibi olduğundan xəbər verir. Bu böyük sənət əsərlərini yaradan və yaşadanlar ilə ozan-baxş-aşıqlarımız olmuşdur.

Sonuc

Ozan-baxşı-aşıq yaradıcılığının yaxınlığı bizi folklor mətnlərimizə bölgənin, bir bölgədə yaşayan toplumun məhsulu kimi yanaşmaya imkan vermir. Dastanlarımızı dərindən öyrənən araşdırıcılar bu qənaətə gəlirləri ki, hər bir toplumun yaratdığı ümüminin tərkib hissəsi kimi öyrənilməlidir. Çünki dastanlarımız bir ozanın deyil etnosun dünyagörüşünün, dünya modelinin sənət kodu ilə ifadəsidir. Çünki dastanla onu törədən şüur-dünya modeli

arasında birbaşa bağlılıq var. (Cəfərli Məhərrəm, 2000:12).

Dünya modeli isə şəxsiyyət və kollektiv üçün davranış proqramıdır. Belə ki, dünya modeli dünyaya təsir etməyə xidmət edən əməliyyatlar toplusunu, onların istifadə qaydalarını və səbəbləndirilməsini müəyyən edir. Dünya modeli insan davranışının müxtəlif formalarında və bu davranışın nəticələrində (məs., dil, mətn, ictimai təsisatlar, maddi mədəni abidələr və s.) gerçəkləşdirə bilir və hər hansı gerçəkləşmə mətni adlanır. (İvanov V., Toporov V., 1969:7). A.Y.Qurviç isə dünya modelini insanın bütün davranışlarında əsaslandığı mənbə sayır. (Qurvuç A., 1984:30). İnsanın dünya haqqında bilgiləri onun şüurunda dünya modelinin-dünya haqqında ümumiləşmiş təsəvvürlər toplusunu müəyyənləşdirir. Bu ümumiləşmiş dünya təsəvvürləri insanın bütün davranışını, bu davranışın nəticələrini idarə edir. İnsan öz dünya modelini həm öz davranışında, həm də öz yaradıcılığında gerçəkləşdirir. Deməli, insanın min illər öncə yaratmış olduğu mədəniyyət abidələri, mərasimləri, folkloru onun dünya modelini əks etdirir. Bu yöndən yanaşanda görürük ki, dastanlarımız dünya modelini realizasiya edən mətinlərdir. Bir mətin olaraq dastanların strukturu dünya modelindən gəlir. (Cəfərli Məhərrəm, 2000:12).

Hər bir dastanımızın, folklor nümünəmizin vaxtında və elmi əsaslarla toplanmaması yalnız Türk

mədədniyyətinin deyil dünya mədəniyyətinin bir hissəsinin məhv olması, itirilməsi deməkdir.

Qaynaqlar

1. Cəfərli Məhərrəm. (2000). Azərbaycan məhəbbət dastanlarının poetikası, Bakı, "Elm" nəşriyyatı, səh. 264.
2. Xorazm dostanlari, Oşıqnama. (2006). Birinci kitap, Xorazm nəşriyyatı, Urgenc.
3. Xorazm dostanlari, Oşıqnama. (2006). İkinci kitap, Xorazm nəşriyyatı, Urgenc.
4. Xorazm dostanlari, Oşıqnama. (2008). Üçüncü kitap, Xorazm nəşriyyatı, Urgenc.
5. Xorazm dostanlari, Oşıqnama. (2009). Dördüncü kitap, Xorazm nəşriyyatı, Urgenc.
6. İvanov V.V., Toporov V.N. (1969). Slavyanskaya yazıkovıe modeliruyuşie semiotiçeskie sistemı (derevniy period), Moskva.
7. Jirmunskiy V.B., Zarifov X.T. (1957). Uzbekskiy narodmıy qeroiçeskiy epos, Moskva, səh. 298.
8. Qasımlı Məhərrəm. (2000). Ozan ənənəsi, "Musiqi dünyası, sayı 2(3). http://www.musigi-dunya.az/magazine3/ articles/08/08.html
9. Quruviç A.Y. (1984). Kataqorii srednevekovoy külturı, Moskva, səh. 350.

10. Ögel Bahettin. Türk kültür tarixinə giriş. 9 cild, s. 40.

11. Ruzumbayov S., Eşçanova Q., Ruzumbayov S.S. (2006). İşkiy-Fantastik dostanlar haqinda, Xorazm dostanlari, Oşıqnama. (2006). Birinci kitap, Xorazm nəşriyyatı, Urgenc.

12. Yusupov Jumabay, (2006) Həm məsuliyyət, həm jasorat, " Xorazm dostanlari, Oşıqnama", Xorazm nəşriyyatı, Urgenc.

Çap olunub: Azərbaycan və Türküstan Türklərinin yaşadıqları sorunlar, III. Uluslararası Develi - Âşık Seyrânî ve Türk Kültürü Kongresi / Türk Kültürü Bildirileri (Editor: Prof.Dr. Recep Özkan) Kayseri Büyükşehir Belediyesi Kültür Yayınları cilt III 34, Kayseri Büyükşehir Belediyesi Kültür Yayınları, 2022-ci il, səh. 33-38

PUBLİSİSTİK YAZILAR

KÖRPÜ

SSRİ-nin böyük miqyasda çap olunmuş xəritəsində belə Tasmaçını tapmaq mümkün deyil. Buna baxmayaraq Umurzaq kişi kiçik dünya xəritəsini açaraq inamla: "Bax, mənim doğulduğum kənd-Şavad ilə Ağdərya çaylarının arasındadır. Geniş məhsuldar torpaqları var. Nə əksən bitirir. İstəsən ildə üç dəfə məhsul götürərsen", -deyə şəhadət barmağı ilə xəritədə bir nöqtəni göstərir. Həmin nöqtəyə baxıram. Nəinki kəndin, heç kəndin daxil olduğu Xatırçı rayonunun mərkəzi belə xəritəyə düşməyib. Umuqrzaqın inam və qətiyyətli hərəkəti məndə belə bir təsəvvür yaradır ki, görməsəm də Tasmaşı kəndinin yerini təxmini bildim.

-Tasmaçı kəndi Özbəkistan SSR-in Səmərqənd vilayətində idi. İndiki ərazi bölgüsündə Nəvai vilayətinə daxil edilib-deyə müsahibim söhbətini davam etdirir. Qanlı-qadalı illərdə-basmaçıların tez-tez fitnə-fəsadlar törətdikləri illərdə anadan olmuşam. İnqilab qalib gəlsə də kəndlilərin güzəranı yaxşı-laşmamışdı. Bir tərəfdən təbii fəlakətlər, o biri tərəfdən də əksinqilabi törtöküntülər imkan vermirdi ki, torpağı rahat əkib, becərib məhsulunu toplasınlar. Həmin illərdə xalq arasında yayılmış bir mahnı indi də yadımdadır. Sizin bayatıların eynisidir:

Xatırçının yalunda
Qışlağı var, Tasmaçı

Elini xarab eylədi
Uyinq küyqür basmaçı.

Atam Aqil Mübarək oğlu zəhmətkeş bir dehkan idi. Anam Abıtabsa atamla birlikdə tarlada işləyirdi. Basmaçıların qudurğanlığına, yıxıb, məhv etmələrinə, təbii fəlakətlərə baxmayaraq il-ildən yaxşı gəlirdi. Atam da, əmim Adil də torpaqdan möhkəım yapışmışdılar. Əkir, biçir, sosializm quruculuğu uğrunda fəal mübarizə aparırdılar. Elə ona görə də kəndimizin adamları əmim Adilə etimad göstərib briqadir, sonra kolxoz sədri seçdilər. Ailənin yeganə övladı olmağına baxmayaraq 10-12 yaşlarımdan mən də valideynlərimlə tarlaya gedir, gücüm çatan işin qulpundan yapışırdım. Bu da mənə təbiəti, həyatı öyrənməkdə kömək edirdi.

...1942-ci ilin may ayının 5-i Umurzaq kişinin yaddaşınaa əbədilik həkk olunur. Onu kimlərin yola saldğını, hərbi komissarlqdakı çıxışları, kəndlərindən onunla bərabər əsgəri xidmətə yola düşənləri, hətta həmin gün havanın necə olduğunu da dünınki kimi xatırlayaraq deyir:

-Səmərqənddən bizi dəstələrə ayıranda elə bildik ki, ön cəbhəyə göndərirlər. Çünki ölkəmiz çətin günlərini yaşayırdı Mən də istəyirdim ki, tezliklə cəbhə xəttinə çatım, faşistləri qırım. Oradan iftixarla kəndimizə məktub yazım.

Lakin belə olmadı. Bizi Azərbaycan SSRİ-nin Quba rayonundakı təlim-məşq bazsına gətirdilər. Heyrətimizdən donub qalmışdıq. Hər yer yam-yaşıl idi. Dağlar-dərələr, təpələr yaşıllığa qərq olmuşdu. Uzaqdan meşəni xatırladan bu yaşıllıq sən demə alma-armud bağları imiş. Ömrümdə ilk dəfə idi ki, belə böyük bağ-bağat görürdüm.

Qubadan məni 12 nəfər həmyerlimlə Naxşıvan şəhərinə gətirdilər. Quba ilə Naxşıvan şəhərinin arası cəmi bir günlük yol olsa da təbiətlərində kəskin fərq var. Sərhəd qoşunlarında xidmət edəcəyimizi bildirdilər. Biz isə ön cəbhəyə can atırdıq. Komandirimiz bizimlə ətraflı söhbət etdi. Dedi ki, mən də ön cəbhədə olmağı arzulayırdım. Lakin gördüyünüz kimi burdayam. Demək belə məsləhətdir, belə lazımdır. Xidmətə alışandan sonra görecəksiniz ki, burada da işimiz az deyil. Sərhədçi kimi əsgəri xidmətə Culfada başladım. İlk günlər buraya heç cür alışa bilmirdim. Uca dağlar hər tərəfdən elə bil bizi mühasirəyə almışdı. Təsəvvürünüzə gətirin ki, göz açdığı gündən geniş çölləri, üfüqə qədər uzanan tarlaları görmüş bir gənc indi dağların mühasirəsinə düşmüşdü. Mənə elə gəlirdi ki,bu dağlardan hansının başına çıxsam, oradan kəndimizdə olduğu kimi, ucsuz-bucaqsız tarlalar görəcəyəm. Ancaq sonralar nə qədər yanıldığımı bildim, başa düşdüm. Hətta bir dəfə məşğələ zamanı siyasi rəhbərə verdiyim suala indi də gülməyim gəlir. Siyasi hazırlığımızı artırmaq üçün

keçirilən məşğələlərimizin birində mən komandirə?-muxtar respublika kolxozlarının tarlaları harada yerləşir?-deyə sual verdim. Komandir əvvəl mənim sualımı başa düşmədi. Fikrimi izah etdikdə isə gülərək dedi:-Siz hər gün kolxozların tarlalarını görür, orada işləyən kolxozçuların bir çoxunu tanıyırsınız.

Komandirin geniş izahatından sonra bildim ki, hər gün sərhəd xətti boyu gördüyüm daş-kəsəkdən təmizlənmiş kiçik sahələr kolxozlarındır, əməkçilər də burada alın təri axıdaraq, bol məhsul yetişdirirlər. Onda başa düşdüm ki, bu yerlərin adamları, necə deyərlər, daşdan çörək çıxarırlar. Belə kiçik əkin sahələrində bol məhsul yetişdirən insanlar nəzərimdə əfsanəvi qəhrəmana çevrildilər.

Sonra onlarla tez-tez görüşürdüm. Xasiyyətləri, davranışları, adətləri bizimkindən o qədər də fərqlənmədi. 7 illik hərbi xidmət müddətində bu yerlərin qala divarları kimi dağlarına da dar keçidlərinə də səmimi, qonaqpərvər insanlarına da alışmışdım. Necə deyərlər, bu yerlərə bir könüldən min könülə vuruldum. Bu məhəbbəti qəlbimdə coşğunlaşdıran bəlkə də Naxçıvan şəhərində tanış olduğum Anaxanım adlı azərbaycanlı qız oldu. Qız qardaşlarından, qohumlarından qorxa-qorxa mənimlə görüşürdü. Ağır illərdə-sərhədlərimizin keşiyində sayıq dayandığım vaxt elimizdən iki acı xəbər almışdım. 1943-cü ildə anamın, 1945-ci ildə isə atamın vəfat etdiyini bilirdim. Odur ki, 1949-cu ildə

əsgəri xidmətimi başa vurduqdan sonra Anaxanımla evlənib, burada qalmağı qərara aldım. Mənim bu təklifimə qızın da qohumları etiraz etmədilər.

...Naxçıvan Xatırçı rayonunun Tasmaçı kəndində doğulmuş Umurzaq Aqilovu doğma övladı kimi qəbul etdi. Əsgəri xidmətdən yenicə tərxis olunmuş Umurzaqa hamı qayğı göstərdi. Ona ürəyinə yatan iş tapmaqda kömək etdilər. Naxçıvan Dəmiryol stansiyasında işə başladı.

1954-cü ildə isə U.Aqilov Culfaya köçdü. Lokomotiv deposunda maşinist işlədi. Sərhəd qoşunlarında xidmət edərkən keşikdə dayandığı, piyada azı yüz dəfə keçib getdiyi yerlərdən paravozla, teplovozla keçdi. Sərnişinləri, yük qatarlarını vaxtında mənzilə çatdırmaq üçün əlindən gələni əsirgəmirdi. İllər keçdikcə ailə üzvlərinin də sayı artdı. Uşaqları böyüdükcə culfalılara qaynayıb qarışdı. Övladlarından Məhəmməd və Cahangirin şəhadətnaməsində doğulduğu yer sözü qarşısında Naxşıvan yazılmışdısa, Məryəm, Naibə və Aqilin şəhadətnaməsində Culfa yazılıb.

Culfa lakomotiv deposu da bir məktəb oldu Umurzaqın həyatında. Özü də beynəlmilçilik məktəbi. Burada Ş. Babayevlə, T.Həsənovla, S.Barsekyanla, N. Şilkinlə və başqaları ilə dostlaşdı. Umurzaqla çiyin-çiyinə işləmiş Pavlik Ramzadze, Leonid Nazqalaşvili, Mixail Saakayev və başqaları Zaqafqaziya

dəmiryolunun müxtəlif sahələrində işləsələr də onunla əlaqəni kəsmir, müntəzəm hal-əhval tuturlar.

Umurzaqın atası oğlunu əkinçi görmək istəyirdi, lakin o, dəmiryolçu oldu. Bu cəhətdən Umurzaqın bəxti gətirib. Övladlarının əksəriyyəti atasının yolu ilə gedir. Böyük oğlu Məhəmməd Amur vilayətində sərhəd qoşunlarında nümunəvi xidmət etdikdən sonra Culfaya qayıtmış, dəmiryol hissəsində işləmiş, sonra Rostov vilayətinin Toqonroq şəhərində iki illik elektrovoz maşinistləri kursunu bitirmişdir. Şimali Qafqazda maşinist köməkçisi işləmiş, 1976-cö ildə SOV İKP sıralarına qəbul olunmuşdur. Elə həmin ildə Özbəkistanda yaşamağı qətiləşdirmiş, Daşkənd deposunda teplovoz maşinisti kimi əmək fəaliyyətinə başlamışdır. Bir il sonra isə depo komsomolçuları onu ilk təşkilat katibi seçmişlər. 1981-ci ildən isə depo həmkarlar İttifaqının sədridir. Həmin il Valentina ilə ailə qurub. İki oğlu var. İslam və Nəriman. Məhəmməd işləyə-işləyə Daşkənd Dəmiryol Texnikumunun teplovoz və teolovoz təsərrüfatı şöbəsini bitirib.

Umurzaqın son beşik övladı-babasının adını daşıyan Aqil də 1982-ci ildə əsgəri xidməti başa vurduqdan sonra qardaşı Məhəmmədlə eyni kollektivdə işləməyi üstün tutub. Qardaşlar hər il məzuniyyət vaxtı Culfa şəhərinə və Tasmaşı kəndinə mütləq baş çəkirlər.

Oğulları Məhəmməddən və Aqildən söz düşəndə Umurzaq kişi fəxr ilə dedi ki, onlar da Culfa lakomativ deposunun yetirmələridir. Yaxşı işləri ilə başımızı uca edirlər. Bir az da zarafata salaraq dedi:-Daşkənddə işləmələri yaxşıdır. Özbəkistan Azərbaycana bir Umurzaq vermişdi, əvəzində Azərbaycan da borclu qalmadı. Məhəmmədi və Aqili verdi. Umurzaqın heç bir peşəsi yox idi. Burada peşəyə yiyələndi Amma Azərbaycanın Özbəkistana verdiyi oğullar yüksək ixtisaslı dəmiryol mühəndisləridir.

Umurzaqın övladları Cahangir və Məryəm də atalarının yolunu davam etdirmişlər. Cahangir Naxçıvan Dəmiryol hissəsində , Məryəm isə Culfa lokomotiv deposunun texniki şöbəsində işləyir. Ata yolunu davam etdirməyən yalnız Naibə oldu. O, başqa sahədə işləyir. Övladlarının üçü xoşbəxt ailə qurub. Umurzaq kişinin indi 7 nəvəsi var.

Əlaçı maşinist, sadə insan olan U.Aqilov 1984-cü ilin sentyabrında sonuncu dəfə teplovoza əyləşib səfərə yola düşəndə bayram əhval-ruhiyyəsində idi. Vağzala xeyli adam toplaşmışdı.- dostları, qohumları, iş yoldaşları və deponun ictimai təşkilatlarının nümayəndələri. Ömründə birinci dəfə idi ki, onu belə təntənə ilə səfərə yola salırdılar. Ölkəmizdə çətinliyi ilə, döngələrin çoxluğu və sərtliyi ilə seçilən Mincivan-Noraşen dəmiryolu ona çox rahat görünürdü. Çünki bu səfər vida səfəri idi.

Umurzaq kişi təqaüdə çıxsa da dostlarından, peşə yoldaşlarından uzaqlaşmayıb. Deponun çörəkxanasında ocaqçı işləyir, hər gün peşə yoldaşları ilə görüşür. Son işindən söhbət düşəndə deyir:- qohumlarım təklif etdilər ki, təqaüdə çıxandan sonra Tasmaçıya köçüm. Gedib bir aya qədər də orada yaşadım. Gördüm yox, dözə bilmirəm, culfalılara qaynayıb, qarışmışam, dəmiryoluna alışmışam.

Umurzaq Aqilov culfalılara qaynayıb, qarışdığını söyləməkdə haqlıdır. Amma onun evinə daxil olan kimi özünü Özbəkistanda hiss edirsən. Evinin daxili quruluşu da avadanlıqların düzülüşü də, stolun üstündəki gündəlik qəzet jurnallar da maqnitafonda səslənən mahnılar da Özbəkistanı xatırladır. Umurzaq Aqilov Culfa ilə Tasmaçı arasında körpü yaratdı. İndi xeyir-şərdə, eləcə də adi günlərdə Culfada özbəklərə, Tasmaşıda, Xatırçıda azərbaycanlılara rast gəlinir. Sanki Umurzaq Azərbaycan-özbək xalqları arasında qədim ənənələri olan körpünün tağına çevrilmişdir.

Çap oluub: "Sovet Naxçıvanı" qəzeti, 1987-ci il, 14 yanvar, sayı 11 (14652)

AZƏRBAYCAN SEVGİSİYLƏ YAŞAMIŞ ÖZBƏK FOLKLORŞÜNASI VƏ ƏDƏBİYYATÇISI JUMABAY YUSUPOV



Ürəyində böyük bir Azərbaycan sevgisi daşıyan, Azərbaycanla əlaqələrin gündən-günə yaxınlaşması üçün əlindən gələni əsirgəməyən özbək folklorçusu və ədəbiyyatşünası Jumabay Yusupov 2009-cu ilin oktyabrın 10-da Ürgəncdən Türkiyənin Bolu şəhərinə simpoziuma gedərkən yolda dünyasını dəyişmişdir.

Filolojigiya elmləri doktoru, professor Jumabay Yusupovla şəxsi tanışlığımızın tarixi o qədər də uzun deyildi. Onunla ilk dəfə 2009-cu ilin martın 11-13-də Aşqabatda keçirilən "Səlcuqlar dövrünün ədəbiyyatı və mədəniyəti" Uluslararası simpozyumda tanış olduq. Simpozyumun təşkilatçılarından Kakacan.... Özbəkistandan gələn alimlərdən birisinin məni səbirsizliklə gözlədiyini söylədi. Proqramı gözdən keçirdim. Orada Özbəkistanlılardan yaxından tanıdığım birisinin adını görmədim. Düşündüm ki, yəqin ya tanışlar kitab göndəriblər, ya da Azərbaycana bir

sifariş göndərəcək, yaxud hansısa kitabı, məqaləni göndərməyimi xahiş edəcəklər.

Səhər sempozyum keçiriləcək salona getmək üçün qaldığımız "Ak altun" hotelinin foyesində tanıdıqlarımızla görüşür, iki bir-üç bir söhbət edir, avtobusların gəlməsini gözləyirdik. Birdən alçaq boylu, dolu bədənli, qıyıq gözlü birsi məni mehribanlıqla qucaqladı. Mən də onu eynii səmimiyyətlə qucaqlasam da, onu nə vaxt, harada gördüyümü, kim olduğunu xatırlamağa çalışdım. Lakin xatırlaya bilmədim. Yaxasındakı "Özbəkistan. Prof.Dr. Jumabay Yusupov" yazısı yavaş-yavaş yadıma onun folklordan yazmış olduğu bir neçə məqaləsini saldı. Səbirlə onun ortaq tanışlarımızdan söz açmasını gözləyirdim. Düşünürdüm ki, dostlardan kimsə mənim haqqımda ona danışıb. O, isə "Adınızı proqramda görəndə sevindim. Dünəndən səbirsizliklə nə vaxt gələcəyinizi gözləyirdim" deyə sözə başladı. Söhbətindən öyrəndim ki, Daşkənddə çap olunan "Cahan ədəbiyyatı" jurnalının 2008-ci il 1-ci sayındakı məqaləmi oxuyub. 14 ilə yaxın Azərbaycanda yaşamış, elmi fəaliyyətlə məşğul olmuş, Mahmud Kaşğarlının «Divanü lüğat-it-Türk» əsərini ilk dəfə dilimizə çevirmiş, milliyətcə özbək olan Xalid Səid Xocayev haqqında yazmış olduğum məqalə onu bərk təsirləndirib. Söhbət zamanı iki-üç il əvvəl müalicə üçün Bostançı rayonunun Koşkurqan kəndindəki Loğman adlandırılan həkimin yanına

getdiyini, Xalid Səid Xocayevin həmin kənddə doğulduğunu bilmədiyini söylədi. Mənə də irad tutdu ki, məqaləni bir neçə il əvvəl çap etdirsəydim, Koşkurqana gedəndə Xalid Səid Xocayevin doğulduğu evi ziyarət edər, qohumları ilə görüşərmiş.

Mən də gülümsəyərək: "Günahı məndə deyil, Daşkənddəki jurnalların redaktorlarında gör. Həmin yazı 8 il jurnallarda dolandıqdan sonra işıq üzü görüb". Jumabay Yusupov da, söhbətimizi dinləyənlər də təəssüfləndilər və o, qətiyyətlə "Mənə göndərsəydiniz, çoxdan "İlm sarçeşmələri" jurnalında çap edərdim",– dedi. Mən də "Bundan sonra nəzərə alaram" dedim.

Sonrakı günlərdə söhbətimizdə Türkiyənin Bolu şəhərində Abant İzzet Baysal Universitetinin Bolu Xalq Halk Kültürünü Araşdırma və Uyğulama Mərkəzi (BAMER) ilə AMEA Folklor İnstitutunun birgə "I Uluslararası Köroğlu, Bolu tarix və kültürü" keçirəcəyimizi, Özbəkistan Respublikası Fənlər (Elmlər) Akademiyası Dil və Ədəbiyyat İnstitutunun da bu simpozymun təşkilatçıları sırasına qatılacaqlarını, Türkmənistanı da buraya qatmaq üçün danışıqlar apardığımızı bildirdim. Jumabay Yusupov böyük həvəslə simpozyuma qatılacağını bildirdi və Türkmənistanla Özbəkistanın elmi idarələrinin bu işə qoşulacağına inamsız yanaşdı.

Birgə simpozyumlar keçirməkdən, elmi, ədəbi əlaqələri genişləndirməkdən söz düşəndə dərindən

köks ötürərək “Sizlərin, Türkiyədəkilərin belə tədbirlər keçirməsinə nə var ki! Hünərin var Türkmənistanda, bizdə o sözü dilinə gətir. Gör səni nələrdə ittiham edəcəklər”. Xeyli fikirə getdikdən sonra: “Rektorumuz gəncdir və cəsarətli adamdır. Gedəndə onunla bir danışım. Bəlkə bizim universitetlə birlikdə bir simpozyum keçirməyə razılıq ala bilə”, – dedi.

Jumabay Yusupov özünü Xarəzmli sayırdı. Çünki, onun ata-babalarının yaşadıqları ərazilər 20-ci yüzilliyədək Xarəzmdə daxil olub. Sonralar isə burada dəfələrlə inzibati-ərazi bölgülərində dəyişiklik edilib. Ona görə də Jumabayın doğulduğu yer Xarəzm vilayətinin Manğıt rayonu göstərilir. İndi ora Qaraqalpakqstan Respublikasının Amudərya vilayətinə daxildir. Jumabay da 1947-ci ilin fevralın 26-da Manğitdə doğulub. Valideyinləri 1950-ci ildə ata-baba yurdları olan Türkmənistan Respublikasının Daşhavuz vilayətinə köçüblər. Jumabay Yusupov da valideyinlərilə birlikdə “Şadlık” kolxozunda yaşayıb. 1953-56-cı illərdə buradakı ibtidai məktəbində, 1957-63-cü illərdə Daşhavuz vilayətindəki Təzəbazar şəhərinin 1 saylı orta məktəbində oxuyub. Orta məktəbdə oxuduğu illərdə şagird istehsalat briqadasının fəal üzvü kimi Moskvaya – Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə göndərilib. Oradan medalla qayıdıb.

Orta məktəbdə “Gənçc ədəbiyyatşünas” dərnəyinin fəal üzvlədindən olan Jumabay 1963-1964-cü tədris ilində əla qiymətlərlə təhsilini başa vurub Daşkənddəki Rus Dili və Ədəbiyyatı Pedaqoji İnstitutuna daxil olub. 1969-cu ildə institutu fərqlənmə diplomuyla ilə bitirdiyinə, tələbəlik illərində elmi konfranslarada fəallığına, dəfələrlə mükafata layiq görüldüyünə görə onu institutda müəllim saxlayıblar.

1970-1971-ci illərdə əsgəri xidmətini başa vurub doğma instituta qayıdan Jumabayı 1975-ci ildə zabit kimi yenidən orduda işə cəlb edirlər. 1977-ci ilədək orduda böyük leytenant rütbəsində rotada, sonra divizyada komandirin siyasi işlər üzrə müavini işləyir. Əsgəri xidmətdəki hünərinə görə hərbi dairə komandirinin Fəxri fərmanına layiq görülür. Ordudan təxris olunduqdan sonra yenidən doğma kollektivə qayıdır. İctimai-siyasi fəaliyyətə daha çox diqqət yetirdiyindən elmi işlərlə lazımı səviyyədə məşğul ola bilmir. Gah institutun beynəlxalq klubuna rəislik edir, gah partiya komitəsinə katib, gah həmkarlar ittifaqının yerli komitəsinə sədr seçilir.

İctimai-siyasi fəallığına görə 1979-cu ildə onu Daşkənd Dövlət İqdisad Universitetində işə göndərirlər. O, burada rus dilindən dərs deməklə yanaşı ictimai-siyasi işlərdə də fəal çalışır. Dəfələrlə tələbə dəstələrinin komandiri kimi gəncləri yay tətillərində xalq təsərrüfatının müxtəlif sahələrində

işləməyə aparır. Dağlıq Altay vilayətinə tələbə dəstələrinin rəhbəri kimi gedərkən oradan folklor nümünələri toplayır. 1981-ci ilin aprelin 26-da "Yaxın dildən çevirmədə milli özünəməxsusluğun qorunmasının problemləri (Türkmən prozyasının özbəkçəyə tərcümələri əsasında)" mövzusunda (10.01.03 indeksi üzrə) namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmlər namizədi alimlik dərəcəsi adını alır.

1991-92-ci illərdə Daşkənd Maliyə İnstitutunda dosent, 1992-95-ci illərdə Daşkənd Dövlət İktıisat Universitetinin Ürgənc filialında direktor müavini, xarici dillər və umumtəlim fənlər kafedrasının müdürü, 1995-ci ildən Ürganç Dövlət Universitetində özbək dilşünaslığı kafedrasında dosent, 1998-ci ildən 2004-cü ilin sentyabr ayına qədər elə həmin müəssisənin nəzdindəki Beynəlxalq Dil Mərkəzinin direktoru və b.yüksək vəzifələrdə işləyən Jumabay Yusupovun bəzi qəribəlikləri də olmuşdur. O, 1994-1998-cü illərdə Daşkənd Dövlət İqtisat Universitetinin "Ticarətdə muühasibat hesabı və audit" fakültəsində qiyabi oxuyaraq muühasib-iqtisadçı ixtisasını qazanmışdır.

2000-ci ilin yanvarın 26-da "Xarəzm nağıllarının genezisi, əsas özəllikləri və poetikası" mövzusunda (10.01.09.indeksində) doktorluk dissertasiyası müdafiə edən Jumabay Yusupov 2001-ci ildən Ürgənc Dövlət Universitetinin nəşriyatına rəhbərlik və "İlm

sərçeşmələr” elmi-metodik jurnalına redaktorluq etmişdir.

1986-cı ildən dosent, 2005-ci ildən professor seçilmişdi. J.Yusupov Özbəkistanda yuksək elmi səviyyəsi, səmimiyyəti, cəsarətilə seçilən alimlərdən idi. O, tərcüməşünaslıq sahəsində heç kimin diqqət yetirmədiyi bir mövzunu araşdırmaqla yenilikçi kimi tanındı. O, rus dillilərə özbək dilini öyrətməyin metodikasını təkmilləşdirdi. Tərcümə əsərlərində milli kolorit problemləri, okkazionalizmlər incələməsi onu sonunda folklorklorşünasa çevirdi.

Folklorşünaslıqla yaşıdlarında çox gec məşğul olmasına baxmayaraq, yazdığı sanballı əsərləriylə az zamanda bu sahənin ən öndəgedən aliminə çevrildi. O, nağılların regional xüsusiyyətlərini öyrənərkən bölgənin tarixi-etnoqrafiq cəhətlərə diqqət yetirdi. Bu səbəbsiz deyildi. Xarəzmdə yaşayan özbək, türkmən və qaraqalpaqlardan toplanmış nağıllar yalnız süjet baxımından deyil, dil və ifadə vasitələri baxımından da Azərbaycandan toplanan nağıllarla çox yaxındır. Sovet dövründə türk xalqlarının ortaq folklor nümunələri öyrənilərkən əsas diqqət fərqliliyə, onları bir birindən ayıran cəhətlərə yönəldilirdi. J.Yusupov isə bunun əksinə gedərək bölgədən toplanmış nağıllarla Azərbaycn nağıllarını müqayisə edərkən əsas diqqəti oxşar cəhətlərə yönəltmiş və bunun səbəblərini aydınlaşdırmağa çalışmışdır. Bu isə özbək folklorşınaslığında yeni araşdırma metoduydu.

Professor Jumabay Yusupov bakalavr və magistrantlara "Tərcümə nəzəriyyəsi və praktikası", "Ədəbiyyatşünaslıqda struktural metodlar", "Folklorşünaslıq", "Mənəviyyatın əsasları" xüsusi kurslarını tədris etməklə yanaşı, gəncləri elmi axtarışlara da həvəsləndirirdi. Onun filologiya elminin önəmli və aktual problemlərinə həsr olunmuş 250-dən çox məqaləsi Özbəkistanın, Azarbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Rusiyanın, Bolqarıstanın müxtəlif elmi jurnal və toplularında çap olunmuş, 11 respublika, 5 zonal və 9 uluslararası elmi konfranslarda məruzəsi dinlənmişdi. Çap olunmuş bir neçə buroşuru və 7 monoqrafiyasından "Xarəzm nağılları və həyat həqiqəti', "Xarəzm nağıllarının poetikası", "Qaynar qəlb sözü", "Ədəbiyyatşünaslıqda struktural metodlar" və b. kitabları elmi ictimaiyyət tərəfindən daha maraqla qarşılanmışdı.

2009-cu ilin sentyabrın 23-25-də Türkmənistanın Daşoğuz şəhərində "Koroğlu yordumu və gündoğar ədəbiyatı" mövzusunda uluslararası elmi sempozyum keçiriləcəkdi. Sempozyuma dəvət olunanlar arasında mən də vardım. 2009-ci il Ooktyabırın 17-18-də Bolu şəhərində keçirəcəyimiz simpozyuma özbəkistanlı alimlərin gəlməsini qətiləşdirmək üçün mən yolumu Daşkənddən saldım. Özbəkistan Respublikası Fənlər (Elmlər) Akademiyası Dil və Ədəbiyyat İnstitutunda olarkən mənə dedilər ki, Ürgəncdən Jumabay Yusupov bir neçə dəfə zəng vurub, mənim

gəlməyimlə maraqlanıb. İnstitutun rəhbərliyi və simpozyuma məruzə göndərmiş və dəvət olunmuş alimlərlə görüşdüm, xeyli söhbət etdik. Onları necə deyərlər dilə tuturdum ki, mütləq simpozyuma getsinlər. Vaxt daralırdı, onlar gedəcəklərini söyləsələr də, təyyarəyə bilet sifarişi belə verməmişdilər.

Mən telefonla Jumabay Yusupovla danışdım. O xahiş etdi ki, özbək alimlərilə birlikdə Ürgəncə gəlim və oradan birlikdə Daşoğuza gedək. Ürgənclə Daşoğuzun arası çox yaxındır. Onun təklifini qəbul etsəm də Daşkənddən Daşoğuza gedəcək alimlər nədənsə qəti bir söz demədilər. Mən Ürgəncə tək gedəsi oldum. Jumabay Yusupov oğlu ilə birlikdə gəlib məni aerpoportda qarşılayib evlərinə apardılar. Həmin gün onlarda qaldıq, xanımının bişirdiyi özbək plovunu yedikdən sonra məni Xivəyə gəzməyə apardılar. Səhərisi gün Ürgənc Dövlət Universitetinə getdik. Həmin gün tələbələri pambıq yığmaq üçün kəndlərə göndərirdilər. Çox gərgin bir gün olmasına baxmayaraq, Jumabay Yusupov rektorla görüşümüzü təşkil etdi. Birlikdə gələcək iş planlarımızı müzakirə etdik. Sonra məni vaxtilə Y.V.Çəmənzəminlinin işlədiyi İnstitutun binasına apardı, arxivlərdə yazıçımızla bağlı apardığı axtarışlardan söz açdı.

Sonra Jumabay Yusupovun evinə döndük. Az sonra simpozyuma gedəcək Daşkəndli alimlər də gəldilər. Evdə günorta naharını yeyib Jumabayın təşkil etdiyi maşınla sərhəddə yollandıq. Heç iki saat

keçməmişdi ki, biz Daşoğuzda hoteldə yerləşdık. Simpozyumu təşkil edənlərin yasaqlarına baxmayaraq, Jumabayın məni də götürüb Daşoğuzda yaşayan və məhəllə məscidində imamlıq edən əmisi oğlunun evinə qonaq apardı. Simpozyumun ikinci günü isə mənə təklif etdi ki, onun doğulduğu kəndə gedək. Mən məruzəçi olduğumdan ona yoldaşlıq edə bilmədim. O, ata-anasının qəbirlərini ziyarət edib, qohumlarıyla görüşüb geri qayıtdı.

Simpozyum günlərində Türk dünyasını ayrı-ayrı təşkilatları ilə elmi əməkdaşlıq planları hazırladıq. Geri dönəndə aviokassaya gedib ona Bolu simpozyumuna getmək üçün bilet də aldıq. Məndə bir əminlik yarandı ki, Dil və Ədəbiyyat İnstitundan heç kim gəlməsə də, Özbəkistanı simpozyumda Jumabay Yusupov təmsil edəcək.

Bu arxayınlıqla mən Bakıya gəldim, buradan da Türkiyəyə uçdum. Boluda simpozyumun açılışına Özbəkistanı heç kim qatılmadı. Onlar gəlməyəcəkləri haqqında heç bir bilgi də verməmişdilər. Jumabay Yusupov hələ Ürgəncdə ikən mənə Daşkənddəkilər qorxularından simpozyuma getməyəcəklərini söyləmişdir. Özü isə təyyarəyə mənim yanımda bilet almışdı. Onun da gəlməməsi məni lap çaşdırmışdı.

Bakıya gönəndə Jumabay Yusupovun qızı Nərgizdən bir məktub aldım. O dərin kədərlə bildirirdi ki, atası 2009-cu ilin oktyabrın 10-da Daşkəndə gedib ki, oradan bir neçə gün qalıb, işlərini səhmana salıb

istanbula uçsun. Nə yazıq ki, əcəl aman verməyib. Elə həmin gün vəfat edib.

Əlimizdən "Allah rəmət etsin! Qəbri nurla dolsun!" deməkdən başqa bir iş gəlmədi.

İslam dinində xeyirli bir iş üçün səfərə çıxanların yolda ölümü də şəhidlik sayılır. Jumabay Yusupov da, beləcə, elmimiz yolunda şəhid oldu.

"Dədə Qorqud" jurnalı, 31.05.2010.

Çap olundu: İtgilərimiz. Azərbaycan sevgisiylə yaşamıış özbək folklorşünasi ədəbiyyatçısı Jumabay Yusupov, **"**Dədə Qorqud" jurnalı 2010-cu il, sayı 2(35), səh.162-167 ali-shamil.tr.gg/-Oe-zb%26%23601%3Bk-Jumaboy-Yusupov-haqqinda.htm

XƏLİL RZANI ÖZÜNƏ USTAD SAYAN, ÖZBƏK ŞAİRİ VƏ ARAŞDIRICISI TAHİR KAHHAR



Tahir Kahharla ilk tanışlığımızı xatırlaya bilmirəm. Bəzən elə bilirəm bir kənddə doğulmuş, eyni fakültədə oxumuş, yaşadığımız şəhər də eyni olmuşdur. Buna səbəb Tahirin yeyib-içmə məclislərində, gəzintilərə gedərkən həyat hekayələrini maraqla danışması olub. Bir neçə dəfə onun söhbətini yarıda kəsib hadisənin ardını danışmışam. Bununla demək istəmişəm ki, Tahir, bu hadisəni dəfələrlə eşitmişəm. Amma unutmuşam ki, mən eşitmişəm, süfrədəkilər üçün yenidir. O da adamların çaşqınlıqla baxdığını görəndə gülərək: "Əli Şamillə bir qışlaqda (kənddə) doğulmuşuq. Yeniyetməliyimiz və gəncliyimiz bir yerdə keçib. Bir diqqətlə baxın, gözlərinin qıyıqlığından həmin dəqiqə özbək olduğu bilinəcək" – – deyib. Onun bu zarafatını bəzən həqiqət sayanlar: "Siz də Özbəkistana sürgün olunmuşdunuz?" – – deyə məndən xəbər aldıqları da olub.

Onun şıltaqlıqları, zarafatları haqqında bəzi yazılarımda söhbət açmışam. İndi ciddi söhbətini sizlərə təqdim etməklə Tahir Kahharı tanıtmağa çalışacam. 2000-ci il noyabrın 16-da Kıbrısın Qazi Mağosa şəhərində Doğu Akteniz Universitetindəki bir elmi toplantıya qatılmışdıq. "Park" hoteldə ondan Azərbaycan radiosunun "Qonaq eldən gələr" proqramı üçün aldığım müsahibənin mətnini burada verirəm:

–Tahir bəy, Azərbaycan radiosunun dinləyicilərinə özünüz haqqında bilgi verməyinizi xahiş edirəm.

–1953-cü ildə Özbəkistan Cümhuriyətnin Nəmənqan vilayətinin Törekorqan rayonunda doğuldum. Törekorqan törənin, Azərbaycanlılar kimi desək, qazinin, prokurorun yaşadığı yer anlamındadır. Burada mədəni-maarif işlərinin inkişafında Əhməd Yəsəvin nəslindən olan İbret İşanın rolu böyük olmuşdur. Özbək klassik ədəbiyyatının bu məlum və məşhur adamı Almaniyaya gedib, orada yeni nəşriyyat işini öyrənib, avadanlıq alıb gətirərək 1912-ci ildə Törekorqanda ilk mətbəəni quraraq kitab və qəzet-jurnal nəşrinə başlayıb. Fərqanə vadisinə ilk fotoqraf makinası gətirən də İbret İşan olub.

Bölgəmizdə Əhməd Yəsəvinin nəslindən olanların çoxunun məzarı var. Adamlar o məzarlara yalnız nəzir vermək, diləklərinin yerinə yetirilməsini istəmək üçün getmirlər. Məzarların üzərində

ucaltdıqları türbələrdə şeir oxuyur, tarixdən, ədəbiyyatdan söz açır, yaşadıqları günlərin vəziyyətini müzakirə edir, gələcək planlarını hazırlayırlar.

1970-ci ildə rayonumuzda orta məktəbi bitirib Daşkənd Dövlət Universitetinin jurnalistika fakültətində oxumağa başladım. Tələbəlik illərdində yurdumuzdakı ən böyük ədəbiyyat jurnalı "Şark yıldızı"nda təcrübədə oldum. Orada şeirlərim çap olundu, bacarığıma bələd oldular. Buna görə də 1975-ci ildə ali təhsilimi başa vuranda Özbəkistan radiosunun Ədəbidram redaksiyasının "Nəsr və çevri" şöbəsinə redaktor götürdülər. 1978-cu ildən isə Özbəkistan Yazıçılar Birliyinin "Şark yıldızı"nın nəsr şöbəsində işə başladım. 11 il orada çalışdıqdan sonra, yəni 1990-cı ildə respublikanın ən böyük ədəbiyyat və sənət nəşriyyatı olan Qafur Qulam adına "Ədəbiyyat və incəsənət" nəşriyyatının baş redaktoruna müavin vəzifəsinə dəvət etdilər. Özbək, rus, kırım-tatar dillərindən çevirilər yayınlardıq.

İlk şeirlərim orta məktəbdə oxuyarkən, yəni 15 yaşımda çap olundu. 1980-ci ildə isə ilk şeirlər kitabım nəşr edildi. Bu məni həvəsləndirdi. Gənclik həvəsi ilə yazıb-yaratmağa başladım. 1982, 1987, 1988, 1990, 1994-cü illərdə çap olunan şeir kitablarımın tirajı çox olduğundan həm qısa müddətdə Özbəkistanda bir şair, çevirmən və publisist kimi tanındım, həm də böyük məbləğdə qonarar aldım. Bu

məni daha da ruhlandırdı. Şeirlər kitabımı rus dilinə tərcümə edib Moskvada çap etdilər.

Sovetlər Birliyi dağılanda iqtisadiyyatdakı durğunluq kitab nəşrinə də öz təsirini göstərdi. Kitabları və qəzet-jurnallarda çap etdirdikləri əsərlərlə dolanmağa adət etmiş yazıçı və şairlər çətin vəziyyətdə qaldılar. Necə deyərlər, çoxu "dilənçi vəziyyətinə" düşdü. Allaha çox şükür ki, mən vəziyyətdən tez çıxa bildim. 1996-cı ildə bir kitabım nəşr olundu. Özbək ədəbiyyatı, özbək tarixi haqqında Amerikada çap olunan məqalələrimdən, eləcə də Türkiyədə "Türkiyə dışındakı türklərin ədəbiyyatı antalogiyası" kitabından aldığım qonararla ailəmi sıxıntıdan qurtara bildim. Azərbaycanda və b. türk respublikalarında çap olunan şeirlərimdən qonarar ala bilməsəm də, mənim tanınmağımda rolü böyük oldu.

Neçə illərdir Özbəkistan Dövlət Cahan Dilləri Universitetinin Jurnalistika fakültəsində dossent işləyirəm.

–Tahir bəy, sizin ata-babanızın yaşadığı yer, onların peşələri haqqında da bilgi verin.

–Bizim rayon Sırderyadan 5-6 km yukarıdadır. Meşhur Zahirəddin Baburun babası Umarşah Fərqana hakimi olarkən yaşadığı və öldüyü başkənt Axsıda da oradır. Qışlağımızda 8 yıllık məktəb vardı. Sonra 10 illık məktəblə çevrildi. Orta mətəbi qızıl medalla bitirlim. Bizim rayondakı ən məşhur yer Axsıdır. Axsının Fərqananın başkəndi olduğunu orta yüzil

tarixçisi Yakut “Mocamul udaba”da yazmışdır. Xaqaniyin zamandaşı və tanıdığı şair Asiriddin Axsikatiy Bağdata getib orada oxumuş, məlikuşşuara olmuş. Babur şah da babası hakim olan başkənt Axsıda doğulmuş, 12 yaşında Əndicanda taxta çıxarılmıştır. Yəni, tarıxı bir məkanda doğul-duğumdan tabii, qurur duyarım.

Çar Rusiyasının yetkililəri Osmanlı dövlətini savaşda məğlub edəndən sonra onlara Erməni dövləti yaradacaqlaını vəd etmişdilər.

Birinci Dünya Savaşından Rusiyanın məğlub çıxması ermənilər çətin vəziyyətə saldı. Yaxşı silahlandırılmış, təlim keçmiş, savaş təcrübəsi olan erməni hərbi birliklərinin bolşeviklərə qarşı qiyam qaldıra biləcəyindən ehtiyatlanaraq onları nifrət bəslədikləri müsəlmanları qırmaq üçün Türküstana göndərdilər.

Yeni yaradılan Kokand Respublikasının oturuşmuş idarə sistemi, ordusu, silah-sürsat hazır-layan zavodları olmadığından bolşeviklər bölgəni xarabazarlığa çevirdi. Kəndlərə kimi hücum edərək soyğunçuluqla, quldurluqla məşğul oldular. Erməni silahlı dəstələri də soyğunçuluqda, qəddarlıqda xüsusi ad çıxardı.

Kokand Respublikası darmadağın edilsə də, bölgədə bolşeviklərə qarşı silahlı müqavimət 1940-cı illərə kimi davam etdi. Ruslar bu xalq hərəkatını antisovet basmaçı hərəkatı kimi dəyərləndirdi.

Kinolar çəkdilər, bədii, publisistik əsərlər yazdırdılar. Necə deyərlər, sənət adamlarının, qələm sahiblərinin əli ilə xalqın vətənpərvər, qəhrəman oğullarını gözdən salmağa çalışdılar. Lakin istədiklərinə nail ola bilmədilər. Çünki bölgəmizin insanları törəyə, adət-ənənəyə sıx bağlı idilər.

Bzim bölgədə dindarlar çox olsa da, şəriət güclü deyildi. Bu da adamların Əhməd Yəsəvi ocağına bağlılığından irəli gəlirdi.

Zaxirəddin Məhəmməd Babır "Baburnamə" əsərində bu yerlər haqqında geniş yazıb. Atası şeyx Baburun buradakı sarayından da söz açıb. Sarayın qalıqları Sırdərya çayının 60 metrliyindəki bir təpənin üstündədir. Sovet arxeoloqları bölgədə geniş qazıntı işləri aparıb və 10 mədəni təbəqəni aşkara çıxarıblar. Bu o deməkdir ki, mənim ata-babalarımın yaşadığı bölgədə 10 dəfə yüksək mədəniyyətə malik insanlar yaşayıb. Təbii fəlakətlərdən, savaşlardan bu yerlər dağılsa da, illər sonra insanlar orada yenidən abadlıq işləri aparıb, yaşayıblar.

– Tahir bəy, siz qışlaqdan (kənddən) Daşkəndə ali təhsil ardınca gəlmiş bir yeniyetmə idiniz. Necə oldu Azərbaycanla, türk xalqları ilə maraqlandınız? Türk xalqlarının poeziyasından nümüunələr çevirməyə başladınız?

– Azərbaycan türkcəsi əskidən Türküstanda çox yayğın olub. Son yüzillikdə Məhəmməd Füzuli Azərbaycan şairi kimi tanıdılmağa başlayıb. Bizdə

Füzulinin əsərləri həmişə orjinaldan oxunub. Onu tərcümə etməyə ehtiyac duymayıblar. Bunun səbəbi də ötən yüzilliklərdə Türküstanda Yəsəvixanlığı (ədəbi məktəbi) olmasıdır. Yəsəvixanlıqda Əhməd Yəsəvinin divanı oxunar, fikirlər söylənilər, beytlərin mənası təhlil edilərdi. Başqa xanlıq yox idi. Yəsəvi, Nəvai, Füzuli xanlığında adını çəkdiyim şairlərin əsərləri oxunur və təhlil edilirdi.

Sovet hakimiyyəti illərində islam dini yasaqlandı, məscidlərin, mədrəsələrin əksəriyyəti bağlandı. Amma gizli şəkildə Yəsəvi, Nəvai, Füzuli xanlıqları öz fəaliyyətlərini davam etdirdi. Yeniyetmələr bu xanlıqlarda klassiklərin şeirlərini əzbərləyir, şeir texnikasını, şeir təhlilini öyrənirdilər. Orada öyrəndiklərinin səviyyəsi ali məktəblərin tədrisindən çox yuxarı idi. Azərbaycanlı yazıcı və şairlərinin əsərləri ilə biz Füzuli xanlığında tanış olurduq. Klassik ədəbiyyata məhəbbət böyük olduğundan mənim əruz vəznində yazdığım ilk şeirim 8-ci sinifdə oxuyanda çap olundu. Universitetə oxumağa gəldim. Qrupumuzda oxuyan 25 tələbənin arasında əruzda şeir yazan yalnız mən idim. Heyran xanımın, Məshəti xanımın, Əliağa Vahidin və b. şeirlərini özbəkcəyə çevirməyə başladım. Fars dilini uşaqlıqdan öyrənməyim tərcümə işində çox köməyimə gəlirdi. Tərcümələrimi 1975-ci illərdən Özbək radiosunda səsləndirir, qəzetlərdə çap etdirirdim.

–Azərbaycan türkçəsindən Özbək türkçəsinə ilk tərcümən yadındadırmı? Onu öz həvəsinlə tərcümə eləmişdin, yoxsa nəşriyyatlar, qəzetlər sənə sifariş vermişdi?

–Mənə heç kim sifariş vermirdi. Daşkənddə "Drujba" (Dostluq) adlı bir kitab mağazası vardı. Məncə, bu təkcə Daşkənddə deyildi. Müttəfiq və muxtar respublikaların hamısının paytaxtında "Drujba" adlı kitab mağazaları vardı. Orada yalnız SSRİ-də yaşayan xalqların dillərində çap olunmuş kitablar deyil, keçmiş sosialist ölkələrində, bəzən kapitalist ölkələrində yaşayan kommunist ədiblərin də əsərləri satılırdı. Mən də Azərbaycandan, Qırğızıstandan, Bolqarıstandan (türk dilində çap olunmuş) kitabları alıb oxuyur və ürəyim istəyənləri özbəkcəyə çevirirdim. Kitabları gözdən keçirib bəyəndiyimi alırdım. Amma Azərbaycan türkcəsində olan kitabları seçib almırdım, yeni gələn kitabların hamısını alırdım. Tacikistandan gələn əski fars klassiklərini-Hafizin, Caminin, Ruminin qəzəllərini, Hindistanda yaşayan, farscada yazan Türküstan şairlərinin şeirlərini tərcümə edirdim.

–Bakıya ilk dəfə nə vaxt gedibsiniz? Xəlil Rza ilə harada və necə tanış oldunuz?

–Xatırlaya bilmirəm. Xatirə dəftərimdə var. Amma mənim "bilgisayarım" o qədər də yaxşı çalışmır. (Əli ilə başını göstərərək gülür). Hər halda 1987 və ya 1988-ci il idi. Xəlil Rza Ulutürk hər gün

xatirə yazırdı. Onun dəftərində görüşdüyümüz tarix dəqiq olar.

Bakıya dalbadal iki dəfə getdim. Bir dəfə Əlişir Nəvainin qəzəllərini tərcümə etdirməyə getdim. Özbəkistanda Əlişir Nəvainin 10 seçmə qəzəlini SSRİ-də yaşayan xalqların dillərinə çevirtdirib çap etməyi planlamışdılar. Özbək yazıçılarının hərəsini bir yerə göndərdilər. Mən də Azərbaycana getdim. O zaman Xəlil Rza ilə tanış oldum.

– Azərbaycandan şəxsən tanıdığınız şairlərdən kimlərin əsərlərini Özbək Türkcəsinə çeviribsiniz?

– Azərbaycan şairlərini çoxunu tanıyıram. Bir neçə dəfə Azərbaycana getmişəm. İndi biz Kıbrısda oturduğumuzdan əlimin altında tərcümələrim yoxdur deyə ad çəkə bilmirəm. Azərbaycanda yaxından tanıdığım şairləri özümə ustad bilir, onlarla fəxr edirəm. Milli düşüncəmin şəkillənməsində Xəlil Rza Ulutürkün rolu əvəzsizdir.

– Akademik Ziya Bunyadovla necə tanış oldunuz?

– Tələbəlik illərində məni "Şark yıldızı" dərgisnə təcrübəyə göndərəndə baş redaktor, məşhur yazıçı Mirmuxsin idi. İlk gündən mənə qayğı və diqqətini əsirgəmədi. Təcrübəni başa vuranda universitetə məktub göndərdi ki, təyinatımı "Şark yıldızı" dərgisnə versinlər. Bu məktub Daşkənddə qalmama səbəb oldu. Mirmuxsun ustad olmasaydı, təyinatımı hansısa bir pambıqçılıq rayonunun qəzetinə verəcəkdilər. Bəlkə

də orada ilişib qalacaqdım. Bir neçə il dərgidə çalışdım. 1983-cü ilmiydi, bilmirəm, hər halda o illər idi, Mirmuxsin əkəni "Gülistan" jurnalınəa baş redaktor təyin etdilər. O, mənə tapşırdı Azərbaycanlı akademik, Sovet İttifaqı Qəhramanı Ziya Bunyadovla görüşməyi, onun haqqında məqalə yazmağı tapşırdı.

Mən Bakıya getdim. On beş gün Bakıda qaldım. Akademiyanın Şərqşünaslıq İnstitutunda Ziya Bunyadovla görüştüm. O zamanlar hotellər boş olsa da, admistratorlar qonaqdan əlavə pul almaq üçün "Yer yoxdur" deyirdilər. Ziya Bünyadov isə nüfuzundan istifadə edərək mənə rüşvət vermədən Azərbaycanın ən məşhur hoteli "İntüurist"də yer aldı. Qara "Volqa"sını mənə xidmət etmək üçün ayırdı. Onunla bir neçə dəfə uzun-uzadı söhbətləşdik. Tarixdən, Azərbaycanda, Özbəkistanda, Türkiyədə çap olunan kitabların elmi dəyərindən danışdıq. Söhbət Oğuzxandan söhbət edərkən mənə bir kitab bağışladı. Kitabın müəllifi olan xanımla da məni tanış etdi. Qarabağdan söhbət edəndə 18-10-cu yüzildə 9 dənə "Qarabağnamə" yazıldığını dedi. Otağındakı rəfləri gözdən keçirib bu mövzuda bir neçə kitab və məqalə də verdi.

Ziya Bunyadov söhbət zamanı "Quran"ı ərəb dilindən Azərbaycan Türkcəsinə çevirməyə başladığını da dedi və hansısa jurnalda çap olunmuş parçaları olan səhifələri mənə verdi. Daşkəndə qayıdanda Ziya Bunyadov haqqında 65 səhifəlik bir

məqalə yazdım. Yaranmış imkandan istifadə edib "Yasin" surəsinin özbəkçəyə çevrisini də verdim. Bu mənim bildiyimə görə, Özbəkistanda "Quran"dan ilk tərcümə idi. "Yasin" surəsini Azərbaycan türkcəsindən Özbək türkcəsinə "Quran"ın iki Özbək türkcəsindəki təsvirindən, Ankarada Türk dilində çevirisindən, eləcə də uyğur və qazax dillərinə tərcüməsindən yararlandım. Bununla kifayətlənməyib dini işlər idarəsinin əməkdaşı Abdüləziz Mənsuri ilə də məsləhətləşib rəyini aldım ki, söz-sov olmasın. Özbəkistanda "Quran"ın "Yasin" surəsini Sovet dövründə çap etdirmək mümkün olsa da, Qarabağ haqqında yazdıqlarımı məqalədən çıxartdılar. Çünki dərgi Özbəkistan Kommunist Partiyasının orqanı idi.

Özbəkistanda Əlişir Nəvainin yubileyinə hazırlaşırdılar. Planlaşdırılmışdı ki, şairin şeirlərindən nümunələr SSRİ xalqlarının dillərinə çevirtdirib Daşkənddə bir kitab kimi çap etdirsinlər. Azərbaycan Türkcəsinə çevirtdirmək də mənə tapşırılmışdı. Onun üçün Azərbaycan Yazıçılar İttifaqına getdim. Katibəyə kim olduğumu, haradan gəldiyimi, yazıçılar ittifaqının sədri Anarla görüşmək istədiyimi dedim. O: da: "Bir az gözləyin, Anar müəllimin yanında adam var. O, çıxsın, sizi qəbul edəcək", – dedi.

Heç beş dəqiqə keçməmişdi, saçları leylayı, deərvişsifət, gözləri elə bil hədəqəsindən çıxacaq bir adam girdi qəbul otağına. İlk diqqətini çəkən mən oldum. Haradan gəldiyimi, kim olduğumu xəbər aldı.

Mən də iki-üç kəlmə ilə özümü tanıtdım və nə məqsədlə gəldiyimi söylədim.

Katibəyə məni gözlətdiyinə görə hirsləndi. Anarın kabinetinin qapısını açıb içəri girəndə mənim də qolumdan tutub özü ilə apardı. Qapıdan girə-girə Anar əkəyə mənim haqqımda bilgi verdi. Otaqdakı adam bizi görüb söhbətini davam etdirmədən çıxdı. Anarın kabinetində xeyli səmimi söhbət etdik. Oradan çıxanda Xəlil Rza məni evinə apardı. Oradan da Türkandakı bağ evinə getdik. Türkan kəndi Bakıdan təxminən qırx kilometr aralıda, Xəzər dənizinə yaxın, gözəl havalı bir yerdədir. Xəlil Rza məndən öncə özbək şair və alimlərindən Tilək Cora, Ənvər Cabbarov, İbrahim Haqqulov və b. bu bağda qonaq olduğunu bildirdi. Tilək Coranın ona bağışladığı bir özbək çapanını, yəni qışda geyilən uzun ətəkli üst geyimini də mənə göstərdi.

Xəlil Rzanın Türkan bağındakı evində işə başladıq, nə başladıq. Öncə Əlişir Nəvainin nəzərdə tutulmuş şeirlərini tərcümə etdik. Sonra keçdik mənim gətirdiyim özbək kitablarına. Çolpanın, Fitrətin və b. şairlərin milli ruhlu şeirlərini çevirdik. Bol-bol söhbət qurduq. Onun bağındakı narlardan yedik. Bir mövzu seçərək şeir yarışması da yaptıq. Özbəkistana döndüyümdə "Marifet" qəzetində nəşr etdirdiyim "Türkannamə" məqaləmdə bu haqqda geniş yazdım. Beləcə, Xəlil Rza ilə dostluğum, mən deyərdim ki, ona vurğunluğum başladı.

Xəlil Rza mənə dedi ki, türk xalqlarının şairlərinin şeirlərini tərcümə edib "Turan çələngi" adlı bir kitab çap edəcəm. Mən də. özbək şairlərinin şeirlərini seçməkdə və çevirməkdə ona kömək etdim. O, bununla kifayətlənmədi. Çağdaşı olan şairlərdən də çevirmələr etməyə başladı. Mən də ona bacardığım qədəri ilə kömək edirdim. Amma işimiz heç də asan getmirdi. Xəlil Rza milli ruhlu şeirlər çevirmək istəyirdi. Onun ürəyindən keçən şeirləri də çağdaş özbək şairləri yazıb nəşr etdirməmişdi. Xəlil Rza Ulutürk buna görə tez-tez hirslənsə də, onu sakitləşdirirdim ki, işimizi davam etdirək. Gözəl bir tərcümə kitabı alındı. Orada mənim şeirlərim də var.

Bakıda olduğum heç yadımdan çıxmır. Birgə şeirlər yazır, öz aramızda yarışma keçirir, mən də Xəlil Rza Ulutürkün şeirlərindən seçmələri Özbəkcəyə çevirirdim.

Vətənə döndükdən sonra etdiyim tərcümələri "Vətən məndən başlayır" adı altında nəşr etdirdim. Xəlil Rza Ulutürk bərk sevindi. Dedi ki, kitabım Amerikada, Böyük Britaniyada, Fransada, Almaniyada və b. Avropa ölkələrində yüz min tirajla nəşr edilsə idi, bu qədər sevinməzdim. O, türk xalqlarının şairlərinin şeirlərini çevirib Azərbaycanda çap etdirdiyi kimi istəyirdi Azərbaycan şairlərinin şeirləri də türk xalqlarının dillərində nəşr edilsin. Bunu xalqlarımızın yaxınlaşmasının başlanğıcı sayırdı.

Mehmet Akifin şeirlərini əzbər bilir və “İstıklal marşı”ndaki “Hangı çılğın bana zincir vuracakmış, şaşarım!” və ya “Şuühaeda fışkıracak toprağı sıksan, şuhada!” mısralarını coşğunluqla söyləyirdi. O zaman Mehmet Akifi mən yaxşı tanımırdım. Onu mənə sevdirən Xəlil Rza oldu. Sonra Türklərin o böyük marşını, himnini çeviripb, ilk olarak Özbəkistanda yayınlatdım.

Xəlil Rza milli ruhlu şeirlər oxuyanda mənim başımda tüklərim biz-biz durardı. Onun milli ruhuna, şeir oxumasına heyran qalardım. Biz özbəklərin Xəlil Rzası olmadığına görə içdən acıyardım. Özbəklərdə şeiri yüksək sənətkarlıqla yazan ustad şairlər vardı, amma millətin dərdinə Xəlil Rza kimi yanan yox idi. O, türklük, Türküstan düşüncəsini ortaya qoyan bir qəhrəman idi.

Mən Xəlil Rzanın Türküstan haqqında yazdığı şeirləri oxuyanda özbəklərin çoxu durub məclisdən qaçırdı. Hansı xalqın Xəlil Rzası olsa həmin xalq onunla fəxr edər, qürurlanardı. Çox səmini insan idi. Özbək şairlərinin əsərlərinin Azərbaycan türkcəsinə tərcümədə, özbək Azərbaycan ədəbi əlaqələrində Xəlil Rza qədər əməyi olan şairlər azdır. Buna görə də onu həm də özbək şairi sayıram və həm də özümü onun şagirdi bilirəm. Heyif ki, Özbəkistanda hələ Xəlil Rzanı layiqincə tanımırlar.

Xəlil Rza ilə Türkanda Əlişir Nəvai şeirləri çevirisini hazırladıkqdan sonra bir də Bakıya getməli

oldum. Çünki Özbəkistan mətbəələrində Azərbaycan türkcəsinin şirifləri yox idi. Tərcüməni mən Bakıda mətbəədə yığdırmalı, mətni falqaya köçürtdürüb Daşkəndə gətirməliydim ki, orada mətbəədə dazakıla köçürüb çap etsinlər. Bakıda "Gənclik" qəzetində Hidayət Orucov baş redaktor işləyirdi. O, Əlişir Nəvai şeirlərini mətbəədə Azərbaycan Türkcəsində yığdırıb, falqaya köçürtdürüb mənə verdi ki, Daşkəndə aparım. Həmin günlərdə ünlü şair Sabir Rüstəmxanlı ilə onun iş yerində tanış olduq. Aşıqlar Birliyinin sədri Hüseyn Arifl ə bir gün bərabər gəzdik, söhbət etdik. Mikayıl Mirzə ilə Azərbaycan Dövlət Dram Teatrında görüşdük. O, Cəfər Cabbarlının "Od gəlini" pyesində baş rolu – – Elxanı oynayırdı. İlahi, necə çılğınlıqla rola girmişdi. Elə bil Türk soylu, ərəb sərkərdəsinin özü idi.

Həmin günlərdə Türkiyədən Bakıya şair, albay Ahmet Er gelmişdi. O, Xəlil Rza, Mikayıl Mirzə, Ramiz Duygun və bəzi dostlarla Stepanakertə (Xankəndinə) getdik. Ermənilərərin qovğa çıxaran günləri idi. Biz də Azərbaycanlıların yaşadığı qışlaqlara-kəndlərə getdik. Mitinqlərdə erməni və rus zülmü əleyhinə şüarlar səsləndirilir, şeirlər oxunur, nitqlər söylənirdi. Azərbaycan radiosunda Xəlil Rza Azərbaycan, Ahmet Er Türkiyə, mən də Özbəkistan adından bütün Türk Dünyasına müraciət ettik.

Bakıda, Xəzər sahilindəki çoxminli mitinqlərə bərabər qatıldıq. Həyatımda böylə nümayiş, xalqın bu

qədər güclü bir qüvvə olduğunu heç görməmişdim. Çox həyacanlanmışdım, damarlarımdan elə bil yeni bir qüdrət qanı axırdı. O günlər ünlü bir romançı, yanılmıramsa, Fərman Kərimzadə vəfat etmişdi. (1989-cu il martın 18-i. – Ə.Ş.). Dostlarla birgə cənazə törəninə qatıldıq. Mədəniyyət Naziri Polad Bülbüloğlu, ünlü yazar Anar əkə, Türkiyəli qonaq Ahmet Er və başqaları yazarın məzarı başında nitq söylədilər.

… Qanlı günlər yaxınlaşırdı. Meydanlarda, sahildə tanklar, dəmir kaskalı, mavi gözlü əskərlər dolaşırdı. Vəziyyətin gündən-günə ağırlaşdığını gördüyümdən Daşkəndə döndüm.

Xəlil Rzaya bağlılığımı bir misalla sizə çatdırmaq istəyirəm. 1990-cı ildə, Sovetler Birliyi zamanında Özbəkisandan SSRİ Ali Sovetinin deputatı, şair Şükurullaha, ingiliscə, türkcə, farsca bilən, Əməkdar Mədəniyyət işçisi Camal Kamala, Adil Yakubova və mənə İstanbulda Əhəd Əndicanın rəhbərlik etdiyi Türküstan Yardımlaşma Dərnəyinin, Türküstanlılar Dərnəyinin təşkil etdiyi Milli Türküstan Qurultayına getməyimizə icazə verdilər. Qurultay bir neçə gün davam etdi. BBS-dən, “Amerikanın səsi”, “Azadlıq” radiolarından və Türkiyənin bir neçə televiziya kanalından, radiosundan müxbirlər gəlmişdi. Bunları ona görə təfsilatı ilə sayıram ki, Sovet hökuməti adlarını saydığım radioları düşmən sayırdı.



Şəkildə Akşeherde keçirilən konfransda iştirak edənlərin bir qrupu

Toplantıya Türkiyədən və xarici ölkələrdən millət vəkilləri, professorlar, siyasi xadimlər, dövlət adamları gəlmişdi. Toplantının sonunda Türk Araştırmaları Vakfının başkanı Turan Yazılan böyük bir qonaqlıq verdi. Yalan olmasın, qonaqlıqda 1000 nəfər olardı. Bilmirəm niyəsə təşkilatçılar mənim şeir oxumamı istədilər. Mən də onlara: "Özbəkistandan gələnlər arasında Şükrullah, Camal Kamal kimi usta şairlər var. Onlar olan yerdə mənim şeir oxumam yaxşı çıxmaz. Mən yaşda onlardan kiçiyəm və səsim də şeir oxumaq üçün münasib deyil" – – dedim. Bir az da rakı içmişdim deyə şeir oxumaq istəmirdim.

Nə isə… Məndən əl çəkmədilər. Görünür orada olduğumuz günlərdə etdiyimiz söhbətlərdən mənim

milli ruhlu olduğumu hiss etmişdilər. Yarı könül razılaşdım. Mən məclisin ruhuna uyğun olsun deyə nə öz şeirimi, nə də özbək şairlərinin şeirini oxudum. Xəlil Rza Ulutürkdən tərcümə etdiyim "Türk sözündən qorxan gədaya" şeirini oxudum. İnan, salon alqışdan uçmaq dərəcəsinə gəlmişdi. Alqış o qədər uzandı ki, daha mənim ikinci şeir deməyimə ehtiyac qalmadı.

"Məndə əgər nə qədər milli düşüncə varsa, onun toxumunu əkən Xəlil Rzadır", – dedim.

1990-cı ilin yanvarında Sovet əsgəri birlikləri Bakını qana boyadı. Yüzlərlə dinc insan öldürüldü və yaralandı. Həbs edilənlərin sayı haqqında bu gün də dəqiq bilgim yoxdur. Özbəkistan mətbuatı, radiosu və televiziyası da bu qanlı hadisələr haqqında geniş bilgi vermirdi. SSRİ-nın hər yerində olduğu kimi aşkarlıq, demokratiya şüarı səsləndirilsə də, aşkarlığın cücərtiləri gözə dəyirdi.

Xəlil Rza Ulutürkün həbs edilərək Moskvadakı Lefortova həbsxanasına aparılmasından neçə ay sonra xəbər tutdum. Nə gizlədim bir iş görə bilmədim. Onun həbs edilməsi haqqında Özbəkistan mətbuatında bir sətir belə çap etdirmək mümkün olmadı.

Azərbaycanda şair Ramiz Duyğun və aktyor Mikayıl Mirzə ilə əlaqə saxlayır, Xəlil Rza haqqında bilgiləri onlardan alırdım. İlin sonlarına yaxın eşitdim ki, Xəlil Rza Ulutürkü Bakıya gətiriblər.



Şəkildə: AMEA Folklor İnstitutunda. Soldan Akademik, AMEA Folklor İnstitutunun direktoru Muxtar Kazımoğlu, özbək araşdırıcısı və şairi Tahir Kahhar, AMEA Folklor İnstitutunun Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Əli Şamil. 2021-ci il, Bakı

Azərbaycan Ali Məhkəməsində vətənsevər şairi mühakimə edirlər. Mən özbəklər arasında nisbətən cəsarətli, millətpərvər şairlər, yazıçılar, qəzetçilərlə xeyli söhbət apardım, gördüm, onların Xəlil Rza Ulutürkə məhəbbəti böyük olsa da, içlərindəki qorxunu yenə bilməyiblər. Onları dilə tutdum, dedim: "Gəlin Azərbaycan Ali Məhkəməsinə özbək yazıçıları adından bir məktub göndərək. Xahiş edək, Xəlil Rza

Ulutürkə həbs cəzası verməsin". Söhbət etdiyim adamlar cəsarət etmirdilər. Mən onları ürəkləndirmək üçün dedim: "Biz məktubu Azərbaycana göndərəcəyik. Özbəkistanın rəhbərləri bundan xəbər tutmayacaq". Təklifim ağlabatan olduğundan razılaşdılar. Bir mətn hazırladım. Makinada 4 nüsxə yazdırdım. 17-18 nəfər qol çəkdi. Üç nüsxəsini Azərbaycana– Azərbaycan Ali Məhkəməsinə, "Ədəbiyyat və incəsənət" qəzetinə və Azərbaycan Yazıçılar Birliyinə göndərdim. Halbuki özbək yazıçıları öz yazarlarına bunu etməzdi. Özbəkistanlı bir yazıçının məhkəməsi olsaydı, onun üçün imza toplaya bilməzdim (gülür). "Ədəbiyyat və incəsənət" qəzetinə göndərdiyim müracətin önünə öz imzamla bir abzas əlavə etdim. (Qəzetdə çap olunan həmin yazını burada verməyi münasib bildim– Ə.Ş.):

Özbəkistan yazarlarının xahişi: Möhtərəm Nəriman Həsənzadə

"Şairə Azadlıq Komitəsi"nin yaradılmasını əks etdirən, şairimiz Xəlil Rzanın, alim qardaşımız Məhəmməd Hatəminin və Azərbaycanın fədakar oğullarının şərdən və böhtandan azad olunmasını, Bakıda Yanvar hadisələrinə dürüst qiymət verilməsini tələb edən məqalələri "Ədəbiyyat və incəsənət" qəzetində oxuyub xeyli razı qaldıq. Tanrıya min şükür ki, Türk millətləri öz yaxşı oğullarını qorumaq üçün ayağa qalxıblar. Bu mühüm işə qoşulduqları üçün bütün vətənsevər

yazıçılara, jurnalist və hüquqşünaslara redaktoru olduğunuz qəzet vasitəsilə dərin təşəkkürümüzü bildirməyi vacib sayıram.

Biz bir dəstə özbək yazıçıları, alim və jurnalistləri Bakı şəhər məhkəməsinin sədri İlqar Abbasova yoldaşa tələb məktubu yazmışıq. Bu məktubu qəzetinizdə çap edərsəniz, xeyli məmnun olarıq.

Ehtiram ilə: Tahir Kahhar, şair, "Şərq yıldızı", jurnalının şöbə müdiri Daşkənd, 2 noyabr 1990-cı il.

Baki şəhər məhkəməsinin sədri ilqar abbasov yoldaşa, Özbəkistan yaziçi, alim və jurnalistlərinin tələbi

Biz otuz ildən çoxdur ki, Xəlil Rzanı istedadlı şair və alim kimi tanıyırıq. Xəlil Rza Azərbaycanın və Özbəkistanın sevimli şairidir. Xalq tərəfindən sevilən alimi və tərcümanıdır. Otuz ildən çoxdur ki, o, Azərbaycan və özbək ədəbiyyatının yüksəlişi uğrunda, bu iki qardaş mədəniyyətin daha da yaxınlaşması və tərəqqisi uğrunda yorulmadan, cəsarətlə qələm çalır, külüng vurur. Onun Azərbaycan və özbək poeziya incəsənətini işıqlandırmaq, zənginləşdirmaək yolunda əvəzsiz xidmətlərini hər iki xalq gözəl bilir. Xəlil Rza öz şeir kitabları ilə Sovetlər Birliyindəki bütün cümhuriyyətlərinin (respublikalarının) milli ədəbiyyatlarından etdiyi saysız və coşğun ilhamlı

tərcümələri ilə, xalqlar qardaşlığını, xalqlar hüququnu, xalqlar şərəfini tədqiq edən əsərləri ilə SSRİ-də tanınan parlaq şəxsiyyətdir. Bizim Özbəkistanda dönə-dönə olmuş Xəlil Rza buraya sadəcə səyahətçi kimi gəlməmiş, ədəbiyyat və incəsənətimizin çoxəsrlik dərin qatlarını kəşf edən, mənimsəyən və geniş oxucu kütləsinə çatdıran sənət sərrafı, bilici ustad kimi boy göstərmişdir. Əlişir Nəvai, Maqsud Şeyxzadə kimi böyük sənətkarların, alimlərin yubileylərində, Azərbaycan və Özbək mədəniyyət həftəliklərində, dürlü elmi sessiyalarda Xəlil Rzanın hər nitqi uca söz kürsüsündən əzəmətlə səslənmiş, ürəklərə və idraklara şölə salmışdır. Xalqımız onun müdrik sözlərini həmişə böyük məhəbbətlə alqışlamaqdadır.

Biz Azərbaycanın Xəlil Rza kimi şair və alimləri, cəsur, xalqsevər, insansevər, sadiq övladlarının varlığı ilə həmişə fəxr etmişik, öyünmüşük. Daimi arzulamışıq ki, Xəlil Rza kimi parlaq şəxsiyyətlərin sayı Azərbaycanda, Özbəkistanda, bütün məmləkətlərdə çoxalsın, artsın.

Hörmətli İlqar Abbasov! Biz Xəlil Rzaya qarşı tuşlanmış ittiham və böhtanlara zərrə qədər də inanmırıq. Çünki bütün ömrünü, yaradıcılığını öz xalqına, başqa xalqlara həsr etmiş Xəlil Rza candan bağlandığı bəşəriyyətə zidd addım ata bilməz, əksinə, onun hər bir addımı insanlığın tərəqqisi uğrunda böyük mübarizə yollarında vüqarla səslənir. Onun ildırım kəsərli qələmindən çıxmış "Qardaşlıq

çələngi", "Dünyaya pəncərə" kimi sanballı kitabları, dünya xalqlarına məxsus beş yüzdən çox klassikdən və çağdaş şairdən etdiyi tərcümələr, fədəkar zəhməti, poeziya qəhrəmanlığı bunu bir daha təsdiqləyir. Biz Xəlil Rzaya ədalətlə yanaşılmasını, onun adının da, yaradıcılığının da hər cür ləkədən, böhtandan təmizlənməsini Sizdən, haqq məhkəməsindən tələb edirik!

Cümhuriyyətlərin (respublikaların), məmləkətlərin azadlığı, müstəqilliyə can atmağı, tarixin yeni bir mərhələsinə qədəm qoyduğu çağlarda Xəlil Rza kimi şəxsiyyətlərin, sənətkarların Vətən və xalq üçün hava və su təkin zəruri olması Sizə və bizə yaxşı bəllidir. Bu cür kişiləri qorumaq borcunuz və borcumuzdur.

Daşkənd 1 noyabr 1990. İmzalar: Tahir Kahhar, İkram Atamuradov, Artıq Abdulla, Müzəffər Əhməd, Ömərqul Pulkan, İnabət Narmurad, İsacan Sultan, Yusif Abdulla, Tursun İbrahim, Əsəd Əsil, Əhməd Taşxoca, Məhəmməd Rəhman, A. Möhkəm, Ənvər Abidcan, Müzəffər Mirzəcan, Çari Əvəz, Əzən Ötkəm, Rövşən Feyzi, Rauf Sübhan, T. Ədhəm, Yaqubcan Xocamberdi, Aşurəli Çürə, Camaləddin Səfa, Fəxrəddin Xudaqulov, Nəbican baqi.

Mətin Firəngiz xanım Ulutürkün "Xəlil Rza. Kədərimlə qol boyun" kitabından alınmşdır. Kitab Bakıda 1998-ci ildə "Qorqud" nəşriyyatında çap olunmuşdur. Kitab 220 səhifədir. (Sitat 104-106-cı səhifədədir.)

Məktubumuzun “Ədəbiyyat və incəsənət” qəzetində çap olunduğu xəbəri Daşkəndə çatdı. İmza atanlardan bir neçəsi imzasını dandı. İllər keçəndən sonra məktuba imza atanlar qürurlanmağa başladılar. İmzasını dananlar özlərinin təşkilatçı olduğunu söyləməyə başladılar. Dünyanın işi bax belədir, qardaşım! Əslində bu Xəlil Rzanın özünün əldə etdiyi hörmətin nəticəsiydi. Hətta onu azadlığa burax-masalar da, biz bir qardaş kimi əlimizdən gələni əsirgəmədik.

Xəlil Rzanın şeirləri özbək mətbuatında, qəzet və jurnallarında, şeir toplularında çox çap olundu. Arzu edirdi, Özbəkistan üçün hazırladığı şeirlər kitabı da nəşr edilsin. Amma ömür buna imkan vermədi.

Tərcüməçilərdən Heydər Münhacidin və Rəzzaq Əbdürəşid Xəlil Rza il birlikdə Moskvada Ədəbiyyat İnstitutunda oxumuşdular. Bərk dost idilər. Xəlil Rzadan da xeyli tərcümələri var. Rəzzaq Əbdürəşidin Səməd Vurğundan gözəl tərcümələri var. Üç-dörd dəfə kitabını yayınlatdı. Səməd Vurğunun “Əgər səndən dönər qılsam nəsibim ahu-zar olsun” başlıqlı şerini onun qədər gözəl tərcümə edən yoxdur. Toylarda, məclislərdə özbək şeiri kimi oxuyurlar.

1988-ci ilin noyabrında keçirilən mitinqlər özgə bir aləm idi. Mənə həyat dərsi verdi o mitinqlər. Qorxunu içimdən çıxartdı, cəsarət iksiri oldu. 15 gün Bakıda həm mitinqlərə qatıldım, həm də Xəlil Rza, Mikayıl Mirzə, Ramiz Duyğunla birgə salonlarda şeir oxuduq. Nə möhtəşəm salonlar idi. Sumqayıtdakı bir

görüşü heç vaxt unutmayacam. İnanmıram ki, dünyanın harasındasa şairlərin şeir deməsini elə çılğınlıqla qarşılayalar.

Türkiyədən Əhməd Ər deyə bir milliyyətçi şair gəlmişdi Bakıya. O da bizə qatıldı. Azərbaycan radiosundan bütün dünya türklərinə dəvət sözlərini etdik o zaman. O zaman böyle, bir zaman idi. Rus hərbiçiləri meydandakı adamları zor gücüylə dağıtdıqdan sonra mən Daşkəndə döndüm.

– Daşkəndə döndünüz, yoxsa Sovet hərbiçilərinin qəddarlığını görüb qaçdınız?

– (Gülür) Bəlkə də. Amma meydandakı insanların coşğunluğu mənim içimdən qorxunu çıxarmışdı. Getsəm yaxşı idi, çünki 15 günlük ezamiyyət müddətim zatən bitmişdi.

– Tahir bəy, Sovet dövründə bizlər hökumət orqanlarının təşkil etdiyi, yüz olçülüb, bir biçilmiş mintinqlər və yürüşlər görmüşdük. Xarici ölkələrdə isə hökumətinin icazəsi olmadan, ayrı-ayrı insan qrupunun, təşkilatların təşəbbüsü ilə keçirilən, polisin dağıtmaq istədiyi, iştirakçıları döydüyü, həbs etdiyi mitinqləri televiziyalarda görmüşdük, haqlarında qəzet və jurnallarda oxumuşduq. Gəldin Bakıya. Sovetlərin əyalət şəhərində qarmaqarışıqlıq, yüz minlərlə insanın meydana yığılmasını, fərqli fikirlər söyləməsini, şüarlar səsləndirmələrini gördün. Salonlardakı toplantılarda siz şeir oxuyanda yerlərdən səsləndirilən antisovet şüarları eşitdiniz. Şəhərin mərkəzi meydanında Sovet hərbiçilərinin dinc mitinq

iştirakçılarını dağıtdıqlarının şahidi oldununz. Geri dönəndən sonra dost-tanışa gördükləriniz haqqında nələri dediniz?

–Bakıya gələndə bir beynəlmiləlçi idim. Burada gördüm meydanda gecə və gündüz 100 minlərlə insan toplaşıb. Natiqlər bütün gün boyu danışır, fərqli insanların söylədiyi fikirlər də eyni deyildi. Amma bir məsələ eyni olaraq qalırdı: Bu da meydandakı yüz minlərlə insanın günlər keçdikcə azalmaması, yerlərdən onlara ərzaq və maddi yardım göndərilməsi idi. Elə meydanın kənarındaca qoyunlar kəsilir, kabab bişirilirdi. Gecələr onlarla tonqal qalanırdı. Adamlar soyuqdan qorunmaq üçün tonqal başına toplaşır, bir-biri ilə tanış olur, dərdləşir, gecəni yuxusuz keçirirdilər.

Mitinqə ilk qatıldığım günlər gözlərimdən yaşlar axırdı. Həyəcanlanırdım. Demək, belə də ola bilərmiş, – deyə düşünürdüm. Mitinqlərin birində Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhmən Vəzirovu təhdit etdilər və onun yardımçısına söz verdilər. O, mikrafon arxasına keçib yenicə danışmağa başlamışdı birisi gəldi: "Belə xeyirsizə söz verilməsin!" – – deyib mikrofonu dartıb onun əlindən aldı. Rəhbər işçiyə qarşı ilk dəfə tərbiyəsizlik edildiyini görüb təəccübləndim. Amma zaman başqa bir zaman, insanların həddini aşdığı zaman idi. Mən iştirak etdiyim bir mitinqdə Xəlil Rzaya söz verdilər. O, müdhiş bir nitq söylədi. "Bu günlərdə Moskva Yerevanı ayaqlar altında çığnayır", – – dedikdə bütün

meydan haykırdı. Onun “Vəzirov xain!” (Söhbət o zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birici katibi olan Əbdürrəhman Vəzirovdan gedir. – – Ə.Ş.) haykırtısı hələ də qulaqlarımdadır. Bax buna görə deyirəm, Özbəklərin bir Xəlil Rzası olsaydı….

Sonra anladım ki, köləlik zəncirindən, uzun illərin basqısından ancaq belə sərt hərəkətlərlə qurtarmaq olar. Başqa bir yol yoxdu hər halda. Sonra bir yerdə mən Xəlil Rzanın natiqliyini görsəm də, o meydanda söz deyəndə bütün meydan sakitləşdi. Xəlil Rza öz xalqının istədiyi sözü deyə bilən bir şair idi. Xalqın istədiyi sözü səmimi dediyi üçün xalq o sözün dalınca gedirdi.

Azərbaycanda 15 gündə gördüklərim, eşitdiklərim haqqında Özbəkistanda danışanda dinləyənlər heyran olur, gözləri bərəli qalırdı. Canıyananlıq göstərərək məsləhət görürdülər ki, belə söhbətləri heç yerdə danışmayım. Canıyananlıq edənləri eşitmədim, gördüklərimi danışmaqla kifayətlənmədim. Azərbaycanda gördüklərim haqqında bir neçə məqalələr yazdım. Amma qəzet, jurnal redaktorları mənim yazılarıma qarşı ədəbsizlik elədilər. Yazılarımın ciddi hissələrini mətndən çıxarıb çap elədilər.

Məsələn, telefonun batareyası zəifləyəndə onu toka qoyursan enerji yığandan sonra azacıq işləyir. Mən də telefon kimiydim, ruhi akkumlyatorum Xəlil Rza oldu. Xəlil Rzanın səmimi dostları vardı– –

Ramiz Duyğun, Sabir Rüstəmxanlı və b. Sabir Rüstəmxanlının meydandakı cəsarətli çıxışlarını dinlədim. Maraqlı söhbətlərimiz oldu. Onun danışıqları məndə türklük ruhunu gücləndirdi.

– Tahir bəy, son dövrlər nə üzərində işləyirsən, nə yazırsan, nə pozursan?

– Sonuncu şeir kitabım 1990-cı ildə çıxdı. Sonra bir cildliyimi hazırlayıb nəşriyyata verdim. Nəşriyyatın rəyçilərindən keçdi, senzordan keçmədi. Senzorla mubahisələrimiz uzandı. Sovetlər Birliyi dağıldı, senzorda bir yumşalma əmələ gəldi. Kitab senzordan keçəndən sonra nəşriyyatlara hökumət əvvəlki kimi pul ayırmadı. Sovet dövründə kitabı plana saldırmaq, rəy almaq, senzordan keçirmək 5-10 il vaxt aparırdı. İndi o əngəllər aradan qalxıb, pulsuzluq əngəli başlayıb.

1990-cı ildən başlayaraq Türküstan mövzusunda məqalələr yazmağa başladım. Üç-dörd ilə Buxara Milli Hökuməti, Kokand Muxtariyyatı, Mustafa Çokay, Buxara Milli Hökumətinin rəhbərləri Usman (Osman) xoca, Polat xoca, Temir xoca, cədidçilərin rəhbəri Münəvvər qarı, basmaçılar, yəni korbaşlar Tahir Çığatay, Zəki Vəlidi Toğan, Baymirzə Hayıt, Ziyaeddin Babakurban, Ahat Andican ve Türkiyedeki Türküstanlılar haqqında yazdıqlarım Özbəkistanda səs saldı. O məqalə "Hür Türküstan için" adı altında çap olundu. Uzun illər yasaq olunmuş mövzulardakı yazılarım yaxın tariximizə işıq saldı. Osman xocanın Türkiyədə, Mustafa Çokayın Almaniyada nəşr etdiyi

“Yeni Türkistan”, “Yaş (Genç) Türkistan” jurnalları haqqında geniş tədqiqatlar apardım. Bir zaman mənim yazdıqlarımı oxumağa qorxanlar 20-30 yıl sonra yavaş-yavaş mühacirətimizin araşdırıcısına çevrildilər. (Gülür). Dünyanın işi belədir.

Türküstanın məşhur şairlərinnin çoxu İstanbulda oxuyub, Fuat Köprülüdən, hətta Ziya Göyalpdan dərs alıblar. Onların ömür yolu və yaradıcılığını öyrənib yazdığım kitab 1994-cü ildə 30 min tirajla nəşr edildi. Kitab “İlin ən yaxşı kitabı” mükafatına layiq görüldü. 1997-ci ildə Memmed Emin Yurdakulun şeirlərini nəşr etdirdim. Ziya Gökalpın şeir və dastanlarını özbəkcəyə çevirib qəzet və jurnallarda nəşr etdirdim.

1991-ci ildən başlayıb bu günə qədər, yəni 9 ilə yazdım, “Türküstan ədəbiyyatı antologiyası” Türkiyədə 3 cilddə çap olundu. Türkiyəyə dəvət olundum. Ortaq Türk Tarixi dərsliyinin hazırlanmasında iştirak etdim. “Çağdaş Özbək şairləri” adlı bir kitabım çıxdı Türkiyədə. Türkiyə şairlərinin, romancılarının əsərlərini özbəkcəyə çevirib nəşr etdirdim. Saymaqla bitən deyil. Bu iş sənlik mənlik deyil. Tahir Kahhar yaradıcılığını öyrənənlərin işidir. Bunun üçün bir neçə dil bilən 4-5 araşdırıcı gərəkdir ki, doktora yazsın. (Gülür).

–Allaha çox şükür ki, sizin tərcümələrinizə, milli ruhlu əsərlərinizə senzor daha əngəl olmur. Bəs oxucu necə, yazdıqlarınızı oxuyan, fikir bildirən varmı, yoxsa hələ Sovet dövrünün qorxusu canlarından çıxmayıb? Milli şüurun oyanmasına bu kitabların və

məqalələrin təsirini hiss edirsinizmi? Axı hakimiyyətdəkilər hələ də milli şüurun oyanmasından qorxur, onu əngəlləməyə çalışır.

– Hakimiyyətdəkilər onları açıq tənqiddən qorxur. Mənim yazdıqlarım keçmişdir. Tarihi veə klassik ədəbi, elmi əsərlərdir. Sadəcə çevirilərdir. Bu yazılar onların vəzifələrini itirmələrinə təsir etməz.

Millət bir ağacdır, onun hər dəm sulanması lazım, yəni millətin mənəvi ağacının yarpaqlanıb meyvə verməsi üçün hər daim mənəvi su gərəkdir. Mənə görə, Türküstan düşüncəsi bu günkü Türküstanlıların, özbəklərin, qazaxların, qırğızların, türkmənlərin, uyğurların hamısının milli ruhunun kaynağı, mənəvi suyu Türküstandır. Çünki əski zamanda Türküstan xanlıqları var idi. Tarixdə Türküstan deyilən bir dövlətə rast gəlmədim. Bura türk xalqlarının yaşadığı bir coğrafiyanın adıdır, Hindistan kimi Türküstan deyilirdi. Onu Rusiya 1920-ci illərdə beş respublikaya parçaladı. Amma Türküstan vayenni Okruqu, Türküstan Dəmiryolu deməyi dəyişə bilmədi.

Sovetlər Birliyinin çöküşündən sonra yenidən Türküstan sözü gündəmə gəldi. Hazırda Türküstan Cümhuriyətləri sözünə qəzet-jurnallarda tez-tez rast gəlmək olur. Radio-televiziyadan, siyasilərin dilindən də bu sözü eşitmək olur. Turan adlı dövlət də, inzibati bölgü də yoxdur. Turan sözününü də əsasən alimlər, araşdırıcılar, aydınlar işlədir.

Bir zamanlar Mavəraünnəhr, iki dərya arasında məmləkət dedi ərəblər bu yerlərə. Hanı, indi deyən

varmı? Türküstandan, türk birliyindən qorxanlar Sredni Asiya dedi bu yerlərə. Biz də onu Orta Asiya kimi tərcümə etdik. Çox çəkməz ki, bu termin də Mavərənnəhr Mavəraünnəhr kimi arxaikləşəcək. Türküstan Birliyi qurulacaq. Bu, zamanın hökmüdür.

Taciklər xarici güclərin təsiri ilə hələ ki, belə bir birliyi istəmirlər. Taciklər Türküstan teritoriyasında yaşayırlar. Tacik qardaşlarımız, Türküstanın suyunu içirlər, meyvəsini yeyirlər, Türküstanda yaşayırlar.

Türküstan haqqında şeirlərimi insanlar oxuduqda hər halda duyğularına təsir edəcək. Duyğu da ağlı yönləndirəcək.

Türküstanı düşünən, sevən adam istər qazax olsun, istər qırğız, türkmən, uyğur, tacik olsun, hiç zaman bir-birinə yamanlıq etməz. Çünki vətəninin bir olduğunu düşünər. Bir-birilə qardaş kimi yaşayar, bir-birilə heç zaman vuruşmaz. Bu yaxşı düşüncədir, bunu, məncə, yaymamız gərək. Əgər Turan düşüncəsi də yayılsa, heç vaxt özbəklər, qazaxlar, türkmənlər, tatarlar, azərbaycanlılar, qafqazlı türklər bir-birlərinə düşmən kəsilməz. Əslində, bu düşüncələr bizi birləşdiricidir.

Ancaq sömürgəçilər bunu istəmir. Pantürkizm, panturanizm adı altında bizlərə nifrət hissi təbliğ edir, bizim hər zaman bir-birimizlə vuruşmamızı, bir-birimizin ətini yeməyimizi istəyirlər. Mən Azərbaycan mədəniyyətini öyrənsəm, sən özbək mədəniyyətini öyrənsən biz bir-birimizlə şirin söhbətlər edərik. Bu gün azərbaycan xalqı da, özbək

xalqı da mürəkkəb bir dövrdən keçir. Hər iki xalq çox səbrlidir, zəhmətkeşdir və əskidən qalma bir dil, mədəniyyət birliyi var.

Bizi sömürgəcilər ayırmağa çalışsalar da, aydınlarımız buna imkan vermirlər. 1920-ci illərdə Türküstandan nə qədər gəncimiz, xüsusən teatr arktyorları, rejissorlar, qəzetçilər gəlib Bakıda oxudu. Səmərqənddə çapa hazırlanan jurnallar, kitablar Bakıdakı mətbəələrdə çap olunub, Özbəkistana göndərilirdi. Bu gün də Özbəkistan toylarında müğənnilər böyük həvəslə Azərbaycan mahnıları oxuyur. Dinləyənlərin çoxu bilmir ki, bu, müəllifi bəlli olan Azərbaycan mahnısıdır, elə bilirlər özbək mahnısıdır.



Şəkildə Akşeherde simpozium iştirakçıları fasilədə

Xalid Səid Xocayev milliyətcə özbək olsa da, onu Azərbaycanda özbəklərdən yaxşı tanıdıqları kimi, milliyətcə Azərbaycan türkü olan Maqsud Şeyxzadəni də Özbəkistanda Azərbaycanlılardan yaxşı tanıyırlar. Belə yaradıcı aydınlarımızın sayının çox olmasına çalışmalıyıq. Ədəbiyyat, mədəniyyət adamlarının gedi-gəlişi nə qədər çox olsa, xalqlarımız arasında münasibətlər də o qədər yaxşılaşar. Xalqlarımız arasında birlik möhkəm olsa, hökumət rəhbərləri də hakimiyyətlərini qorumaq üçün bu birliyə xidmət edər. Bizim bu söhbətlərimiz də, toplantılarda iştirak etməmiz də, bir-birimizin əsərlərini oxumamız da, bir-birimizə yaradıcılıqda kömək etməmiz də, lap yeyib-içməmiz də xalqlarımızın birliyinə xidmət edir.

Bu gün Kıbrısda bu gözəl salondan Azərbaycana hörmətlərimi, məhəbbətimi sizin vasitənizlə göndərirəm. Sağ olun.

–Siz də sağ olun və mənim salamlarımı da özbək xalqına yazılarınızla, şeirlərinizlə çatdırın.

Tahir Kahhardan aldığım bu müsahibədən istifadə edib Azərbaycan radiosunun "Qonaq eldən gələr" proqramında iki veriliş hazırladım. Həmin verilişlər 2001-ci il iyulun 11-də və avqustun 15-də efirə getdi. Verilişləri dinləyən, münasibət bildirən olub olmadığından xəbər tuta bilmədim. Amma onu bildim ki, radioda işləyənlərin bir neçəsinin xahişilə Tahir Kahharla sonralar görüşəndə müsahibələr aldım. Aldığım müsahibələrdən onlar verilişlərində istifadə etsələr də, lentləri mənə qaytarmadılar.

Tahir Kahhar bir məktubunda yazırdı: “Muhtaram Ali şamil bey, nasılsın? Azerbaycana selamlar. Yaklaşmakta olan Yeni yılın, Nevruz bayramın kutlu olsun. Bana gönderildiği kitabı inceledim. Proje olarak fena değil. Ancak bu durumda birçok eksikliğin olduğunu düşünüyorum. "Türk Halklarının ünlüleri" ansiklopedisi olarak bu proje çoğunlukla Azerbaycan'ın ünlü isimleriyle doludur. Diğer Türk milletlerinin ünlülerinin yüzde onu bile bu projeye dahil edilmemiştir.

Ne yapalım? Bana göre her bir Türk devletlerinin evvelden yayınlanmış eski ansiklopedilerinden faydalanarak, her ülkenin uzmanları tarafından bu projeye eklemeler yaparak hazırlanması gerekir. Çünkü bu projede görebileceğiniz gibi Azerbaycandan başka halklardan, yani Özbek, Kazak, Tatar, Kırgız, Türkmen, Uygurlardan örnekler az alınmış ve ayrım yanlışlıkları da var. En iyi şekilde o ülkelerin uzmanları yapabilir. Bu nedenle bir yazı işleri bürosunu, bilim kurulunu kurmak, ülkelerdaki temsilcilerini seçmek, danışmak ve tavsiyelerde bulunmak gerekiyor. Alındığı kararlara göre çalışılırsa, işe yarayacaktır. Bu projedeki doğruyu ve yanlışı işaretledim. Bir bakacaksınız. Bana göre, eski Sovyet rejiminin resmi ansiklopedilerinde adı geçen, Komünist Partisi Merkez Komitesi sekreterleri, önde gelen komünistler o rejimin ünlü kişileriydi. Daha ziyade halkın kahramanlarını ve ünlü tarihi şahslarını, bilim ve din kişilerini, yani sanatçıları, kültürel

figürleri, yazar ve şairleri, çevirmenleri seçmekle ünlüler listesini sınırlamak gerekir. Bu projede emeği geçenlere güç ve başarılar diliyorum. Bey Ali Şamil, sağ olun. Tüm arkadaşlara selamlar. Saygılarımla Tahir Kahhar.

(Ali Şamil bey, kusura bakmayacaksın, bu mektubun verileceği Kulu Kangarlı bey eski yaşadığı yerden taşınmıştır. Telefonunu bulamadım. Bu mektubu ve kitabı aldıktan sonra bana bildir ve Kulu'nun adresini de. Sağ ol.)

28. 02. 2001”

Tahir Kahharın iradları doğru idi. Həmin günlərdə biz, necə deyərlər, şapalaqla üz qızartmaq istıyirdik. Normal bir ensiklopediya heyəti qurmaq üçün maddi vəsait yox idi. Biz sadəcə könüllülük prisipi əsasında belə bir ensiklopediya yaratmaq istəyirdik.

Tahir Kahharla Quzey Kıbrısın Gazimoğosa, Lefkoşa, Türkiyənin Ankara, Akşəhər, Aksaray şəhərlərindəki toplantılarda etdiyimiz söhbətləri lentə alıb yazıya köçürsəydik, bir kitab alınardı. Bu kitabda oxucu Doğu Türküstanın, Batı Türküstanın, Güney Türküstanın, Quzey Türküstanın sərhədləri mövzusunda müzakirələrlə, 1918-ci ildən başlayan bolşevik repressiyasında məhv edilən türk aydınları haqqında ensiklopediyalarda və kitablarda rastlaşmadığı faktlarla, Azərbaycan-Özbəkistan arasındakı mədəni, elmi əlaqələr tarixinə dair bilgilərlə rastlaşardı.

Tahir Kahharla internet yazışmalarımız, telefon söhbətlərimiz, qatılacağımız simpoziumlar üşün yazdığımız məruzələrdə bir-birimizə verdiyimiz məsləhətlərdən də oxunaqlı bir kitab hazırlamaq olardı.

Daşkəndə gedəndə mütləq onu görər, qonağı olardım. Azərbaycan sevdalısı şair və yazıçıları bir yerə toplayar, maraqlı söhbətlər edərdik. Milli ruhlu açıq söhbətlərimizdən çəkinənləri lağa qoymaqdan heç vaxt çəkinməzdi. Milliyətcə özbək olan, Azərbaycanda yaşayarkən «Divan-i luğet-i it Türkü" ilk dəfə dilimizə çevirən, "Özbək, qazax, türk dillərinin müqayisəli sərfi", "Üslubiyyat" və b. kitabları yazan Xalid Səid Xocayev haqqında material toplamama yardımcı olardı. Hətta mənim təşviqimlə Xalid Səid Xocayevin "Türküstan sədası" qəzetində çap etdirdiyi məqalələrini toplayıb araşdırdı. Yazdığı məqaləni Özbəkistanda və Türkiyədə çap etdirdi. Mən Daşkənddə olarkən bizə bələdçilik edib Xalid Səid Xocayevin doğulduğu Koşkurqan kəndinə aparıb qohumları ilə görüşdürdü.

Azərbaycan Radiosu ilə TRT-nin birgə layihəsi olan "Türk dünyasının məşhurları" proqramında Özbək aydınları haqqında verilişlər hazırlayanda Tahir Kahhar dadıma çatırdı.

Azərbaycan yazıçı və şairlərinin əsərlərini özbək türkcəsinə çevirib Daşkənddə nəşr etdirən Tahir Kahhar Bakıda da kitabının çapını çox arzulayır. AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı Təranə Əzim onun şeirlərini dilimizə uyğunlaşdıraraq kitab

halına saldı. Heyif ki, maddi imkanımız olmadığına görə o kitabı nəşr etdirib oxuculara çatdıra bilmədik.

Tahir Kahharla sonuncu dəfə Bakıda görüşdük. İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Özbəkistandakı Azərbaycan Mədəniyyət Mərkəzi gözəl bir layihə həyata keçirmişdi. Mərkəz Azərbaycan ədəbiyyyatının bilicisi, özünü "Füzuli ədəbi məktəbinin şagirdi" adlandıran, filologiya elmləri namizədi, dosent Tahir Kahharı İmadəddin Nəsiminin əsərlərindən seçmələrin özbək türkcəsinə çevrilməsinə cəlb etmişdir. O, böyük həvəslə və yüksək sənətkarlıqla bu işin öhdəsindən gəlmişdi.

"Kaspi" qəzeti, "Kaspi" Təhsil Şirkəti və Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə 2019-cu il martın 28-də Beynəlxalq Mətbuat Mərkəzində "İmadəddin Nəsimi və Özbək ədəbiyyatı" adlı konfransa Tahir Kahhar da dəvət edilmişdi. O, toplantıda gördüyü işlərdən danışmışdır. Tərcüməçiyə ehtiyac qalmamışdı. Salondakılar onun çıxışını başa düşürdülər.

Tahir Kahharla birlikdə Bakını gəzdik, Azərbaycanda folklorun toplanması, nəşri, təbliği, tərcüməsi və yayılması ilə bağlı bilgi almaq üçün AMEA Folklor İnstitutuna da gəldi. Onun Azərbaycan folklorçuları ilə söhbəti də maraqla qarşılandı.

Bakıdan dönəndən sonra dəfələrlə zəng vurub ailəliklə Özbəkistana dəvət etdi. Şəhərdən kənarda bağ evi tikdirdiyini söyləyirdi. Orada qalmamızı, yaradıcılıq söhbətləri etməmizi, ailəliklə onun

maşınında Səmərqəndi, Buxaranı, Xivəni, Fərqanə vadisini gəzməyi təklif edirdi. Onun təklifi ürəyimdən olsa da, təyyarə biletlərinin bahalığı Özbəkistana öz pulumla getməyimi əngəlləyirdi.

Tahir Kahhar basmacı hərəkətinə böyük marağım olduğunu bildiyindən hər dəfə deyirdi: "Səni basmacıların bolşeviklərin nizami hərbi dəstələrini darmadağın etdikləri yerlərə aparacam. Lakayların xatirələrini dinləyəcəksən". Hər dəfə onu ümidləndirirəm ki, çalışacam bu payız gəlim. Amma sözümə əməl edə bilmirəm. Yaş və xəstəliklər də öz işini görür. Uzaq səfərlərə çıxmağım çətinləşir.

Onu düşünürəm ki, bəlkə Özbəkistan haqqında yazdıqlarımı bir yerə toplayıb kitab halında nəşr etdirim. Bu mənim Tahir Kahhara və Özbək xalqına hədiyyəm olar.

... P.S. 2024-cü ilin avqustun 23-də DHaşkəndə Tahir Kahhara zəng vurmuşdum. Həmişəki kimi hayküylü danışmadı. Səbəbini soruşduqda "Xatunumu dəfn edib gəldik", – dedi. Çox üzüldüm. Çünki Etibar xanım sadəcə Tahir Kahharın günlərdlə evdə olmamasına, xəbərsiz evə qonaq gətirməsinə, qadınlarla haqqında olan söz-söhbətə dözməklə kifayətlənməmiş, ona və balalarına sədaqətlə qulluq etməmişdi. Tahirin yazıb-yaratması üçün çox çətinliklərə sinə gərmişdi. Ruhu şad olsun. Allah rəhmət eləsin.

TÜRK DÜNYASININ MƏŞHURLARI

Sovtlər Birliyi zamanı Azərbaycanda radi və televiziya ötürücülərinin gücü çox zəif idi. SSRİ dağılanda respublikanın iqtisadi durumu ağırlaşdığına görə ötürücülər yeniləyə bilmədilər. Buna görə verlişləri Azərbaycanın bölgələrində dinləmək, baxmaq çətin olurdu. Türkiyə ilə Azərbaycan arasındakı mədəni, texniki əlaqələrin güclənməsi radio yayınlarına da öz təsirini göstərdi. 2009-cu ildə TRT və Azərbaycandakı İctimai Radiomarasında "Qorqud Ata" adlı birgə proqram hazırlanası haqqında müqailə bağlandı. 2010-cü ilin yanvarından hər gün Bakı vaxtı ilə saat 12.00-da efirə çıxan və bir saat davam edən "Qorqud Ata" proqramının verlişləri Türkiyədənin ötürücülərinin sayəsində dünyanın hər yerinə yayılırdı.

TRT-nin əməkdaşı, "Qorqud Ata" proqramının ideya müəllifi və reallaşması üçün çox zəhmət çəkmiş Seyfəddin Altaylı mənə həftədə bir dəfə 10 dəqiqəlik verliş hazırlamağı təklif etdi. Birgə proqramın layihəsinin hazırlanmasında daim Seyfəddin Altaylının yanında olduğumdan onun təklifini böyük həvəslə qəbul etdim. Hazırlayacağım verlişlər Türk xalqlarının vətənsevər, mübariz, xalqının xoşbəxt gələcəyi naminə həyatını qurban verməkdən çəkinməyən insanlar haqqında olmalı idi. Pproqrama ad seçməkdə xeyli müzakirə etməli olduq.

Seyfəddin Altaylı proqrama “Türk dünyasının məşhurları” adını təklif etdi. Ad, məncə, hazırlayacağım verlişlərə uyğun deyildi. Haqqında söhbət açacağım insanların çoxu istər Azərbaycan, istərsə də Türkiyə dinləyicisinə tanış deyildi. Məntiqlə onlar məşhur deyildi. Seyfəddin Altaylı isə “Vətən və millət üçün ömür xərcləmiş, həyatlarını qurban vermiş insanların adının çəkilməsini hakim rejimlər qadağan etmişdir. Biz onları tanıtmaqla məşhur olduğunu dinləyicilərimizə isbatlayacağıq” dedi. Onun fikri ilə razılaşmalı oldum

Uzun illər radio üçün verlişlər hazırladığımdan dinləyiçilərinin istəklərini, radio verlişlərinini dil üslubunu bilirdim. Bir-iki diqqət çəkən faktdan istifadə edib axıçı, şirin bir dillə dinləyicinin qəlbinə yol tapmalı, kövrək hisslərini oyandırmalıydım. Amma haqqında söhbət açacağım insanlar haqqında dinləyicilərin əksəriyyətinin bilgisi yox idi. O zaman internet saytlarında da həmin şəxslar haqqında bilgiyə rast gəlmək olmurdu. Bunları nəzərə alaraq radio verlişini enskilopedik məqalələr formatında hazırlamağı qərara aldım. Bunu Seyfəddin Altaylı və radionun rəhbərliyi də bəyəndi.

Beləcə, 2010-2014-cü illərdə qarşıya çıxan çətinlikləri Seyfəddin Altaylı birgə “savaşa-savaşa” aradan qaldıraraq hazırladığım 210 verli efirdə səsləndirildi. Verlişlər TRT-nin saytında səsli və mətin formasında yerləşdirildi.

Mən mətinləri ali-shamil.tr.gg saytında yerləşdirdim ki, oxucu əziyyət çəkmədən həmin insanlar haqqında asanlıqla bilgi əldə edə bilsin. Saytda yerləşdirərkən haqqında söz açdığım insanların adlarını ərəb əlifbası ilə və mənsub olduqları xalqların istifadə etdikləri əlifba ilə verdim. İstədim internetdə axtarış verənlər söhbət açdığım insanlar haqqında bilgiyə asan çatsınlar. Verlişlərin mətinlərini kitaba daxil edəndə də həmin qaydaya əməl etdim.

Kitab üçün məqalələri seçərkən bir problemlə raslaşdım Yusif Qarabağı, Seyid Rza Əlizadə, Maqsud Şeyxzadə Azərbaycanda doğulsalar da, Özbəkistanda yaşayıblar, əsərlərinin əksəriyyəti də oradadır. Xalid Səid Xocayev Özbəkistanda doğulsa da, məhsuldar yaradıcılıq illərində Azərbaycanda yaşayıb. Əhməd Yəsəvinin məzarı bu günkü Qazağıstan Respublikasında olsa da şeirlərinin dili qarluq ləhcəsindədir. Şevki Bektörə indiki Ruminyanın Tatarlar yaşayan bölgəsi-Dobrucada doğulsa da, Türkiyədə, Kırımda, Dağıstanda, Türkmənistanda yaşayıb. Abdurreshid İbrahimin atası Özbək anası Tatar olub. Ömrünün çoxunu mühacirətə keçirib və Tatarlarla sıx əlaqədə olub. Onu kitabın Özbəkistan yoxsa Tatarıstan bölməsinə daxil etməliyəm. Alixan Törəni Saquni[3] Qırğızıstandakı bir

[3] Alixan Törə Saquni haqqında məqaləni "Doğu Türküstan: yol qeydləri, məqalələr" kitabında verməyi münasib bildim.

Özbək ailəsində doğulub. Doğu Türküstan Cümhuriyyətinin qurulmasında fəallıq edib və ona rəhbərlik edib. Ömrünün son illərini Özbəkistanda keçirib və burada yazıb-yaradıb.

Kitabın bu bölümündə Özbəkistan aydınları haqqında radioda yayınlanmış verlişləri oxucu axtaranda asan tapsın deyə efirdə səsləndirilmə tarixi ilə deyil, əlifba sırası ilə verdim. Verlişlərin önündəki radio dinləyiçiləri üçün tanıtma, çağrış xarakterli birinçci abzas bir-birinə oxşadığına onları ixtisar etdim.

Təkrar olmasın deyə kitabda haqqında söz açdığım insanlardan bəhs edən məqalələrdən birini saxladım. O birilərini siyahıda göstərdim ki, oxucu istəsə, onları da tapıb oxuya bilsin.

ABDULLA AVLANİ



Abdulla Avlani (1878-1934) (عبدالله آولانی, Özb. Abdulla Avloniy, Абдулла Авлоний)

Abdulla Miravlan oğlu Avlani 1878-ci il iyulun 12-də Daşkəndin Merqança məhəlləsində elmə, təhsilə yüksək qiymət verən bir toxucu ailəsində anadan olmuşdur.

Valideyinləri Abdullaya ata-baba sənətlərini öyrətməklə yanaşı, təhsil almalarına da şərait yaratmış, məhəllədə məktəbini bitirdikdən sonra onu 13 yaşında Ukçi mədrəsəsinə oxumağa göndərmişlər. İlk şeirini 15 yaşında yazan Abdulla nümunəvi şagird olduğuna görə özündən kiçiklərin dərslərinə nəzarət etməyi müəllimləri ona tapşırırlarmış.

1900-cü ildə atasını itirən Abdulla Avlani ailə yükünü çəkməklə yanaşı, maarifçilik sahəsində də uğurlu addımlar atır. 1904-cü ildə, Ukçi mədrəsəsini bitirdikdən sonra yeni tipli məktəb açır. İsmayıl bəy Qaspıralının yolunu davam etdirərək, o dövrdə

cədidçilər, yəni yenilikçilər adlandırılan hərəkata qoşulur. Məktəbinin proqramına şəriət, fiqh, islam tarixi, bəlağət fənləri ilə yanaşı, kimya, fizika, riyaziyyat, astronomiya, coğrafiya dərsləri də daxil edir. Uşaqların Doğu və Avropa dillərini mənimsəmələri üçün əlindən gələni əsirgəmir. Klassik mədrəsələrdə şagirdlərin sinifdən sinifə keçməsi üçün imtahan verməsi lazım gəlmirdi. Onun açdığı məktəbdə isə şagirdlər sinifdən sinifə keçmələri üçün tədris ilinin sonunda imtahan verməli olurdular. Bu Türküstanın mədrəsələrində bir yenilik idi.

1905-ci il inqilabının verdiyi imkanlardan yararlanaraq 1907-ci ildə Özbək dilində "Şöhrət" adlı qəzetini nəşrə başlayır. Bu ad Abdulla Avlaninin ləqəblərindən birinə çevrilir. Lakin "Şöhrət" qəzetinin ömrü o qədər də uzun olmur. 10-cu sayından sonra çar məmurları qəzeti bağlatdırır.

Böyük cədidçi şeirlərində və məqalələrində "Şöhrət" ləqəbi ilə yanaşı, "Qəbul", "Hicran", "Avlini", "Sürayə", "Əbülfəz", "İndamas" ləqəblərindən də istifadə edir.

Təşkilatçılıq qabiliyyətilə soydaşlarının diqqətini çəkən Abdulla Avlaninin ətrafına ziyalılar, iş adamları, sənətkarlar toplaşırlar. Onlar Türküstanın Rusiya əsarətindən xilası, əhalinin güzaranının yaxşılaşdırılması, cəhalətdən qurtarması yollarını axtarıblar. Gəldikləri nəticə bu olur ki, gənc nəsli savadlandırmadan millətin xilas mümkün olmayacaq.

Gənc nəsli savadlandırmaq, Avropa yaşam tərzini təbliğ etmək məqsədilə 1909-cu ildə Abdulla Avlaninin rəhbərliyi ilə "Cəmiyyəti xeyriyyə" təşkilatını qurulur. Proqram və nizamnaməsində yalnız xeyriyyəçilik məqsədilə qurulduğu göstərilən bu təşkilat getdikcə daha çox ictimai fəaliyyətlə məşğul olub, sonra da siyasiləşir.

"Cəmiyyəti xeyriyyə" ətrafında toplaşanların əksəriyyəti əhalinin savadsız olduğunu, oxumaq-yazmaq bilmədiyini nəzərə alaraq xalqa fikirlərini catdırmaq üçün teatrdan istifadə etməyi qərara alırlar. Azərbaycan ziyalılarının təcrübəsindən istifadə edərək 1909-cu ildə Abdulla Avlani və Mahmud xacə Behbudi "Turan"adlı teatr truppasını yaradırlar. Abdulla Qədiri, Həmzə Həkimzadə Niyazi və başqaları da onlara qoşulur. Truppanın üzvlərinin tamaşaya qoyduqları ilk əsər Mahmud xacə Behbudinin "Padarkuş" faciəsi olur. Tamaşa Daşkənddə böyük maraqla qarşılanır. Tamaşaya baxmağa yalnız Özbəklər deyil, Daşkənddə və yaxın kənd və qəsəbələrdə yaşayan Qazaxlar, Qırğızlar, Türkmənlər, Taciklər, Əfqanlar, hətta Rus ziyalıları da gəlirlər.

Müxtəlif mətbuatda şeirlərini, məqalələrini çap etdirmək, teatr tamaşaları göstərmək, özü də pyeslər yazmaqla xalqını cəhalət yuxusundan oyatmağa çalışan Abdulla Avlani dostları ilə birlikdə "Nəşriyyat" adlı mətbəə qurur, burada dərsliklər, dini və elmi kitablar çap etməyə başlayırlar. Çap etdikləri

kitabların yayılması və təbliği üçün də "Məktəb kitabxanası" adlı mağaza açırlar.

Maarifçi demokratların bir yerə toplanmasında, bir-birinə yardım etməsində Abdulla Avlaninin rolu böyük olur. Mahmud xacə Behbudi, Abdurauf Fitrət, Abdulhəmid Çolpan və başqaları ilə birlikdə xalqının maariflənməsi və azadlığa qovuşması yolunda yorulmadan mübarizə aparan cədidçi pedaqoq yeni tipli məktəblər üçün 1909-cu ildə "Birinci müəllim", 1912-ci ildə "İkinci müəllim", 1913-cü ildə "Türk-i Gülüstan, yaxud əxlaq", 1916-cı ildə "Məktəb-i gülüstanı", 1913-cü ildə "Müxtəsər tarixi əmbiya və tarixi islam", 1909-1916-cı illərdə altı cildlik "Ədəbiyyat, yaxud milli şairlər" kitablarını yazaraq nəşr etdirir.

Abdulla Avlaninin yazmış olduğu "Toy", "Leyli və Məcnun", "İki məhəbbət", "Advokatlıq asanmı?", "Biz və siz", "Tufan", "Portuqaliya inqilabı" və başqa pyeslər uzun müddət repertuardan düşmür. Xalqın gündəlik yaşamını, ağrı və acılarını gündəmə gətirdiyinə görə tamaşa göstəriləndə salon həmişə dolu olur.

Çoxsahəli fəaliyyəti ilə xalqının məhəbbətini qazanan Abdulla Avlanı məktəbdə dərs demək, yeni proqramlar hazırlamaq, dərsliklər yazmaq, teatr tamaşaları göstərmək, tamaşalara qurluş vermək və aktyorluq etməklə kifayərlənmir, onun yazmış olduğu "Vətən", "Məktəb", "Boxça", "Millətə xitab", "Kuklam gəldi", "Toxlardan bir mənzərə" və başqa

poemaları, “Həsəd bəlası” hekayəsi, “Tülkü ilə qarğa” təmsili bölgədə ən çox oxunan əsərlər olur. “Məqsəd və məslək”, “Halımıza dair” məqalələri isə mətbuatda geniş müzakirənin açılmasına təkan verir.

İnqilabi əhval-ruhiyyəli Abdulla Avlani 1913-cü ildən nəşrə başladığı “Turan” qəzetinə 1917-ci ildən “Yaşasın xalq cümhuriyyəti!”ni şüar seçir. Qəzetin 2-ci sayında Mirmöhsünün “Tarixdə iki vaqiə” məqaləsinə görə Ülamə Cəmiyyəti Avlanini və Mirmöhsünü kafir elan edir.

“Sadoi Türkiston” və “İştirakiyun” qəzetləri ilə sıx əməkdaşlıq edən cədidçi şair-dramaturq köhnə quruluşun dəyişməsi üçün var gücü ilə çalışır. Lakin onun anladığı və uğrunda mübarizə apardığı cümhuriyyətlə Rus bolşeviklərinin qurmaq istədiyi cümhuriyyət arasında kəskin fərqlər olduğunu görərək bir ara vətənindən uzaqlaşmalı olur. Əfqanıstana gedərək 1919-1920-ci illərdə orada maarif naziri və Rusiya Federativ Sovet Sosialist Respublikasının konsulu işləyir.

Bolşeviklər Türküstanda möhkəmləndikdən sonra Abdulla Avlanini Daşkəndə işləməyə dəvət edirlər. Bolşeviklərin xalqlara azadlıq verəcəkləri vədinə aldanan böyük maarifçi vətənə dönərək sosializmin fəal qurucularına çevrilmək istəyir. Qadınların maariflənməsi üçün kadr hazırlığına xüsusi önəm verir. Müəllim qıtlığını aradan qaldırmaq üçün qadın müəllimlər hazırlayan texnikumun açılmasına nail olur və orada müəllim işləyir.

Daşkənddəki Ölkə Özbək Məktəbində, 1923-cü ildən Daşkənd Xatın-Qızlar Məktəbində, 1924-cü ildə Daşkənd Hərbi Məktəbində dərs deyən Abdulla Avlani 1925-1930-cu illərdə Orta Asiya Dövlət Universitetində və Orta Asiya Ali Kişi Pedoqoji İnstitutunda işləyir. Universitetdə dərs deyərkən fəhlə fakültəsi açır, burada Özbək gənclərinin ali təhsil alması üçün 20 nəfərdən ibarət bir qrup yaradır və bu qrupda dərslərin Özbək dilində keçməsinə nail olur.

Abdulla Avlani əvvəlki kimi ictimai-siyasi fəaliyyətlə məşğul ola bilmir. Hər addımda güdüldüyünü, təqib edildiyini görür. Milli kadrların təqib edildiyini, terrorun baş alıb getdiyini görsə də, bolşeviklərə qarşı açıq mübarizəyə qoşulmur. 1925-ci ildə ona "Möhnət qəhrəmanı" mükafatı, 1930-cu ildə isə "Özbəkistanın xalq maarif zərbəçisi" adı verirlər.

1931-ci ildən ömrünün sonunadək Orta Asiya Dövlət Universitetində Dil və Ədəbiyyat kafedrasının müdiri işləyir və onu professor seçirlər.

1934-cü il avqustun 25-də dünyasını dəyişən Abdulla Avlani bununla da Sovet irticasının 1937-ci il qırğınından qurtulmuş olur. Lakin onun əsərləri repressiyadan qurtula bilmir. Abdulla Avlaninin əsərlərinin bir çoxunun çapı, oxunması, təbliği qadağan edilir. Bu qadağa 1956-cı il yumşalmasından sonra da aradan qaldırılmır. Sovet hakimiyyəti devrildikdən sonra Abdulla Avlaninin əsərlərinin nəşrinə və təbliğinə başlanır.

ABDULLA QƏDİRİ



Abdulla Qədiri (1894-1938) (عبدالله قدیری, Özb. Abdulla Qodiriy / Абдулла Қодирий, Rus. Абдулла́ Кадыри́)

Abdulla Qədri 1894-cü il aprelin 10-da Daşkənddə kasıb bir ailədə anadan olmuş, 1904-1906-cı illərdə mədrəsədə oxumuş, orada Quranı-Kərimi, şəriət ehkamlarını fars və ərəb dillərini öyrənmişdir. Yaşı az olsa da ailəsinə kömək üçün təhsilini yarıda buraxıb bir tacirin yanında iki ilədək işləməmişdir.

İşgüzarlığından və qanacağından razı qaldığına görə xeyirxah olan tacir Abdulla Qədirini 1908-ci ildə bizdə Rus-tatar, Türküstanda isə Rus-tuzem məktəbi kimi tanınan təhsil ocağında oxumağa göndərmişdir. Orada Rus dilini, dünyəvi elmləri müəyyən səviyyədə öyrəndikdən sonra, yəni 1912-ci ildən onu oxumağa göndərən taçirin kargüzarlıq işlərini görməyə başlamışdır.

Türküstanda getdikcə genişlənən cədidçilik-maarifçilik hərəkatı Abdulla Qədirini də özünə cəlb

etmişdir. Bölgədə çap olunan qəzet və jurnalları müntəzəm oxuyaraq cədidçilərin yolunu tutan gənc Abdulla xalqını xurafatdan, gerilikdən qurtarmaq üçün fikirlərini oxucularla bölüşməyə başlamışdır. Culkunbay imzası ilə yazdığı şeirləri və məqalələri xalqını oyadacağını düşünmüşdü. Oxuduqlarının təsiri ilə xalqını Avropalılar kimi inkişaf etmiş bir ölkə qurmağa çağırmışdır.

Onun işləməsi ailəsinin maddi vəziyyətini yaxşılaşdırsa da var-dövlət, sərvət sahibi olmağıqarşısına məqsəd kimi qoymamış, mənəvi dəyərlərə daha çox önəm vermişdir. Getdikcə ədəbiyyat, bədii yaradıcılıq, mənəviyyat əsas amalına çevrilmişdir.

1914—-1915 illərdə «Əhvalımız», «Toy», «Millətimizə», «Fikir» kimi şeirlərini, «Pozğun», «Uloqda», «Bunlar bizim» kimi hekayələrini çap etdirmiş, Mahmud xacə Behbudinin "Padarkuş" dramının təsiri altında «Bəxtsiz adaxlı» pyesini yazmışdır. Mövzusu məişətdən aldığı əsərlərində köhnəlmiş adətləri tənqid edərək xalqını zamanla ayaqlaşmağa, yeniliyi mənimsəməyə səsləmişdir.

Abdulla Qədiri bədii yaradıcılıqla ardıcıl məşğul olduqca savadının, dünyagörüşünün yetərincə olmadığını görür. Dünyagörüşünü, biliyini artırmağa ehtiyac duyduğundan 22 yaşında Abdulqasım Şeyx Mədrəsəsində təhsilini davam etdirir. Lakin mədrəsəni bitirə bilmir.

1916-cı ildə çar İkinci Nikolay cəbhədə yardımçı işləri görmək üçün (hökümətdə müsəlmanlara bir inamsızlıq olduğundan onları əsgəri xidmətə almır, əvəzində vergi alırdı– Ə.Ş.) Türküstandan 20-45 yaşlı kişilərin səfərbərliyə alınması haqqımda əmir verir. Səfərbərlik haqqında əmir həmin ilin Ramazan günlərinə təsadüf edir. Müsəlmanlar səfərbərliyin Ramazan ayından sonra keçirilməsini istəyirlər. Yerli məmurlar isə onların fikri ilə hesablaşmır və zorakılığa əl atırlar. Onlar bu zorakılığın böyük bir üsyana çevriləcəyini heç ağıllarına da gətirmirlər. Beləcə, Türküstanı üsyanı kimi şəhurlaşan hadisə baş verir. Cəbhədə məğlubiyyətlə üz-üzə qalan hökumət üsyanı yatırmaq üçün bölgəyə əlavə əsgəri birliklər göndərir. Əsgəri birliklərin törətdiyi qəddarlıqlar Türküstanda çarizmə qəzəbi daha da artırır.

1917-ci ilin fevralında çar İkinci Nikolayın taxtan salınması, müfəqqəti hökümət qurulmasına cəhd, onun ardınca bolşeviklərin silahlı üsyan yolu ilə hakimiyyəti ələ almaları Türküstanıda vəziyyəti daha da gərginləşdirir. Bolşeviklər Peterburqda hakimiyyəti ələ almamışdan əvvəl Daşkənddə Əsgər Sovetləri silah güçünə hakimiyyəti ələ almağa çalışırdı. Bu da əsgəri birliklərlə yerli əhali arasında qarşıdurmanı gərginləşdirir, toqquşmalarda yüzlərlə silahsız müsəlman öldürülür, kəndlər xarabazarlığa çevrilir, qadınlar, qocalar, uşaqlar evindən-eşiyindən didərgin düşür.

Rus hərbiçilərinin törətdiyi bu qəddarlıqlar Abdulla Qədirinin gözləri qarşısında baş versə də o, bolşeviklərin vədlərinə və gözəl səslənən şüarlarına inanır. Sovetlərin kəndilərə torpaq verəcəklərinə, sülh və əminamanlıq yaradacağına, insanlar arasındakı varlı,-kasıb anlayışını aradan qaldıracağına inanır.

1917-ci il oktyabrın 25-də Peterburqda reallaşan silahlı dövlət çevrilişindən sonra Daşkənddəki Əsgər Sovetlər də fəallaşır. Onların fikirincə, Türküstanda fəhlə sinfi formalaşmadığından və yerli xalqlardan fəhlələrin sayı çox az olduğundan proletariat diktaturasında idarəetmə işlərində yerli xalqlara etibar etmək olmazdı.

Buna baxmayaraq, çoxluqda olan xalqla ünsiyyət qurmaq onları, idarə etmək üçün Abdulla Qədiri kimi gənclərdən sitifadə etnməyi qərara alırlar. Beləcə Abdulla Qədirini 1918-ci ildə Daşkənddəki Əskişəhər qəza komitəsinə katib təyin edirlər. Bir il sonra isə onu bolşeviklərin ideyalarını yaymaq üçün yeni açdıqları qəzetdə işə götürürlər. 1919-1923-cü illərdə qəsəbə Sovetinin katibi, bolşevilərin Özbək türkcəsində açdıqları "İştirakuyun", yəni komminist və "Qızıl bayraq" qəzetlərində işləyir.

1923-cü ildə isə onu "Muşdum" adlı satirik jurnala redaktor təyin edirlər. "Muşdum" Azərbaycan türkcəsində yumruq deməkdir. Gənc ədib də burada nöqsanlara, geriliklərə, xürafata şeir, hekayə və məqalələrlə rəmzi mənada yumruq vururdu.

Abdulla Qədirinin 1916-1917-ci illərdə yazdığı "Cavanbaz", yəni "Pozğun" hekayəsinin həcmi böyük olur. Bu da müəllifi povest və romanlar yazmağa həvəsləndirir. 1919-cu ildə "Ötən günlər" romanını yazmağa başlayır. Romandan parçaları qəzet və jurnallarda çap etdirir. "Ötən günlər" romanı 1922-ci ildə "İnqilab" jurnalında, 1924-1926-cı illərdə isə ayrı-ayrı fəsillər halında kitabçalar kimi nəşr edilir. Əsər bolşevik ideoloqlarının işinə yaradığından təbliğin böyük önəm verirlər. Azərbaycan ali məktəblərində və texnikumlarında dərs deyən, Bakıda dilçiliyə dair "Qazax, Özbək və Türk dillərinin müqaisəli sərfi" kitabını nəşr etdirən Xalid Səid Xocayev Abdulla Qədirinin "Ötən günlər" romanını ona zəif görünən parçaları ixtisarla Azərbaycan türkcəsinə uyğunlaşdıraraq 1929-cu ildə çap etdirir.

"Ötən günlər" yalnız Azərbaycan türkcəsində deyil, SSRİ-də yaşayan xalqların bir neçəsinin dilinə çevrilir.

Abdulla Qədirinini siyasi cəhətdən bolşeviklərə daha sıx bağlamaq üçün 1925-ci ildə Moskvadakı ədəbiyyat kursunda oxumağa göndərirlər. Bir il orada oxuduqdan, təcrübə qazandıqdan sonra Daşkəndə qayıdaraq ardıcıl ədəbi bədii yaradıcılıqla məşğul olur.

Üzərində uzun illər işlədiyi "Mehrab əqrəbi" romanını tamamlayır. Roman Özbək xalqının 19-cu yüzildə yaşam tərzindən bəhs edir. Geniş xalq kütlələri tərəfindən maraqla qarşılanan tarixi-

etnoqrafiq “Mehrab əqrəbi” romanı 1929-cu ildə Səmərqənd şəhərində nəşr edilir.

Lakin roman nə Sovet məmurlarını, nə də ədəbi tənqidi razı salır. Roman sosializ realizmin prinsiplərinə tam cavab vermədiyi, cədidçilik ruhu, mill düşüncə hakim olduğu yazılır. Dövrü mətbuatda Abdulla Qədirini xırda burjua yazıçısı adlandırırlar.

Tənqid və töhmətlərdən cana doyan yazıçı bir ara yeni əsərlər yazmağa ara verir. Tərcüməcilik etməklə diqqəti özündən yayındırmağa çalışır. 1928-ci ildə Abdulla Şinasinin “Fizika” kitabını Özbək türkcəsinə uyğunlaşdıraraq nəşr etdirir. Ali məktəblərdə, texnikumlarda, ümumtəhsil ocaqlarında kimya, fizika, biologiya, coğrafiya, riyaziyyat və b. dərsliklərə böyük ehtiyac vardı Abdulla Qədiri bu böşluğu doldurmağa can atır. Lakin onun bu yöndə gördüyü iş də xoş qarşılanmır.

Rus yazıcçılarından N.V.Qoqoldan, A.R.Cexovdan, Azərbaycan, İngilis, Alman, İtalyan, Ərəb, Türk, Qazax, Uyğur, Ttatar dillərindən tərcümə etməklə Özbək türkcəsinin zənginliklərini ortaya qoyur. Bununla Rus dilini zəngin bir dil, Özbək türkcəsinə bəsit bir ləhcə kimi baxanlara sanki cavab verərmiş. Sanki bununla müstəmləkəçi məmurlara və öz millətinə yuxarıdan aşağı baxanlara Rus dilində yazılmış ədəbi, bədii, elmi əsərləri Özbək türkcəsi vasitəsi ilə ifadə etmək mümkün olduğunu göstərir.

Biliyini və enerjisini Özbək türkcəsinin zənginləşməsinə, saflaşmasına həsr edən Abdulla

Qədiridən ədəbi tənqid deyilən Sovet ideoloqları əl çəkmirlər. Onu öz cəbhələrinə çəkmək üçün dəridən-qabıqdan çıxır, təzyiq göstərir, tənqid edirlər. Onların bu tənqidləri bəzən hədə, təhqir həddində olur.

Abdulla Qədiri onlardan yaxa qurtarmaq və qələmini bir daha nəsr sahəsində sınamaq üçün zorla kəndililərin əlindən mal-qaralarının, torpaqlarının, mülklərinin alınıb kolxoz təsərrüfatı yaradılmasını tərənnüm edən "Abid Ketmən" povestini yazır. 1933-cü ildə çap etdirdiyi bu povest əvvəllər yazdığı nəsr əsərlərində çox zəif alınır.


Ölkədə baş verən haqsızılqlar, insanların hüquqlarının hər addımda pozulması, sosializm quruculuğu adı altında ruslaşdırma siyasətinin yeridilməsi Abdulla Qədirinin yolunu keçmiş məslək dostlarından ayırır. O, Özbəkistanın azadlığı uğrunda mübarizə aparanların sırasında özünə yer tutur. Gizli antisovet və antirusya təşkilatının fəallarından birinə çevrilir. Sovet xüsusi xidmət orqanları isə bu təşkilatın fəaliyyətinin ciddi izləyirdi. 1937-ci il dekabr ayının 31-də Abdulla Qədirini də əqidə yoldaşları kimi həbs edirlər.

Uzun sürən istintaqdan sonra 1937-ci il oktyabrın 4-də Daşkənddə Bozsu çayı vadisində gizli güllələyirlər.

1956-ci ildən sonra sözdə Abdulla Qədiriyə bəraət verilsə də, o, əsil bəraətinin 1991-ci ildən sonra, yəni Özbəkistan azadlığına qovuşduqdan sonra alır. Abdulla Qədirinin adına Dövlət mükafatı təsisi edilir,

Daşkənd Mədəniyyət İnstitutu, metro stansiyalarından biri, park və mədəniyyət müəssisələri onun adıyla adlandırılır, yeddi cilidlik əsərləri çap olunur, həyatından bəhs edən sənədli və bədii filimlər çəkilir. Əcsərləri ekranlaşdırılır. Bütün bunlar Abdulla Qədiriyə ümumxalq məhəbbətinin təcəssümüdür.

ABDULHƏMİD ÇOLPON



Abdulhəmid Çolpan (1893-1938) (Özb. عبدالحمید چولپان , Cho‘lpon Abdulhamid Sulaymon o‘g‘li Yunusov, Rus. Абдулхамид Сулейман угли Юнусов)

Abdulhəmid 1893-cü ildə Özbəkistanın Əndican şəhrində doğulub. Onun atası Süleymankul Yunus oğlı mədrəsə təhsili görmüş, şeirləri divan təşkil edəcək bir şair olmuşdur. Abdulhəmid də məhəllə məktəbində, sonra Əndican və Daşkənd mədrəsələrində oxuymuşdur.

Gələcəyin şairinə atası Abdulhəmid adını qoysa da, o Çolpan kimi tanındı və məşhurlaşdı. Çünki şeirlərini, məqalələrini, romanlarını, pyeslərini Çolpan, yəni «Dan yıldızı» imzasıyla yazdı.

Rusiya Türküstanı işğal etdikdən sonra Rus dilinə böyük ehtiyac duyulurdu. Müstəmləkəçilər də uzun müddət yerli xalqları əsarət altında saxlamaq üçün onlardan kiçik məmurlar hazırlamaq məcburiyyətində idilər. Belə məktəbləri ölkənin Avrpoa hissəsində

Rus-Tatar, Asiya hissəsində isə Rus-Tüzem məktəbləri adlandırırılırdı.

Abdulhəmidin atası, dövrünün ayıq ziyalısı olan Süleymankul Yunus oğlu da oğlunu Rus-Tüzem məktəbində oxumağa göndərir. O, burada Rus dlini öyrənməklə yanaşı, Rus ədəbiyyatı və Avropa xalqlarının mədəniyyətilə də tanış olur.

20-ci yüzilin başlanğıcında Rusyanı bürüyən qarışıqlıq çar İkinci Nikolayı Oktyabr manifestini imzalamağa məcbur edir. 1905-ci ildə imzalanmış bu sənəd Dövlət Dumasının çağrılmasına, qəzet-jurnalların nəşrinə icazəninin yüngülləşməsinə, insanların söz və fikirlərini söyləməsi üçün sərbəst toplanmalarına, ibadət evləri tikmələrinə şərait yaradır.

İsmayıl Qaspıralı, Mahmud xacə Behbûdi, Münəvvər Qarı və başqa aydınların çıxardıqları qəzet-jurnallar Çoplana güclü təsir edir. O, Rusyadakı hadisələri izləməklə kifayətlənmir, Osmanlıda baş verənləri də diqqətlə izləyir, xüsusən, ədəbi mühiti öyrənir.

1913-cü ildən Abdulhəmid imzası "Sadâi Türkistan", "Sadâi Fergana" və "Türkistan" qəzetlərində görünməyə başlayır. 1914-1917-ci illərdə çap etdirdiyi "Vətənimiz Türküstanda dəmir yollar", "Oş", "Doktor Muhammedyar", "İldə bir kərə", "Şərq poezdi gəldi", "Şərq oyanır", "Çimkənt", "Qudurğan müstəmləkəçilər" və b. yazılarıyla çılğın bir şair, vətənsevər, millətçi bir ədib kimi tanınır.

Böolşeviklər 1917-ci ildə çevriliş yolu ilə hakimiyyəti ələ aldıqdan sonra Çolpanın həyatında ən gərgin və ziddiyətli dövr başlayır. Rusiyanın hər yerində hakimiyyətlərini möhkəmlətməyə, daha doğrusu, keçmiş Rusiya imperyasının sərhədlərini bərpa etməyə çalışan bolşeviklər 1917-ci ilin noyabrın 27-də Türküstanın muxtariyyatını elan edir.

Çolpan «Qır qandalı, boyun əymə, çünki sən hür doğulansan» misralarını yazır, xalqının istiqbalı və iqbalı üçün maarifçilik işi aparır, milli müstəqillik və azadlıq hərəkatına qoşulur. 1922-ci ildə şeirləri "Özbək gənc şairləri" adlı topluda, və "Bulaqlar" adlı kitabında çap etdirir.

1924-cü ildə "Oyanış" və 1926-ci ildə "Tan sırları" kitabları çap olunur. Bu kitablar ona ədəbi həyatda uğur qazandırsa da şəxsi həyatına uğursuzluq gətirir. Kitablara daxil edilən 119 şeir Özbək ədəbiyyatında simvolizmin əvəzsiz nümünələri sayılır. Sovet məmurlar isə bu şeirləri heç də xoş qarşılamır. Onu millətçi, Rusyanın düşməni kimi həbsə atır, daim təzyi altında saxlayırlar. Lakin şair yolundan dönmür. Özbək ədəbiyyatına yeniliklər gətirməyə, Avropa şairləri səviyyəsində ədəbiyyat yaratmağa çalışır. 1930-cu illərdə "Saz və cor" adlı şeir kitabını nəşr etdirir.

Çolpanın şeirlərində zamanın ruhu olduqca parlaq və real şəkildə əks olunur. Şairin öz fikrini oxucusuna o vaxt dəbdə olan şüarçılıqla deyil, bənzərsiz bədii ifadələr, yeni təşbeh və timsallar vasitəsilə, yəni

sinvollarla çatdırırmağa çalışır. Bu da çox vaxt sərt Sovet senzarısının gözündən yayınaraq mətbuata yol tapırdı. Çolpan deyirdi:

Göy üzünü qapqara, məşum buludlar sıx tutar,
O buludlar üstünə at tək minib deivlər çapar,
Hər vuranda qamçısını odlar yaxar, şimşək çaxar,
O buludlar çapsalar da, deivlər ilə asiman boyu,
Onda başlanar cin, albastı və şeytanlar toyu.

Millətinin başına açılan müsibətlər, vətəninin yenə də işğal altına düşməsi Çolpanı nə qədər narahat etsə də, həyata nikbin baxır, dilində daim bahar qəsidəsi, qəlbində müstəqillik arzusu, bu yolda sonuna qədər mübarizə aparmaq əzmi hökm sürürdü. Şair yazır:

Əlimdə süngü daş oldu,
Yağıya atmaq istərəm.
Gözümdə süngü yaş oldu,
Arzuya yetmək istərəm.

Çolpan xalqının və vətəninin başına gətirilən faciələri qələmə alanda mövzunun adını dəyişirdi. Təsvir etdiyi hadisələrin Özbəkistanda deyil, Misirdə, Çində baş verdiyini yazırdı. Bu baxımdan onun «Nil qızı», «Çin təranələri» kimi şeirləri olduqca diqqətiçəkəndir. Bu şeirlərində o xalqının azadlıq, müstəqillik arzusunu dilə gətirilirdi. Çolpan «Nil qızı»nda «Bütün həyatını bir zəhər sarmış, Fəllahın bəxtini kimlər oyadar» deyirdi.

İlk üç şeir kitabında Şərq ölkələrini işğal edən Ruslara, İngilislərə duyulan nifrət olduqca güclüdür.

Rusların törətdiyi zülm və soyqırımlar, Kokand və Türküstanın digər şəhərlərində tökülən qanlar, Türküstanın parçalanması, xalqın aclıq və səfalətə düçar edilməsi Çolpanın şeirlərində yüksək sənətkarlıqla verilmişdir.

Çolpan əsərlərinə və ictimai fəaliyyətinə görə səkkiz dəfə həbs edilərək sorğu-suala çəkilmişdir. Lakin bu təqib və təzyiqlər onu yolundan döndərə bilməmişdi. Türküstanın parçalanmasından, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Tacikistan Sovet Respublikalarının yaradılmasından sonra yeridilən siyasət bir çox milli aydınlar kimi Çolpanı da çarəsiz susmağa məcbur etmişdi. O, 1925-ci "mühit güclü ikən, əydim boynumu" yazmışdır.

Azərbaycanla daimi maraqlanan, aydınları ilə dostluq edən Çolpanın Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutundakı Əliabbas Müznibin arxivində bir məktubu qorunur. Məktubdan məlum olur ki, Müznib ondan Əlişir Nəvainin divanını istəmiş, Çolpanda onda olmadığını yazmaqla kifayətlənməşişdir. Müznibə yazmışdır kİ, divan Özvək alimlərindən filankəsdə var, mən istəsəm, verməyəcək, sən istəsən, göndərəcək.

Özbək poeziyasının parlaq nümunəsi olan çoxlu şeir və hekayələrin müəllifi Çolpan "Parlaq ay", "Xəlil Fereng", "Çörinin üsyanı", "Yarqınay", "Muştumzor", "Qartay Qarşıbayev", "Hücum" və b. pyeslərin, "Gecə və gündüz" romanının yazmışdı. Romanın "Gecə" adlı birinci hissəsi 1936-ci ildə çap

olunmuş, ikinci hissəsi isə həbs olunarkən yox edilmişdi.

Şeksprin "Hamlet", Puşkinin "Boris Qodunov" və "Dubrovski", Qorkinin "Ana" əsərlərini Özbək dilinə çevirən Çolpanın əsərlərinin nəşri 1925-ci ildən məhdudlaşdırılsa da, 1937-ci ildən tamam dayandırılmışdır. 1937-ci ildə Özbəkistan Yazıçılar İttifaqının iclasında Çolpanı kəskin tənqid edənlərə o, "Siz məni üç gün içində islah edə bilməzsiniz" cavabını verir.

Şair yaradıcılığının ən çiçəkləndiyi dövrdə millətçilikdə və əksinqilabi fəaliyyətdə günahlandırılaraq 1937-ci il iyunun 14-də həbs edilir və uzun sürən işgəncəli istintaqdan sonra 1938-ci il oktyabırın 4-də güllələnir.

Özbək ədəbiyyatına simvolizm ədəbi cəryanını gətirən, ədəbiyyatı yeniləşdirməyə çalışan, 45 yaşında Sovet cəlladları tərəfindən qəddarlıqla məhv edilən Çolpanın əsərlərinin bir qismi günümüzədək qorunub-saxlanmamışdır.

1956-cı ildə Stalini şəxsiyyətə pərəstişdə suçladıqdan sonra Sovet cəza maşınının məhv etdiyi bir çox insanlara fiziki bəraət verilsə də, Çolpanın əksər əsərlərinin çapına yenə də icazə verilmir. Çolpanın əsərlərinin çapına 1990-cı ildən sonra başlanır. 1991-ci ildə Fitrət və Abdulla Qadiri kimi güllələnmiş milli aydınlarla birlikdə Çolpana da beynəlxalq "Nəvai" mükafatı verilir. Onun adı küçə və kitabxanalara qoyulur, şərəfinə beynəlxalq mükafat təsis edilir.

ABDULLA RAHİMBOYEV



Abdulla Rahımboyev (1896-1938) (عبدالله راخیمبئیوو, Özb. Abdulla Rahımbayev, Rus. *Абдулла Рахимбеков)*

Abdulla Rahimboy oğlu 1896-cı il iyunun 1-də keçmiş Xocənddə bir özbək taciri ailəsində anadan olub. Qədim mədəniyyət mərkəzi Xocənd 19-cu yüzildə əvvəlki şöhrətini itirərək Türküstanın quberniyasının bir qəsəbəsinə çevrilməkdə idi. Abdulla məhəllə məktəbindəki molladan Quran-ı Kərimi qiraəti, şəriəti, fars dilində Sədi Şirazinin "Gülüstan" və "Büstan" kitablarını oxumağı öyrənir.

Sonra mədrəsədə oxuyan Abdulla boş vaxtlarında atasına ticarət işlərində kömək etməklə həyat təcrübəsi qazanır, dünyagörüşünü genişləndirir. Rusiya əsarətinə düşmüş Xocənddə də Rus dilinə tələbatı gündən günə artırırdı. Tacirlər də Rusiya vasitəsilə Avropa ilə əlaqə qurmağa çalışırdılar. Buna görə bölgədə Rus və Ffransız dillərini öyrənənlərin sayı çoxalırdı. Tacir Rahimboy da zamanəyə uyğunlaşaraq oğlu Abdullanı Rusiyanın Avropa

hissəsində Rus-Tatar, Asiya hissəsində Rus-tuzem məktəbi adlandırılan təhsil ocağına göndərir. Məktəbdə oxumağa gələnlərdən Rusiya qaydaları ilə soyadı tələb olunurdu. Ona görə də Abdullanın atasının adının sonuna "yev" artırmaqla Rahımboyev soyadı yaradıldı. Beləcə, o, Abdulla Rahimboy oğlu Rahımbayev kimi tanınmağa başlayır.

Diribaşlığı və iti yaddaşı ilə seçilən Abdulla məktəbi uğurla başa vurub 1913-cü ilin oktyabrında Səmərqəndə gedir. Orada hazırlıq sinfində oxuyaraq Daşkənddəki müəllimlər seminariyasına qəbul olunur.

Rus dilini vasitəsilə ölkədə baş verənləri diqqətlə izləyən Abdulla inqilabçılara böyük maraq göstərir. İnqilabçıların əqidələri yolunda hər əzaba dözmələri və dönümlülükləri onda romantik duyğular oyadır. Birinci Dünya Savaşında uğursuzluğa düçar olan Rusiya Türküstanda gəncləri səfərbərliyə alaraq cəbhə bölgələrinə göndərməyi planlayır. Bu da cana doymuş xalqın üsyanına səbəb olur. Üsyanın gedişi və üsyancılara tutulan divan Abdullanı bərk narahat edir. Bu narahatlıq onu Rusiya Sosial Demokrat Fəhlə Partiyasının sıralarına gətirib çıxarır.

1917-ci ildə Daşkənd Müəllimlər Seminariyasını bitirən Abdulla Rahımbayev Xocəndə dönərək 1918-ci ilin yanvarından dekabrına kimi müəllim işləyir. Bölgədəki qarışıqlıq gənc inqilabçını daha da fəallaşdırır. Milli hərəkatın güclənməsi, Mustafa Çokay və məsləkdaşlarının 1918-ci il noyabrın 27-də Kokandda Qazax və Qırğız Türklərinin ortaq

dövlətləri olan Alaş-Orda Türküstan Hökumətini qurmaları, Ağ qvardiyaçıların təhdidləri, bolşeviklərin vədləri Abdullanun fikrində bir qarışıqlıq yaradır. Türküstanın mərkəzində sahəsi 182 min kvadratkilometr, yəni indiki Azərbaycan, Gürcüstan və Ermənistanın ərazisi qədər, əhalisi 2 milyon 200 mini keçən Buxara Xalq Sovet Respublikası qurulur. Bolşeviklər Buxara əmirinin qovub Xalq Sovet Respublikası yaradılmasına normal yanaşır, lakin mill düşüncəli insanların yaratdıqları Alaş-Orda Türküstan Hökumətinin varlığıyla barışa bilmirdilər. Ona görə də silah gücünə bu hökuməti devirdilər.

Bölgədə silah gücünə möhkəmlənən bölşeviklər çar hökumətinin 1867-ci ildə yaratdığı Türküstan qubernatorluğunun yerində Türküstan Muxtar Sovet Sosialist Respublikası qurduqlarını elan etdilər.

Belə gərgin və qarışıq günlərdə Abdulla Rahımbayev RSDFP sıralarında olarsa, xalqına və vətəninə daha çox xeyir verəcəyini düşünür. Bu düşüncə ilə də Rusiya Kommunist (bolşeviklər) Partiyasına qəbul olunur.

1919-cu ilin yanvarında onu Acçöl Qəza İnqilab Komitəsinə katib seçirlər. Abdulla Rahımbayev bu vəzifədə aprel ayınadək işləyə bilir. May ayında onun vəzifəsini böyüdərək doğulduğu bölgəyə göndərirlər. Xocənd Şəhər və Qəza İcraiyyə Komitəsinin sədri kimi işə başlayır. Basmaçıların silahlı dəstələrinin aparıcı gücə çevrildiyi, xalqın böyük bir qisminin bolşeviklərin fəaliyyətindən, onların qanunlarından

xəbərsizliyi Abdulla Rahımboyevin işini xeyli çətinləşdirirdi. Mərkəzi hökumətin qəbul etdiyi bir sıra qərarlar ya vaxtında yerlərə çatdırılmır və ya yerli şəraitə uyğun gəlmirdi. Belə çətin və ağır bir dövrdə 23-yaşlı Abdulla Rahımbayev qəzanı qanunlardan çox özünün bildiyi kimi idarə edirdi. O, basmaçılarla da danışıqlara gedir, din adamları ilə də xoş münasibət yaradır, bölgənin sayılan-seçilən adamlarına da sayqı ilə yanaşırdı. Beləcə, qəzada dinclik yaratmağa çalışır, bütün gücünü ona yönəldirdi ki, əhali dağılan təsərrüfatı bərpa etsin.

Bolşeviklər isə bölgədə mövqelərini gündən-günə möhkəmləndirirdilər. Onlar sözdə çarizmin əleyhinə olsalar da, dövləti xalqlar həbsxanası adlandırsalar da, var gücləri ilə imperiyanın sərhədlərini bərpa etməyə, ərzaq bol olan Türküstanı əldən buraxmamağa çalışırdılar. Bu işdə də Abdulla Rahımboyev kimi aldadılmışlar Ruslara yaxından, özü də səmimiyyətləri və var gücləri ilə kömək edirdilər.

1919-cu ilin dekabrında Abdulla Rahımboyevi Türküstan Kommunist Partiyası Səmərqənd Vilayət Komitəsinə birinci katib vəzifəsinə göndərirlər. Təhsil almağa, elmi biliklərini artırmağa imkan tapmayan Abdullanın vəzifəsini daha da böyüdürlər. 1920-ci ilin iyununda onu Türküstan Muxtar Sovet Sosialist Respublikasının Mərkəzi İcraiyyə Komitəsinə sədr seçirlər. Sovetlərdə rəhbər vəzifələrə insanların seçkilər yolu ilə gəldiklərini desələr də, formal seçkilər keçirsələr də, həqiqətdə yuxarıların təyinatı

ilə kadrlar rəhbər vəzifələrə təyin olunurdular. Bolşeviklərin 23 yaşlı bir gənci Türküstan MSSR MİK sədri qoyması heç də təsadüf deyildi. O yaşda insanlar daha iddialı, çılğın, dünyanı dəyişə biləcəklərinə inanan olurlar. Bu vəzifədə beş ay işlədikdən sonra Abdulla Rahımboyevə daha məsul və böyük vəzifə həvalə edilir.

O, 1920-ci ilin oktyabrından 1923-cü ilin iyununa kimi Türküstan KP MK-nın katibi işləyir və həm də 1922-ci ilin may ayından 1926-cı ilin sentyabrına kimi Qızıl Ordunun Türküstan cəbhəsinin komanda heyyətinin və RSFSR Millətlərlə İş Komissarlığının Kollegiyasının üzvü olur.

Buxara Xalq Sovet Respublikası tamamilə dağıdıldıqdan sonra Abdullanı 1923-cü ilin iyulunda RK(b)P Buxara Mərkəzi Komitəsinə birinci katib işləməyə göndərirlər. Beş ay sonra isə onun vəzifəsi daha da böyüdülür və yeni yaradılan Özbəkistan SSR-ə K(b)P MK-nə birinci katib vəzifəsinə göndərilir.

Sovetlər bölgələrdə müvqelərini möhkəmlətdikcə milli kadrları ruslarla əvəzləməyə, idarə və müəssisələrdə sənədləşmə işlərini milli dillərdə deyil, rusca aparılmağa başlayırr. Abdulla Rahımboyev mərkəzdən gələn göstərişlərə sərt müqavimət göstərməsə də, aldandıqlarını başa düşür və çıxış yolları arayır. Özü kimi aldadılmışlar arasında həmfikirlər axtarır. Beləcə, gizli təşkilatın əsası qoyulur. Bu təşkilatın əlaqələndiricisi rolunu da milliyətcə Kırım tatarı olan, Bakıda yaşayan və

universitetdə professor olan Bəkir Çobanzadə öz üzərinə götürür.

Moskvadan Abdulla Rahımbayevin tapşırıqları əvvəlki kimi can-başla yerinə yetirmədiyini, milli kadrları müdafiə etdiyini görüb 1925-ci ilin dekabrında onu vəzifədən uzaqlaşdırırlar. Yerinə isə milliyətcə rus olan V.İ.İvanovu təyin edirlər. Bir ilə qədər işsiz qaldıqdan sonra onu Moskvadakı Marksizm-Leninizm Kursuna oxumağa göndərirlər. Elə düşünürlər ki, təhsil Abdulla Rahımbayevə təsir göstərər, onu milli düşüncədən uzaqlaşdırar.

Vətəndən və dostlarından bir il səkkiz aylıq ayrılıq onu milli düşüncədən uzaqlaşdırmır. Əksinə Moskvada olduğu müddətdə Türküstandan, Qafqazda, Kırımdan olan, Rusların rəhbər vəzifələrdə işlətdikləri insanlarla görüşür, fikir mübadiləsi edir. Necə deyərlər, qurduqları gizli təşkilatın dairəsini genişləndirir.

Marksizm-leninizm məktəbini bitirdikdən sonra Abdulla Rahımbayevi Moskvadakı SSRİ Xalqlarının Mərkəzi Nəşriyyatına işə göndərirlər. O, burada milli kadrlarla daha sıx ünsiyyətdə ola bilir.

1929-cu ilin iyun ayında Abdulla Rahımbayevi RSFSR Təhsil Nazirliyinin Azsaylı Xalqlar Komitəsinə sədr təyin edirlər. O burada 1933-cü ilin dekabrınadək işləyir. Rəhbər vəzifələrdə işləyən Sanjar İsgəndərovla, Turar Rıskulovla, Toxo Qodi ilə, S.M.Əfəndiyevlər və b. sıx əlaqədə olur, SSRİ-də

yaşayan türk, müsəlman xalqlarının bir dövlət halında birləşməsi planını hazırlayırlar.

SSRİ-də partiya daxili çəkişmələr, Trodskiçi, Kaminev-Zinonyeviç adı ilə inqilabçıların bir çoxunun həbs edilməsi, sürgünə göndərilməsi və işdən azad edilməsi ölkədə kadr çatışmazlığı yaradır. Abdulla Rahımbayevin milli düşüncəli biri olduğunu bilsələr də, 1933-cü ilin dekabrında onu Tacikistan SSR Xalq Komissarlar Sovetinə sədir göndərirlər. Az sonra isə respublikanın qanunverici orqanına rəhbərlik etməli olur.

1934-cü il yanvarın 4-də SSRİ Mərkəzi İcraiyyə Komitəsinə sədr seçilən Abdulla Rahımbayev həbs edilən günədək, yəni 1937-ci ilin sentyabrınadək bu vəzifədə işləyir. Vahid Türk-Tatar Turan dövləti qurmaq istəyənlərin istintaqı başlayanda Abdulla Rahımbayevi Tacikistanda həbs edərək Moskvaya Lefertova həbsxanasına aparırlar. Uzun sürən işgəncəli istintaqdan sonra hərbi tribunalın hökmü ilə 1938-ci ilin mayın 7-də güllələyirlər.

Abdulla Rahımbayevin apardığı mübarizə 50 ildən sonra qismən də olsa öz bəhrəsini verdi, Sovetlər Birliyi dağılır və respublikalar müstəqilliklərini elan etdilər. Amma hələ də onların arzuları tam həyata keçməyib. Türk-müsəlman xalqlarının yaxınlaşması, dövlətlərinin sıx əməkdaşlıq etməsi hələ də mümkün olmur. Güclü xarici qüvvələr buna hər vasitə ilə əngəl olur.

ABDURAUF FİTRƏT



Abdurauf Fitrət (1886-1938) (آبدورراوف فیترئت, Özb. Abdurauf Fitrat, Rus. Абдурауф Фитрат)

Abdurauf Rəhim oğlu Fitratın doğum tarixi haqqında dəqiq bilgi əldə yoxdur. Qanyaqlarda onun 1884 və ya 1886-cıı ildə Buxara şəhərində səyyah tacir ailəsində doğulduğunu yazırlar. Doğulduğu şəhərdəki Miri Ərəb mədrəsəsinin seçilən tələbələrindən olan Abdurauf yeniyetməliyindən şeir yazmağa böyük maraq göstərir. Şərq şairlərinin əsərlərini dərindən bilən və islami elmlərə, eləcə də təbiət elmlərinə yiyələnən gənc şair inanclı bir müsəlman kimi 1904-cü ildə Hacc ziyarətinə yola düşür. Həmin illərdə Məkkə şəhəri Osmanlı dövlətinin tərkibinə daxil olduğundan ziyarətçilərin böyük bir qismi İstanbulda bir neçə gün durmalı, sənəd işlərini qaydaya salmalı və ziyarət hazırlıqlarını başa çatdırmalı olurdular. İstanbulda müxtəlif ölkələrdən gəlib Hhəcc ziyarətinə gedənlərin düşərgələri, karvansaraları, dərgahları və b. duracaq yerləri olurdu.

18-20 yaşlı Abdurauf Rəhim oğlu da Hacca gedərkən İstanbul mühiti ilə yaxından tanış olur. Məkkədə Hacc ziyarəti zamanı Hindistandan gələnlərin İngilis müstəmləkəçilərindən, Afrikanın quzeyindən gələnlərin fransızlardan, Rusiya imperiyasından gələnlərin Rus idarəçiliyindən şikayətləndiklərinin, müstəmləkədən qurtarmağın yollarını aradıqlarının şahidi olur. Ziyarətini başa vurub geri qayıdanda da İstanbulda xeyli qalır. Dini təşkilatlarda, təhsil ocaqlarında, qəzet və jurnal redaksiyalarında etdiyi söhbətlər onun dünyagörüşündə böyük dəyişiklik edir. Osmanlı dövlətini Avropanın inkişaf etmiş dövlətləri sırasında görmək istəyən vətənpərvərlərlə etdiyi söhbətlər Abduraufıu da Rusiyanın təsir dairəsində olan vətənini müstəmləkədən azad etmək uğrunda mübarizəyə həvəsləndirir.

Bütün Hacc ziyarətindən qayıdanlar kimi Abdurauf Rəhim oğlunu da xalq təntənə və hörmətlə qarşılayır. Lakin o, mühitlə barışa bilmir. Sanki burulğandaymış kimi çırpınır. Xalqının önündə getmək, onlara yol göstərmək üçün biliyinin və təcrübəsinin yetmədiyini görür. Odur ki, təhsil almaq və təcrübə toplamaq üçün yenidən bütün müsəlmanların ümid yeri olan, islam dünyasının xəlifəsi əyləşən Osmanlı dövlətinə qayıdır. 1909-cu ildə İstanbul Darülfününa qəbul olunur. İstanbulda yaşadığı illərdə ali təhsil almaqla kifayətlənmir, müxtəlif ictimai-siyasi təşkilatlarla sıx əlaqədə olur, xüsusən Gənc Türklər təşkilatına rəğbət bəslə-yir. Tələbəlik illərində

İstanbulda 1909-cu ildə “Münazara”, 1912-ci ildə “Hind səyyahı” və 1911-ci ildə ilk şeir kitabı olan “Sayha”nı çap etdirir.

Darülfununu bitirib yenidən Buxaraya dönən Abdurauf Rəhim oğlunu indi daha çox valideynlərinin verdiyi adla deyil məqalə, şeir, hekayə və pyeslərini imzaladığı Fitrət deyə çağırırlar. Bu təxəllüsü ona İstanbulda oxuyarkən müəllimləri verir.

Abdurauf Fitrət Buxara əmirinin zəngin və qədim kitabxanasında çalışır, əhalinin böyük qisminin savadsız, oxuyub-yazmaya meylli olmadığını gördüyündən onlara təsir etmək üçün pyeslər yazır, teatır tamaşları hazırlayır. Bu tamaşalarda cəmiyyətdəki nöqsanları göstərir.

Yüz illər boyu fars dilinin dəri ləhcəsində şeir yazmağı hünər sayan, dünyanın gedişindən xəbərsiz mühafizəkarlara qarşı duran Abdurauf Fitrət, Həmzə Həkimzadə Niyazi, Abdulhəmid Çolpan, Sədrəddin Ayni və b. Cığatay ədəbiyyatını dirçəltməyə çalışır, heca vəznində yazır, bədii cəhətdən yetkin və məzmunlu ədəbi nümunələr oxucuya təqdim edirlər. Onlar demokratik bir yol tutduqlarından yaratdıqları «Cığatay qrupu» adlı bir ədəbi təşkilat ətrafında az bir zamanda gələcəyin istedadlı şair və yazıçıları toplaşırlar.

«Cədidçilər» adlanan bu qrup mübarizələrində «Türk birliyi» ideyasını önə çıxarmaqla milli ruha, milli mənəviyyata, əxlaqa, tarixə söykənən ədəbiyyat yaradırlar.

Yerli hakimlərin xalqın maariflənməsinə diqqət yetirməməsi, bir çox din xadimlərinin yeniliklərə qarşı durması, necə deyərlər cəmiyyəti min il əvvəlki vəziyyətdə saxlamağa çalışması Fitrəti bərk narahat edir. Rusiyanın müstəmləkəsi altında olan Tatarlar, Azərbaycan ziyalılarının başladıqları cədidçilik-yenilikçilik hərəkatını Buxarada yaymağa başlayır. Məsləkdaşlarıyla birlikdə 1917-ci ilin fevral inqilabından sonra gizli "Yaş buxaralılar", yəni "Gənc Bbuxaralılar" təşkilatını qurur.

Bu təşkilat və cədidçilər mühafizəkar dindarlar tərəfindən dəyişiklikləri təbliğ etdiklərinə görə, inqilabçı sosialistlər tərəfindən isə milli dəyərlərə sahib çıxdıqlarına görə təzyiq göstərilir. Bütün bunlara baxmayaraq, Fitrət yolundan dönmür. 1916-cı ildə "Əbu Müslim", 1918-ci ildə "Temur sağanası", 1919-cu ildə "Oğuzxan" pyeslərini yazır.

Türküstanı və digər müstəmləkələri öz əlində saxlamağa çalışan bolşeviklər xalqı öz tərəfinə çəkmək üçün bərabərlik və azadlıq barədə bol-bol vədlər verir. Yerli xalqı 50 il tərəqqidən uzaq tutan çar idarəçiliyindən və yerli mühafizəkarların təzyiqlərindən cana doyan cədidçilərin bir çoxu bolşeviklərin şirin vədlərinə asanca aldanaraq onlarla işbirliyinə gedirlər.

Türküstanın nicat yolunu axtaran Behbudi, Münəvvər Kaari, Çolpan, Ubeydullaxoca, Abdulla Əvlani və digər ziyalılar kimi Fitrət də cəhalətdən, səfalətdən qurtarmaq, azad, ədalətli və demokratik

cəmiyyət qurmaq arzusu ilə bolşeviklərin fəallarına çevrilirlər. 20-ci yüzilin başlanğıcında istibdad altında inləyən millətin faciəli durumu haqqında «Düşündüyüm zaman könlüm yanar, ağlamaq istərəm, göz yaşım axmaz» deyən Fitrət 1917-ci il noyabrın 27-də, yəni Türküstanın muxtariyyəti elan edilən gün öz hisslərini belə ifadə edirdi: «Əlli ildən bəri əzildik, təhqir edildik. Əlimiz bağlandı, dilimiz kəsildi. Ağzımız qapandı. Torpağımız basıldı. Malımız talandı. Şərəfimiz heçə sayıldı. Namusumuz qəsb edildi. İnsanlığımız ayaqlar altında tapdandı. Dözdük, səbr etdik. Gücə dayanan hər əmrə boyun əydik. Bütün varlığımızı əldən verdik. Yalnız bir fikri vermədik, gizlədik, imanımız kimi saxladıq. Bu– , Türküstan muxtariyyətidir!»

Kommunist partiyasına üzv olan, Rusiya Kommunist (bolşeviklər) Partiyasının 5-ci qurultayında çıxış edən Fitrət Buxara yenidən işğal edildikdən sonra, yəni 1921-ci ildə maarif naziri, 1922-ci ildə nazirlər soveti sədrinin müavini, Kommunist Partiyası Buxara vilayət təşkilatının büro üzvü olur.

Bolşeviklər Fitrətin onların arzuladıqlarını həyata keçirmədiyini, milli məsələdə fikir ayrılıqları meydana çıxdığını gördükdə onu partiya və hökumət işindən uzaqlaşdırırlar.

1920-ci ildə "Çin seviş", 1921-ci ildə "Əbülfeyzixan", "Hind ixtilalcıları", 1926-cı i1də "Arslan" və 1930-cu ildə "Rozalar" pyeslərini, 1923-cü ildə "Qiyamət", 1928-ci ildə "Zəhranın imanı",

1930-ci ildə “Qıyşıq Eşan” adlı hekayələrini yazan Fitrət elmi axtarışlarla da ciddi məşğul olur, orfoqrafiyanın, yeni əlifbanın hazırlanmasında fəal iştirak edir. Onun klassik şairlər haqqında yazdığı bir çox elmi məqalələr özbək ədəbiyyatı dərsliklərinin yaranmasında əvəzsiz qaynaq olur.

Azərbaycanla da sıx bağlı olan Fitrətin ibtidai orta məktəblərin son sinifləri üçün “Okuv” kitabı 1917-ci ildə Bakıda çap olunduğu kimi, Əlipaşa Hüseyinzadə tərəfindən Azərbaycan türkcəsinə uyğunlaşdırılan “Hind ixtilalcçıları” pyesi Bakıda oynanılır.

Moskvada, Daşkəndə, Səmərqənddə və Buxarada ali məktəblərdə dərs deyən, İstanbulda, Bakıda, Səmərqənddə, Moskvada, Daşkənddə elmi tədqiqat institutlarında işləyən alim, şair, nasir, dramçı, fikir və dövlət adamı, musiqiçi Abdurauf Fitrəti 1937-ci ildə millətçilikdə suçlayıb 1938-ci ilin oktyabrın 4-də güllələyir, əsərlərinin kitabxanalarda, evlərdə saxlanmasını qadağan edirilər. Bütün bu qadağalara baxmayaraq, Abdurauf Fitrətin 1926-cı ildə çap etdirdiyi “Ədəbiyyat qeydləri”, 1927-ci ildə çap etdirdiyi “Özbək xalq musuqisi və onun tarixi”, 1928-ci ildə çap etdirdiyi “Özbək ədəbiyyatı nümunələri”, 1936-cı ildə çap etdirdiyi “Əruz haqqında” kitablarını qoruyub-saxlayır və gizlində oxuyurlar.

1956-ci ildə Sov.İKP 20-ci qurultayında İosif Stalin şəxsiyyətə pərəstişdə suçlanaraq 1930-ci illərdə həbs edilən və güllənənlərin əksəriyyətinə bəraət verildi. Lakin Fitrətin əsərlərinin hamısının çapına

icazə verilmir. Özbəkistan Respublikası 1991-ci ildən müstəqillik əldə etdiyini elan etsə də, hələ də Fitrətin əsərləri tam toplanıb çap olunmayıb.

Abdurauf Fitrəti güllələsələr də, o bir ədəbi məktəb yarada bildi. Özbəkistanın ünlü şairləri Elbək (1893-1939), Batu (1904-1940), Şakir Süleyman (1900-1942), Aybek (1905-1968), Aydın (1906-1953), Həmid Alimcan (1909-1944), Qafur Qulam (1903-1966), Mirtemir (1910), Zülfiyyə (1915-1993), Zəfər Diyar (1912-1946), Kamil Yaşen (1909) və b. Fitrət və Çolpan yaradıcılığından təsirlənmişlər.

BABUR ŞAH



(Babur şah (1483-1530), قاضی ظهیر الدین محمد بابور, Özb. Zahiriddin Muhammad Bobur, Rus Захир-ад-дин Мухаммад Бабу́р)

Zahirəddin Məhəmməd Babur 1483-cü ilin fevralın 14-də indiki Özbəkistan Respublikasının Əndican şəhərində anadan olmuşdur. O, Əmir Teymurun kötücəsidir. Atası, Fərqanə hakimi Ömər Şeyx Mirzənin nəticəsi, anası Qutluğ Nigar xanım isə Çingiz xanın on dördüncü nəsildən törəməsi idi. Babur anadan olanda Ömər Şeyx Mirzə Səmərqəndə məşhur sufi şair Xacə Nəsrəddin Übeydullah Əhrarın yanına gələrək ondan oğluna ad qoymasını xahiş etmişdir. Əhrar körpəyə Zahirəddin Məhəmməd adını qoymağı məsləhət görmüş, sonra bir az düşünərək: «Oğlunu xalqın bu adla çağırması çətin olacaq, qoy onlar «Babur Mirzə» desinlər», – demişdir. Azərbaycanda pələng cinsindən olan çevik yırtıcıya "bəbir", cığataylar isə "babur" deyirlər. Bu gün də Azərbaycanda Bəbir adına, Bəbirov soyadına rast gəlinir.

Baburun anası Qutluğ Nigar xanım Sultan Mahmudun böyük bacısı, Monqolustan xanı Yunusun qızı idi. Babur ana nənəsi isə Dövlət bəyimin yanında böyümüş, ondan tərbiyə almışdır.

Atası Baburu on yaşında ikən dövlət idarəçiliyini öyrənməsi üçün Əndicana vali təyin edir. İki il sonra Ömər Şeyx Mirzə həlak olur və Babur 1494-cü il iyunun 12-də Fərqanə vilayətində taxta çıxır. Yavaş-yavaş hakimiyyətini gücləndirən Babur 14 yaşında Səmərqəndi alır. Ancaq ağır xəstələndiyi üçün uzun müddət burada fəaliyyətsiz qalır, ətrafındakı bəylər onu tərk edirlər.

Baburun ən inandığı bəylərindən biri, Axsi qalasının qalabəyi Uzun Həsən Əndicanı mühasirəyə alır. Bunu eşidən Babur yanındakı 250 nəfərlik dəstə ilə Əndicana doğru hərəkat edir. Lakin şəhərin ələ keçdiyini öyrəndikdə döyüşə atılmayaraq dayısının yanına Xocəndə gəlir. Burada özünə tərəfdarlar topladıqdan sonra 1499-cu ildə Əndicanı Uzun Həsəndən alır.

Taxta çıxdığı gündən Hüseyn Bayqaranın bəyləri ilə savaşan Babur 1501-ci ilin yayında Şeybani xanla döyüşməli olur. Səripul müharibəsində ona məğlub olduğundan Səmərqəndi bir-neçə nəfərlə tərk edərək Daşkəndə dayısı Sultan Mahmud Mirzənin yanına gəlir. Monqolustandan Daşkəndə qardaşının yanına gəlmiş Əhməd xan da gənc Babura yardımçı olur. O, Fərqanə üzərinə yürüş edərkən Əndican yaxınlığında qəfildən hücuma məruz qalır. Özü isə qoşununu

itirərək Əndican bəyi Əhməd Tənbəlin qılınc zərbəsilə başından ağır yaralanan Babur səkkiz yaxın silahdaşıyla birlikdə labüd ölümdən xilas olaraq dayısının yanına qayıdır.

Babura və dayılarına qarşı düşmənçilik edən Şeybani xan hücuma keçir və onların əsgəri birliklərini darmadağın edir. Babur bu dəfə Fərqanənin cənubundakı dağlara qaçır. Uzun müddət orada ağır şəraitdə gizləndikdən sonra 1504-cü ilin iyun ayında Xorasana Hüseyn Bayqaranın yanına getmək üçün əksəriyyəti qadınlardan və uşaqlardan ibarət olan 250 nəfərlik karvanla yola çıxır.

Qunduz hökmdarı Xosrov şahın ərazisindən keçərkən xalq iki ulu xaqanın törəməsini böyük sevgi ilə qarşılayır. Şahın qardaşı Baqi Çağanyani başda olmaqla, bir çox cəsur döyüşçü ona qoşulur. Qısa müddətdə Baburun ətrafında böyük bir ordu toplanır. Babur istiqaməti dəyişdirərək bu dəfə Xorasana deyil, Hindiquş dağlarını keçib Kabilə üz tutur. Qan tökmədən Müqim Arğundan şəhəri alır və 1506-cı ildə özünü Kabil şahı elan edir. Həmin il Mahım bəyimlə evlənir.

1510-cu ildə Şeybani xan Şah İsmayıl Xətayi ilə döyüşdə məğlub olur və öldürülür. Bu hadisə onu ata mülkü Mavəraünnəhri yenidən ələ keçirməyə həvəsləndirir. Ona görə Şah İsmayılla müqavilə bağlayır, onun adına xütbə oxutdurur və sikkə kəsdirir. Babur şah Xətainin hərbi qüvvələrinin yardımı ilə Hisarı, Buxaranı və Səmərqəndi ələ keçirir. Çaldıran

savaşında məğlubiyyətə uğradığından səfəvi əsgəri birlikləri geri çəkilməli olur. Çarəsiz qalan Babur dörd illik fasilədən sonra Kabilə geri qayıdır və bütün diqqətini bu coğrafiyaya yönəldir. 1519-cu ildə siyasi məqsədlərlə Şah Mənsurun qızı Bibi Mübarəkə-Əfqani Ağaçə ilə evlənir.

Babur şah 1519-1520-ci illərdə Pəncabı, 1522-ci ildə Qəndaharı, 1523-cü ildə Lahoru, 1526-cı ildə Dehli və Aqranı ələ keçirir. Beləcə, Böyük moğollar imperiyasının təməlini qoymuş olur.

1527-ci il mayın 16-da Kanvanda Rana Sankanın ordusunu yenən Babur şah «Qazi» ünvanını alır. O, 1527-1529-cu illərdə kiçik hakimlərin başlatdığı üsyanları yatırır, Qanq çayını keçərək Benqal hökmdarını əzir və 1529-cu il iyunun 24-də Aqra şəhərinə qayıdır.

Uşaqlığından bəri ağır xəstələliklər keçirən, döyüşdə yaralanan, xüsusilə də bataqlıq qızdırmasından əziyyət çəkən Baburun səhhəti ciddi şəkildə pozulur. Bu azmış kimi məğlub etdiyi İbrahim Ludinin anası tərəfindən aşpaz Əhmədin vastəsilə yeməyinə ağı qatılır. Beləcə, böyük hökmdarın – Baburun vəziyyəti gündən-günə ağırlaşır.

Oğlu şahzadə Hümayunun ağır xəstələnməsi Babura öz dərdini unutdurur. O, xüsusi bir ayinə əməl edərək oğlunun yatağı başına üç dəfə dolanır, Hümayunun xəstəliyini öz üzərinə götürdüyünü bildirir, bunu gerçəkləşdirməyi sidq-ürəklə Allahdan niyaz edir. Tezliklə Hümayun tamamilə sağalır.

Babur şahsa oğulları Hümayun, Kamran, Əskəri və Hindal mirzələri, qızları Gülrəng, Gülçöhrə və Gülbədən bəyimləri, eləcə də ona sadiq bəyləri və sərkərdələrini yanına çağıraraq böyük oğlu Hümayunu padşah təyin edir.

1530-cu il dekabrın 26-da 48 yaşında dünyasını dəyişən hökmdarı Aqrada dəfn edirlər. Sonra isə vəsiyyətinə uyğun olaraq cənazəsini Kabilə gətirərək təntənə ilə dəfn edirlər. 1646-cı ildə baburilər sülaləsindən Cahan şah onun Bağı-Babur adlı bağda yerləşən qəbri üzərində bir məqbərə tikdirir.

Uşaq ikən xüsusi saray tərbiyəsindən başqa heç bir təhsil almayan, ömrünün çoxunu döyüşlərdə və dövlət quruculuğunda keçirən Babur şahın elmin müxtəlif sahələrinə dair bir sıra maraqlı əsərlər vardır.

Hərb sənətində görkəmli sərkərdə, mahir taktik və strateq, qılınc oynatmaqda, ox atmaqda, minicilikdə tayı-bərabəri olmayan cəngavər, memarlıq və peyzaj memarlığı sahəsində gözəl mütəxəssis, botanika, zoologiya, coğrafiya, astronomiya üzrə heyrətli dərəcədə dərin bilik sahibi, eyni zamanda gözəl şair, nasir, ədəbiyyatşünas, əruz nəzəriyyəçisi, tərcüməçi, musiqişünas, bəstəkar, tarixçi və etnoqraf kimi tanınan bu insana əsərləri dünya şöhrəti qazandırmışdır.

Babur ədalətli bir şah kimi haqsızlığa qarşı həmişə barışmaz olmuş, yağmaçılığı, talançılığı, çapovulçuluğu ölümlə cəzalandırmış, xalqın taxılını, mal-qarasını zorla əlindən alan əsgərləri dar ağacından asdırmışdır. Babur öz ölkəsinin abadlığı

üçün var qüvvəsi ilə çalışmışdır. Fəth etdiyi ölkələrdə yeni yollar, su anbarları, bəndlər, körpülər, dini ibadət yerləri, hamamlar, saraylar, ictimai binalar inşa etdirmiş, bu qurğuların bir qismini şəxsən özü layihələşdirmiş, memarların və mühəndislərin çalışmalarına daim nəzarət etmiş, layihələri yoxlayaraq öz dəyərli məsləhət və göstərişlərini vermiş, bunların qısa müddətdə və keyfiyyətlə yerinə yetirilməsinə çalışmış, interyer ve eksteryerlərin tərtibatına qədər hər şeylə maraqlanmışdır.

Ticarət yolları üzərində karvansaralar, düşərgələr tikdirmiş, çeşmələr çəkdirmiş, quyular qazdırmış, yolçular üçün iaşə mərkəzləri, heyvanlar üçün yem anbarları, asayişi və təhlükəsizliyi təmin etmək məqsədilə indiki mənada polis məntəqələri yaratmış, məsafələri göstərməklə yol işarələri qoydurmuşdur. Onun əmri ilə Kabildən Aqraya qədər olan məsafə dəqiq ölçülmüşdür. Baburun sayəsində Hindistanda memarlıqda və incəsənətdə ortaq hind-türk üslubu yaranmış, qarşılıqlı mədəni mübadilə baş vermişdir.

Babur şahın işğal etdiyi bölgənin sakinlərinin övladlarından böyük siyasi xadim və alim Cəvahirləlr Nehru onun fəaliyyətinə yüksək qiymət verərək yazmışdı: «Baburun Hindistana gəlməsi ilə böyük tərəqqi yarandı, yeni stimullar həyata, incəsənətə və memarlığa nəfəs verdi, mədəniyyətin digər sahələri isə qarşılıqlı təmasa keçdi. Babur valehedici şəxsiyyət idi, İntibah dövrünün tipik hökmdarı, cəsur, bacarıqlı

insanı idi, o, incəsənəti, ədəbiyyatı sevirdi, həyatdan zövq almağı xoşlayırdı».

Babur Cığatay ədəbiyyatında Əlişir Nəvaidən sonra uca zirvə sayılır. Şeirin müxtəlif janrlarında qələmini sınamış şairin 1519-cu ildə tərtib edilmiş «Kabil divanı», 1528-1529-cu ildə Aqrada tərtib olunmuş «Hind divanı» dünya kitabxanalarını bəzəyir. Divanlar mövzu və janr baxımından çox əlvan olmaqla, əsasən, eşq və məhəbbəti, həsrət və hicranı əhatə edir. O, Xacə Übeydullah Əhrarın «Risaleyi-validiyyə»sini türk dilinə böyük ilhamla çevirmişdi.

Yaradıcılığında risalələrə geniş yer verən Baburun «Əruz risaləsi»ndə əsas diqqəti türk əruzuna yönəltmiş, tüyuğ, qoşuğ, tarxani, öləng və digər janrları ətraflı təhlil etmiş, «Mübəyyəni-zəkat» risaləsində islamın hənəfilik təriqəti ilə əlaqədar zəkat, xüms, əşar, xərac və s. haqqında məsnəvi tərzində məlumat vermiş, «Etiqadiyyə» risaləsində isə dinin əsaslarını və fiqhi bir ilahiyyatçı müsəlman alimi səviyyəsində təhlil etmişdir. Çox təəssüf ki, «Musiqi elmi» və «Hərb işi» əsərləri günümüzədək gəlib çatmamışdır.

Türk və islam ədəbiyyatında memuar janrında yazılmış ilk əsər sayılan «Baburnamə» isə 1494-1529-cu illər arasında Türküstanda, Əfqanıstanda və Hindistanda baş verən hadisələrin salnaməsidir. «Baburnamə» hələ müəllifin öz sağlığında böyük əksəsəda doğurmuş, Əkbər şahın sarayında üç dəfə farscaya tərcümə edilmişdir.

Ömrünü vətən və millət yolunda şam kimi əritmiş, şanlı türk hökmdarı və dövlət xadimi, baburilər dövlətinin və ya Böyük Moğol imperiyasının banisi, şair, nasir, tarixçi, coğrafiyaçı, etnoqraf, ensiklopedik zəka sahibi Qazi Zəhirəddin Məhəmməd Babur şahın ömür yolu və yaradıcılığı sonrakı nəsillərə bir nümunə olmuşdur.

ELBƏK (Məşriq Yunus oğlu)



(Məşriq Yunusov (1898-1942) (یونوس ائلبک اوو, Rus. Машрик Юнусов)

Elbək kimi tanınan Məşriq Yunus oğlu 1898-ci ildə Bostanlıq rayonunun Xumsan kəndində anadan olub. 1956-cı ilədək Çimqan dağının ətəyindəki kənd Qazaxıstan SSR-nin tərkibin imiş. Ona görə də bəzən Məşriq Yunus oğlunu Qazaxıstanda, hətta Nanay kəndində doğulduğunu da yazırlar. Rusiyanın təsiri altında Elbəyin də atasının adı sonradan soyadına çevrilərək Yunusov yazılmağa başlanmışdır.

Elbəyin uşaqlıq və gəncliyi bölgənin ən ağır, gərgin və qarışıq günlərinə düşüb. Belə ki, 19-cu yüzildə zəifləmiş, pərakəndə və kiçik dövlətlərə parçalanmış Türküstanı öz təsiri altına salmaq uğrunda Böyük Birtaniya ilə Rusiya arasında bir rəqabət gedirdi. 1860-cı illərdə Rusiya bölgəyə ordu yeridərək müqavimət göstərənlərə qəddarlıqla divan tutmuşdur. Əhalinin bir qismi döyüşlərdə, mühasirəyə alınmış qalalarda məhv olmuş, bir qismi də kəndlərini, evlərinin tərk edərək çöllərə, dağlara qaçdıqlarından aclıqdan və xəstəlikdən ölmüşdür. Bölgənin əhalisinin

sayı azalmış, təsərrüfat bütünlükdə dağılmış, necə deyərlər, iqtisadi bağlar qırılmışdır.

Daşkəndi işğal etdikdən sonra, yəni 1867-ci ildə Rusiya Türküstan general qubernatorluğunu qurmuşdur. Bölgə əhalisi bu idarəçilikdən narazı olsa da, təsərrüfatlarını yenidən dirçəltməyə başlamışdır. Elbəyin ata-babası Çirçik çayının sağ sahilindəki dağ yamacında yerləşən Xumsan kəndini yenidən abadlaşdırmışlar. Yunusun beş oğlu olmuşdur. Ailənin kəndin qüzeyindəki əkinəyararsız sayılan, daşlı-qayalı sahəsini minbir əziyyətlə təmizləyərək oraya arx çəkib, bağ salır. Heyif ki, şairin də uşaqlıq və gəncliyində çalışdığı meyvə bağı kolxoza verildikdən sonra oraya gələn arx təmizlənib, təmir edilmədiyindən ağaclar quruyub məhv olur.

Kəndlərindəki dörd illik məktəbi bitirən Məşrik 1911-ci ildə Daşkənd şəhərinə gələrək Quyu Divanbəyi məhəlləsində Eşon xoca Xoninin yeni üsulla açdığı, üsuli-cədid adlandırılan məktəbin son sinfinə qəbul olunur. Maddi sıxıntı içərisində yaşasa da, günəmuzd fəhləlik etsə də, bəzən gecələməyə yeri olmadığından arabaların altında yatsa da, o, təhsilini yarıda qoymur.

Şayxontoxur yaxınlığında dövrünün görkəmli maarifçisi Münəvvər Qarının açdığı Rüşdiyyə məktəninə daxil olur. Bu məktəbi həm də "Nümunəvi" məktəb adlandırılırdı.

Məşriq iki ilə Rüşdiyəni bitirdikdən sonra müəllimliyə başlayır. Yeniyetməliyindən yazdığı şeirlərinə

Elbək, yəni „torpağın ağası” imzasını qoyur. O, müəllim işləməklə yanaşı, mətbəədə də çalışır. Beləcə, mətbuatla əlaqəsi yarandı. Mətbuatla sıx əlaqə onu yaradıcılığa həvəsləndirdi. 1917-ci ildə ilk mətbu əsəri işıq üzü görür.

Daşkənddə yaşadığı illərdə ictimai-siyasi həyatda baş verən böyük dəyişikliklərin şahidi olur. Bir tərəfdən bölgənin iqtisadi inkişafına təkan verəcək Daşkənd-Fərqanə-Buxara dəmiryolu çəkilir, o biri tərəfdən Rus ordusunun Daşkənd şəhəri yaxınlığında yerləşən istehkamçılar bölüyü üsyan qaldırır. Birinci Dünya Savaşında çətin vəziyyətdə qalan Rusiya Türküstandan gəncləri hərbi səfərbərliyə alaraq ön cəbhədə işlətmək istəyirdisə, o biri tərəfdən də xalq kütlələri hökumətin bu qərarına kəskin etiraz edir. Nəticədə, Sovet dönəmi tarix kitablarında Orta Asya üsyanı kimi daxil olmuş ümumxalq hərəkatları başlayır.

1916-cı ildə baş vermiş bu üsyanı yatırmaq üçün hökumət cəbhə xəttindən də ordu hissələri gətirməli olur. Qəddarlıqla yatırılan üsyanın şahidi olan Elbəyin daxilində Rus müstəmləkəçilərinə qarşı bir qəzəb baş qaldırır. 1917-ci ilin fevralında çar İkinci Nikolayın taxtdan salınmasını sevinclə qarşılayır. Lakin onun sevinci uzun sürmür. Elə həmin ilin noyabrında hakimiyyəti silahlı üsyan yolu ilə ələ alan bolşeviklər sözdə bərabərlikdən, sosial ədalətdən, əsarət altından olan xalqlara azadlıqdan bol-bol danışsalar da, əməldə

çar Rusiyasının müstəmləkəçilik siyasətini davam etdirirlər.

1917-ci il noyabrın 4-də çağrılan Müsəlman Qurultayı Türküstanın muxtariyyatını elan edir və Kokand hökumətini qurur. Bolşeviklərin Kolçaka qarşı döyüşlərə başının qarışmasına baxmayaraq, vaxt və güc tapıb 1918-ci ilin fevralında Kokand hökumətini qan içində boğur. Bu gənc şairə sarsıdıcı təsir göstərir. Kokandın od-alova bürünməsini, dinc əhalinin rəhm edilmədən öldürülməsini şeir dililə təsvir edir. Onun bolşeviklərin qəddarlığını təsvir edən "Kurolqa" şeri az bir zamanda qazax, qırğız və özbək vətənpərvərlərinin dillər əzbərinə çevrilir.

Bolşeviklərin Türküstanda müqavimət hərəkatını yatırmaq, çar Rusiyasının keçmiş sərhədlərin bərpa etmək üçün əsas üstünlüyü gücə, silahlı qüvvələrə verdiklərindən ideoloji məsələləri arxa plana atmışdılar. Milli məsələni təbliğ edənlərə, vətənin azadlığının tərənnümçülərinə o qədər də sərt münasibət bəsləmirdilər. Əksinə, onların fəaliyyətinə bir az da şərait yaradırdılar.

Elbək də bundan yararlanaraq «Turan», «Türk sözü», «Ulu Türküstan» və b. şeirlərini çap etdirməklə millətinin və xalqının dərdinə yanan bir şair kimi tanınır. Bununla yanaşı, onun dünyagörüşündə bir ziddiyət də özünü göstərir. Sovetlər işğal etdikləri bölgələrdə öz ideyalarını təbliğ etmək və xalqları bir-birindən ayırmaq üçün milli dillərdə məktəblər, qəzet və jurnallar açılmasına xüsusi diqqət yetirirdilər. Hətta

iqtisadi vəziyyətlərinin olduqca çətin olmasına baxmayaraq, 1920-ci ildə Daşkənddə Türküstan Unversitetinin açılmasını qərarlaşdırırlar. Onların bu cür maarifçilik fəaliyyəti Elbək kimi gənclərə xoş təsir göstərir və onları bolşeviklərin yardımçısına çevrir.

1920-ci ildən texnikumda, mədəni quruculuq institutunda müəllimlik edən Elbək məqalələr yazır, araşdırmalar aparır, dərsliklər hazırlayır.

Bolşeviklər Türküstanda mövqelərini möhkəmləndirənədək Xivə xanlığı və Buxara Əmirliyi ilə ittifaqa da girdilər. Fərqanə vadisindəki müqavimət hərəkatını qırdıqdan sonra Xivə xanlığı və Buxara Əmirliyində hakimiyyəti devirib onların yerində Xarəzm Xalq Sovet Respublikası, Buxara Xalq Sovet Respublikası yaratdıqlarını elan etsələr də, bölgəni tam müstəmləkə halına salmaqdan çəkinmirlər.

Bu işdə onlara yerli rusyapərəstlər də yardımçı olur. Yeni hökümətdə vəzifə verdikləri yerli kadrların bir çoxu yenilik, modernləşmə adı altında Rus dilini hakim dilə çevirməyə, kommunuzm ideolagiyası adı altında ruslaşdırma siyasəti yeridilməsinə yardımçı olurlar. Belə bir zamanda Elbək yazır:

Qəmli quşum, cəh-cəh vurub gəl söylə,
De, kimlərdir Türk dilini satanlar?
Bülbül kimi cəh-cəh vuran bu dili,
Utanmadan bu ölkədən atanlar?
Baldan şirin, candan əziz türkcəni
Düşünmədən qəflət içrə yatanlar?

Oxu, quşum, yak onların canını!
Göylərə yay Türk dilinin şanını!
Burax, onlar yoldan azıb batsınlar,
El içində boşboğazlıq satsınlar!

Şeirdən aydın görünür ki, Elbək bu gün özbək dili dediyimiz dili baldan şirin, candan əziz Türkcə adlandırır, bu dili satanlara qəzəbini bildirir, Türk dilinin şanını göylərə yaymaq istəyir.

1926-cı ildə İsmayıl Sədri, Aşurəli Zahiri, Rəhim İnaqamov, Şakircan Rəhimov və Nazir Terakulovla birlikdə Bakıda keçirilən Türk Xalqlarının Birinci Qurultayına gələn Elbək buradan böyük təəssuratla geri dönür. O, haqsızlığa, nahaq qan axıdılmasına etirazını "Lena gülləboranı", "Azadlıq qurbanlarına", "Özbək igidinə" və b. şeirlərində bildirir.

Sovetlər Türküstanda mövqelərini möhkəmlətdikcə millətçi ziyalıların təqibini də, mətbuat üzərində senzoru da gücləndirir. Elbək kimi şairlər "Sevgilimə", "Bülbülə", "Dəniz", "Ey qadın", "Qış", "Solğun çiçək", "Könül çiçəyi", "Bahar" və b. lirik, təbiət təsvirinin tərənnümünü əks etdirən şeirlər yazır. Daim axtarışda olan, Özbək şeirin yeniləşdirməyə çalışan Elbək gah sərbəst vəzndə yazır, gah heca vəzninin yeni qəliblərini Özbək ədəbiyyatına gətirirdi.

Şair "Müjdələr" şeirində yazır:

Yel gəzər, yellər gəzər, yellər gəzər,
El sezər, ellər sezər, ellər sezər.

…Qəmli eldə, əsir eldə dustaqlar,
Qap-qaranlıq zindan içrə hücrələr.
Bir yel əsib onları da yalayar,
Vermək istər azad eldən müjdələr.

Sanki eyhamla vətəninin və vətən övladlarının durumunu oxucusuna anladır.

Elbək oçerk və hekayələr yazmaqla yanaşı, folklorşünaslıq və dilçilik sahasində də olduqça dəyərli əsərlər yazır. O, Özbək ədəbi dilinin formalaşmasından bəhs edən "Yazı yolları" monoqrafiyasını tamamlayır, omonimlər sözlüyünü, nəğmələr məcmuəsini, nağıllar toplusunu, uşaqlar üçün "Balalar nəğməsi" kitabını, eləcə də "Örnək", "Bilim", "Ədəbi parçalar", "Gözəl yazıçılar" və b. dərs vəsaitlərini çap etdirir.

"Mühit içində" şeiri şairin ömür yolunu işıqlandran faktlarla zəngindir.

1937-ci ildə Özbək ədəbiyyatının öncüllərindən olan Fitrət, Çolpan, Abdulla Qədiri, Osman Nosir, Ziya Səid və b. ilə birlikdə Elbəyi də həbs etdilər. "Yaş Leninçi" qəzetinin 20 avqust 1937-ci il sayında Jumaniyaz Şaripovun Elbəyi sərt ittiham edən məqaləsi çap olunur. Özbəkistan Yazıçılar İttifaqının iclaslarında Şəms, Anqabay və b. Elbəyi antisovet təbliğatda, millətçilikdə suçlayırlar. Həbs düşərgələrinə göndərilən 39 yaşlı şair çətinliklərə 5 il dözə bilir, 1942-ci ilin qışında elə oradaca dünyasını dəyişir.

Uzun illər Elbəyin adını çəkmək və əsərlərini çap etmək yasaqlanır. Şairin oğlu Uluğbəy Elbəyov minbir çətinliklər içərisində yaşasa da, iradəsini toplayaraq məşhur şahmatçı və müəllim kimi tanınır.

Özbəkistan Sovet əsarətindən qurtulduqdan sonra Fitrət, Çolpan, Abdulla Qədiri, Osman Nosir, Ziya Səid və b. ilə birlikdə Elbəyin də əsərləri çap olunur, adlarının əbədiləşdirilməsi üçün bir sıra tədbirlər həyata keçirilir.

ƏLİŞİR NƏVAİ



Nizaməddin Mir Əlişir Nəvai (1441-1501). Cığatayca: نظام الدين على شير نوايى; Özb.: Alisher Navoiy; Uyğurca: نىزامىدن ئەلشىر ناۋائى; Farsca: نظام الدين على شير هروى , rus. Алишер Навоий)

Nizaməddin Mir Əlişir Nəvai 1441-ci il fevralın 9-da Herat şəhərində doğulmuşdur. O, Səbzəvar vilayətinin hakimi olmuş Qiyasəddin Kiçginə Bahadurun oğludur. Atası daşıdığı vəzifələrə görə müxtəlif şəhərlərdə yaşamalı olmuşlar. Kiçik yaşlarından fitri istedadı ilə seçilən Nizaməddin Mir Əlişirin hərtərəfli təhsil görməsi üçün atası dövrün tanınmış şair və ədibləri, xüsusən Türk ədəbiyyatı qarşısındakı böyük xidmətləri ilə seçilən Həsən Ərdəşiri və o illərin şöhrətli şairi Lütfini oğluna müəllim təyin etmişdir.

Sonralar Nizaməddin Mir Əlişir Heratdakı, Məşəddəki və Səmərqənddəki mədrəsələrdə dövrün ən məşhur alimlərindən dərs almışdır. Onun şairlik istedadı 12 yaşından hiss edilməyə başlamış, 15 yaşında isə şeirləri əldən ələ gəzmişdir. 1464-1465-ci illərdə dövrün ədəbi tələblərinə uyğun Divan

yazmışdır. 21 yaşlı gəncin bir kitab həcmində müxtəlif şeirləri yazması normal hal sayıla bilər. Divan tərtib etmək üçün Ərəb əlifbasının sırasını gözlənməklə hər hərflə başlayan bir və ya bir neçə qəzəl yazılmalıydı. Əlişir Nəvai qaydalara tanınmış şairlər kimi peşəkarcasına Divan yaradarkən şeirlərinin dilinə xüsusi diqqət yetirmiş, alınma sözlərdən qaçmağa çalışmışdır. Bu da onun Cığatay ləhcəsində yazdığı "Bədaye ül-bidayə" divanının Türk dünyasının hər yerində rahat oxunmasına şərait yaratmışdır.

Atasının tutduğu mövqeyə görə Xorasanda hökümdar sarayında təlim-tərbiyə görməsi onun gələcək həyat yolunu müəyyənləşdirmişdi. Gələcəyin istedadlı alimi, şairi və dövlət adamı olan Hüseyin Baykara ilə bir sarayda böyümələri, birlikdə təhsil almaları da Nəvainin istedadının cilalanmasında böyük rol oyanmışdır. Gənc şair, demək olar ki, maddi sıxıntı nə olduğunu bilməmiş, istədiyi kitabı alıb oxumağa, dövrünün məşhur elm, sənət adamlarıyla görüşüb söhbət etməyə maddi imkanı olmuşdur.

İmkanlarının belə geniş olmasına baxmayaraq, o, əyləncələrə, saray intiriqalarına və b. şeylərə vaxtını xərcləməmişdi. Diqqətini ən çox elmi biliklərə, həyat məsələlərini, dövlət idarəçiliyini öyrənməyə həsr etmişdir.

Çox gənc yaşlarında, yəni 1468-ci ildə Xorasan hakimi olan Hüseyin Baykara yaşıdı və yaxın dostu Əlişir Nəvaiyə də sarayda məsul vəzifə vermiş, öncə ən etibarlı adamı kimi möhürdar təyin etmiş, 1472-ci

ildə isə onu vəzir təyin etmiş, əmir tituluna laiq görmüşdür.

Sultan Hüseyn Bayqaranın elmli, ziyalı, nüfuzlu adamlara,–alimlərə, şairlərə, musiqiçilərə, rəssamlara, xəttatlara qayğı göstərməsi, onlara himayədarlıq etməsi Əlişir Nəvainin də əl-qolunu açmışdır. O, qısa bir zamanda zəngin saray kitabxanası yaratmışdır. Burada yalnız kitablar toplanmır, yeni kitablar yaradılır, elm və mədəniyyət xadimləri müzakirələr aparırlarmışlar. Saray kitabxanası dövrünün araşdırma mərkəzi rolunu oynayırmış.

Bu araşdırmalar, müzakirələr də hökümətin gündən-günə qüdrətlənməsinə, Əlişir Nəvainin isə xalqın köməyinə yetən, əməli saleh şəxs, nəcib insan kimi ad-san qazanmasına şərait yaradırdı. Onun xidmətlərindən biri də ölkədə böyük tikinti işlərinin aparılmasına qayğı göstərməsi, bu mühüm sahəyə rəhbərlik etməsi olmuşdur.

Gənc yaşlarından hökumət qulluğunda olan Əlişir Nəvai məmur özbaşınalığına, ədalətsizliyə, zorakılığa qarşı olmuşdur. Bu da var-dovlət hərisi olanların xoşuna getməmiş, intiriqalarla Əlişir Nəvaini sultanın gözündən salmağa çalışmışlar. Əlişir Nəvai də intriqalardan bezərək 1478-ci ildə vəzir vəzifəsindən imtina etmiş və saraydan uzaqlaşmışdır. Lakin hökümdarın həmişə Əlişir Nəvai kimi ağıllı və tədbirli bir insana ehtiyacı olduğuna görə onunla əlaqəsini kəsməmişdi.

Saraydan uzalqaşdıqdan sonra Əlişir Nəvai bədii və elmi yaradıcılıqla daha aktiv məşğul olmaq imkanı qazanmışdır. 1476-1483-cü illərdə ana dilində yazdığı şeirlərini "Nəvadir ül-nahiyyə" divanında toplamışdır. Farsdilli poeziyanın hakim olduğu, hətta türk hökümdarlarının sarayında belə farsca yazıb-yaratmaq, şeir söyləmək şərəf sayıldığı bir zamanda Əlişir Nəvainin türkcə yazması suyun axınına qarşı üzmək kimi dəyərləndirmək lazımdır. Onun ana dilində yazdığı şeirlər o qədər axıcı, rəvan və yüksək sənətkarlığı ilə seçilirdi ki, farsca yazan şairlər belə onun ustalığına, dilinin şirinliyinə heyranlıqlarını gizlədə bilmirdilər.

Əlişir Nəvai yalnız şeir yazmaqla kifayətlənmir, Türk ləhcələrini öyrənir, dil tarixi ilə maraqlanlr, arxaikləşən, məhəlliləşən bir çox sözü şerə gətirməklə onların aktivləşməsinə şərait yaradır, bununla ədəbi dili zənginləşdirmiş olurdu.

Şərq ədəbiyyatının janrlarına incəliklərinə qədər bələ olan şair o dövrədək işlədilən 21 şeir növünün 16-dan istifadə etmişdir. Onun fəlsəfi düşüncəsinin məhsulu olarn lirik və epik əsərləri, ədəbi-bədii səviyyəsinə görə də şah əsərlər sırasına daxil olmuş və dünya ədəbiyyatı tarixində özünəməxsus dəst-xətti, üslub əlvanlığı ilə seçilmişdir.

Yaxın dostu Əbdürrəhman Caminin məsləhəti ilə Nizami Gəncəvinin farsca yazdığı "Xəmsə" əsərinə cavab kimi Türkcə qələmə aldığı beşlik Əlişir Nəvai yaradıcılığının zirvəsi sayılır. Beşliyin birinci əsəri

olan, didaktik səciyyəli “Mömüinlərin heyrəti”ni 1483-cü ildə bitirir. Bu əsərdə də Nizaminin “Sirlər xəzinəsi”ndə olduğu kimi ədalət, təvazükarlıq, qənaət, ədəb, vəfa, düzlük kimi insani sifətlər tərifləlnilir, hiylə, kin-küdurət, xəbislik, zülüm, cəhalət və b. mənfi xüsusiyyətlər pislənilir.

Yaradıcılıqda olduqca məhsuldar olan Əlişir Nəvai “Xəmsə”sinə daxil etdiyi “Fərhad və Şirin”i, “Yeddi səyyarə”ni və “Leyli və Məcnu”nu 1484-cü ildə, “Sədd-i İsgəndər”i 1485-ci ildə tamamlayır. Bu nəhəng və qüdrətli əsər Türk xalqlarının ədəbiyyatında yeni ədəbi hadisə kimi qiymətləndirilməklə yanaşı, Türk poeziyasına yeni ədəbi güvvələrin də gəlişinə səbəb olur.

Əlişir Nəvai 1487-ci ildə Astrabad vilayətinə hakim təyin edilir. Lakin o yaradıcılığa daha çox bağlı olduğundan Astarabadda az bir müddət işlədikdən sonra Heratar qayıdır. Dövlət işlərindən uzaqlaşaraq həyatını bədii yaradıcılğa və elmi axtarışlara həsr edir.

Onun “Mühakimət ül-lüğəteyn”, yəni „İiki dilin müqayisəsi” əsəri orta əsrlərdə böyük hadisə kimi qarşılanır. Fars dilinin meydan suladığı, hakim olduğu bir dönəmdə Əlişir Nəvainin elmi əsaslarla Ffars dili ilə Türk dilini müqayisə edərək Türk dilinin zənginliklərini ortaya qoyması hamını heyrətləndirir. Bu kitabı ilə o, Türk gənclərini ana dilində yazıb-yaratmağa ruhlandırır.

Əlişir Nəvainin 1491-ci ildə tamamladığı “Məcalis-ün nəvais”, “Nəfis məclislər” təzkirəsində 15 yüzildə yaşamış 400-dən çox şairin həyatı

haqqında məlumat və şeirlərindən nümunələr verilmişdir. Bu möhtəşəm əsəri araşdırıcıların orta əsr ədəbiyyat ensiklopediyası adlandırmaları heç də təsadüfi deyildir. Yazıldığı vaxtdan 520 ildən çox keçsə də, bu gün belə elmi əhəmiyyətini itirməmişdi.

Cığatayca bədii nəsrin ilk kamil nümunəsi sayılan "Məhbub ül-qulub", yəni "Ürəklərin sevgisi" əsərində dövlət idarəçiliyi və ailə məişət məsələləri haqqında həyat təcrübəsini hekayələr şəkilində oxucuya çatdırmışdır.

Fəlsəfi görüşlərində sufilikdən təsirlənən Əlişir Nəvai təbiəti bir xəzinə, onu dərk edən insanları isə xoşbəxt saymışdır.

Ömrünün müdriklik çağında daha məhsuldar işləyən şair, filosof, alim elə böyük bir ədəbi irs qoymuşdur ki, elmi-texniki tərəqqinin inkişaf etmiş çağında elmi tədqiqat institutlarının belə onun qədər əsər yarada bilməməsinə heyrətlənməmək olmur.

Əlişir Nəvai özünü Türk xalqının millətsevər oğlu sayır, xalqının dili, mədəniyyəti və ədəbiyyatı ilə qürur duyurdu. Ona görədir ki, yüzillər boyu Azərbaycan şair və alimləri Nəvaini özlərinə doğma bilmişlər. Nəinki orta yüzilliklərdə, hətta 19-cu yüzildə belə Azərbaycan şairlərnindən Nəvainin təsiri ilə çcığatayca şeirlərər yazanlar da olmuşdur.

1926-ci ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayında Əlişir Nəvainin anadan olmasının 500 illik yubileyini qeyd etmək üçün komissiyanın yaradılması da Türk xalqlarının ona olan məhəbbətinin nümunəsi idi.

HƏMZƏ HƏKİMZADƏ NİYAZİ

(Həmzə Həkimzadə Niyazi (1989-1929), حمزه حاكيمزاده نيوزى, Özb. Hamza Hakimzoda Niyoziy, Rus. Хамза Хакимзаде Ниязи)



Həmzə Həkimzadə Niyazi 1889-cu il martın 6-da Kokand yaxınlığındakı Şahmərdan kəndində anadan olub. Özbəklər bizim kənd dediyimiz yaşayış məntəqələrini qışlaq adlandırdıqlarından Həmzənin qışlaqda doğulduğunu yazırlar. İndi həmin kənd Fərqanə vilayətində Hamza şəhərinə çevrilib.

Həmzə Həkimzadənin anadan olmasından cəmi 13 il əvvələdək Kokand müstəqil xanlıq idi. Daşkənd, Xocənd kimi şəhərlər də bu xanlığın ərazisində yerləşirdi. Rusiya Kokand xanlığını işğal edərək Türküstan general-qubernatorluğuna tabe etsə də, burada rus idarə sistemi hələ tam oturuşmamışdı. Həmzənin uşqalıq və yeniyetməlik illərində Kokand xanlıq dövrünün idarəçilik sistemi ilə çarizmin idarəetməsi paralel işlədilirdi.

Həmzə bölgənin tanınmış həkimi İbn Yəmin Niyazoğlunun ailəsində doğulduğundan Həkimzadə

soyadı ilə tanınıb. İlk təhsilini də atasından alıb. Mədrəsədə oxuyan Həmzə burada Ərəb və Ffars dillərini, sonra isə Rus dilini öyrənir. Türküstanı bürümüş cədidçilik hərəkatının təsiri ilə formalaşan yeniyetmə Həmzə milli ruhlu şeirlərini Nihan təxəllüsü ilə yazaraq "Turan" və "Türküstan" qəzetlərində çap etdirir. Onunla kifayətlənməyərək yazdığı şeirləri "Divani Nihan" adıyla da nəşr etdirir. Mukumi və Furkat kimi şairlərin ədəbi təsiri altında olan Həmzə 1905-14-cü illərdə yazdığı şeirlərdən bir Divan da yaradır. Mətbuatda işıq üzü görən əsəri isə 1914-cü ildə çap olunmuş "Ramazan" şeiri olur.

Kokand Rusiyanın Türküstanda işğal etdiyi son bölgələrdən olduğundan buranın Avropaya intiqrasiyası olduqca zəif gedirdi. Rusiya vasitəsilə Avropaya gedən və Avropa mədəniyyətindən xəbərdar olan Tatar və Qafqaz aydınları bu yerlərə yeni bir ab-hava gətirirdilər. Azərbaycan Teatr Truppalarının Türküstana səfərləri bölgədə yalnız ziyalıların deyil, sadə insanların da böyük marağına səbəb olurdu. Ona görə də yerli qələm sahibləri müsəlman qardaşları kimi teatr əsərləri yaratmağa, Avropa tipli musiqili tamaşalar hazırlamağa maraq göstərirdilər.

Mömin bir müsəlman ailəsində doğulan Həmzə Həkimzadə mədrəsə təhsilini başa vurduqdan sonra ənənəyə uyğun olaraq Şərqin müqəddəs sayılan şəhərlərindəki mədrəsələrdə, yaxud da Qahirə, İstanbul, Dəməşq, Nəcəf kimi məşhur elm ocaqlarında təhsilini davam etdirməyə getmir. Çar hökumətinin

açdığı Rus-tuzem məktəbində oxuyur. Türküstan və Sibirdə Rus-tuzem məktəbi adlandırılan təhsil ocaqları Rusiyanın Avropa hissəsində Rus-Tatar məktəbləri adlandırılırdı.

Rus-tuzem məktəbini bitirdikdən sonra Həmzə Həkimzadə 1911-ci ildə Kokandda Avropa təhsili ilə Şərq təhhsil proqramlarının sintezindən yaradılmış məktəb açır. Lakin bu məktəbin ömrü o qədər də uzun olmur. Çar məmurları məktəbin qapadılmasına göstəriş verirlər.

Məktəbi qapadıldıqdan sonra Həmzə Həkimzadə mömün bir müsəlman kimi Hacc ziyarətinə yollanır. Onun ziyarət yolçuluğu uzun sürür. Əfqanıstan, Pakistan və Hindistanı keçərək, oradan da dəniz yolu ilə Məkkəyə doğru hərəkət edən 24 yaşlı Həmzə Həkimzadə geri dönəndə Şam, Beyrut, İstanbul kimi şəhərləri də gəzir. İstanbuldan da Rusiya vasitəsilə vətəninə dönür.

Vətənə döndükdən sonra yenə də Kokanda və Mərgilanda məktəb açaraq cədidçilərin yolu ilə gedir. Yaradıcılıqğında da klassik şeir şəkillərindən, qəzəl, qəsidə, məsnəvi yazmaqdan uzaqlaşır. Şeirlərini əsasən heca vəznində, xalq şeiri ruhunda, soydaşlarının başa düşəcəyi sadə dildə yazmaqla yanaşı, nəsrdə də qələmini sınayır.

Yetimlər üçün pulsuz məktəb açan, "Yeni ədəbiyyat", "Oxu kitabı", "Qiraət kitabı" kimi dərsliklər yazan Həmzə Həkimzadə publisistika ilə də ardıcıl məşğul olur. Məqalələrində soydaşlarını

cəhalətdən, xurafatdan uzaqlaşmağa, maariflənməyə, dünyada baş verən yeniliklərlə ayaqlaşmağa çağırır. "Sədoi Türkistan", "Sədoi Farqana" qəzetlərinin daimi müəllifinə çevrilən Həmzə Həkimzadə məqalələrini yalnız Özbəkcə deyil, eyni zamanda Ttacikcə də məqalələr yazır.

Həmzə Həkimzadə 1913-cü ildən sonra nəsr və dramaturgiyaya daha çox meyl edir. 1915-cü ildə "Yeni səadət" adlı romanını çap etdirir. Bu roman müasir Özbək nəsrinin ilk nümunələrindən sayılır.

Azərbaycanda maarifçilik adlandırılan hərəkat Türküstanda cədidçilik, yəni yenilikçilik hərəkatı kimi tanınırdı. Bu hərəkatın öncülləri sırasında Mahmud xacə Behbudi, Abdulla Avlani, Abdulla Qədiri, Çolpan, Fitrat və Mirmuhsin Fikri kimi qələm sahibləri vardı. Onlar ədəbiyyatın da yeniləşməsi üçün var qüvvələrilə çalışır, ənənəvi əruz vəznli poeziyanın heca vəzni ilə əvəzlənməsini istəyirdilər. Qarluqlar xalq şeirinə "aşülə" deyirlər. Özbəklər də qarluk dil qrupuna daxil olduğundan yenilikçi yazıçı və şairlər "Milli aşulələr" seriyasından kitablar nəşr etdirməyə başlamışdılar.

Həmzə Həkimzadənin də "Milli aşulələr" seriyasından çap olunan "Ağ gül", "Qızıl gül", "Yaşıl gül", "Sarıq gül", "Puşti gül", "Saf-sar gül", "Ətir gül" adlı şeirlər kitabçaları maraqla qarşılanır. Oradakı şeirlərin bir çoxu xalq arasında mahnı kimi yayılmağa başladı. Bunun bir səbəbi də Həmzənin bəstəkarlı bacarığından doğurdu. O, şeirlərinə müusiqi də

yazaraq oxuyurdu. Bu mahnılar Özbək və Uyğurlar arasında "koşuklar" kimi məşhurdur.

Əhalinin böyük bir qisminin yazmaq və oxumaq qabiliyyəti olmadığını görən Həmzə Həkimzadə Niyazi teatr tamaşalarına üstünlük verir. 1915-ci ildən başlayaraq, "Firuzə xanım", "Zəhərli həyat, yaxud eşq qurbanları", "Elm hidayəti", "Nurməhəmməd damlanın küfür", "Acı" kimi pyeslərini yazır, onları səhnəşəşdirir və bəzilərinə də müusiqi bəstələyir.

1917-ci ildə Daşkəndə köçən gənc dramaturq burada "Daşkəndə səyahət" komediyasını və "Bay ilə xidmətçi" pyesini yazır. Onun 1915-1518-ci illərdə yazdığı "Loşman faciəsi" trilogiyası özbək ədəbiyyatında yenilik kimi dəyərlərndirildi.

Romanovların hakimiyyətinin devrilməsi Həmzə Həkimzadə Niyaziyə güclü təsir edir. O, inqilabi ruhlu şeirlər və pyeslər yazır. Məqalələrinidə də Türküstana muxtariyyat verilməsi ideyasını təbliğ edir. Onun "Muxtariyyat və avtonomiya" kitabı ziyalılar arasında müzakirə mövzusuna çevrilir.

Həmzə Həkimzadə Niyazinin haqsızlıqla barışmazlığı, Türküstana muxtariyyat tələbi, xalqını cəhalətdən qurtarmaq istəyi bolşeviklərin diqqətini çəkir. Onu öz tərəflərinə çəkərək səyyar teatr truppası yaradıb tamaşalar göstərməsinə köməklik edirlər. Beləliklə, Həmzə Həkimzadə Niyazi bolşeviklərin alovlu təbliğatçısına çevrilir. Köhnəliyi tənqid edən tribun şeirlər yazır və təbliğati pyeslər hazırlayır. Türküstan cəbhəsindəki Qızıl Əsgərlərin təbliğat-təşviqat

qrupunda çalışır. Yaratdığı teatr truppasında pyeslər yazmaqla kifayətlənmir, rejissorluq, aktyorluq, sufliyorluq da edir.

"Yaşa Şura", "Hay işçilər", "Oyanın işçilər" şeirləri özbək sovet poeziyasının formalaşmasına təsir göstərir. 1926-cı ildə yazdığı "Maycaranın kələkləri", 1927-ci ildə yazdığı "Pərəncənin şirləri" pyesləri dövrün ən aktual əsərləri sayılır.

1926-cı ildə ona Özbəkistan SSR-in Xalq Şairi adını verirlər. İnqilab ruhlu əsərlərilə şöhrət qazansa da, azadfikirliliyi və müstəqil hərəkəti onunla bolşevik rəhbərləri arasında həmişə bir ziddiyət yaradır.

1920-ci ildə Kokanda gələn Həmzə Həkimzadə Niyazi bir ara orada maarif sahəsində çalışdıqdan sonra Buxaraya gedir. Bir il də Buxarada təhsil aldığı mədrəsədə dərs deyir.

1921-ci ilin sonunda Daşkəndə gələn Həmzə Həkimzadə orada da özünə münasib fəaliyyət meydanı tapa bilmədiyindən Xarəzmə gedir. Xarəzmdə Mədəni Marif sahəsində çalışır, müəllimlik edir. 1924-cü ildə Türküstanda ilk internat tipli məktəb yaradır. Lakin bu məktəbin fəaliyyəti o qədər də uzun sürmür. Maddi təminatı olmadığından Həmzə Həkimzadə 1925-ci ildə yenidən Fərqanəyə gəlir.

Doğulduğu kənddə kolxoz yaradılması və məktəb açılması, savadsızlar kursu, həvəskar teatr truppası yaradılması üçün əlindən gələni əsirgəmir. Kəndlilərin torpaqlarının və mal-mülkünün əllərindən alınaraq kolxaza verilməsini təkidlə tələb etdiyinə

görə onu 1929-cu il martın 18-də daşqalaq edərək öldürürlər.

Həmzə Həkimzadə Niyazinin qəddarlıqla öldürülməsindən sonra Sovet rəhbərləri onu bir təbliğat vasitəsinə çevirirlər. Adının əbədiləşdirilməsi, bəzi əsərlərinin nəşri üçün xeyli iş görülür.

Həmzə Həkimzadə Niyazi ömrünün son illərində ictimai-siyasi vəziyyəti düzgün qiymətləndirə bilməsə də, yazdığı əsərləri ilə xalqını xoş günlərə səsləmiş, müasir Özbək ədəbiyyatının, teatrının, musiqisinin inkişafına təkan vermişdir.

QULAM ZƏFƏRİ



Qulam Zəfəri (1889-1937) (غولام زعفری *Özb.* G'ulom Zafariy, rus. Гулям Зафари *)

Qulam Zəfəri 1889-cu ildə Daşkəndin Zərqaynar məhəlləsində anadan olub. İlk təhsilini məhəllədəki ibtidai məktəbdə, sonra Xoca Əhməd və Kukaldaş mədrəsəsində davam etdirib. Mədrəsədə oxuyarkən gələcəyin məşhur yazıçısı Abdulla Qədiri ilə dostlaşır. Onun məsləhəti ilə Rus-tuzem məktəbində oxuyaraq Rus dilini öyrənir. Bu onun Rus və Avropa klassiklərinin əsərlərini oxumasına, ictimai-siyasi, fəlsəfi fikrləri ilə tanış olmasına imkan yaradır.

1912-ci ildə Oş şəhərinə gedən gənc şair oradakı üsul-i cədid, yəni yeni üsulla təhsil verən məktəbdə iki il müəllim işləyir.

1914-cü ildə Daşkəndə qayıdan Qulam Zəfəri cədidçilərin məhəllə məktəbində dərs deməklə yanaşı, Turan Cəmiyyətinə də üzv yazılır. 1910-1917-ci illərdə Türküstanda "Nəşriyyat", "Məktəb" şirkətləri ilə yanaşı, "Turan Tərəqqipərvərlər Cəmiyyəti",

“İttihad-i İslamiyə”, “Nəşr-i Maarif”, “Turan Cəmiyyəti” və “Cığatay qrunu” adlı maarifçi xeyriyyə təşkilatları fəaliyyət göstərirdi. Bu təşkilatlar Türküstan müsəlmanları arasında Avropa mədəniyyəti və maarifini qəzetlər, jurnallar, kitablar vasitəsilə yaymağı qarşılarına məqsəd qoymuşdular. Ona görə də imkanlı adamlardan yardım toplayır, kasıb uşaqlarının ölkə daxilində və xaricdə təhsil almalarına kömək edirdilər.

Qulam Zəfərinin üzv yazıldığı təşkilat 1912-ci ildə Qiyas Mahzum Hüsnünün redaktorluğu ilə çıxan “Turan” qəzetinin ətrafına toplaşanlardan təşkil olunmuşdu. Qəzetin 49-cü sayı çıxdıqda nəşri dayandırılır. Cədidçi ziyalılar isə fəaliyyətlərini dayandırmırlar. 1913-cü ildə Abdulla Avlaninin rəhbərliyi ilə “Turan” adlı bir teatr truppası təşkil edirlər.

Turan Cəmiyətinin üzvlərindən bir qrupu əvvəlcə Nizaməddin Xocayevin rəhbərlik etdiyi sosial demokrat qrupuna meyilli olsa da, sonradan Azərbaycanlı Məhəmmədəmin Əfəndizadənin bu təşkilata qoşulması ilə siyasiləşərək Türk Fedaralist Partiyasını qururlar.

1917-ci il oktyabr çevrilişindən sonra Sovetlərin hakimiyyəti Türküstanda güclənir. Turan Cəmiyyətinin bəzi üzvləri onlarla əməkdaşlıq etsələr də, bütövlükdə milli dəyərlərdən uzaqlaşmırlar.

Turan Cəmiyətinin quruculari sırasında Merqançe ləqəbilə tanınan Ubeydulla Xocayev,

Observatorskaya ləqəbilə tanınan Taşpolatbek Narbotabekov, Şeyxantahur ləqəbi ilə tanınan Münəvvər Kaari Abduraşidxanov, Soğban ləqəbi ilə tanınan Kamil bəy Narbəyov, Sapyaornaya ləqəbi ilə tanınan Molla Abdulla Avlani, Qaryağdı ləqəbi ilə tanınan Kettexoca Babaxocayev, Zencirlik ləqəbi ilə tanınan Muhammedcan Padşaxocayev, Başirullaxan Əsədullaxocayev, Arkaköçe ləqəbi ilə tanınan Nizaməddin Asamiddin xacə, Kərim bəy Narbəyov, Qulam Zəfəri və başqaları vardı.

Cəmiyətin 73 maddəlik nizamnaməsindən xalqın maarifləndirilməsi əsas yer tuturdu. Maarifçilik fəaliyyətini isə onlar səhnə əsərləri yazmaq, onları tamaşaya qoymaq, xalqı teatra cəlb etməklə., ictimai-siyasi fikirlərini xalqa çatdırmaqla həyata keçirməyə çalışırdılar.

Qulam Zəfəri Turan Cəmiyyətinin fəal üzvü kimi səhnə əsərləri yazmaq, teatr tamaşalarında həvəskar aktyor, rejissor kimi çıxış etməklə yanaşı, Abdurauf Fitrətin rəhbərlik etdiyi Cığatay qrupu ilə də sıx əməkdaşlıq edirdi. Cığatay qrupunun fəalları sırasında Çolpan, Batu, Elbək, Şarasul Zünnun, Şakircan Rahimi, Mennan Rəmzi, Uyğur, Kayum Ramazan, Mirmolla Şermuhammedov, Qazi Yunusov və Sancar Sıddıqov kimi şair və yazıçılar vardı. Qrupun üzvlərinə milli hisslər oyadacaq ləqəblərin əksəriyyətini Fitrət vermişdir. O, Abdülmennan Mecidiyə "Uyğur", Mahmud Maksudova "Batu", Məşrıq Yunusa "Elbək", Abdülhamid Süleymana

“Çolpan”, Abdülbəsitə “Sancar”, Abdülkayum Ramazana “Öktəm” kimi Türk tarixinə və mədəniyyətinə bağlı ləqəblər seçmişdir.

1916-1921-ci illərdə müəllim işləməklə yanaşı, Turan Cəmiyyətinin üzvü kimi səhnə əsərləri yazan, aktyorluq edən Qulam Zəfəri ağır və gərgin günlərini yaşayır. Çünki milli güclər arasındakı ziddiyyətdən istifadə edən Daşkənddəki Rus Əsgər və Fəhlələri Soveti hakimiyyəti zor gücünə ələ aldıqdan sonra yerli xalqları alçaldan bəyanatlar verməyə, onların idarəetmə orqanlarında işləmələrini əngəlləməyə başlayırlar.

1917-ci ilin martında siyasi təşkilata çevrilən Şura-i İslam xalqın hüquqlarını qorumaq məqsədilə fəaliyyətini genişləndirməyə çalışır. Bu da istər bölşevikləri, istərsə də bolşevik olmayan xiristian kökənliləri özündən çıxarır. Onlar yalnız Şura-i İslamçılara deyil, bütövlukdə müsəlmanlara divan tutmağa başlayırlar. Silah, hərbi sursat əllərində olan hərbçilər və onlara qoşulmuş xristianlar müsəlmanlar yaşayan köhnə Daşkənddə kütləvi qırğınlar törətdirlər. Yerli əhalinin kortəbii müqavimətini idarəedilən şəklə salmaq və gəlmələrin özbaşınalığının qarşısını almaq üçün 1917-ci ilin noyabrın 26-29-da Kokandda Ümummüsəlmanların Qurultayını çağırdılar. Qurultayda Türküstan Muxtariyyatı qurulduğu elan edilir və xalqı yeni hökuməti müdafiə etməyə çağırırlar. Bu müraciətdən sonra Daşkənddə Turan teatrının binasın-

da bir toplantı keçirilir. Toplantının təşkilatçıları sırasında Qulam Zəfəri olur.

Qulam Zəfərinin təşkilatçılığı ilə 1917-ci il dekabrın 14-də peyğəmbərimiz Məhəmməd əleyh-issəlamın doğum günü münasibətilə keçirilən toplantı antisovet xarakter alır. Xalq bolşeviklərin həbs etdiyi milli fəalların azad edilməsini və təqiblərə son qoyulmasını tələb edir. Ölkədə sosial ədaləti bərpa edə bilməyən, milli zəmində qarşıdurmanı dərinləşdirən, ikili siyasət yeridən bolşeviklərin hakimiyyətini 1919-cu il yanvarın 18-dən 19-na keçən gecə xalq devirir. Lakin Moskvanın göstərişi ilə bölgəyə yeridilən yeni silahlı qüvvələr əhaliyə divan tutaraq oranı da Sovet Rusiyasının təsir dairəsində saxlaya bilir.

1919-cu ilin faciəli günlərindən sonra Qulam Zəfəri də bir çox cədidçilər kimi Sovetlərlə əməkdaşlıq etməli olur. Buxara Əmirliyi ləğv edilib Buxara Xalq Sovet Respublikası qurulduğu günlərdə Qulam Zəfəri orada yeni yaradılan musiqi məktəbinə müdir müavini vəzifəsinə göndərilir. Az sonra ona həm də muzey üçün binanın təmiri və eksponatların toplanması tapşırılır.

Buxara əmirinin xəzinəsi hesab-kitabsız va-qonlara yüklənib inqilab beşiyi adlandırılan Leninqra-da göndəriləndə Qulam Zəfəri əmirə məxsus iki qutu cəvahiratı, altı qutu bəzək və başqa qiymətli əşyanı qeydiyyata alaraq muzeydə saxlanmasına nail ola bilir.

1922-ci ildə Buxarada yaşayan və işləyən Qulam Zəfəri Buxara Xalq Sovet Respublikası bolşeviklər tərəfindən işğal edildikdən sonra Daşkəndə qayıdır. 1923-cü ildə Daşkənddə işsiz və təzyiqlər altında qaldığından Termiz şəhərinə gedir və oradakı musiqi evinə müdirlik edir.

1927-ci ildə Termizə gedən Özbəkistan rəhbərlərindən Akmal İkramov Qulam Zəfəri ilə görüşür və onu Daşkənddə işləməyə dəvət edir. Qulam Zəfəri bu dəvəti qəbul etsə də, tale üzünə gülmür. Daşkənddəki bolşeviklər onun Ssovetlərə xidmət edəcəyinə inamsız yanaşır və xüsusi xidmət orqanları onu həbs edərək istintaqa başlayırlar.

Qulam Zəfəri dostlarının köməyi ilə həbsdən qurtularaq Daşkənddən uzaqalaşır. 1930-cu ildə Səmərqənddəki Musiqi Mməktəbində müdir işləməyə başlayan Qulam Zəfəri Çolpanın sayəsində Özbək Dövlət Teatrı ilə əməkdaşlıq edir, onlar üçün səhnə əsərləri yazır.

1932-ci ildə yenidən Akmal İkramovla görüşür. Akmal İkramov bu dəfə daha qətiyyətli addım ataraq onu Orta Asiya Dramaturqları Komitəsinə məsləhətçi götürdür. Lakin onun fəaliyyəti çox da uzun sürmür. Əksinqilabi əsərlər yazmaqda və dövlət vəsaitinin əksinqilabi əsərlər yazan müəlliflərə verilməsinə şərait yaratmaqda təqsirləndirilib Güney Sibirə sürgün edirlər.

Sürgündə olmasına baxmayaraq, Qazi Yunis, Elbək, Çolpan onun əsərlərini çap etdirə, tamaşaya

qoya bilirlər. Qulam Zəfərinin "Həlimə" əsərinin qonarарından müəllifə 200-400 manat, anasına isə 150 manat verirlər. Bu da Qulam Zəfərini ruhlandırır, bədii yaradıcılığını davam etdirir. Hətta 1935-ci ildə sürgün müddəti başa çatanda "Həlimə" pyesinin tamaşalarından ona çatacaq yeddi min manat qonarарı da ala bilir.

"Pambıqçı", "Yeni adam" və başqa operettalarını tamamlayan Qulam Zəfərini 1937-ci ilin oktyabrın 29-da yenidən həbs edirlər. Həbs edilərkən 30 vərəqdən ibarət əlyazması, bir ümumi dəftəri, üç qeydlər dəftəri, yeddi əlyazması olan qovluğu, cib dəftərçələri də müsadirə olunur. Milli İttihad Partiyasının rəhbərlərindən biri kimi əksinqilabi fəaliyyətdə suçlayıb 1937-ci il dekabrın 28-də Daşkənddə güllələyirlər.

Ömrünün çoxunu təqib və təzyiqlər altında keçirməsinə, həbs edilərək güllələnməsinə, adının çəkilməsi və əsərlərinin nəşri qadağan edilməsinə baxmayaraq, Özbək xalqı vətənpərvər oğlunu heç vaxt unutmur. Sovet hökuməti yıxıldıqdan sonra Qulam Zəfərinin adının əbədiləşdirilməsi sahəsində bir çox işlər görüldü.

MAHMUD XACƏ BEHBUDİ



Mahmud xacə Behbud (1875-1919) (محمود خوجا بهبودی , Özb. Mahmudho‘ja Behbudiy, Rus. Махмудходжа Бехбуди)

Mahmud xacə Behbudi 1875-ci il yanvar ayının 20-də Səmərqənd yaxınlığındakı Baxıştəpə kəndində anadan olmuşdur. Atası Behbud xacə Salik xacə oğlu dərin dini təhsil görmüş bir islam alimi və pedaqoqu olmuşdur. O, soyköklərinin Xacə Əhmət Yəsəviyə bağlı olduğu ilə qürur duyur və bunu təbliğ edirmiş.

Rusiya İmperiyasının ən son işğal etdiyi bölgələr Türküstanın Səmərqənd və Buxara şəhərləri olmuşdur. Yeni işğal altına düşən bölgələrin əhaslisi Rusiyanın qanun-qaydalarınıa tabe olmaq istəmirdilər. Əsarətə qarşı sərt və təşkilatlanmış mübarizə aparılmasa da, əhalinin böyük bir qismi müxalif əhval-ruhiyyədə idi. Müxalifəti daimi körükləyənlər isə din xadimləri olmuşdur.

Xalqı əsarətdən qurtarmaq istəyənlər fərqli mübarizə yolları seçmişdilər. Kimisi açıq silahlı müqavimət təklif edirdisə, kimisi orta əsir idarəçiliyini geri qaytarmaq istəyir, xalqın döyüş ruhunu özünə

qaytarmağa çalışır, islam dinindəki cihadı təbliğ edirdi.

Ziyalıların bir qismi isə xalqı maarifləndirməyi, sonra azadlıq mübarizəsinə qaldırmağı düşünürdü. Mahmud xacə Behbudi dindar bir ailədə doğulsa da, cihadın deyil, maarifçiliyin tərəfdarlarından idi.

Müfti ailəsində doğulan, necə deyərlər, Yəsəvi dəvrişlərinin arasında böyüyən Mahnud gələcəyin ən öndə gedən maarifçilərindən– cədidçilərindən olmuş, həyatını da əqidəsi yolunda qurban vermişdir.

Mahmud ilk təhsilini evdə atasından almışdır. Müntəzəm Yəsəvi dəvrişlərinin toplaşdığı təkkələrə gedib onlarıı dinləsə də, mədrəsə təhsili aılmağı da diqqətdən kənarda qoymamışdır. Səmərqənd və Buxara mədrəsələrində təhsilini başa vurduqdan sonra bir neçə il də mədrəsədə dərs demiş, məsciddə imamlıq– axundluq və şəriət məhkəməliyi etmişdir. O da atası kimi müftiliyədək yüksəlmişdir.

Səmərqənddə ikən Avropa təhsili, Avropa mədəniyyəti ilə yaxından tanış olan həmyerliləri ilə tez-tez vətəninin və xalqının taleyini müzakirə edən Mahmud xacə Behbudi 1900-cu ildə Hacc ziyarətinə gedir. Onun məqsədi yalnız müqəddəs yeri ziyarət edərək "hacı" adı alıb qayıtmaq olmur. Səfər zamanıı Kırımda, Qafqazda, Osmanlı dövlətinin müxtəlif şəhərlərində, yəni İstanbulda, Məkkədə, Mədinədə, Qahirədə, eləcə də Efiyopiyada və b. yerlərdə olur, müxtəlif dünyagörüşlü insanlarla fikir mübadiləsi edir.

Ziyarətdən sadacə mömin bir müsəlman kimi deyil, dünyagörüşü dəyişmiş, bilikləri artmiış, milli

məsələyə dərindən bələd olmuş bir aydın kimi dönür. Səmərqəndə gəldikdən sonra Avropa təhsil sistemi ilə Şərq təhsilinin sintezindən yaranmiş bir məktəb açır.

Çağdaşı olan bir çox dindarların hələ də qəzet,-jurnal oxumağa xoş baxmadıqları, hər cür texniki tərəqqini qəbul etmədikləri bir zamanda hacı olmuş Mahmud xacə Behbudi qəzet-jurnallarla sıx əməkdaşlıq edir, soydaşlarını texniki tərəqqinin son nailiyyətlərindən yararlanmağa həvəsləndirir. Buna görə də məşhur bir nəsildən olan, İslamda yeni bir yol-tərigət yaratmış Əhməd Yəsəvinin soyundan gələn Mahmud xacə Behbudinin hərəkətləri birmənalı qarşılanmır.

Mahmud xacə Behbudi yalnız onun açdığı məktəbdə deyil, bütün cədidçilərin məktəblərində dərslik çatışmamazlığını görür və bu problem aradan qaldırmaq üçün işə başlayır. 1903-cü ildən başlayaraq cədid məktəbləri üçün dərs kitabları yazmayğa başlayır. Bir–-birinin ardıncan "Müntəxab-i cuğrafiya-yı ümumi", "Kitabu'l-etfal", "Müxtəsər tarix-i islam", "Ameliyat-i islam", "Mədxəl-i cuğrafiya-yı umrani", "Muxtəsər cuğrafiya-yı Rusi" adlı dərs kitablarını yazır.

Mahmud xacə Behbudi dərs kitablarını yazdıqdan sonra onların nəşrinin yaratdığı çətinliklərlə üzləşir. Odur ki, özü mətbəə avadanlıqları, qrif alaraq nəşriyyat işinə başlayır. Onun nəşriyatında dərs kitabları ilə yanaşı, xəritələr, Türküstanı tanıdan və Türküstanın ictimai, siyasi, iqtisadi vəziyyətindən bəhs edən kitabların nəşrinə başlayır. O, nəşr etdiyi kitabların satışını təşkil

etməklə yanaşı kitab ala bilməyənlərin vəziyyətini nəzərə alıb bir ümumi kitabxana da açır.

Ziyalıları, millətin öndə gedənlərini həmişə bölgə əhalisinin böyük bir qisminin təhsil ala bilmədiyi üçün oxuma-yazmanı bacarmadıqları rahatsız edirdi. Savadsız əhalini maarifləndirmək, teatrla, səhnə mədəniyyəti ilə tanış etmək üçün Mahmud xacə Behbudi 1912-ci ildə "Pədərkuş", yəni "Ata qatili" pyesini yazmaqla Türküstanda dramaturgiyanın əsasını qoymuş olur.

Azərbaycan dramaturqlarının və Türküstana qastrola gedən səhnə xadimlərinin təsiri ilə yazılmış bu əsər bölgədə böyük əks-səda doğurur. Belə ki, yerli həvəskarlar 1913-cü ildə Daşkəntddə pyesi səhnələşdirirlər. Tamaşa uğurlu alındığından Türküstanın başqa şəhərlərində də səhnəyə qoyulur. Cahilliyi, pulu, var-dövlət hərisliyini tənqid edən "Pədərkuş" pyesinin təsirilə bir çox əsərlər yazılır və səhnələşdirilir.

Türküstandakı cədidçilik hərəkatının qurucularından sayılan Mahmud xacə Behbudi bir jurnalist, publisist kimi də səmərəli fəaliyyət göstərmişdir. İsmayıl bəy Qaspralının Baxçasarayda nəşr etdiyi "Tərcüman" qəzetinin daimi müəlliflərindən olmuş, 1913-cü ildə "Səmərqənd", 1914-cü ildə "Oyna", yəni "Ayna" qəzetini nəşr etməyə başlamışdır.

Bölgədə çap olunan "Türkistan vilayətinin qəzeti", "Tərəqqi", "Xurşud", "Tüccar" və b. qəzetlərdə çap etdirdiyi 200-ə yaxın məqalə ona böyük şöhrət qazandırmışdır.

Mahmud xacə Behbudi millətinin əsarətdən qurtarmasını istədiyi kimi, yerli sahibkarların, bəy və mirzələrin, kəndlilərə tutduğu divana da son verilməsinə çalışırdı. Sosial ədələt uğrundan mübarizənin öncüllərindən olduğuna görə mühafizəkarların çoxu onu sevmirdi.

Qəribəsi budur ki, cədidçilər də, yerli bəylər, mirzoəlaər, tacirlər də Rusiya əsarətindan qurtarmağa can atsalar da, sosial ədalət məsələsindəki fikir ayrılığı onların birgə mübarizə aparmasına maniəe olurdu. Onların bu qarşıdurmasından hakim dairələr, mustəmləkə dövlətin məmurları nəinki bacarıqla yararlanır, hətta onlar arasındakı ziddiyətləri daha da dərinləşdirirdilər.

Bu ziddiyyətlərin dərinləşməsi nəticəsində 1919-cu ilin martında səyyahətə çıxan Mahmud xacə Behbudini Şəhrisəbzdə Buxara əmirinin məmurları həbs edir. İki aylıq işgəncələrdən sonra isə Karşı şəhərində edam edilir.

Mahmud xacə Behbudi mübarizəsinin həyatına son qoyacağını sanki görürdü. Ölümundən əvvəl yazırdı: “Əgər bizim həyatımız hürriyyət və xalqın xoşbəxtliyi, səadəti üçün qurbanlıq kimi gərək olsa, biz ölümü də minnətdarlıqla qəbul edərik”.

Mahmud xacə Behbudiyi cağdaşı olan şair və yazıçı Sədrəddin Ayni 1920-ci ildə yazdığı bir şeirində onu "Turan dühası" kimi dəyərləndirirdi.

MAQSUD ŞEYXZADƏ



Maqsud Şeyxzadə (1908-1967) (مقصود شیخزاد, Özb. Maqsud Shayxzoda, Максуд Шайхзода, Rus. Максуд Максумбек-оглы Шейхзаде)

Maqsud Məsum oğlu Şeyxzadə 1908-ci ilin noyabrın 7-də keçmiş Yelezavetpol (Gəncə) quberniyasının Ərəş qəzasının Ağdaş qəsəbəsində anadan olmuşdur. Tiflisdə tibbi məktəbini bitirən, Qazaxın Salahlı kəndinin sakini Məsim Şeyxzadə qadın gimnaziyasında oxumuş xanımı Fatma ilə Ağdaşda işləməyə göndərilir. Onların övladları Maqsud ilk təhsilini məşhur ziyalı Muxtar Əfəndinin açdığı "Rüşdiyyə" məktəbində alır. Məktəbə gələn Azərbaycan hökümətinin başçısı Nəriman Nərimanovun qarşısında 13 yaşlı Maqsuda yazmış olduğu şeirlərini oxudurlar. Şeirlər ədəbiyyatçı Nərimanovun çox xoşuna gəldiyindən onları Bakıya gətirib dövrün ən nüfuzlu mətbuatı sayılan, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı "Kommunist" qəzetinə təqdim edir. 1921-ci ilin dekabrın 21-də Maqsudun üç şeiri qəzetdə dərc edilir.

Maqsud Şeyxzadə gələcəkdə Azərbaycanın ünlü şairi, yazıçısı, dramaturqu, araşdırıcısı, bəstəkarı kimi tanınacaq Mikayıl Müşfiq, Mehdi Hüseyn, Sabit Rəhman, Məhəmmədhüseyn Təhmasib, Səid Rüstəmov və b. ilə 1920-1925-ci illərdə Bakı Darülməllimində oxuyar. Onlara Abdulla Şaiq, Hüseyn Cavid, Cabbar Əfəndizadə, Mədinə xanım Qiyasbəyli, Cəmo bəy Cəbrayılbəyli kimi tanınmış pedaqoqlar dərs deyir.

Darülmüəəlimi bitirdikdən sonra onu təyinatla Dağıstana göndərirlər. İki il müəllim işləməklə yanaşı, Azərbaycan Pedaqoji İnstitunda qiyabi oxuyur. İş elə gətirir ki, o, Bakıda olarkən Mayakovski və Nazim Hikmət də Bakıya gəlir. Zamanının yenilikçi şairləri kimi tanınan Mayakovski və Nazim Hikmətlə görüşə bilir. Qəzetlərdə "Azad dağlar qızına", "Şeyx Şamil", "Bu axşam" və "Sahildə" adlı şeirlərini dərc etdirir.

Həmin illərdə ziyalılar, hətta bəzi rəhbər partiya-sovet işçiləri arasında mərkəzi hökümətə qarşı bir etiraz dalğası yayılırdı. 30-dan çox millət, xalq və etnik qrupun yaşadığı Dağıstanda tarix boyu Türk dili ünsiyyət dili olmuşdu. Hətta çar Rusiyası çox çətinlikə Qafqazı işğal edəndən sonra da Dağıstanda sərt qaydalar tətbiq etməmiş, Azərbaycanla Dağıstan arasındakı bağları qırmamışdı.

Sovet Rusiyası isə Dağıstan MSSR-i sıx bağlı olduğu Azərbaycanın deyil Rusiya Federasiyasının tərkibinə daxil etmiş və ünsiyyət dilini Rus dili ilə əvəzləməyə başlamışdı. Buna da yalnız xalq kütlələri

deyil bir çox hökümət məmurları də etiraz edirdilər. Mərkəzi hökümətə müraciət edərək Dağıstan MSSR-in Azərbaycan Respublikasının tərkibinə daxil edilməsini istəyirdilər. Mərkəzi hökümət də bu cür adamları həbs edir, sürgünə göndərir. 1928-ci ildə Maqsud Şeyxzadəyə də üç il Krım və Qafqaza yaşamaq və oraya getmək qadağan olunur. Atası onu sürgün yeri kimi Özbəkistanın paytaxtı Daşkəndə göndərmək məcburuyyətində qalır.

Şeyxzadə Daşkənddəki Pedaqoji İnstitututda qiyabi oxuyur və azərbaycanlı uşaqlar üçün açılmış Nərimanov adına məktəbdə və "Qızıl Özbəkistan", "Şərq həqiqəti" və "Leninçi" qəzetlərində çalışır. Özbəkcə yazdığı ilk şeiri mətbuatda 1929-cu ildə işıq üzü görən Maqsud Şeyxzadə az sonra bir-birinin ardınca, yəni 1932-ci ildə "Layiq sakçı", 1933-ci ildə "On şeir", 1933-ci ildə "Üçüncü kitab", "Ündaşlarım", 1935-ci ildə "Respublika", 1937-ci ildə "Yeni dövran","On iki", 1938-ci ildə “Bayram nəğmələri”, “1942-ci ildə “Mübarizə nə üçündür?”, 1948-ci ildə “Vətən şeirləri” kitablarını nəşr etdirir.

1933-1935-ci illərdə Özbəkistan SSR Xalq Komissarlar Soveti yanında Elm Komitəsinin aspiranturasını bitirərək A.S.Puşkin adına Dil və Ədəbiyyat İnstitutunda elmi işçi işləyir. O, klassik və müasir Özbək ədəbiyyatını, eləcə də Azərbaycan, Rus və dünya ədəbiyyatını tədqiq edir, dünya poeziyasının fəlsəfi nöqtələrinə toxunur, Nəvainin yaradıcılığından

dissertasiya yazaraq filologiya elmləri namizədi adı alır.

1938-ci ildən ömrünün sonunədək Nizami adına Daşkənd Pedaqoji İnstitutunda Özbək ədəbiyyatı tarixindən dərs deyir, dekan və Özbək ədəbiyyatı kafedrasının müdiri işləyir.

1941-ci ildə Maqsud Şeyxzadə "Cəlaləddin Mənquberdi" pyesini yazmaqla Özbək dramaturgiyasına yeni bir ruh gətirir. Coşğun pafoslu, romantik ruhlu əsər tamaşaçıların ürəyini elə fəth edir ki, çoxları bu pyesi az qala bütünlüklə əzbər bilir.

1952-ci ildə azərbaycanlı Maqsud Şeyxzadə özbək millətçiliyində suçlandırılaraq tutulur. Daşkənd məhkəməsi ona 25 il həbs cəzası kəsir və Sibirə - həbsxanaya göndərilir. Stalininin ölümündən sonra ölkədə bir yumşalma hiss olunmağa başlayır. Anası Fatma xanım bundan yararlanaraq SSRİ Ali Sovetinin Rəyasət Heyətinə oğlunun əfv olunması üçün məktub göndərir. Həmin vaxt SSRİ-də böyük aministiya elan edildiyindən Maqsud Şeyxzadənin anasının ərizəsinə də müsbət cavab verilir. Məaqsud Daşkəndə dönsə də, ona nə iş verilir, nə də əsərləri çap olunur. Dost bildiyi insanlar da ondan uzaq gəzməyə başlayır.

1956-ci ildə keçirilən Sov. İKP-nin 20-ci qurultayı tarixə səxsiyyətə pərəstişin tənqidi qurultayı kimi daxil olur. Bir il sonra Maqsud Şeyxzadə böyük sevinc içində "Daşkəndnamə" poemasını dərc etdirir. 1958-ci ildə isə Daşkənddə keçirilən Asiya-Afrika Yazıçılar Konqresində Nazim Hikmət, Əziz Nesin,

Melih Cevdet Anday və dünyanın başqa ölkələrindən gəlmiş yazıçı və şairlərlə tanış olur.

Ondan bir il sonra nəşr etdirdiyi "Çərək əsr divanı" kitabına isə lirik əsərləri daxil edilir.

Maqsud Şeyxzadə poeziyasının xalq ürəyinə yaxın olması onun folklora bağlılığından irəli gəlir. O, şeirlərində folklor elementlərindən, folklor qaynaqlarından bacarıqla bəhrələnməklə yanaşı, "Alpamış", "Qərib və Şahsənəm", "Şirin-şəkər" kimi xalq dastanları haqqında da dəyərli araştırmalarını ortaya qoyur.

1959-cu ildə Şeyxzadə məşhur astronom, hökmdar, elm-mərifət dünyasının cahangiri Mirzə Uluğbəyin həyatı, taleyi, fəaliyyətini özündə əks etdirən "Mirzə Uluğbəy" faciəsini yazır. O, "Cəlaləddin Mənquberdi" və "Mirzə Uluğbəy" pyes-ləri ilə Özbək dramaturgiyasında mənzum tarixi faciə janrının əsasını qoyur.

Həbsdən döndükdən sonra Maqsud Şeyxzadə elmi, -pedaqoji fəaliyyətə, tərcüməyə daha çox vaxt ayırdığından 1961-ci ildə "İllər və yollar", 1964-cü ildə "Şeirlər" şeir kitablarını çap etdirə bilir.

1964-cü ildə Özbəkistan SSR-in Əməkdar İncəsənət Xadimi adı verilən Maqsud Şeyxzadənin Özbək ədəbiyyatı tarixində tərcüməçi kimi də xüsusi yeri var. Dünya klassiklərini "Pələng dərisi geymiş pəhləvan", "Romeo və Culyetta", "Hamlet", "Sonetlər", "Çaylı Harold", "Faust", "Motsart və Salyeri", "Tunc atlı", "Taun çağı ziyafət", "Qafqaz

əsiri", "Bastunçu aulu" və s. əsərlərini çevirməklə ədəbiyyata yeni fikir, yeni düşüncə gətirməklə, gənc ədibləri istiqamətləndirməklə qalmır, həm də Özbək ədəbi dilinin zənginliklərini, bədii ifadə vasitələrini açıb ortaya qoyur.

Onun Roma ədibi Ezopdan, yunan klassikləri Esxil və Hesioddan, Azərbaycan klassiki Nizami və Füzulidən etdiyi tərcümələr bu gün də Özbək ədəbiyyatında ən örnək nümünələr sayılır.

1967-ci ilin fevralın 19-da Məqsud Şeyxzadə Daşkənddə dünyasını dəyişir və orada da dəfn edilir.

1971-1974-cü illərdə isə əsərləri altı cilddə nəşr olunur. Azərbaycanda da, Özbəkistanda da onun yaradıcılığı haqqında monoqrafiyalar, dissetasiyalar, məqalələr yazılır. Bu yazılanlar içərisində Xəlil Rza Ulutürkün yazdığı "Maqsud Şeyxzadə yaradıcılığı" monoqrafiyası seçilir. Ədibin əsərlərinin bir çoxunu Maqsud Şeyxzadənin ana dilinə çevirən də Xəlil Rza Ulutürk olmuşdur.

Maqsud Şeyxzadə ömrü və yaradıcılığıyla türk xalqlarının birliyinə bir örnəkdir.

MÜNƏVVƏRQARI ABDUREŞİDXANOV



Münəvvər Qarı (1878-1931) (مؤنوورقاری , Özb. Abdurashidxono v Munavvar qori, Мунаввар Кары Абдурашидханов)

Münəvvərqarı Abdurəşidxanov 1878-ci ildə Daşkəndin Darxan məhəlləsində anadan olmuşdur. Atası Abdurəşidxan dövrünün tanınmış müdərrisi (Mədrəsədə professor dərəcəsinə uyğun gələn alim-– Ə.Ş) Sotiboldikxanın oğlu, anası Xoxiyat isə müdərris Xonxuzi Şorahimxuzinin qızı olmuşdur.

Münəvvərqarı dövrünün tanınmış ilahiyyatçı pedaqoqu Usman Domladan qiraət və tecviti almış, Quranı əzbərləmişdir. Quranı əzbər bilənlərə "qarı" ləqəbi verildiyindən Münəvvərin də adına yeniyetməliyindən əlavə edilən "qarı" sözü ömrünün axırınadək davam etmişdir. Onun özündən böyük Ağzamxan və Müslümxan adlı iki qardaşı da olmuşdur. Kiçik yaşlarından atasını itirdiyindən anasının himayəsində böyümüşdür.

1885-1890-cı illərdə Buxaradakı Mir-i Ərəb Mədrəsəsində oxuyan Münəvvər qarı orada təhsilini

davam etdirməyə ehtiyac duymayaraq Daşkəndə qayıdaraq oradakı Eşonkqulu Dodhoh Mədrəsəsində dərs deməyə başlamışdır. Burada təcrübə qazandıqdan sonra 1901-ci ildə öz evində Üsuli sevti (yəni fonetik metodla dərs verən_– Ə.Ş) tipli mədrəsə açır. Dərs kitablarını da özü hazırlamağa başlayır. 1907-ci ildə "Ədəbi əvvəl" (Birinci yazı) adlı dərsliyini tamamlayır. Elə həmin il "Ədəbi sani" (İkinci yazı), 1911-ci ildə "Üsuli hesab" dərsliyini yazır. Dərs kitabları dəfələrlə nəşr edilir.

Yeni tipli məktəblər açmaqla yanaşı, Münəvvərqarı məhsuldar işləyərək 1911-ci ildə "Tarix-i qövmi Türk", "Tacvid", 1912-ci ildə "Tarix-i ənbiya", "Tarix-i islamiyə", "Havoyizi diunya", 1916-17-ci illərdə "Yer üzü" kitablarını yazır.

Onun Azərbaycanda tanıdılmasında Mahmud Kaşğarinin "Divanü lüğat-it-Türk" əsərini Azərbaycan Türkcəsinə ilk çevirən, 1926-cı ildə Bakıda "Özbək, qazax, türk dillərinin müqayisəli sərfi" kitabını yazan Xalid Səid Xocayev olmuşdur.

Bolşeviklər 1917-ci ilin oktyabrın 25-də Rusiyada hakimiyyəti silahlı üsyan vasitəsilə ələ aldıqdan sonra çar idarə üsulunu kəskin tənqid etsələr də, bir çox məsələlərdə, xüsusən əsarət altında saxladıqları xalqlarına münasibətdə keçmiş siyasəti davam etdirirdilər.

Dünya xalqlarına azad və firavan həyat vəd edən bolşeviklər hakimiyyəti ələ aldıqdan 5-6 il sonra türk-müsəlman xalqlarının əlifbasının dəyişdirilməsi

məsələsini ortaya atdılar. Soydaşlarının mədəni, iqtisadi cəhətdən Avropalılardan geri qalmasından cana doymuş türk-müsəlman ziyalılarının bir qismi əlifba dəyişməyin arxasında duran siyasətini əsil mahiyyətini görməyərək böyük həvəslə bu işə girişdilər. Ərəb əlifbasında sait səslərin olmaması yazılan mətinlərin düzgün oxunuşunda bir sıra problemlər yaradırdı.

Ərəb əlifbasının latın əlifbası ilə əvəzlənməsinə Azərbaycanın rəhbər işçiləri və ziyalıları öndərlik edirdi. Onlar bu işi Azərbaycanda görməklə kifayətlənmir, keçmiş SSRİ-nin tərkibində olan türk-müsəlman xalqları arasında da yayırdılar.

1924-cü ildə latın əlifbasını SSRİ-də yaşayan türk-müsəlman xalqları arasında yaymaq üçün Bakidan vaqonla bir heyət yola düçşür. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalı oğlunun rəhbərlik etdiyi bu heyətə "Molla Nəsrəddin" satirik jurnalı ilə Şərqdə şöhrət qazanmış Cəlil Məmmədquluzadə, tanınmış alim Vəli Xuluflu, Azərbaycanın ali və ümümtəsil məktəblərində dərs deyən Xaild Səid Xocayev və başqaları daxil idi. Onlar Dağıstanda, Qaraçay-Çərkəzdə, Kırımda, Tatarıstanda görüşlər keçirib, təbliğat apardıqdan sonra Daşkəndə gedirlər. Səmədağa Ağamalıoğlu əlifba dəyişikliyinə bir inqilab, türk-müsəlman xalqlarının həyatını yaxşılığa doğru dəyişəcək bir vasitə kimi baxdığından hətta xalqların ağlının çoxluğunu və azlı-

ğını da latın əlifbasına münasibətlə müəyyənləşdirməyə çalışırdı.

Xalid Səid Xocayev 1929-cu ildə Bakıda çap etdirdiyi "Yeni əlifba yollarında əski xatirə və duyğularım" kitabında bu səfəri geniş təsvir etmişdir. Daşkəndə səfərləri haqqında yazır ki, höküumət rəhbərlərini əksəriyyəti Moskvaya çağırdıqlarından biz rəsmi şəxslərlə görüşə bilmədik. Münəvvərqarı ilə görüşdük. O, Daşkənd ziyalılarını toplayıb latın əlifbası əsasında türk xalqları üçün yeni əlifba hazırlanmasını müzakirəyə çıxardı.

Maraq doğura bilər ki, Münəvvərqarı kim idi ki, hökümət nümayəndələri olmadığı bir zamanda belə məsul və ciddi bir işin altına girirdi?

Tarixə cədidçilik hərəkatı kimi daxil olmuş yenilikçi hərəkatın öncüllərindən olan Münəvvərqarı yalnız Daşkənddə deyil Türküstanda nüfuzlu bir aydın idi.

1905-ci il qarşıdurmasında çar hökümməti bəzi göüzəştlərə getməli olur. Qəzet və jurnalların nəşrinə, söz və fikir azadlığına qoyulmuş sərt əngəllər yumşaldılır. Bundan yararlanan İsmail Abidi 1906-cı ilin yanvarında "Tərəqqi" qəzetini nəşrə başlayır. Bu qəzetin fəal müxbirlərindən biri də Münəvvərqarı olur. Təəssüf ki, qəzet millətçi görüşlərinə, xalqın dərdlərini açıq yazdığına görə bağlanır.

Münəvvərqarı yeni qəzetin, – "Xurşud" qəzetinin nəşrinə icazə ala bilir. Qəzetin ilk sayı 1906-cı ilin sentyabrında işıq üzü görür. Qəzetdə ictimai-siyasi

görüşlərini və maarifçi şeirlərini yaydığına görə Münəvvərqarını milliyyətçilikdə suclanaraq qəzeti bağladırlar. O, 1907-ci ildə nəşrə başlayan "Şuxrat", "Tuccar", 1908-ci ildə nəşrə başlayan "Asiya" qəzetlərinin nəşrinə yardımçı olur.

Həmin qəzetlərə müntəzəm məqalələr yazan Münəvvərqarı "Başıma bir az dar idi", "Tənbəllik düşmənimizdir", "Arzu", "Hər kəs əkdiyini biçər" və başqa şeirlərində avamlığı, sadəlövhlüyü, ətaləti, tənbəlliyi, xurafatı tənqid etmiş, xalqının maarif-lənməsi qayğısına qalmışdır.

1908-ci ilin əvvəllərində Buxarada "Şirkət-i Buxara-i Şərif" adında bir təşkilat qurulur. Təşkilatın qurucuları arasında Münəvvərqarı, Taşhacı Tuyakboyev, Nizam Qarı Molla Hüseyin və Başirulla Əsədiulla xacə də olur. Şirkətin proqramında ticarət əlaqələrini genişləndirmək yazılsa da, onu üzvləri, əslində, Türküstandakı tədrisi yeni üsulla aparan məktəblərin şəbəkəsini genişləndirməyə və mühafizakar, cədid məktəblərinə qarşı çıxan din alimlərinin münasibətini yumşaltmağa çalışırdılar.

Təşkilatın üzvləri yeni tipli məktəblər haqqında bilgi toplamaq məqsədilə Osmanlı dövlətinə, Tatarıstana və Kırıma nümayəndələr göndərirlər. Onların gətirdikləri bilgiləri ümumiləşdirib yaymağa çalışırlar.

Münəvvər Qarının əsas qayəsi İsmail bəy Qaspıralının "Dildə, fikirdə və işdə birlik!" şüarını Türküstanda həyata keçirmək olmuşdur.

1913-cü ildə Ubeydulla Xocayev, Taşpolatbəy Narbotabəyov, Münəvvərqarı Abduraşidhanov, Kamil bəy Narbəyov, Molla Abdulla Avlani, Kettexoca Babaxocayev, Muhammedcan Padşaxocayev, Başirullaxan Asatullaxocayev, Nizamiddin Asamiddinxoca, Kərim bəy Narbəyov və b. qurduqları Turan Cəmiyyəti Türküstan ziyalılarının həyatında mühüm rol oynamışdır. Cəmiyyətin 73 maddəlik proqramı olmuşdur. Bu proqramda maarifçilik və islahatlar yolu ilə vətənin inkişafı nəzərdə tutulsa da, əsas məqsəd Türküstanı Rusiya işğalından azad etmək dururdu.

Cəmiyyətin proqramına uyğun olaraq 1914-1915-ci illərdə Ubeydulla Xocayev ilə Münəvvər qarı "Sado-yi Turkistan" qəzetini nəşr etmiş, "Əl-islam" jurnalına gizli redaktorluq etmişdir. Münəvvərqarı 1917-ci ildə nəşr edilən "Necat" qəzetinin redaktoru olmuşdur.

Münəvvərqarının cədidçi fəaliyyətinin iki yönü daha qabarıq görünür. Bunlardan ilki məktəblər açmaq, yeni dərs kitabları yazmaq və nəşr etdirmək, ikincisi isə, şeirləri və qəzetlərə yazdığı məqalələrlə milləti maarifləndirmək.

1917-ci fevral burjua inqilabından az sonra, mart ayında Daşkənddə Şura-i İslam Cəmiyyəyti qurulur. Bu cəmiyyətə Münəvvərqarı və cədidçi, vəkil Ubaidulla Xodzayev rəhbərlik edir. Cəmiyyətin eyniadlı qəzetini nəşrə başlayır. Şirəli Lapinin rəhbərliyi altında Şura-i İslam Cəmiyyəyinə alternativ dini təmayyüllü Üləma Cəmiyyətini qururlar. Bu iki

cəmiyyət bir-birinə alternativ qurulmasına baxmayaraq, bolşeviklərin müsəlmanlara tutduqları divanı gördükdə birlikdə fəaliyyət göstərirlər.

1917-ci ildə nəşr edilən "Keneş" qəzetinin redaktoru olan Münəvvərqarı evində təşkil etdiyi qonaqlığa Daşkənd varlılarını toplayaraq Almanyaya oxumağa göndərilən tələbələrə pul yığmışdır.

Bolşeviklər 1917-ci il oktyabrın 25-də silahlı üsyan yolu ilə hakimiyyəti ələ aldıqda onların yalançı vədlərinə aldanan Özbək cədidçiləri bolşevikləri müdafiə edirlər. 1917-ci ilin noyabrında Daşkənddə Əsgər və Fəhlə Sovetinin qurduğu Türküstəan Xalq Komissarlar Soveti tərkibinə yerli əhalidən heç kimi daxil etmək istəmir. Onların fikrinə görə, yerli əhali geridə qaldığından, onların arasında fəhlə və əsgər azlıq etdiyindən hökumətin tərkibinə daxil edilə bilməzlər. Bu da yerli əhalini narazı salır.

Şura-i İslam Cəmiyyətinə qazax Mustafa Cokay, Abdulvahid Qarı və b. daxil olur. Türküstanın əksər şəhərlərində İslam Şuraları yaradılır. Bu Şuraların öndərləri Kokandda Tuürküstan Milli Muhxtar hökumətini qurduqlarını elan edirlər. Lakin bu hökumətin çox yaşamasına bölgədəki Rus ordusunun əsgər və zabitləri, eləcə də Birinci Dünya Savaşında məğlub olaraq geri dönmüş erməni silahlı birləşmələri qəddarlıqla son qoyurlar.

Vətənin dar günündə onu xilas etməyə can atan cədidçi pedaqoq, yazıçı, şair, alim Münəvvərqarı və onun məslakdaşları Rusiyanın silahlı qüvvələrinin,

xüsusən də Osmanlı cəbhəsində ağır məğlubiyyətə uğramış erməni millətçilərinin qarşısında duruş gətirə bilmirlər.

Milli aydınların silahlı qüvvələr qarşısında dirəniş göstərə bilmədiyini görən cihadçılar Kurbaş İrqaşın, onun ardınca da Madamin bəyin başçılığı altında üsyan qaldırdılar. Bu üsyanı Rusiya basmaçı hərəkatı adlandırdı. Yerli üsyançıların sistemli və mütəşəkkil Rusiya silahlı qüvvələrinə qarşı gücü yox idi. Onlar az və çevik bir qüvvə ilə Rusiyanın ayrı-ayrı hərbi qüvvələrinə qəfil basqınlar etdiklərindən basmaçı adını almışdılar.

1919-cu il martın 30-da Rusiya Kommunist (bolşeviklər) Partiyası Türküstan Təşkilatının Daşkənddə İkinci Konfransı keçirilir. Konfrans yerli əhalinin seçilmiş nümayəndələrini kommunist partiyası sıralarına qəbul etmək məqsədilə Türküstanda Müsəlman Kommunist Təşkilatları Bürosunun yaradılması haqqında qərar qəbul edir. Bu təşkilatın qısaldılmış adı Musbüro Türküstan adlandırılır.

Türküstan Mərkəzi İcraiyyə Komitəsinin sədr müavini, Türküstan Cümhuriyyəti Aclıqla Mübarizə Mərkəzi Komissiyasının sədri Turar Rıskulov sədrlik etdiyi təşkilata Abduqadır Muxitdinov, Münəvvərqarı Abdürəşidxanov, Nizaməddin Xocayev, Yusuf Əliyev, Məmmədəmin Əfəndiyev və başqaları da daxil olur.

Bolşeviklər bölgədə möhkəmlənmək üçün bir zaman düşmən sayaraq döyüşdüyü qüvvələrə qarşı

güzəştə getməli oldu. Cədidçilərin bir çoxunu bolşeviklər partiyasının üzvlüyünə qəbul etdi və onlara yerli özünüidarə təşkilatlarında vəzifdələr verdi.

Münəvvərqarı da bolşeviklərin verdiyi imtiyazlardan xalqını xeyirinə yararlanmağa çalışdı. O, 1918-ci ilin aprelində açılan Türküstan Xalq Universitetinə rektor təyin edilir. Türküstan Ölkə Teatr Truppası yaradılmasında, truppanın müxtəlif şəhərlərdə tamaşalar göstərməsində Münəvvərqarının da əməyi az olmur.

1918-ci ilin yazında yaradılan Türk Ortaqlığı Təşkilatı "Türk sözü" adlı qəzet nəşr etməyə başladı. Qəzetin əsas qayəsi Türklərin ana vətəninin Türküstan olduğunu təbliğ etmək idi. Bölşeviklər gələcəkdə bu təşkilatın üzvlərini pantürkist adı altında cəzalandırmağı planlasa da, zəidf olduqlarından, hələlik, güzəştə gedirdilər.

Daim nəzarət altında saxlamalarına, tez-tez işdən çıxarılmağına baxmayaraq, Münəvvərqarı 1918-ci ildə "Türk Uçoqi" adlı Elm və Təhsil təşkilatını qurur. Türküstan Muxtar Sovet Sosialist Respublikasının Xalq Təhsili Komissarlığında Türk bölməsinin müdiri də (1918) işləyir. Hətta onu 1920-ci ildə Bakıda keçirilən Şərq xalqlarının Birinci Qurultayına Türküstanın nümayəndsi kimi də göndərirlər.

Qarışıq zamanda Daşkənd şəhərində Maarif müfəttişi, Buxara Sovet Sosialist Respublikası Xalq Maarif Komisarlığının idarə rəisi işləsə də, gizli

fəaliyyət göstərən təşkilatlardan da uzaqlaşmır. Milli İttitad və Milli İstiqlal təşkilatlarına rəhbərlik edir. Onun gizli fəaliyyətinin üstü açıldıqda isə vəzifəsindən uzaqlaşdırmaqla kifayətlənirlər.

Münəvvərqarı gah Akademik Mərkəzdə özünə iş tapır (1922, gah Nəvai adına məktəbdə müəllim işləyir, gah Nərimanov adına Pedaqoji texnikumda, Qadın Pedaqoji İnstitutunda müəllimlik edir (1923-1925), Səmərqənd şəhər muzeyində elmi işçi, Özbəkistan Qədim Əsərləri Mühafizə Komitəsinin Daşkənd-Fərqanə şöbəsində məsul katib (1927-1928). vəzifələrində çalışır.

Onun 1925-26-cı illərdə Şorasul Zünnun və Kəyum Ramazanla birlikdə yazdığı "Özbək dili" dərsliyin dəfələrlə nəşr edilir.

Rusiyanın Sovetləşmə adı altında xalqın var-dövlətini mənimsəməsinə, kəndilərin əlindən ərzağın zorla alınıb Rusiyanın mərkəzi şəhərlərinə göndərilməsinə, ruslaşdırma siyasətinə qarşı çıxdığına görə onu vəzifədən uzaqlaşdırmışlar.

1922-1929-cu illərdə Daşkənddə xalq təhsilinin müxtəlif sahələrində çalışan, özbək gənclərinin Azərbaycana oxumağa göndərilməsini təşkil edən, gizli təkilatda antisovet təbliğat aparan, 1925-ci ildə Səmərqənddə qurulan gizli qrupun üzvü olan Münəvvərqarını 1929-cu il noyabrın 6-da həbs edirlər. KQB-nin tərtib etdiyi 554335 saylı istintaq işində 78 nəfərin ifadəsi yer alır. Onları Münəvvərqarı ilə

birlikdə təşkilat yaradıb Sovet hökumətini yıxmaqda suçlayırlar.

1931-ci il mayın 23-də Moskvada güllələnən Münəvvərqarını repressiya olunanlarla birgə Vaqankovski qəbristanlığında dəfn edirlər. Onun adının çəkilməsi və əsərlərindən istifadə edilməsi üzərində yasaq qoyulur. Sovetlər Birliyi dağıldıqdan sonra Münəvvərqarının ideyaları yenidən aktuallaşır, onun haqqında məqalələr yazılır, əsərləri çap olunur.

OSMAN XOCA

Усман Хаджа Пулатходжаев Osman Xoca (1878-1968) (عثمان خوجا, Özb. Usmon xo‘ja, Po‘latxo‘jayev, Rus. Усман Хаджа Пулатходжаев)



Osman Xova Polatxocayev 1878-ci ildə Oş qəaəbəsində doğulub.

Rusiya Türküstanın işğalını başa çatdıranda, yəni 1878-ci ildə Fərqanə vadisinin Oş qəsəbəsində yaşayan Xocanın ailəsində doğulan uşağa Osman adını qoyurlar. İndi həmin bölgə Qırğızıstan Respublikasına daxildir. Türküstanda özlərini peyğəmbərimiz Məhəmməd Əleyhissəlamın nəslindən sayanlar xoca adlandırılır. Xalq da onlara həmişə hörmət və ehtiramla yanaşır. Osman da belə bir hörmət və nüfuz sahibi olan ailədə dünyaya göz açdı.

Onun uşaqlığı kəskin ziddiyyətlərlə dolu bir dövrə təsadüf etdi. Bir tərəfdə köhnə qurluşu, yaşam tərzini, təhsilini və s. yaşatmaq istəyənlər dururdusa, o biri tərəfdə isə dəyişiklikləri tərəfdarı olan, Avropada gördüklərini vətənlərində tətbiq etmək istəyən,

Rusiyanın Türküstanı idarə etmək üçün açdığı məktəblərdə oxuyanlar və Rusyanın idarələrində işləyənlər dayanırdılar.

Bu iki qrup arasında ziddiyyətlər gündən-günə dərinləşirdi.

Osman Xoca ilk təhsilini böyüyüb boya-başa çatdığı Oş qəsəbəsindəki mollaxanada-ibtidai məktəbdə, sonra da mədrəsədə aldı. Atası oxumağa önəm verdiyindən oğluna xüsusi müəllimlər də tutdu. Osman təhsilini davam etdirmək üçün Buxaraya gəldi. Burada orta yüzillərdən Uluq bəy mədrəsəsi, Mir Ərəb mədrəsəssi, Kükəldaş mədrəsəsi, Əbdüləziz xan mədrəsəsi və b. məşhur təhsil ocaqları fəaliyyət göstərirdi.

Osman Xoca oğlu mədrəsədə təhsili almaqla yanaşı, Rusların açdığı məktəblərlə də maraqlandı, Avropada baş verənləri diqqətlə öyrəndi. Çar Rusiyasına qarşı 1898-ci il mayın 17-19-da baş qaldırmış, daha çox üsyan rəhbərinin adıyla Dükçü İşan üsyanı kimi tanınan hərəkata qoşuldu. Üsyan yatırılanda gənc Osman da həbs edildi. Ailəsinin xocalardan olması və ciddi sübutlar tapılmadığından Osman tezliklə həbsdən azad olundu.

Osman duyğusallığa dayanan üsyanın nəticə vermədiyini gördü. Odur ki, xalqının maarifləmə-sinə diqqəti artırdı. 1908-ci ildə dostaları ilə birgə "Şirkət-i Buxara-i Şərif"i yaratdı. Bu şirkət ticarətlə məşğul olsa da, siyasi məqsədlə qurulmuşdu. Onlar yeni açılmış cədid məktəbləri dərs kitabları ilə

təmin etməyi, istedadlı uşaqların təhsilini davam etdirməsinə yardımçı olmaq istəyirdi. Türküstanda mətbəələrin azlığı, yenıi məktəblər üçün kitabları yaza biləcək pedaqoqların yetərsizliyi Osman Xocanı 1909-cu ildə Baxçasaraya, İsmayıl bəy Qaspıralının yanına gətirir.

Bağçasaraydan da İstanbula gedən Osman Xoca oğlu Ənvər Paşa ilə görüşür. Geri döndükdə, yəni 1909-cu il oktyabrın 26-da "Buxara Təmimi-i Maarif Cəmiyyəti-i Xeyriyyəsi"ni qurur. Bu cəmiyyətin məqsədi Türküstandakı istedadlı, lakin ailələri kasıb olduğundan təhsillərini davam etdirə bilməyən uşaqları oxumağa göndərmək idi. Cəmiyyətin vəsaitilə 45 gənc İstanbula oxumağa göndərilir. Osman Xoca oğlu da İstanbula gedərək orada təhsilini davam etdirir.

1913-cü ildə yenidən Buxaraya qayıdan Osman Xoca Avropa tipli məktəb açdı. Bu məktəbin ilk şagirdlərinin əksəriyyəti öz qohumları oldu. Az bir zamanda onun açdığı məktəbin şöhrəti artdı və şagirdlərin sayı 200-ü keçdi. Yeni tipli məktəblərin şöhrətinin artması, oradakı təlim-tərbiyənin maraqla qarşılanması mühafizəkarları bərk narahat etdi. Onların təzyiq və təsiri ilə Buxara Əmiri bu məktəbi bağlatdı.

Monarxiyanın məhvə doğru getdiyini görən qabaqcıl fikirli insanlar vətənlərini abad və azad görmək üçün monarxiya idarə üsulunu dəyişmək uğrunda yollar axtardılar. Avropa maarifçilərindən

təsirlənən yerli ziyalılar maarifçiliyi siyasi hərəkata və partiyaya çevıirdilər.

Dünya Savaşında çətin durumda qalan Çar Rusiyası 1916-cı ildə "arxa cəbhəyə gənclərin toplanması" haqqında qərar verdi. Bu qərar xalqın etirazına səbəb oldu. Buxaranın öncül maarifçilərindən Mamud Hoca Behbudinin başçılığı ilə Buxarada mitinq keçirildi. Mitinq iştirakçıları Türküstanın Rusiya işğalından azad edilməsini tələb etdilər. Mitinqin tələbləri ödənmədikdə xalq üsyan qaldırdı. Lakin Çar ordusu Türküstanda baş qaldırmış üsyanı qəddarlıqla yatırtdı. Üsyançıların bir çoxu həbs olundu və bəziləri də Buxaradan qaça bildilər.

Osman Xoca da cəzadan yaxa qurtaranlarla birlikdə yenidən toparlanaraq "Yaş Buxaralılar" (Gənc Buxaralılar) adlı siyasi təşkilat qurdular. Təşkilatın məqsədi monarxiyanı – Buxara Əmirini devirmək və Cümhuriyyət qurmaq oldu. Lakin təşkilatın daxilində fikir ayrılığı vardı: Bir qrup vətəni Rusiya işğalından azad edərək müstəqil respublika qurmaq, başqa bir qrup isə sosial ədalətə dayanan, sosialist və marksist respublika yaratmaq istəyirdi.

Sosial ədalətə üstünlük verən qrup bolşevikləri yardıma çağırdılar. Frunzenin komandanlıq etdiyi Ssovet əsgəri birlikləri 1920-ci il avqustun 29-da Buxaraya doğru irəlilədi. Buxara Əmiri Alim Xan sentyabrın 2-də Əfqanıstana qaçdı. Sentyabrın 14-də ali hakimiyyət orqanları – Ümumbuxara İnqilab Komitəsi və Xalq Nazirlər Komissarlar Şurası

yardıldı. Osman Xoca bu hökumətin maliyyə naziri oldu.

Buxaradan qaçan Alim Xan öz tərəfdarlarını toplayaraq yenidən Buxaraya hücum etdi. Buxara Xalq Sosialist Höküməti 1921-ci il sentyabrın 23-də ölkənin doğusuna çəkilərək kiçik muxtar Şərqi Buxara Milli Hökuməti yaratdı. Osman Xoca bu respublikanın prezidenti seçildi.

Osman Xoca prezident kimi radikal qərarlar qəbul etdi. O, Rusların basmaçılar adlandırdığı milli mücahidləri dəstəklədi. Buxarada olan Ənvər Paşa ilə görüşdü. Daxili nizamı təşkil edə bilmək üçün Rusiyanın əsir düşərgələrindən Buxaraya gələn türk zabitlərinin köməyi ilə müdafiə dəstələri yaratdı. 1921-ci il dekabrın 9-da rus qarnizonunu mühasirəyə alaraq rus diplomatlarını əsir götürdü, qarşılığından rus ordusunun Buxara torpaqlarından çıxmasını tələb etdi. Lakin rus ordusu ilə qarşıdurma yarandı. Bundan sonra Osman Xoca əli silah tutan bütün Buxara xalqını rus hərbçilərinə qarşı mübarizə aparmağa çağırdı.

1922-ci ildə Osman Xoca silah-sursat almaq, xarici ölkələrin dəstəyini qazanmaq üçün Əfqanıstana getdi və oradakı ingilis rəsmi dairələrilə görüşdü. İkili siyasət yeridən ingilislər Sovet Rusyası ilə bağladığı gizli müqaviləyə görə yeni yaradılmış Şərqi Buxara Milli Respublikasına köməklik etmədi.

Baş nazir Feyzullah Xoca gizli xəbər göndərdi ki, Ruslar Osman Xocanı edam etməyi planlaşdırıb. Buna görə də o, bir müddət Əfqanıstanda yaşamalı oldu.

Lakin bolşeviklər onun Əfqanıstanda da dinc qoymadılar. Sovet Rusyasına qarşı mübarizə aparacağını bildiklərindən Əfqanıstan hökumətini Osman Xocanı ölkədən çıxarmağa məcbur etdilər.

1923-cü ildə İstanbula gələn Osman Xoca Mustafa Kamalla görüşdü. Atatürk onu yüksək səviyyədə qarşıladı. Söhbətdən aydın oldu ki, Şərqi Buxara Milli Hökümətinin və Türküstanlıların Qurtuluş Savaşı üçün topladıqları qızılın böyük bir qismini V.İ.Leninin rəhbərlik etdiyi bolşevik Rusiyası mənimsəyib. Türkiyəyə toplanan vəsaitdən cəmi 100 milyon ruble qızıl göndərilib.

Atatürk göstərdikləri yardım üçün Osman Xocaya təşəkkürünü bildirdi və ömürboyu millət vəkili maaşı almasına, o ölərsə, həmin maaşın həyat yoldaşına verilməsinə dair göstəriş verdi.

Osman Xoca Məmmədəmin Rəsulzadə ilə də görüşür. Bu görüşlər nəticəsində Azərbaycanın ilk siyasi mühacir jurnalı olan "Yeni Qafqasiya" İstanbulda Osman Xocanın sahibliyi ilə nəşrə başladı. O, yalnız Azərbaycanın siyasi mühacirlərinə deyil keçmiş Rusiyadan getmiş mühacirlərə də mənəvi və maddi yardım göstərdi.

Osman Xoca 1927-ci ildə İstanbula oxumağa göndərdiyi gənclərə "Türküstan Gənclər Birliyi" dərnəyini qurmağa köməklik etdi. Əhməd Zəki Vəlidi Toqan, Mustafa Çokayoğlu kimi Türküstan ziyalıları ilə birləşərək "Yeni Türküstan" jurnalının nəşr etdirdi.

Onun ictimai-siyasi fəaliyyətindən narahat olan Sovetlər Birliyinin rəhərləri 1934-cü ildə "Yeni Türküstan" junalının bağlanmasına, bir çox siyasi mühacirlər kimi Osman Xocanın da Türkiyədən çıxarılması nail ola bildilər.

1938-ci ildə Polşaya mühacirət edən Osman Xoca orada çox qala bilməyib İrana getdi. Bir müddət burada yaşadıqdan sonra 1945-ci ildə yenidən Türkiyəyə qayıtdı. Lakin Türkiyədə də ictimai-siyasi fəaliyyətlə məşğul olmağa imkan verilmədiyini, Əhməd Zəki Vəlidi Toqan, Abdülqadir İnan və b. millətsevərlərin nahaqdan həbs edildiyini, məhkəməyə verildiyini gördü.

1951-ci ildə Pakistana gedən Osman Xocaya orada da ictimai-siyasi fəaliyyətlə məşğul olmağa imkan vermədiklərindən 1957-ci ildə yenidən Türkiyəyə qayıtdı.

Son nəfəsinədək Türküstan üçün çalışan, müxtəlif qəzet və jurnallarda Sovet Birliyinin müstəməkəçilik siyasətini pisləyən Osman Xoca 1968-ci il aprel 28-də dünyasını dəyişdi. Türküstanlı gənclər isə onun ideyalarını əldə bayraq tutaraq ölümündən 24 il sonra da olsa, Türküstanı Ssovetlərin əsarətindən azad etdilər.

SEYİD RZA ƏLİZADƏ



Seyid Rza Əlizadə (1887-1945) (سيد رضا عليزاده, Özb.Saidrizo Alizoda, Rus. Саид Ризо Али-заде)

Seyid Rza Əlizadə 1887-ci il fevralın 15-də Səmərqənddə Boqişamol (Bağ-i şimal) məhəlləsində anadan olub. Azərbaycandan gedib Səmərqənddə yaşayan ailə ipək və xalça ticarəti ilə məşğul olurmuş. Atası Mir Möhsünün Arazın o tayından, anasının isə İsmayıllıdan olduğunu yazırlar. Oğlunu savadlı görmək istəyən Mir Möhsün Rzanı azərbaycanlı Şeyx Əbdülqasim Əlqancinin Çorraha Dahada açdığı üsuli-cədid məktəbində oxumağa göndərir. O, ilk gündən məktəbin seçilən şagirdlərindən olur.

O illərdə gediş-gəliş çətin olsa da, Mir Möhsünün ailəsi ata-baba yurdu ilə əlaqəsini kəsmir. Seyid Rza yetkinlik yaşına çatdıqdan sonra dəfələrlə Azərbaycana gəlir, burada ədəbi mühitlə tanış olub, şairlərlə və qohumlarıyla görüşüb. Bu görüşlər ona

Türküstanla Azərbaycan arasında bir mədəniyyət körpüsü yaratmasına səbəb olur.

Fitri istedadı və zəhməti sayəsində özbək, fars, ərəb, ingilis, alman, fransız, italyan, ivrit, kürd, tacik, urdu, rus, erməni dillərini öyrənir. Türküstanda cədidçilər adlandırılan yenilikçilər hərəkatının öncüllərindən birinə çevrilir. Xalqı maarifləndirmək, cəhalət yuxusundan ayıltmaq üçün mətbuatdan istifadə edir. İstər Türküstanda, istər Qafqazda, istər Hindistanda nəşr olunan qəzet və jurnallarda yüzlərlə məqalə və şeir nəşr etdirir.

1906-cı ildə Qafqaza gələndə böyük satirik Mirzə Ələkbər Sabirlə görüşüb. Qafqazda türk dilində nəşr olunan "İrşad", "İqbal", "Molla Nəsrəddin" kimi qəzet və jurnallara "Bəhlul", "Neştər", "Zənbur", "Rəncbər", "Şapalaq", "S.R.Səmərqəndi" və s. imzalarla yazılar göndərməklə yanaşı, həmin qəzet və jurnalların Səmərqənddə yayılmasında da böyük əməyi olub.

Seyid Rza Əlizadənin təşəbbüsü ilə Səmərqənddə 1907-ci ildə "Həyat", 1908-ci ildə isə "Yeni həyat" kimi yeni tipli məktəblər açılır. Qafur Qulam 30-cu illərdə Bakıda olarkən "Kommunist" qəzetinə verdiyi müsahibəsində deyir ki, "mən ilk təhsilimi Səmərqənddə azərbaycanlıların açdığı məktəbdə almışam. Şeir aləminə isə Hüseyin Cavidin və Mirzə Ələkbər Sabirin təsiri ilə gəlmişəm". M.Ə.Sabir xəstə olarkən Əlizadə Şamaxıya gəlir. 1910-cu ildə qələm yoldaşları Mahmud Behbudu, Hacı Muin, İsmayıl Axundov,

Molla Xalim Kərimov, Əhməd Hacı Əbdürəsul oğlu və başqaları ilə pul toplayaraq xəstə Sabirə göndərir. 1911-ci ildə isə Sabirin ölüm xəbərini eşidən Səmərqənd ziyalıları böyük şairə 40 gün yas saxlayırlar.

Yeni tipli məktəblərdə dərs deyən, tədris proqramı hazırlayan gənc maarifpərvər mətbuatla da əlaqəsini kəsmir. Səmərqənddə çıxan "Səmərqənd", "Novıy Samarkand", "Ovozi tacik" qəzet və jurnallarına maarifçi məqalələr yazır. 1910-cu ildə Mahmud xacə Behbudi onu redaktoru olduğu "Ayna" jurnalında məsul katib işləməyə dəvət edir.

"Ayna" jurnalında təcrübə keçən Seyid Rza sonra "Şərq" adlı qəzeti nəşr etməyə başlayır. 1916-cı ildə isə "Teleqraf xəbərləri" qəzetini açır. 1919-cu ildə isə onu "Şöləyi inqilab" jurnalına redaktor təyin edirlər. Az zamanda bu jurnal təkcə Türküstanda deyil, Azərbaycan ,Türkiyə, İran, Hindistan və ərəb ölkələrində də oxunan geniş tirajlı jurnala çevrilir. Təəssüf ki, 1922-ci ildə jurnalın nəşri dayandırılır.

Ana tərəfdən Üzeyir Hacıbəyli ilə qohum olan Seyid Rza Əlizadə Bakıya gələrkən böyük bəstəkarla görüşür, onun əsərlərinin Türküstana güclü təsir göstərə biləcəyindən söz açır və Türküstana kömək göstərməyin vacibliyini vurğulayır. O, şəxsi görüşlərində olduğu kimi, məktublarında da Səmərqənddə Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafının bölgədəki xalqların mədəni inkişafına güclü təkan verəcəyini yazır.

Seyid Rza Əlizadənin səyi nəticəsində 1918-ci ildə Səmərqənddə Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları, "Arşın mal alan", "O olmasın, bu olsun" operettaları tamaşaya qoyulur. Seyid Rza bu tamaşalarda müxtəlif rolları oynayır.

Sovetlər hakimiyyəti Türküstanı işğal etdikdən sonra ideologiyalarını təbliğ etmək üçün təhsilə diqqəti artırır. Azsaylı xalqların dillərində məktəblər, qəzet-jurnallar açır. Həm də türk-müsəlman xalqlarını bir-birindən ayırmaq üçün əlifbalarını dəyişdirir.

Seyid Rza Əlizadə də Sovetlərin yaratdığı imkandan istifadə edərək xalqı savadlandırmağa çalışır. Puşkinin, Qoqolun, Şoloxovun və Amerikan yazıçısı Elton Sinklerin əsərlərini tacik dilinə, Bartoldun "Türküstan və Avropanın ümumi tarixi" adlı əsərini isə fars dilinə tərcümə edir.

Çox dil bilməsi, zəngin pedaqoji təcrübəsi onu bölgənin özbək, tacik, qazax və qırğızların arasında məşhurlaşdırır. Ona nəinki özbək və tacik üçün, hətta Türküstanda yaşayan farslar üçün dərs kitabları yazmaq sifarişi verilir. O, az zamanda özbək və tacik ümumtəhsil məktəbləri üçün "Əlifba", "Coğrafiya", "Tarix", "Riyaziyyat", "Həndəsə", "Astronomiya" və "Ərəb dilinin qrammatikası" kitabını yazır. Tacik dilinin qrammatikasını, iki cildlik rusca-tacikcə lüğət çap etdirir.

Seyid Rza Əlizadənin yazıb çap etdirdiyi "Əsr-i səadət", "Mədəniyyət-i islam" və başqa dini kitab

təkcə Türküstanın deyil, İranın, Əfqanıstanın, Pakistanın, Hindistanın və b. ölkələrin mədrəsələrində dərs kitabları kimi tədris edilir. Hazırda Pakistanın Lahor şəhərinin kitabxanasında Seyid Rza Əlizadənin 33 kitabı saxlanılır. Bu əsərlərin 20-si tərcümə, 13-ü isə orjinal kitablardır.

Sovet təhsil müəssisələri də onun pedaqoji məharətindən bacarıqla faydalanır. Tanınmış özbək şairləri Qafur Qulam, Həmid Əlimcan, Utkir Rəşid, akademik Vahid Abdullayev və başqa məşhur şəxslər Seyid Rza Əlizadənin onlara dərs deməsilə qürur duyduqlarını dönə-dönə qeyd etmişlər.

Seyid Rzanın bilik və pedoqoji məharətini nəzərə alıb 1933-cü ildə onu Əlişir Nəvai adına Səmərqənd Dövlət Universitetinə müəllim dəvət edirlər. O, 1937-ci ilədək Universitetdə ərəb və fars dillərindən dərs deyir.

1937-ci ildə Sovetlər Birliyinin hər yerində olduğu kimi Səmərqənddə də kütləvi həbslər başlayır. Seyid Rzanı da "antisovet təbliğatçısı", "ingilis casusu" adı ilə həbs edirlər. Uzun-uzadı istintaqdan sonra onun istintaq sənədlərini məhkəməyə göndərirlər. Həmin dövrün məhkəmələri üçün gözlənilməz bir hadisə baş verir. Səmərqənd vilayət məhkəməsi Seyid Rza Əlizadənin fəaliyyətində cinayət tərkibini yetərsiz sayaraq təkrar istintaqa göndərir.

Təkrar dindirmələrdə də Seyid Rzanın fəaliyyətində yetərli cinayət tərkibləri tapılmadığından onun istintaq sənədləri üç dəfə geri –

müstəntiqlərə qaytarılır. Hətta Özbəkistan Respublikasının Ali Məhkəməsi belə Seyid Rza Əlizadənin fəaliyyətində cinayət tərkibini yetərsiz sayır. Lakin onu azad etməyə cəsarəti çatmadıqlarından dindirmə sənədlərini Moskvaya göndərirlər.

Seyid Rza ilə birlikdə həbs edilənlərin əksəriyyəti qısa dindirmədən sonra "vətən xaini" kimi güllələndiyi, ömürlük həbs edildiyi və ya ən azı 8-12 il həbs cəzasına məhkum edildikləri halda Seyid Rzanın sorğu-sualı dörd il davam edir. Sübutlar tapa bilməsələr də, Seyid Rza boynuna heç bir cinayəti almasa da, 1941-ci il sentyabrın 16-da ona 5 il həbs cəzası verirlər.

Onu Rusiyada dövlət adamlarının, siyasi xadimlərin, xarici diplomatların, rəhbər işçilərin saxlandığı Vladimir şəhərindəki həbsxanaya göndərirlər. 1943-cü il fevralın 4-də cəza müddəti bitir. Lakin onun azad olunmasını təhlükəli sayaraq istintaqsız, məhkəməsiz "Təhlükəli adam" kimi müharibənin sonunadək həbsxanada saxlanması haqqında qərar qəbul edilir.

Seyid Rza haqsız həbs olunduğuna dair 400-ə yaxın şikayət ərizəsi yazsa da, hec birinə diqqət yetirilmir.

S.R.Əlizadə həbsxanada olarkən belə maarifçilik fəaliyyətini davam etdirir. O, yalnız həbsdə olanlara deyil, həbsxana nəzarətçilərinə və rəbərlərinə də dərs demişdir. Vladimir həbsxanasının milliyyətcə yəhudi olan rəisi sonralar xatirələrində yazıb ki, "dünyanın

işinə bax, siyasi dustaq, milliyyətcə azərbaycanlı olan Seyid Rza Əlizadə mənə ana dilimi – ivritcəni öyrətdi".

8 il məhbəs həyatı sürən, tez-tez xüsusi rejimli kamerada saxlanan, Seyid Rza Əlizadə 1944-cü il sentyabrın 11-də 32 nömrəli kameraya – həbsxana xəstəxanasına köçürülür və 1945-ci il dekabrın 24-də 58 yaşında vərəm xəstəliyindən dünyasını dəyişir.

1957-ci ildə bir çox repressiya qurbanları kimi S.R.Əlizadəyə də bəraət verilir. 1987-ci ildə isə çox çətinliklə olsa da, nəvəsi Fərhad babasının nəşini Vladimir şəhərinin məhbuslar üçün nəzərdə tutulmuş qəbristanlığından Səmərqəndə gətirir və "Pəncab" qəbristanlığında dəfn etdirir. Səmərqənddə Seyid Rza Əlizadə adına küçə, məhəllə var, şəhərdəki 14 nömrəli orta məktəb qarşısında isə büstü qoyulub. Əlizadələr hələ də yaşayır, onlar ölmür. Xalqın ürəyində var. Lakin onların ölümünə səbəb olan quruluş isə lənətlə yad edilir.

TAVOLLO



Tavallo, Tolaqan Xujamyarov (1883-1937) (-تاوالللو تولاقان خوژامیاروو, Özb. To‘lagan Xo‘jamyorov, Rus. Тулаган Хужамяров Тавалло)

Tavollo ləqəbi ilə tanınan Tulaqan Xujamyarov 1883-ci ildə (qaynaqlarda onun 1880, 1882-ci ildə doğulduğu da yazılır. Lakin şairin 1937-ci il avqust ayının 14-də KGB müstəntiqinə verdiyi izahatda 1983-cü ildə doğulduğu yazıldığından biz onu daha dəqiq saydıq.– Ə.Ş.) Kokçada anadan olub. Atası Xujamyarın adı sonradan onun soyadı kimi yazılıb. Atasının adı və soyadı da sənədlərdə Xujamyar Jiyanboyev kimi yazılır.

Atası ticarətlə məşğul olan Tulaqan ilk təhsilini məhəllə məktəbində, sonra da Obi Nəzir məhəlləsindəki Bəylərbəyi mədrəsəsində oxuyarkən gələcəkdə Özbəkistanın tanınmış şairləri olacaq Kami Kərimbəy, Miskin, Xislət və Yusif Saryomla tanış olur. Bu, o dövrdə Daşkəndin ədəbi, mədəni mərkəzi kimi ad çıxarıbmış.

Tacir atası oğlunun ona ticarətdə yardımçı olması üçün, Rusiya ilə ticarətini qurarkən Rus dilini bilənə ehtiyacı olacağını düşünərək Tulaqan Rus-tuzem məktəbinə oxumağa göndərir. O, təhsil aldığı məktəblərin seçilən şagirdlərindən olmaqla yanaşı, Tavolla imzası ilə şeir və məqalələrini də nəşr etdirir.

1900-cü ildə atası onu Prjevalsk şəhərindəki sahibkar Usmanbəy Solixanovun yanında işləməyə göndərir. Tulaqan orada ticarət işlərində təcrübə qazanmaqla yanaşı, rus dilində yazıb-oxumasını da təkmilləşdirir.

1905-ci ildə Rusiyada baş vermiş inqilab milli aydınların da qol-qana açmasına şərait yaradır. Çədidçilər hərəkatına qoşulan Tavolla “Taraqqi”, "Sadoyi Turrkiston", "Sadoyi Farqona”, “Şuhrat” satirik şeirlərini, dövrün nöqsanlarını tənqid edən məqalələrini çap etdirir. Satirik “Müştüm” jurnalında Mağzava” imzası ilə çıxış edən şairin 1914-cü ildə “Sabzovar” poeması və 1916-cı ildə jurnalda nəşr etdirdiyi 70 şeiri toplanmış “Pavnaq ul-islam” adlı kitabı işıq üzü görür.

1909-cu ildə atasının ölüm xəbərini alıb Daşkəndə dönən Tulaqan Xujamyarov burada ticarət şirkətlərində çalışmaqla ictimai-siyasi məzmunlu satirik şeirlər də yazaraq dövrü mətbuatda çap etdirir.

1913-cü ildə Bəylərbəyi mədrəsəsindən tanıdığı, özünə müəllim saydığı Yusif Saryomun ölümü onu sarsıdır. Şairin gənc yaşında dünyadan köçməsindən

təsirlənərək “Bir qönçə divan” şeirini yazaraq çap etdirir.

Tatarların yenilikçi şairi Abdulla Tukayın gənc yaşlarında dünyasını dəyişməsi də Tavollayanın yaradıcılığında iz buraxır. Hər ikisinin yetim böyüməsi və talelərinin oxşarlığı onu təsirləndirir. O, “Cümlə fikrim gecə-gündüz sizqa aid millətim” misrası ilə başlayan “Totor qardoşlarimizninq mashhur şoiri, marhum Abdulla əfəndi Toqayevning şe’rina tazmin” şeirini yazır.

Tavollo yazır ki, Abdulla Tukayın şeirlərindən çoxları faydalanıb, yenilikçi şairlər onunla şəxsən tanış olmasalar, belə özlərinin ustadı sayıblar.

Daşkənddə yaşayan yenilikçilərlə yaradıcılıq və dostluq əlaqəsində olan Tavallo 1914-cü il avqustun 30-da 12 nəfərlə– Münəvvər Qarı, Abdulla Avlani, Hüseyinxacə Dədəxacə oğlu, M. Podşoxacəyev, Ssidabdulla Saidkərim oğlu Saidazimboyev, Komilbəy Norbəyov və b. birlikdə “Nəşəriyyat” adlı şirkət qurub kitab nəşrinə başlayırlar. 1915-ci ildə isə görkəmli pedaqoq, şair və xeyriyyəçi Abdulla Avlaninin qurduğu Cəmiyyət-i Xeyriyyəyə üzv yazılır.

Abdulla Avlani Tavallo ilə həmyaşıd idi və onunla eyni şəhərdə doğulmuşdu. Bir-birini də uşaqlıqdan tanıyırdılar. İsmayıl bəy Qaspıralının davamçılarından olan Abdulla Avlani Türküstanda ilk dəfə açdığı məktəbdə coğrafiya, həndəsə, riyaziyat, kimya və b. fənnləri tədris edən müəllim kimi tanınır.

Onun yaratdığı cəmiyyət uşaqların təhsil alması qayğısına qalmaqla yanaşı, istedlı gənclərin xarici ölkələrdə oxumağa getməsinə köməklik edirdi. Cəmiyyətin nəzdində yaradılmış Turan Teatr Truppası Abdulla Avlaninin əsərləri ilə yanaşı, Abdullah Qədirinin və Həmzə Həkimzadə Niyazinin, eləcə də azərbaycanlı müəlliflərdən Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun əsərlərini də tamaşaya qoyurdu.

Tavallonun Abdulla Avlani ilə əməkdaşlığı yalnız Turan Teatr Truppasında tamaşalar hazırlamaqla, tamaşalarda həvəskar aktyor kimi çıxış etməklə bitmir, gənclərin xaricə oxumağa göndərilməsi üçün vəsait toplanmasında da yaxından iştirak edir. 1914-cü il fevralın 27-də Daşkənddəki Kolizey teatrında Avloni truppası ilk Özbək pyesi Mahmud xacə Behbudinin "Padarkuş" tamaşasını göstərir. Tavallo bu tamaşaya bir şeir həsr edir. "Çox münəvvər etdi aləmi Münəvvərqarı" misrası ilə başlayan şeirdə tamaşanın açılışında çıxış edən Münəvvərqarının nitqini yüksək dəyərləndirir. O, Özbək teatrının yaranmasını yalnız bu şeirlə alqışlamır, dörd şeir yazır.

Özbək ədəbiyyatıda millət və milliyət məvhumlarına Tavallo və Avni qədər diqqət yetirən, bu mövzuda yazan cədidçiyə az rast gəlmək olar. Şair Avropa və Amerkanın iqdisadi inkişafını yüksək dəyənrləndirib təbliğ etməklə yanaşı, xalqını tarixi

keçmişini öyrənməyi, yaxşı nə varsa, onu qoruyub-saxlamağı da təbliğ etmişdir.

Tavallo kimi aydınların sayəsində bölgədə cədidçilik ictimai hərəkət olmaqdan çıxıb siyasi məzmun qazanmışdı. Öncə təhsildə islahatlar aparmaq istəyi ilə meydana atılan və cədidçi adlandırılan qrup getdikcə fəaliyyət dairələrini genişləndirərək idrəetmənin əksər sahələrində islahatlar aparılmasını istədilər. Bununla da cədidçilər islahatçılıqdan daha çox inqilabçılar kimi tanınmağa başladılar.

Beləcə, cədidçilərlə mühafizəkarlar arasında ziddiyətlər dərinləşdi. Bu qarşıdurma ölüb-öldürmək məsələsinə çevrildi. O, Avropa təhsilli, Avropa dünyagörüşlü kadrların hazırlanmasına yardımçı olmaqla yanaşı, mühafizəkarları, xurafata uyanları kəskin tənqid edən şeirlər yazmağa başladı. Bəzən şeirlərində mühafizəkarlıqla milli ənənəni bir-birindən ayrılmırdı.

Tavallo 1917-ci ildə çar İkinci Nikolayın hakimiyyətdən getməsini alqışlarla qarşılayır, Kreniskinin başçılığı ilə yaradılan Müvəqqəti hökumətə böyük ümidlər bəsləyir. Lakin 1917-ci ilin oktyabrından bolşeviklərin, erməni silahlı dəstələri ilə birləşərək Daşkənddə müsəlmanları kütləvi şəkildə qırmaları Tavallonun inqilaba ümidini alt-üst edir. Onun yaşadığı şəhər iki hissəyə – Köhnə Daşkənd və Yeni Daşkəndə bölündü. Yeni Daşkənddə silahlı hərbçilər, rus və erməni iş adamlarıyla, ziyalılarla

birləşərək yeni hökumət qurduqlarını elan edirlər. Fəhlə və Əsgər Deputatları Sovetinin hakimiyyətə gəldiyini elan edən bu quldur dəstəsi yerli əhaliyə yuxardan aşağı baxır, Köhnə Daşkəndə, eləcə də şəhərin ətrafındakı kənd və qəsəbələrə hücumlar edərək dinc əhalini öldürür, mal-mülkünü qarət edir.

Belə bir gərgin günlərdə Özbək, Qazax, Türkmən, Tacik aydınları da Köhnə Daşkənddə toplaşaraq dinc əhalini silahlı quldur basqınlarından qoruma yolları axtarırdı. Necə deyərlər, dünənki inqilabçılar bu gün özlərini inqilabçı adlandıran Sovetlərə qarşı mübarizə aparmalı olurdu. Şeirlərinin əsas qayəsi azadlıq olan şair qadın azadlığı məsələsinə də xüsusi diqqət yetirir, bu mövzuda bir neçə şeir yazır. Ataları qızlarını oxutmağa cağırır. Onun İsmail bəy Qaspıralının ölümünə, Karsda baş verən zəlzələyə, Birinci Dünya Savaşına həsr etdiyi şeirlər dövründə ən çox diqqət çəkib.

Tavallo 1915-1919-cu illərdə Turan Teatr Truppasında həvəskar aktyor kimi çıxış etməklə yanaşı, "Şura-i islam", "Milli ittixod" təşkilatlarının da aparıcı simalarından olur.

1918-ci ildə isə məhəllədə məktəb açır. 1924-cü ildə hökumət onun dərs dediyi məktəbi müsadirə edir. O, mətbuat yayımı idarəsində işləyir və milli qüvvələrlə birlikdə gizli fəaliyyət göstərir. 1926-cı ildə onu mətbuat işçilərindən 6 min 500 som yığıb basmaçılara göndərdiyinə görə həbs edir və beş il həbs cəzasına məhkum edirlər. Lakin rəhbər vəzifədə

işləyən millətçi dostlarının yardımı ilə həbsdən qurtara bilir.

Tavallo həbsdən qurtarsa da, ciddi ictimai-siyasi faəliyyətlə və bədii yaradıcılıqla məşğul ola bilmir. Gizli təşkilatlarda antisovet fəaliyyətlə məşğul olur. İstintaq sənədlərində onların gizli təşkilatının Azərbaycandakı Müsavat Partiyasının gizli təşkilatları ilə əlaqəsi qeyd edilir.

Təqiblər və 1931-ci ildə oğlu Mahmudun ölümü onu sarsıdır. Dost-tanışla əlaqəsini kəsib içkiyə qurşanır.

İctimai-siyasi həyatdan uzaqlaşsa da, Sovet xüsusi xidmət orqanları ondan əl çəkmir. Keçmiş fəaliyyətinə görə onu 1937-ci ildə yenidən həbs edirlər. Avqustun 7-də istintaqa versdiyi izahatda ailə üzvləri və özünün keçmiş fəaliyyəti haqqında zəngin bilgi var.

Əksinqilabçılıqda ittiham etdikləri Tavollo haqqında müstəntiqlər yazır ki, o adamlar arasında deyib: "Özbəkistan milli Respublika deyil, müstəmləkədir. Özbək xalqı qarşılıqlı nifaq və qorxaqlıq üzündən qırmızıların (bolşeviklərin) əsiri oldu. Bir gün xalqın səbr kasası dolacaq və Sovet hökumətinə qarşı üsyana qaldıracaq. İnqilabın belə günlərə səbəb olacağını bilsəydim, bütün bədənimlə buna qarşı mübarizə aparardım". Tulaqan Xocamyorovun istintaqı 1937-ci il sentyabrın 9-da tamamlanıb. Orada Tavallonun 1919-cu il Osipov üsyanında iştirak etdiyi göstərilib. Buna görə də onun cəzası üçqat

artırılıb. 1937-ci il oktyabrın 19-da Tavalloya güllələnmə hökmü oxunub. Hökm həmin il noyabrın 10-da hökm yerinə yetirilib.

Sovetlər Birliyi dağıldıqdan sonra Tavallo-Tulaqan Xujamyarovun həyat və yaradıcılığının öyrənilməsinə, əsərlərinin nəşrinə diqqət artıb. Momeral qrupu da bolşeviklərin hakimiyyəti silah gücünə ələ aldıqları gündən 1992-ci ilədək, yəni SSRİ dağılanadək hakimiyyət orqanlarının törətdikləri qırğınlardan, siyasi qətllərdən söz açan sənədlər çap etdirdi. Həmin sənədlər içərisində Özbəkistandan öldürülənlər haqqında bilgi azdır. Bu da orada arxivlərin hələ də tam açılmaması ilə əlaqədardır.

ULUQ BƏY



Uluq bəy* (Sultan əl əüd dövlə Uluq bəy Qurqan) (**1394-1449)**, *Cığ. اولغ بیگ/əski əlifba ilə.* گورکانسولطان آل الدوله *اولغ بیگ,* Rus. *Мирзо Улугбек,

Sultan əl əüd dövlə Uluq bəy Qurqan 1394-cü il martin 22-də Sultaniyyə şəhərində doğulub. Sultaniyyə şəhəri indiki İran İslam Respublikasındakı Zəncan şəhərinin yaxınlığında olub. Həmin dövrdə Azərbaycan da Teymurilər dövlətinin trkibində olmuşdur. Qaynaqlar Uluq bəyin adını və soyadını Muhammed Taraqay ibn Şahrux ibn Teymur Uluq bəy Qurqani kimi yazırlar. Onun adının qısaldılmış formada Məhəmməd Tarağay Uluq bəy, Məhəmməd Uluq bəy şəkilində yazıldığına da rast gəlmək olur.

Əmir Teymurun oğlu Sultan Şahrux ilk oğluna Muhammməd Torağay adı qoyur. Hökmdar nəslindən olan gənci də qısaca olaraq Turğay Mirzə deyə çağırılır. Sarayda hər cür qayğı ilə əhatə olan Turğay Mirzəni gələcəyin hökmdarı kimi tərbiyə etməyə çalışırlar. Lakin yaşıdlarından dərin zəkası, məntiqi, iti hafizəsi ilə seçildiyinə görə elmə və sənətə daha çox

meyl edir. Yeniyetməliyindən şeirlər yazır, Qurani-Kərimi əzbərdən bilən hafiz kimi tanınır.

Uluq bəyin babası Əmir Teymurla bir görüşü haqqında belə yazırlar: Əmir Teymur dincəlmək üçün bir müddət Gülüstan bağına gəlir. Əyanlara nəvələrini onun yanına gətirmələrini tapşırır. Əmirin tapşırığı yerinə yetirilir. Gecənin aydınlığında Əmir Teymur Turğay Mirzəyə deyir: – "Ürəyin nə istəyir, deynən, verim!" Uşaq əlini yuxarı qaldırb göydə sayrışan ulduzu göstərir və deyir: – "Baba, onu istəyirəm!" Əmir Teymur uşağın cavabından tutulsa da, balaca Turğay Mirzənin hafizəsinə, hazırcavablığına və məntiqli danışığına heyran qalır.

1409-cu ildə 15 yaşlı Turğay Mirzə vəliəhd olduğuna görə Teymurilər imperiyasının paytaxtı Səmərqəndə hakim təyin edilir. O, yüksək vəzifəsindən təhsilini artırmaq, məktəblər, kitabxanalar açmaq, elmi təşkilatlar yaratmaq üçün istifadə edir.

Ensiklopedik biliyi, elmə və maarifə göstərdiyi qayğı az bir zamanda Teymurilər imperyasının sərhədlərindən uzaqlara yayılır. İmperyanın ərazisi o qədər böyük idi ki, şairlər ondan söz açanda muübaliğə ilə "məmləkətin bir ucunda günəş doğanda o bir ucunda günəş batır", və ya "bir çapar məmləkətin bu başından o başına altı ay at çapır" yazırdılar.

Uluq bəyin elmə verdiyi dəyərdən xəbər tutan alimlər Səmərqəndə doğru axışırlar. Açdığı mədrəsələrdə istedadlı gənclər təhsil alırlar.

Gənc Turğay Mirzə atası Sultan Şahruxun böyük oğlu və vəliəhdi kimi Mavəraünnəhri idarə etməklə yanaşı, elmə və sənətə bu qədər zaman ayıra bilməsi də heyrət doğurur.

Uluq bəyin açdığı mədrəsədə Əli Quşçu, Kaşi kimi böyük alimlər çalışır.

Tarixə Uluqbəy rəsədxanası kimi daxil olan bu elm müəssisəsinin əsasını qoyan Turğay Mirzə arstronomiyadakı bir çox yanlışlıqları yeni riyazi hesablamalar vasitəsilə aradan qaldırır. O dövrdə dünyada heç bir alim öz müşahidə və hesablamalarının dəqiqliyində onunla müqayisə olunmamışdı. Beləcə, özü də tarixə ən böyük riyyaziyyatçı və astronom kimi daxil olur. Tərtib etdiyi ulduz kataloqu, yəni planlı cədvəllər eklintika meylinin təyin edilməsinə və illik presessiya sahəsindəki araşdırmalara güclü təkan vermişdi.

38 il vəliəhd kimi ölkəni idarə edən, elmi, sənəti, ədəbiyyatı inkişaf etdirən, abadlıq işləri aparan Uluq bəy 1447-ci ildə atası Şahrux Sultan dünyasını dəyişdikdən sonra böyük bir imperanı təkbaşına idarə etməli olur. Onun gördüyü işlərdən narazı qalan, hakimiyyət bölgüsündə aldığı payla razılaşmayan, irticaçı saray məmurları Uluq bəyin oğlu Əbdüllətif Mirzəni atasına qarşı qiyama təhrik edirlər. Uluq bəy də başı elmə, poeziyaya qarışdığından sarayda baş verənlərdən vaxtında xəbər tutub sərt tədbirlər görə bilmir.

Yaranmış vəziyyətdən çıxmaq üçün 1449-cu il oktyabrın 24-də oğlu Əbdüllətifin xeyrinə hakimiyyətdən əl çəkərək Hacı Xorasanla Məkkə ziyarətinə yola düşür. Lakin o, heç Səmərqənd vilayətindən çıxa bilmir. Şeyxlərin fitfvasıyla çağırılan divanda onu zalımlıqda, ədalətsizlikdə suçlayıb ölüm hökmü verirlər.

Məkkə ziyarətinə yola düşən Uluq bəyə çapar Səmərqəndə yaxın kəndlərin birində yetişir. Bildirir ki, xanın yeni əmri olmadan heç, yerə getməməlidi. Çapardan sonra bir neçə il əvvəl Uluq bəyin əmrilə atası edam edilmiş Sulduzlar nəslindən olan Abbas gəlir. O, bildirir ki, Uluq bəy islam ehkamlarından uzaqlaşmaqda suçlanaraq ölüm hökmünə məhkum edilib. Abbasın xidmətçiləri Uluq bəyin əl-qolunu bağlayaraq arxın kənarına gətirir və diz çökdürürlər. Abbas qılıncla vurduğu bir zərbə ilə böyük alimin, hökmdarın başını bədənindən ayırır.

Beləcə, 1449-cu il oktyabrın 22-də böyük alim və dövlət xadiminin ömrü faciəli şəkildə başa çatır. Uluq bəyin ölüm xəbəri Səmərqəndə çatanda uzun illər ona şagirdlik etmiş, sonra yaxın dostuna çevrilmiş, böyük alim Əli Quşçu nələr baş verə biləcəyini göz önünə gətirərək rəsədxanaya tələsir.

Ağzınacan sənədlər və kitablarla doldura bildiyi xurcunu atının tərkinə bağlayaraq oradan uzaqlaşır. İrticaçı din xadimlərinin fitvasından coşmuş qaraguüruh rəsadxanaya hücum edərək oranı darmadağın edir.

Heç bir il keçmir ki, hökümdar və münəccim Uluq bəyin oğlu Əbdüllətif taxtdan salınır. Sonra da ata qatili kimi edam olunur. Hakimiyyətə gələn yeni xan siyasi məqsədlə Uluq bəyin cənazəsini babası Əmir Teymurun Guri-Əmir məqbərəsinə gətirdir. Vaxtilə Uluq bəyin ölüm fitvasını verdirən və qətli hazırlayan irticaçı din xadimləri və divan üzvləri isə cənazənin qalıqlarının məqbərəyə gətirilməsində böyük canfəşanlıq göstərirlər.

Əli Quşçu isə Çinə, ordan da Herata gedir. Uzun səfərdən sonra kitablar və sənədlər İstanbula gətirilir. Uluq bəyin «Ulduz cədvəli»nin üzü köçürülərək Şamda və Qahirədə yayılır. Ulduz cədvəli kitabı beş hissədən ibarətdir. O beş hissənin ikisi astraologiyaya – ulduzlara görə insan taleyindən, gələcəkdə baş verəcək təbii hadisələrə həsr edilib.

17-ci yüzildə isə «Ulduz cədvəli» latıncaya, fransızcaya və ingiliscəyə çevrilərək Londonda, Parisdə, Florensiyada və Cenevrədə nəşr edilir. «Ulduz cədvəli» kitabı o qədər heyranedici olur ki, bir çox alim cədvəlin orijinallığına şübhə ilə yanaşır. Alimin apardığı müşahidə və hesablamaları mümkünsüz hesab edirlər. Zaman isə öz işini görür.

1908-ci ildə Rus alimi Vyatkin Uluq bəyin rəsədxananın yerini müəyyənləşdirmək üçün Səmərqəndə gəlir. Burada arxivlərdə çalışır, qocalarla söhbətlər edir. Torpaq idarəsinin arxivində 17-ci yüzilliyə dair bir sənəd tapır. Sənəddə "təlli-rəsəd" adı ilə bir sahənin satılmasından bəhs edilir. Bu ifadə ona

ipucu verir. Alim Qırxqız qəbiristanlığı yaxınlığındakı Kuhək təpəsindəki həmin sahədə arxeoloji qazıntı aparmağı qərara alır. Uğurlu və təkidli axtarış öz bəhrəsini verir. Rəsədxananın qalıqları tapılır.

Lakin qazıntını axıradək davam etdirə bilmir. Həmin yerdə qazıntı işləri bir də İkinci Dünya Savaşı ərəfəsində davam etdirilir. 1941-ci ilin iyunun 22-də Faşist Almaniyasının Sovet Sosialist Respubilkaları İttifaqına hücumu qazıntını dayandırır.

1948-ci ildə arxeloji qazıntı yenidən davam etdirilir və bu iş Uluqbəy rəsədxanasının bərpasına şərait yaradır.

Hakimiyyətin iblisanə şirinliyinə uyaraq atasının öldürülməsinə şərait yaratmış Əbdüllətif Mirzəni bu gün xatırlayan yoxdur, xatırlayanların da əksəriyyəti onu lənətlərlə yad edirlər. Uluq bəyin adı isə dünyanın hər yerində hörmətlə çəkilir, adının əbədiləşdirilməsi üçün heykəlləri qoyulur, muzeyləri yaradılır, haqqında kitablar çap olunur.

YUSİF QARABAĞİ

Yusif Qarabağı (1562/63-1644) (يوسيف قاراباغى, Rus. Юсиф Гарабагы)

Yusif Məhəmmədcan oğlu Məhəmmədşahi Qarabağı 1562-1563-cü illərdə Azərbaycanın Qarabağ bölgəsində ruhani ailəsində doğulub. İlk təhsilini atasının açdığı məktəbdə alan Yusif böyüyəndə tanınmış din xadimi olmaq istəyirdi. Lakin zaman başqa bir höküm verdi. Yeniyetməlik çağında atası onu oxumaq üçün Şirvana göndərir. Yusif orada mədrəni bitirdikdən sonra müəllimlərinin məsləhətilə Həbibulla Mirzəcan Şirazi əl-Bəqnəvinin yanına gedir. Həbibulla Mirzəcan Şirazi dövrünün məşhur filosofu və ilahiyyat alimi kimi tanınırdı. Səfəvilərin elmə, təhsilə, dövlət quruculuğuna böyük diqqət yetirdiyinə görə Şiraz inkişaf etmiş bir şəhərə, doğunun elm və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi.

Şiraz o dövrdə yalnız bölgədə yaşayan alimlər məskanı sayılmırdı. Doğunun bir çox bölgələrindən alimlər burada işləməyə, gənclər təhsil almağa gəlirdi.

Yusif Qarabağı Şirazda yalnız sevimli müəllimi Həbibulla Mirzəcan Şirazi əl-Bəqnəvidən dərs almaqla kifayətlənmir, burada riyaziyyat, astronomiya, tibb elmlərini də dərindən öyrənir.

Osmanlı-Səfəvi savaşları Şiraza da öz təsirini göstərir. Şəhərin iqtisadiyyatında bir çoküş başlayır.

Bir tərəfdən də azadfikirlilik yavaş-yavaş sıxışdırılır. Səfəvilər dövlət siyasətini şiə təriqətinin əsasında qurmuşdular. Osmanlı soltanları isə sünnü təriqətinə dayanaraq ölkəni idarə edirdilər. Buna görə də Səfəvilər sünnü təriqətinə üstünlük verən din adamlarını sıxışdırırdılar.

İqtisadi sıxıntıdan və təriqət ayrıseçkilikdən çana doyan Yusif Qarabağı Əmir Teymurun nəvələrinin hakim olduqları, Moğollar dövləti qurduqları Hindistana gedir. O, Hinidistanda da çox qalmır. Oradan Türküstana gedir.

Bir müddət Türküstanın inkişaf etmiş şəhərlərindən olan Səmərqənddə yaşayır. Az zamanda böyük alim, uyumlu bir insan, bacarıqlı həkim kimi tanınır. Səmərqənddə mədrəsədə dərs deyir. Az vaxt içərisində o, şəhərin filosof və şairləri arasında şöhrət qazanır. Hörmət əlaməti olaraq ona "Böyük axund" deyə müraciət edirlər.

Yusif Qarabağı Səmərqənddə sufilərin Kəbrəviyyə təriqətinin üzvlərilə dostlaşır. Bu təriqətdəki azadfikirlilik, insanın Allaha qovuşmasının yollarının saflıqdan, təmizlikdən, xeyirxahlıqdan keçməsi fikirləri Yusif Qarabağini özünə elə cəlb edir ki, az sonra təriqətin öncüllərindən birinə çevrilir.

Kosa ləqəbilə məşhurlaşan Yusif Qarabağinin Səmərqənddə Hüseyniyə xanəgahında yaşayarkən Mövlanə Cəlaləddin Dəvvaninin "Şərhi əqaid-i əz üdi" əsərinə haşiyə və əlavələr yazır. "Haşiyey-i

xanigahi” adlanan bu əsərini 1590-cı il noyabrın 30-da ustadı Əbu Hamid Xəlilullaha təqdim edir.

Yusif Qarabağinin “Haşiyey-i xanigahi” əsəri müasirləri tərəfindən birmənalı qarşılanmır. Onu tərifləyənlər də olur, tənqid edənlər də. Hətta Ağa Hüseyin Xalxali “Haşiyey-i xanigahi” əsərinə tənqid yazır. Yusif Qarabağı 1623-cü ildə, yəni, Buxarada yaşayanda Ağa Hüseyin Xalxalinin tənqidinə cavab yazır. Bu cavabı “Tətimmətul-həvaşu fi izalətil-ğəvaşi” (Qaranlıq məsələləri aradan qaldırmaq məqsədilə haşiyələrə əlavə) adlandırır.

Buxaranın əmiri Bahadur xan şeirlər və elmin müxtəlif sahələrinə dair kitablar yazmaqla yanaşı, alimlərə də qayğı və diqqət yetirirdi. Sarayında alimlərin, şairlərin, nəqqaşların, xəttatların, miniatürçülərin və b. sənət adamlarının çalışması üçün lazımi şəraət yaratmışdı. Buna görə də Yusif Qarabağı sevgili müəllimi Mirzəcan Şirazi ilə birlikdə Səmərqənddən Buxaraya köçür.

Əmir Bahadur xan Yusif Qarabağı ilə ustadı Mirzəcan Şirazinin gəlişini xoş qarşılayır. Onların işləmələri, yaşamaları və elmi axtarışlar aparmaları üçün lazımi şərait yaradır. Az bir zamanda Yusif Qarabağı Əmir Bahadur xanın sevimlisinə və yaxın dostuna çevrilir.

Əmir Bahadur xan Yusif Qarabağinin şərəfinə 1619-cu ildə yeni bir kitabxana tikdirir, onu da kitabxanaya rəhbər təyin edir. O, burada daha çox Fərabi, İbn Sina, Bəhmənyar, Biruni, Tusi, Qəzvini,

Davvani, Taftazani kimi filosof alimlərin əsərlərinə şərhlər yazmaqla qalmır, həm də Aristotel, Platon, Pifaqor, Sokrat kimi batı filosoflarının əsərlərinə şərhlər yazır, öz baxışlarını da bu əsərlərində ortaya qoyur. "Nur saraylarının şərhi olan hür mənzərələrinə haşiyə", "Varlıq fəlsəfəsi kitabına haşiyə" və b. əsərlərini yazır. Əsərlərində dünyanın vahidliyi ideyasını müdafiə edən filosof varlığı fəlsəfənin obyekti hesab edir. Ona görə təbiətlə insan arasındakı münasibət tək ilə cəm, hissə ilə tam arasındakı münasibətə oxşayır.

Yusif Qarabağı Allahı insanın özündə axtarmaqla kifayətlənmir, onu təbiətin içərisində əridir. Kiçik aləm olan insanı böyük aləmi təbiətin surəti hesab edir.

Savaşlar, zəlzələlər, yanğınlar böyük elm fədailərinin əsərləri sırasında Yusif Qarabağinin də əsərlərini yox etdi. Ancaq alimin əsərləri tamamilə məhv olmadı. Dünyanın bir çox kitabxanalarında, elm və mədəniyyət mərkəzlərində, muzeylərdə həmyerlimizin əsərləri saxlanılır.

Onu demək yetərlidir ki, yalnız Özbəkistan Elmlər Akademiyasının Biruni adına Şərqşünaslıq İnstitutunun Əlyazmalar fondunda Yusif Qarabağinin 24 traktatı saxlanılır.

Alimin sağlığında və ölumundən sonra onun haqqında olduqca dəyərli fikirlər söyləmişlər. Türküstanlı təzkirəçi Mir Şərif Seyid Xacə Raqemi "Tarix-i Raqemi" əsərində Yusif Qarabağidən söz

açarkən onu, “bilik səmasının on dörd gecəlik bədirlənmiş ayı” adlandırır.

Daha çox şair-filosof kimi tanınan Yusif Qarabağinin istedadını, Əmir Bahadur xanla dostluğunu qısqananlar da az olmur. Onu qısqanan, paxıllığını çəkənlər qanqaraldıcı söz-söhbətlərdən qalmır, arxasınca yalanlar söyləyir, riyakarlıq edir, hətta böhtan atmaqdan belə çəkinmirlər. O isə rəqiblərinə onların metodları ilə deyil, yaradıcılığı və insanpərvərliyi ilə cavab verir.

Əmir Bahadur xan da Yusif Qarabağinin bu xüsusiyyətlərini yüksək qiymətləndirir. Qarabağı daha çox şair filosof və müəllim kimi tanınsa da, tibbə dair əsərləri də uzun müddət həkimlərin sevimli kitabı olmuşdur.

Yusif Qarabağinin Əbu Əli İbn Sinanın “Qanun” əsərinə yazdığı şərh və izahlar yaşadığı dövrdə deyil, özündən sonrakı yüzillərdə də böyük maraqla qarşılanmışdır.

Yusif Qarabağı elmin nəzəri sahələrindən çox praktik məsələlərə diqqət yetirən alimlərdən olmuşdur. Onun hüquqa, dövlətin idarə olunmasına dair yazdığı əsərlər, əmirlərin, sultanların, vəzir-vəkilin, saray əyanlarının və divan üzvlərinin tez-tez istifadə etdiyi əsərlər olmaqla yanaşı, Qarabağinin özündən də məsləhətlər alırdılar.

Yusif Qarabağinin türkcə yazdığı şeirlər də sənətkarlıq və dilinin aydınlığı ilə seçilir. O, yazır:

Ürəyim qana doldu, bu qan da olmalıydı,

Cövrünlə bundan yaxşı daha nə olmalıydı?

Həyatını elmə və şeirə həsr etmiş Yusif Qarabağı 1647-ci ildə (bəzi qaynaqlarda isə 1644-1645-ci il göstərilir) Buxarada gözlərini həmişəlik yumur. Onu Buxara yaxınlığındakı Səfid-Muy kəndində, indi Sallaxana darvazası kimi tanınan Baba-i Şauki Parəduz darvazasının yaxınlığındakı qəbiristanlıqda dəfn edirlər.

43 il sonra, yəni 1690-cı ildə onun cənazəsini Bədəxşana apararaq, sevimli müəllimi Xəlilullah Bədəxşaninin türbəsinin yanında dəfn edirlər. Kəbrəviyyə təriqətinin üzvləri Yusif Qarabağinin əsərlərinin təbliğində və ideyalarının yayılmasında böyük rol oynamışdır.

Yusif Qarabağı və onun kimi aydınlarımız, Türk, islam birliyi üçün böyük işlər görmüşlər. Bunu yaxşı bilən müstəmləkəçilər onları unutrdurmağa çalışmışlar. Qədirbilən insanlar isə onların fəaliyyətinin unudulmasına yol verməmiş, əsərlərinin üzünü köçürərək çoxaltmış, kitablarını nəşr etmiş, ideyalarını yaymışlar.

ƏLİ ŞAMİL

ÖZBƏKİSTAN:

yol qeydləri, məqalələr

Direktor: **Səbuhi Aslan**
Dizayner: **Nigar Sadıqova**
Texniki redaktor: **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 11.03.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru